Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

ustad
US
sənətkarlar



# İSA MUĞANNA

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ALTI CİLDDƏ

**5**

"AVRASİYA PRESS"
BAKI
2009

AZE

**İsa Muğanna.**
**Seçilmiş əsərləri.**
Altı cilddə. V cild.
Bakı, “Avrasiya press”,
2009, 480 səh.

Bu cilddə
yazıçının son illərdə qələmə aldığı
“Qəbiristan”, “GurÜn”, “Cəhənnəm”
və “İsahəq, Musahəq” romanları
verilmişdir.

© Azərbaycan Respublikası
Mədəniyyət və Turizm
Nazirliyi
© İsa Muğanna
© “Avrasiya press”, 2009

**ISBN 978-9952-442-16-8** İsa Muğanna.
Seçilmiş əsərləri.

**ISBN 978-9952-442-21-2** V cild.

**ROMAN**
POVEST
HEKAYƏ
MƏQALƏ
İNTERVÜ

# ROMANLAR

## QƏBİRİSTAN

### 1

Gündüzlər günəşi, gecələr ayı, ulduzları əks etdirən, lal axınlı, enli arxın günbatanında, meşə tərəfində iki cərgə ağ daş kotteclərdən ibarət, tək küçəli Sudüşən qəsəbəsindən, bir nömrəli evdən çıxıb arxın solunda altı metr hündürlüyü ilə məşhur olan Əmirlilər mülkünə doğru qaçan Mariyanın arxasınca iki güllə atıldı. Mariyanın sol döşü üstündə başı ağ çit çəkili körpənin – çağanın başında çiti qırmızı boyayıb tökülən qan bir anda yeri – boz otluğu da al qana batırdı. Anası isə arxası üstə həmin al qanın üstünə döşənəndə Əmirlilər mülkündən də şaqqaşaq güllələr açıldı. Azacıq sükutdan sonra polis kapitanı – "Səmi" adlandırılan Səməd oğlu Əmirli açıq qapıdan həyətə atılıb, o yanda qızaran otluqda, meyitin yanında diz çökdü, sinəsindəki Kalaşnikov avtomatından bir nömrəli evlə tən üzbəüz fasadı ağaran iki nömrəli evin pəncərələrini deşik-deşik, xınc-mınc elədi. Sonra o yan-bu yana baxınıb, köməkçisi "Pyanska Şöşü" ləqəbli Şövkət Tahirlini yanında görüb xırıltı ilə soruşdu:

– Hardan atdılar? – Sualın cavabı aydın olduğuna görə düşmən qəsəbə önündə çox da ağlamayıb, meyiti körpə balası ilə birlikdə

ROMANLAR

qucağına qaldırıb, səndələyə-səndələyə evə apardı, sifətdən ən gözəl rus gözəllərindən də gözəl, bədəncə nəhəng, amma olduqca simmetrik arvadı ilə ilk körpəsini taxtın üstünə endirib, dikəlib, avtomatı çiyninə keçirib, Mariyanın əli ilə ütülənmiş göyümtül ipək dəsmalla gözlərini, yanaqlarını sildi, qəddini düzəltdi.

Ev başdan-ayağa, qadınlı-kişili, camaatla dolmuşdu. Yoğun, tökmərək Xəlvət Rəhim Qudalı ağır-ağır irəli yeridi, pencəyinin döş cibindən ovcu dolusu dollar çıxarıb körpənin bələyinin döşünə saldı.

– Yazıqlar!.. Heyf Mariyadan!.. Yaxşı dəfn elə, qara mərmərdən götürtdür üstünü. Əlimizdən nə gələr daha, ay oğul!.. Prokurorumuznan özüm danışaram, bədbəxtlərin qanını yerdə qoymasın. Mariyada gözü olan cavan çoxuydu bu üç para kənddə, bizim qəsəbədə. Tapılacaq qatil! E... – Belə, bir sicilləmə danışıb camaatın arasına çəkildi, çünki bu ara qapının arxasından qulağına səslər dəyirdi: "Erməni donuzu xəlvət olammaz daha. Açılışır yavaş-yavaş. Niyə də qorxsun? İyirmi yanvar təkcə Bakını yox, elə kəndi-kəsəyi də sındırdı, qollarımız düşdü yanımıza. Hökumətimiz özü bunların tərəfində, başda Elçibəynən bir yerdə! Kim deyər kimin "elçisidi"?! Nazirləri küncdə-bucaqda, hərcmərclikdə, hərəsi bir batalyon, bir polk qoşun yığıb dörd yanına özünü, var-yoxunu qoruyur. Elə bu erməniləri söyürlər, ermənininin qabağınca gəlib Bakının küçə, meydanlarında yatışan tankların lülələrinə gül taxırlar! Elə bil heç bu tanklar boyamadılar qızıl qana Bakını!.." Bu sözləri Xəlvət qapıdan o yana deyirdi, Sudüşənə doğru meyillənə-meyillənə, ağır, çox patronlu naqanının qoburunu açıq saxlayıb, köhnə, təcrübəli silah adamı kimi özünü saymazyana tuturdu. Özünü kürəkəni Qrand Nəcəfə çatdırmağa: "Ay mart, deyəsən, axı, bu qanı tez tökdük bir az?" – demək istəyirdi. Nəcəf isə qayınatasının xəyalında qara qaya kimi dayanıb gülürdü: "Müsəlmanın sonrakı ağlı. Deyirlər bunların o tərifli Nəriman Nərimanovu da bizimkiləri qardaş sayırmış. "Bahadır və Sona" romanını oxumuş olsaydın, o Nəriman elə doğrudan da erməniynən müsəlmanın qardaşlığını istəyirmiş! Lap ayılacaqlar bu yaxınlarda güllləmizin qabağında. Cəmisi neçə il keçib biz müsəlmanı dağlardan asta-asta bəri itələdiyimizdən, a qayınata? O qırx səkkizinci il, bu da doxsanıncı il, cəmisi eləyir qırx il, hələ də baş açmırlar görəsən bu nə hengamədi, birdən-birə mitinq-zad başlandı. Bakının Lenin meydanında! İnan, a qayınata,

bax, bu camaatdan biri də qanmır ki, bütün Azərbaycan fasfarağat durduğu yerdəcə o saqqallı gədə, Nemətdi nədi, niyə tribunaya qalxdı ki, biz rus zülmündən azad olmalıyıq!" Onun dalıyca Elçibəy bar-bar bağırdı. Şairləri Bəxtiyar Vahabzadə, Sabir Rüstəmxanlı, Xəlil Rza, – birdimi, beşdimi?!

Qrand Nəcəf hər gün danışdığı bu "meydan əhvalatını" indi də qayınatasının xəyalında danışır, susmaq bilmirdi. "Camaat qoyun sürüsü təki tökülürdü o meydana, a qayınata! Heç fikirləşən də yoxdu ki, rus ordusu budu ha, Bakının Salyanski kazarmasında!.. Mən açıq danışırdım ey, ay qayınata, gülürdüm, açıqca deyirdim: "Mı perestrelyayem vas vsex. Azərbaycan isçeznet, vmesta Azərbaycana mı, sozdadim Velikuyu Armeniyu – ot morya do morya" inanan yoxdu, a kişi!.." Bu cür xəyali danışıq arasında birdən Xəlvət, Səminin çəkmələrinin tanış, iti addım səslərini eşitdi. Səmi pulu bələyin döşündən çıxartmışdı, Xəlvətin geri çevrildiyini görən kimi qaramtul, göyümtül, zəhmli dollar dəstəsini onun üzünə şappıldatdı. Əli tətikdə idi. Amma indi xeyli ayılmışdı; dəlilsiz-sübutsuz öldürmək istəmədi.

– Rədd ol burdan, gözüm görməsin səni! – dedi.

Səminin anası, Səməd Əmirlinin arvadı, el arasında Torksin Diniş çağrılan da min doqquz yüz səksən səkkizinci ilin dekabrında, üç yaşlı körpəsi "Midi" çağrılan Mədədin əli əlində Sudüşəndən, bacılığı, rəfiqəsi Mariyagildən çıxıb Əmirlilər mülkünə gedəndə eynilə bu cür, yəni Mariya kimi iki güllə ilə arxadan vurulmuşdu. Bəs uşağı – Midini nə əcəb sağ qoymuşdular? Deyirdilər: "Sirri var bunun, yəqin bir gün açılar. "Qocamanımız" (yəni rayonun əslən laçınlı prokuroru) bilir hər şeyi, amma əli daş altdadı, dillənəmmir hələ" – deyirdilər. İndi o beş yaşlı körpə, yenidən yetim qalmış kimi, taxtın ayaq tərəfində büzüşüb sızıldayırdı. Bu sızıltıdan başqa içəridə tək-tək pıçıltılar eşidilirdi:

– Qırx səkkizdəki, əllidəkitək olacaq, ay camaat, deyəsən, axı, çox əl-ayaq açıb erməni!

Son vaxtlar "erməni" söhbəti düşəndə, camaatın yığın yerlərində söz-söhbət uzanıb siyasi-ictimai, milli məsələlərə çıxırdı.

– Vaxt vardı, kartofa möhtacdı erməni. İl on iki ay qoltuğumuza qısılırdılar: "Kirvəcan! Kirvəcan!.." Bəziləri millətini də danırdı: "Biz da ela sızdanıx dana, a kirvə, dilimiz ayrılıb, əmbə özümüz,

sir-sifətimiz ela sızdanıx da!" İndi ayrı cür danışır erməni. Gedin Qrand Nəcəfə qulaq asın, səhərdən axşamacan gülür bizə! "Millət deyilsiniz, ay müsəlmanlar" – deyir.

– Bizim Qonaqlının adı niyə Qonaqlıdı? Biz özümüz beşbir-onbir, özümüz gətirməmişikmi bunları?.. "Müsəlmanıq" deyirdik özümüzə. Elə onda da gülürdü erməni. "Əşi, müsəlmanlıq dindi, etiqaddı, ay küt qonaqlılar. Millətiniz nədi? Millətiniz! Direktor Ələsgər müəllim deyirdi: "Bizi İraqdan– ƏrAğdan qova-qova, sürə-sürə buralara səpələyiblər. Əslimin adı gurultuludu: Od ərləri! Yəni OdƏrik. Dilimizə də OdƏr dili demişik. Sonra – Müsəlman milləti! Tfu! İnsan belə azır bax!.."

Qonaqlılar duruxurdular. "Bəs, Stalin yoldaş bizə niyə deyib ki, vı ne turki, vı azerbaydjansı?" Ələsgər müəllim nazik boynunu aşağı sallayıb: "Məni xataya salacaqsınız axırda. "Türk" nədi, "Osmanlı" nədi, ay yazıqlar?! Qreknən, Ərəblərnən, Asorularnan vuruşa-vuruşa, bölük-bölük olublar, Afrikaya, Orta Asiyaya nə bilim, Avropaya!.. OdƏrdilər, OdƏr! Bilin bunu...

* * *

Bakının bu yaxınlara qədər Lenin meydanı, indi isə "Azadlıq meydanı" adlanan genişliyində bəstəboy, ağbəniz bir oğlan – əsl adını ən yaxın qohumlarından başqa heç kəs bilməyən, "Pünhan" ləqəbli jurnalist gah köhnə hökumət evinin divarları səmtində, dünən rus tanklarının saldığı tırtıl izlərinə, gah da orda-burda asfaltın çuxurlarında qaralıb daşlaşmış qan ləkələrinə baxa-baxa gəzinir, ötüb keçmiş "Azadlıq hərəkatı" deyilən qələbəlikdən qalan kağız-kuğaz, qəzet cırıqlarını təpikləyə-təpikləyə elə bil nə isə axtarırdı. İri, biçimli, yaşıla çalan gözlərində hərdən nəm parıldayırdı, nəmdən saçaqlanan işıq içində bir çiyni silahlı adamın qaraltısını görüb, xırp dayandı: Gördüyü adam Səmi idi. Bunlar hər ikisi Arazın bu tayında Əmirli familiyası, o tayda isə farsın dilində "Zərdüşt" şəklində mənasız sözə çevrilmiş Ulu Bağ SarOdƏsin Pəhləvi atəşgahlarında Qrek legionlarından, farslardan, Ərəblərdən gizlənmədiyi zamandan, yəni OdƏr, həm də EvəRey – "Yevrey" şəklində müxtəlif cür çağırılan xalqa qarşı iki yüz illik müharibənin axırından – 802-ci ildən qalmış Muğlar, Mağlar da deyilən nəhəng xalqın

səcdəgahı ƏsƏlmən (Solomon – Süleyman) padşah təbəələrinin, SafAğ Elmi – kainat Elmi daşıyıcılarının nümayəndələrindəndilər: – "Səmi" çağırılan Səməd oğlu Əmirli və Pünhan Əmirli.

Pünhan ovucunda ovuşdurduğu bloknotla qələmi paltosunun yan cibinə soxub, nə qədər yorğun-üzgün olsa da, Səmini ehtirasla, məhəbbətlə qucaqladı.

– Sən... Sən burda neynirsən?!

Səmi dedi:

– General AdıPünhan çağırıb. Qarboçovun hiyləsini bilirəm.

Pünhanın gözlərində kütlük donmuşdu.

– Bu paltar nədi əynində? Kalaşnikov nədi?! Sən hara, polis hara?!

Səminin qalın, cod dodaqları titrədi. Mariyanın və körpənin vurulduğundan sonra paraliçdən ("şok" da deyirdilər) bir neçə gün taxtda, gah da həyətdə sürünə-sürünə qalmışdı, ayağa qalxıb, beli əyili yeriyəndə dodaqları tez-tez titrəyirdi.

– Belə oldu, – dedi.

– Niyə axı? Universitet, aspirantura və birdən-birə polis kapitanı. Muğannalardan alim olmayan varmı?! Sən yəni tərk elədin elmi?

Səmi astadan, bir zaman atasının dediyi sözü təkrar etdi:

– Tüpürdüm! Aspiranturaya da tüpürmüşəm.

Pünhan bir xeyli sarsıntılı susdu.

– Sənin bu tayda otuz iki Muğanlı, Muğan kəndin var, hamısı gözünü bizə dikib. O tayda, ƏrAğda Muğannanın kitabını yayıblar. Türkiyədə Muğlar vilayəti hələ heç nə bilmir Muğannalar barədə. Sənin gör nə qədər işin var, Səmi. Alimsən sən! AdıPünhan generalımız dastanlarımızın şərhini sənə tapşırıb, "Koroğlu"nun, "Dədə Qorqud"un şərhini verməlisən camaata.

Səminin dodaqları titrədi:

– Yox! – dedi.

Və bu qısa "yox" cavabı elə kəskin səsləndi ki, Pünhan istər-istəməz əlacsızlıqla köksünü ötürdü:

– Heyif... AdıPünhan məni bura göndərəndə deməmişdi ki, Səmini görəcəksən orda. Bilsəydim belə olacaq, heç gəlməzdim... Heyf səndən, Səmi.

Səmi canında üzüntü hiss etdi. Xudahafisləşmədən, ağır-ağır dönüb uzaqlaşdı.

Axşamısı kənddə – Qonaqlıda idi.

* * *

Əmirlilər mülkündən xeyli aralıdan, ot tayalarının diblərindən qəribə fısıltı, xırıltı eşidilirdi. Səmi maşını həyətdə qoyub tayalar tərəfə yüyürdü. Sudüşənin "Gombullar" deyilən, gödək-gödək batalyonçuları ilə Yetimlər məhləsinin cavanları, hamısı nəşə çəkməkdən yarıyumulu gözlərlə süpürləşir, yumruqlaşırdılar. Səmi aralığa girməyə, savaşanları aralamağa çalışanda, bu tərəflərdə artıq adi şeyə çevrilmiş güllə səsləndi. Heç beş dəqiqə çəkmədi ki, Yetimlərdən azı on-on ikisinin qanı bir-birinə qarışıb, Orta yolun çökəklərinə doldu. Səminin əli Kalaşnikovun çaxmağına uzanırdı, amma beli tamam bükülmüşdü. Üzüüstə düşdüyünü, sürünə-sürünə həyətə nə vaxt çatdığını bilmədi. Midi elektrik dirəyinin dibində quruyub qalmışdı. Körpənin gözündən yaş axıtmaqdan başqa bir iş görməyə gücü çatmadı. Sonra Səmi:

– Yorğan... yastıq gətir, – deyib ağrıdan batmış səslə sızıltılı sözlər dedi. Bir az sonra Midi nəinki yastıq, yorğan-döşək də gətirmişdi, ambulatoriyaya yüyürüb Səminin gürcü dostu doktoru da çağırmışdı. Yorğan-döşəyi içəri apardılar. Səmi özü yenə sürünə-sürünə gedib taxta qalxdı.

Bu vaxt, qədim BağOdeydə yalnız Muğannalara və Əlyazmaları fondunda işləyən falsifikatorlara məlum olan "Midiya" – "Maday" – Bağday (BağOdEy) ölkəsində hər şeyi görən, eşidən AdıPünhana məlum idi ki, illər ötdükdən sonra Midinin altı yaşının tamamında Xızr Aba ilə Çürük Aşıq səhərə qədər oxuyandan sonra əvvəlcə Çürük, sonra Xızr dünyalarını dəyişmişdilər. Divarın "Muzey" adlanan divarında xalçanın üstündə indi üç saz asılı qalmışdı: Çürüyün, Xızrın, bir də Səminin atası Mədəd Əmirlinin. Mülk sükuta batmışdı. Bu sükutun səbəbi mərhumlardan əlavə, həmin vaxtlar dünyanı çaxnaşdıran hadisələrlə bağlı idisə, bir də nəslin son nümayəndəsi Midinin Qonaqlı ilə Sudüşən arasında açdığı dar bir cığırla bağlı idi. Cığır, üzü Sudüşən çəməninə baxan o hündür, uzun Əmirli mülkünün kandarından, həyətin tapdanmış quruluğundan, arx körpüsündən, su quyusunun yanından keçib çəmənliyə çıxırdı, bozara-bozara uzanıb Sudüşən qəsəbəsinin başlanğıcında betona dirənənə qədər gedirdi. Midini "Sivilizasiya" zamanının, başqa sözlə, Avropa ilə əlaqənin başlandığı vaxtlar "Paket" adlı hazır "bələk"də, o kottec evlə, yəni

o vaxtlar raykom katibi, indiki icra başçısı Məsim Qonaqlının heç cür boşaya bilmədiyi Gülbəniz – Gül xalasının evi ilə Əmirli mülkünün arasında qucaqda aparıb, qucaqda da gətirərdilər. Sonra əlindən tutub apardılar, əlindən tutub gətirdilər. Sonra cığırda özününkündən başqa ayaq izi azaldı.

Bunun səbəbləri vardı.

Birinci səbəb budur ki, Gül xalanın dediyi kimi, "Midi daha yekə kişidi, bir-iki ildən sonra qız-gəlinin dallarıycan baxacaq. Canımda can qalsa, bəlkə elə xalasının dalına da baxacaq". "Gül xala "blatnoy" – latayır danışan arvaddı. Sudüşən cavanlarının dilində "blatnaya staruxa", "ne stareyuşşaya baba". Amma məsələ, əlbəttə, "blatnoy"luqda deyildi; altı yaşında uşaq, boyu nə qədər "xırca" – gödək qalsa da, əlbəttə, daha əlindən tutulannardan deyildi; cığırla tək gedib, tək də gəlirdi. Beş yaşından məktəbdə bir ay oxuyub, sinifdəki uşaqların hamısı ilə "karate" oynayıb, döyüb-dalaşıb, bir kəlmə "Pissiniz!" – deyib gəlib, daha getmirdi. Elə o vaxtdan – təkləndiyi gündən əlləri şalvarının ciblərində, Gül xalanın dediyi kimi "Allah babanın yanında olan" dədəsi ilə nənəsini görmək üçün əksər vaxtlarda göyə baxa-baxa, ağır-ağır yeriyəndə büdrəyib yıxılırdı. Amma ayağa qalxanda yenə də göyə baxa-baxa gəzirdi axşama yaxın, toranlıq vaxtlarda isə həyətdəki boz elektrik dirəyinin dibində oturub Səminin yolunu gözləyirdi. Hətta Cırımağız Möcüz: "Gedək, qarmon çalaq" – deyəndə də cığıra – Sudüşənə meyillənmirdi: "Gül xalam sənə erməni deyir. Erməni pisdi", – deyirdi. Beləliklə, həmişə tək, tək, tək...

İkinci səbəb bu idi ki, min doqquz yüz səksən səkkizinci ilin yanvarından "KPSS-in generalnı sekretarı" Qorbaçovun dildən düşməyən "Perestroyka"sı Bakıda heyrətli bir çaxnaşma, Səminin sözü ilə desək, "komediya" yaratmışdı. Və, necə deyərlər, Allahın özü də bilmirdi ki, "masterski yazılmış" bu komediya "Meydan hərəkatı" adlanan bu "qarışqa yuvası"nın komandiri Vatikan Allahı Paveldi, onun müavini isə nə qədər ciddi adam olsa da, Qorbaçovdu. (Səmi onu "Qorb" adlandırırdı, Paveli isə "Qvazimodo" adlandırırdı). Və hələ heç kəsin xəbəri yoxdu ki, bu "Qorb"la "Qvazimodo"nun "Meydan hərəkatı" bu altı yaşlı uşağın ətrafında tufan kimi qaynaya-qaynaya Səmini günlərlə Bakıya aparırdı.

Kolxozdan "gəlir"-"dolanma" olmadığına görə əhalisinin əksəriyyəti Bakıya, Gəncəyə, Sumqayıta, Abşerona köçmüş

Ortayolun sağ-solundakı baxımsız evlərin çoxu uçub-dağılmış, Qonaqlıdan və bu kəndin əksinə, kəndin ətraflarından iyirmi-otuz hektarlarla torpaq alıb, qəribə anlaşılmazlıqla bir-ikicə ildə varlanmış gur, şən qəsəbədən valideyinlər, çəmənlikdə ağ daş divarları ağaran uşaq bağçasından uşaqlarını götürməyə gedəndə Midi ciddi görkəmlə addımlaya-addımlaya hökmən oraya gedib, biri-birindən körpə "bacı"larını bircə-bircə qucağına alıb analarına verir, sonra Sudüşən qəsəbəsində Cırımağız Möcüz deyilən qarmonçunun "Möcüzə" ansamblının məşq elədiyi geniş, işıqlı foyedə gah Cırımağızın özünün qarmonunu "zırıldadır", gah sazçalan Əlinin sazını "dınqıldadırdı". Amma vaxtilə məktəbdə olduğu kimi, "Möcüzə" ansambılının uşaqlarından kim isə "əl vurma", "dəymə", "çalma" deyəndə onlara da "pissiniz!" – deyib çıxıb, yenə də əlləri şalvarın ciblərində, xaşal qarnını irəli verib, möhkəm sinəsini qabardıb, əkə-pikə kişi ağırlığı ilə həyətə gəlir, balkonun altında, divarların yuxarılarında bozaran köhnə qaranquş yuvalarında nə vaxtsa, lap körpəlikdə gördüyü, sonra daha görmədiyi qaranquşların yuvalarına tamaşa eləyirdi. Sonra həyətin qurtaracağındakı boz elektrik dirəyinin dibində dayanıb, Ortayoldan keçənlərə baxa-baxa Səmi əminin evə qayıtmasını gözləyirdi. Səmi vaxtında qayıdanda gödək qaraltı dirəyin dibində sağ əlini hazır saxlayırdı ki, əmisi əlini onun əlinə şappıldatsın. "Kefin necədi, Midi kişi?" – deyəndə, "Kefin yaxşı olsun, a Səmi-səmi" desin. Qorbun mitinqlər təşkilinin ardınca tankla, raketlə qırğın hiyləsi, yəni guya Azərbaycanın SSRİ-dən ayrılmaq cəhdindən sonra Səmi öz dəstəsi ilə Qarabağ döyüşlərində iştirakına görə aldığı medalını çıxarıb, guya gülləkeçməz olan paltarını geyinib, bel ağrısını kütləşdirən enli, qalın kəmərini sıx çəkib, "naryada gedib" bəzən qaranlıqda qayıdanda da Midini elektrik dirəyinin dibində görürdü: Şapp! "Kefin necədi, Midi kişi?" Şapp! "Kefin yaxşı olsun, a Səmi-səmi!" Bundan sonra Əmirli mülkünün böyründə "artırma" deyilən uzun, dəhlizvari otaqda yuyunub, əl-üzlərini silib, "zala keçib" stolun arxasında səliqə-sahmanla üz-üzə oturub gözləyirdilər ki, Gül xala qəsəbədəki bir nömrəli evdən, bir əlində "Amerika sumkasında", yəni bazarlar üçün buraxılan selofan torbada xörək qazanı, çörək, göyərti, salat, o biri əlində çay termosu, gəlib, "Axşamınız xeyir, mənim əzizlərim "deyəndə, Səmi ilə birlikdə o da

Axşamın xeyir, Gül xala" desin. Yeyib-içib, Gül xalanın dediyi kimi, "televizorun qabağında mürgüləşəndə" "Bu nəyciyəz, nağılcığaz, hər kəs evinə dağılcığaz" deyib ayağa qalxırdılar. Səmi hökmən zalın yuxarı başındakı balaca stoldan o yandakı iki tünd palıdı tərəcədə parıldaşan zər cildli kitablardan – "Sovet ensiklopediyasından" birini götürüb, elə orda – stolun böyründə üstü xalçalı nazik taxtda uzanıb, lampasını yandıranda Gül xala əks tərəfdə, "kamin"in – buxarının sağ-solundakı taxtları "döşəyir", yəni yorğan-döşək salır, öz taxtının baş tərəfindəki portretin – "viski" içən topasaqqal portretin – yazıçı Heminqueyin tumbanın üstündəki kitablarından birini açıb, "dirsəklənirdi". Bu o deməkdi ki, Midi də öz tumbasının üstündəki bir-birindən qalın, "çox bahalı", şəkilli nağıl kitablarından birini götürüb, açıb "dirsəklənməli" idi. Vay o gündən ki, Səm-səmi şair polis-pyanska Şöşü – Şövkət Tahir əmi ilə Şüşəli pavilyonda araq içib evə "çox pis içkili" gəlsin. Gül xala hökmən hirslənib: "Ayıb olsun! – deyəndə Midi də hökmən "Ayıb olsun, a Səm-səmi" – deyib, kitabını qoltuğuna vururdu.

Kottecdə – "Bir nömrəli evdə", lap xırdaca bir otaqda, darıxdırıcı qırmızı abajurlu lampa işığında gecə yarıdan keçənə qədər yatmayıb, Əmirli mülkünün gur işıqlı nəhəng pəncərələrinə və yenə də göyə baxa-baxa qalırdı. Bu "göyə baxmağ"ın sirrin AdıPünhan general Məhərrəmov – "Məhər əmi" də bilirdi. Hərdən axşamlar Bakıdan Əmirli mülkünə gələndə Səmi ilə "pıçapıç" söhbətdən sonra Midi kişi ilə də hökmən söhbət edirdi: "Bax, bu əyri-üyrü yerlərin arası indi guya bizim Azərbaycandı, bu əyri-üyrü cızın arası da guya Ermənistandı. Bax, indi bu cızların arasında Ermənistanı yekələndirmək istəyirlər. Biz də çalışırıq vuruşaq onlarla, olmur. Çünki dövlətimizin rəhbər işlərinə xaricdən pis adamlar toplaşıblar. Dədən də, anan da, bax, o ulduzlardan görürlər hər şeyi. Bir də görəcəksən gəliblər! Mən də, Səmi də onların gəlməyini gözləyirik... Uçan gəmiləri var dədəngilin" və sair. Cəbhədə ermənilər rusların köməyilə irəliləyəndə isə Məhərrəm əmi hey susub Midini darıxdırırdı. Belə vaxtlarda Gül xala "Yatmaq, yatmaq, yatmaq" – desə də, yalnız Midi hərdən mülkdə sonra da kottecdə – pəncərənin qabağında mürgüləyəndən sonra Gül xala yaxınlaşıb "gəl qucaqlaşaq" deyirdi və Midi tabe olub qucaqlaşırdı. Səhər isə "gündoğanda" qalxıb, paltarını geyinib gedib, "artırma"da "Sabahın xeyir, a Səm-səmi!" – deyib,

eynilə Səmi kimi tələsmədən “xarta-xart” yuyunub, qurulanıb, zala keçirdi ki, yeyib-içəndən sonra “Uğur olsun, a Səm-səmi!” – desin.

Midi kişinin qaş-qabağı yalnız o vaxt açılırdı ki, axşamlar Səmi ilə Şövkət Tahir – Şöşü əmi ilə birlikdə polis əmilər də Əmirli mülkünə gəlib, Şöşü əminin manqala düzdüyü kabab şişlərini “dişlərinə çəkə-çəkə” “Nemes pivəsi” içməyə başlayanda “Pinqvin təki yeriyən” “Möcüz qaqaş” – “Cırımağız Möcüz”də hökmən orda olurdu. Belə hallarda Midi, Məhərrəm Əminin tez-tez titrəyən qıçını sığallaya-sığallaya ondan bir an ayrılmırdı. Bəzən isə mülkün “muzey” adlanan tərəfində ağ saqqalı Məhəmməd Əmirin, elə o cür ağsaqqal Ağ Əmir, Boz Əmir babaların, Sultan baba ilə sədr Mədəd babanın, Səməd əmi ilə Mədəd dədənin, Sura nənənin, Torksin ananın şəkillərinin yanında asılmış üç sazdan birini – mərhum Çürük aşığın qara cürəsini “sinəsinə basıb”, “hər mahnıya bir şirvan” ala-ala oxuyurdu. Xalça salınanda, mütəkkə qoyulanda və Məhər əmi o mütəkkənin üstündə ağzını dikinə tutub “trubka” tüstülədəndə “Cırımağız” da peyda olurdu. Lap “pinqvin təki” elə gombul idi ki, cürə sazı qarnının üstündə tuturdu. Bu iyirmi yaşlı “pinqvin” Xəlvət Rəhimin “ət torbaları” nəticələrindən idi.

Buna görə də əmilər onu sevmirdilər. Şöşü əmi isə heç xoşlamırdı. “Ət torbası törəməsi gəldi!” – deyirdi. Məhər əmi orda olanda isə Cırımağızın “saz meydanı” başlanırdı. Gözəl işlərdən biri də bu idi ki, Məhər əmi Bakıdan gələn vaxtlar birdən Cırımağız qəfildən peyda olub “sazın-sözün sehri gəldi!” – deyib oxumağa başlayardı.

Bu dünya bərbad kimidir,
Yar-yoldaşım yad kimidir,
Can-ciyərim od kimidir,
Alovlanıram, yanıram.

Tənhalıqdan bezaram,
Odur ki, şeir yazıram.
Qələmim külüngümdür,
İnsana gor qazıram.

Birdəncə məlum olmuşdu ki, şeirlərin hamısı Şöşü əminindi; piyan olanda Cırımağız onun bloknotlarını oğurlayır və Məhər əmi Bakıdan gələndə onun keyfini açır. Bu vaxt Məhər əmi trubkası

ağzında “hm, hm” güləndə Midinin də keyfi açılırdı. Amma hərdən, birdən-birə tutulurdu.

Bu, onun “dərdi” idi.

Polis əmilərin dediklərinə görə, “Aşıq Kamandarın özüydü bu Cırımağız”. Kamandar öz maşınında gəlib Əmirli mülkündə gumbur-gumbur çalıb-oxuyanda Səmi pivə qutusu əlində mərhum Əmirlilərin şəkillərinin qabağında necə səssizcə ağlayırdısa, Cırımağız Möcüzün çalıb-oxumağından da eləcə ağlayırdı və Midi də hökmən eləcə, səssizcə ağlayırdı. Səhərə yaxın Səmi Cırımağızın cibinə pul qoyub öpəndə, Midi də hökmən əlini qaldırıb Möcüzün boynunu əyib üzündən öpürdü: “Sağ ol, a Cırımağız. Mən səni çox istəyirəm, a Cırımağız” – deyəndə də Səmi əmini ağlamaq tuturdu, Gül xalaya: “Bunun təkliyi öldürəcək məni” – deyib, Cırımağızın cibinə əlavə pul qoyurdu ki, məktəbdən, məşqdən başı açılanda gəlib Midiyə də qarmon, saz çalmaq öyrətsin. Möcüzün yırğalana-yırğalana, tərləyə-tərləyə gəlib “mərhum Çürük aşığın qara cürəsini” Midinin boynundan, “mərhum Xızr Abının sazını” isə öz boynundan asmağı da dirək dibində əl şappıldatmaq qədər gözəl işlərdəndi. Bundan başqa bir-iki gözəl işlər oldu: bir yaz axşamı o boz yuvalar qaranquşlarla doldu və Midi onların civiltilərinə qulaq asa-asa tamaşa elədi. Amma hardasa, lap yaxında çoxlu güllə atılanda qaranquşlar qorxub uçub getdilər.

Sonralar bir dəfə də olsun və Midi daha qaranquşları görmədi. Səmi əmi deyirdi: “İnşallah, gələcəklər qaranquşlarımız”. Amma boz yuvalar elə boş qalmışdı. Midi hər axşam yuvalara baxıb ağlayırdı. Gözü “mərhum Mədəd Əmirli”nin, yəni atasının nəhəng sazında idi; həsrətlə, səbrsizliklə gözləyirdi ki, qolları uzansın, “mərhum Mədəd Əmirli”nin sazını qucağına sığışdıra bilsin, ya da dədə özü, nəhayət, o uzaq ulduzdan, “Allah babanın yanından” qayıdıb özü çalsın.

Bu, əlbəttə, gözəl iş olardı.

Bunlar illərlə təkrar olunub qanun şəklinə düşmüş şeylərdi. Xüsusən general Məhərrəmov – “Məhər əmi” gəlib “pıçapıç” danışıb gedəndən sonra, səhərisi gün Səmi Kalaşnikov avtomatı çiynində, tapançası qoynunda, Sudüşənə gedib orada kimlərə isə nə isə qışqıra-qışqıra “xəbərdarlıq edirəm!” – deyəndə, deyildiyi kimi, vəziyyət dəyişirdi, “Velikaya Armeniya fəlakəti” başlanırdı.

Səminin tez-tez təkrar etdiyi başqa cür sözlər – “kin-fəlakət” nə deməkdi? Midi, əlbəttə, bilmirdi.

Midi bir də Sudüşənin arvadlarının, gəlinlərinin, qızlarının onu nə üçün xoşlamadıqlarını heç cür başa düşmürdü. Orta yolla Qonaqlının gündoğanındakı çətənəlik, “güllük” adlandırdıqları əkinlərə gedəndə və əkinlərdən qayıdanda elektrik dirəyinin dibinə pis baxırdılar və elə vaxt olmurdu ki, sözsüz-söhbətsiz keçsinlər.

– Duruşuna bax!

– Gözü elə göydədi, Səm-səmisi təki yerdəkiləri bəyənmir çatdamış, göydəkilərini gözləyir!

– Ədə, ey! Əlini cibindən çıxart!.. “Pissiniz!”, “Pissiniz!” Sözünə bax dili yanmışın! Əmirlilərdən savayı insan yoxmuş bu eldə-obada! Gözlə, qayıdacaqlar gorbagorların!

– Dədən səni qandırar ki, biz lap çoxdan erməni-zad deyilik, qaynayıb-qarışmışıq. Bə nə? Adımız sizdən, gəlinlərimiz, nəvələrimiz də çoxu sizdən. Səm-səmiyə də qandırmaq lazımdı. Olsun elə “velikaya armeniya” vətəndaşı. Hə, bə nə? Belə yaxşıdı. Yoxsa, bu nədi, biriniz “türk” deyirsiniz özünüzə, biriniz “azərbaycanlı”, yəni yəhudi! Qan! Eşit, qan, bala! Siz ki, elə hamınız uşaqlıqdan alimsiniz!

– Əmirlilərin arvadları elə çağa alim doğurlar. Sənə salam göndərirlər OdAğÜz planetindən! Əminə de, çağırırlar deynən. Yetimçəsini də aparsın, getsin! Əmbə gedəndə polis paltarını çıxartsın, yerdə qoysun. Polisə yer yoxdu göydə! Ha-ha-ha-aa!..

Şaqqıltılı gülüşlərdən ləzzət ala-ala uzaqlaşıb qəsəbənin tək küçəsinin sağ-solundakı evlərə dağılışanda da nə isə deyirdilər. Heç kəs görmürdü ki, Əmiri nəslinə açıq kin atmacalarından üzündə cüzi tərpəniş də əmələ gəlməyən bu kişinin kirpiklərində iri-iri damlalar titrəyirdi.

Əmirlilərə belə kütləvi kini niyə bu qədər açıqdı, niyə bu qədər dərindi? Bu barədə, “qəlyanlı qocalardan axırıncısı” adlanan, amma heç qocaya oxşamayan nəhəng kişi – Təftiş Abbas baba ilə birlikdə Əmirli mülkünə gəlib-gedən adamlardan hamısı soruşurdu: “Nə olacaq, ay Səmi?”, “Bunun axırı hara çıxacaq, ay Səmi?”, “AdıPünhan nə deyir?” Bu suallardan tək biri Midiyə aydındı: “AdıPünhan general Məhərrəmovun – “Məhər əminin” adı idi. O birisi suallardan nə isə bir şey hiss edirdimi? Kipriklərində titrəyən iri damlalar nə deyirdi? Kimin nəyinə gərəkdi?! Kolxozun torpaqlarının bir hissəsi

Qonaqlı camaatına, bir hissəsi isə özlərini kənddən ayrı sayan Sudüşən və ya Qudalı qəsəbəsinin firmasına veriləndən sonra, kiminsə əmri ilə bu "paylanma" işi dayandırıldığına görə, hökumətdən narazı danışanların sayı çoxalmışdı. İcra başçısı Məsim Qonaqlının dalınca qarğış, söyüş yağırdı. "SSRİ-ni niyə dağıtdınız, ay var-yoxunuz dağılsın?! Az da olsa, vaxtlı-vaxtında qəpik-quruşumuzu alırdıq...", "Pulu niyə ceyranın belinə çıxardıbsınız, ay beliniz qırılsın?!", "Bəy ha, bəy! Havaxtdan bəysiniz, a qudurmuşlar!" Bakıda və bütün rayonlarda "bəylik eləyən", "əlləri Kalaşnikov avtomatdı" cavanların əslində-nəslində bəylik yoxdu".

"Heç cür idarə edə bilmədiyi qədim BağOd adı çoxdan unudulmuş, son əsrlərdə "Bakı", "Baki", "Baku" adlanan "kor" OdƏr şəhərində AdıPünhan hər şeyi eşidirdi və qəti bilirdi ki, o söz-söhbətin sonu yoxdu, hamısı "hərc-mərclik" adlandırılan bu zəmanədə həyatın adi axını kimi görünürdü. Əslində isə, yurdda bir Səmisi ilə bir Midisi qalmış, qırılıb məhv olmuş nəslə kin bu zəmanədə tamam unudulmalı ikən, əksinə, qeyri-adi dərəcədə çılpaqlanmışdı.

Səbəblər əslində çılpaqdan da çılpaqdı.

Əmirlilərdən kənarda saysız-hesabsız, müxtəlif "familiya"larla yaşayan, Arazın o tayında, Türkiyədə, Gürcüstanda olan Muğannalar haqqında hardansa Sudüşənə göndərilən "informasiya"lardan yaranan hədsiz-hüdudsuz kini gizlin saxlamaq mümkün deyildi; AdıPünhanın özünün gələ bilmədiyi vaxtlarda Məsim Qonaqlıya və Məsimin ən etibarlı adamları, o cümlədən Səmiyə çatdırdığı məktublarından məlumdu ki, "Moskva Ali Sovetində toplaşmış kommunistlər"lə Bakıda – "podpolye"də qalan ikinci gizlinlər dəstəsi o tayda Təbriz, Ərdəbil, Zəncan vilayətlərinə bacarıqlı kəşfiyyatçılar ötürüb, orada evlərin aralarında çalın-çarpaz elektrik xətlərinin vasitəsilə "zəlzələ" adı altında səssiz partlayışlar "seti" çəkirdilər ki, SafAğ Elmi yazan ziyalıları – Muğannaları qırsınlar. Əks halda Muğannalar "o tayda" olan dini darmadağın edərdilər. Səbəbləri çox idi və bunlar daha çılpaqdı.

Ermənilərin əvvəlcə Qarabağı fəth etmək, Azərbaycanın ərazisi hesabına "velikaya armeniya yaratmaq" məqsədilə Laçına, Kəlbəcərə, Şuşaya dolduqları, o yandakı Topxana meşəsində Bakıdan icazəsiz tikintilər tikdikləri barədə xəbər yayılanda, Səmi

döşündə avtomat, gecənin yarısında qəsəbəyə hücum çəkib, “Azərbaycan əsgəri” adından hökmlə qışqırmışdı ki, “Sudüşəndəki ermənipərəst satqınlar Azərbaycanı tərk etməsinlər, o Səmi Əmirli qıracaq hamısını!” Çünki Laçından, Kəlbəcərdən, Şuşadan camaatı “deportasiya edən”lər –köçürdənlər, qovanlar elə bunlardır; axşamlar dolurlar “İkar” avtobusuna, Bakıdan gələn “İkar”lara qoşulub, gecənin bir aləmində ermənilərin tərəfindən bəriyə güllə yağdırırlar, sonra bu yana keçib “Qac, erməni gəldi!” – qışqıra-qışqıra arvad-uşağı, qocaları vahimələndirib qaçmağa məcbur edirlər, boşalan evləri açıq-aşkar talayıb, malı, qoyunu qırıb şişlərə çəkirlər. Ən dəhşətlisi isə budur ki, Bakıda “Azərbaycan Xalq Cəbhəsi” – “AXC” adlanan təşkilatın “OMON” – “xüsusi təyinatlı milisiya” və “Bozqurdlar” adlanan batalyonlarının, yəni həmin “İkar”larda gələnlərin aralarında gəzən kinooperatorlar bu talançıları “ermənilərlə qəhrəmancasına döyüşən Azərbaycan əsgərləri” kimi qələmə verirlər. Sübut? Sübut budur ki, Səmi rayon kinoteatrında nümayiş etdirilən sənədli kadrlarda “o Bozqurdların arasında Sudüşən cavanlarını tanıyıb; Xəlvət Rəhimin, kürəkəni Bozqurd Nəcəfin komandası altında bu batalyonun “ət torbaları”nın kamera qabağında kabab şişlərini dişlərinə çəkə-çəkə hırıltılı gülüşlərlə “Biz döyüşməyi də bacarırıq, kabab yeməyi də”, – deyib açıq düşmən olduqlarını öz gözləriylə görüb, elə buna görə də, icra başçısı Məsim Qonaqlının “Siyasətə qarışmaq məsləhət deyil”, – dediyinə baxmayaraq, bir dəfə rayondan qayıdıb “İkar”ı qəsəbədəki iki nömrəli evin, yəni Xəlvət Rəhimin “kotteci”nin qabağında görəndə avtomatın birinci “mağaza”sını avtobusun təkərlərinə, motoruna boşaltdı, Şöşünün öz “Jiquli”sində gətirdiyi ehtiyat “Patron mağaza”larını isə gah pəncərələrin yuxarı tərəflərinə, gah da qəsəbənin üzərinə yağdırıb, Bozqurd Nəcəflə Bozqurdların öz şəxsi “Mersedes”lərinə doluşub Gürcüstan yoluna qaçmaqlarına nail oldu. Bu hadisə Sudüşəndə əvvəlcə dərin sükut yaratdı, kim isə “İkar”ı “remont eləyib” aparıb hardasa yenidən Nəcəfin ixtiyarına verəndən sonra isə, bir axşam qəsəbədən Əmirli mülkünə işıqlı güllələr seli axdı. Güllə səsləri kəsilər-kəsilməz yeganə küçənin sağ-solundakı qırx evin qırxında da eyni vaxtda işıqlar yandı və eyni vaxtda bəridəki bir nömrəli evdən – icra başçısı Məsim Qonaqlının heç cür boşaya bilmədiyi Gül xalanın

evindən Əmirli mülkünə doğru bir adam qaçdı. Tək dirəyin başındakı güclü lampanın işığına yaxınlaşanda məlum oldu ki, bu da qadındır gözəl Mariya – Məryəmin "padruqa"sı İrinadır. Hardansa atılan o işıqlı güllə seli bu bədbəxtin də kürəyini deşik-deşik eləyib, üstəlik, qucağındakı uşağın, Midinin yaşıdı Kolyanın başını, çiyinlərini də dağıdıb. Möcüzəli idi ki, Mariya – "Məryəm ana"nın əksinə, balaca, arıq, zərif İrina elə halında dodaqlarını tərpədib, Səmiyə: "Əl çək... əl çək Qudalılardan. Səni də öldürəcəklər!.. Öldürəcəklər" – deyə bildi.

Evindən yüyürüb, nəfəsi qarala-qarala: "Vay, vay, bu nəydi yenə?! Bu nə işiydi yenə, ay Səmi!" – deyə-deyə ağlayan Gül xala uşağı İrinanın sinəsinin üstündən götürdü. Xəlvət isə, meyitin gözlərini sığayıb, Kolyanı göstərib, altdan yuxarı Səmiyə baxdı: "Bu da əmin Mədədin küçüyüdü! Sən məni o cür abırdan salandan sonra açmadıq ki, nə olar, nə keçər. Ölüsünə sahib dur indi heç olmasa", – dedi. Nəfəsini dərib eyni açıq kinlə: "İyirminci ildə Sovetin elan olunduğu gündən revkomun sədri Sultan Əmirliynən böyük qardaşı Mədəd qənim kəsildilər bizə. Sultannan Mədəd gəbərəndən sonra oğulları Səmədnən Mədəd qənim kəsildilər. O Səməd sən Səməd – Səmi oldun, qənim kəsildin! Bu Kolyanı da o gorbagorlar təki böyüdəcəydi, Nəcəf göndərdi o gorbagorların dalınca ki, xəbərdarlıq olsun sənə, o Midini də göndərər ata-anasının dalınca, yurdunuzda bayquş ulayar! Möhlət verirəm, ağlını başına yığ, sakit ol, o biri uşağı böyüt" – dedi.

Səmi buz kimi tər içində, mat-məəttəl dayanmışdı.

Xəlvət isə bu dəfə tamam toxtaqlı: "Bu İrina deyilən də elə o vaxtlar özünü Mədədin altına yıxmışdı ki, bəlkə bunnan zaks kəsdirsin. Əmin Mariyanı bundan üstün tutdu, bu qəhbə bizə sığındı. İndi buna da sən sahib durmalısan!" – dedi. Sonra bir az da toxtayıb: "Çiynindəki Kalaşnikovu rədd elə, nə qədər istəyirsən qızıl verim, rahat otur!" – dedi.

Meyitlərin yanındaca belə öyüd-nəsihətdən sonra, Xəlvət elə orda da kəmərinin altından bir tənbəki kisəsi dolusu qızıl lirə çıxarıb Gülbənizin ovcuna basdı və Səmiyə işarə eləyib: "Keçən dəfə almadı, özün öyüd-nəsihət ver alsın bunu. Gecəynən dəfn eləyin səsi çıxmasın", – dedi.

O gecə Səmini, Şöşünün dediyinə görə, "şok vurdu". Dəfndən sonra avtomatı yerə çırpıb üzüüstə yerə sərildi...

...Qış idi, qar idi. Evin solunda – qapı səmtində “kamin”də – buxarıda qaz guruldayırdı. Şöşü gündə bir-iki dəfə şüşəli pavilyona gedib, hazır xörək-lüləkabab, kabab, piti, dovğa, pivə gətirirdi. Səmi sükut içində yeyib-içib, sükut içində döşəli qalırdı.

O ilin – min doqquz yüz doxsan birinci ilin baharı sulu-selli payıza döndü, payızı qış oldu. Səmi, bütün bədəni iflic kimi, evdə, həyətdə, dirsəkləri üstündə sürünə-sürünə, qollarının əzələləri şişə-şişə daha bir ili də “şok” qalıb, bir də doxsan üçüncü ilin novruz axşamı, nəhayət, ayağa qalxdı və Şöşünü göndərib Qonaqlıdan xeyli adam çağırdı.

Bütün rayonda olduğu kimi, köhnə Qurbanlı Sovetliyinin Üçpara kəndində, o cümlədən Qonaqlıda da qaz kəsilmişdi. İmkanı olanlar “balon qazı” yandırırdılar. Camaatla ilk sorğu-sualdan sonra Səmiyə aydın oldu ki, Nəcəfin Bozqurdları, “AXC” polisləri – “bəy”lər qaz borularını, “elektrosvarşik”lərə doğram-doğram elətdirib, maşınlara doldurub, “xaricdə dəmir yaxşı pula getdiyinə görə” aparıb hardasa xarici ölkədə satıblar. Elektrik dirəklərinin aralarından məftillər yoxa çıxıb, hər yer zülmətə batıb. Sudüşənin “İkar”ından başqa qırx evin qırxının da “qurd maşınları” – “Mersedes”lər hər gün fermalara hücum çəkirlər; qorxusuz-qadağasız, sürülərdən seçmə erkəkləri, qoyunları kəsib-soyub, Bakı-Tiflis magistralının sağ-solunda ağaclardan asıb satıb, “cib doldururlar”. Şövkət Tahirlə birlikdə, inzibati işçilərin kiçiklərindən böyüklərinə qədər acizləşib, ölkədə cərəyan edən bu qəribə rəsmi dövlət – “AXC” bandalarının əməllərinə tamaşa edə-edə qalıblar. Çünki “pıç-pıç” gecələrdən məlum idi: “Azərbaycan tamam müflisləşməli idi ki, bütün Avropanın bazar meydanına çevrilsin, sökülən fabrik-zavodlar yenidən tikilib xaricilərin gəlir mənbəyinə çevrilsin”, “pıç-pıç” gecədən məlum idi ki, “Qorbaçovun “perestroyka”sı baş tutur – kapitalizm cəmiyyəti qurmaq!..”

Səmi qısaca: “Mən buna dözmərəm!” – dedi.

Sonra rayon polis idarəsinə zəng vurub, köhnə vərdişi ilə rusca “Qotov slujit Rodine!” – dedi. Eşiyə çıxanda isə, mülkün həyətində ağır-ağır addımlayan “Sabağın xeyir, a Səm-səmi” deyən körpəni ilk dəfə bağrına basıb “Sabahın xeyir, ay Mədəd əmi! Sabahın xeyir Midi kişi!” – dedi.

Yüz addım o yanda iki nömrəli kottecvari evin açıq pəncərəsində Xəlvətin bığı ağardı: “Belə ha! Şərnən işin olmasın daha!” – dedi. Bu, Midi kişinin Xəlvət Rəhimdən eşitdiyi ilk kin səsi idi.

Rusca “Qotov slujit Rodine!” – deyən milis kapitanı, nədənsə birdən-birə: “Xeyrin şərə dönsün” – deyib kinlə cavab verdi. Sonra his-paslı tapançasını, toz-torpaqlı avtomatını silib, parıldadıb, Bakıda “Müstəqil Azərbaycan Respublikası” və “dövlət dili türk dili” elan olunduğuna baxmayaraq, hələ də rusca danışan həmkarlarının iclasına gedib “narkotika ilə mübarizə” şöbəsinin rəisi təyin edildi və bu “narkotika” deyilənin bütün rayonda, deyilənə görə, hətta bütün respublikanın da ucqarlarında əkildiyinə baxmayaraq, ilk işini elə öz kəndindən, daha doğrusu, Sudüşən qəsəbəsindən başladı. Çünki Sudüşən firmasının əkin sahələri və meşənin bütün talaları “narkotika bazası”na çevrilmişdi; Səmi işini məhz buradan başlamalı idi. Əmma Səmi hələ bilmirdi ki, bu inadla Midini də bəlaya salırdı...

Uşağı dirəyin dibində görməyəndə Səminin tükü ürpəşdi. Sonra hiss etdi ki, hava soyuqdur, xırda-xırda dolu, sanki qar yağdığına və qar kəsiləndə aprelin ortası olduğuna baxmayaraq, sazaq başlandığına görə Gül xala Midini eşiyə çıxmağa qoymayıb. Əmma birdən elə bil kim isə Səminin çənəsinin altından vurub, başını dik qaldırıb, gözlərini uşaq bağçası tərəfə yönəltdi. Midi orada – divarına qar çırpıldığına görə dümağ ağarmış divar dibində dayanmışdı. Sudüşən uşaqları tez-tez yaxınlaşıb Midinin döşünü dürtmələyirdilər, kimisi şillə, kimisi də təpik vururdu.

Yoğunluğu, hündürlüyü ilə uşaqlardan seçilən oğlan – Cırımağız isə beş addımlıqda durub, “bəy”lərin hamısının eyni cür gülüşünə oxşayan çox pis hırıltı ilə gülürdü.

– Vurun də! Niyə bərk vurmursunuz, ə! Babam deyir Yeraz küçüyüdü, böyüyüb Yeraz iti olacaq. Vurun, bir də buralara gəlməsin!

Uşaqlar qışqırışırdılar:

– Bə sən niyə vurmursan?! Niyə qıraqdasan?! Gəl da!..

Midi isə daş kimi hərəkətsiz dayanıb əlini də tərpətmirdi.

Səmi necə qanad açdısa, bircə dəqiqədə özünü yetirib, uşağı bağrına basdı. Midinin əlləri gömgöy idi, titrəyirdi. Yanaqları, dodaqları da göyərmişdi. Gözünün yaşı çənəsindən su kimi axıb pencəyinin yaxasını islatmışdı.

Səmi uşaqlara baxdı. Qorxu nədir, üzlərində heç az-maz xof da yox idi. Bığ yerində seyrək tükləri bozaran Cırımağız yəqin ki,

babası Xəlvətdən götürdüyü hərəkətlə o boz tüklərini – bığını sığallaya-sığallaya, Səminin hiddətli baxışının cavabında qəribə açıq sözlər dedi:

– Mən onu çox istəyirəm, Səmi əmi. Babam qoymur. Deyir, hər gün onun burnunu qanatmasan evə gəlmə. Üz verməyin, bağçaya gəlməsin deyir, Səmi aparsın yetimxanaya versin, o Yeraz küçüyünü, Əmirli törəməsini... Bax, nöqtəsinəcən dedim sənə babamın dediyini, özün get çürüt haqq-hesabınızı, mənim də canım dincəlsin, Midinin də.

Soyuqda Səminin saçının dibləri nəmçimişdi.

– Sən nələr danışırsan, ay bala!.. Demək, babayın tapşırığınnan döydürürsən bunu?! "Yeraz"ı?!

Cırımağız o yan-bu yana baxırdı:

– Babamın iş-gücü qurtarıb bizi güdür ki, görsün yaxşımı döyürük Yerazı.

Doğrudan da, torpağı az olan Azərbaycanı "Yeraz" damğası ilə damğalamaq niyyətində idilər: "Şirvan ayrı, Şamaxı, Dağıstan ayrı, Şəki-Zaqatala ayrı, Gəncəbasar ayrı, Cənubi Azərbaycan ayrı, Şərqi Azərbaycan ayrı, Talış ayrı!.. Nəticədə – Azərbaycan yoxdu?! Hətta Xəzər də parçalanıb, neft də əldən getsin?! Dəhşət! Dünyaya bax, Səmi! Süleymandan qalan dünyada! "Altı qitə Sarı-padşah ƏsƏlMəndən qalan Dünyanın göz qabağındaca heyvanlaşmasına inanaqmı, a Səmi?!"

Milliyətini itirib, heç bir siyasi mövqeyə malik olmayan Abşeronun yarısı "TatƏr" deyir bizə, Gürcülər bu yaxınlara qədər "tatarsan" deyirdilər, "Russko-tatarskaya şkola" açıb burdakılarımıza "Tatarin" deyirdik. İndi möhür olub "Tat" adı, "Türk", "Yəhudi" adları.

Mən işin içindəyəm, AdıPünhan nə vaxt vermişdi Səmiyə bu məlumatı? Deyəsən, lap çoxdan. Əmma Səmi hələ də unutmamışdı. "Rayonda Xəlil Rza Ulutürkü xoşlamırdılar, Xəlil Rza deyir "məni dustaq" adıynan aparmışdılar Moskvaya, etnik təbliğata uymayanda döyürdülər: "OdƏr nədi?! Bağ Ata nədi?! Sən tatsan, vəssalam! Dərk elə bunu. "Ulutürk" təxəllüsü altında işlə! Oxuyun kitablarımı, etiqadıma, OdƏrliyimə lap cüzi şübhə görsəniz, öz əlimlə özümü dara çəkərəm!" Polad etiqad vardı Xəlildə. Elə ona görə də AXC zəhərlədi, öldürdü o odlu-alovlu şairimizi!

Belə düşünə-düşünə Cırımağızın dediyini də eşidirdi:

– Mən şillələyirəm bu gədə-güdələri, deyirəm pis vurmayın, əmbə aşkarda “vurun” deyirəm. Qorxuram axı!.. Bayaq gəldi gördü qarmonda “heyratı” öyrədirəm Midiyə. Elə şillə çəkdi ki, indi də ağrıyır üzüm. Budu bax! – bir üzü qızarmışdı.

Səmi uşağı polis gödəkcəsinin altına salıb, sinəsinə sıxdı: “Bizə də “Yeraz” deyir bu tərəflər. İndi də deportasiya eləmək fikrindədirnədi?! Uşağı gör nə hala saldırıb heyvan!..” Neyləsin indi?

Səmi “heyvan”ın kinindən dəhşətlənə-dəhşətlənə, istər-istəməz, iki nömrəli evin qabağına getdi və elə qapını açar-açmaz öz üzünə də kin çırpıldı:

– Demişəm, deyirəm, yetimxanaya verməlisən onu! Özün də əl-ayağımıza dolaşma! Bəsdi! Rədd olmalısan buralardan! Göstəriş belədi... Hardan?.. Necə hardan, ay dünyadan xəbərsiz?! Hələ də qanmırsan ki, Azərbaycan sizin deyil daha! Sumqayıtdan bəridə – dərə-təpəlikdə az-çox suyu olan yerlərdə “yabanı çətənə” adıynan narkotika əkmişik! Özü də bilirsən nə qədər? Otuzca hektar! Milyard qazanc götürəcəyik, lap belə adlı-sanlı işçilərin ciblərinə də basacayıq! Sən düdüyün birisi neyniyərsən bu qüvvənin qabağında?!

Bütün dünyanı tutub narkotika, gizlin müharibə! Qanırsan?! Bilirsənmi neçə-neçə sən təki meyit quylanıb o tərəflərdə çürük trubalara?! Qandın?! Yığışdır özünü! Fikirləş! Öldürüləcəksən!

Evin dərinliyindən, çox içəndə rusca danışan ikinci kinlinin – Nəcəfin səsi gəldi:

– Vsyo ravno mı vas vsex perestrelyayem! Sçitay, vse turki poqibli uje! Anadolu krovotoçit! Massovıy terror idyot! Ponyal? Budto Kurdı perestrelyayut turkov. Vranyo! Mı, mı, vot mı, naşı sobralis vokruq naşeqo qeroya Abdulla Odjyalana! Ponyal?! Ne skrıvaem, çtobı vı – tupitsı ponyali v çyom delo! Ponyali?! Budet postroen tsivilizovannıy, qlobalnıy, yedinnıy mir! Ponyal?! Potom pereydyom v Turkestan! Vot takaya soverşenno otkrıtaya voyna, a ne “taynaya”, kak prejnyaya, tak nazıvaemaya “oteçestvennaya!..”

Səmi dedi:

– Yaxşı olmuyacaq bunun axırı, Nəcəf! Kainat var, Bağlar var!

Nəcəf elə ötürdü:

– Tupitsa! İdi zaymis izuçeniyem istinnoy istorii! İstinnıe Yevrei-turki davno poqibli! Vı azerbaydjantsı vırodilis, turkami stali! Osmantsı zanyali oqromnuyu territoriyu! Pora uje pokonçit s vami! Vozmi etoqo çoknutoqo, katis otsyuda! Zaymis yeqo leçeniyem!..

Səmi dedi:

– Heç olmasa bu körpəni rahat buraxın! Öldürürsünüz, axı, siz bunu!

– Budet spasyon tupitsa! – Nəcəf qəhqəhə çəkdi: – Te kotorıye zapolnili mir, oni jivotnıye. Vsyu Afriku jdyot muçitelnaya qolodnaya smert! Potomu çto oni toje drevnine yevrei”.

Armyane pritesnilis na dvux kloçkax zemli! Ne bıt tomu! Smert Turkam! Ponyal?! Tupitsa!

Səmi dabanı üstə geri dönüb, Midinin cığırı ilə evə yönəldi...

Bir vaxt gələcək, “rayonun qocaman prokuroru”, ya da qısaca “Qocaman” ləqəbli prokuror Sayılovun dilindən Səmiyə, sonra da hamıya məlum olacaqdı ki, Midinin açdığı yol – qısaca cığır, əslində, çox uzun imiş və qəsəbədən o cığırla çox adam gəlib-gedirmiş. Gül xalanın qoftasının cibindəki açarla qapını açıb, AdıPünhanın və ümumiyyətlə, pünhanların göndərdikləri kitablarla, məktublarla dolan tərəcələri boşaldıb “Kişi”nin, yəni Xəlvətin əli ilə lazımi yerə, yəni “AXC”-yə göndərilmişlər. İndi “boş tərəcə” adlandırılan o tərəcələrə uzanan əl sahiblərinin dilləri də uzun imiş. Uşaq gödəkcəsinin altında, cığırla evə qayıdanda Səmi hələ bilmirdi ki, o uzun dillərdən biri anadan, bacıdan da əziz Gül xalanın anası Badsəba qarı idi. Sudüşəndə “rəhmətə gedənlər”in yasında – hüzründə “duzsuz”, yəni halva çalanda “dilini mal dili təki çıxarıb” tez-tez çömçə yaladığına görə “Çömçəyalayan” ləqəbi ilə məşhurlaşmış Badsəba qarının danışığına baxın:

– O qəhbə afisiantka Mariya ölən gecə uşağa fəhmnən baxdıq, gördük Mədədin kopyasıdı bu Midi. Gülbəniz şəhərə gedəndə Əlləzoğlunun evində qoyurdu bunu; Cığalı Gülgəz xanımın yanında. Əmbə tapşırmışdı, qəsəbədən rus qızları da gedib Gülgəzə əl verirdilər, xörəyə-çörəyə kömək eləyirdilər. Birinci dəfə elə o qızlar dedilər: “Mədəd nədi, kürəyində qoşa xalına qədər Səmidi!” Yəni Mədəddən deyil, Səmidəndi uşaq!.. Dedim, ay qancıqlar, Səminin kürəyində qoşa xalını necə görmüsünüz? Hırıldaşdılar ki, biz görmüyəndə Səminin xalını, daha kim görər: boş-boşunamı subaydı o yaşında! Dedim onda mənə də göstərin o qoşa xalı, nolar? Şaqqıldaşdılar qancıqlar genə, dedilər duzsuz yeməkdən Əhmədi almasıdı yanaqların, özün çağır, soyundur, bax. Getdilər Səminin qoluna girdilər, gətirdilər qəsəbə hamamına, uşağı ver-

dilər qucağına ki, özün çimizdir, isinişsin sənə. Həyasızlığıma saldım, girdim hamama. Gözü dörd oldu köpəyoğlunun. Dedi üzünü o yana tut, heç olmasa fitə bağlayım belimə. Dedim belin-zadın lazım döyül mənə, dalını çöyür. Baxdım: eyni yerdə eyni cür bir cüt xal! Öz balasıdı ey! Dedim, ədə, bu qədər qız-gəlinin içində adam tapmırdınmı ki, əmin oğlu Mədədin arvadıynan oynayırdın?! Bu heç. Sonrasına baxın. Gülbəniz dedi, Türkiyədən yaman tavar gəlib, başım qarışıqdı, get Gülgəzdən al gətir uşağı... Əvvəllər saçına fikir verməmişdim mən bu çatdamışın. Getdim gördüm çardağın altında oturdub dizinin üstündə, qayçı əlində, uşağın saçını düzəldir Gülgəz. O Mariya-Məryəm deyilənin, bilirsiniz ki, sapsarı maçalkaydı, süpürgəydi saçı. Çardağın altında baxdım, mat qaldım, dedim, ay Cığalı Gülgəz, bu oxlanmışın saçı niyə kopyasıdı sənin saçıyın?! Qapqara, par-par, qıvrım! Lap səninki təki – cığalı! Ağladı Cığalı Gülgəz, Dedi: "Siz qudalılar sözlü-gaplısınız. Məni dilağıza salma!" Dedim, a bala, soğan yeməmisənsə, için niyə göynəyir?! Car çəkəcəm, hamı bilsin ki, Mariyadan deyil bu qız təki cığalı oğlan, Gülgəzdəndi! Gorbagor Sultan Əmirlinin istəkli arvadı Cığalı Gülgəz Sultanın qardaşı oğlu Səməd Əmirliynən oynayıb, oğlan qoyub qucağına! Barakallah!.. Gəldim, qəsəbədə dedim, Mariya nədi, a qancıqlar, görmürsünüzmü Gülgəzdəndi bu qoduq?! Şaqqıldaşdılar genə, dedilər ağ eləmə. A qarı, Gülgəzin yetmiş yaşı var axı! Hesablayanda altmış beş yaşındamı doğub? Səmi də qucağında böyüyüb onun, "Cığa mama" deyir ona. Səminin adı atasının adıdı – Səməddi, dedilər. "Səm-səmi" deyən elə Cığa maması deyilmi? Dedim, kar deyiləm, eşitmişəm Cığa maması necə əzizləyərdi oynaşı Səmədin Səmədini:

"Çəməndə çiçək, a Səm-səmi,
Hamıdan göyçək, a Səm-səmi.
Get bir maşın al gətir,
Bu kənddən köçək, a Səm-səmi!"

Bax, beləcə əzizləyə-əzizləyə oynaş böyütdü özünə! Saçbirçəyimə əl atdılar o rus qancıqları: "Tutaq ki, soruşuruq səndən, altmış beşində arvad doğarmı?!" Dedim o Səmini yıxın bu ağbirçək Çömçəyalayanın üstünə, doqquz aydan sonra gəlin birini də aparın kürəyi qoşa xallının!..

Çömçəyalayan Badsəba, Gül xalanın anası, icra başçısı Məsim Qonaqlının qayınanası, yanaqları, doğrudan da, Əhmədi almasından seçilməyən bu qarı bir dəfə danışdığını neçə dəfə danışsa yaxşıdır?! Qarının danışığını neçə adam danışsa yaxşıdır?!

Beləcə, yorulmadan, usanmadan, dəhşətli, açıq-saçıq kinlə otuz yaşlı Səmini yetmiş yaşlı ağbirçək Cığa mamaya yapışdırıb, Midi Səmi oğlu doğuzdurmuşdular! Min doqquz yüz əlli dördüncü ildə Sultan Əmirlinin ölümündən sonra iyirmi beş yaşında ikən dul qalıb, "Göbələk" Məmiş Əlləzoğlunun ocağında qara daşa dönüb, adına deyilən dəhşətli böhtana görə eşiyə-bacaya da çıxmayan yazıq, bədbəxt Gülgəz – Cığa mama, Midinin əlindən tutub, ev-ev gəzdirib, ağ saçını yola-yola şivən qopardı ki, "Qonaqlıda hərəyə bir ad qoya-qoya, az-çox gözəgəlim adamların hamısını böhtana-şərə batırıb kənddən tərik salan bu qəsəbə camaatı "bəndədən qorxmur, Allahdan qorxsun", insafa gəlsin, ləkəni silsin onun – Gülgəzin adından; bu uşaq onsuz da bədbəxtdi, nə atası var, nə anası, "Cığa mama" dediyi bədbəxt bibisi var, onu da əlindən almasınlar!

Qırx evli qəsəbədə tək Gül xaladan başqa bir adam tapılmadı ki, Cığa mamanın səsinə səs versin. Əksinə, ağbirçək Cığalının üstünə qarğa-quzğun kimi tökülüb, olan-qalan saçını da yoldular: "Yeraz qancığı! Doğub vermisən Mariyanın qucağına ki, zibiliyin üstü örtülsün! İrinadanıydı Mədədinki, onu da qanına buladılar – qəhbə qarnından çıxanı!" – deyib Cığa mama ilə Səmini biri-birinə daha bərk yapdılar.

İşığı, qazı, çörəyi kəsilmiş, əhalisi Gəncəyə, Bakıya, Sumqayıta dağılışandan sonra, Qonaqlıda hələ Təftiş Abbasla oğlu Zal kimi az-çox sayılan adamlar qaldığına baxmayaraq, dəhşətli Sudüşənin dəhşətli dilini yığa bilmədilər. Xəlvət Rəhim: "Şərt qoymuşam, şərtə əməl eləsin", – deyəndə kürəkəni Bozqurd Nəcəflə birlikdə qəsəbənin bütün Bozqurdları, arvad-uşaqları ilə birlikdə, bir ordunun intizamlı sıra nəfərləri kimi, yekdilliklə, günlərlə təkrar etdilər: "Əməl eləsin! Əməl eləsin! Əməl eləsin!"

Nəcəfin ermənicə adı Qranddı, yəni Böyük. Məhz o nəhəng Qrand Nəcəf tapşırdığına görə bütün qəsəbə bağırışırdı: "Əməl eləsin!" Ara-bərədə isə Nəcəfin nəriltisi Sudüşəni götürmüşdü: "Vsyo ravno perestrelyayem vsex! Severnıy Azerbaydjan prinadlejit russkim, Yujnıy Azerbaydjan Persam!"

Bu, qorxunc idi.

Və bu qorxunc, həddi-hüdudu olmayan kin Səmini yavaş-yavaş hər yandan çulğalayırdı, kinə qarşı kin qaynayıb döyüşə çağırırdı. Həlledici döyüşə.

Harda, nə vaxt baş verməli idi bu döyüş? Səmi hey düşünür, aydın fikrə gələ bilmirdi. AdıPünhan general da, o biri AdıPünhanlar da: "Bilmirik, Bağlarımız susurlar. Əmma yəqin ki, çox çəkməz bu, OdAğÜz nə vaxtsa dillənməlidi..."

Və OdAğÜz BağOdƏr doğrudan da dilləndi...

Yuxuya gedəndə telefonun dəstəyi Səminin əlindən düşüb, taxtdan sallanmışdı. Membranadan Pünhanın səsi cırıldayırdı; "Səmi! Səmi! Səmi, bu gecə OdAğÜz mənnən danışdı. Dedim: "Səmini heç bir Bağ öz yolundan döndərə bilməz. Sonra Səmədin səsi doldu beynimə: "sən də əfəlsən! Özüm lap EySarın[1] özündən izn alacam, danışacam! Səmi! Səmi!.."

## 2

Nə vaxtsa, Səmiyə məlum olmayan yaxın tarixdə Rusiya Federativ Respublikasında bir qanun mövcud imiş: əhalisi bir milyon nəfərə çatmayan xalq SSRİ-nin tərkibində respublika statusuna malik deyilmiş. Beləəri çoxmuş, məhz bu "qanun" əsasında, dədə-babadan OdƏr torpağı olan Dərbənddən başlamış, bir yanda Krım türkləri, o biri yanda EvƏrləri – "Avarlar", OdBirlər – Kabardinlər, Balkarlar və sair saysız-hesabsız ərazilər Rusiya Federativ Respublikasına daxil ediləndə, Qarayazı, Borçalı, Dağ Borçalı, Başkeçid adlanan dağlı-düzlü, səfalı ərazilər də Gürcüstana verilmişdi ki, əhalinin sayı milyonu aşsın. Bundan başqa, o ərazilərdəki azərbaycanlılar, yəni bütün türklər – təriklərə daha qəribə, gözlənilməz bir bədbəxtlik üz vermişdi; keşiş Vissarionun "Qrek-Gürcü" İosifi "öz gürcüləri"ni – "bir oturuma bir vedrə şərab boşaldan" şən, oynaq, mahnılı, xorlu gürcüləri nə qədər qəlbən sevsə də, o tərəflərə gedəndə Səmi ruhən əzilmiş həmvətənlərini əhvalını görüb həmişə süst qayıdırdı. Borçalı ilə Dağ Borçalının arasında

---

[1] EySar – Ey – uca, Sar – hökmdar. Ərəblər "İsa" deyiblər, Qreklər İusus deyiblər, beləliklə, EySarın biografiyasını da təhrif ediblər.

çaylaq, qaya daşlarından tikilmiş OdƏrErƏs – “Darvaz” evlərinin araları ilə “Jiquli”ni o yan-bu yana bura-bura sürüb, “Mersedes”in yükünün Erməni yük maşını “Ar”a boşaldıldığını görüb qayıdıb, üstəlik də Midinin başına gətirilən oyunu görüb və Qrand Nəcəfin hədə-hərbələrindən tamam düşkünləşəndən sonra Səmi yalnız həyətə çatanda, elə bil yuxudan ayılıb qapını bağlı görüb geri qayıtmalı oldu, Mididən açarı alıb, gedib üzü üstə taxta döşəndi. Həmişə çox yorulanda olduğu kimi tez-tez diksinsə də, daş kimi yatdı. Əmma bir daha diksinəndə oyandı. Sədr Mədədin dövründən qalmış küt çaqqıltılı divar saatı dördü göstərirdi. Yuxarı başda, sağ divarda xalçanın üstündə Əmirlilərin şəkilləri, sazların simləri, şirmayıları işıldaşırdı. Kim isə, enlikürək bir adam orda dayanıb, iri gözlərini geniş açıb Səmiyə baxırdı. Şöşü? Başının dövrəsindən çiyinlərinə sallanan uzun ağ saçlar, doğma, əziz, ağsümük sifət isə ağlasığmaz adama oxşayırdı:

– Ata?! – Səminin bədəni təpədən-dırnağa sızıldadı. Dizləri titrədi.

– Səməd yorğun-yorğun, hüznlə gülümsündü.

– Niyə qorxdun, ay axmaq, mənəm də!.. Xortdamamışam ki, Planetdən gəlmişəm də! Xüsusi dərs keçmisən Məhərrəm əmindən. SafAğ alimi dərəcəsinə yüksəlmisən, sən qorxmamalıydın bu insan qədər canlı SafAğ İşıq atandan... Özünə gəl, toxta. Atan özü OdAğÜz BağOdƏrdədi. EySardan icazə aldı, bu İşıq Səməd Əmirlini göndərdi. Gəlməli idim mən, başqa cür mümkün deyildi. Çünki sən mənim cavanlığımdakı kimi, səhv yola düşmüsən. Toxta deyirəm!

Tamam səssiz addımlarla bir az irəli gəldi.

– Əlbəttə, hər adamın hünəri deyil belə şeyə dözmək. Pünhanlar var ki, hətta huşlarını itirirlər, ayılanda, adam içinə çıxanda uzun müddət özlərinə gələ bilmirlər, ruhi xəstəyə oxşayırlar. Mən əminəm ki, sən dözəcəksən. Yoxsa göndərməzdilər məni.

EySar izn vermədi. Çünki çox sarsıntılıdı atam, sən sakit ol! Sakit ol!

Bir neçə gün bundan əvvəl Qazaxda bir oğlanı öldürüb maşının altına yıxmışdılar. “Ruh”u – ƏrAğı uça bilmirdi. Çünki Yerdə istəkli bacısı sarsıntıdan elə hala düşmüşdü ki, ƏrAğdan məhrum ola bilərdi. Oğlanın ƏrAğı yerdən yalvardı bizə, hamımıza ki, icazə alaq, Yerdə bir neçə gün də qalsın, bacısının gözünə görünsün, desin:

“Bax, bax, qurbanın olum, ölməmişəm, Planetə uçacam, ətə-cana dolub, işıq gəmisiynən qayıdacam. Bax, bu qara sifətim dümağ olacaq, saqqalımı uzadacam, ağardacam, bu evimizin yaxınlığında ev tutacam. Mənə belə deyilir, mən də sənə deyirəm. Bir alimimizdən xahiş eləmişəm, mən Planetdən qayıdana qədər sənə xəlvəti dərs keçsin. Dünyanın sirri – SafAğ Elmini öyrən, sonra mən yenə ölüb ƏrAğıma dolub şar içində planetə uçanda daha heç sarsılmayacaqsan. Lap tez olacaq bunlar. Döz, qurbanın olum. Gözəgörünməz şar içindəyəm indi mən, gözünə göründükcə, gün keçdikcə şar pozulur, ordan-burdan iynə ulduzu deşiklər açılır, oksigen dolur içəriyə, toz dolur, toz alışıb yanır, şar korun-korun yanıb dağılır, qardaşıyın ƏrAğı dağılıb havada, gün işığında tüstüsüz, alovsuz yanır, bax, onda ölür qardaşın. Bəsdi ağladığın! Öldürmə məni! Özün də ölərsən, ƏrAğsız, məhv olarsan...” Səsi bacısı başa düşür, sakitləşir, oğlan da uçur gedir. OdAğÜzdədi indi. Bir vaxt gələcək, Yer planetini tamam yararsız eliyəcək bəşəriyyətimiz özü, ey! Çoxu da ƏrAğsız qalıb uçmayacaq. Bax, o vaxt biz buraya – tamam təmiz, əbədi planetimizə qayıdacağıq. Sənnən bir yerdə. Gözüyün yaşını sil, icazə ver uçum gedim öz təzə məkanıma. EySar izn verib onlara, bax, beləcə danışırlar iyirmi milyon kilometr məsafədən. Beyindən-beyinə!”

Əlini stulun başından asılı gödəkçənin qoyun cibinə salıb Səminin tapançasını çıxardı, “predoxranitel”i aşağı çəkib, sol əlinin ortasına bir güllə atdı və həmin sol əlini Səminin gözünün qabağına tutdu:

– Görürsənmi hanı qan, hanı yara?! Yoxdu ki? İşıq güllənin səsini də udur, mənim səsimi də. Səndən başqa heç kəs eşitmir. Yuxarı bax, hanı tavan? SafAğ İşıq daşdan, divardan da keçir, ən mikroskopik deşiklərdən keçir, lazım gələndə predmetləri də bir növ yoxa çıxardır. Bax, bax, yoxdu ki tavan?! Ulduzları görürsən? Orda biz də elə Yerdəki kimi “Ulduz” deyirik. Yəni dilimiz zənginləşsə də, dəyişmir. O gördüyün parıltıların hamısı irili-xırdalı planetdi. Yerdə bilmirlər bunu. Heç nə, heç nə bilmirlər. Hətta, elmimizi öyrənənlər də çox şeyə inanmırlar. Budur sən özün tutulub qalmısan. İşıq tutub beynini. Bir gündə cəmisi bir saat belə saxlamaq olar insanı. Bir saatdan artıq işığa dözmür, insan beyni düz işləmir, sifətinin ifadəsi dəyişir. Bətni xarab adamlarla görüşüb o adamların fikirlərini hiss edəndə, özü də lap xarab olur, qarşısındakı adamın

dediyi sözləri dərk eləmir, elə maddım-maddım baxa-baxa qalır. Bircə saat, Səmi! Bircə saat vaxtım var bu gecə... Dəqiqələr keçir, əmma sənə hələ heç nə deməmişəm.

İndi başlayıram deməyə. Diqqətli ol, əzizim. Çalış, lap sakitləş. Əlbəttə, İşıqda da sakitləşdirici təsir Yerdəki insanın kamilliyindəki idrak qabiliyyətindən asılıdı.

Şüurdan məhrum insan müharibədən əl çəkə bilmir...

Dinlə! Dinlə! Yenə vəziyyət getdikcə dəyişir, ağırlaşır. İnsan vəhşiləşib. Rəhm qılmır, böhtan, şər, şantaj yeyir SafAğlara. Sənin mühitin daha pisdi. Mənim başıma gətirdiklərini sənin də başına gətirməyə çalışırlar. Eşit: eynilə o cür böhtan, şər, şantaj var ətrafında. Sudüşənlilərin əksəriyyəti xüsusi dərs keçib... Əksəriyyəti! Bozqurdlar, "bəy" adlananlar, hamısı! Dillərinə bir ifadə düşüb: "qətlə yetirmək". Kimi "qətlə yetirirlər"? O adamı ki, haqlı adamların hökmü ilə qətl olunmalıdır. Özün görürsən, hamısı özünü haqlı, ədalətli sayır, buna görə də öldürdükləri günahsız adamlar barədə o cür deyirlər: filankəs qətlə yetirildi... Özün nəticə çıxart: söz təsir eləmir "bəy"lərə. Qan tökmüyəndə darıxırlar. Çünki heç biri cəzalanmayıb, qudurublar. Bir də deyirəm: qudurublar! Çox qan içən it kimi qudurublar, uşaqları gülə-gülə öldürürlər. Bax, buna görə göndərildim mən, əzizim. Səni təhlükə gözləyir. Get təhvil ver bu silahları! Təhvil ver, əl çək qudurmuş itlə mənasız döyüşdən. Elm dili ilə danışmaq da çox vaxt tamam faydasızdı: qanmırlar, Səmi! "Elçibəy adlandırdıqları prezidentlərinin sözünü də eşitmirlər. Elçibəyin iradəsi özündə deyil. Amerikada, Fransada, Almaniyada, Cənubumuzda, bütün planetdə milyonlarla milyoner, milyarder qudurub. Bilirsən, fantastik miqdarda pul qoyublar "velikaya armeniya" ideyasına, Amerikanın Senatında xüsusi qərar çıxardıblar, bilirsən. Çox sürəcək bu döyüş. Çox qanlar töküləcək. Buna görə də sizin bu Sudüşən camaatına və ümumiyyətlə, belə psixologiya ilə xəstələndirilmiş cavanlarınız xüsusi dərs keçiblər ki "Yeraz", "Türk" adlandırdıqlarını çox qıranda, əksmüqavimət – vətən müharibəsi dərəcəsinə yaxınlaşanda başqa üsullara da əl atsınlar: şantaja, zəhərə. Lap adi, sadə böhtanla, şərlə adamları sarsıtsınlar, Maksimum əsəbiləşdirib xəstələndirsinlər, sıradan çıxartsınlar. Həqiqi insani keyfiyyətləri olan adamlar dözmürlər şantaja, böhtana. Başa düşdünmü, əzizim? Planet korlanıb, oğlum! Bəşəriyyətimizin psixologiyası Zora qana bağlanıb. Səbrli ol, Səmi! Səbr!.. Əl çək, əl çək silahdan! Polis

sistemindən çıx! Xalqın korlanmamış qismi arasında Elm yaymaqla məşğul ol, Səmi! Orta məktəblərin yuxarı siniflərinə, universitetlərə, institutlara tut üzünü! Elçibəy guya Türkiyənin elçisidi, qələmli silahdaşlarının köməyi ilə türkçülük ideyası yayır, türk kökünü itirən “tat”ları, “kürd”ləri, “talış”ları öz qədim kökünə qaytarmaq, mənən birləşdirməyə çalışır. Əslində isə, həmin o qərarı – Senatın qərarını həyata keçirən bədbəxtin birisidi. Sizin qudurmuşlara, dövlət aparatına dolan kəmsavad, təcrübəsiz “liderlər”inizin dili ilə əmr olunur ki, Azərbaycanın var-yoxunu talayın, varlanın, kapitalist olun, hər şeyi yenidən qurun. Bu dediklərimi də sən müəyyən qədər bilirsən. Ərazinizi həmişəlik parçalamaq, “Midiya” – Bağday adında ideal keçmişinizin bərpasına imkan verməmək, bütün bəşəriyyətinizi vahid OdƏr kökü üstündə birləşdirməyə cəhd göstərənlərinizi büsbütün qırmaq niyyətindədirlər. O Qrand Nəcəfin dilindən düşməyən “perestrelyayem vsex” sözləri xaricdən gəlir. Qonşunuz Gürcüstanda da parçalanma gedir. Rusiyada da parçalanma gedir. “Rus”larla “Yevrey”lər arasında didişmə imperiyanı dağıdır. Bundan xəbərin yoxdu sənin. Əmma bilmirsən ki, uzaqbaşı üç-dörd il müddətində “Rus”lar, “Ukraynalı”lar, “Belorus”lar, “Alman”lar, “Amerikalılar”, “Fransız”lar, “İngilis”lər, hətta Xomeyniyə səcdə edənlər də “Ərəb”lər də OdƏr köklərini tanıyacaqlar. Əmma bu üç-dörd il müddətində müharibə bürüyəcək Planeti. Dəhşətli qırğınlar, kütləvi xəstəliklər fəlakəti başlanacaq. Yalnız az miqdarda insan, “Amerika”, “Avropa”, “Yevrey”ləri öz ElƏrEy OdƏrliklərini tamam dərk edəndən sonra cəmi Yer üzündə Vahid Ədalət Səltənəti yaratmaq şəraiti yaranacaq. Demək istəyirəm ki, bu fəlakətin qurtarmasına az qalıb. At getsin o Kalaşnikovu! Çıxart əynindən o milis libasını! Ulu Bağ nəslindənsən! Qandan, qırğından qaça-qaça Bağdayın bütün ərazisini təhrif insanın, Fatehin tapdağında qoyub, vilayətlərdən çıxmağı daha üstün tutan on bir əbədi Bağ nəslində sən! Mənim gəncliyimin səhvini təkrar eləmə, Səmi! At silahı, qaç bu qudurmuşlar mühitindən! Sən, axı, unutmamalısan ki, geri sananan tarixin otuz mininci illərindən başlanıb bu vəhşilik – Bağdayı parçalamaq ehtirası! Təsəvvürə gətirə bilərsən ki, “Amerika”da, “İsrayıl”da, bəzi “Yevrey”lər qismən də olsa öz EsƏrEyliklərini dərk eləməyə başlayanda İzrayılın baş naziri “Fələstin”lə sülh fikrinə düşdüyü məqamda o yarımcan ilan bircə nəfər qatillə təyyarəsinə minib gedib özü şəxsən öldürtdürəcək o naziri! Budu, bax, Yer üzündə

bütün bəşəriyyətinizi zəhərləyən İlanın – Vatikanın qüdrəti – Vəhşilik! Sənin Kalaşnikovun nədi o İlanın tükənməz zəhəri müqabilində?! Xaliq Bağlarımızın hər şeyi əvvəlcədən görmələrinə inamı itirmə, Səmi!

Vaxtım azalır. İndi bir sirr açmalıyam sənə. "Şok" – filan vurmamışdı səni o bədbəxt qadınla uşağı öldürüləndə. Öz əzizin, hamımızın əzizimiz Mədəd dözmədi o vaxt sənin aldadılmağına, çox güclü təzyiq elədi sənin beyninə ki, bəlkə möcüzə ola, Ün eşidəsən, kin-küdurətdən, qisasçılıqdan qurtarasan. Mümkün olmadı, yıxıldın, iki il süründün bu evdə, o həyətdə. Bilirsənmi necə fasiləsiz ağlayırdı, Mədəd! Çünki təzyiq ehtirasına qapıldığına görə cəzalandırılmışdı: bildiyi həqiqətə, Yer insanının beyninə təzyiq qadağasına əməl eləməmişdi. Əzbər bildiyi həqiqəti hər gün, hər gün, aramsız təkrarla səsləndirirdilər beynində, Mədəd diz çökürdü EySarın qabağında, hönkürürdü, "Anladım! Anladım!" – deyirdi, EySar bağışlamırdı. O qadağanlı təzyiqin əzabını çəkmisən iki il, yenəmi o cür əzab çəkəcəksən, ay oğul?! Yenə deyirəm, at silahı, günü sabah Midini də götür, sür maşınını, birbaş AdıPünhanın sərəncamına. Vaxtım qurtarır! Mən bədbəxt də Mədəd kimi təzyiqə başlayıram. Başa düşürsənmi?! Qışqırıram! Təsir deyil bu daha, təzyiqdi! Tez cavab ver mənə! Tez! Tez! Cavab!.. – Səməd qışqıra-qışqıra oğlunun üstünə yeridi.

– Görmürsənmi gözlərimdən axanı?! Bu o deməkdi ki, atan ağlayır orda!"

Səmi hiss edirdi ki, silahdan əl çəkə bilməyəcək. Susurdu.

Səməd əlləriylə üzünü qapayıb, rəngini itirməyə, bozarmağa başladı və birdən yoxa çıxdı.

Səminin də gözlərindən yaş açıldı. Qollarının, qıçlarının üyüləri[1] bir-birindən aralanan kimi, iflicsayağı oldu, beli uzunu tanış ağrı hiss itdi. Yazıq, hardan biləydi ki, atasının təzyiqindən canına artıq İşıq dolmuşdu. Qolları, qıçları titrəyə-titrəyə, yavaş-yavaş yuxarı başa, yazı stolundan bəridə, sol divarın dibinə, sıxılı taxtına yıxılıb, ağlaya-ağlaya, bir müddət hərəkətsiz qaldı. Sonra səndələyə-səndələyə, taxta doğru getdi. Əlləri əsə-əsə, ağrı-əzab içində paltarını soyundu, yorğanı qaldırıb, üşütmə, titrətmə içində uzandı. Atasının səsi – qulaqlarında, üzüntülü yuxuya getdi.

[1] Üyü – qıçların, qolların qatlanan yerləri

## 3

...Bağça uşaqları biri-birilərinin dal ətəklərindən tutub, uzun, alabəzək sıra ilə düzülüb, Sudüşənlə Qonaqlı meşəsinin arasında, dərin, lal sulu "kanal"ın – arxın arxasındakı çəmənliyə çıxanda, sıraya qarışmayıb yançaqda yeriyən gödək qaraltı hamının diqqətini cəlb etdi. Bu vaxt həmin genişlikdə, meşə ətəyinin seyrək kolluqları aralarında şuma nə isə səpə-səpə əl dımrıqları ilə dımrıqlayan Qudalılar birdən-birə püskürən kin vulkanını Səminin də qulağına çatdırdılar:

– Kökü kəsilmiş Yeraz toxumu genə "pissiniz" deyib aralı gəzir bizimkilərdən!

– Dədəsinin, Şöşü əmisinin sözünü deyir də, çattamış!

– Dədəsinin?! Boooy?! Ay qız, yəni doğrudanmı dədəsi çıxdı Səmi bunun?!

– Allah bu vələdin sonrasından saxlasın! Vurduğu damğaya bax Səm-səminin: "Pissiniz!"

– Pis sənin Cığa mamandı! Tez böyü, sənin özünü də oynaş eləsin özünə!

– Booy! Necə yəni səni də oynaş eləsin, ay qız! Yəni səksən yaşında da soyumuyacaq bunun Cığa maması?!

– Dədəsindən soruşun, Cığalının istisini, soyuğunu yaxşı bilir o!

"Dədəsi", avtomat qucağında, əkindən xeyli aralı yük maşınında "narkotika" toxumu ilə dolu kisələrin üstündə oturmuşdu. Çox heyrətli idi ki, deyilənə görə, Qarabağ rayonlarından "deportasiya" edilən əhali ilə dolu yük maşınları Yevlax, Gəncə, Şəmkir aralarında yollarda vurnuxa-vurnuxa camaatı yerləşdirməyə yer axtardığı halda bu ""Ar" – Armeniya markalı maşın günün günortasında bütün "QAİ postları"ndan maneəsiz keçib gəlib burada dayanmışdı. Səmi, əli Kalaşnikovun tətiyində, gəlib, nə erməni şoferi, nə də müşayiətçi "Bəy"lərdən heç kəsi tapmamışdı və yuxarı çıxıb kisələrdən birinin üstündə oturub, Şüşəliyə, Şöşünün "dalınca uşaq göndərməkdən" başqa bir əlac tapmamışdı. Kənardan baxanda, önlüklərindən ovuc-ovuc toxum çıxarıb kotan cızlarına tökə-tökə ağır-ağır maşına doğru gələn geyimli-kecimli, hamısı biri-biri kimi dolu – gırbıd arvadların, gəlinlərin, qızların səs-küyünü heç eşitməyən, gözlərini yumub dincələn yorğun-arğın,

sakit bir polis idi. Əmma yaxınlaşanların söyüşlərini, “biz noxud əkirik! Narkotika nədi, ay eşşək!” – dediklərini eşitdikcə, bu “sakit” adamın çox erkən ağarmağa başlayan qalın saçları arasına geyinikli yoğun, cod barmaqlarının başını necə sıxdığını görmək olardı. Əsəbləri tarımlaşıb İşıq atası ilə dünən gecəki görüşdən sonra hələ də özünə gələ bilməyən, hər adi səsdəndə diksinən bu adamın şaqqıltılı gülüş içində təhqirlərə laqeyd qalması, əlbəttə, mümkün deyildi. Tamam aydın idi ki, gecə-gündüz silahla əlləşən, qorxusuz-hürküsüz, “narkotika” səpən Sudüşən qəsəbəsinin – Qudalı məhləsinin arxasında heç də gəzlin – “mafiya”, “mafioz-polis” – filan yox, “Biz Türklər beş qurddan yaranmışıq!” – qışqıran, “Millət” adlı qəzetin başında canavar çap edən, hətta Şəmkir tərəfdə, magistral yolun qırağında canavara heykəl qoyduran biri-birindən yırtıcı “türk” “bəy”lərin Senatda xüsusi qərarla təşkil edilmiş antitürk “Türk” dövləti dayanmışdı. O dövlət ki, Boz qurd Nəcəflə yanaşı, polis kapitanı Səməd Səməd oğlu Əmirliyə – Səmiyə də məvacib verirdi. Atasının o cür ətraflı məlumatından sonra beyni daha da dumanlanmış Səmi üçün tamam anlaşılmazdı ki, “Narkotika ilə mübarizə qrupu”nu təyin edən də dövlət özü idi, “noxud” səpən də. Səminin beyni o dərəcədə sıxılıb, hətta ağrılı olmuşdu ki, “yuxarıdan” – OdAğÜzdən kiminsə qəzəbli təzyiqini hiss etsə də, nə o təzyiqi dərk edirdi, nə də vaxtı ilə tamam aydın dərk etdiyi həqiqətləri: “İkar”lara doluşub qaranlıq düşəndən sonra Erməni tərəfinə keçib o yandan bəriyə, sonra bəri keçib bu yandan o yana işıqlı güllə yağdıra-yağdıra, camaata: “Qaçın, Erməni gəldi!” – qışqırışan Boz qurdlar, OMON-çular doğrudanmı kiməsə arxalanırdılar?! AdıPünhanın göndərdiyi arxiv sənədləri surətlərində Nikolay Romanovun əmri ilə qurulduğuna görə qeyri-qanuni elan edilən, çar generalı Denikinin tərəfində döyüşə-döyüşə, açıq-aydın qeyri-qanuniliyini qanuniləşdirməyə çalışan “Müsavat” dövləti, indi yenidən qayıdıb, Nəcəfin rusca çərənlədiyi kimi, rus-erməni birliyinin əli ilə qayıtmışdısa “Qotov slujit rodine” deyən polis kapitanı “narkotika” ilə mübarizə edə-edə narkotika dövləti iləmi mübarizə edirdi?! Yoxsa, pul dövlətə gedirdisə, “Azərbaycan respublikası” adlanan bu dövlət Azərbaycan xalqını niyə belə dilənçi kökünə salırdı?! Adi, gündəlik çörək tapmayan bu üç para kənd kimi, ölkənin hər yerində əhali şəhərlərə üz tuturdusa, hər gün

yüzlərlə, minlərlə ev qapısı bağlanırdısa və dövlət özü buna açıq yol verirdisə, bu kimin dövləti idi?! Rusiyadan borc alınan taxıl vaqonlarını günün günorta çağı boşaltdırıb satan məmurlar niyə bu qədər cəzasızdırlar?! Adı, soyadı, sifəti "Millət" qəzeti, bütün varlığı ilə "türk", "türk" qışqıran prezidentlə nazirləri, Ali Sovet, Milli Məclis deputatları – xalq vəkilləri, hamı, hər şey bu xalqa məxsusdusa, bu xalqın övladı Səmi Əmirli niyə bu qədər təhqiramiz vəziyyətdə qalmışdı?! "Beş qurddan doğulmuşuq" sözlərinin əsli "beş KurOd" olduğu sübuta ehtiyacı olmayan bir həqiqət kimi yayılsa da, "qurd" kəlməsini həqiqi mənada işlətməklə bu milləti tamam beyinsiz sayırdılar.

Səminin beynində fikirlər bir-birinə qarışırdı.

Necə yəni "mı vas vsex perestrelyayem"?! Bu sözlərin arxasında "Velikaya Armeniya" ideyası dururdusa, bəs, ölümündən sonra da "türkçülük" yayan, "biz Midyalıyıq!" – qışqıran Məmməd[1] niyə "Velikaya Armeneiya" ideyasına xidmət edirdi?! Təyin olunmuş "qrup"un üzvləri Səmini nəinki "komandan", hətta insan da saymadan, dindirib-danışdırmadan, suallarına cavab vermədən, maşınlarına doluşub harayasa yoxa çıxırdılarsa, qayıdanda da heç bir suala cavab vermədən, biri-birinə baxıb müəmma ilə gülürdülərsə, polis idarəsinin rəisi Gülənova, icra başçısı Məsimə müraciətlər də cavabsız qalırdısa, Səmi haraya, kimə müraciət etməli, xilası araqda görən şair polisdən – pyanska Şöşüdən başqa kimə söykənməli idi?! Söykənəcəyi yoxdusa, demək, doğrudan da silahı atmalı idi?! Yenə elm yaymaq?! Məktəblərə, universitetlərə, institutlara üz tutmaq?! Yəni doğrudanmı bundan bir şey çıxar? Ölkə parça-parçadır axı! Erməni Şuşaya, Ağdama gəlib axı! Vətən əldən gedəndən sonra neyləyə bilər elm?! "Üsyan olmaz! Təzyiq olmaz!.." Sovetin silahı, texnikası ilə təpədən-dırnağa silahlanmış düşmənə müqavimət göstərənlərin meyitləri çöllərdə qalırdısa, Səmi hansı həvəslə elm yaysın?! Necə yəni ən çoxu üç-dörd ilə hər şey həll olunacaq?! Kim inanar buna?! Əbədi Bağlar elçisi, SafAğ Alim hansı əsasla belə dedi?!

---

[1] Məmməd – Məmməd Əmin Rəsulzadə. "Atamız Farsdır, anamız Türkdür" ifadəsi ilə EvƏrEy OdƏrlərini və "Midiyanı-Bağdayı anlaşılmazlıq içində batıran "köhnə müsavat" ideoloqlarından biri.

Sarsıntılar arasında birdən canavar ulartısı kimi zil bir səs eşidildi:

– Əsil huuy, nəsil huuy! Əsil huuuy, nəsil huuuy!..

Xəlvət Rəhim idi, bir əli dümağ, lopa bığında, bir əli dümağ, yapıq saçında, bir gözü Səmidə, bir gözü camaatda, ulayıb, ulayıb çəliyinin ucunu göyə qaldırdı.

– O uçan sığırçınlara baxın!

Hamı dikəlib, meşə ətəyində təzə şumların üzərində o yan-bu yana burulan qarabulud quş dəstəsinə boylandı.

Xəlvət çəliyinə dirənib, eyni zil səslə:

– Sığırçın erkən gələndə əkində qurd-quş qalmır. Naxırlarda iri heyvanın, sürülərdə xırda heyvanın tükünün ara-bərəsində qurd-murd toxumunu da tər-təmiz dənləyir o bərəkət quşu. Çünki Allah elə xeyirxah yaradıb sığırçını. Vay o gündən ki, qara qarğa-quzğun gəlsin yazbaşı. Qurd-murdnan yanaşı taxılın, qarğıdalının toxumunu elə eşələyir çıxardır ki, cücərmə vaxtı hara baxırsan, qara şum görürsən!.. Çömçəyalayan desin görüm nə dedim mən?

Badsəba qarı, çiyinlərində qara kəlağayı, şumun arasında qara koma kimi yumalana-yumalana yaxınlaşıb, bir gözü qocada, bir gözü Səmidə:

– Sən dedin: "Əsil huuy!.." Xeyir xeyirdi, şər də şərdi. Quyruğun vurmaqnan qurd olmaz tula! Yəni ziyankardı. Quzğun da əkin vaxtı eləcə ziyankardı. Çəlik qalxıb Səmiyə tərəf uzandı, lopa bığ camaata sarı döndü:

– Bu nəslin nə Sultan Əmirliynən Mədəd Əmirlisi quzğunuydu, nə də Səməd Əmirliynən adı o xırca Midiyə qoyulan Mədəd Əmirli. Üzərdə Sovet çekistləriydi hamısı! Aşıq Çürüyün, Xızr Abının, Kamandarın xəlvəti məclislərində Türkün SafAğ elmini yayırdılar. Çekistlər ey! Belə hünərvərdilər Əmirlilər! "Molla əmiləri" dolayırdılar: "Məsim bala, o barmağındakı üzüyü ver, dilini açsın molla əmin".[1] Lailahəilləllahı heçə-puça çıxardıb, İisus Xristosun həqiqi adını qaytarıblar, Bağ oğlu Bağ, ƏlAğ EySar eləyiblər! Niyə? "Beş gözəlin vurğunuyam!" – deyə-deyə, insanı insana bağlayan Bağ Ataynan dörd oğlunun adı altında bütün planetdə vahid səltənət yaratmaq xəyalındaydılar! Cəmi yer üzündə

---

[1] "Məsim və Diləfruz" dastanından

ey. Hünərə bax! Rus yevreylərini də başdan-beyindən çıxardıblar gizlin-gizlin. Bir azdan bunlar da "qlobalizasiya" deyəcəklər. "Cəmi Yer üzündə dövlətə". İştaha bax! "Cəmi Yer üzündə..." Bir Lüt Cəfərləri vardı, bir də Qılınc Qurbanları. Bellərində mauzer, əllərində beşaçılan, işləri-peşələri mən təki, göyüm Nəcəf təki çörək sahiblərinin çörəyini kəsməkdən ibarətiydi... Eyy!.. Səmi! "Ədalət" deyənləriyin hamısı getdi gedər-gəlməzə! Adlarını itlərimə qoymuşam! Bilirsən?! Sən də gedəcəksən! Nə oturmusan o toxumun üstündə, ay it! Allaha qurban olum, imkan verib, tər tökək, qazanc götürək! Təzə-təzə gəlib çatıb bizə ki, bütün dünya biznesnən məşğuldu! Xaricilərin prezidentləri də biznesmendi! Nə vaxt ayılacaqsan, ay bədbəxt? Bütün dünya narkobiznesnən dolanmırmı indi, ay bədbəxt?! Demədimmi sənə ki, "nayomniklər"ə verilən dollar hardandı?! O illəri o uşağın bələyinə qoyduğum torbadan birini də sənin cibinə qoydum, çıx get burdan! Təftiş Abbasnan oğludu, bir də sənnən pyanska Şöşüdü burda qalan. Nədi məqsədiniz?! Erməninin bu maşınını "konfiskovat" eliyəcəksən?! Nəcəf gecəynən ikincisini gətirəcək! Nə qədər demək olar ki, götür o küçüyünü, çıx get! Tapşıraram Bakıda, Sumqayıtda, Abşeronda, harda istəsən, mal verərlər, satdır, kefini çək! Bangdan kredit verdirərəm, kafe, restoran, dükan açarsan, qızıl yığarsan! Nə istəyirsən, axı, sən?! "SafAğ Elmi" nədi?! "OdƏr bəşəriyyəti" nədi?! "Ədalət" nədi?! Olandımı belə şeylər, a bədbəxt?! Xəbərin varmı ki, bu səhər o taydakı Azərbaycanınızın yarısını uçurdub-dağıdıb zəlzələ?! Qadasın aldıqlarım Boz qurdlar dolublar xarabalarda Muğannalarınızın təpələrini gülləynən doldurublar! Belə açıq gedir indi "qlobal terror" deyilən! Qandın?! Düş ordan, deyirəm. Rədd ol!

Qarı səsini Xəlvətin səsinə qatdı:

– Küçüyünü apararlar Boz qurdlar, Cığa mamasıynan bir yerdə! Mülkünü köklü-köməcli satsan da qaytarammazsan, ay bədbəxt! Düş o maşından, cəmaat toxumu gətirsin!

Səminin barmaqları sıxıldıqca sıxılırdı. Ordan-burdan tək-tək saç qopduğunu, sərin ilk bahar havasından soyumuş başının dərisinə damla-damla isti qan çıxdığını hiss edirdi. Şöşü harda batmışdı yenə?! Pivə içirdi! Saz çalırdı! Şeir yazırdı! Şüşəli pavilyonunda ofisiantlarla zarafatlaşırdı: "Özünüz bilirsiniz, mənimki elə quru zarafatdı. Çünki OdAğÜzdəkilər bəd əməlləri görürlər!.."

– Yarımca saat, bircə saat danışdı ki, “Qudalı gədələr”ini – gombulları cinnəndirsin, hərəsinin xəyasına bir təpik vurub sızıldatsın və sair belə oyunlar çıxartsın, təki “Kalaşnikov işinə” getməsin! Dostu, qardaşı isə burada işgəncə çəkirdi!

Xəlvətin ovcunda telefon qaraldı.

– Vadar eləmə Nəcəfi çağırım! Vurduğu adamın meyitini satır Nəcəf, ay yazıq. Meyitini almağa pullu adamın da yoxdu. İy verə-verə qalarsan düzün ortasında! Düş ordan! Günü bu gün çıx get o generalınıza deynən qovdular kənddən!.. Mənim verdiklərimi istəmirsən, elə onun yanında bir iş tap, qal orda, bir də ayağın dəyməsin buralara! Düş deyirəm! Atan Səməd də ilişib qalmışdı burda. Getdi! Sən də gedəcəksən, a bədbəxt! Sən də xurd-xəşil olacaqsan, a bədbəxt!

Çəmənə, əkinə ağır sükut çökdü. Çünki Xəlvət telefona: – Nəcəf, gəl! – dedi. Sonra Badsəba qarıya:

– Səsin çıxmır, – dedi.

Yenə nə danışacaqdı bu qarı.

Dəhşət danışdı:

– Bu vaxtacan dillənməmişəm o barədə, ay Rəhim. İndi eşit, ay camaat. Mənim evimi yıxıb, ocağımı qaraldıb bu Səmi. Sabah bilmir, axşam bilmir, gəlir bizim o bir nömrəli dediyiniz evin qapısını taraqqıltıynan açır, gözümün qabağında Gülbənizi basmarlayır, basır altına! Ayıbdı bu! Öz şalvarı bir yana uçur, qızın tumanı o biri yana! Gözümün qabağında ey, ay camaat. Midi kişinin Cığa mamasını yedi doymadı bu ayı, indi də Gül xalasını yeyir! Qonaqlı səmtində başımı qaldırammıram, orda, yurdda qalan köhnə tay-tuşlarım, qarılar üzümə baxmırlar. Baxanlar da gözümün içinə deyirlər: “Qəhbə anası qəhbə, yaxın gəlmə bizə!” Yaxşı elədin çağırdın Qrand Nəcəfi. Ərinin qeyrəti yoxdu mənim bədbəxt Gülbənizimin. Nəcəf təki Boz qurd lazımdı mənim bədbəxtimi çəksin çıxartsın bu heyvərənin altından, özünün də kəlləsinə bir güllə çaxsın, it leşi eləsin, sürüsün tullasın qarğa-quzğunun arasına! Cığalısını oynaşsız qoysun, o da orda ölsün! Elə gəzir-dolanır o qəhbə, elə bil raykom katibi Sultan Əmirli sağdı hələ də, bu da o geroy raykom katibinin xanımıdı hələ! Öz əliynən böyütdüyü Səm-səmisini də yorğanının altına salar, heç kəs də səsini çıxardammaz! Daha demir Çömçəyalayan Badsəba var burda, diliynən qəbir qazır bədəmilərə!.. A gədə, düş o maşından, get Cığa mamayın yorğanının altında gizlən! Nəcəfi çağırdıq. Ay oğraş!..

Səmi dişlərinin xırçıltısını eşitdi, canından üşütmə keçdi, alov qalxdı, qollarında, qıçlarında o "şok" illərinin zəifliyini hiss edib, vahimələndi. Və o anda da sirli bir hökmlə meşədən o yana – uzaq üfüqə baxıb, orada – bütün üfüq boyunca nəhəng İşıq atasını gördü. Səməd əllərilə başını qamarlamışdı, nəhəng gözlərində əzab-işgəncə donmuşdu, səsində də işgəncə göynərtisi vardı: "Şərin, böhtanın miqyasını görürsənmi, oğul?! Məndən betər buladılar səni! Dərk elədinmi atandan eşitdiklərini, oğul?!"

Səmi atasının işgəncəsindən də betər işgəncədən, ağrıdan qırılıb, Səmədə fikrən qışqırıb "Yox, Yox!" deməyi ilə ayağa qalxıb avtomatın tətiyini çəkməyi bir oldu. Şumların üzərində burulub bükülən qara bulud, güllə səsindən diksinib, şumun üzərindən uzaqlaşdı. Əkində arvadlar, gəlinlər, qızlar dik-dik durdular. Səməd qışqırırdı: "Məni də cəzalandırıblar! Görmürsənmi təzyiqimə görə məni də cəzalandırıblar Bağlarımız, ay oğul! Murdarlara güc göstərmə! Təzyiq olmaz axı! Olmaz! Olmaz!.." – sönüb yoxa çıxdı.

Səminin gözləri dolmuşdu. Kipriklərindən tək-tək iri damlalar düşürdü. Beyindən beyinə gələn, beyindən beyinə gedən əzabla dolu səslə: "Yazıq ata! Yazıq ata!" – deyirdi. "İnan, inan, başa düşürəm hər şeyi. İndi... Bax, indi başa düşürəm. Əmma necə güc göstərməyim, axı, mən bədbəxt!.."

Səmədin səsi ağladı:

– "Bütün ölkədə taxılı yığışdırıb xaricilərə satıblar, Səmi balam! Hər çörək mağazasının qabağında min adam növbədə durub Bakıda! Evlərdə uşaqlar ac qalıblar! Millətinizi sarsıdıblar ki, heç kəs mübarizə meylində olmasın! İlanın şəxsi göstərişidi bu, Rusun, Ermənínin əmridi o qudurmuşlara. Bütün kainatda bütün planetlərdən görürlər vəziyyətinizi, əmma heç kəs pozmur Bağ qanununu! Gecikmə, qurbanın olum, Səmi balam!.."

Səmi, tərəddüd içində dönüb arxaya, həyətdə saxlanan "Jiquli"sinə baxdı. Neyləsin? Demək, Bakı da ac idi?!

Daha düşünə bilmədi.

Gürcüstan səmtindən çəmənlikdə bozara-bozara qəsəbəyə gedən xır-daş yolda güllə səsləri eşidildi, avtomat guruldadı. Biri-birinin arxasınca dörd "Mersedes" yoldan çıxıb təzə-tər nəm yaşıllıqda dərin izlər sala-sala Səmi tərəfə süzdü. Boz qurdlar hələ "Mersedes"lər dayanmamış, qapıları şaqqaşaq açıb yerə tullandılar.

Yırım-yırım yırğalanan ət torbaları cumub yük maşınını bircə təkanla böyrü üstə yıxdılar. Səminin qollarından, qıçlarından yapışıb kənara tolazladılar. Kisələrdən hərə birini belinə, çiyninə qaldırıb, aparıb şumun qırağında üst-üstə yığdılar.

– Səpin! Səpin! Səpin! – dedilər.

– O nə qoduqdu ki! – dedilər.

– Qarabağda nə var, nə yox, ay uşaqlar?

Ət torbaları ordan-burdan xırıltı-mırıltı cavab verdilər:

– Qarası gedib, ağı qalıb! O da gedəcək!

– Kürəcən gələcək erməni! Yevlaxdan basacaqlar düz Dərbəndəcən!

– Gəncədən o yana, bərini bizə verirlər, baba! Bütün Gəncəbasarı ey!

– Lənkəranda bir kapitan gədəciyəzimiz var deyirlər, Muğanı verirlər ona, Bakıynan Abşeronu, Şirvanı da Müsavata verirlər ki, özləri də doluşub neftə ortaq olsunlar!

Xəlvətin barmaqları bığını sığallayırdı:

– Deynən öldü da Azərbaycan!

– Əlbəttə, baba, xosunvay oldu, çezdi, erməni demişkən.

– Əmbə bir pis xəbər var. Deyirlər, Heydəri Naxçıvandan çağırıb aparıblar, – Bakıdadı.

Səmi bu səs-küyü eşitsə də heç nə anlamırdı. Kənara tulazlananda ora-burasına dəymiş təpik zərbələrinin ağrısından qıvrıla-qıvrıla, "Mersedes"lərin dayandığı yerdən xeyli o yanda, xırda-xırda kolların ara-bərələrində, əllərində ilk bahar çiçəkləri, büdrəşə-büdrəşə bəri boylanan körpələrdən sağ-solda Midini axtarırdı. İçkili, nəşəxor xırıltılı səsin qəribə "şalvar", "tuman" böhtanları içində dediyi hədə Səminin canındakı ağrıları da unutduran vahimə əmələ gətirmişdi: "Küçüyünü aparарlar..." – Bu vahimə ilə də Səmi uşağı axtardı və birdən onu lap yaxında – on addımlıqda gördü: Midi əmisinə baxa-baxa səssiz-səmirsiz ağlayırdı.

Səmini də yaş boğdu, Midi qaraltıya çevrilib göz yaşlarına qarışdı. Günün günortasından zülmət çökdü. Səmi olan-qalan qüvvəsini toplayıb, ayağa qalxıb, zülmət içində tez-tez yıxılıb sürünə-sürünə uşağı gördüyü səmtə getdi. Huşsuzluqdan ayılanda isə Gül xalanı başının üzərində, Midini isə Gül xalasının qucağında gördü.

Gülbəniz baxıb-baxıb, birdən heç nə olmamış kimi, qanrılaraq, cingiltili səslə gülüb:

– Yekəliyinnən qorxaqlığın tutmur, – dedi. – Şükür Allaha, əl-qolun tərpənir, deyəsən, bu dəfə. Avtomatıyın mağazasını çıxardıblar. Çıxartmasalar da heç nə eləyəmməzsən sən bu cəmaata. Əkdiklərini əkəcəklər, biçdiklərini biçəcəklər. Nəşəxordu hamısı, ay Səmi. Qalx gedək. Anam yaman yapdı bizi bir-birimizə. Allah bəlasını versin. Yapılanda nolar ey, dünyamı dağılacaq?! Qalx gedək! Acığa düşsəm, Allah, peyğəmbər haqqı, doğrudan çıxardaram tumanımı, anamın başına geydirib basaram bayıra! Lap çoxdan anazad deyil o mənə! Qalx!

Səmi əlini uzadıb uşağın yanaqlarını sildi.

– Yox! Sən apar balamı, burda çox şey ola bilər indi, – dedi. – Tez gedin. Anana da de səsini kəssin! Saç-birçəyindən xəcalət çəksin ağlı qalıbsa. Mən qorxuram belə getsə ermənilər bütün milləti nəşəxor eliyərlər, daha söz eşidən də qalmaz!

Gülbəniz ciddiləşmişdi.

– Qudalının nə qocasında abır-həya qalıb, nə də cavanında, a Səm-səmi. “Şalvar”, “tuman”-filan şükürlüdü. Bilmirsənmi ki, xüsusi adamlar xüsusi dərs keçirlər burda. Şantaj dərsi! Qalx gedək! Bir az da inad eləsən, bir də görərsən prokuror Sayılovun stolunun qabağındasan! Qalx!

Səmi bir daha, qətiyyətlə:

– Yox! Sən apar uşağı! – dedi. – Apar! Mənnən işin olmasın!

Gülbəniz də sərtləşdi.

– Eşitmədinmi nə deyirlər? Azərbaycan öldü, – deyir xəlvət! Sən neyləyəcəksən, axı, bunlara, ay Səmi?! Allah züryət vermədi mənə, əvəzində bu körpəni verdi. Beş ilə yaxındı bədbəxt bacılığım Gülgəz atası evində bu körpənin nəfəsiynən yatır. Məsim məni atıb şəhərdəki qəhbəsinnən kəbin kəsdirəndən bəri mən də bunun nəfəsiynən yuxuya gedirəm, bunun nəfəsiynən oyanıram. Sən özün də balam deyilsənmi?! Eşitmisən, atan almırdı Torksini, “çox istəyirəm səni, bacım ol,” – dedi. Torksin getdi qəbiristanda saqqız ağacından asdı özünü o vaxt. Cığa mamannan bərabər mən də analıq eləməmişəmmi sənə, ay Səmi! Beynin qandı! Ağlını yığ başına, tüpür bunların narkotikasına, anaşasına-filanına. Dədəmin adamları Moskvadan ayda bir dəfə bir samolyot dolusu importnı tavar göndərirlər, bilirsən, daha qorxusuz-hürküsüz, açıq satırıq o evdə. Rusun rublunu qoymağa yer tapammırıq. Dollar xirtdəyimizdəndi! Gedək rayonun ən səfalı yerindən mülk alaq, biznesimizi eləyək, uşağımızı böyüdək! Nə

tapmısan, axı, sən bu xaraba Qonaqlıda? Beş-üç başı papaqlı qalıb, onlar da, əmin ol ki, sabahda-biri gündə qapını bağlayıb çıxıb gedəcəklər Bakıya alvernən-zadnan baş girləməyə. Söz gəzdirirlər ki, Səmədin qisasını almaq istəyirsən bunlardan. Bir sürüdülər! Polkdular, polk! Hansından alacaqsan qisası?! Xəlvətdənmi?! Görmürsənmi üzünün dərisinəcən dümağdı, sən vurmasan da özü cəhənnəmə vasil olacaq bugün-sabah!.. Gözünü aç bax, dünya dolub Qarabağ qaçqınlarıynan! Bu Boz qurd heç, əsas OMON milisidi, ay Səmi! Xəlvətinkidi axı, ay Səmi! Rus özü gedib, bunları qoyub burda öz əvəzində, bilmirsənmi?! Aləm qarışıb, gədə-güdə bəylər götürüb dünyanı, sən də burda qanun-qayda güdürsən?! Sözümə bax! Soveti qaytaracaqlar bunlar!

Səmi başdan-ayağa gərginləşib, birdən dik atıldı.

– Uşağı apar burdan! Get, Gül xala! – deyib Gülbənizi kəndə doğru itələdi.

Gülbəniz, uşaq qucağında xeyli aralanıb, geri buruldu.

– Səhv eləyirsən! – dedi. – Televizordan öz qulağımnan eşitdim. İsa Qəmbər[1] dedi: “Kapitalizmin öz qanunları var: biznesin başlanğıcında kim nə yolnan qazanır, qazansın”. Yəni istər lap adam soy, oğurluq elə! Başa düşürsən?! Nəcəf deyir: “Yevropeyskiy biznes kriminalnıy dışit! Cinayətnən! Yevropa budet komandovat nami!” Əl çək bu qan çanaqlarınlan! Erməniyə verirlər, xaricə satırlar narkotikanı, qızıl içindədirlər!..

Bir neçə dəfə bu cür söz deyib, birdən xırp susub, dönüb getdi. Ondan – Gülbənizdən başqa heç kəs görmədi ki, Səmi böyrüüstə aşırılmış yük maşınını səngərə çevirib, brezent sumkadan yumru, yaşıl əl qumbaraları çıxarıb yanında yerə düzürdü; şübhəsiz, qan töküləcəkdi; şahid olmağın silistə,istintaqa-filana çəkilməyin nə xeyri vardı?! Getdi.

Səmi isə hər əlində bir qumbara, yük maşınının təkərlərinin arasına qalxdı. Görkəmi qorxuncdu, səsi isə zəif, xəstə köks səsi idi:

---

[1] İstilaçı Romanovların qərarı, çar II Nikolayın əmri ilə, əvvəlcə Tiflisdə qeyri-qanuni elan edilmiş, sonra Sovet casusu Məmməd Əmin Rəsulzadənin özünün təklifi ilə Türkiyədə konservasiya edilmiş, 1988-ci ildən etibarən Şimali Azərbaycana göndərilən zorakı, talançı “Müsavat” partiyasının başçısı sayılan İsa Qəmbərov öz ifadəsində Marksın məşhur ifadəsinə əsaslanır: “Kapital v naçale vseqda kriminalistiçen”. – Bu ifadə kapitala mənfi münasibətdir, İsa Qəmbərovun ifadəsi isə kapitalın cinayətkarlığına haqq qazandırır.

– Sizin soyğunçuluğunuz olmasaydı, Qonaqlı, Tahirli, Qurbanlı kəndlərində qapılar bağlı qalmazdı. Şəhərə axını siz kapitalistlərin tapşırığıynan eləmirsinizmi ki, torpağa da sahib olasınız? Əmma onu da bilin ki, dəfələrnən belə faciələr olub Bağday tarixində, dəfələrnən! Satqınların da axırına çıxmışıq, xariciləri də qaytarmışıq!

Bu millətin sahibi[1] ölməyib. İyirmi Yanvar qırğınından sonra Heydərimiz dərhal çıxıb KPSS-dən. Bakıdadı! Qoyarmı Vətəni belə parçalanıb yoxa çıxsın?! Qoyarmı millət səfil olsun, ay canilər?! Yetmişinci illərdə Sovetin o sverxderjava vaxtı da tək Brejnevin başını sığallayıb, necə diriltdi bu milləti? Çörək verdi! Yaddan çıxartmadı milləti!

Əl çəkin yırtıcılıqdan! Silahlarınızı təhvil verin! Təslim olun demirəm. Siz kimilərinin sayı-hesabı yoxdu. Hamı tutulsa, Azərbaycanın yarısı türməyə çevrilər. Narkotikadan, silahdan əl çəkin deyirəm. İcra başçısı Məsim Qonaqlı gəlməlidi o xarabanıza. Məsim kişi də yad deyil. Sizdən evlənib. Gəlir-gedir. Pisliyinizi istəməz. Gürcüstan-Rusiya arasını su yoluna döndərmisiniz. Gedin yenə alverinizi eləyin, qazanın, kimdi qabağınıza duran! Bir də deyirəm, silahları yerə qoyun, minin maşınlarınıza, hara rədd olursunuz, olun! Verin silahları! Təkcə o deportasiya olunanlara, yurd-yuvalarından tərik düşənlərə silah paylasaq, halınız necə olar?!

Nə şumdakılardan səs çıxdı, nə də şumun kənarındakılardan – Boz qurdlardan. Nəcəf, deyəsən, burda yoxdu. Gödək-gödək ət torbaları arasında yeganə uzun adam Nəcəfdi, burda olsaydı, boyu seçilərdi. Və yəqin ki, Səmiyə bir cavab deyərdi. Bozqurdlar isə bütün gözükölgəli adamlar kimi, durğun sifətlə dayanıb, gah Xəlvətə, gah da bir-birilərinə baxırdılar.

Kütlə o vaxt tərpənişdi ki, qumbara kisələrdəki toxumları havaya sovurdu. İkinci qumbara lap qabaqdakı "Mersedes"in pəncərəsindən Səmiyə tuşlanmış naqandan bir az bəridə guruldayıb o əli naqanla birlikdə dala atdı. "Mersedes"in parçalanmış qapısının aşağısından yerə qan axıb buğlandı. Səmi yerə atılıb daha iki qumbara götürdü. Əmma ət torbaları titrəşə-titrəşə, bir-birini basa-basa maşınlara doluşmuşdular. Səminin "təhvil verin silahları" – qışqırtısı boğazında qaldı. Çünki "Mersedes"lər xır yoluna doğru şığıdı...

---

[1] Heydər Əliyev. (Kitabın əvvəlki hissələri kimi, bu hissə də sənədli (tarixi) xarakterdədir).

## 4

...Saat neçə idi? Gecənin bu vaxtında bu hay-haray, it hürüşməsi nə idi?.. – Səmi yuxulu-yuxulu belə fikirləşib, birdən, yorğanla birlikdə taxtdan yerə düşüb dik qalxdı. Pencəyini əyninə taxıb, tapançanı qoburdan qapıb qapıya yönəldi: orada – qapının arxasında sərxoş Nəcəfin dəli adamsayağı qışqırtısı ilə ət torbalarının gülüşləri saysız-hesabsız it hürüşlərinə qarışmışdı. Bu nə deməkdi?! Sudüşənin Bozqurdları bu gecə vaxtı evə hücum çəkib, lap qapını, pəncərələri də sındırıb içəri təpilə bilərdilər. Bəs, bu qədər it hürüşməsi nə idi?! Səmi qapını açıb, həyətə ani göz gəzdirər-gəzdirməz, tapançadan havaya bir neçə güllə atmalı oldu. Həyəti doldurmuş zırpı-zırpı, qıllı-qıllı itlər, küçüklər səslərini xırp kəsib, arxaya sərpilib, donub qaldılar, bu it xılının sahibləri – Xəlvət, Nəcəflə bacanaqları və gombul cavanlar isə, əlləri Kalaşnikovlu, Səminin yaxası açıq pencəyi ilə qabağı açılmış qış tumanına baxa-baxa qəhqəhə çəkdilər.

Nəcəf səndələyirdi:

– Əlindəkini sox açıq yerinə! Min gülləni birdəfəyə dolduraram cəmdəyinə! – deyib Sudüşənlilərə nə isə işarə verdi. Xəlvətin Nəcəfdən başqa dörd kürəkəni və nəvələri bir göz qırpımında Səminin qollarını burdular, üzüüstə yıxıb, böyür-başını, kürəyini təpiklədilər.

Xəlvət acı-acı gülürdü.

– Budu bax! Yolunu azan atanın taleyinnən ayrı olammaz azğın oğlunun taleyi! Çəkilin, ə, qırağa durun! Əlinizi bulamayın it qanına. Qoyun itləriniz didişdirsinnər bu bədbəxti!

Və sonra Xəlvətin itlərinin adları məlum oldu:

– Sultan, bas! Mədəd, bas! Səməd, bas! Qs-qs! Qs-qs!

Neçə it hücum çəkdi Səminin üstünə? Necə deyərlər, Allah bilir. Çəkmələrindən yuxarıları – budlarını, belini, kürəyini söküb-dağıdıb al qana buladılar. Səmi huşunu itirdiyi anda göz yaşı ilə dolu ağlar Ün gəldi: “Rahat oldunmu?!” – Səmədin səsi idi.

Gözlərini açanda Səmi nədənsə ilk növbədə “lyüstr”ü gördü. İşıqdan gözləri qamaşdı. Sonra işıq yavaş-yavaş öləziyib zülmətə batdı. Taxtın böyründə doktorun – Mark Revazoviçin asta, gər, yorğun səsi eşidildi:

– Çox qan itirib. Mnoqo krovi... Bednıy moy qores...

İkinci dəfə gözlərini açanda Səmi taxtın sağ-solunda Gül xalanı, Markı, Şöşünü, Təftişlə oğlu Zalı və gözləri böyümüş, rəngi ağarmış Midini gördü. Naşatır spirtinin tünd qoxusundan boğula-boğula əlini Midiyə doğru uzatmaq istədi, qolu qalxmadı.

Gül xala döşəməyə mələfə saldı. Dəhlizvari artırmanın dibində vaxtı ilə Səmədin tikdirdiyi dar hamamda, dəmir çəlləyin altında qaz gəlmədiyinə görə odunla qızdırılmış sudan bir vedrə doldurub gətirib mələfənin yanına qoydu. Təftişlə Zal, Şöşü ilə Mark, dördü də köməkləşib, başdan-ayağa qan içində olan bədəndən paltarı çıxardılar Səmini qaldırıb, üzüüstə mələfənin üstünə uzatdılar.

Markın balaca, qara "apteçka" çamadanı döşəmədə açıq idi. Mark qollarını çirmələyib, vedrəyə marqans töküb qarışdırdı. Səminin kürəklərində, belində, budlarında balıq qarnı kimi açılmış yaraları lap yavaş-yavaş pambıqla, tənziflə silib, uzun müddət marqansla tərtəmiz yudu.

Səmi ağrı əvəzinə bütün bədənində yaraların titrəşdiyi, köpüklənib kürəyindən sağa-sola axan qəribə ağ dərməndən gicişikli sızıltı əmələ gəldiyini, Markın tez-tez, tələsə-tələsə tikiş vurduqca sızıltıların artdığını hiss edirdi. Atasının səsi hələ də qulaqlarında idi: "Rahat oldunmu?! Rahat oldunmu?! Rahat oldunmu?!" Və bu səs elə bil heç vaxt kəsilməyəcəkdi. Əmma arada Xəlvət Rəhimin çılğın səsi eşidildi: "Sultan, bas! Mədəd, bas! Səməd, bas!.." Sonra Midinin hıçqırtısı, hönkürtüsü:

– Mən sənə qurban olum, a Səm-səmi... Mən sənə qurban olum, a Səm-səmi...

O boyda Təftiş də ağlayırdı:

– Elə demə, mənim balam, Səmi sağalacaq. Mark əmin sağaldacaq. Elə demə, ürəyimizi sökmə, gözəl balam!..

Yenə Markın səsi:

– Odno tolko trebuyetsya: niçkom leji... spokoyno, sovsem spokoyno... Bolşe ne povaraçivaysya na spinu, ne davi na ranı. Hər şey yaxşı olacaq, moy doroqoy qores...

Qaldırıb yenə taxtda döşəyin, mələfənin üstünə üzüüstə uzatdılar.

Təkcə Gül xala heç nə demirdi. Onun elə hey başını, gicgahlarını sığallayırdı, üzündən, hətta dodaqlarından öpürdü... Səhər

tezdən Şöşü Şüşəlidən bir səbət dolusu yemək-içmək gətirdi. Öz qəribə, anlaşılmaz "ninnini" mahnısını zümzümə edə-edə çörəkləri stolun üstünə düzdü.

– Mark tapşırıb. Yaxşı yeməlisən, a ninnini. Mənnən bərabər vurmalısan, a ninnini!

Səmi burda birtəhər gülümsündü.

– Yeyəcəm də, içəcəm də... Əmma, bax, o padişahlar piyada gedən yerə necə gedəcəm, onu bilmirəm.

Şöşü dedi:

– Ölmüşəmmi mən! Özün ayaqlaşanacan belimdə aparıb, belimdə gətirəcəm, a ninnini! Özüm yuyub-yaxalayacam!

Belə də oldu. On günmü keçdi, yarım aymı, Səmi bilmədi. Çünki canının istiliyi tez-tez qırxa qalxırdı. Bəzən isə soyuqdan tir-tir əsirdi, dodağı da əsə-əsə:

– Üstümə bir yorğan da sal, Gül xala, – deyirdi.

Gülbəniz isə əlavə yorğan salmaq əvəzinə Midiyə:

– Sən o tərəfdən uzan, qucaqla, mən bu tərəfdən qucaqlayım, Səmini tərlədək, – deyirdi.

Demə, Mark quduzluq iynəsi də vurubmuş: çünki "Səminin qanına itlərin ağzından mikrob keçib"miş.

Günlərin birində Mark dedi:

– Mikrobların canını aldım, doroqoy moy. Eto vsyo! Tı uje zdorov! Silnıy tı! Silnıy!

Bir axşam isə Gül xala Səmini "öz əli ilə" çimdirdi, paltarını dəyişdirdi. Şöşünün gətirdiyi hazır xörəkləri, may ayı girdiyinə baxmayaraq hələ də havalar soyuq keçdiyinə görə odunu, közü əskik olmayan "kamin"də – buxarıda qızdırıb stolun üstünə düzdü, üstü ingiliscə yazılı araq şüşəsinin qapağını xırıltı ilə burubaçıb, gülüb:

– İcazənlə bu axşam mən də içəcəm. Midi balam da limonad vuracaq, – dedi.

Sonra yenə güldü:

– Heç xəbərin varmı Gül xalan nə qədər bağrına basıb səni, ay xəbərdən xəbərsiz! – dedi. – Daşa dönmüşdün... Cavanlığımda Məsimin soyuqluğundan cana doyanda Səmədə deyirdim: "Çaylaq daşıyam mən. Bir üzümə gün vurur, qızdırır, o biri üzüm buzlayır". Bu axır illərdə ondan da betərdim, a Səm-səmi. Kişi deyilən kəsdən heç nə hiss eləmirdim. Sən məni həyata qaytardın. Vallah!

İnanmırsan?! Temperaturun qırxdan ötmüşdü. Keçinirdin. Marka əlim çatmadı. Allahı çağırdım, girdim qoynuna! Qəşəngcə arvadın oldum ey! Özü də necə?! Xilaskarın mənəm, Mark deyil, ay əbləh Səm-səmi! – İçdi, güldü. Nələr demədi?! – Qəhbə sayma məni!.. Səmədin kopyasısan! Axır ki, dirildin!

Səmi xəcalətindən dikələ bilmirdi. Xırıltılı, boğuq səslə: "yuxulu-yuxulu" yox, "yarıhuşsuz" yox, Gül xala ilə doğrudan da "yatdığını" anladıqca az qalırdı əlini tapançaya atsın, özünü vursun.

Buludsuz, ulduzsuz, alatoran ılıq ilk may axşamlarından biri idi. Xəlvət Rəhim iki nömrəli evin pəncərəsini taybatay açıb bəri baxırdı.

– Sənin o gürcü dostuyun da dərsini verəcəyik! – dedi. – Min dəfə dedim, diriltmə bu iti, qoy ölsün, sözümə baxmadı.

Xəlvətin başının arxasından Nəcəfin uzun boyu, yekə başı göründü. Xəlvətə ucadan:

– Ne qoryuy, starik, vsyo ravno mı vsex ix perestrelyayem! – dedi. – Armyane davno deystvuyut, mı otstayom.

Xəlvət pəncərədən çəkildi, bir dəqiqə keçməmiş, əlində dolu, ağır vedrə, həyətə çıxdı və tamamilə ciddi səslə itlərini çağırdı:

– Sultan, Sultan!.. Mədəd, Mədəd!.. Səməd, Səməd!.. – Vedrədən "it yatağına" şırıltıyla süd tökdü.

İtər, küçüklər elə bil yerin altından peyda olub, yalağın dövrəsində baş-başa verib lakkalak saldılar. Eyni vaxtda Nəcəflə ət torbalarından bir dəstəsi, döşlərində Kalaşnikovları, Midinin cığırının o yan-bu yanında göründülər.

Səmi hiss etdi ki, deyəsən, "bu xına o xınadan deyil", bu dəfə bütün qəsəbənin it xılı üstünə töküləcək. Əli elə bil öz-özünə pencəyin qoltuğuna uzandı. Tapançanın "predoxraniteli"ni fırlatdı. Nişan almadan, vərdişkar hərəkətlə, itlərdən bir neçəsini böyür-böyürə, yan-yana yıxdı. Əmma cavab atəşi əvəzinə, qəsəbə ilə Əmirli mülkü arasındakı çəmənliyin sağından və solundan iki Kalaşnikov çaqqıldadı, işıqlı güllələrin cərgələri! Bozqurdların başlarının üzərindən sağa, sola, üfüqlərə milləndi.

Bunun ardınca Zalın zəhmli-gurultulu səsi nərildədi:

– Çəkilin dağılmışlarınıza! Yoxsa, hamınız qırılacaqsınız!

Səmi hələ bilmirdi ki, elə ağır yaralı yatdığı günlərin gecələrində Şöşü ilə qeyri-qanuni silah gəzdirən Zal çəmənliyin iki çökəkliyində səngərlənib səhərə qədər keşik çəkirmişlər.

Birinci Nəcəf başını endirib yavaş-yavaş evinə qayıtdı. Ardınca ət torbaları dağılışdılar.

Səmi içəri qayıtdı:

– Daha evinə gedəmməzsən, Gül xala. Uşaq sarıdan intizarım artdı. Burda qal, burda saxla, – dedi.

Çox heyrətli oldu ki, Gül xala baxıb-baxıb birdən şaqqanaq çəkdi:

– Çaylaq daşlığınnan xilas eləməkmi istəyirsən məni? Onsuz da məni sənə yapıblar, ay yazıq Səmi!

Və birdən də ciddiləşib, əynindəki qara kişi pencəyinin cibindən köhnə bir “TT” tapançası çıxarıb, ovcunda atıb-tutdu:

– Budu bax! Bilirsən ki, yekəsindən də varımdı evdə! O Nəcəf it təki qorxur məndən, – dedi. – Gedirəm indi, dərslərini verəcəm, bir də bu tərəfə ayaq basmasınlar!

– Gəl, gözümün işığı, – deyib, Midinin əlindən tutub qapıya yönəldi.

Midi nədənsə udqunurdu. Boynunu əyib, geniş açılmış, dəyirmiləşmiş iri gözlərlə Səmiyə baxırdı:

– Gecən xeyrə qalsın, a Səm-səmi.

Səmi də qəhərlənib udqundu:

– Xeyrə qənşər get, qurbanın olum. Daha heç nədən qorxma. Heç nədən! İtlərinin dördünü, beşini birdən öldürdüm. Qorxurlar. Daha gələmməzlər.

Öz sözünə özü də inandı. Araq şüşəsinin dibində qalanı da içib, üstündən Midinin limonadından içdi. Sonra tibb məntəqəsindəki yeganə telefona zəng vurub Markdan xahiş etdi ki, dostlarından kimi istəyirsə çağırsın, gəlsinlər, yeyək-içək, dincələk.

Başda Təftiş hamı gəldi. Gecə yarıdan keçənə qədər yeyib-içdilər, kim necə bacarırsa, o cür saz çaldı, oxudu.

Hamı bu fikirdə idi ki, işlər yaxşılığa doğru dönür. Yazıqlar hardan biləydilər ki, Bakıdan başlayaraq, bütün rayonlarda hələ çox-çox çaxnaşmalar olacaqdı...

Muğandan Qubaya, Şəkiyə, Zaqatalaya qədər üçpara kənd səmtlərində “Türk”-“Tərik”, EvƏrEy OdƏri dilini “İvr” dili şəklində saxlayan “Yəhudi” – (EyOd) kəndlərində, qəsəbələrində, “kolxoz” əvəzində qədim icma quruluşunu qoruyub saxlayan və bununçün şəxsən “Baba”dan[1] izn alan camaat sükut içində, icma quruluşunun nə vaxtsa geniş yayılacağını, Qonaqlıda “kolxoz”un ləğvi, qoyun sürülərinin camaata paylanması sabaha, bu günlərə, yəni, bir-iki gün sonraya, səhər saat altıya təyin edilmişdi ki, qaranlıq düşməmiş pay-bölüş qurtarsın.

Səmi fəqərə sütununda dözülməz ağrıdan əyilə-əyilə Əmirli mülkünün həyətində gimnastika eləməyə çalışdı, sonra balkonun tünd palıdı sütunları – dəmir boru dirəklər arxasında saralan “Jiquli”sində oturub Orta yolda təkərlərin əsəbi fırlanışları ilə tez-tez asfaltdan tüstü qopara-qopara, kəndin tən ortasında, kolxoz idarəsinin küncündə “Medpunkt”a sürdü. Üçpara kənddə öz qeyri-adi usanmazlığı ilə məşhur olub, Gürcüstanda Sovet dövlətinə qarşı kütləvi mitinqlər vaxtı meydanlar, küçələr qana boyananda, qanı əlindəki Gürcü bayrağının üstünə çilənmiş qoca həkim “Revaz doxtor”un büstünün yanında maşından düşdü.

Mark Səmiyə növbəti ağrıkəsici “ukol” vurdu.

– Tı silnıy! Silnıy! Ne boysya! – dedi. Və çox vaxt təkrar etdiyi sözləri bir də təkrar etdi: – Mı qortsı edinı. İ boqi naşi yedinı. İ duşi naşi yedinı![2] Mənim barmaqlarımın ucu deyir belində heç bir, heç bir dəyişiklik yoxdu. Əsəbdi səninki. Get bir vedrə çaxır iç, başını at yat. Oyananda görəcəksən sağ-səlamatsən!

Səmi Şöşüyə içkini qadağan elədiyinə baxmayaraq, Markın məsləhətinə qulaq asıb, bu dəfə özü Şöşünü Şüşəli pavilyonda “dal otağa” çəkdi.

---

[1] Heydər Əliyevin (*Heydər Baba dağı adından*) ləğəbi. Atatürk və Atabəy deyənlər də vardı. Şəhərlərdə, xüsusən Bakıda və Qazaxda Müsavatın təbliğatı ilə yaradılan silahlı dəstələr, prezident qvardiyasının köməyi ilə sıxışdırıldıqca AdıPünhan sevinc içində Səmiyə “deyəsən, yavaş-yavaş formalaşırıq” deyirdi.

[2] Gürcüstanda yaşayan “Dağlı”lar unutmayıblar ki, əslən “tur”lu dağlı “Otar” OdƏrdirlər. X əsrdə xilafətin hökmü ilə GurUc ərazisinə köçürülüb dövlət yaradıblar. 1930-40-cı illərdə Azərbaycana göndərilib kütləvi xəstəliyə – “malyariya”ya qarşı müalicə aparan “Revaz doxdur” indinin özündə də qocalarımızın xatirələrində yaşayır.

– Nə ki var içəcəm, – dedi.

Və doğrudan da "nə ki var" içib, hətta "bu dünyanın acığına" ofisiantkalardan birini sağ dizinin, o birisini sol dizinin üstündə oturdub hər ikisini öpdü. Evə nə vaxt qayıtdığını, necə yatdığını bilmədi. Bir də o vaxt oyandı ki, kim isə "dünyanı başına götürmüşdü", yəni yumruqla pəncərəni taraqqa-taraq döyə-döyə qışqırırdı:

– Ay Səmi!.. Ay Səmi!.. Bu nə təhər yatmaqdı, a başına dönüm!.. Yazığı genə bir təhər eləyiblər nədi?!

Səmi Təftiş Abbasın səsini tanıdı. Kişinin onu belə qaranlıqda, boş-boşuna oyatmadığını başa düşüb yorğanı üstündən atdı, paltarını geyinmədən qalxıb evin artırma səmtində boş kitab rəflərinin arasından Orta yola-gündoğana açılan pəncərəni açdı. Səhərin alatoranında, ilk baxışdanca, ürəyə darlıq-sıxıntı gətirən boz, yapışqanlı duman içərisində heç nə görməyib, Sudüşən səmtinə – balkona açılan dörd pəncərədən birini də açdı. Dumanda balkon dirəkləri, həyətin genişliyində isə nar kolları qaralırdı. Bircə dəqiqə bundan əvvəlki yumruq zərbələri, şüşə cingiltiləri və həyəcanlı cod səslə heç uyuşmayan dərin sükutda, hardasa asta-asta ayaq səsləri eşidilirdi. Əlli addımlıqda qəsəbənin ox kimi dümdüz küçəsinin başlanğıcında bir, iki nömrəli evlərin ağaran divarlarında pəncərələr qaralırdı. Ayaq səsləri kəsildi. Səmi hərəkətsizlikdə daha heç bir insan hənirі duymayıb xəyallandığını, xoflandığını güman etdi. Azərbaycanın hər yerində Sovet quruluşunun – köləliyin qalaları olan "kolxoz"lar, Heydər Baba prezident seçiləndən sonra ləğv olunmağa başlansa da, bütün məsul işçilərə, o cümlədən qıpqırmızı cildinin üstündə iri hərflərlə "KPSS" yazılmış partiya bileti hələ də stolunun siyirməsində olan Səmiyə də məlumdu ki, ölkədə elan edilmiş "Müstəqil respublika"nın bütün idarə və müəssisələrində "podpolnıy KPSS" qalıb, "kolxoz"ların, "sovxoz"ların ləğvinə mane olurdu, pay-bölüş ərəfəsində kimlərsə qapı, pəncərə döyürdülər, söyüş söyür, hədələyirdilər. Keçən il Qonaqlıda torpaq sahələri paylanmağa başlananda "kolxoz"a dəxli olmayan həmin söyüş söyənlərin – rayonlarda rəsm partiya və hətta dövlətçiliyi saxlayan müsavatçıların və qəsəbə camaatının söz-söhbətindən məlum oldu ki, "partbiletlər" boş-boşuna saxlanmayıb; Sovet qayıdacaq; Qudalılar da torpaq tələb edirlər ki, firmanı kolxoz təki saxlasınlar.

Elə səs-küy, hay-haray qopdu ki, nəticədə, hətta yumruqlaşma başlandı. İcra başçısı Yerəbaxan Məsim ləqəbli Məsim Qonaqlı ilə müavini, polis rəisi "qoca kaftar Gülənov"la polisləri camaatı əməlli başlı qan-qırğın içində qoyub, tezcə aralanıb, maşınlarına dolub getdilər. Əsli Orta kənd Tahirlidən olan Şöşü "orda – Tahirlidə də belə elədilər", – deyib Səmiyə baxanda, hər ikisi eyni anda eyni söz dedi: "Podpolye?!" Əmma bu hakimiyyətin bu dərəcədə reallığına heç biri inanmadı. Hədə ilə qapı, pəncərə döyüb xəbərdarlıq edənlər, icra başçısının, polis rəisinin, polislərin baş verən hadisələrə qarışmağına imkan verməyən, şübhəsiz, OMON-larla, Müsavatçılarla qarışıb özlərini hökmran hiss edən Boz qurdlardı. Boz qurdlar isə, Rusiyada yox, Nəcəfin rusca çərənləmələrinə görə, Türkiyədə Millətçi Hərəkat Partiyasının daxilində indinin özündə də mövcud olan "Boz qurd" təşkilatının əsgərləri idi. Bu qarışıq dövrdə siyasi məsələlər haqqında yalnız ikilikdə danışan bu iki dost heç cür təsəvvür edə bilmirdi ki, Boz qurdlar İlanın göstərişi ilə hazırlanmışdı, adının Boz qurd qoyulması isə, azərbaycanlıları çaşdırmaq, Türkiyəyə qarşı qoymaq üçün idi. Rus "podpolye"sinə tabe "OMON"ları – "xüsusi təyinatlı" milisionerlərdən ibarət batalyonları Boz qurdların arasında görəndə Səmigil hətta onların da keçmiş Türkiyə komandanlığına tabe hissələr olduğuna inanmadılar. Çünki "Sovet yıxılsa da", "Azərbaycanda "podpolye vardı axı". "Həqiqi türkçülük yayan keçmiş prezident Elçibəyin dəfələrlə təkrar etdiyi kimi: Azərbaycan Türkiyənin canbir-qanbir qardaşı idi. Babanın isə Türkiyə ilə Azərbaycanı "bir xalq, iki dövlət" adlandırması "ermənisifət"lərin zamanının artıq dəyişməyə başladığını göstərmirdimi! Bəs o "xüsusi"lərin burada bu qədər açıq-açığına meydan sulamağı nə ilə izah olunurdu?! Bu sualların cavabında nidalı sözlər səsləndi: "erməni diasporu! İlana arxalanan dövlətli diaspor!" "Boz qurd" doğrudan da İlanın nəhəng quyruğunda ermənisifətə bağlı deyildisə, o Azərbaycana niyə belə əsarət gətirmişdi?! Şübhələrlə dolu ürəklərini heç kəsə aça bilməyən dostları dəhşətə gətirən bu idi ki, min doqquz yüz doxsanıncı ildə SSRİ əsarətinə qarşı kütləvi mitinqlərlə fəaliyyətə başlayan Azərbaycan Xalq Cəbhəsi – "AXC" hakimiyyəti "OMON"la yanaşı, məhz Boz qurdların əli ilə alıb "Müstəqil Azərbaycan Respublikası" elan edəndən sonra

birbirinə “bəy” deyən AXC-çi rayon məmurları ilə birlikdə bu “gədə-güdələr” də İlanın quyruqları idilərsə, bunların – Boz qurdların “kolxoz”u həm talamaqları, həm də ləğv etməyə mane olmaları nə deməkdi?! “Mı vsex vas perestrelyayem” sözləri erməni-sovet “birliyi”nin qərarı idisə, Elçibəyin Boz qurdları o bədbəxtin xəbəri olmadan erməni diasporuna bağlanmışdı?!

Bir sual da vardı: İlanın “Bəy”lərinin torpağı, malı, qoyunu mənimsəyib, sənayeni dağıdıb, satıb varlanması həqiqi bəylik niyyəti idisə, diasporla katolikosların Yer kürəsinə sarınmış hörümçəyi gizlətmək vacibdisə, Boz qurdların, OMON-ların, Müsavatın “kolxoz”quruluşunu – Sovet hakimiyyətini saxlamağa çalışmasilə, İlan, səhvə yol vermişdi?! Başqa cür necə izah etmək olardı? Bu qədər anlaşılmaz hərc-mərcliyin altında nə vardı?!

Səmi boz duman qaranlığına baxa-baxa, son vaxtlar nəinki röyada, hətta oyaqlıqda da ətrafında gördüyü “ət torbaları”nın bəlkə də sadəcə öz “interes”ləri – mənfəətləri üçün belə taraqqa-taraq pəncərə döyüb qaçdıqlarını güman edib, “bir az da yatmaq” istəyib, qayıdıb taxta uzandı.

Əmma daha yata bilmədi. Bu üçpara kənddə anlaşılmaz “işlərə baxan”, qeyri-adi dərəcədə nadan sifətli – azsavadlı “gədəciklər” biri-birinə “a bəy”, “a bəy” deyə-deyə Sudüşənin ət torbalarına qarışıb, murdar yerlərdə iyrənc qurdlar kimi qaynaşa-qaynaşa, insan başlı xırdaca-xırdaca ilanlara çevrilib dövrəsində fırlandılar. Ağ, lopa bığ altında bozaran dodaqlar: “Sən çıx get burdan!” – dedi, sonra qəzəblə, hiddətlə: “Nəcəfi çağıraram!” – dedi. Qurdlar, AdıPünhanın dediyi kimi, “zəmanənin qatı dumanında gözə görünməyən Rim ilancığazlarına” qarış–quruş olub camaata qarışanda yenə o lopabığ, sonra Çömçəyalayan göründü: “Apararıq küçüyünü, mülkünü satsan da alammazsan!”, “Cığa” mamayın başından nöyüdü töküb, spiçkəni çəkib cızır-bızır yandırarıq!”, “Nəcəf o Gül xalannan Cığa mamanı oçeredə qoydurar kəndin ortasındaca!”, “Şöşü qağannan bir yerdə, ikinizi də axtalatdırar Nəcəf”.

Səmi yorğanı atıb, taxtdan yerə atıldı. Markın dediyinə görə, yuxu ilə reallıq arasında baş verən “koşmar” Səmiyə atasından keçmişdi: irsi xəstəlik kimi bir şey idi. “Sultan əmində də olub bu. Atanda da, zəmanə xəstəliyidi bu”, – deyirdi, “Neyləmək olar, doroqoy moy? Vraç ved daleko ne Boq!..”

Səmi divar dibində ikinci taxta baxdı: Şöşü yenə yoxdu. Yəqin ki, Şüşəlidə, dal otaqda pivə dolçası ovuclarının arasında, oturduğu yerdə yatırdı. Səmi onu bu vəziyyətdə çox görmüşdü.

Taxtdan yerə sallanmış yorğanın sarı ipək üzündə soyuq bir işıq nöqtəsi görünüb, yox oldu. Təftiş Abbasın kandarda çəkdiyi papirosun közərtisi idi, divarda güzgüdə əks olunub ipəyin üstünə düşmüşdü. Əmma Səmi, içəridə hiss olunan papiros qoxusu ilə birləşib xof törədən bu gözlənilməz işıltıdan diksindi. Yenə də üşürgələndi, canından alov qalxdı. Xəstə idi Səmi. Çox pis xəstə. Sinirləri, ürəyi. Mark deyirdi: "Səni söküb yenidən düzəcəm, Acar,[1] Otar moy", "Başımız açılsın, səni düz bir il Soçidə saxlayacam, doroqoy!" – deyirdi. Səmi isə ilk baxışda "zavtrak"da, naharda, şam yeməyində də dolça ilə çaxır "vuran" yekəqarın, arsız adam təsiri bağışlayan, əmma əslində "Revaz doxtur"dan seçilməyən həkiminə ciddi, qəmli sifətlə: "Ölmərəm. Midini tək qoymaram!" – deyirdi. Yəni gümrahlığını saxlamağa çalışırdı və belindən dözülməz ağrı qalxanda da dözməyə çalışırdı. Taxtdakı "koşmar"dan sonra bu işıltını görüb papiros qoxusunu hiss edəndə isə, tapançasını qoltuğundan, qapaqsız qoburdan əlinə çəkməyi, düşmənə tuşlamağı bir göz qırpımının işi olsa da, Nəcəfi arxasında güman edib, artıq dözümsüzləşmiş kimi, ruhsuz, taqətsiz:

– At, – dedi, – at, Nəcəf! Əmma söz ver mənə. Sənin kişiliyin də var. Söz ver ki, uşağa, Cığa mamaya, Gül xalaya toxunmuyacaqsan. Söz ver! Yoxsa, bütün aboymanı kürəyimə doldursan da, alnına bir güllə sıxmağa taqətim qalar...

Arxadan Təftişin səsi eşidildi:

– Nəcəf deyiləm, ay yazıq bala! Soyuqdu, yaxşı geyin. Gəl, gözləyirəm. – Ara verib: – Əlləzoğlu başımıza oyun açıb, – dedi.

Papiros işıltısı aralandı. Səmi, qeyri-iradi, işıltının arxasınca bir neçə addım atıb dayandı. Köynəyinin açıq yaxasından bədəninə dolan soyuqdan kürəklərini tərpədib, qollarının tüklərini yatımına sığayıb, sinəsini qucaqlayıb duruxdu. Qəsəbə ilə kənddə AXC sədrliyi Xəlvət Rəhimə veriləndə Səmi, Şöşü, bir də Zal kəndin

---

[1] Acariya vilayətində yaşayan "Acar" türkləri də "Otar"lar kimi, əsli Əlvənd dağı ətraflarından UcƏr OdƏrləridirlər. Məhz buna görə Stalin əmr vermişdi ki, "Acar"lar müxtəlif ərazilərə sürülüb, Türkiyə ilə Gürcüstan arasında sərhəddən uzaqlaşdırılsınlar.

qoca-qoltaqlarını yığıb Təftiş Abbası Ağsaqqallar Şurasının sədri seçdilər. Kolxozda idarə heyətinin sədrliyi bu iki nəfərdən hansına verilməli idi, – bilən yoxdu; ikihakimiyyətlilik, bir növ də hakimiyyətsizlik yaranmışdı. Əmma Səminin xahişi ilə Məmiş Əlləzoğlunu yaxın dağların ətəklərində kahaları qaralan fermada erkək sürüsünə baş çobanlığa Xəlvət yox, Təftiş göndərmişdi.

Məmiş Əlləzoğlunu – Göbələk Məmişi ən çox xoşlamayan, hələ uzun illər bundan əvvəl: “Kolxozun bir iynəsini də etibar eləmək olmaz Göbələyə”, – deyən Təftişin bu dəfəki güzəştinin səbəbini Səmi də bilirdi, Şöşü də, Zal da: “Agentdi. Kənddən aralı olsa yaxşıdı”, “Qulağımız dinc olar”, – deyirdilər. Əmma heç kəsin dilə gətirmədiyi bir səbəb də vardı: Gül xalanın dediyinə görə, Cığa mamanın ətrafında yayılan iyrənc söz-söhbətlərdə Əlləzoğlu özü də iştirak edirdi.

Vaxtilə, hələ təzə-təzə “likbez”ə – savad kursuna gedəndə Göbələk Məmişin bir gödək “ximiçeski karandaşı” varmış, kənddəki ədalətsiz işləri hökumətə, yəni “Gepo”ya yazanda o “ximiçeski karandaş”ı tez-tez dilinin ucu ilə yaşlayarmış. Kişilər hər səhər kolxoz idarəsinin qabağına, briqadirlərdən “naryad” – iş tapşırığı almağa yığışanda, o illərdə dörd briqadirdən biri olan Təftiş Abbas, Əlləzoğlunu görər-görməz: “Dilini çıxart görüm bu gecə donos yazıbsan, yox”, – deyərmiş. Xəlvət Rəhim AXC-nin sədri olandan bəri Əlləzoğlu daha gecədə bir dəftər vərəqi doldurmağa ehtiyac görməyib, “donos”u xəlvətin qulağına pıçıldayırdı. Əmma aradabir yenə yazmışdı və necə olmuşdusa, o yazını qocamana – prokuror Sayılova vermişdilər, Sayılov isə, bir zaman Əmirlilərə sui-qəsdlərin təşkilində iştirak etdiyinə və şübhəsiz, Səmiyə qarşı da düşmən münasibəti saxladığına baxmayaraq, “donos”un surətini Şöşüyə vermişdi, Şöşü isə Səmiyə oxumuşdu:

“Məlumunuz olsun ki, qızım Gülgəzin tutma bacılığı Gül deyilən Gülbəniz Xalıq qızı lap cavan vaxtından bəri anası Badsəbadan da betər qəhbədi. Bizim kənddə heç kəs istəmir o pozğun arvadı, qızım da istəmir. Əmbə mənim qızımın rəhmətdik oğlu Mədəd Əmirlinin yadigar oğlu, mənim dosdoğmaca nəticəm Midi o qəhbənin öyündə[1] olur. Hökumətdən xahiş də eləyirəm, qızımın nəvəsini, mənim nəticəmi Gülbəniz Xalıq qızından alıb versin özümüzə. Nolsun ki,

---

[1] Ev

qızım xəstədi. Anası Hənifə, yəni mənim həyat yoldaşım sağlam adamdı. Əli-ayağı möhkəmdi. Uşağa yaxşı baxar. Mən özüm də əlimdən gələni eləyərəm. Həm də var-yoxumu nəticəm Midiyə vəsiyyət eliyərəm. Çox xahiş eləyirəm, mən doxsan yaşında zəhmətkeş qocanın xahişini yerinə yetirin. İmza: Məmiş Əlləzoğlu".

Çox anlaşılmaz və heyrətli idi ki, Sayılov bu yazını "ərizə" yox, məhz "donos" adlandırırdı. Kimdən? Gülbəniz Xalıq qızından? Xeyr! Səməd Səməd oğlu Əmirlidən – Səmidən donos! Çünki ərizənin aşağısında qeyd vardı: "Gülbəniz Xalıq qızının polis Səmiynən əxlaqsızlıq elədiyini və uşağın belə bir əxlaqsızlıq şəraitində böyüdüyünü öz imzalarımızla təsdiq edirik: "Rəhim Qudalı, Nəcəf Qudalı, Möcüz Qudalı".

İlin əvvəlində, yəni prokuror Sayılovun bu "donos"u Şöşüyə verdiyi və Şöşünün Səmiyə oxuduğu günün axşamı Cırımağız mülkə gəlib Çürük Aşığın cürəsini divardan endirib Midinin qucağına verib, özü Mədəd əminin sazını döşünə alanda Səmi çox pis, əsəbi hərəkətlə sazı Möcüzdən alıb soruşmuşdu: "Əvvəlcə, de görüm, Məmiş Əlləzoğlunun yazdığı donosa qol çəkmisənmi?!"

Möcüz tamamilə sakitcə: "Acığın tutmasın, Səmi əmi, qol çəkmişəm", – demişdi. "Niyə?! Yazı böhtandı axı!" "Orasını babamdan soruş. Babama mən nə təhər deyim böhtandı, qol çəkmirəm. Donuz qibləsinə boğazlamazmı məni, ay Səmi əmi?!"

İyirmi bir yaşlı, musiqi təhsilli bir gəncin belə deməyi, əlbəttə, boş-boşuna deyildi. Səmi "donos" dan xoflanmışdı və məhz buna görə də Əlləzoğlunu kənddən uzaqlaşdırmağı, kolxozun dövlətə ətlik planını ödəmək üçün saxlandığına görə gecələr də örüşə çıxarılan erkək sürüsünə baş çobanlığa – ağır işə göndərtmişdi ki, orda başı qarışsın, nə isə xüsusi niyyətlə yayılan söz-söhbətlərdə iştirak etməsin.

Təftiş: "Əlləzoğlu başımıza oyun açıb", – deyəndə Səmi, canı üşütməli, sinəsini qucaqlayıb, papiros közərtisinin dalınca baxa-baxa yuxarıda deyilənlər barədə fikirləşsə də, Təftişin sözlərini yalnız təsərrüfatla əlaqələndirdi.

Səminin xəbəri yoxdu və ola da bilməzdi ki, vaxtilə Əlləzuşağının ağlı-qaralı sürüləri içində cibi qızıllı gəzən bu cırtdan kəndçiyəzin – Göbələk Məmiş Əlləzoğlunun "oyun"u heç də təsərrüfat-filanla yox, onun – Səminin özünün, Midinin, Cığa mamanın, bir neçə yaxın, əziz adamın və bir çox başqalarının taleyi ilə bağlı idi.

Duman içindən Təftişin getdikcə uzaqlaşan deyintisi eşidilirdi:

– Allah əlimizdən alsın səni! Papağın boş qalsın! Nə vaxt öləcəksən, ay itoğlu, canımız nə vaxt qurtaracaq sənin əlindən?! Anbarın qabağına sür arabanı!..

Səmi qocanın deyintisini eşidə-eşidə qayıdıb, "operativ işə" keçəndən bəri "əlinin altında" – taxtın böyründə stulun başına yığdığı paltarını vərdişli iti hərəkətlərlə əyninə keçirib, üstündən boynu isti dərili gödəkcəsini geyindi. Cibinin birinə əlavə tapança "aboyması" ilə bir qumbara, o birisinə əlavə avtomat mağazası qoyub, avtomatı çiyninə keçirib, çıxırdı ki, birdən gözlənilməz, gur işıqdan gözləri qamaşdı: evdə "lyüstra" – qəndil, həyətdə elektrik dirəyinin başında yüzlük lampa yandı. Sütunların – balkon dirəklərinin arxasında Şöşünün ağsümük üzü ağarırdı. Nə hədsiz uzun, hədsiz enlikürək bədənində, nə də üz-gözündə sərxoşluq əlaməti hiss olunurdu. Quru dodaqlarını, uzun çənəsinin dərisini dartan səssiz gülüşlə, sərxoş olanda zümzümə etdiyi mahnısını – "ninnini" oxuyurdu:

– Niiinnini ninnini,
sevindirdim Səmini
ki, könlü açıq olsun,
davalara son qoysun,
qağası ilə yüz vursun.
O da desin ninnini,
a niiinnini ninnini,
a niiinnini ninnini!

Bu qeyri-ciddi zümzümənin ardınca hökmən bir əlində tut arağı, o biri əlində "kapçonnı kolbasa" peyda olmalı, dördkünc, xarici araq şüşəsinin başından iki qapaq-qədəh çıxıb elə oradaca dolmalı idi. Bunun ardınca isə:

– Sabahın xeyir, a Səm-səmi!
Əbləh olma,
dava salma, a Səm-səmi,
ninni!..

Səmi bu dəfə imkan vermədi .

– Nəsə olub fermada. Əlləzoğlu gəlib arabaynan. İçmirəm. İcra başçısı, rəisimiz, hamısı burda olacaq bu gün. İçmə!

Şöşü elə bil heç nə eşitmədi. Şüşənin başından iri stəkan – qapaq, o stəkanın altından ikinci qapaq – qədəh çıxarıb doldurdu. Kolbasını yarı qırıb Səminin ovcuna basdı.

– Əlləzoğlunun sürüsünə qırğın düşüb, cəhənnəməcən düşsün! Ninnini! Bayaq Şüşəlinin yanında Gül xalanın Pələş itinə düz bir xurcun dolusu erkək içalatı tökdü Əlləzoğlu, it bir az yedi, qusdu-qaytardı. Deyirəm, bu it niyə belə elədi? Dedilər, erkək sürüsü bütüncə zəhərlənib qırılıb. Lap elə dünəndən qırılsın, bizə nə, a Səmsəmi?! Tut qədəhini, vur! Təbrik eləyirəm!

Səmi öz payını yerə töküb, kolbasadan dişlədi.

– Nəyi təbrik eləyirsən?

– Bıy! Əşi, işığı görmürsənmi?!

Səmi, fikri dağınıq, yüzlük lampaya baxdı.

– Doğrudan ey! Bu nə möcüzədi?!

Şöşü yüz qramlıq qapaq-stəkanı su kimi başına çəkib, iştaha ilə kolbasa yeyə-yeyə:

– Təfsilatını Murtuz kişi özü danışacaq sənə. Qısası budu ki, transformatorumuzu Nəcəfin ot tayasının altından tapdım, qurdurdum. Axşamdan bəri çimir də eləməmişəm. İnsafın olsun, Səmi, dilxorçuluq salma, qədəhini bəri tut. Vurmağa dəyər, vallah! Bütün rayon işıqsız, zülmət içində, Qonaqlıda – işıq! Dəmiryolundan çəkdirdim ey! Doldurum?

Səmi maraqlanmışdı.

– Dayan görüm. Murtuz kişi kimdi?

– Əşi, Qocamanı deyirəm da! Sayılovu. Prokurorumuz tutdurdu Nəcəfi!

– Nə?! Sayılov?! Nəcəfi?! Elə şey olmaz, Şöşü! Röya görmüsən?!

– Deyirəm çimir də eləməmişəm! O sənsən, oyaq vaxtı röya görən. İç, a ninnini! Murtuz kişi gələcək bura. Sənnən vacib işi var. “Səminin xeyrinədi”, – deyir. “Mən onu çox istəyirəm”, – deyir. “Kişi oğlu kişidi”, – deyir.

Səmini heyrət götürdü.

– Sayılov?! Məni çox istəyir?! Araq lap xarab eləyib sənin başını, Şöşü! Ay axmaq, mən sənə neçə dəfə danışmışam ki, səksən səkkizinci ilin dekabrında Xaş nəçənnik Gülənov deyilənin bu Qudalılardan olan milisənerləri atam Səmədi ölümcül döymüşdülər, atam Şüşəli pavilyonda ağrıdan zarıya-zarıya, araq içə-içə can

verirdi, o Murtuz kişi dediyin Sayılov da hamanca milisənerlərnən pavilyonun dal otağında rumka döyüşdürürdü! Belə şeyi də yaddan çıxardarlarmı, Şöşü?! Utanmırsan?!

Şöşü başını buladı:

– Eh, eh, a ninnini! Bə mən də sənə deməmişəmmi ki, ermənilərnən ruslar Kəlbəcərə doluşanda bu Qudalı gədələri də ordaymışlar. Gəlib Sayılova deyiblər erməni bütüncə qırdı sənin ailəni. Meyitlərin yerini bilirik. Hər meyitə on min ver, gedək çıxardaq güllənin altından!.. O vaxtdan Sayılov şübhəlidi bunlardan, a ninnini! Material yığır, adam axtarır üzlərinə qoymağa. Xəlvət Rəhim bilir mən kömək eləyirəm prokurora, yanıyır məni. Təhlükəli yerlərdə sənə də "Nəcəfi çağıraram", – deyir, çağırmır, Boz qurdları qabağa verir ki, sənin qanını onların üstünə töksün. Onlar da ki, bilirsən, qudurublar. Vurarlar səni, uşaq sahibsiz qalar. Qocamana arxalan sən, a Səmi.

Səmi qətiyyətlə:

– İnanma Sayılova! Özü canidi! – dedi. – Yıxıl yat. Sürüləri paylamalıdılar camaata. Yat, ayıl! Bir-iki saatdan sonra Hacıehsan çəməninə gəl. Döyüşəcəksən qurdlarnan!

Şöşü birdən ciddiləşdi. Gözlərinin dövrəsində qarayanıq dairələr tündləşdi.

Cavanlıqda onillik məktəbi qurtaran ili, təzə-təzə şeir yazdığı vaxtlar Şöşü adam öldürmüşdü: sevgilisi Ruqiyyə ilə kobud rəftar eləyən və ümumən Ruqiyyədən əl çəkmək istəməyən o qanmaz oğlanı illər uzunu döyüb, nəhayət, öldürmüşdü. İndi adını çəkdiyi həmin "Murtuz kişi"nin – prokuror Sayılovun ittihamnaməsi ilə ömürlük həbs cəzasına məhkum olunub, Sibirə göndərilib, bir il "yatandan" sonra "Xruşşovun vaxtında" "əfvi-ümumiyə" – kütləvi bağışlanmaya düşüb qayıtmış və elə o ili də həmincə Sayılovun zəmanəti ilə "sistem"ə – milisəyə işə götürülmüşdü və o vaxtdan da bu ağ saçlı adam "elə ryadovoy milis" işləyirdi.

– Mən heç kəsə əl qaldırmaram, Səmi. Canilərdən qaçıram. Tahirli camaatı indi də "qatil" deyir mənə, incimirəm. Əmbə sən... Sən bu dediklərimə laqeydsən. Sənin həyatıyın ən gizlin tərəflərini bilirəm mən. İcra başçısının cibində AdıPünhanın təzə məktubu var. Bilirsən nə yazıb? "Səmini DİN-in sərəncamına göndərin, Qudalılar-

dan əl çəksin”. Qandınmı, a ninnini! Məhdud adamsan, a ninnini! İçin elə qaynayır ki, öz daxilinə qapılıb bir dəfə də mənnən maraqlanmırsan, soruşmursan ki, niyə bu qədər içirəm, bu nə “ninnini” di belə! Dilimdən düşməyən “Ruqiyyə” adıynan da maraqlanmırsan. Ruqiyyə hələ də ərə getməyib. Hələ də deyir, “Şöşü ağlını başına yığsın, içməsin, gəlsin evlənək”. – Danışa-danışa qapaq-stəkanı bir də doldurdu. – Bu yaşda adım hələ də “Şöşü”dü! Niyə, a ninnini? Çünki ninniniyəm da! Tək sənə bağlanmışam bu dünyada. Dostsan, dost məsləhətinə bax, ey məhdud dost! Burax bu işləri. Kolxoz ləğv olunur, sürülər paylanır, cəhənnəməcən paylansın! Azərbaycanın içini söküb yeyirlər! Sənə nə, mənə nə, a Səm-səmi?! Al! İç, a ninnini! Get Ruqiyyəynən danış. Şüşəlinin çto-mçto qancıqlarından iyrənirəm! Aşağıma əyilirlər. Lap pozulmuşam, a Səm-səmi! Evləndir məni, bir-iki ay insan həyatı yaşayım. Sonra da evi-eşiyi sataq, keçək Türkiyəyə. Vallah, billah ciddi sözümdü! Ruqiyyə deyir “mən də gedərəm Türkiyəyə”. Burdakı gizlin düşmənçilik, terror-filan orda daha qatıdı. Əmbə yaşayış da var, a ninnini! Lap bu yaxınlarda bilmişəm ki, Diyarbəkirdə, Qarsda Tamay nəslindənəm mən. Məktub yazdım, cavab aldım. Yalvarışırlar: “Gəl! Gəl, DİN-in[1] sərəncamınazada da getmə! Azərbaycanın özünü pay-bölüş eləyirlər, olmuyacaq Azərbaycan! Qandın?! Türkiyə, yenə Türkiyə! Razısan?

Səmi qədəhi dəmir boru sütuna çırpdı.

– Yüz qramdan sərxoş olursan! Bilmirəm Ruqiyyə neynir bu yurdsuz-yuvasız çal iti?! Get, yıxıl yat!

Şöşünü içəri itələdi. Bütün bədəni titrəyirdi:

– Diyarbəkr! Qars! Yurdu dağılır burda, bu heyvan Türkiyədə xoşbəxt olmağa gedir!

Şöşü geri çevrildi:

– Özünü dağa-daşa vurma. Xeyri yoxdu, a ninnini! Azərbaycanın işi p...du, a ninnini! Əlləzoğlunun sürüsünə qırğın düşüb, sənə nə?! Ruqiyyə deyir...

Səmi qapını onun üzünə çırpdı.

– Yat deyirəm! Əclaf!

---

[1] Daxili İşlər Nazirliyi

## 6

Yavaş-yavaş ordan-burdan sökülüb seyrələn duman içində, dördtəkərli kəl arabası boğuq cırıltı ilə Orta yolla anbara doğru gedirdi. Arabada qalaqlanmış yükün arxasında Əlləzoğlunun papağı qaralırdı. Bir az kənarda Təftiş Abbas əllərini ağzının qıraqlarına tutub, kəndi başına götürmüşdü:

– Ay Zal! Ay Zal! Erkək sürüsü zəhərlənib, qırğın düşüb! Eşidirsənmi, erkək sürüsünə qırğın düşüb! Dörd yüz heyvan ölüb! Dörd yüz! Şoferi oyat, o maşın deyilən zibilini xoddaya bilsə, gəlin, bu yanda, yolun qırağında içalat var, apar analiz elətdir, kağız gətir. Sonra gedin ət daşıyın gətirin, xarab olmamış aktlaşdıraq, özün də get üstüynən, satın ət kombinatına-zada!..

Səmi yalnız indi fikirləşdi ki, sürü zəhərlənibsə, Təftiş ferma müdirini, zootexniki yox, niyə məhz polis müvəkkilini oyatdı? Cinayət vardı? "Əlləzoğlu başımıza oyun açıb?" Demək, cinayət? Əlləzoğluna aid idi?

"Donos"u xatırladı, bayaq dumanı görəndə olduğu kimi, içərisində sıxıntı hiss etdi. Gül xala kimi ana əvəzi qayğıkeş qadına o cür böhtan atan adamla üz-üzə gəlmək istəməyib, Təftişə:

– Ayaq saxla, Abbas əmi, – dedi. – O nədi, necə zəhərdi elə? Birdən-birə dörd yüz erkək!

Təftiş, müəmmalı:

– Danışdırarsan o yassarı, özü danışar, – dedi. – Şöşüynən elə qışqırtılı danışma, düşmənin qulağı sizdədi. Türkiyəyə buraxma onu, adamımız qalmır o da getsə. Gəl, gəl, danışdır bu yassarı! Sonra özümün sözüm var sənə. Mətləb adam üstədi. Heyvan üstə yox. Əmbə o qədər heyvanın birdən qırılmağı da zarafat-məsxərə deyil.

Araba irəlidə, alçaq, uzun anbar binasının həyətində dayandı. Bina ağaran üfüqün qabağını kəsdiyinə görə həyət qaranlıqdı. Əmma Əlləzoğlunun arabadan düşüb, əlini qulağının dalına qoyub söhbəti dinlədiyi görünürdü.

Təftiş deyirdi:

– O dağ ətəkləri, bilirsən, bizim dədə-baba örüşümüzdü. Səksən dörd yaşım var mənim. Dörd-beş yaşımdan sonra səksən ildə bu həndəvərdə nələr olub, hamısı yadımdadı. Vaxtıynan canavar çoxuydu. Heyvana zərər verən də elə canavarıydı. Zəhər nədi, zad nədi?! Nə oldu indi, Əlləzoğlu sürüyə baş çoban gedəndə birdən-

birə bu qədər heyvan ağıya düşdü?! Üstəlik, pay-bölüş vaxtı! Danışdır heyvanı. Tutulmalıdı, tut. Əmbə onu da deyim ki, ayrı bir iş də var, ay oğul. Yenə deyirəm, mətləb adam üstədi.

– Nə adam?

Təftiş papiros yandırdı.

– Hələ deyəmmərəm, – dedi. – Sən əvvəlcə o heyvanı danışdır. Xəlvətnən, Boz qurdlarnan, sənnən də bağlıdı bu qırğın. Yəni qırğınzad deyil əslində. Yaxşı-yaxşı danışdır o murdarı!

Səmi içərisində anlaşılmaz döyüntü hiss edə-edə yaxınlaşıb, alaqaranlıqda Əlləzoğlunun gözlərində yaş parıltısı görüb duruxdu.

Kişi ağlayırdı.

– Evciyəzim yıxılıb. Üç yüz yetmiş leş düzülüb yatağın[1] qabağında! Otuzunu gətirmişəm bu arabada. Polissən, sənin sözün zakondu burda. Rəhmin gəlsin mənə, dərdin alım! Uyma onun-bunun sözünə. Qabağında ölüm, ay Səmi balam! Ay Səmədimizin yadigarı, bircə Midimizin arxası axt[2] yazdır, qurtar məni! Odey, it də yeyəmmədi içalatı! Neynirsiniz yoxlatdırıb. Baytar həkim elə yazmadı, belə yazdı, evim yıxılmazmı, dərdin alım?!

Əlləzoğlu əməlli-başlı, gildir-gildir yaş tökürdü. Əmma sızıltısı kədər yox, ikrah doğururdu. Çünki özü başdan-ayağa ikrahdı; çobanlıqda rəngi bir az durulmuşdusa da, boğazı armud saplağı kimi qaldığına görə hıçqırdıqca boynu irəli-geri gedib-gəlir, sısqa bədən üstündə göbələk papaq silkələnirdi.

– Qapımda vur-tut on heyvanım var. İynəynən gor qaza-qaza, nə zəhmətnən saxlamışam... – Əlləzoğlu birdən hönkürüb, pi-pi-pi! – eləyib, pişik asqırığına bənzəyən qəribə səslər çıxartdı.

Təftiş arabanın üstündə gülürdü.

– Pa atonnan! Ə, bu nə təhər ağlamaqdı, a Məmiş!

Əlləzoğlu bu dəfə çox təbii hönkürdü.

– Ağlamağın nə təhəri, ay Abbas!

– Səmi sənin üzünə, astarına bələd deyilmi, kimə gəlirsən bu nömrəni?! Bəsdi iyrəndirdin bizi sabah-sabah!

– Sən... sən onsuz da qansız adamsan, a dərdin alım, ölsəm də rəhmin gəlməz.

Təftiş elə gülürdü.

---

[1] Yataq – kaha

[2] Axt – (akt) baş vermiş hadisə haqqında rəsmi sənəd

– Sən məndən qabaq ölsən bilirsənmi, neyliyəcəm? Taxacam səni bir payanın başına, günün altında qurudub qaxac eləyəcəm, sonra da aparıb qoyacam dörd yol ayrıcına, gedən də, gələn də tüpürsün cəmdəyinə.

Danışa-danışa, arabada üst-üstə qalaqlanmış dəriləri bir-bir qaldırıb cəmdəklərə baxırdı.

– Adam deyilsən, ey, ay yerə girəsən səni! Heyvan zəhərlənəndə, görünüb, iç-çalatını,[1] ciyəri-filanı da üstündə, bütüncə gətirərlər ki, həkim baxsın, zaklyuçeniye yazsın, kolxozun idarə heyətinin qəmisyəsi də o zaklyuçeniyenin əsasında akt yazsın, qanuniləşdirsin zəhərlənməni ki, çoban bədbəxt ödəməsin.

– Sən bə niyə gətirməyibsən iç-çalatları, ay heyvan? Gətirdiyini də niyə elə qotur, yeməz-içməz itin qabağına tökdün? O da elə murdarladı!.. Nə təhər eliyək indi biz, ay Səmi bala? Zəhərlənmənin heç olmasa bir əlaməti yazılmalıdı, axı, aktda! Gözlüyəkmi həkim kağızını?..

Səmi qocanın deyintisinə o qədər də fikir vermirdi. Təftişin bayaqkı sözlərindən ürəyinə gələn narahatlıqla yaxınlaşıb, çəkməsinin burnunu Əlləzoğlunun çarığının burnuna vurdu.

– Heyvan nədən zəhərlənib, əşi?

Əlləzoğlu papağını çıxarıb, bir sağdan sola, bir də soldan sağa, üzünə çəkdi, gözünün yaşını silmək əvəzinə ağız-burnunun suyunu bir-birinə qatıb, bir-iki dəfə də "pi-pi" eləyib, başını qaldırdı:

– Nə dedin, dərdin alım?

– Soruşuram, heyvan nədən zəhərlənib?

– Siçan dərmənindən, dərdin alım.

– Siçan dərməni?.. O nədi, a kişi?!

Əlləzoğlu gözlənilmədən ciddiləşib, papağın saçaqları arasından gözlərini Səminin üzünə dikdi:

– Bakı səni xarab eləyib, siçan dərmənini də bilmirsən? Məni niyə söylədirsən, ay oğul, siçanı, siçoulu, mişoulu-zadı qırmaqdan ötrü taxılın arasına tökdürdüyünüz zəhrimarı deyirəm də... Əkəpikə kişisən, qapıdan girəndə ikiqat olursan, bilmirsənmi ki, Sovet vaxtı maşınnan daşıyıb şumun qırağına tökülən dərmən eləcə qalıb, yaxın duran, yiyəlik eliyən yoxdu indi! Bir bu Təftişdi kolxozu

[1] İç – qarın, bağırsaq. Çal (al) at.

istiyən, bir də bunun gədəsi Qara Zaldı. Adamlarını göndərirlər ki, gedin, o...zərərverici deyirlər, nə deyirlər, Allahın siçanının adını da dəyişdiriblər!.. Gedin o zərərvericiləri zəhərləyin, deyirlər, o zəhrimarları torba-torba dağıdırlar şuma, yel də vurub dağıdır çölə. Belə çıxır ki, siçan, siçoul, mişoul zəhərləmək əvəzinə erkək zəhərləyirlər!.. Heyvanı qıran özü, məndən iç-çalat istəyir! Oğluynan bərabər özü də məhkəməlikdi bu Təftiş, ay oğul!

Səmi azacıq əvvəl imdad diləyən, ağlayıb-sıtqayan, indi qəfil ittihamnamə oxuyan bu adamın qarşısında xeyli susdu. Sadəcə, bu adamı başa düşməyə çalışırdı. Əlləzoğlu niyə belə dəyişdi? İnildəyib-sızıldamaqla onun ürəyini yumşalda biləcəyinə şübhəmi elədi?.. Yoxsa... necə yəni "söhbət adam üstədi?!" Hansı adam?! Nə adam?!

Kolxozun yeganə yük maşını "kuza"sının sınıq-salxaq taxtaları taqqıldaya-taqqıldaya, gəlib Ortayolun ortasında dayandı. Zal, çallaşmış saçları dağınıq, iri başını pəncərədən çıxarıb bəri baxanda Təftiş yolun qırağını – Əlləzoğlunun çəpəri tərəfi göstərdi.

– Odu ha içalat, bir şeyə bükün təmiz yerindən. Əmbə tez gəlin ha! Məsim gələcək bir azdan.

Maşın getdi.

– Gözləyək, görək nə gətirir Zal. – Təftiş arabadan düşüb, anbarın çardağının dirəklərindən birinin dibinə mıxlanmış alçaq, uzun "skamya"nın ucunda oturub başını sinəsinə əydi. – Allah zəhərləsin, ilan çalsın səni, ay Məmiş. Eşitdim bunu, axşamdan səhərəcən çimir də eləyəmmədim. Camaatımız şəhərdə-bazarda, burdakılar da burda ac-yalavac! Bu yandan da bu – dörd yüz erkək! Tfu! Bilirəm Zal nə gətirəcək, dədəni yandıracam! – deyib susdu. Bircə dəqiqə sonra yatmışdı.

Səmi də "skamya"nın bu biri küncünə çökdü.

Günəş anbarın arxasından qalxıb, yolun o tərəfindəki uzunsov dikdiri işıqlandırdı. Əmma hava hələ soyuqdu.

Səmi gödəkcəsinin boyunluğunu qaldırıb, Təftişə baxdı. Qonaqlının "qəlyanlı qocaları"ından ən məşhuru – Çürük eynilə bu cür, həmin bu "skamya"da oturub, kürəyini dirəyə söykəyib, çənəsini sinəsinə dayayıb, beləcə keçinmişdi, camaatın dediyi kimi, "quş kimi uçmuşdu". Səminin o biri həyanı Xızr Abı isə, bir günorta üstü evdə, yuxarıdakı taxtda bardaş qurub, köksünü ötürüb: "Ömrüm Çürüknən çiyin-çiyinə keçib. Çürük getdi, mən də getməliyəm, ay oğul!" – dedi

və o gündən düz bir həftə heç nə yeməyib, elə “Su, su. Bir damcı su ver,” – dedi. Səmi qocanın əzabına dözmürdü, gündə bir neçə dəfə təkidlə soruşurdu: “Bir şey istə, baba! Nə yeyirsən? Könlün nə istəyir?” Abı isə elə hey başını bulayırdı: “Köçürəm, Səmi balam, köçürəm”, – deyirdi. Əmma həftə tamamında birdəncə: “Acıtərə... mənə bir az acıtərə gətirə bilərsənmi meşədən, Qarasudan?” – dedi. “Böyüktala deyilən yerdə Pəri gölünü görübsənmi? Bax, orda gözəl, yeməli acıtərə olur”, – dedi. Səmi dərhal özünü həyətə atdı. O vaxt hələ “Jiquli”si yoxdu. Həyətdən necə qopdusa, beş dəqiqədən sonra Midinin “Balaca baba” dediyi Əlləzoğlunun həyətyanı sahəsində saxladığı çal atın başına yüyən geyindirib, yəhərsiz-filansız, meşəyə doğru çapırdı. Yarım saatdan sonra isə meşənin qışda ılıq, yazda-yayda sərin, qəribə-sehrli Pəri gölünün ortasında atdan düşüb, qurşağa qədər su içində, tər yaşıl, xırdayarpaq acıtərə –yabanı “vəzəri” yığırdı. Birdən... birdən diksinib yana baxdı: gölün acıtərəsiz yerində, zanbaqların arasından ona bir cüt xırdaca göz baxırdı. Atı yedəkləyib, asta-asta yaxınlaşdı. Nə gördü?! Bapbalaca, bir qarış uzununda bir uşaq!.. Başı saçsız idi. Suyun üzündə yellənən nazikcə qollarının uclarında əl əvəzində yastı üzgəc! Ayaqları əvəzində də yastı üzgəc!.. Bu nə sirr-xuda idi?! Səmi yavaş-yavaş əlini uzadıb, heyrətdən donsa da, istər-istəməz güldü: “Sən kimsən, nəsən? Əl – plavki – üzgəc, ayaq – üzgəc. Sudamı yaşayırsan?!” Körpənin nazik, gözəl biçimli dodaqlarında təbəssümə oxşar bir şey əmələ gəldi. Səmi ehtiyatla ovcuna götürüb körpənin ora-burasına baxdı. Oğlandı. Səmi qımışdı: Gəlsənə səni aparım bizə? Orda bir dünyagörmüş, köhnə kişi var, bəlkə o deyər kimsən, nəsən sən, niyə bu göldəsən? Pəri gölündə?! Su pərisi balası?! Allah, amandı! Demək, su pərisi əfsanə deyilmiş?! “İndi mən səni nə təhər aparım ki, ətər-xətər yetirməyim?.. Hə, bildim”, – deyib, cibindən yaylığını çıxartdı, uşağı ehtiyatla yaylığa bükdü, bayaq dərdiyi bir dəstə acıtərəni pencəyinin cibinə basdı, uşaq sol əlində, yüyən sağ əlində, atın belinə hoppanıb, hələ suyun içində ikən çapdı.

Atı Əlləzoğlunun darvazasına doğru qovub, acıtərəni artırmada “krant”ın altında yuyub çırpıb nimçəyə yığdı, yanına bir çimdik duz qoyub aparıb, “Ye, baba!” – dedi. Abı tamam əyilmiş belini yastığın çökəyindən qaldırıb, heysiz, titrək barmaqlarla acıtərədən birini duza batırıb, yavaş-yavaş çeynədi. “Bah, bah! Gözlərimə işıq gəldi, övladım!” – dedi və yarıyumulu gözlərini açıb, Səminin sol əlinə

baxdı: "Bunu da ordan gətirdin?!" Hə, baba. Acıtərə dərirdim. Birdən gördüm sudan iki göz baxır mənə. Nədi bu belə, baba?" Abı başını buladı: "Nahaq çıxardıbsan sudan, Su pərisi balasıdı da, övladım! Çox nahaq, çox nahaq gətiribsən. Öləcək". Doğrudan da, heç bir dəqiqə çəkmədi ki, uşağın boynu sallandı.

Abı daha yemirdi. "Günaha batdın, övladım. Apar, elə bu yaylığın arasında dəfn elə", – dedi.

Səmi qanı qara, gözləri yaşlı, qəbiristana gedib, Əmirlilərin yan-yana düzülü qəbirlərinə baxdı. Bəridə, Səmədlə Mədədin qəbirinin yanında diz çökdü. Burda torpaq yumşaqdı. Səmi barmaqları ilə torpağı eşib, içərisini hamarlayıb balaca bir qəbir düzəltdi, yaylığı aralayıb körpənin yarıyumulu gözlərinə bir daha baxdı, əllərinin üzgəclərindən öpüb qəbirciyə uzatdı, yaylığın sağ-solunu, baş, ayaq tərəflərini örtüb, üstünü torpaqladı. "Bu nə iş idi mənim başıma gəldi?!" – deyib dikəlmək istəyirdi ki, birdən... qəbirin torpağı aralandı və su pərisi balası əvəzində elə o balacalıqda Midi başını qaldırıb, Səmiyə baxdı və heç bir qeyri-adi hadisə olmamış kimi, öz adi səsi ilə soruşdu: "Məni niyə basdırdın, a Səmi?"

Səmi skamyadan dik atılıb, arxası üstə anbarın qabağına yıxıldı. Skamyanın o biri ucunda Təftiş də, tappıltıdan diksinib oyandı.

– Bıy!.. Nə pis yıxıldın, ay bala!

Səmi qalxıb oturdu. Ürəyi çırpınıb sıxıldı. Canını soyuq su basdı.

– Çox dəhşətli vayğa[1] gördüm, Abbas əmi.

– Mən də, mən də çox pis vayğa gördüm, bala.

– Nə gördün?

– Heç danışılası deyil... Xızr Abı, yazıq, acıtərə istədi səndən. Getdin Supərisi gölündən Supərisi balası gətirdin... Sonra...

Səmi dəhşət içində:

– Demə! Sonrasını demə! Mən də elə sən gördüyünü gördüm. Bu nə işdi, ay Abbas əmi?! İkimiz də eyni vayğa?! Bu nədi belə?!

Cavabında Təftişin yox, atasının səsini eşitdi: "Başa düşmürsən?!" Səməd yenə uzaq üfüqdə, üfüq boyunca dayanıb, eynilə əvvəlki görüntüdəki kimi, əllərilə başını qamarlamışdı, gözlərində işgəncə, beyindən beyinə qışqırırdı: "Mən göndərmədim o vayğanı, Mədəd göndərdi. Hər gün bir neçə saat məni necə əzabla

---

[1] V a y ğ a – faciəli röya

öldürdüyünü beynində işıqla təkrar eləyirlər. Dözmür Mədəd, “Axirət”də – AğƏr aləmində, əbədilik qazanandan sonra da cəhənnəm əzabı çəkməyə dözmür. Məni daimi təzyiq altında saxlayan da odu, indi sənə işgəncə verən də odu. Əl çək silahdan, Səmi balam, əl çək. Heydər ölkəni parçalanmaqdan qurtaracaq. Özü prezident seçiləcək. Silahları yığdıracaq. O quldurları da yerlərində oturdacaq. At silahı, get AdıPünhanın yanına! Demişəm sənə: “Sirli dastanlar!..” tədqiqatdı səninki. Bağ nəsli hara, silah hara, ay oğul?!” – Qışqırtı kəsildi, Səməd yoxa çıxdı.

“M.Ə.Sabir adına kolxozun nümayəndəsi Zal Abbas oğlunun iki may, min doqquz yüz doxsan üçüncü ildə analizə gətirdiyi üçyaşar erkək içalatında heç bir zəhər əlaməti tapılmadı... “Ştamp, möhür, imza ilə təsdiqlənmiş bu sənədi Təftişlə Səmi oxuyandan sonra, kürəyi, ortası nəhəng qara kötük, qıçları nazik Zal arabadakı cəmdəkləri göstərdi:

– Bunu Şüşəliyə satmağa gətirib bu kaftar. Öyrənmişəm, dörd yüz erkək verib Boz qurdlara. Onlar da hırıldaşa-hırıldaşa xançal-bıçaqlarını çıxardıb bu otuz baş erkəyi kəsib buna veriblər: “Bu da sənin öz payın. Baytar həkimə tapşırarıq akt versin ki, zəhərlənib sürü!” Həkim qorxdu, onların dediyini yazmadı. Dama bas bu kaftarı, Səmi!

Maşın eyni taraqqaturuqla qayıtmağa başlayanda Zal:

– Əylən, ə! Hələ işim var sənnən, – deyib “naxadu” atılıb “kabinka”ya mindi, getdi. Eyni anda Səmədin qışqırtısı Səmini yenidən sarsıtdı: “İndi danışdır o tülkünü, gör nə oyun açıblar sənin başına?!”

Əllezoğlu köhnəlikdən əprimiş kürkünün yaxalarını qırağa dartıb, köynəyinin döş cibindən qəlyanını çıxarıb damağına aldı. Gödək, kirli barmaqları ilə kibrit qutusunu eşələyə-eşələyə söyləndi:

– Mən erkək yeyən olsaydım, elə ötürərdim ki, heç izi-tozu da görükməzdi. Daha durub bura belə aşkarda leş daşımazdım! Üstələməyin məni daha!

Təftişin qocalıqdan ordları çökdüyünə görə qabarmış almacıq sümüklərinin üstü ağardı, iri pərəli burnunun pərələri qabardı, çuxurdan baxan iri gözləri elə bil irəli çıxıb qorxunc oldu.

– Hamısının iç-çalatını, baş-ayağını satıbsan! Dərilərin yununu qırxıbsan. Düzdü?!

– İç-çalatı itlərə vermişəm! O da sizinkidi, kolxoz itidi! – Əlləzoğlu kinli-kinli bozardı.

Təftiş təəccüblə gözlərini döyüb Səmiyə baxdı.

– Eşitdin nə dedi?! "Sizinkidi, kolxoz itidi!" Biz gecəli-gündüzlü əlləşirdik malı, qoyunu bu yassarlara paylayaq, Rəhimnən Boz qurd zornan qoruyub saxlayır kolxozu "firma" adıynan, bu bizi kolxoz havadarı eləyir! "Kolxoz iti!" Bə sən kimin itisən, ay it?! O erkək sürüsündə cəmi iki it var. Biri də bu Pələş. Üç it iç-çalatı necə yedi bir gecədə?!

Əlləzoğlu qəlyanının tüstülü başını qarnının üstünə vurdu.

– Bu da itdi! – dedi. Rəhimin qarnı da itdi! Boz qurd gədələrinin, Urusetdi gəlinlərnən uşaqlarının qarınları da itdilər! Sudüşəndə bir sürü rus qızı var, niyə gəmidi hamısı, ay Abbas?! Dalları bir haravadı[1] hərəsinin!

Təftiş baxdı-baxdı və birdən ağzını geniş açıb şaqqıldadı.

– Boz qurdlarnan şərtləşməyibsənsə, niyə yedirtmisən o it yığnağını, ay it?

Şaqqıltı Səmiyə də sirayət eləmişdi.

– Erkəklərimiz batdı, Abbas əmi! Batdı! – deyə-deyə əsəbi gülürdü.

Əlləzoğlu isə yenə dəyişmişdi; bu dəfə elə bil tamam laqeydcə, üzünü yana tutub, qəlyanını sümürürdü.

– Nəcəfin canavar gədələri kolxozun naxırını maşınlara doldurub aparıb Ermənistanda bazarlara yeridib cib dolduranda niyə dillənəmmədin?! İlxımızı da apardı Boz qurd! Niyə dillənəmmədin onların qabağında?! Əlləzoğlunu ayaqlamağa nə var?! Get o canavarlarnan danış!.. Tahirlidə, Qurbanlıda dildə-ağızdadı ki, Muğan tərəflərdə boğaz inəkləri, düyələri gecəynən maşınların işığında qova-qova aparıblar Arazın o tayında satsınlar, inəklər, düyələr buzov salıblar yol uzunu, döşənişib yollarda qalıblar! Korsanmı, korsanmı, görmürsənmi dünya dağılır?! Nə şeşələnirsiniz mən yazığın üstünə?! Deyimmi indi nə var bu işin altında?! Özünüz akt yazın qol çəkin, malalayın bu işi! Yoxsa, danışacam, Abbas!

Birdən-birə nə baş verdi? Niyə sükut çökdü? – Səmi baş açmadı.

---

[1] H a r a v a – araba

Təftiş köynəyinin döş cibindən, qəlyanının yanından papiros çıxarıb yandırdı, bərk sümürüb, qatı tüstünü saqqalı uzunu üfürüb, Səmini kənara çəkdi.

– Mən bu tülkünü yaxşı tanıyıram. Xalastoy güllə atmaz. Risq eləyib, kolxoz malına əl uzadıbsa, deməli, əmindi ki, sən də, mən də, heç kəs akt yazmağa cürət eləmiyəcək. Çünki, bayaq dedim, məsələ adam üstədi. İndi məcburam açıq deyim. Xəlvət deyir Mariyadan deyil uşaq, Gülgəzdəndi... Cığa mamadan... səndən.

Səminin üzündən qan çəkildi, sifəti eynilə mərhum atası ilə mərhum Mədədin, Şüşünün sifətləri kimi ağsümük oldu. Gözlərinin yaşıllığı da tündləşən kimi oldu.

– Yəni buna inanan varmı, Abbas əmi?!

Təftiş yenə papirosunu sümürüb, saqqalı uzunu üfürüb:

– Var ay oğlu, – dedi. – Əlli yaşında arvadlar olub bizim bu xaraba qalan Qonaqlıda. Qudalı məhləsində hamı bir ağızdan deyir Məryəm ikicanlı deyildi. Yəni Mariya. Uşağı, deyirlər, Gülgəz özü doğub verib Mariyaya...

– Yəni Midini?! – Heyrət deyildi bu daha, dəhşətdi.

Təftişin Səmiyə yazığı gəldi.

– Rəngin dəyişməsin, ay oğul, uşaq Mariyadandı. Rəhmətlik Mədədinkidi... Deyirlər, xüsusi dərs keçilib bu Sudüşən camaatına, hirsləndirməknən, nervlərini xarab eləməknən öldürürlər adamları. Sudüşənin bu saat bircə azarı var ki, sən gedəsən burdan, ya da nə bilim, ürəyini partladalar, ya da iflic-zad eliyələr. Bədbəxtlik burasındadı ki, bu tülkü də Qudalıların dediyini deyir. Özün bilirsən, vərəsə söhbəti gəzir dildə-ağızda. Nəcəf deyir bir milyon dollar qiyməti var o mülkün. Təbriz əmirlərinin qızılı var, deyir, orda. Vərəsədi, deyir, kimə çatacaq?.. Heç bilmirəm bu zəhər fırıldağının nə dəxli var uşağa, Gülgəzə, sənə? Yəqin fikirləşirlər ki, anaşafilan əkilməsinin qadağasına gücün çatmadığı təki, bu qırğının qabağında da içini yeyə-yeyə qalacaqsan. İç-çalatı, baş-ayağı dünən yedizdiribsə Boz qurda, bu cəmdəkləri də bu gün yedirdəcək. Bəs, niyə deyir "məsələ adam üstədi?! Bəlkə, deyirəm, daha göyü[1] sayır səni, heyvanı da elə buna görə qırıb gətirib ki,

---

[1] Göy – kürəkən

üçpara kəndi çağırsın, elin şahidliyiynən kəbin kəsdirsin sənə?.. Bağışla, ay oğul, məcbur oldum ağrıtdım səni. Təftiş bu son sözləri özü də ağrılı deyirdi. "Kəbin" kəlməsi Səmini yenə də diksindirmişdi.

Təftiş pıçıltıyla dedi:

– Bu yandan da, deyir, işi məhkəməlikdi Səminin. Səni qorxudur ki, kəbindən boyun qaçırmayasan, vərəsəlik keçə Cığalıya, Əlləzevinə.

Burda Əlləzoğlu gözlənilmədən yaxınlaşıb:

– Əylən! Nə doldurursan bunun içinə?! – dedi. – A kişi, mən sənə açıqca demədimmi ki, bu həngamənin hamısı dərdini aldığım Gülgəz balamın üstədi?! Evlənməlidilər, vəssalam! Yoxsa, vallah-billah, məhkəməlikdi iş. Qızım nöyüdü töküb başından, spiçkəni çəkib, yandırıb özünü! Qandınmı, ay Abbas! Ölümcüldü qız! Apardım balnisiyə. On min Zor nəçənniyin cibinə qoydum, on min də silistçinin! Çalışaram örtülsün üstü. Qız birtəhər sağalan təki kəbin olmasa, açılar bunun üstü, ay ağsaqqal. Sözümə yat. Nə var burda, ay Abbas, kəbindi də. Kağız qırığıdı da!

Səmi mat-məəttəl, eynilə mərhum atası Səməd kimi, başını sağ çiyninə əyib, yorğun-üzgün soruşdu:

–Cığa mama özü nə deyir?

Əlləzoğlu baş barmağı ilə qəlyanının odunu basıb, mötəbərcəsinə:

– Onu bir ayrı vaxtda danışarıq, – dedi və nə isə düşünüb əlavə etdi: – Zəhmət çək bizə gəl, dərdin alım. Mən cəmdəkləri təhvil verim Şüşəliyə, gedim evə samovar qoydurum...

– Nə?! – Səmi indi tamam başqa bir cildə girmiş cırtdan adamı nifrətlə süzdü. – Sən, doğrudan da, inanırsan ki, bu söhbətdən sonra sənin evinə ayaq basaram, sənnən üz-üzə oturub çay içərəm?!

Göbələk əməlli-başlı mötəbərləşmişdi.

– İçəcəksən, – dedi. – Elə olacaq.

Səmi baxa-baxa qaldı. "Elə olacaq". Necə yəni elə olacaq?!

Birdən qışqırdı:

– Olmuyacaq! – dedi. – Buna bax ey. Cığa mamaynan kəbin! Mən öldürrəm səni, kişi!.. Ayrı şey yazılacaq indi! – Əlini cibinə atıb bloknotunu, qələmini çıxarıb, anbarın qabağında cərgə ilə düzülmüş dirəklərdən birinin dibində çömələb, yazmağa başladı:

"AKT

Biz, M.Ə.Sabir adına kolxozun idarə heyətinin sədri Abbas Qonaqlı, polis müvəkkili Səməd Səməd oğlu Əmirli, 1993-cü ilin..."

Əmma Məmiş Əlləzoğlunun cinayəti haqqında heç bir akt-filan yazılmayacaqdı.

Əlləzoğlu çarıqlarını səssizcə basa-basa, hiss olunmadan yaxınlaşıb, əlini Səminin əlinin üstünə qoydu. Bayaqkından da mötəbər idi.

– Məsləhət deyil, – dedi və bunun ardınca dilinin daimi kəlamı "dərdin alım" əvəzində, "qadası" deyib, Səmiyə açıq-aşkar eyham vurdu ki, "məsləhət deyil" sözlərinin arxasında güclü adamlar durur; "qadası" son vaxtlar Xəlvətin "təhkeyi-kəlamı" idi.

Sonra yenə öz sözünü dedi:

– Gedək evə, Hənifə nənən qabağımıza bir tikə qismət qoysun. Oturaq, söhbət eləyək. Sonra balnisəyə dəy, özüyün həkimlərə hörmətin çatsın. Sağaldarıq, deyirlər, umud var. Əmbə umacaqları var... lazım bilsən axtı hər vaxt yaza bilərsən, dərdin alım.

Səmi əl əvəzində elə bil gizlincə biləyinə dolanmış ilanı kənara atdı.

– Çəkil!

Göbələk mötəbər idi:

– Bir az səbrli ol, dərdin alım. Niyə belə dəliqanlılıq eləyirsən, rəhmətlik Səməd təki! O rəhmətlik də elə bu cür, el malına görə tutaşmamışdımı Xəlvətnən?! Axırı noldu?! Qudalı milisənerləri rezin dəyənəknən döyüb qançır eləməmişdilərmi atanı?! Fikirləş, gör neynirsən, dərdin alım! Nəçənnik Gülənova Xaş nəçənnik deyirdilər, Zor nəçənnik deyirlər, açıq-açığına ermənidi deyirlər Gülənov, adı da Zorridi deyirlər. Bakıdan ermənilər qaçıb gediblər qorxudan ki, camaatımız qırar biznən müharibə eləyən millətin buradakılarını. Əmbə o Zor nəçənnik, özün görürsən ki, azərbaycannı yazdırır özünü: Gülənov açıq-saçığına divan tutmurmu bizim camaata, a dərdin alım, səni nə hala salar o?! Allah göstərməsin! Yumşal. Yola getməliyik. Canbir, qanbir qohum təki olmalıyıq biz sənnən. Ayrı cür mümkün olmuyacaq, Gülgəznən kəbinin çox adamı xoşbaxt elər, dərdin alım.

Səmi Nəcəfi, ət torbalarını bu cırtdan adamın yan-yörəsində gördü: məkrli gülüşləri, səssiz hırıltıları ilə birlikdə!

– Şantaja bax! – dedi və qara, kərtdəş əfi əli kənara itələməklə kifayətlənə bilməyəcəyini hiss edib, bloknotun, qələmin yerə düşdüyünə əhəmiyyət vermədən, ayağa qalxıb, hər iki əli ilə Əlləzoğlunun yaxasından yapışıb, çəkib öz boyu bərabərinə qaldırdı.

– Sən nə vaxtacan iyləndirəcəksən bu kəndi, ay yırtıq çarıq?!

Səmi atasından eşitmişdi ki, Əlləzoğlunun toyluq çəkmələri bircə dəfə ayağa alınandan sonra qəttəzə dururdu, çarıqlarını isə yırtıldıqca içərisinə gön qoya-qoya geyinirdi. Qoşa yumruqdan asılı Göbələk yelləndikcə, dara çəkilmiş kimi, qıçları da yellənir, çarıqların burunları Səminin dizlərinə dəydikcə, çəkmə əhvalatını xatırladırdı.

– Atamın taleyi belə murdarlara tay olmuyan uca insan taleyidi, ay iylənmiş çarıq! Ömrü boyu sənin çəkmələrinnən çarığını danışırdı. "Uzaq gəz o çarıqdan" deyirdi. Bütün Qonaqlı deyir bunu, ay kaftar! Min doqquz yüz doxsan üçüncü ildi! Çəkmələrini geyin, əl çək bu bic-vələddəzzinalığından!..

Köynəyi çənəsinin altına yığılıb Əlləzoğlunu boğurdu. Əmma anbaan boğulmaqda olan bu adamın qəribə gülməli görkəmi vardı: köynəyi lifəli şalvarın altından çıxıb kürkü ilə birgə yuxarı dartıldığına görə Əlləzoğlunun yumruq boyda, anormal göbəyi qaralırdı.

Xırıldaya-xırıldaya başını birtəhər əyib Təftişə baxdı. Təftiş isə çiyinləri qalxa-qalxa gülürdü.

– Öl, öl! Söz kar eləməz sən təki heyvana!

Heyvan birdən çabalayıb, dırnaqları ilə Səminin biləklərini cırmaqlayıb xırıldadı:

– Burax!.. Məhkəməliksən!..

Ət torbaları Göbələklə birgə xırıldadılar. Səmi hiss etdi ki, o idbarları da bu idbar kimi xirttəkləməyə, ayağının altına tökməyə hazır idi. Xırıltının ölüm ayağında xırıltıya oxşadığını hiss etdikdə, Səmi atasının ölümünü xatırladı. Hərəsi bir daş parçası olmuş yumruqları açılmaq əvəzinə, daha da daşlaşdı. Atası öləndən sonra Səmi eynilə bu cür hiss keçirmişdi. Qəbiristanda barmağı Kalaşnikov avtomatının tətiyində, bütün bədənində qəzəb, üşütmə giziltisi, hissiyatsız daşa dönmüşdü. Dəfndən qayıdıb tozlu-torpaqlı yorğan-döşəyin üstünə səriləndə isə, çarpayıdan yarım metr çıxmış qıçlarını, qollarını universitetin "sportzal"ındakı güləş meydançasında kiminsə gövdəsini əzişdirən vəziyyətdə, əzələlərinin kənar bir

divsayağı pəhləvan əzələləri kimi şişdiyini hiss etdi və o gün birinci dəfə başa düşdü ki, universitet, aspirantura gözdən düşür, “Qədim Azərbaycan” – Bağday tarixinə, SafAğ Elminə marağı ölür, əvəzində qəzəb, kin mücəssəməsi bu pəhləvan yaranır. Məhz o dəfndən sonra o çarpayıda uzandığı dəqiqələrdə Səmi ziyalılığını itirmişdi, olduqca kobud, bəlkə də lap rəhmsiz bir polisə çevrilmişdi. Odur ki, indi “çarığı” həqiqətən boğduğunu o qədər də hiss etmirdi.

Təftiş isə, əksinə, gülürdü. Yenə qaqqıldayırdı.

– Tövbə dedirt əclafa! Ə, Məmiş, bu canın, cürəfəciyəzin yiyəsi niyə bu qədər bədəməllik eləyirsən ki, indi də xirtdəyin əldə qalır?!

Səmi biləklərindən qollarına dolan pis qoxulu istilikdən bezikib, nəhayət, yumruqlarını açdı. Göbələk tappıltı ilə dalı üstə düşüb hərəkətsiz qaldı. Sonra hərəkətə gələndə köynəyini lifənin altına basıb, qəlyanını yerdən götürdü. Qor dağılsa da, qəlyan hələ tüstülənirdi. Tez-tez sümürüb toxtayandan sonra, qocalığının hədsizliyindən şikayətlənməyə başladı:

– “Kaftar”[1] dedin. Kaftar nədi Əmin oğlu Mədəd saz çalardı, oxuyardı: “On beş yaşlı oğlan ikən min yaşlı kaftara döndüm”. Sonra da dönə-dönə şərh eləyərdi, qulağımızda sırğaya döndərərdi ki, qədimdə biz EvƏrEy OdƏrləri olmuşuq ƏrEydə Odumuz, yəni həqiqətimiz olub, OdƏr deyilib o Oda. Düşmən Od əvəzində “kaftar” deyib bizə. Atan rəhmətlik yazıya köçürmüşdü Mədədin dediyini, evdə Cığa maman oxuyardı, ağlayardı. İndi niyə “kaftar” deyirsən sən Cığalının atasına, a dərdin alım, ayıb deyilmi?! Mən o doxsan üç yaşlı Hənifə nənənnən əvvəl ikisinin axırına çıxmışam. Mən yaşda adamları körpə uşaq təki yüyrüyə qoyurlar. Yelləyirlər: “Babam layla!..” Sən gör nə gözəl layla çaldın öz belindən gələn oğluyun babasına!

Səmini dəhşət götürdü. Ağsümük sifəti lap bəyazlaşdı, bədənini soyuq tər basdı. Yox, bu adi böhtan, şantaj-filan deyildi. Şübhəsiz, o yanda – Sudüşəndə düşünülmüş, hərtərəfli qurulmuş nəhəng hörümçək toru idi!

---

[1] Kaftar. “K” hərfi ərəbcə “kaf”. “Kaftar” sözündəki “tar” isə OdƏr sözünün təhrifidir. Hər iki “söz”dən düzəldilmiş “söz”ə “çox qoca” mənası verilib. Ədəbdən kənar bir mənası da var.

– A köpəyoğlu! A heyvan! Yəni sən məni doğrudanmı Midinin atası sanırsan?!

Əlləzoğlunun gözləri heyrətli təbii heyrətlə altdan yuxarı parıldadı.

– Bə nə, a dərdin alım! Sən olmuyanda mənəmmi nəticəmin atası?! Mən əbləh onun-bunun sözünə inanırdım əvvəl, elə bilirdim Mədəddəndi, nəticəmdi deyirdim. İndi nəvə deyirəm! Allah yüz yaşında adama təzə diş çıxartdırır: "Öz gözümnən görmüşəm, Qazağın Muğanlı kəndində Paşaoğlu Məhəmməd varıydı, sizin qohumunuzuydu, bir dəfə diş çıxartdı. Öz dişləri uşaq dişi təki töküldü, yerinə inci təki diş çıxdı!" Belə möcüzə yaradanımmı verib mənə o körpəmi?! Niyə boynundan atırsan onun atası olduğunu, a dərdin alım?!

Səmi elə hala düşdü ki, hətta səndələyib, yeriyib əlini Təftişin çiyninə atdı. Dodaqları tərpənmirdi, söz pəltək çıxırdı:

– A heyvan! Qızıyın yetmiş yaşı var, a heyvan! Qudalılar altmış deyirlər. Mən ki yaxşı bilirəm bibimin yaşını. Əlli dördüncü ildə Sultan əmimnən kəbin kəsdirəndə iyirmi neçə yaşı olub? İndi doxsan üçüncü idi. Neçədi yaşı?

Əlləzoğlu başını buladı.

– Əlli dördüncü ilin yazında Sultana gedəndə iyirmi yaşı da yoxuydu heç. Balaca qızıydı. "Qaraçı qızı" deyirdi dədən Səməd, "Cığalı" qoymuşdu adını. Səmədinkidi qız. Çərxi dağılsın fələyin. Sultanı içirtdilər bu Qudalılar. Qızın da boğazına bir şüşə konyak tökdülər, ikisini bir yorğanın altına saldılar, çıl-çılpaq! Dədən Səmədə "Dəli Səməd" demirdimi bu kənd, a dərdin alım?! Genə bu Qudalılar eləməyibmi sizi?! Elə o cür eləmişik deyirlər, Səminin heç xəbəri olmayıb Gülgəzin bətninə uşaq qoymağından. Şüşəlidə içirdiblər səni. Gülgəzi də elə ora çağırıblar, dal otaqda görüşdürüblər sizi, eyniynən o cürənə... konyak... çılpaq... bir yorğanın altına... Təzə şey deyil bu, a dərdin alım. Bir dəfə Orta kənd Tahirlinin kolxoz sədrinin başına belə iş gətiriblər, bir dəfə Lüt Cəfərin, bir dəfə də bilirsən ki, Sultanın. "Sınanmış pryom" deyir buna Xəlvət... İndi səni də elə eləyiblər. Guya bədbəxt eləyiblər səni? Əmbə Allahımız neyləyib? Oğul verib o canavarların acığına! Allahın belə-belə möcüzələri azdımı, a dərdin alım?!

Səmi süstləşib Təftişə söykəndi.

– Deyəsən, öldürməli olacam mən bu ilanı, Abbas əmi!

Təftişin də daha halı özündə deyildi.

Səmini ehmallıca əyib arabanın qabaq təkərinə söykəyib, yorğun-yorğun yeriyib:

– Bu dəfə mənim əlimdə öləcəksən, – dedi və əyilib, nəhəng, kərtdəş barmaqlarını geniş açıb, Əlləzoğlunun boğazını ovcuna aldı.

– Deynən qələt elədim yalan danışdım! Deynən qurğudu! Elədi axı, a köpəyoğlu! Rayonda "Xuduyev dəstəsi" deyilənlərnən o Xaş nəçənnik-Zor nəçənnik köpəyuşağı bizim neçə adamımızın başına belə oyun açıblar, özün saydın! Səmiynən Gülgəzi də eləcə dilə-ağıza salan kimdi, genə elə onlar deyillərmi, indi Sudüşənin diliynən görürlər işlərini! Sən yəni qanmırsanmı ki, qan iyi gəlir bu söz-söhbətdən?! Onsuz da "qan çanağı" deyir Səmiyə oranın camaatı. Qırmazmı bu onların hamısını?! Gülgəzi də, uşağı da özünnən bərabər bədbəxt eləməzmi?! Bu fırıldaq başında az-çox ağıl qalıbsa, bax gör düz deyirəm ya yox?!

Əlləzoğlu dedi:

– Qurğudan oğul olub! Budu mənim qandığım, vəssəlam!

Təftiş dedi:

– Öldürəcək o səni, Məmiş! Oğlumun canına and içirəm, mən özüm də öldürrəm!

Əlləzoğlu çapaladı:

– Burax... Boğuluram. Sonrasını da deyəcəm. Deyəmmirəm... boğuluram...

Təftiş əlini bir az boşaltdı.

– "Sonrası" nədi? Sonrası da var bu biabırçılığın?!

Əlləzoğlu dərindən nəfəs aldı.

– Öz payımı Səmidən ötrü satacam indi.

– Nə?!

– Səminin ayıbının çölə düşməməyindən ötrü! Cinayətinin... Bə nə?! Genə nəçənniyə verəcəm pulu.

Səmi ilə Təftişin baxışları yenə qarşılaşdı.

– Cinayət eliyən tək o gədələrdimi? Səmi özüdü!.. Gülgəz ölsə, qanı kimin üstünə töküləcək?! – Əlləzoğlu yaxasını Təftişin yavaş-yavaş zəifləyib açılan əlindən qoparıb kənara çəkildi. Sinəsi xışıldaya-xışıldaya boğazını arıtladı. Köynəyinin ətəyini bir də lifənin altına təpişdirməyə başladı.

– Deyərəm adam öldürür sənin bu istəkli polisin. Quru nəfəsdi Cığalı Gülgəzim! Əmbə demərəm. Pulnan örtün deyərəm işin üstünü... Nə baxırsan, ay Abbas, düz demirəm, vur gözümü çıxart!

Mötəbər bir əli boğazında, o biri əli qəlyanın başında, boynunu zorla döndərib Səmiyə baxdı.

– Get Gülgəzə baş çək. Prokuroru özün gör, o da tapşırsın həkimlərə, balan yetim qalmasın. Sənindi uşaq!-dedi.

Sonra Təftişə sarı döndü:

– Axtı cır. Məsləhət deyil, – dedi.

Daha nə Təftiş dillənə bildi, nə də Səmi. Çünki Mötəbər "məsləhət deyil" deyər-deməz, tutqun, susqun, əmma bütün rayonda hamının hörmət etdiyi bir adam – Yerəbaxan Məsim, son illərdə Əlləzoğlunun xeyli ağır eşitdiyini bildiyinə görə ucadan:

– Düz deyir o kişi, məsləhət deyil, – dedi.

Kolxozu ləğv etməyə gəlmiş icra başçısı Göbələyi sevindirəndən sonra, astadan:

– Bayaqdan baxıram, elə gülürsən. Komediya deyil bu, Abbas əmi. Şantajdı bunun adı – dedi. – Elə ustalıqla düzəldilib ki, heç fələk də baş açammaz axırını hayana fırladacaqlar... Əlləzoğluynan işiniz olmasın. Vəziyyət ayrı cürdü. Gülləynən qırırlar-doymurlar, qeyrətli ziyalı adamları şantajnan öldürürlər. Belədi indi Göbələyin KeQeBesi, Abbas əmi, Mirqəzəbin vaxtındakından da pis olub. Gəlin, sözüm var. AdıPünhandan məktub almışam. Gəlin!

## 7

Məsim Qonaqlı buraya – Qonaqlıya gələndə həmişə bütün kənd onun "Mersedes"dən düşdüyü yerə toplaşardı. Bu vaxt, necə deyərlər, ağız deyəni qulaq eşitməzdi. İcra başçısı heç kəsin sözünü kəsməz, hərə öz dərdini və hamının ümumi torpaq dərdini deyərdi. Bu dəfə hələ kənd yuxuda ikən gəlib, bir nömrəli evdə, heç cür boşaya bilmədiyi Gülbənizə söhbət eləyib, maşını o ucqarda qoyub, buraya piyada gəldiyinə görə heç kəsin diqqətini çəkməmişdi.

Sonra necə oldu, icra başçısını burada kim gördü, camaata kim xəbər verdi, burası məlum olmadı; Səmi bir də o vaxt ayıldı ki, bütün kənd, daha doğrusu, "yurdda qalanlar" deyilən ağbirçək,

öykəşik qadınlar, ərlərini şəhərlərə göndərib özləri burada-sərgərdan kimi qalmış, çılğınlaşmış, "həyasızlaşmış" gəlinlər "Yerəbaxan Köpəyoğlu"nu – bədbəxt icra başçısını araya almışdılar. Qışqırtı-bağırtı, hay-küy elə idi ki, Məsim Qonaqlı Səmiyə baxıb, – Əşi, bir imdad eləsənə! Görmürsənmi əyin-baş da qalmadı məndə! – desə də, Səmi qadınların üz-gözlərindəki hədsiz tələbkarlığa və eynilə bayaq atasının üzündə gördüyü əzaba, işgəncəyə bənzər ifadələr görüb, icra başçısına kömək eləmək əvəzinə, Tibb məntəqəsindən o yana, Markın "pustır" adlandırdığı otsuz-ələfsiz bozluğa doğru aralandı.

Qışqırtı-bağırtı, icra başçısının düşdüyü çıxılmaz vəziyyət ondan qayıtmağı tələb eləyirdi, Səmi isə, çörəksiz, torpaqsız, mal-qoyunsuz əhaliyə heç bir kəlmə də sözü olmadığını aydın dərk edə-edə uzaqlaşdı, avtomatı ağrılı çiyinlərinin birindən o birinə aşıra-aşıra, gəzinməyə, boş-boşuna vurnuxmağa başladı. O nə cür röya – vayğa idi?! Niyə Təftişə də eynilə verilmişdi?! Eylər – Ucalar o vayğa ilə nə demək istəyirdilər?.. Düşünməyə imkan tapmadı: atası qarşısında idi. Səsi sərtdi:

– Su pərisi... Nədi su pərisi? Əfsanədi? Get okeanların diblərini gəz, gör nə qədər insanabənzər, üzgəcli gözəl məxluqlar var. Okean yırtıcılardan gizlin cəngəlliklərdə yaşayırlar. Şüurludular! Təsəvvür eləyə bilməzsən ki, şüurları var! Təsəvvür eləyə bilməzsən ki, necə safdılar! Üstəlik əbədidilər! Yəni yalnız kainatda deyil əbədilər. Mən sənə o əbədilərin körpələrindən birini göstərdim röyada. Niyə Təftişə də? Çünki o köhnə bolşevikiniz də dəhşətli sərt adamdı. Qılınc Qurbanı unutmamısan. Ondan – Qurban əmindən də sərt idi Təftiş Abbas. İrəlidə nə qədər Yer ömrü var, vaxtaşırı həmişə xatırladacam ona o supərisi balasının faciəsini. Yumşalacaq, rəhmi olacaq. Əmma, Səmi, səndə qəddarlıq var, Səmi! Heyrətlənmə! Niyə güllələdin o dilsiz-ağızsız heyvanları?! Yazığın gəlmədi?! Sən yuxarıdan bax hər şeyə, oğul, Yer həyatının fövqündən bax, uca mövqedən bax, gör o bədbəxt Xəlvətin itləri – Sultan, Mədəd, Səməd çağırmağında nə var? Heç nə! Axmaq, kinli-küdürətli, əzabkeş, bədbəxt adamdı, itlərinə bizim adlarımızı qoymaqdan zövq alır, gülür, az-maz da olsa, sakitləşir. Sən məgər heç dərk eləmirsən ki, Xəlvət də, Nəcəf də, bütün o "ət torbaları" dedikləriniz də, hamısı, hamısı Yerin, həyatın nə qədər gözəl oldu-

ğunu, xeyirxahlıqla, güzəştlərlə, sevinə-sevinə yaşamağın insan üçün necə yüksək mənəvi nemət olduğunu qanmırlar!.. Nəinki Xəlvət Rəhimə, biz hətta o qaniçən Qorbaçova da təsir eləməyə çalışırıq. Yapaoniyaya gedirdi ki, yapon kommunistlərinin büdcədən ayırdığı tonlarla qızılı özü yola salsın Moskvaya, ordan da – "po naznaçeniyu", yəni Türkiyədə, Amerikada, Avropada terror seti yaratmaq üçün. Əcdadlarının canlı insan qədər canlı şəkillərini göndərdik, bütün yol uzunu tez-tez başının üzərində o yan-bu yana uçurdular: "Mixail, oçnis! Mixail, oçnis! Akademik Saxarov prav!" – deyirdilər. Saxarovun sözləri? Respublikalar barədə nə deyirdi Qarbaçova? "Day vsem svobodu s sootvetsvuyuşşimi qranitsami!" Eşitmədi qaniçən. Azərbaycana həmin o vaxt azadlıq versəydi, Amerikaya, Avropaya, Türkiyəyə qarşı terror müharibəsinə yüz-yüz tonlarla qızıl, brilyant axıtmasaydı, Yerdə bəşəriyyət bu qədər çılğınlaşardımı, Səmi?! Atom sınıqları bu qədər vüsət alardımı?! Atmosfer bu qədər parçalanardımı?! İllər keçəcək, Azərbaycanın Şimalında hər il "20 Yanvar" – "Qara yanvar" faciəsini qeyd eləyəcəklər. Əmma bir nəfər də açıq qışqırmayacaq ki, Qorbaçov o yanvar gecəsi Bakıya ordunu məhz qanmazlığı üzündən göndərdi ki, sonra da ordunu çəkib guya azadlıq, müstəqillik verir? Əslində podpolyeyə soxdu KPSS-ini, qalsın Azərbaycanda. Soruşan lazımdı ki, Amerikanın Mərkəzi Kəşfiyyat İdarəsi kormu olub, cənab Qorbaçov görmürmü ki, Boz qurdlarına, OMON-larına qan içirdə-içirdə tək Azərbaycanı yox, bütün Yeri bədbəxt eləyirsən! Yəni dünyanın işlərini qanla həll etmək korluqdu, Səmi! Cahillik və korluqdu! İndi düşün özün, niyə belə dönə-dönə qışqırıram sənə: at silahı!..

Arxadan, anbarın qabağından Məsimin qışqırtısı gəlirdi:

– Neçə dəfə deyim?! Bu gün ya sabah paylayacam kolxozun nəyi varsa! İnanın, ay bacılar! Vallah, billah, paylayacam!..

Səməd oraya, anbar tərəfə işarə etdi:

– Bax, sizin o Yerəbaxan Məsiminizi də özbaşına buraxmırıq biz. Qorbaçovdan qat-qat ağıllıdı o Yerəbaxan. Hörmətli, izzətli Mixail Alekseyeviç əcdadlarını görəndə, səslərini eşidəndə tükü də tərpənmirdi. Elə hey deyirdi: "Duxi letyat". Nə deyirdilər. "Dux"lar ona, qətiyyən fikir vermirdi. Çünki fikri-zikri qızılın yanındaydı... Fikirləş indi, gör bircə nəfər səlahiyyətli cahilin qurduğu tor necə sarmalayıb planetinizi! Hamı, hamı çapalayır ki, tordan çıxsın,

mümkün olmur ki, olmur! İndi, de görüm, sən, bu neçə ildə bütün planetdə əkilən narkotikaya qarşı mübarizəyə qoşulub belə boş-boşuna çırpınmaq əvəzinə, vaxtını Elmimizin rusca anlaşıqlı şəkildə izahına həsr eləyib hamanca Qorboçovun özünə, arvadına, büro üzvlərinə çatdırmağa cəhd göstərsəydin, nə qədər xeyir vermiş olardın o bədbəxt Yer bəşəriyyətinə?! Brejnevin vaxtında görülmədiyi bu iş, bizim imkanımız olmadı...

"Pustır"da qadınların səsləri eşidildi. Kim isə:

– Başçı səni çağırır, ay Səmi, – dedi.

Səminin bütün diqqəti atasında idi.

– Haqlısan, atacan. Əlbəttə, haqlısan. Əmma...

Səmədin səsi çığırırdı:

– Nə "əmma?!" Dillənmə! Fikrin aydındı mənə: mübarizədən kənarda qalmaq mümkün deyil?!

– Hə, atacan, hə!

Səmədin rəngi bozardı.

– Mən boş-boşuna danışmadım. Vaxt gələcək... lap tezliklə dərk eləyəcəksən hər şeyi. Döşündə avtomat, qan tökə-tökə dərk eləyəcəksən. Bax, o vaxt Su pərisi balasını bu qatı beyinə nə üçün göndərdiyimi də biləcəksən.

Səməd yox oldu.

Məsim:

– Əlləzoğluynan işiniz olmasın, – deyib, Təftişin, sonra Səminin heyrətlə dolu gözlərinə baxıb, gözlərini yerə dikdi. – Onsuz da qoyundan-keçidən almalıydı bu gün bu adam, – dedi. – Yataqlardan sürüləri para-para eləyiblər Boz qurdlar. OMON-lar, öz düşərgələrinə aparıblar. Az-maz nə qalıbsa, gətirin, bu gün olmaz daha, sabah paylıyarıq camaata. Yoxsa əldən çıxar hamısı. Kənd lap lüt qalar.

Təftiş dərindən nəfəs aldı.

– Şükür! Nə yaxşı ki, sən varıymışsan, ay Məsim, – dedi. – Axır ki, canımız qurtarır kolxoz iti olmaqdan.

Sonra qırx beş nömrə çəkməsinin burnunun Əlləzoğlunun çarığının burnuna vurdu:

– Qalx, cəhənnəm ol! Canım qurtardı çobanlıqdan!

– Bıyy! Nə deyirsən, a kişi?! – Mötəbərin gözləri həlqələndi, alt dodağı sallanıb titrədi. – Deməli, çobanlıqdan çıxardırsan məni?!

Təftişin də gözləri həlqələndi və burda yenə qışqırmalı oldu:

– Necə yəni çıxardırsan?! Mənəmmi səni çıxardan, a heyvan?! Zəmanə dəyişib, SSRİ dağılıb, kolxoz yoxdu daha! Heyvanı camaata paylamalıyıq. Sənə daha bir quzu da düşmür. Məni otaracaqsan?!

Məsim Qonaqlı yerə baxa-baxa yorğun-yorğun gülümsəyirdi.

– Əlləzoğlunun çobanlığı qurtarmaz, – dedi. – Dur, apar bu otuz cəmdəyi ver Şüşəliyə. Sənin payındı deyirlər lotular, tapşırmışam, pulunu nəğd al, get iyirmi-otuz damazlıq qoyun al, elə o yataqda saxla. Bu da sənin çobanlığın! Sultan Əmirli kimi Sosialist Əməyi Qəhrəmanın qayınatası olmusan sən. Səmi Əmirli də hörmət eləməlidi sənə, Təftiş Abbas da, mən də! – Sonra yenə astadan: – Bu adama belə yaltaqlanın hələ, siyasət dünyasıdı, – dedi.

Əlləzoğlunun dodağının titrəməsi kəsilmişdi.

– Ayağıyın altında ölüm, ay icra başçısı! – dedi və bir metr boyu ilə, on beş yaşlı oğlana dönüb, atılıb arabanın qolunun üstündəki taxtaya-ayaqlığa mindi.

Bayaq səhərin sis-dumanında ağır-ağır gələn araba indi sərt şaraqqa-şaraqla yüyrək getdi.

Məsim Səmiyə baxırdı.

– Ağır olur bunların şantajı. Əmma bu heç. Sənin işin düyünə düşüb, – dedi. O yan-bu yana boylandı.

– Nəcəfi tutdurmuşdum. Bakıdan – xalq cəbhəsindən zəng elədilər, buraxdıq... Hələ açıb ağartmayın, Boz qurdlar rayonlardan çoxlu yük maşını yığıb gediblər sürülərdən nəki var doldurublar maşınlara, sürüblər Qazaxdan o yana, Ermənilərin əlindəki torpaqlara, Karvansaraya, Dilicana satıblar, gedib oturublar “Göycə”[1] gölünün qırağındakı o yekə restoranda. Sonra düşüblər kəndbəkənd, şəhərbəşəhər, kanistr yığmağa. Kanistr... qabdı da. İyirmi litrlik qabdı. Demə, elə ancaq rayonları yox, Bakını da soyurlar Boz qurdlar. Dəmir yolu da əllərində deyilmi? Daşıyırlar, satırlar, erməni, rus ordusunu benzinnən təmin eləyirlər. Qarabağ səmtində... Hər “Bəy”in deyirlər,

---

[1] Göycəyə qəsdən “Göyçə” deyilir. Suyu saf göy rəngdədir, Göycə mahalı həmin gölün dövrəsində olduğuna görə lap qədimdən Göycə adlansa da, indi mahala da qəsdən “Göyçə” deyilir. Gölün sahilindəki qədim ƏsErÜn tikintilərini xaçla bəzəyib “Sevan” adlandırıb, beləliklə, Göycə gölünü Göycə mahalından ayırıblar. Ümumiyyətlə, hələ iki yüzillik müharibənin əvvəlində Rimdəki ƏsEvi tutan latınların hökmü ilə Ruma (*Türkiyəyə*) göndərildikləri dövrdən başlayaraq Haylar Bağdayın hər yerində ƏsEvÜn adını dəyişdirib, EvÜnü mənasız “van”la əvəz ediblər: “Ağvan” “Yerevan”, “Van” gölü və s.

azı otuz-qırx kanistr var. Benzakalonları tutublar. Sat ki, satasan! Yollarda camaatın maşınları girin-girin qalıb. Bütün magistralları bazara döndəriblər! Vaxt çatanda, deyirlər, təsərrüfat obyektlərinin hamısını satacaqlar xaricilərə, öz adamlarına. Yəni bunlara dərs deyənlərə, əllərinə silah verənlərə. Belədi!.. Biz də əbləh-əbləh oturmuşuq rayonda, deyirik rusdan canımız qurtarıb, azadlığa çıxmışıq, müstəqil Azərbaycan respublikasıyıq! ...AdıPünhanın məktubunda çox şey var. Partiyanın podpolyedə qalmağı heç. Biz özümüz də, xaric də bilir iş nə yerdədi. Hitlerçilər Ukraynanı, Belorusiyanızadı alanda oralarda da podpolyedə qalmışdı partiya, Almanların arxasında partizan hərəkatı təşkil eləyirdi, kəşfiyyatçı-filan hazırlayırdı. İndi bax belə olub Sovet hökuməti, KPSS, özümüzünkülərdən öz içimizdə bandit hazırlayır, salır canımıza! Lap vəhşiləşib ey partiya! Əmma axırı yoxdu, əlbəttə.

AdıPünhanın sözündən belə çıxır ki, köhnə Sovet Respublikalarında köhnə partiya kadrlarının çoxu üz döndərib KPSS-dən, milli Respublikalara xidmət eləyir. Açıq deyirəm, bilin, Heydərdi umudumuz. İmkansızlar, yəni belə mən təkilər də çalışırlar xalqın tərəfini saxlasınlar. Əmma başqa dərd var. Demə, bütün bu "Azadlıq hərəkatı", AXC-filan deyilən, torpaqlarımızın boşaldılması bütün dünya ermənilərinin proyekti əsasında Türkiyənin Hərəkat Partiyasının işidi. O partiyanın başında duran o ermənipərəst Türkeş Sovet casusudu! Türkiyənin Hərbi Akademiyasında dərs deyən generallardan çoxu Sovet casusudu! Bizim içərimizdəki bu Boz Qurdun başçıları da o Akademiyada dərs alıblar. Özümüzünkülər ey! Erməninin, talışın, ləzginin başını yeyiblər ki, bütün Azərbaycanı parçalayıb verəcəyik, xırda-xırda respublikalara bölün. Dəli olublar, sözün həqiqi mənasında! Bəs o taydakı böyük Azərbaycan, Bağday?! Fikirləşirəm ki, rus imperiyası dağılırsa, bu imperiyanın Şərqdə ən böyük hərbi bazalarından biri olan İran eləcə səlamat qalacaqmı? Otuz milyon EvƏrEy, ƏrÜz, AğÜz – "Oğuz" OdƏri o tayda, səkkiz-on milyonu da bu tayda sızıldaşır. Heydər bu həqiqəti dünyaya yaya bilsə təkcə Amerika, İngiltərə öz qədim OdƏr kökünü dərk eləsə, bir ovuc Hay qanmazları qandıra bilməyəcəyikmi?! AdıPünhan deyir Avar şairi, o məşhur Rəsul Həmzətov özü deyir ki: "avar" deyilik biz, EvƏrik! AdıPünhan heç şübhə eləmir ki, ləzgi də qanacaq ki, əsli ƏlƏsOddu, talış da qanacaq ki, əsli ODƏlƏsdi, hətta fars da qanacaq ki, əsli EvƏrƏsdi,

ərəb də qanacaq ki, əsli ƏrEvdi... Hər şey elmi məlumatın sürətlə geniş yayılmağından asılıdı ki, Bağday da bərpa olunsun, cəmi Yer üzündə Vahid Ədalət səltənəti yaransın. Dərdimiz başqadı deyir AdıPünhan. Yazır ki, Katolik kilsəsindən, yəni Vatikandan verilib, əslində, bu müharibə dərsi, tək buralarda yox ey, bütün dünyada terror müharibəsidi!.. Amerika-Sovet müharibəsi çərçivəsindən çoxdan çıxıb!.. AdıPünhan deyir hər yerə yazırıq, sübut eləyirik ki, Yer planetinin atmosferinin xarablığı son həddə çatır. Pünhanlarımızdan biri lap açıq yazıb ki, Antarktida əridikcə su dolur Yerin alt qatına, sıxılır su, yeri daralır, çıxır okeanlara, dənizlərə... Qısası, deyir tamam aydındı ki, yeri su basacaq! Kimdi baxan?!

Təftiş dedi:

– Elə bil yuxudayam, ay oğul!

Məsim Qonaqlı köksünü ötürüb yerə baxdı.

– Çox şey var... Hal-hazırda vəziyyət çox ağırdı, Abbas əmi! Danışılası dərd deyil. AdıPünhanımız rayonlara gizlin məktublar göndərib. İzah eləyib ki, yağışdan çıxıb yağmura düşmüşük.

– Dayan görüm...

Təftiş Abbas hələ Stalinin, Mirqəzəbin sağ olduğu vaxtlardan bilirdi ki, bu üçpara kənddə gah "Məhər", gah "Məhərrəm Abbasoviç", gah da "General Məhərrəmov" adlandırılan adama bu Əmirlilərdən sağ qalanlar, o cümlədən Səmi də "AdıPünhan" deyirlərsə yəni adını gizlədirlərsə, deməli, işlər çox ağırlaşıb. Təftiş onu da bilirdi ki, əgər kim isə "Məhərrəmov" əvəzinə "AdıPünhan" deyirsə, deməli, burda hökmən yeni fəaliyyət vardı. Buna görə də özündən asılı olmayaraq ehtiyatlanıb:

– Dayan görüm, – dedi, – bəlkə evdə danışaq?

İcra başçısı yenə o yan-bu yana baxdı.

– Ehtiyat igidin yaraşığıdı – dedi. – İşin nə yerdə olduğunu bilən kadrlarımızı beşbir-üçbir avariyaya salırlar, zəhərləyirlər. AdıPünhan köhnə dostlarına, orda-burda hələ açıq fəaliyyətdə olan raykom katiblərinə yazıb, onlar bizə. İcra başçılarına paylayıblar, biz də, açığı, çox yerə yazmışıq. Casus çoxdu içərimizdə. Lap çox ey! Hətta gizlin silahlı dəstələr var, müxtəlif din missionerləri var. Sizə də gətirmişəm məktubun bir üzünü. Verəcəm, özünüz oxuyarsınız, çox şeydən agah olarsınız. Üç il bundan əvvəl bu Boz qurdlar KPSS-in Azərbaycandakı birinci katibini Moskvaya qovub hakimiyyəti alanda sevincimiz yerə-göyə sığmırdı. Keçən il, bu il

“AXC”-nin bu qurdları başımıza bu oyunları açanda bir şey başa düşürdünüzmü?! Yox! Keçən il Lerikdən, İran sərhəddinə narkotika daşıyan maşınları tutanda Səmi dəhşətə gəlmişdi. Yadımdadı necə qışqırırdı: “Bunlar Boz qurddular?! Bu necə ordudu?! Kimdilər bunlar?!” – və sairə. Heç birimiz səsimizi çıxardammadıq o iclasda Səmi qışqıranda. Çox şey bilir bizim bu Səmimiz. AdıPünhan narazıdı bunun polis libası geyinməyindən. Çünki Elm adamıdı. Əmma sən hələ çox şeydən xəbərsizsən, Abbas əmi. Sənə açıq deməliyəm: bədbəxtlik bundadı ki, KPSS lap çoxdan bəri Türkiyəyə külli miqdarda casus yeridirmiş, dövlət təşkilatlarında yerləşdirirmiş, Turğut Özal-filan!..

– Nə?! Nə?! – Təftiş həyəcandan xırıldadı. – Türkiyənin prezidenti – Sovet casusu?!

Məsim də səsini endirdi:

– AdıPünhan yazıb, hələ altmışıncı, yetmişinci illərdən tutulub Türkiyənin rəhbər orqanları. Sovet belə Sovetdi, Abbas əmi! Millətin heç nədən xəbəri yoxdu. Biz özümüz də lap bu yaxınlarda bilmişik ki, demə hələ Romanovların vaxtından başlanıbmış bu iş. AdıPünhan deyir Leninin böyük rolu olub Türkiyənin taleyində. Çünki bilirmiş ki, “türk” deyilən Mustafa Kamal paşa özü də ElƏrEy OdƏridi. Nərimanovdan SafAğ dərsi alıb. Lenin kadrıdı. Bə nə! On doqquzuncu ilə qədər Budyonnıynan, Varaşilovnan yanaşı, bu yanda – Dərbənd tərəflərdə çar generalı Denikinnən döyüşüb. Bizim Dərbənddəndi əsli Mustafa Kamal paşanın. On doqquzuncu ildə Denikin bir orduluq artileriya verib Mustafa Kamala ki, getsin Türkiyəni alsın Antantanın[1] əlindən. Mustafa Kamal paşa Anadolunu xilas eləyib, tamam təmizləyib xaricilərdən. İstanbula toxunmayıb. Çünki Antanta özü çıxıb ordan. O vaxtlar Rusiyadan, Azərbaycandan, Orta Asiyadan Türkiyəyə emiqrasiyaya gedən “Yevreylər”in çoxu sağ-səlamat qalıblar İstanbulda, İzmirdə, Ankarada. Stalin əlaqə yaradıb orda qalan ruslarnan, lap asanca, xəlvətcə tutub rəhbərliyi, Atatürkü öldürtdürüb, başlayıb bizim bu bəlamız “Müsavat”ı Türkiyəyə yığıb hazırlamağa. Yəni özümüzü öz əlimiznən vurmaqdan ötrü. Bildiniz?!

– Əylən!.. – Təftiş özünü itirmişdi. – Sən nə sərsəmləyirsən ey, yəni Mustafa Kamal da bolşevik olub?!

---

[1] Antanta – əsrin əvvəllərində Sibirdən Anadoluya qədər bütün Türk ərazilərini işğal edən dörd iri dövlət

– Yox, a kişi, yox! Mən deyirəm Antanta tutmuşdu Türkiyəni. Mustafa Kamal Antanta ordularını qovub ki, həm türk ərazilərin azad eləsin, həm də ki, türkləri. Stalin pozub da hər şeyi.

Təftişin yumruqları başını döyəcləyirdi:

– Vay-vay! Kül bizim başımıza! Öl, ay köhnə bolşevik, savadsız eşşək Təftiş! Sonra? Sonra?! Deməli, bu Özal o vaxtın Özalıdı?!

Məsim qocanın əllərini tutub aşağı endirdi.

– Sakit ol, bəla böyükdü... Özal cavan adamdı. Əmma o da Stalinin kadrıdı, bir çox başqaları da... Stalin özünü cühud kimi tanıtdırıbmış bu bədbəxtlərə. Bircəciyi fikirləşməyib ki, "yevrey Stalin niyə qırır yevreyi?!" Özün buralarda – rayonda görmürsənmi "yevreylər"i, "pantürkistləri"! Yadında olar, qırxıncı, əllinci illərdə Atatürkün adı pozulmuşdu hər yerdən. Bax o Stalinin işidi. Bu Boz qurd Sovetin "Serıy volk"udu, ay yazıq kommunist Təftiş Abbas! Bizlərdə kimdi canavara "boz qurd" deyən? Yoxdu axı! "Qurd" ayrı şeydi bizim dildə, canavar da canavardı. Nə vaxt "boz" demişik "boz canavara?!"

Məsimin gözü sağa-sola dolandı, rəngində qaçqınlıq vardı.

– Lap lorusu budu ki, Qorbaçov rəsmi rus ordusunu Azərbaycandan çıxaranda, əvəzində özümüzün axmaqlarımızdan hazırladığı Boz qurdu doldurub içimizə! Bunların da bircə səcdəgahı var, bilirsiniz: Məmməd Əmin Rəsulzadə. Əlli birinci ildə ölüb Türkiyədə. Əmma kitabı bunların əllərindədi. AdıPünhan sənəd göstərdi mənə, Stalin şəxsən görüşüb Məmməd Əminnən! On səkkizinci ildə Tiflisdə elan olunan Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyludu. Sizin Muğannaların qohumudu, Səmi. Ailəsinin yarısı Şəkidə, yarısını Qazağın Dağkəsəmənində gizlətmişdi. Tiflisdəki müsavatçılar çoxdan öldürmək istəyirlərmiş Fətəli xanı, təhlükə hiss edəndə xan, Qazağın Muğanlısındakı Muğannaların arasında, ya da Dağkəsəməndə kürəkəninin evində gizlənirmiş.

On səkkizinci ildə Türkiyənin ordusu Azərbaycanı ermənilərin törətdikləri qırğından qurtarmağa gələndə həmin bu Müsavat partiyasının liderləri – Məmməd Əmin Rəsulzadə-filan, erməninin daşnak partiyasıynan birləşib ingilis[1] ordusunu çağırıb doldurub içərimizə.

---

[1] Azərbaycanın köhnə dövlət arxivində, ingilis ordusunun məhz Müsavat, Daşnaksyutun, EsEr partiyalarının çağırması haqqında saysız-hesabsız sənəd saxlandığına, bu sənədlər arasında "26-lar" filmində epizodlar olduğuna baxmayaraq, indiki müsavatçılar məlum faktı gizlətməyə, yəni xaricə xidmətlərini gizlətməyə çalışırlar.

Bəli, türk ordusu Bakıya çatıb əməlli-başlı əmin-amanlıq yaradanda, Müsavat cənabları Türkiyəyə nota göndəriblər, türk ordusunu geri qaytarıblar. Bax, həmin o vaxtlar Həştərxandan o yana, bütün "TatƏr" OdƏrlərimizi vərəm qırırmış, Nərimanov orda tibb məntəqəsi açıb, ağ çiçək – "ramaşka ayı" düzəldibmiş, bütün əhali ağ çiçək yığırmış, o çiçəyin suyuynan sapsağlam olmuşlar. Bax həmin o vaxt Nərimanımız Leninin yanına xüsusi "svyaznoy"nan xüsusi məktublar göndərirmiş, əslimizi-kökümüzü izah eləyirmiş, Lenini başa salırmış ki, bütün türk ərazilərində yaşayan EvƏrEy, ƏrÜz, AğÜz, YanÜzağ OdƏrlərinin qüvvələrini birləşdirmək, böyük vahid ordu, vahid dilli vahid səltənət yaratmaq lazımdı, əks halda o Romanov generallarıynan Daşnaklar birləşib yenidən dolacaqlar daxilimizə, parça-parça ayırıb qıracaqlar bizi. Bax, həmin o vaxtlar, on doqquzuncu ildə Nərimanov, gizlin gəlib burda Hümmətçiləri başa salırmış, Türkiyə sərhəddində Mustafa Kamal paşaynan da görüşürmüş. Dərdə baxın, müsibətə baxın ki, biznən qanbir-canbir ola-ola, keçmişlərini unudan müsavatçı bədbəxtlərimiz Denikinin tərəfində vuruşurmuşlar! Çar hakimiyyətini bərpa eləməkdən ötrü ey! Buna görə də Lenin adını eşitdiyiniz məşhur Elvənd OdƏri Levandovsikni EvƏrEy "Yefremov"u Nərimanovun ixtiyarına verib, qərar belə olub ki, Yefremovla Levandovskini bütün rus türmələrindəki ƏrÜz – "rus" OdƏrlərini, tərik – "türk" OdƏrlərini, "tat" OdƏrlərini türmələrdən azad eləyib, on birinci ordunu yenidən təşkil eləsinlər, Denikinin sağ əlini kəssinlər, yəni Müsavatçıları hakimiyyətdən salıb, vətəndaşlıqdan çıxarıb xaricə göndərsinlər, Mustafa Kamal paşa isə, Cənub cəbhəsində, Yəni Dərbənd tərəfdə Denikinə qalib gələn kimi, o cəbhənin bütün artileriyasını götürüb, dərhal Türkiyəyə – Trabzona getsin, hazırlıq aparsın, azad eləsin oraları. Müsavatçılar düz gələrdilərmi Fətəli xannan? Bu Cəbhəçilər də elədilər. Elə ki, Muğannalardan hansısa "OdƏr" deyir, o saat canavar təki tökülürlər üstünə: "OdƏr nədi?! Bağday nədi?!" Niyə belədi bunlar, bilirsinizmi, Abbas əmi? Sadəcə olaraq, əslimizi gizlədib Şimali Azərbaycanı Cənubi, Şərqi Azərbaycanı farsın pəncəsində saxlamaq, assimiliyasiyaya uğratmaq, həmişəlik ayırmaq, indi də bax, bu gördüyünüz təki parçalamaq: "Muğan" respublikası, "Şirvan respublikası", "Gəncəbasar respublikası", "Qarabağ respublikası"-filan!.. Vaxtilə, İsgəndər Zülqərneyn necə "Manna"ya, "Maday"a, "Atro batana"-filana döndərib?! Bədbəxtliyimizə baxın ki, indiki aka-

demiklərimiz də farspərəst, ruspərəstdirlər. Bağday əvəzinə qrekcə "Maday", "Manna" yazırlar, üstəlik, deyirlər guya xalqın Turğut Özal təkilərin əmrləriynən işləyirlər. Necə ki, Stalin Leninin bayrağı altında "Vperyod!" deyirdi. Belədi, bax, bu Boz qurd. Həmincə siyasət deyilmi bu Məmməd Əmin qışqırışanların siyasəti?! Bildinmi, ay yazıq Bolşevik?! Stalinin şəxsi casusunun proqramı Türkün məhvi olubsa, demək, bu casus özü də Stalin kimi Türk deyilmiş! Belədi! Həqiqi milli hökumətin lideri Fətəli xan Xoyskinin öldürülməsini bolşeviklərin üstünə yıxıblar. Stalin Lenini öldürəndən sonra SSRİ-ni Vatikanın gizlin müstəmləkəsinə çevirib, Türkiyədə də o müstəmləkənin müstəmləkəsi olub, biz də, Gürcüstan da, bütün keçmiş SSRİ respublikaları da! Bütün dünya! Bir növ gizlin olub indi bu Müsavat![1] Çox gizlin parçalayır milləti, çox!

Mahnısına baxın Boz qurdun: "Torpağa qurban dedim, Allaha ismarladım!" Kimi? Azərbaycan əsgərini! "Allaha ismarladım!" Qırsın! Belə dəhşətli cinayət: qır ki, qırasan!.. Heç bilmirəm necə barışacayıq biz bunlarnan... O Türkeş, Dzerjinski klubunda çıxış elədi "Barışın!" – dedi, "Barışmayıb neyliyəcəksiniz?!" – dedi. Sonra gizlin görüş olub, deyib: "Necə yəni atamız farsdır, anamız Türkdür?!" Mənim ismimi "Türkeş" edənlər də böyük qələt eləyiblər, sizə "türkçülük" ideyası verənlər də. Barışın, girin dövlətə, işinizi görün. Budur sizə Millətçi Hərəkat Partiyasının tövsiyəsi... AdıPünhanımız özü iştirak eləyib o görüşdə. Deyir, "Türkeş kontrolu itirib, partiyasının sirlərini açır, işçiləri sağ qoymazlar onu, yəqin öldürəcəklər".

– Dayan görüm... Təftişin nəfəsi daralmışdı. – Bu müsibət nə qədər çəkəcək, nə olacaq axırı!..

Məsim qısıq səslə:

– Bayaq demədimmi, a kişi! AdıPünhan açıq yazır ki, AXC – Müsavat quruluşu ağılsız yırtıcı qurd quruluşudu. Belə getməməlidi. Elmi bilən EvƏrEylər Türkiyədə, Cənubumuzda, İraqda, Ərəb içində, Avropada, Amerikada, hər yerdə sübut eləyirlər ki, Yer üzündə nə qədər dil varsa, hamısının kökü OdƏr dilidi. Yəni bütün bəşəriyyətimiz vahid xalqdır. Müharibələr, münaqişələr qurtarmalıdı, terrora son qoyulmalıdır. Yer üzündə vahid Xalq, vahid

---

[1] 1990-cı ildə "Müsavat" partiyası təşkilatları gizlin məktublar yayıb sorğu aparmışdı ki, Azərbaycan Respublikasına "Müsavat dövləti" adı verilməsinə rəy toplasınlar. Yerli təşkilatlar açıq qorxu ilə razılıq verməmişdi.

dövlət yaranmalıdı... Açıqdı hər şey: Stalin tonnan brilyant göndərirmiş Vatikana. Qorbaçov da göndərib! Əmma Qorbaçov Stalin deyil. Hitlernən Stalin otuz doqquzuncu ildə görüşüb danışıblar ki, Stalin Almaniyanı ərzaqla təmin edəcək. Hitler gələndə Stalin sərhədi açacaq. Hitler qıra-qıra Moskvaya qədər gələcək, sonra da Stalin Berlinə qədər qıra-qıra gedəcək! Niyə? Çünki nemes də bizdəndi. Pünhanlarımız neçə dəfə yazıblar ki, "Doyliç" deyillər, "OdƏlƏs"dilər nemeslər, ƏrEy OdƏrləridirlər, "Ariy" deyirlər özlərinə. Rimlə əsrlərlə döyüşüblər ki, ƏrEyi qaytarsınlar. Vatikan dəyişdirib ƏrEyi, "ariyskaya natsiya" eləyib, Hitlerin diliynən şişirdib, eqoistləşdirib, nemeslərin özlərini də dəli eləyib! Belə işlər var bu xaraba dünyamızda!.. Qırx beşinci ildə ölüb-eləməyib Hitler, Vatikanın divarlarının arasında keyfində olub uzun müddət. Papanın qanadının altında! Deyilənə görə əlli yeddinci ildə ölüb. Belə-belə işlər, Abbas əmi! İş o vaxt düzələr ki, Amerika, Avropa, Yaponiya, Çin, Rus EvƏrEyləri biri-birilərini tanıyıb, İlana qarşı birləşsinlər.

Bu dəfə Səmi əlini Məsimin çiyninə qaldırıb, eynilə Təftiş kimi:

– Dayan, – dedi. – Şəxsən mən heç kəsi inandıra bilməmişəm ki, "zaşşitnik vsex Yevreyev" adlanan Papa Hitleri "qanadının altında saxlayıb".

Məsim paltosunun yan cibindən böyük konvert çıxarıb yenə cibinə qoydu.

– Burdadı. Aydın, sadə dilnən izah olunub. Verəcəm, oxuyacaqsınız, deyirəm. Nə Papa Rimskilər Yevrey olublar, nə də Stalin. Qırx birinci ilə, yəni müharibə başlanana qədər nə qədər EvƏrEy qırılıb bilirsiniz?! İkicə milyon!.. SSRİ-də "Pantürkizmə qarşı mübarizə" şüarının müəllifi Stalin özü deyil?! Yerin altını, üstünü bilən keşiş Cuqaşvili tələbəsi bilmirdimi "türk" adı altında yaşayan bədbəxt millət kimdi?! "Tat" – "TatƏr" kimdi, ay Abbas əmi?! Həmincə OdƏr – "türk" deyilmi?! Stalinin ağlına bax ki, "Pantürkizm"ə qarşı mübarizəni məhz "TatƏr"in çiyninə qoymuşdu!.. İndi də bu Öcalanı çıxarıblar. Guya Kürddü Öcalan. Elədisə, bəs Anadolu kəndlərində "Türk" deyilənnən yanaşı yaşayan "Kürd" deyiləni niyə qırırsan, ay axmaq?! Özaldan soruşan lazımdı ki, Koreyadan başlamış, hər yerdə qalib gələn Türk əsgəri niyə öhdəsindən gələmmir o Öcalanın?! Açıqca görünmürmü ki, Özal özüdü Anadolunu qana batıran?! Amerikanın, Avropanın erməni kapitalistləriynən yanaşı, Özal özü də

tonlarnan qızıl töküb bu terrora, Türkiyəni tamam müflisləşdirib! Budu bax! Əvvəlcə Vatikan özü qanadının altında saxladı, sonra verdi Özalın himayəsinə.

Təftiş əlini yenə başına vururdu.

– Öl, ay Abbas! Cibində qalan KPSS bletinnən bir yerdə! Allah amandı!.. – Kişini tər basmışdı. – Aydın oldu bəlamız. Bu Sudüşəni neyniyək indi?! Qan tutub, pul tutub gözlərini! “Yeraz” ha “Yeraz”! Kim? Göycə camaatı! Kəlbəcər, Laçın! Qazax, Tovuz! Bütün Gəncəbasar! Borçalı! Baş keçid! Ağbaba! Burda, kənddə söz-söhbət çox olur bu barədə. Uşaqlar deyirlər “Yeraz”ı indi elə türk mənasında deyirlər Boz qurdlar. Belə çıxır ki, Arazın o tayı da “Yeraz”dı!.. Mənə de görüm... Deyirlər Gədəbəylidi bu Elçibəy deyilən, onçün səlamət qalıb oralar. Düzdü? Nə cannı-tinnidi o, ay Məsim.

Məsim bir az susub birdən qəmli-qəmli:

– AdıPünhanımız o Əbülfəz Əliyevin, yəni Elçibəyin gıldır-gıldır göz yaşı tökdüyünü öz gözləriynən görüb, guya tutulub vaxtıynan universitetdə, guya milli ideyalar təbliğ eləyən tələbələrnən bir yerdə aparıblar, hardasa azadlıq uğrunda mübarizə dərsi keçib. Aldadılıb, qısası!

Məsim danışa-danışa pörtdü. İçəridən yanırdı:

– Bədbəxtin biridi o Elçibəy! Təzə-təzə başa düşüb ki, düşmənlə doldurublar içərimizi! On səkkiz yaşlılarımızı əsgər yığırlar guya. Aparıb qoyurlar raketin altına, guya erməni qırır hamısını! Nədi bu?! Əşi, həmanca terrordu də! Danışırlar ki, o 20 Yanvar gecəsi “Yeraz” meyitini yığın-yığın, paromnan tökürmüşlər dənizə! Siz cəmaatı başa salın burda ki, Heydər lap təzə başlayıb işə, parçalanmanın qabağını alır. Rəhbərimizin əli bağlıdı hələ, ay Abbas əmi! Ətrafında adam azdı hələ. Müsavatnan yad partiyalarnan yanaşı necə işləyir o, məəttəl qalmışam. “Bəy”lər “bezvozvratnıy kredit” alırlar. Guya milləti soyduqları azdı. Pulu atırlar üstümüzə, hərəsi əlli, yüz, yüz əlli hektar torpaq yazdırır adına. Şəhərlərdə bazarları da tutublar. Kəndçi toyuğunu, meyvəsini, yumurtasını-filanını aparanda elə yollardaca qapazlayırlar, ya da bazarların qabaqlarında alırlar əllərindən, üstlərinə qəpik-quruş tullayıb qovurlar: “Rədd olun! Bazar bizimdi! Siz Yerazsınız! Gedin ölün!” Gözümüzün qabağında xaraba qalıb bu üçpara kənd – Qonaqlı, Tahirli, Qurbanlı! AdıPünhan deyir, əhalimizi kənddən şəhərlərə qovduranlar açıqca deyirlər cəbhəçilərə ki, tez

qurtarsınlar bu urbanizasiyanı, köçhaköçü. Zir-zibil mallarını soxuşdurmağa alıcı istəyirlər ey! Milyonlarnan alıcı!.. Heydər hələ qaydaya salmayıb belələrini. Bir gülləynən iki hədəf vururlar: həm kəndləri, torpaqları boşaldırlar ki, özləri ələ keçirsinlər, həm də şəhərlərdə alıcını çoxaldırlar. Şəkinin, Zaqatalanın tütününü qəsdən çürüdürlər anbarlarda ki, camaat məcbur olub versin bunlara, o torpaqlara da sahib olsunlar. Azərbaycanın hər yerində "Malbora" siqareti satırlar! Hər yerdə ey! Fikirləşin özünüz, nə qədər pulu var bu "Malbora", "Koka-kola"-filan şirkətlərinin! Bir Pünhanımız Heydərə yazıb ki, vaxtilə Lenin kəndlərə iyirmi beş min fəhlə göndərib torpağı kəndçilərə paylatdırdığı kimi, çoxlu adam göndərmək lazımdı kəndlərə, torpaq məsələsi tez həll olunsun, aclıq qurtarsın... Cəbhəçilər şaqqaşaq gülüşüb dolayıblar yazıq Pünhanı ki, "Heydərə verərikmi sənin məktubunu? Poçt əlimizdədi axı! Get, öl öldüyün yerdə, Heydəri qoymarıq kolxozu, sovxozu dağıtsın! "Bax, belə bəladı bəlamız, Abbas əmi! – Məsim yaylıq çıxarıb boyun-boğazının tərini sildi: – Dünyamız əyildi daha! Teatrdan qalıb qulağımda: – "Dünya məhvərindən qopub!" Yerəbaxan Məsim deyirlər mənə. İçim qaynayanda susuram. Üzlərinə baxandaca nifrətimi görürlər yırtıcılar!.. Bəziləri başa düşürlər ki, çox dolaşıqdı işləri, elə ona görə qorxurlar. Heydərdən gülüşə-gülüşə deyirlər: "Əşi, bu o Heydər deyilmi ki, rüşvətxorların partbiletlərini iclaslarda alırdı! Biz rüşvətxor deyilik, banditik. Zəng vur, deynən toxunmasın bizə. Öldürərik, vallah, a kişi!.." Belədi vəziyyət, Abbas əmi. AdıPünhanımız lap tək qalıb. Deyir, sənin o Səmi Əmirliyin vəziyyətiylə mənim vəziyyətimin arasında fərq yoxdu. Göndər, deyir, onu mənim yanıma, köməyi dəyər... Bir ara sükutla yeridilər.

Sonra Təftiş yenə:

– Dayan görüm, – dedi. – Necə yəni torpaqları öz adlarına yazdırırlar? Yazan kimdi? Sən deyilsənmi? İcra başçısının polis idarəsi var əlində! Prokuratura var! Sərhəd rayonusan. Lazım gəlsə, köməyə əsgər də çağıra bilərsən!.. Təftiş Abbasam mən, şəkk-şübhəmi gizlədəmmərəm. Sən niyə gizlədəsən, axı, nifrətini?!

Məsim sakit-sakit pörtürdü, yanırdı:

– Əsgər nədi?! Hardadı əsgər?! Çəkməyə siqaret də vermirlər, qışın günündə qəsdən səngərdə yatırdıb ruhdan salırlar hamısını!.. Guya bölük komandirim var, özüm də komandirəm onun başının

üstündə. Ad mənimdi, at özgənindi, Abbas əmi! Açılışammıram heç kəsnən. AdıPünhanın bu son məktubu olmasaydı, bəlkə heç bu gün də belə açılışmazdım. Mənim adıma dükan açıblar burda – Sudüşəndə Gülbəniz dolları çırpır üzümə, “Al! Səsini çıxartma!” Bax, belə dərd sahibiyəm. Sudyamız qəhqəhnən gülür: “Əşi, elə arvadı boşamaq olar?!” Müsibətimə baxın ki, səhər-səhər qaranlıqlı gəlib Gülbəniznən məsləhətləşirəm ki, “de görüm, bu kolxozu nə təhər bölək?!” Tarixi hadisə baş verir gözümüzün qabağında: kolxoz ləğv olunur. Otuzuncu ildən bu vaxta qədər – yetmiş ildi xalq zülm çəkir kolxozun əlindən. Mane olan çox olsa da, canımız qurtaracaq bu zülmdən. Ayrı yol yoxdu. Əmma sevinəmmirik. Gedirəm kəndlərə, ölçdürürəm torpağı, deyirəm ömürlük sənindi bu torpaq, ay filankəs. Bədbəxt filankəs deyir, bu sözlərindən ötrü əlindən-ayağından öpərdim, ay icra başçısı, əmbə, heç inanmıram ki, mənə verilir bu torpaq. Soruşuram, niyə? Deyir, inamımı qırıblar sənin işçilərin. Sənin öz polisin gəlir, görür qapımda beş toğlu var, deyir, birini kəs yeyək, birini də öz əlinnən qoy maşınımın dalına, yoxsa hamısını apararam. Bu gedir, o birisi gəlir, görür qapımda beş hinduşka var. Deyir, ikisi mənim, üçü sənin. O üçünün də hərəsinin altında yeddi, səkkiz balası var, payıza yaxın iyirmi-iyirmi beş hinduşkan olacaq, onun on beşi mənim, onu sənin! Yoxsa, eviyin içinə keçərəm, görək orda nə var bölünməli!.. Danışır, danışır bədbəxt kəndçi, bir mənə baxır, bir torpağına, ağlayır! Deyir, heç nə əkmiyəcəm! Niyə əkim, axı, məhsulu əlimdən almıyacaqlarmı?!” Çox ağırdı vəziyyətimiz, Abbas əmi. Çox! Bir Talış mollası Yuxarı kənd Qurbanlıya göndəriblər Bakıdan, bir talış mollası Orta kənd Tahirliyə göndəriblər, birini də bura – sizə. Yoxladım, gördüm bütün rayon mollaynan dolub. Yığdım hamısını, deyirəm, Talış deyilsiniz siz, heç fars da deyilsiniz, yad ləhcəynən danışırsınız. Xaricdənsiniz. Nə desələr yaxşıdı? Şiə hakim olmalıdı Azərbaycanda! İmamın göstərişi belədi! Zəmanənin tələbidi!.. Çalışıram başa salım ki, lap uzaq-uzaq zamanlardan bəri Vatikandan göndərirlər bu Şiə, Sünni yayanlar, millətimizi parçalayırlar ki, gücümüz qalmasın. Şiəyə Fars dili öyrədirlər, deyirəm, Sünniyə Türk dili!.. Misal çəkirəm ki, Şah İsmayılın SafAğElmini “türkə” qarşı qoyublar, qırğın salıblar. Gör neçə əsrdi davam eləyir ey bu! Gör necə dəhşətli tarixdi deyirəm, bu, ayılın! Gözümün içinə söyürlər!.. Neyləyim, Abbas əmi?! Mollaların dalında Xomeyni, Xomeneyi, İlan özü, Xomeyninin,

Xomeneyinin dalında Sovet hərbi bazaları. İranın özündə, İraqda, Suriyada, Livanda, nə bilim, özgə haralarda, Afrikada-filanda! Casusları da içərimizdə. Osmanlı gəlir müqavilə bağlayır ki, sərmayə qoyuram, limonad zavodu tikirəm... Yoxlayıram, türk EvƏrEy qardaşım da cənab cəbhəçi bəylərnən oturub-durur... Milliyyətcə özünü bizdən ayrı Cühud bilir, Cühudu Ermənıyə qardaş bilir! Erməni də özünü Şiəyə dost eləyir!.. Kimsəsizləşirik, Abbas əmi! Pyanska Şöşü şeir yazır, fəryad eləyir! Gülür: "Ninnini!" Özüm də ki, belə. Yerəbaxan! Canavarın gözünün içinə baxmaq mümkün deyil, Abbas əmi! O Boz qurddan olan cühudları apartdırıram rayonun klubuna, çalışıram başa salım ki, düşmən katiblər Nizaminin "İskəndərnamə"sində sizi "Cud", "hud" yazıb" "adamyeyən xalqlar" yazıblar. Qreklərin, latınların belə-belə işlərnən məşğul olan minlərnən casusları var, deyirəm, ayılın, Türksünüz – OdƏrsiniz, "cud", "hud" yox, "Cuhud", "Yəhud" yox, EyOdsunuz, "Ağsətan" adlandırılan nəhəng şəhərdən, Bağdayın vilayətindənsiniz və sairə və ilaxirə! Gülüşürlər! Çünki cavab yoxdu! Qrekin yaratdığı "Sarı inək" əfsanəsinə inanırlar, SarÜnAğ EvƏrimə yox! "Musa"ya inanırlar, BağSar Ulu Bağa yox! "İsa"ya inanırlar EySar ÜnEvə yox! Səmi Əmirli öz bibisinin əridi! Pasport əllərində, Zaqs əllərində, Səmi necə çıxsın indi bu biabırçılığın altından?! Əmirli mülkündəki o boş qalan kitab tərəcələri bütün rayonda zərbməsəl olub. Nə isə bir iş baş tutmuyanda deyirlər: "Tərəcədi!" Nə tərəcə? AdıPünhanın, Pünhanların, Səməd Əmirlinin məqalələrini, proklomasiyalarını Bakının, Gəncəbasarın, Borçalının hər yerindən yığışdırıb satıblar imam Xomeyninin casus islamistlərinə evlərdə, tərəcələri boş qalıb! Budu bax aqibətimiz: Elm əvəzinə boş tərəcə! Tək bu xalqın yox, bütün dünyanın ideologiyasıdı SafAğ Elmi! O da belə! Aşıq Kamandarın kasetlərini yandırırlar: "Gizlinliyini də bilirik, aşkarlığını da: "Ana, mən Qəribəm".[1]

Səmi bu sözləri eşitmirdi; əli gödəkcəsinin cibində, qurumuşdu.

– Neçə vaxtdı siyirmələri eşələyirəm ki, ay Allah, hardadı mənim pasportum! Demək... Zaqs?! Sultan Əmirliynən Gülgəz əhvalatı?!

Məsimin səsi tutqunlaşdı:

– Görmürsənmi Göbələk necə həyasızlaşıb?! Heç şübhəsi yoxdu ki, uşağı da alacaq, mülkü də. Yəni sənin başını yeyəcəklər,

---

[1] Q ə r i b – OdƏrEv ("Aşıq Qərib" dastanının baş rəmzi). "Ki"ƏrEv sözündən

ev qalacaq əyriyə, həm yiyə, həm səmriyə! Gülbənizi bərk hədələdim ki, ayıq olsun apararlar uşağı. Deyir, qəsdinə dursalar, kim durar Nəcəfin qabağına?!

Səmi özünü itirmişdi...

Məsim, bir nömrəli evin bərisində, maşının yanında dayanmış şoferinə işarə verdi, maşın sürətlə gəlib dayananda isə o – Məsimin, Təftişin, Səminin əllərini sıxdı:

– Sabah düz saat altıda burda olacam. Camaatı sakitləşdirin, dava-zad düşməsin, – deyib getdi.

Lakin icra başçısı nə sabahısı gəldi, nə də o birisi gün. Qonaqlıya elə bir ümidsizlik sükutu çökdü ki, hətta bir səhər ertə Xəlvət Rəhim qoyun sürüləri ilə naxırı Hacıehsan çəməninə gətirib, Nəcəfin "rupor"unu ağzına tutub, kəndə doğru:

– Ay cəmaat! Ay cəmaat! Gəlin paylarınızı aparın! Gəlin paylarınızı aparın! – deyə-deyə dönə-dönə qışqıranda, bir nəfər də yerindən tərpənmədi. Səmi "Jiquli"sini vağzala sürüb, Bakıya, Heydər Əliyevin üstünə teleqram vurdu ki, "varlı adamlar, rayon rəhbərliyinin əli ilə kolxozun var-dövlətini həyasızcasına mənimsəyirlər..." Əmma elə həmin gün Boz qurdların qəhqəhələrinin arasında, kürəyinin ağrısından əyilməli oldu.

– Ay əbləh! Poçt işləmir axı! Qoyarıqmı?! – deyirdilər.

– Çıxdın işdən, a bədbəxt! "İşin öhdəsindən gələ bilmədiyinə görə tutduğu vəzifədən azad edilsin, Qonaqlı sovetliyində sahə müvəkkili təyin edilsin". Aldınmı payını?! Di öl! – deyirdilər.

– O yan-bu yan eləsən müvəkkillikdən də qovulacaqsan! Bəri başdan get general qohumuyun tuflilərini şotqula! – deyirdilər. Bu dəhşətli banditizmin dəhşətini, can ağrılarının sonu görünmədiyinə görə Səmi, nəhayət, yenə silaha əl atmalı oldu; bir axşam rayon poçt idarəsinin rəisini rənginə sarılıq çökmüş, arıq, xəstə oğlanın özünü aparatın qabağında oturdub, tapançanı boynuna dirəyib vağzaldan vurduğu teleqramın mətnini diqtə etdi.

Ertəsi gün Məsimin "Mersedes"i Orta yolda dayanmışdı. Yoğun, kötük kimi bir adamın – Zalın icra başçısına qışqırtısından anlaşılırdı ki, Bakıdan – Kənd Təsərrüfatı Nazirliyindən göndərilən nümayəndə camaatı Hacıehsan çəməninə yığıb ağsaqqallar şurası sədrinin – Təftişin və şura üzvlərindən tək Zalın iştirakı ilə hər ailə üzvünə beş qoyun, bir-iki inək hesabı ilə pay-bölüş eləyib getmişdi.

Amma nümayəndənin maşını aralanar-aralanmaz bu yandan Qudalı arvadları gedib qaraqışqırıq salıblar, AXC sədrini, yəni Xəlvəti çağırtdırıb tələb eləyiblər ki, qəsəbədən firmada işləyən qırx ailəyə də pay bölünsün. Zal Xəlvətin üzünə durub ki, icra başçısına bir çamadan pul verib o işləyən ailələrin adına fermerlik almısan, üstəlik, sürülərdən yeddi yüz baş yanı quzulu qoyun apartdırmısan, erkək sürüsünü bütüncə qırdırıb satmısan, doymayıbsan, yenə istəyirsən?!

Məsimin gözləri dizlərinə dirənmişdi.

– Yaxşı, yaxşı... İndi gedərik, yoluna qoyarıq, – dedi.

Getdilər və qəribə odu ki, o qədər hay-küydən sonra icra başçısı beşcə dəqiqənin içində doğrudan da hər şeyi "yoluna qoydu"; Xəlvətə ikicə kəlmə: "Sizə düşmür", – dedi; bir də Əlləzoğluna ikicə kəlmə:

– "Sənə də düşmür", – dedi.

Zalın hədsiz ətli yanaqları qıpqırmızı oldu. Hədsiz enli çiyinləri sallandı.

– Artıq-əskik danışdım, ... bağışlayın, yoldaş başçı... Sizi belə bilmirdim, – dedi.

Məsimin üzü də lap qan rənginə düşdü.

– O bir çamadan pulu Rəhim Qudalı bir zənənə vermişdi. Aldıq, Qarabağ qaçqınlarına kömək fonduna, banka keçirmişik. Şəxsən mənə isə qonaqlıq verib Rəhim kişi. Getsin indi yenə bir yaxşı barışıqlıq süfrəsi açsın. Qonaqlının ağsaqqallarını dəvət eləsin. Paybölüş sənədlərini də hazırlasın, ağsaqqallar şurasının sədriynən yanaşı qol çəksin...

Bu sözlərdən sonra Qudalılar niyə dillənmədilər? Yumşaq, zəhmsiz icra başçısı birdən-birə niyə zəhmli göründü? Heç kəs anlamadı. Əslində bu qəribəlik barədə heç fikirləşən də olmadı. Çünki Məsim Qonaqlı öz qısa nitqini qurtarar-qurtarmaz, Qonaqlının o "öykəşik ağbirçəklər"indən birindən gözlənilməz hönkürtü qopdu:

– Yəni indi biz də mi var-dövlət sahibi oluruq, ay allah! Otuz qoyun?! Otuz quzu?! Altmış! Sürüüü! İki inəəək! Dəli ollam, ay camaat! Doğrudanmı altmış qoyun-quzum, iki inəyim olacaq?! Hər gün evə bir-iki vedrə süd aparsam, vallah, dəli ollam!..

Səsi o biri "Öykəşiklər"in – "yurdda qalanlar"ın səslərinə qarışdı. Diqqət yetirən olsaydı, bu səs-küydə qəmli bir xoşbəxtlik görərdi: yetmiş beş il bundan əvvəl deyildiyi kimi, "hamısını bir

boyunduruğa qoşdurun", yəni məcburi "kolxoz" işinə bağlanıb, Sibirə sürülmək, güllələnmək hövlündən titrəşənlər burada ilk dəfə sarsılıb yazıqlaşmışdılar. Hacıehsan çəməninə səpələnmiş camaatdan tək bir nəfər – Əlləzoğlu ayrılıb qalıb, papağı ilə tez-tez gözlərini silə-silə üzünü göyə tutmuşdu:

– Məni niyə belə zəlil elədin, ay gözəgörünməz?! Gecə-gündüz kolxozun dağılsın, ay Şura hökuməti, deyən Əlləzoğlunu niyə əliboş qoydun bu görənəkli gündə, ay Gözəgörünməz?! Neyləyim indi mən sənin bu başçı deyiləninə?! Necə yəni "sənə düşmür"?! O qırılan erkəyi mənmi qırmışam, ay başçı belə-filan?! O otuzunun pulunu niyə vermədilər, ay belə-filan!..

Əmma başçı bu sızıltını eşitmirdi:

– Gedək AdıPünhanın məktubunu oxuyaq, – deyib Təftişlə oğlunu maşında oturdub, doğrudan da, barışıqlıq süfrəsi açdırmaq niyyətilə hətta Xəlvəti də maşına dəvət eləyib getmişdi. Yalnız maşını bir nömrəli evin yanında saxlayıb, Xəlvəti orada düşürüb, Əmirli mülkünün həyətindən Səminin boğuq, batqın qışqırtısını eşidəndə bildilər ki, Səmi Hacıehsana getməyibmiş.

## 8

Midi, Gül xalası ilə birlikdə, elektrik dirəyinin dibində dayanmışdı. Birinci dəfə idi ki, əmisi ona "sabahın xeyir" demirdi. Əksinə, Midinin üzünə də baxmadan, həyətdə o yan-bu yana gedə-gedə, boğula-boğula qışqırırdı:

– ...Niyə dillənmirsən?! Hanı mənim pasportum?! O evə kim ayaq basır səndən başqa?! Görmüsən pasportu apardıqlarını?! Niyə deməmisən mənə?! Nədən qorxmusan axı?! Bu qədər alçalmaq yaxşıdı, yoxsa ölüm?! Bu necə şantajdı, necə heyvanlıqdı, ay Gül xala?! Hənifə qarı deyir, nöyüdü tökdü başı aşağı, spiçkəni çəkdi, təpədən-dırnağa yandı, ölümcül apardıq... Sən bilməmisən bunu? Niyə indi deyirsən, Gül xala?! Niyə vaxtında xəbər verməmisən ki, Əlləzoğlunu beyindən-başdan çıxardıblar bu şantajist, qatil yığnağı?! Sənin adına niyə bu qədər söz deyilir?! Səbəbi nədi?! Niyə dözürsən?!

Danışdı, deyindi, sürətlə o yan-bu yana getməkdən tərə batdı. Sonra birdən icra başçısını və Təftişlə Zalı balkonun altında görüb, duruxub, küt-küt onlara baxdı.

Sonra yenə Gül xalasının üstünə cumdu.

– Bir dəqiqə də gözdən qoyma uşağı! Elə şey olsa, güllələyərəm hamısını o bandit yığnağının! Türməyə getmərəm, özümü də vurram!

Beyni uğuldayırdı. Beli ağrıyırdı. Yalnız ağrı şiddətlənəndə ayaq saxlayıb, avtomatı köndələninə tutub belinə sıxıb, əyilə-əyilə balkonun altına yönəldi.

– Gedək! Ora gedək, cənab başçı! Dözəmmirəm mən daha! – deyib iki nömrəli evi göstərdi. – Xəlvətnən, Nəcəfnən, bütün o qudurmuşlarnan açıq danışmalıyıq! Lap açıq! Cinayətlərini gözlərinin içinə deyəcəm! Sən də, nəhayət, sərəncam verməlisən etibar elədiyin polislərə, bir əncam qılmalısan. Polisə etibarın yoxdusa, əsgər çağır! Qeyrətli, vətəni olan əsgərə nə dəxli var necə saxlanır?! Əksinə, əsgər daha yaxşı bilir kimdi OMON, Boz qurd-filan! Çağır gəlsinlər, əl-ayağını yığaq bu banditizmin!

Təftiş əlini Səminin çiyninə qaldırdı:

– Rəhimnən söhbətimiz oldu. Heydərin tapşırığı var ki, əmin-amanlıq yaradılmalıdı. Xəlvət barışıqlıq süfrəsi açır. Çörək kəsməliyik onlarnan. Məsim düz deyir. Sən bir az sakit ol.

Məsim yenə yerə baxırdı.

– Hə... Sakit... Dözmək çətindi, əlbəttə. Demişəm Xəlvətə, lap açıq, lap açıq danışaq. Bir razılığa gəlsək, hətta çörək kəsəcəm mən onlarnan, Səmi, Babalarımız qan düşmənlərini barışdırarmışlar. Sən yola get bunlarnan. Barışmasaq yaxşı olmaz. Onsuz da qırğın düşüb millətin arasına.

Səminin gözlərində dəhşət parıldayırdı:

– Siz nə deyirsiniz?! – Avtomatı belindən qabağa hərləyib, yuxarı qaldırıb tətiyi çəkdi. – Budu bax barışıqlıq! Çörək nədi?!

Məsim başını köksünə endirib:

– Sən Xəlvət Rəhimi tanımırsan, Səmi, – dedi. – Qulaq as mənə. Açıq danışaq. Onun mayası xaricdən deyilmi? Hələ də casus yuvası deyilmi o Şüşəli?! Gürcüstanın bəri tərəflərindən, Borçalının Yəhudi düzü[1] səmtindən üzü bəri sel təki axır erməni maşını. Sərhəddəkilərimiz bilirlər Sovetin işidi bu, cınqırlarını da

---

[1] Y ə h u d i  d ü z ü – Kür boyundadır. İki yüz illik müharibə (604-802) dövründə Qreklərin hökmü ilə EyOd vilayətindən buraya köçürülən “İvr” dilli OdƏrey sonralar Rusiya ilə sərhəd tərəfə – Qubaya köçüblər.

çıxardammırlar. Polislərimizi açıq-açığına öldürürlər. Sən sakit ol. Qulaq as.

Güllə səsindən sonra Məsimin də nəfəsi təngimişdi. Renginə bozumtul sarılıq çökmüşdü. Bu vəziyyətdə, astadan, zorla danışırdı:

– Bu zəmanə xəstə elədi hamımızı. Əsəb-zad qalmadı. Ürəyimə elə bil bıçaq sancılır tez-tez. Qulaq as. Məsələ burasındadı ki, bu Qudalılar heç də Qudalı deyillər axı, qubalıdılar. Sən alimlər tərbiyəsindən çıxmısan. Polis paltarında alimsən. Bilirsən ki, əvvəllər OdƏrcə – Türkcə danışıblar bunlar. ƏrEy – ƏrimEy deyiblər dillərinə, özlərinə EvƏrEy deyiblər, sonralar o "Yordan" çayının o tərəfini – EyOd mahalını Qreklər tutub veriblər ərəblərə. Bu tarixi də gizlədiblər. AdıPünhan danışdı mənə, mən də sənə danışıram ki, öz doğma atandan, doğma əmioğlun Mədəddən aldığın dərsi yaxşı-yaxşı yada salasan, yaxşı-yaxşı düşünəsən... Yazıçı İsmayıl Şıxlı bilirsən necə təmkinli adamdı. Elmimizi də Pünhanlarımızdan öyrənib az-çox. Əmma təmkinini itirdi, o da sən təki Ali Sovetin tribunasından dedi: "Meşəni qıran baltanın sapı özümüzdəndi..." Düzmü elədi? Açmaq olarmı belə dərdi?! Vətəndaş müharibəsi elə qızışar ki, Allah göstərməsin! O tarixi mərkəzimiz, həm OdÜnümüz Ağbatana dönən təki Bakı da Ağbatana dönməzmi?! Get gəz o Dağlı məhəlləsini, sorğu apar, gör nə deyirlər! Qulağımnan eşitmişəm ən məşhur Dağlı Ziyalıdan: "Mı – oturçanennıe persı!" "Yəhudi"-zad yox ey, "Persı". İndi gəl, necə deyərlər, qaz əfəndiyə qaz boğazla görüm qanırmı? Xaric doldurub beynini, Kalaşnikovu verib döşünə, get qır türkü... Biz də qıraq?! Olmaz axı, ay Səmi! Əsgəri çağırım, nə deyim?! "Biz Türkük, bunlar Yəhudidilər, Cuhuddular, bizi erməniyə satıblar, qırın bunları" deyim?!

Səminin əli avtomatın qundağından qabaqkı çökəklikdə, yəni çaxmağın dalında düyünlənmişdi. Birdən iflic vurmuş kimi əli yanına düşüb sallandı.

– A kişi!.. Cənab icra başçısı!.. Mənim əslim, nəslim, atam, özüm, bu Təftiş Abbas, bu Zal, bu rayonda hamı Qudalıların cikinə-bikinə bələddi! Fətəli xanın vaxtında rusu içərimizə kim buraxmışdı?! Mən?.. Babalarımız qardaş deyiblər bunlara, çörək veriblər, yurd-yuva veriblər. Bədbəxtlərimiz bilməyiblər ki, Asorudular bunlar, yəni Suriyalı! Cənubumuzu da doldurublar, ermənin, gürcünün içini də. Xoş niyyətnən köçürdüblər buraya

bunları?! Qanmıyaq, qandırmıyaq ki, millətinə yad olub ermənivnən, rusnan qaynayıb-qarışıb, birləşib axırda özünüzü də güdaza verəcəksiniz?! Babalarımın yeddi yüz əlli cildlik "Vərəsə" kitabının qalıqlarından öz gözümnən oxumuşam, budu tarix, sən deyən deyil. O "tarix" uydurulub ki, özümüz özümüzü qıraq! Budu tarix! "Asoru Ermənisi" deyirik, gülüşürlər! "A kişi, yəhudiyik biz" – deyirlər...

## 9

...İki nömrəli evin dəhlizinin o başında taybatay açıq qapının kandarına çatanda böyük zal kimi geniş otağın arxa divarında zərli çərçivə içində portretdə polkovnik Rəhim Qudalı göründü.

Zal dedi:

– Həə... İndi məlum oldu niyə bu qədər zoddudu[1] Xəlvət Rəhimimiz, – dedi. Zalın solundan-dərinlikdən ev sahibinin sakit, bəlağətli səsi cavab verdi:

– Bu kənddə hər üç nəfərdən biri agentdi, Təftiş. Hər beş nəfərdən biri çekistdi. Bilməmiş olmazsan. Sən özün də xüsusi şöbə işçisi deyildinmi Sovet vaxtı?! Portreti sizə görə asdım. Bu, bir. İkinci, harda nə danışırsınız, hamısı eşidilir. Özü də burda yox, lap uzaq məsafədə. O məsafədən buraya zəng olunur. Buna görə də Heydər barədə xam xəyalı bəri başdan çıxardın beyninizdən. Moskvaya qəsdən aparmışdılar onu səksən üçüncü ildə. Qəsdən! Burda – Heydər olan yerdə – Şüşəlidə işləyə bilərdikmi biz, ay heyvanlar?! İndi ətrafındakıların hamısı AXC qəhrəmanlarıdı ey! Lazım gələndə bir saata yıxarlar tərifinizi!.. Əvvəlcə istəkli arvadı öldü Heydərin. Sonra özü ölümcül oldu! Niyə? O cür pəhləvanı niyə paraliç vurdu?! Bunu xüsusi nəzərə alın. O yan-bu yan eləsə, sağlamlığını itirəcək yenə! Demək istəyirəm ki, arxayın olmayın ona. AdıPünhanımızın da axırıdı. Kremli xəstəxanasına gedibmiş beş il bundan əvvəl. Heydəri yoluxmağa gedən general bilmirmişmi ki, evi, maşını, hətta əyin-başı – pal-paltarları da "julik"nən[2] doludu?! Pıçıltısı da Mossovetin ovcundadı! Başı varmı AdıPünhanımızın?! O nə məktublardı yayır?!

---

[1] Zoddu – zorakı, təpərli

[2] Julik – səsötürücü aparat

Səksən səkkizinci ildən Səmədinizin sağlığından nə qədər yazıb-pozublar, hamısı bizim KQB-nin əlindədi! Üstəlik, Rim papasının əlində!.. Türkiyə niyə göndərmir ordusunu bura?! On səkkizinci ildə gəldilər, Müsavatın bircə notasıynan çıxdılar getdilər. Niyə? Çünki bizimkilər oturmuşdular sultan taxtının sağ-solunda! İndi də eləcə oturublar, ay yazıqlar! Hünəriniz var, gedin tapın! İran bizim, İraq bizim! Amerikada, Fransada, heç ağılagəlməz ölkələrdə hər biri yarımdünya sahibi senatorlar – bizim! Biznesmenlər – bizim! Başınıza atmı təpib ki, sürüb dolubsunuz bura! Niyə ölmürsünüz öldüyünüz yerdə?! Niyə qanmırsınız ki, SafAğ, Bağday boş xəyaldı! Hanı Türkiyədəki SafAğ alimləriniz – AğTürklər?! İşləyəmmirlər! Gərək bütün dünyada yevrey bilsin türkdü, türk bilsin yevreydi?! Ay bildilər ha! Amerika Birləşmiş Ştatları "hə" deyərmi Midiyanıza! İngiltərə! Fransa! Germaniya!.. Xaç yürüşlərini nə tez unutdunuz, ay bədbəxtlər?! Bu gidi dünyanın özü deyilmi sizi Olamdan, ƏrEydən, ƏrAğdan tərik salan?! Harda quracaqsınız Bağdayınızı, ay əbləhlər?! Pünhanlarınızdan biri yazıb ki, Şirvanşah İbrahim müdrik hökmdarıydı, hamıdan tez bildi ki, Teymurləngə qalib gəlmək olmaz, var-yoxunu yüklədi dəvələrə, getdi təslim oldu. Budu bax sizin yolunuz! Niyə təslim olmursunuz?! Şiəyik biz, Şiə! Türkləşdirdiyiniz farslarıq! Şimalınızın qırx faizini döndərib Şiə eləmişik! Qalanları nə Şiəlik qanır, nə Sünnilik! Təslim olmaqdan savayı yolunuz yoxdu sizin! Yoxsa qırılacaqsınız! Hamınız! Bələkdəkilərinizə qədər!

Təftiş tutulub qalmışdı.

Səminin rəngi ağarmışdı.

Zal arxada tövşüyürdü.

Məsim guya gülümsündü, dodaqları, yanaqları titrədi.

– Şiənin də tarixi məlumdu bizə, Sünnünün də, Rəhim kişi. Şah İsmayılın vaxtında eləmişdi bunu Vatikan. Hacıları, Kərbəlayıları qaldırmışdı üstümüzə. Konkret ad çək, bilək kimə təslim olmalıyıq?

Rəhimin də yanaqları əsdi:

– Bizə təslim olmalısınız burda! Bizə!

– Sizə, yəni özümüzə?

– Xeyr! "Bizə" – ləzgiyə, kürdə, "TatƏr" – OdƏr elədiklərinizə! Akademikləriniz rəsmi deyiblər: "Bura Tatstandı!" Bakıdan başlamış, Şamaxı, Şəbran, Zaqatala, Qazax, Şamxor, Gəncə – hamısı Tatstandı! Rimdə ƏsEvÜnünüz varıydı. Papa EvÜnü yedi, İrəvan

elədi, çox "van" yaratdı. AğÜnünüz vardı. "Van"ın üstünü açdınız, İlan o dəqiqə "Alban" qoydu adını, erməni gülə-gülə yazdı doldurdu hər yeri. Niyə, bilirsənmi, Təftiş? Çünki dövlətiniz yoxdu sizin, adı sizindi, özü Mikoyan, Mirzoyan Balayanlarındı. Qanmırsınız! Çoxdan təslimsiniz siz! Bu Səmi-Məmi, Şöşü-möşü gədələrinizin əl-ayağını yığışdırın! Rahat oturun!

Məsim Səmiyə baxdı:

– Niyə dillənmirsən?

Səmi dedi:

– Gördünmü ki, bunnan dil tapmaq olmaz?! Bizim Pünhanlardan biri dostudur akademik Bünyadovun. Akademiyaya gedib, Bünyadovun kabinetinə, deyib: "Arxivləri çoxmu sevirsən?" Bünyadov deyib: "Səni sevdiyimdən az sevmirəm". Pünhanımız arxiv sənədini qoyub stolun üstünə: "Bakı" – BağOd, "Kuba" – BağOd, "Şamaxı" – ŞamAğEy, "Şəmkir" – ŞamOdƏr. Bünyadov deyib: "Son vaxtlar mən hiss eləyirdim ki, "Tat", "TatƏr", "Bakı", "Quba", "Şəki", "Qazax", "Ağstafa"-filan – bütün adlar falsifikasiyadı, çox zatıqırıq olmuşuq. Mən çalışıram farsa qandırım ki, Şimalımızda düz yazırlar – hamımız vahid xalq olmuşuq... İlan kimi çalırlar.

Məsim elə bil ürəklənib, bir-iki addım yaxın getdi:

– Sənə Qonaqlıdakı o köhnə evində mərhum Sultan Əmirli özü dərs deyib SafAğ Elmindən. O cür kişinin o cür dərin, hərtərəfli dərsindən sonra ayrılıq saldın. Çünki, sadəcə, qızılı üstün tutdun. Gülmə, Rəhim kişi, kim istəməz pulu-varı olsun. Əmma, necə deyərlər, "var dediyin əl çirkidi". İnan ki, Heydər boş-boşuna qayıtmayıb Bakıya. De görüm, ondan başqa bir həqiqi rəhbərimiz varmı? Yoxdu axı! Açığını deyirəm: Elçibəy özü də yalvarıb, deyib ölkəni idarə eliyəsi adam yoxdu bu AXC-də... Bax, buna görə "süfrə"-zad dedim mən. Sən bir yaxşı-yaxşı dəvət elə bizi, ay zatıqırığımız, oturaq danışaq. Bu cür qatı düşmən kimi qarşıdurmanın səbəbi nədi, Rəhim kişi? Bir kəlməsi də doğru olmayan xarici təbliğat deyilmi?! Bilirsən ki, məhlə-məhlə parçalayıblar Azərbaycanı! Bu halda heç bir xalq heç nəyə qabil olmur. Yəni birləşəmmir təhlükəyə qarşı. Məhv olur Rəhim kişi, mən başa düşürəm bunu. Yəni sənə "təslim olun" dedirdən səbəblər çox ciddi səbəblərdi. Təslim olmaq üçün də danışıq lazım deyilmi, Rəhim kişi?! Bağday torpaqları birləşdirilsə, bir tərəfi gedir çıxır Olama, "Rey"ə – ƏrEyə, ƏrAğa, ikinci tərəfi "Rum"a – Ərimə, yəni "Türk"iyəyə, üçüncü tərəfi Uc Ruma – SarUcAğa. Budu bax,

Vatikanı, Soveti titrədən. Türkün vətəni qayıtmalıdı özünə. Bundan ötrü yeganə çarə Elmdi. Elmin yayılmağının çarəsi isə səbrdi, dözümdü. Əvvəl-axır qayıdacaq həqiqətimiz. Aç dediyim süfrəni! Barışıqlıq süfrəsini!

Xəlvətin qəfil qəhqəhəsi lap öldürücü oldu:

– Pyanska şairiniz özü öz qanını içib dəmləşib, gəlin siz də dəmlənin! Buyurun! Süfrə hazırdı! – Bu sözlər nə qədər açıq, hədəli olsa da zala keçdilər.

Səmi portretdən gözlərini çəkib zalın o başına baxar-baxmaz, ağ süfrəli uzun stolun o başında, açıq, tərli sinəsində qabırğaları, körpücük sümükləri, tamam ətsiz, ağsümük üzü ağaran Şöşünün gicgahlarından çiyinlərinə axıb paqonları qırmızı boyamış qanı gördü və o anda da avtomatı çiynindən döşünə fırlatdı. Şöşünün sağ-solundan, arxasından üç avtomat da bu yana – dörd nəfərə tuşlandı.

Dəhlizin pəyəndazlı döşəməsində küt ayaq tappıltıları eşidilib xırp kəsildi: üç avtomat da arxadan tuşlandı. Səminin barmağı tətikdən endi. Avtomat yerə düşdü. Hər iki tərəfin harın qaqqıltıları bir-birinə qarışdı. Xəlvət tələsmədən yaxınlaşıb, qarnını sallayıb, avtomatı yerdən götürdü.

– Xəlvət Rəhim deyilən mənəm, bala. O portretdəki polkovniki tanımırsan sən... Keçin əyləşin. Qonaqlarımın hamısını belə qarşılayıram mən son vaxtlar. Umudlu olmayın, Müsavat bu dəfə nəinki mühacirata-zada getmiyəcək, əksinə, daha da möhkəmlənəcək. Əmbə bir şərtnən. O stolun üstündəki araq şüşələrinin hamısını qarnınıza tökəndən sonra ta biz yığışıb maşınlara dolub Gürcüstana keçənə qədər bu otaqdan çıxmıyacaqsınız. İcra başçısının evindən bir milyon dollar göndərməlisiniz sərhədə, Gülbənizdən yox, şəhərdəki evdən! Səm-səminin Əmirli mülkündən qızılları, xalı-xalçaları, zililəri, sazları da üstündə. Midi kişi, Təftiş Abbasın evindən də gəlin!.. Milyon gətirilənə qədər nə o uşaq qaytarılacaq, nə o gəlin, nə də Əmirli mülkünün zir-zibili! Bundan başqa, vaxtı çatanda evləriniz də müsadirə olunacaq!.. Zorri Gülənovu çağırmışam gəlsin bizim bu "barışıq məclisi"mizdə iştirak eləsin. Gəlməlidi indi. Sonra Şüşəlinin o dal otağında ofisiantları xarab eləyən Şöşünüznən, öz bibisini xarab eləyən bu Səm-səminizi aparacaq, qıçlarının arasını kəsdirəcək, canımız qurtaracaq bu namussuzluqdan!

"Gəlin" kəlməsindən sonra Səminin hiddətli xırıltısı nəzərə alınmasa, Xəlvətin şərtləri gərgin sükut yaratdı.

Əmma sükut çox çəkmədi.

Təftiş Abbasın boyunun ucalığından tavana doğru necə bir hayqırtı qopdusa, burda diksinməyən adam qalmadı.

– Ey Süleymanım! – Təftiş qışqırdığı anda geri qanrılıb, qızarmış, pörtmüş Zalı kənara itələyib, qulac qollarını geniş açıb, Xəlvətin bir-birindən kök, torba ət kürəkənlərinin üçünü də qucağında sıxdı, itələyib divara çırpdı və qırx beş nömrə "sapoq"ları ilə hərəsinin qarnına bir təpik qoydu. Bu, hələ otuzuncu ildə kolxozun dörd briqadirindən biri, sonra anbardar olduğu vaxtlardan hər gün yüz kiloluq taxıl çuvalları qaldıran Təftiş Abbas üçün çətin iş deyildi. Döyülməkdən üzülmüş, çoxlu qan itirmiş Şöşü də o "Süleymanım" qışqırtısı ilə eyni anda eynilə Təftişin qulac qolları kimi qollarını geniş açıb, Xəlvətin o biri iki ət torbası kürəkənini qucaqlayıb stola sıxıb qışqırtması da o qədər təəccüblü deyildi. Səminin avtomatı çəkib alıb, xəlvəti lülənin qabağında eşiyə çıxarıb, qəsəbədən yox, elə bil yerin altından qaynayan, bir-birindən kök, gödək cavanların arasına itələyib, bir "mağaza" patronu havaya ata-ata bir dəqiqədə on dörd avtomat alması isə möcüzə idi. Əmma bu möcüzənin səbəbi vardı. Doxsanıncı ildən bu vaxta qədər AXC-nin polis rəisi Zor nəçənnik Gülənova "narkotika pulu payı" verdiklərinə görə nə qədər arxayın olsalar da, hardansa dumanlı təhlükə gözləyən bu dəstənin silah işlətməyə ehtiyacı yoxdu. Çünki AXC-nin gizlin polisinin rəisi – Yerəbaxan Məsim burada idi, Səminin arxasınca həyətə çıxıb, başını bulayırdı.

– Mən sizə dönə-dönə demişəm ki, OMON ortalıqda ola-ola siz silahnan gəzməyin. Biz, İcra Nakimiyyəti, Daxili İşlər Nazirliyinə hər il məlumat veririk ki, qanunsuz silah yığılıb təhvil verilib, siz yenə silah çıxardırsınız. Neyləyim indi mən yazıq?!

Məsimin səmimiliyinə heç kəs şübhə etmirdi. Əmma ət torbaları öz aralarında baxışıb, birdən pıqqıldaşıb, sonra lap ürəkdən gülüşdülər: silahı onlar İcra Hakimiyyətinin zirzəmisindən almışdılar axı! Və Yerəbaxanın gözünün qabağındaca bir "qruzovik" dolusu yeşikləri gətirmişdilər.

"Gizlinlər dəstəsi"nin rəisi Xəlvətin beş nəfər kürəkəni Şöşünün avtomatının qabığında həyətə çıxdılar və onlar da tamam arxayın, sərbəst, icra başçısına baxdılar və gülüşdülər:

– Əşi, bu nədi belə?..

Xəlvət özü də, Zalın avtomatının qabağında, dümağ bığ altından qımışa-qımışa icra başçısına baxırdı: Məsimin bayaqkı söhbətini "elüzəri" sayırdı: yəni icra başçısı Təftişlə Səmiyə görə o cür danışmışdı. Əslində heç kəs inanmırdı ki, "Yerəbaxan Məsim"də ikinci üz də ola bilər. Bəlkə o "milyon dollar" söhbətindən incimişdi? Məgər Məsim başa düşmürdümü ki, Rəhim o sözləri yalnız "siyasət xatirinə" işlətmişdi?

Xəlvət açıq danışdı:

– Bu Zırpı Şöşüynən bu Səm-səminin, Təftişnən gədəsinin ağılları qar suyudu, yaz açılır, axıb gedər. Bə sənin ağlına nə olub, cənab Məsim, bunları barışığa gətirirsən biznən?! Niyə əkmirsən bunları bu kənddən ki, rahat oturub alverimizi eləyək?!

Məsim yenə yerə baxırdı.

– Başa düşmürəm, Rəhim kişi. İçəridə deyirsən milyon göndərin, gəlininizi, uşağınızı aparın. İndi deyirsən rahat oturub alverimizi eləyək. Malınızı, pulunuzu da yığışdırın, doldurun maşınlara, çıxın gedin, qan tökülməsin. Daha gəlin nədi, uşaq nədi?! Mənim polislərimi hədələməklə nə gələcək əlinizə?!

Bu dəfə Xəlvət özü də hırıldayanlara qoşuldu.

– A kişi, necə yəni "mənim polislərim"?! Bunlardı səninkilər, yoxsa bizik?! Məsim tamam sakitcə:

– Mən çox çalışdım, siz İcra Hakimiyyətinə tabe olmadınız, – dedi. – İcra başçısıyam mən, banditbaşı deyiləm. Əl çəkin Gülbənizin ətəyinə pul tökməkdən! O deyil sizin sevimli "blatnaya staruxa"nız, bilirik Çömçəyalayandı, pulu yığır Çax-çux göndərir. Qurtar bu oyunları, Rəhim kişi! Çıxın gedin. Heyif, süfrəyə qan buladın... Bu adamların ağlı yox, sənin ağlındı qar suyu. AdıPünhanın məktubu var üstümdə. Nə Çax-çuxa arxalan daha nə də Qorbaçova. Daha məlumdu ki, xaricə işləyir Qorbaçov. Ruslar istəmirlər onu. Əmma bizimkinə "Naş Qeydar" deyənlər var. EvƏrEylər, lap yekələrdən ey. Çıxıblar KPSS-dən! Bəli! Bu dərəbəylik belə getməz, Rəhim kişi. Heydər qabağını alacaq bunun. Polisdə də, KQB-də də intizam yaranacaq. Yetmişinci illərdə Heydər respublikada olanda intizam necə idi? Bax, elə dəmir intizam lazımdı bizə. Dəmirəldən də tələb eləyirik ki, həm Türkiyədə, həm də burda bu açıq-aydın terrora son qoyulsun! Tərəcələrdən apartdırdığınız yazıların əvəzində beş o qədər həqiqət yayırıq dünyaya! Ayıl, a kişi! Bəsdi! İnan mənə, vallah, axırı yoxdu bu dərəbəyliyin! Yenə deyirəm, barışıqlıq olmalıdı.

Xəlvət bir az ciddiləşmişdi.

– Pencəyiyin döşündə "julik" var, orda deyiləni təkrar eləyirsən. Əslində, tülkünün birisən sən, cənab Yerəbaxan! Bilirik, çox yaxşı başa düşürsən ki, güclüyük biz. Dünya bizim arxamızdadı, bu dağılmış Azərbaycan yoxdu daha! Sən qorxma Heydərdən. Boş-boşuna tərəfini saxlama! Nəyindən qorxursan onun?! Ordusu yox, pulu yox! Yeraza yan basma! Sən də bizdən deyilsənmi, ay tat oğlu tat!

Məsim bir az toxtamışdı:

– Bizim Pünhan, Muğannalardan biri, deyir, Ulu Bağ ƏsƏlMəndən başlamış sonuncu babama qədər hamısı EvƏrEy OdƏridi, əmma bilmirəm özümü necə adlandırım ki, salamət qalım. Yevrey deyirəm, olmur, yəhudi deyirəm, olmur, çünki burdakı yəhudilər də ivritcə danışırlar. Azərbaycanlı deyirəm, türk deyirəm, yenə nəsə çatmır. Budu bax bədbəxtliyimiz, Rəhim kişi! Adımızı da tapammırıq, – Məsim köksünü ötürdü. – Rayonumda mənə tat deyirlər. Abşeron camaatı, Xırdalandakı arvad qohumlarım TatƏr deyirlər. Anam – Fənər müəllimə fəxrlə oxuyur yazılanları, deyir: "OdƏrik biz!" İvritcə danışa-danışa deyir ey! Pünhanlarımız da elmi-tarixi sübutla, fəxrlə OdƏr deyirlər. "Bizdənsən" demə, bəsdi parçaladığımız bu parçalanmış milləti! Məsləhətə yat, yenə deyirəm, pullarını götür get hara istəyirsən. Bundan böyük güzəşt olarmı, Rəhim kişi?! Ya barışın, ya da hələ gedin burdan, qoyun işləyək, qanun-qayda yaradaq bir az. Razılaş! Bu "etnik ayrılıq" deyilən xəstəliyə tutulmayın! Bizə yüz faiz aydındı hər şey! Xilasımız milli birlikdədi, Rəhim! Vahid OdƏr kökündə birləşməliyik, Nəcəf elə hey deyir: "mı oturçanennıye Persi". Əslində bilir, axı, "Pers" – EvƏrƏs kimdi, "Türk" – Tərik EvƏrEy kimdi! İnsan insandan ayrılanda Bağlardan ayrılır, Rəhim kişi, bəşəri bağlılıq olmur. Vaxt gələcək, SafAğ Elmi bizi göylərə qaldıracaq, Bağlarımıza bağlayacaq. Yerə insanlıq qayıdacaq, əbədi həyat olacaq! Fantastika deyil bu! Razılaş! Barış! Ya da çıx get!

Səminin, necə deyərlər, ayağı yerdən üzülmüşdü. Heyrətdən kəkələdi:

– Siz buraxırsınız bu bandit yığnağını?! Aydın oldu mövqeyiniz! İlan!..

Xəlvət əlini bığına qaldırdı.

– Hm... belədi, bax, birliyimiz, – dedi. – Məsim yox, mənim milyonum buraxır bizi, bala! Sən bilmirsən nədi milyon. Prokurordu, sudyadı milyon! Kim tuta bilər bizi, ay əbləh?! Doxsanıncı ildən bu yana Təftişnən oğlu min kərə dirəyiblər avtomatlarını mənə. Zorri Gülənovnan köhnə milislərimiz böyürdən çıxıb avtomatı alıb Təftişin özünə dirəyiblər! Bu qədər gülləni havaya atanacan niyə öz qarnına doldurmursan canın qurtarsın əlimizdən, ay əbləh! – Xəlvət kəsə yoldan qəsəbəyə doğru sürətlə gələn "Mersedes"i görüb, səsini qaldırdı. – Odu bax, nəçənnik qadasın aldığım! Çək avtomatını uşaqların döşündən, qoduq oğlu qoduq! Sənin o özünü yandıran arvadını... mən!

Söyüş Səminin ağlını başından aldı. Zor nəçənnik – Zorri Gülənov, eynilə Xəlvət kimi ağ lopabığ rəis "Mersedes"dən düşüb qapını ehmalca örtüb, yırğalana-yırğalana, ağır-ağır yaxınlaşıb, Səminin biləyindən asılı avtomatı aldı. Döndü ki, Təftişlə Zalın silahlarını da alsın, imkan tapmadı: Şöşünün nəhəng çəkməsi arxadan necə guppuldadısa, Gülənov ayaq üstə dayana bilməyib Təftişin üstünə yıxıldı. Təftiş bu torba əti itələyib o biri torba ətin – Xəlvətin üstünə yıxıldı. Xəlvət də ayaq üstə dayana bilməyib yerə sərildi... Camaat əlli dördüncü ildə Səməd Əmirlinin bu adamları yumruqla bir-birinin üstünə yıxdığını indi də danışırdı və Səmi həmişə fikirləşirdi ki, atasının hərəkətini nə vaxtsa təkrar edəcək; əmma bu, artıq yumruq, təpik döyüşü olmayacaq; güllə səslənəcək!

Səmi barmağı tətikdə, üst-üstə yığılı avtomat yığınının üstünə atılıb, ikinci ehtiyat darağı da havaya boşaltdı. Yalnız axırıncı gülləlləri "sənin o özünü yandıran arvadını..." deyən adamın qarnının aşağısına atdı və Xəlvət Rəhim yerdə necə döşəli idisə, eləcə qaldı. Qan şalvarının balaqlarından axıb iki ayağının arasında göllləndi.

Səmi geri çəkildiyinin səbəbini bilmədi. Yalnız sonradan hiss etdi ki, insanın qanını axıtmaqda nə isə sirli qorxu var. Bu hisslə eyni anda kədərli, işgəncəli ün gəldi: "Rahatlandınmı?!"

Səmi ilə birlikdə elə bil hamı sehrlənmişdi. Tərpənti yox idi.

Qana baxa-baxa donmuş kürəkənlər də sonradan sonraya tərpənişib, Xəlvəti qaldırıb içəri apardılar.

Məsim Qonaqlı "Matarolla" telefon aparatını çıxarıb "skoraya pomoş" – təcili yardım maşını çağırdı. Biri-birindən gödək ət

torbaları Səmi və Şöşünün ayaqları altında xırçıldayan avtomatları ilə həmişəlik vidalaşıb, evin dəhlizinə doluşdular və bu an baş verən heyrətli hadisəni – icra başçısının sakitcə əl uzadıb polis rəisi Zorri Gülənovun tapançasını qoburdan çıxardığını heç kəs görmədi; Məsim, Səmi ilə Şöşüyə:

– Bunun ermənilərlə əlaqəsi var. Ermənidi, özünü Cuhud qələmə verir. Həbs edin, – dedi və Gülənova sarı dönüb, astaca əlavə etdi ki: – Köhnə pasportun mənim seyfimdədi: “nasionalnost – armyanin...” Bu qanın səbəbkarı sənsən! Tı davnıy terrorist!

Zor nəçənniyi də qan tutmuşdu; Xəlvətdən sonra daha burada “Zor” adlanmayacağını anlayıb duruxmuşdu, dövranının qurtardığına görə hətta kədərlənib, süstləşib, heç bir müqavimət göstərmirdi.

## 10

Günəş ucaldı, ağardı, Səm-səmi gəlmədi, “Sabahın xeyir, Midi kişi”, – demədi.

Günorta oldu, Səm-Səmi gəlmədi.

Axşam oldu, Səm-səmi gəlmədi. “Axşamın xeyir, Midi kişi”, – demədi.

Midi aclıqdan, susuzluqdan üzülüb, ayaq üstə titrəməyə başladı. Yalnız elektrik dirəyinin başında lampa həyəti işıqlandıranda kim isə Midini arxadan hop götürüb qucağına basıb, boynunu, o üzünü, bu üzünü öpüşlərə qərq etdi, hönkürə-hönkürə içəri aparıb, stolun küncündəki ağ, hündür qazanın qapağını açıb, bir ay bundan əvvəlki Novruz bayramı bişmişlərini – paxlavaları, noğulları süfrəyə töküb:

– Ye! Qurbanın olum! – dedi.

Midi paxlavalardan birini dişləyib, aclıqdan gözləri yaşara-yaşara, yeyə-yeyə, şirnili-çirişli dodaqlarını əmisinin o üzünə, bu üzünə yapışdıra-yapışdıra, dönə-dönə soruşurdu:

– Hardaydın, a Səm-səmi?.. Hardaydın, a Səm-səmi?..

Səmi danışammırdı. Qəhər boğazını necə sıxmışdısa, nəfəs aldıqca uğuldayırdı.

Özünü ələ almağa çalışdı, mümkün olmadı. Onun əvəzində, stolun böyründə səssiz ağlayan Gül xala cavab verdi:

– Cığa mamanın yanına getmişdi Səm-səmi. Xəstələnib Cığa mama, onçun gec gəldi Səmi.

Midi ikinci paxlavanı da yedi. Gül xalanın lap köhnə-əzik “kitayski termos”undan çay içdi. Başını qaldırdı ki, əmisinə: “Gecən xeyrə qalsın, a Səmi”, – desin, əmisini yanında görməyib narahat soruşdu ki, hanı Səm-səmi?!

Gül xala otağın yuxarı başını göstərdi.

– Səmi prokuror Sayılov əmiynən söhbət eləyir. Gəl, biz gedək.

Əmma Midi getmədi.

– Mən gördüm. Səm-səmi xəlvət Rəhimi öldürdü. Səm-səmini tutacaqlar, – deyib, yüyürüb otağın başında, boş tərəcələrin qabağında dəyirmi, çılpaq stolun bəri tərəfində oturan əmisinin boynuna sarıldı və qorxudan böyümüş gözlərini stolun o yanında oturan, çiyinlərində ağ poqonları, boğazında köynəyinin boyunluğu ağaran qoca, arıq, donqarbel kişinin yarıqapalı gözlərinə dikdi.

Sayılov Midini görmürdü. Üzgün, xırıltılı səslə, ağır-ağır danışırdı.

Gülbəniz arxadan yaxınlaşıb, Midinin qollarını Səminin boğazından çəkdi.

– Ölməyib xəlvət Rəhim. Həkimlər deyirlər sağalacaq, – dedi və uşağı qaldırdı ki, aparsın. Əmma Sayılovun sözləri cəlbedici idi:

– ...Əmirlilərin qarşısında günahım böyükdü. Nə Sultan Əmirlini xilas eləyə bildim, nə qardaşı Mədədi, nə də sənin atan Səmədnən Sultanın oğlu Mədədi. Səni xilas eləyəcəm. Qorxma. Heç qorxma. Bir şərtnən... cavabların dəqiq olsun. Nə vaxtdandı sənin bu Sudüşən qəsəbəsiynən düşmənçiliyin? Səksən səkkizdə erməninin, rusun bizə qəsdi hələ təzə açılırdı. O vaxt məlumatı kimdən aldın? Qorxma, çək generalımızın adını. Narkotikaya görə adam vurmaq olmaz. Rəhimə güllə atmağıyın əsl səbəbi nədi? Lap açıq danış Xəlvətin millətə düşmən mövqeyini. Tələsmə. Çamadanım lentnən doludu. Qudalıların ifadələrini necə yazmışamsa sənin ifadəni də elə yazmalıyam. Ən xırda təfsilatı da deməlisən. Çünki böyük siyasi məsələ var bu qəsəbəylə sənin düşmənçiliyinizdə. Bu saat planetdə nə qədər deyirlər “Ulduzlar Müharibəsidi” Rusiyayla Amerikanın arasında, əmma heç kəsin beyninə girmir bu ifadə. Daha hamıya məlumdu ki, etnik məsələ üstədi bu qan-qırğın. Anadoludakı Türklərin Bağdayda ən böyük vilayətdən – AğÜzdən

– “Oğuz”dan olduğunu lap qəti bilir düşmən. Danış belə-belə şeyləri, yerli-yataqlı izah elə ki, burda – Azərbaycanda da Bağdayın AğÜz OdƏrlərini, EğƏrEy, ƏrÜz OdƏrlərini də məhz etnik mənsubiyyətə görə sürüblər, indi də qırırlar. İlanın adını çəkməkdən də qorxma. Bütün planetdə Yevrey öz keçmişini məhz bu tay Azərbaycandan öyrənir, çalışır birləşsin, əmma böyük səhvlərə yol verirlər: təkcə Qorbaçovun fəaliyyətindən nəticə çıxart. Yevreylər hələ də dərk eləmirlər ki, bu əsrin imkanları Elm, təbliğat imkanlarıdı, silah deyil. SSRİ-nin tərkibində ayrı-ayrı millətlər saydıqları millətləri qarşı-qarşıya qoya-qoya, hər birisi bir cür ad daşıyan, başqa dildə danışan Yevreyi Yevreyə qarşı qoyurlar. Hamı elə bunu danışır ki, Akademik Saxarov qurultayda kəkələyə-kəkələyə Qorbaçova qışqırırdı: “Day vsem svobodu s sootvet-stvyuşşimi qranitsami!” Qorbaçov sözünü kəsdi kişinin. Səhərisi çox müəmmalı şəkildə xəstələndi Saxarov, o birisi gün öldü. O yazıq bilirdi ki, kökü EyƏrEy, ƏrÜz, AğÜz, ÜzAğ olmayan xalq yoxdu. Bax, bunu dərk eləmirdi Qorbaçov, elə buna görə də İlan qulu oldu. Respublikalarda balaca Qorbaçovlar var. Sən bilməlisən ki, sənin atdığın güllə bütün planetdə gedən mübarizələrlə bağlıdı. Yəni Xəlvəti vəhşiləşdirən, səni güllə atmağa məcbur edən böyük beynəlxalq məsələdi. Belə olmasaydı nə Xəlvət elə şantaj təşkil eləyib elə söyüş söyərdi, nə də sən güllə atardın. Bu qoca prokuror hətta belə bir ifadə də işlətməlidi: sənin barmağını avtomatın tətiyinə aparan sən deyilsən, dünyada qarşı-qarşıya qoyulmuş xalqlardan birinin barmağıdı bu barmağ. Dünyada mincə nəfər belə Qocaman – Murtuz Sayıl olaydı, bilirsənmi nə qədər irəli gedərdi bu zibil bəşəriyyət!.. Hər planetdə, hər icmada bircə dəfə bu məzmunda, tarixi-elmi mühazirə nə qədər irəli atar bu bəşəriy-yəti!.. Danış hamısını!.. Əmma bir iş də var. Şahid olsa ki, Rəhimə gülləni Sudüşəndən atdılar, onda sənin ifadəni yandıracam. Yəni cinayət işi qaldırılsa da, tezcə bağlanacaq...

Bu deyilənlər Midinin uşaq beyninə çatmasa da, prokurorun səsi-nin ahəngindən hiss edirdi ki, Səmi prokuror Sayılov əminin xoşuna gəlir. Gülbəniz isə, icra başçısının harın xanımı sayılsa da, mərhum Səməd Əmirliyə gizlin məhəbbətindən hələ də qovrulan və Səmədin yadigarı Səminin taleyinə laqeyd qala bilməyən, dünya-

görmüş bir insan kimi, bütün aydınlığı ilə dərk edirdi ki, ev şəraitində, belə sakit bir guşədə başlayan istintaq, şübhəsiz, çox adamla bağlanacaq, cinayət təsdiq olunsa, ilk nəzərdə şəxsi xarakter daşısa da, narkotika alveri ilə, "platnı" qatillərlə – terrorla əlaqədar qəsəbənin əhalisindən əlavə, cəbhəçilərdən də dindiriləcək.

– Narkotika alveri yalnız biznes deyil, bala. Hüquqşünas olmasan da, Pünhanların yazılarından dərs almısan. Planetimizin siyasi çaxnaşmalar qazanında siyasətçilərin qazanc mənbəyinə çevrilib bu narkobiznes. – Sayılov gözlənilmədən dikəlib orta stola tərəf boylandı və gülüb özü sözünü kəsdi: – Bura bax, Gül xala, istintaq gizlin aparılmalıdı. Əmma mən səni evdən çıxarmıram. Şahidin biri elə sən olmalısan, deməlisən, "güllə qəsəbədən atıldı". Ad çəkmiyəcəksən, ay cani qəsəbə sakini! O qəsəbədəki canilər məni düşmən sayır. Bir stəkan çay da vermirlər. Səmiyə Şöşünün heç nəyi olmasa da, araqları, pendir-çörəkləri, soğanları var ki! Şirnimirnini götür ordan. Baş soğan doğra, duz səp! Bir də dedim, pendir-çörək! Ayrı şey olmaz iş vaxtı. Yataram. Tez ol, canım çıxdı!

Bayaqdan yarıyuxulu kimi, üzgün-üzgün xırıldayan Sayılovun gözləri geniş açılıb, uşağın gözlərinə dikildi. Səsini xırp kəsib, bir xeyli tamaşa eləyib, birdən:

– Pah! İnsan insana necə oxşayar, ilahi! Sənin kopyandıki bu, ay Səmi! – dedi və yenə də səsini xırp kəsib, bir xeyli susandan sonra əvvəlki üzgünlüklə: – Sənin adına yazmasınlar bunu, neyləsinlər o canilər, – dedi Atasının torpağı sanı yaşasın. O rəhmətlik ömrünün sonunda o Şüşəli pavilyonu dağıdanda mən dal otaqda oturub Səməd Əmirlini döyənlərlə qədəh döyüşdürürdüm. Sən, döşündə avtomat, qapının dalında gəzinirdin, hiss eləmişdin ki, Gülənovun milisənerləridi atanı döyənlər. Mən isə istəyirdim o içki stolunun arxasında işimi qurtaranda minək maşına sənnən, o cani milisənerlərlə gedək Laçına. Villasayağı bir şey almışdım orda, Erməni qızı almışdım. Belə lazımıydı... Şüşəlinin zalında Xəlvət qışqırıb "Öldü" deyəndə birinci mən başa düşdüm ki, Səməddi ölən. İki maşının arasında sıxıb rezin dəyənəklə, təpiklə o qədər vurmuşdular ki, yazığın bütün bədəni göm-göy olmuşdu. Birinci mən başa düşdüm, deyirəm, çünki sən hələ bilmirdin bu Xəlvətin milis kürəkənləri necə döyüblər onu. Qışqırtını eşidəndə mən neylədim, yadındadı? Bildinmi onda avtomatını niyə almaq istədim

əlindən? Xata çıxardı əlindən. İndikindən də güclü, cavan oğlandın, dirsəyinnən vurdun sinəmin sümüyünü əzdin, yıxıldım qaldım orda... Milisənerləri guya ermənilərin fəaliyyəti barədə dindirirdim, bir şey qanmırdılar. Dedim bu cavana toxunmayın, Laçında deportasiyada iştirakınızı açmaram. Sən yenə bir şey başa düşmədin. Ağlayırdın... Sinəmə spirt kompresi qoydurdum. Hıqqıldaya-hıqqıldaya, ölə-ölə qalxdım, o milis kürəkənləri mindirdim öz maşınlarına, getdik-gördük on iki yaşlı qızımı zorlayıb tullayıblar qarın içinə. Arvadım, atam, anam, iki qardaşım, hamısı qan içində, çıl-çıplaq donublar!.. Niyə danışıram bunu, bilirsənmi. Bax, bu Midi balamızın gözlərindəki sual mənim o donmuş balamın gözlərində donub qalmışdı. Yəqin başa düşmürmüş ki, özümüzünkü sayılan milisənerlər niyə elə iş açırlar onun başına. Neçə il keçib, hələ də gözümün qabağındadı... Danışanda dözəmmirəm, sənin Şöşün kimi bir şüşə boşaldıram... Gedək, dalını o biri stolun dalında danışım. Şöşü kimi "pyanska şair" olmuşam mən də, yaşımın bu vaxtında şeir yazıram. Balamın gözlərini görəndə, göz yaşımla bərabər öz-özünə şeir tökülür kağızın üstünə:

"Balam, balam, ay balam,
Mən sənə qurban olum,
Bir gün gələr, yetişər,
Qatildən qisas allam..."

Orta stolun üstündə pendir-çörək də, soğan da hazır oldu, araq şüşəsi də. Əlavə, icra başçısı Məsim Qonaqlının süfrəsindən qalan soyutma ət də.

Sayılov ev sahibinə çevrilib, dustaq kimi qısıq Səminin qabağındakı nimçəyə iri bir parça quyruq qoyub, bir çökək qab dolusu dəyirmi-dəyirmi doğranmış soğandan da bir ovuc qoyub, əlini salfetlə silib, qədəhləri doldurdu.

– Acqarına içmiyəndə bir damcı da içəmmirəm. Götür bu Əmirli mülkünün sağlığına! Qorxma heç nədən! – deyib, qədəhi boşaldıb taqqıltı ilə süfrəyə qoydu və aclığı barədə bayaqkı sözlərinin əksinə, tələsmədən, köhnə kübar vərdişi ilə salfeti qalstukunun üstünə taxıb, bu kübarlığı ilə tutuşmayan kobud hərəkətlə bir qabırğa götürüb dişlərinə çəkdi. Yeyə-yeyə: – Bah-Bah! Soyutmanın ləzzətinə bax! – dedi.

Gülbəniz stolun baş tərəfində buğlanan xırdaca elektrik samovarının yanında oturub, əlinin biri ilə dolu armudu stəkanı tutub, o biri əlini dümağ, ətli üzünə söykəyib, cavan qız kipriklərinin altında gizlin-gizlin gülümsəyirdi. Birdən stəkanı nəlbəkiyə taqqıldadıb, Məsimin bütün Qonaqlı ilə Sudüşəndə məşhur itinin adını çəkdi:

– Pələş!

Sayılov diksindi. Soyutmanın yağından işıldayan barmaqlarını nimçəsindəki bud ətinin üstündə saxlayıb, dərindən köksünü ötürdü və yenə həmin üzgün, qoca prokurora çevrilib, ağır-ağır başını buladı:

– Bura bax, qız, neçə dəfə demişəm unut bu Pələşi! Sizin o qotur qancıqdan törəyən Pələşlərə Pələşovlar deyirik, hamı da bilir ki, Çömçəyalayan Badsəbanın iti yox, Yerəbaxan Məsimin qohumları Qudalılardı Pələşovlar! Sayılam mən! Nəslimin adı Sayıldı! Dilənçi yox, Sayıl sayılan deməkdi. Bütün Sayıllar ömürlərini erməni terroristlərilə atışmalarda qırılıblar. Özüm, bax bu bədbəxt Sayılov risk elədim, o "Velikaya Armeniya" ideyasını yayan Balayanın[1] gizlin kitabxanəsinə girdim, türkcə kitab oğurladım ordan. General Məhərrəmovun təşkiliylə razvedçik kəşfiyyatçı getmişdim ki, Suriya, Matenadaran katalikoslarının Türkü qırmaq, ərazilərimizdə "Velikaya Armeniya" yaratmaq barədə yazışmalırının fotoşəkillərini çıxardım. Eliyəmmədim. Oxrana izimə düşdü, qaçdım. Əmma o dediyim kitabı gətirdim. Məlum oldu ki, Osmanlı türkü dediyimiz xalqın indiki torpağı Ərim adlanırmış qədimlərdə, Bağdayın AğÜz vilayətiymiş. Qreklər alıblar "Rum" deyiblər Ərimə. Türklər uzun müddət qayıdammayıblar vətənlərinə, xırda-xırda sultanlıqlar olub Qreklərin əllərinin altında. Eramızın yeddinci əsrinə qədər. Osmanın ordusu Orta Asiyadan qayıdana qədər... Mən, mən, mən açmışam bax bu tarixi, Pələş yox! AdıPünhan verib bir Pünhana, oda yazıb öz kitabında. Səməd sağdı onda hələ, o bilirdi necə işləyirəm mən, necə tarixi həqiqətlər açıram. İndi Səmiyə də eşitdirrəm bunu ki, tanısın bu Sayılı! Prokuror Murtuz Sayıl Pələşovların qanını içəcək! Niyə o itlərə qatırsan məni?! Demədimi xilas eliyəcəm bu balamızı! Doldur bu rumkanı o ağ əllərlə! İçirəm bu "Kird" – "Kürd" – GurOd OdƏri Sayılın sağlığına! "Gəliyorum!", "Gediyorum", "Seviyorum!"

---

[1] Z.Balayan – Qədim tərk məxəzlərindən "ƏrMən", "ƏrEy" sözlərini "Armen", "Ariy" şəklinə salan məşhur erməni millətçisi, Vatikan casusu.

Hardandı bu “yorum-morum?” Qrek-Latın əsarətindəndi. Mən “Kird” açmışam bax bunu o gətirdiyim kitabnan!

Gülbəniz, sol böyründə Gül xalasının çiyninə söykənmiş Midini dizlərinin arasına çəkib, stəkanı ona verdi:

– İç – deyib üzünü Sayılova tutdu. – Sən xidmətlərini çox danışma, Pələş. Yoxsa, sənin də kürəyinə qurğuşun doldurarlar!.. Rusun rubluna xidmət eləmisən sən indi də Dollara xidmət eləyirsən! Bu nə artistlikdi bayaqdan bəri! Çox demisən Pələş demə mənə. Bəs mən nə qədər demişəm ki boğazına salfet taxan adam əti əliynən yeməz, ay Murtuz qağa... Mənə müştəri gözüynən baxan bir Murtuz qağam vardı. Kolxozların sürülərindən erkəkləri göndərərdi Əlləzoğlunun o hündür qala çəpərinin dalına. Hər bazar yanında lotu-potusu ayaq döyərdi Göbələk Məmişin evinə. Taxtın altınnan buz təki teşti sürütdəyərdi qoyardı qabağına. Teştdə buz təki soyutma!.. Soyutmanı xançalnan qıyma-qıyma kəsə-kəsə, altı litrlik çaxır boçkasının yarısını boşaldandan sonra dəmlənib xançalı tullayardı, biləklərini çırmalayıb düşərdi teştin canına! Ömrü boyu elə yaşadı o Murtuz qağamız. Sovet hökumətini sökdü, dağıtdı, “Dağıdın bu dağılmışı!” deyə-deyə. Bəs, sən Murtuz qağamız neynirsən? Bir ayağın rayonda prokuraturada, bir ayağın Məsim Qonaqlının arvadının evində. “Gülüm, soyutma...” Bu ağ qazandan iki dəfə böyük qazana iki əliyin ikisini də batıra-batıra yeyib qurtarandan sonra ayılıb fikirləşirsən ki, bu boyda rayonun prokurorusan gələn-gedən olar, görər lap bizim Pələş təki yeyirsən, təzədən yuyursan əllərini! Salfetka taxırsan: “Pələşovlardan deyiləm mən!”

Sayılov yenə köksünü ötürdü:

– Əlləzoğlunun çəpərinin dalına erkək göndərən Murtuz kişi oğlu kişiydi! Heç kəs adam saymırdı Göbələyi, əmma mən məhz o çəpərin dalına gedirdim, xəlvəti qonaqlarımı da məhz ora aparırdım ki, danışaq görək necə dağıdaq bu Sovet dağılmışı! SafAğ məclisi keçirirdim mən orda, qız! Erməni Rusla əlbir olub Laçına doluşandan sonra da köhnə qaydayla altı litrlik boçkanın yarısını boşaldıb cumurdum bu Sudüşənə, beş kürəkənin hərəsindən beş qızıl, Xəlvətin özündən on qızıl alıb aparıb on beş qaçqın ailəsinin dərdini yüngülləşdirirdim. Bəli!.. Bu gün kolxoz rəhmətə gedəndə deyiblər Murtuz qağamızın da qisməti kəsildi kolxozdan. Pələşovlara söykənəcək indi. Bəs mən neylədim? “Skorı pomoş” Xəlvəti aparandan

sonra kürəkənləri elə ordaca istintaqa çəkdim: “Hansınız vurdunuz?! Niyə vurdunuz?!” – və ilaxır. Öldülər üzünə baxa-baxa: “Necə yəni vurdunuz, ay prokuror?!” Vuranı isə, icra başçısıyla bir yerdə həyasızcasına təbrik elədim: “Canınız qurtardı bu Pələşovlardan! Basdırıram hamısını”. Bundan sonra niyə Pələş olsun bu əzabkeş, bu qeyrətli kişi?! Ayıb deyilmi, qız?! Mən ki, bilirəm kimsən sən. Əslində, harda, kimlərə işləyirsən. Sən də çox sağ ol ki, sirr verirsən mənə. Bə bu pələş nədi? Nə var bu sözün dalında? Aç!

Gülbəniz elə gülümsəyirdi.

– Özünü müqəddəs göstərmə, Sayılov! Bu yaşında Pələş təki yeyə-yeyə, Şüşəlidə əlin dəyməyən rus qızı qalmayıb. Bu heç. Səhərdən quruyub qalmışam ki, bu Pələş niyə belə müqəddəs olub mənim qabağımda?! Açıq de görüm, nədi azarın?! Nə istəyirsən?! Qızıl, brilyant, yoxsa, nəğd dollar?!

Sayılov, işıltılı barmaqları ətin üstündə, başını endirib hərəkətsiz qaldı.

Səmi, əksinə, stulda atılıb-düşürdü.

– Gül xala! Gül xala! Qan tökülüb, axı! Belə olmaz! Qoy görək nə deyir bu adam? Necə yəni “SafAğ” məclisi keçirirdim?!

Gülbəniz uzun, ətli qolunu uzadıb araq şüşəsini özünə tərəf çəkdi.

– Bəsdi! – dedi. – Ağlını itirib cumarsan Sudüşənə. Silist lentlərini yandırıb dollar doldurarsan çamadana! Ayıq danışaq. Nə qədər istəyirsən?

Sayılov, nəhayət, əllərini ətdən çəkib salfetlə quruladı.

– Açıq! – dedi. – nə Səmidən bir qəpik alacam, nə də Şöşüdən. Sən məni it sayma, Gülüm! O qəsəbəni yerli-dibli udacam!.. Sənə deyirəm uşağın gözləri gözümün qabağından getmir. Sultanla işləmişəm. Deyirəm Safağa qulluq eləmişəm! AdıPünhana bir aləm tarixi fakt gətirmişəm o xaraba “Matenedaran”dan. Sübut eləmişəm ki, “Kəlbəcər” adı olmayıb Bağdayda. Fars tapdağında qalan GurOd ordusunun ağzına “Pers” dili basıblar, adının üstünə də “Kəlib bəsər!” – “Yəni iti başında olan!” Qreklər it xıllarıynan qovurmuşlar. İndi “Kürd” deyilən qurbanı olduqlarım. Bax buna görə yeyir “Kürdü” Vatikan! Əlinə silah verib salıb Tərik – “Türkün” üstünə! Qırha-qır! Ağlayıram mən ey, qız! Ağlayıram! Vaxt yetişib, qisas alacam bu boz qurd yırtıcılarından! Bir nəfər də qudalı qalmıyacaq buralarda! Bəri ver o şüşəni!

Gülbəniz şüşəni vermirdi.

– Bir şərtnən, – dedi. – Başağrısı vermə! Xəlvət o cür yaralanmasaydı, bu uşaq bu axşam burda olmazdı. Səmi həm bunu xilas elədi, həm də bir milyon dollar sənin qəhbəyin evində qaldı. Məsimə ərə gedib sənin altına yıxılır o qəhbə. Xəlvət, bax, o milyonu almaq istəyir Məsimdən. İstintaqı bağla, işi qurtar. Yüz min verirəm, bəsindi?!

Alver söhbətindən tutulmuş Səmi eynilə bayaqkı kimi stulda atılıb-düşürdü.

– Nə danışırsan, Gül xala, sən nələr danışırsan?!

Gül xala isə elə bil heç nə eşitmirdi:

– Qurtar! Dollar ey, ay Pələş! Bəsdimi?!

Sayılovun gözü şüşədə idi.

– Razıyam, – dedi. – Onsuz da pulu qoymağa yer tapammırsan. Doldur qədəhləri! Özünə də tök!

Səmi Gülü xalaya heyrətlə baxırdı.

Gülbəniz şüşəni götürüb budunun üstünə qoydu.

– Fırıldağın nədi, aç bəri başdan! Mən axı sənin özündən yaxşı tanıyıram səni, ay Gülünün qağası! Fırıldağın olanda, hökmən çox danışırsan. Dəllal təki. Əmma bil ki, qoymaram nəsə eliyəsən uşaqlara! Aç sirrini, it oğlu it!

Sayılovun, necə deyərlər, tükü də tərpənmirdi.

– Ayıl, qız – dedi. – Bu it oğlu it Pələş əlli il brilyant yığıb. Doymuş məhluldu Pələş! O qanlı qarın üstündə oturub tir-tir əsə-əsə səhərə qədər ağlayan Murtuz xalq malına göz dikməz daha, Gülüm! General Məhərrəmov kimi adam tanıyırdı məni, pul yığmağıma göz yumurdu. Çünki ən istedadlı kəşfiyyatçılardan biriydim mən. Sənin Yerəbaxanıyın o qəsəbədəki bir nömrəli dükanından aldığımın hamısını icra başçısı Məsim Qonaqlının qəhbəsinə vermişəm, mağaza açdırıb. İnan, pulların ondandı!

Gülbəniz şüşəni qaldırıb buduna vurdu.

– Bu canan o biri cananın dükanına mal verir, sən ondan da alırsan, ay “xalq malına göz dikmiyən!” Aç sirrini! Qurtar deyirəm!

Sayılov yavaşca ayağa qalxıb, yavaşca yeriyib, birdən sərt hərəkətdən hıqqıldayıb Gülbənizin üzünə şillə çəkdi. Səmi diksinib dik atılanda Sayılov ona da şillə çəkdi və eyni yorğunluqla yerinə qayıdıb, başını köksünə əyib acı-acı hönkürdü.

– Heç kəs bilmir sən kimsən, nə oyunlardan çıxırsan bu evlərdə! Nə düşmüsən üstümə, Pələş! Pələş! Almıram daha! Guya

villam var. Özü də hardadı? Laçında! Ermənin yanında! Mən almamışam o villanı, o gözəlçə erməni qızını, məni ora göndərənlər alıb veriblər. Görürsənmi nələr açıram, Gülbəniz?! Xəlvət, Nəcəf-filan hiss eləsəydilər ki, başqa adamam mən, çoxdan sərərdilər meyitimi. Bildinmi niyə olan kimi göstərirəm özümü o qəsəbəyə?! Özgə nə deyim ki, inanasan mənə?! Sudüşən səni Səmiyə yapır, Səmini Cığa mamaya yapır, məni də Laçında villada erməni qızına yapıblar özümüzünkülər. O kürəkənlərlə o nəvələr “Mersedes”lərini Ermənin içinə necə sürürlər, mən də elə sürürəm Laçına! İrəvana! İrana! Narkotika biznesmeniyəm! Qatil, qan biznesmeni! Fu!.. Ver o şüşəni bura, get maşinkana kağız qoy gətir! Gör nə deyəcəm, nə yazacaqsan!

Gülbəniz əli üzündə, Səmiyə baxdı.

Səmi dörd pəncərədən qapı tərəfdə birincisinin altından “portativ maşinka”sını gətirdi, AdıPünhana yazdığı yarımçıq məktubdan qeyri-iradi iki kəlmə – bəsdir xəyalplovluğunuz!” – sözlərini oxuyub, eyni anda fikrində: “Heyif, onu inandırammadım ki, bütün izmlər təki bu SafAğ Elmi də xəyalplovluqdur. Ən yaxşı halda Nizaminin AğEy – “Əxi” icmaları kimi utopiya adlandıracaqlar”, – deyib, kağızı çıxarıb cibinə qoydu, maşınkanı isə Gül xala tərəfə itələdi. Qayıdıb həmin yerdən bir “paçka” qalın Amerika kağızı gətirib, odun yarmaqdan, avtomat tutmaqdan codlaşmış, yoğun, qeyri-adi uzun barmaqlarla bir vərəq siyirib maşınkaya saldı.

Səmi bilmirdi və Yer ömründə heç vaxt bilməyəcəkdi ki, bu anlarda atası eyni sözləri dönə-dönə təkrar edirdi: “Sayılov iki tərəfə işləyirdi. İndi o səni xilas eləmək istəyir. Səni xilas eləmək istəyir”, – deyirdi, əmma bu sözləri Səmi özünün dumanlı, ötəri fikri zənn eləyirdi, çünki daha Ün eşitmirdi.

Sayılov Gülbənizin budunun üstündən götürdüyü şüşədən bir qurtum içib, üz-gözünü qırışdırıb, ilk sözlərini diktə etdi:

– “Mən, Səməd Səməd oğlu Əmirli, Qonaqlı kənd sakini, Sudüşən qəsəbəsində, səhər saat on-on bir radələrində baş vermiş hadisənin, yəni Rəhim Qıda oğlu Qudalının qəsəbədən atılan güllədən ağır yaralanmağının şahidi olmuşam və lazım olan vaxtda xalq məhkəməsində şəhadət verməyə söz verirəm. İmza: Səməd Səməd oğlu Əmirli”. Bu, Səminin ifadəsi! Bir beləsini də Şöşü ləqəbi ilə tanınan Şövkət Tahir oğlu Tahirlinin dilindən yaz. Qol çəkin. Hamısının altından yaz: ifadəni aldı ikinci dərəcəli prokuror

Sayılov Murtuz Ələkbər oğlu. Vəssalam! Üçünüz də şahid kimi dindiriləcəksiniz! Qurtardıq! Bağlandı iş! Yaz, çıx Şöşünü əvəz elə manqalın yanında, göndər gəlsin bir şüşə də Murtuz qağasıyla vursun!

Sayılov siqaret yandırdı. Çox içəndə bir az əyri duran belinin sağ tərəfini tutub, siqaret sol əlinin iki barmaqlarının ucunda, üzü məkrli prokurorluqdan çıxıb, zərif bir ziyalıya döndü.

Səmi stolun bir tərəfində donmuşdu. Gül xala o biri tərəfində. Armudu stəkana çay töküb, qoşa əlli tutub, fikirli, xəyallı bir liliput kişiyə dönmüş Midiyə fikir verən yox idi. Heç kəs bilmirdi ki, uşaq maşınkanın üstündəki yazını başa düşürdü. Birdən dikəlib Səmiyə baxdı, əmisinin köksdən gələn tutqun nazik səsinin əksinə, qalınaraq səslə, heyrətlə soruşdu:

– A Səm-səmi, Xəlvətə sən güllə atmadınmı?!

Bu sual böyüklərin üçünü də birdən ayıltdı: uşaq nəzərə alınmamışdı. İndi onu necə inandıracaqlar ki, Xəlvətə güllə atan Səmi deyildi?!

Sayılov siqareti külqabına qoyub, yeriyib Midinin böyründə dayandı. Sonra əlini uşağın cod saçlı iri başında gəzdirə-gəzdirə:

– Səmi avtomatındakı güllələrin hamısını göyə atdı, Midi bala, – dedi. – Sən yaxşı görməmisən. Səmi lüləni aşağı endirəndə Sudüşəndən üç-dörd güllə atıldı, Xəlvətə dəydi. Sən tək deyilsən. O qəsəbədə hamı deyirdi Səmi vurdu. Mən düzünü yazdırdm. Onlara da qol çəkdirdim ki, Səmi tutulmasın. Bəs, necə? İndi Gül xalan inanmırdı mənə, deyirdi, mən guya pul alıram onlardan. Amma özün gördün ki, yazdırdım Səmiyə onların zərərinə "iş bağlandı" deyirəm. Yəni bu söhbət qurtardı. Qalır sənin baban Məmiş Əlləzoğlu. Onu çağırmıyacam bura. Biz özümüz gedəcəyik yolun o tərəfinə, o çəpərin dalına, deyəcəyik nəvəni vermirik sənə, mən də gördüm ki, Səmi lüləni aşağı endirəndə qəsəbədən üç-dörd güllə atdılar, Xəlvətə dəydi. Yəni baban deyəcək gördüm, siz deyən təki oldu. Getdik! Maşınkanı götür, Səmi! – Sayılov siqaretini damağına atıb qapıya tərəf meyllənəndə hiss etdi ki, orda – qapının arxasında adam var, kim isə qapını itələyir, başqası qoymur açmağa. Bir əli pencəyin altında-tapançanın dəstəyində, o biri əliylə qapının dəstəyindən yapışıb, bərk burub bərk çəkdi və eyni anda tapançanı çıxardı...

## 11

Kandarın dalında iki nəfər dayanmışdı: Əlləzoğlu ilə Boz qurd Nəcəf. Əmma bu iki nəfərdən o yanda, "Mersedes"in açıq qapıları arxasında iki nəfər də vardı. Avtomatlarını qapıya tuşlamışdılar.

Sayılov qımıldanmadan, uzun, arıq, qırış-qırış boynunu geriyə doğru əyib:

– Səmi, vuracaqlar səni. Arxa pəncərədən atıl, gəl, qır hamısını! – dedi və gözlərini yerə dikib hərəkətsiz qaldı. Çünki elektrik dirəyinin dibindən birbaşa kandara, Əlləzoğlu ilə Nəcəfin ayaqlarının altına tərəf buğlana-buğlana qan axırdı. Şöşünü dirəyə sarıyıb, şalvarını çıxarıb qıçlarının arasını büsbütün kəsib yerə atmışdılar. Şöşünün başı köksünə əyilmişdi. Sinəsi qalxıb-enirdi.

Səminin arxadan fırlanıb həyətin işığına çıxması ilə avtomatların şaqqıldaşması bir oldu. Maşındakıların ikisi də geri təpilib hərəkətsiz qaldılar. Bəriyə – yerə düşən iki avtomatla birlikdə, öldürülənlərin çəkmələri də qana boyandı. Səmi kəmərindən asılı iri bıçağı çıxarıb, kəndiri kəsib Şöşünü ehtiyatla endirib yerə uzatdı. Ağsümük sifətdə zil qara gözlər qamətə dikildi. Şöşünün sinəsi son dəfə qalxıb-endi. Sayılovun tapançası Nəcəfin sinəsinə dirənmişdi. Əlləzoğlu qapının arasında büzüşüb titrəyirdi.

– A dərdin alım, mən bunlardan deyiləm, a dərdin alım! Midi balamı görməyə gəlmişdim... – deyib tapançanın altından içəri təpildi.

İki küt taqqıltı eşidildi; min doqquz yüz qırx beşinci ildə, 9 May – Qələbə günü "politruk" – siyasi rəhbər Sultan Əmirlinin öz sıravi "çekist"i Sayılov Murtuz Ələkbər oğluna bağışladığı "Brauninq" – xırdaca tapança burada ilk dəfə açılıb Boz qurd Nəcəfi Şöşünün qanının üstünə yıxdı.

Səmi dizləri üstə düşüb, silahı döşündə, bıçağı əlində, hönkürürdü.

Sayılovun sürməli qadın gözlərini xatırladan palıdı ləkələr içində sönük-sönük işıldayan gözləri Sudüşənin nəhəng koridora – dəhlizə oxşayan küçəsinin sağ-sollarında güclü elektrik lampalarının işığına çıxan qaraltıların üzərində gəzdi. On kürəkənin qırxa qədər Xəlvət nəvələrindən – ət torbalarından heç birini yaxından tanımasa da, prokuror, həmişə hər yerdə: "əsil huy, nəsil huy", – deyən Xəlvətin bu fəlsəfəsini təsdiq etmək üçün doğulmuş kimi bir-birinə oxşayan ət torbalarının hamısına:

– Gəlin! Meyitlərinizi aparın! – dedi.

Dörd kürəkən maşında – Mersedesdə ölmüşdü, biri – Nəcəf isə kandarda. Əlləzoğlu içəri təpiləndə çarıqları qana batmışdı. Bunun nə demək olduğunu, – qanın bəlkə də birbaş məhkəməyə – şahidliyə aparacağını yaxşı bilən köhnə agent bir göz qırpımında çarıqları çıxarıb, ovuclarında qoşalayıb kürkünün cibinə basıb, açıq qalmış arxa pəncərədən o yana yumbalanıb qaçmağa tələsəndə kürkünün boynu Sayılovun əlində idi.

– Bura bax, kişi!.. İllərnən çörəyini kəsmişəm, işinə yaramışam. Əmma Səmini satsan, yurduna süpürgə çəkərəm! Bu gün ilkin istintaqda deməlisən ki, Qudalıları Şöşü qırdı. Görmüsən nə vaxt, necə qırıldığını! Bildin?! Get indi de, hamı eşitsin!

Əlləzoğlu qarayanıq palıdı göz qapaqları arxasında işıldayan gözlərə bircə an baxmaqla hər şeyi başa düşüb:

– Yaxşı, yaxşı, dərdin alım! Burax, burax! – deyib qaçdı. Qırxa qədər Xəlvət nəvəsi – "ət torbaları" iki küçənin ikisindən də tökülüb gələndə Əlləzoğlu yolun o tərəfindən, bütün kənddə yeganə qaratikan çəpərinin arxasından gəldiyini nümayiş etdirmək üçün dəmir darvazanı danqıltı ilə çırpıb, hadisə yerinə axışanların hamısına eşitdirə-eşitdirə qışqırdı: – Bədbəxtlər niyə qırdılar bir-birini, a dərdiniz alım?! Bu nədi belə?! – deyib yenidən Əmirli mülkünün həyətinə qayıtdı.

Bu vaxt Sayılov Şöşünün avtomatını evdən – qapının böyründəki paltarasılandan götürüb, kürəyinin arxasında gizlədib, aparıb qurşaqdan aşağısı qan içində olan meyitin qucağına qoymuşdu. Darvazadan çıxanda Əlləzoğlu prokurorun həmin ustalığını o dəqiqə anlayıb, yuxarıdakı sözləri qışqırdı. Və o sözləri prokurorla birlikdə Səmi ilə Gülbəniz də, qırxa qədər ət torbaları da eşitdilər. Əmma Əlləzoğlu bununla kifayətlənmədi. Şöşünün meyitinin yanında ayaq saxlayıb, avtomatın lüləsini göstərdi:

– Burdan maşına işıqlı güllə yağdığını görəndə o dəqiqə başa düşdüm ki, maşındakılar salamat qalmayacaqlar! Nəcəf bədbəxti də elə Şöşü yıxdı! Vay, hayıf sizdən, a cavanlar, hayıf!..

Sayılovun "julik"i öz işində idi – səsi alıb, yalnız prokurorun özünə məlum olan gizlin polisə ötürürdü.

Nəcəfin meyitini də maşına yerləşdirdilər.

Birdən-birə hamısı yetimləşmiş, ağır sükuta batmış nəvələrlə arvad-uşaqları maşının sağ-solunda, Sudüşəndəki, birinci, ikinci evlərin ortalığına tərəf getdilər.

## 12

Elə həmin gün "Sudüşən müsibəti" adı ilə dilə-ağıza düşən, səbəbi guya hamıya məlum olan hadisənin əsl səbəbi yalnız bir dəstə adama açıldı; qəbiristanın baş tərəfində – hündürdə yan-yana qaralan Əmirli qəbirlərindən bir az kənarda Şöşünün qəbrinin üstü hamarlanandan sonra Məsim Qonaqlı öz Qonaqlılarına göz gəzdirib, balaca, arıq, bizburun "Talış mollası"na:

– Sən get Talış respublikası yarat, Xəzərimizi Rusa ver!– deyib, plaşının cibindən, konvertdən AdıPünhanın məktubunu çıxarıb, – Yaxın durun, – deyib astadan oxumağa başladı və son dərəcə gözlənilməz xəbərlərlə dolu səhifələrdən məlum oldu ki, "Türk" dünyasının məşhur liderlərindən sayılan "Turğut Özalla, rus kommunistlərinin lideri sayılan Qorbaçovla İsrayıl dövlətinin başçısı Şamirin bilavasitə iştirakı ilə Vatikanda Papa Pavelin başçılığı ilə hazırlanmış, "İsrayıl variantı"[1] adlandırılmış proqram üzrə "Türk" dünyasına qarşı terror"[2] müharibəsi səksəninci illərdə Türkiyənin daxilində maksimum gizlin aparılıb geniş miqyas alandan sonra Kürd partiyası "PKK"nın azadlıq mübarizəsi" adı altında İraq – ƏrAz ərazisində "Kürd" – GurOd OdƏrlərinə və eyni vaxtda Şimali Azərbaycanda "Türk" OdƏrlərinə qarşı yönəldilib. Əgər bu proqramın qlobal variantı baş tutsa, bu, bəşəriyyətin özünün özünə qarşı terrora çevriləcək. Dövlətlərin gizlin, açıq əlaqələrini, strateji, taktiki oyunlarını əhatə eləmək mümkün deyil. Qonaqlılar burada birinci dəfə eşitdilər ki, lap qədimlərdən Qrek-Latın birliyinin siyasəti nəticəsində "Yevrey" ocağı elan edilən Vatikan özü də

---

[1] Erməni variantı (Qarabağda terror) sonrakı "İsrayıl variantı" (bütün Azərbaycanda terror) ilə birləşdirilib.

[2] Turğut Özal, Qorbaçov və Şamir bilmirmişlər ki, "Türk dünyası" Bağdayın EvƏrEy, ƏrÜz, AğÜz, ÜzAğ, YanÜzAğ vilayətlərindən bütün planetə yayılmış OdƏr dünyasıdır. Tək Qorbaçova məlummuş ki, "Odarskaya zona" adlandırılan ərazi (Şimali Cənubi, Şərqi, Qərbi Azərbaycan) "Midiya"nın bir parçasıdır və Qorbaçovun özünün mənsub olduğu "Yevrey" millətinin ərazisidir; tərik düşən "Yevrey"lərin "Türk sözü altında gizləndiklərini isə Papa ilə işçilərindən başqa bir kəs bilmirmiş. Bu vəziyyət ("Yevrey"ləri bir daha küllü qırğına salmaq planı) Vatikanın "Sovet-ABŞ" ("ulduzlar") müharibəsini yeni dünya müharibəsinə (qlobal terrora) çevirmək həvəsinə salıb.

Tərik ocağı olub, qədim Ərimdə – “Rim”də EvƏs (Yaradan ev) varmış. EvƏsi əvəz edən Vatikan indi EvƏrEy – “Türk” adını Yer üzündən silmək əzmindədir. Məhz buna görə də milliyyətcə “Türk”, Bağ varisləri – Pünhanlar bütün ölkələrdə car çəkməlidirlər ki, bəşəriyyətimiz Kainatın planetlərində yaşayan OdƏr bəşəriyyətinin SafAğ Elmini öyrənməli, cahil insan bəhrəsi olan “din” və “religiyaların” “Boq”a, “Allah”a, “Budda”ya və sair mücərrəd varlıqlara döndərdiyi sahiblərini tanımalıdır. Əgər bəşəriyyətimiz milyon kilometrlərlə uzanan Günəş tacı daxilində EyOdƏr (Uca OdƏr) planetinin sahibi EyOdƏr EyƏsUn Babamızı, onun oğlu BağÜn (BağÜn – “beyin” Bağı) Babamızı, onun Oğlu Bağ Atamızı və Bağ Atamızın oğulları Ulu Bağ ƏsƏlMəni (“Solomon”u – “Süleyman”ı), EySar ÜnEvi (Ün Evinin Uca Sarı – hökmdarı “Nuh”u, “Noy”u), EvƏrimi (Evimin işığı “Avram”ı, EySarı (“İsa”nı-“İusus”u), EySarın “Qalaktika”mızda – QalAğımızda “Boq sın Boqa” yox, SafAğ İnsan Əli – Oğlu ƏlAğ (“Allah”) EySar olduğunu, “Məhəmməd”ə ərəbcə “Quran” yox, BağHəmOda (Vahid həqiqət Bağına) OdƏrcə – Türkcə “Gur Un” göndərdiyini bilsə, yalnız o vaxt aydın olar ki, “Yer” – EyƏr (Uca İşıq) planetində dilin təhrifi (məsələn, BağOdƏrin “Madər”ə, “Pədər”ə, “Padre”yə, “Patri”yə, “Piter”ə, “Pyotr”a, “Bahadır”a, “Batır”a, “Budda”ya, hətta “padar”a[1] və sair saysız-hesabsız təhrif adlara döndərilməsi) insan beynini-şüurunu dəyişdirib – həqiqətdən azdırıb, mənəviyyatca ölgün, əxlaqca fizioloji xəstə, bəd ehtiraslar quluna, qatilə çevirib. Məhz buna görə də QalaAğımızdakı OdAğÜz BağOdƏr planetində və kainatda OdƏr bəşəriyyəti “Yer” bəşəriyyətindən üz döndərib, işıq gəmilərində gediş-gəliş kəsilib. Odur ki, “Yer”i fəlakət bürüyüb. Hal-hazırda ƏlAğ EySar “Yer”də yalnız irsiyyətcə sağlam qalmış SafAğ Alimlərinin “Beyin”lərinə – BağÜnlərinə Ün göndərmək və Ün əsasında yazılan həqiqətləri yayıb insanı bəd ehtiraslar pəncəsindən qurtarmağa çalışır. Həqiqətləri Pünhanlar hər bir Əsərdə, şeirdə dönə-dönə təkrar etmək üsulu ilə cahil insanın beyninə işıq salmalıdırlar. Pünhanlar öz şagirdlərinə bir daha bildirirlər ki, Heydər Atatürkün Bakıya, hakimiyyətə qayıtmağı,

[1] P a d a r – dağıdan, var-dövlət qədri bilməyən

parçalanmanın qarşısını almasının nə qədər vacib olduğunu hamıya, hamıya, hamıya anlatsınlar. Bu vacib işin nəticəsi – Milli birlik yarananda isə elan olunmalıdır ki, UluBağ ƏsƏlMənin şəcərəsinə əsasən Heydər Atatürk Sar (“çar”, “hökmdar”, “monarx” – MənƏrAğ) elan olunmalı və vəliəhdini – EvƏl EyOd-unu özü təyin etməlidir. Eyni zamanda silaha qarşı silahlanmaq tələb olunsa da, Pünhanlarımız qisasçılığın, qan axıtmağın terror müharibəsi üçün daha uyğun şərait yaratdığını hər bir nəfərə başa salıb, elmimizi yaymaqdan usanmamalıdırlar. Bağlarımızın iradəsini təmsil edən EySarımızın hökmü belədir. Bu hökm icra edilməsə, bundan əvvəlki məktublarımızda, məqalələrimizdə, kitablarımızda deyildiyi kimi, Yer planetində fəlakətin qarşısı alınmayacaq. Yəni müharibə uzansa, buz dağlarının əriməsi azalıb tədriclə dayanmasa, “Yer”i su basacaq.

Məsim Qonaqlı məktubu konvertə qoyub Səmiyə verdi.

– Son üç ildə məktubları özümdə saxlamışam. Sənə göndərəcəm. Əmirli mülkü qorunacaq bundan sonra. Tərəcələr boş qalmıyacaq. Şagirdlərimiz sənin başına yığışacaqlar, – dedi. – Hər dəfə eyni həqiqətləri təkrar edə-edə, hamıdan təkrar-təkrar soruşmalısan, “təkrar” – “Tü-ki-ər” OdƏr deməkdir.

Möcüz təzə tək qəbirin arxasında qarmonu dizinə söykəyib, başını əyib, asta-asta “Yanıq Kərəm”i çalırdı.[1]

Məsim o tərəfə baxıb köksünü ötürdü.

– Ninninini... Yazıq bilirmiş ömrünün gödəkliyini – deyib, qəbiristanın alçaq daş hasarının darvazasından o yanda, torpaq yolda parıldayan maşınına doğru yeridi... Nə Məsimə, nə də Səmiyə hələ məlum deyildi ki, məktubda xəbər verilən qlobal fəlakətin başlanğıcı müxtəlif yerlərdə, o cümlədən Qonaqlıda da adi görünən hadisələrdə özünü göstərməkdə idi; burada – Qonaqlıda həmin “adi hadisə”lərdən biri son dərəcə qəribə şəkildə baş verməkdə idi...

---

[1] Yad və çoxhikkəli şiə mollalar rayona dolandan sonra əhali təhrif dildə “Quran” ayəsi əvəzində, dəfnlərdə sazda və ya qarmonda “Yanıq kərəmi” – “Yanıq OdƏr” çalınırdı.

## 13

Qayıdanbaş Səmi elə dəhşətli təklik hiss etdi ki, meyitin üstündə hönkürtüsündən də betər hönkürtünü heç cür boğa bilməyib, istər-istəməz, camaatdən aralanıb təkləndi. Yolun qırağında çala-çuxurlarda büdrədikcə gözlərini silib, tapdanmaqdan ağımtıla çalan cığırın sağ-solunda bölük-bölük qoyun, quzu və hərəsi öz balaca sürüsünü otaran balaca-balaca uşaqlar görürdü. Birdən ağlına gələn dəhşətdən üşərgələndi: “məktəb, dərs” getdi?! Onu da – Səmini də öldürsələr, deməli, Midi Əlləzoğlunun pəncəsinə keçəcək, demək, Midi də çoban olacaq, SafAğ varissiz qalıb, doğrudan da, utopiyaya çevriləcək?!”

İndicə dərk etdi ki, bütün öldürülən Əmirlilərin ardınca atası da öldürüləndən sonra tamam ümidsizləşib Elmdən birdəfəlik üz döndərsə də, elə bil beyninin qaranlıq bir küncündə bir hüceyrə kimi şey daimi pıçıldayırdı: “SafAğ ölməz! SafAğ ölməz!..” Məhz bu pıçıltıya arxa çevirib, Kalaşnikovdan yapışmaqla, özü öz əli ilə öldürməmişdimi o uca ruhlu araq düşkünü “pyanska şairi”, əziz dostunu?! Kütləvi, hətta məcburi savadlanma carçısı KPSS-in tökdüyü qanlara qarşı çıxıb aspiranturanı atıb, özü də qan-qırğın yoluna düşəndəcə çobana çevirməmişdimi SafAğ varisi “Midi kişi”ni?!

Belə vahimə içində, Midinin adını eşitdi; Sayılov idi, Səminin böyrüncə, otluqda səssiz addımlar ata-ata, yəqin ki, camaatdan gizlətmək üçün qısıq səslə aramsız ötürdü:

– Midinin anası Mariyanı kim öldürdü, Səmi? Niyə öldürdü? Bilirsənmi? Xəlvət vurmayıb onu, istəkli Gül xalan vurub!.. Bəli! Bax, o məşhur “brauninq”! Yəni qoburumun düyməsini açıb, tapançamı çıxardıb, pəncərədən Mariyanın kürəyinə güllə doldurub! Bildin?! Avtomat da var orda, dükanda. Hətta qumbara da! Əmma çekistka Gülbəniz Xalıq qızı mənim silahımla vurdu Mədədin arvadı Məryəmi! Yeganə saf qadınıdı o Mariya Sudüşəndə. “Məryəm ana” deyirdim mən ona. Qəsəbəyə gedəndə sənin Gül xalana “Gülüm, Gülüm” deyə-deyə yetmiş yaşlı arvada uxajivat eləyirdim, Məryəm ananın üzünə baxammırdım. Gedirdim Şüşəli pavilyonda sənin Şöşünün də üzünə baxammırdım. Otururdum dal otaqda, o cani Qudalılarla, qızımı zorluyanlarla içib gəlirdim Əmirli mülkünə. Şöşüylə sən hardasa operativ iş görürdünüz, Şüşəlidə vururdunuz, mən o mülkdə rəhmətlik Çürük Aşığın təzə düzəltdirib

“hələ qurumalıdı” deyə-deyə bir dəfə də çalmadığı qara cürəsini çala-çala səhərə qədər ağlayırdım. Çünki Xalıq qızı Gülbənizdən söz qoparammırdım. Bu gecə sən Şöşünün yanında oturanda o boş pəncərələrə baxa-baxa nə qədər çaldım, nə qədər ağladım, görmədinmi?! Bu dərdin yiyəsi səni pis yola çəkərmi, Səmi bala?! Yas keçirmiyəcəm Şöşüyə. Şüşəlidə kim olsa, hamısını qonaq eləyəcəm, araqla ehsan verəcəm!.. Şöşü balamın, Axirətdəki Əmirlilərin, Sayılların şərəfinə içəcəm! Gəl! – Çəkib aparıb camaatdan uzaqlaşandan sonra daha səsini qısmadı: – O axşam Mariya öləndə kürəkənlər aldılar başımın üstünü: “Niyə vurdun?!” “Əl vermədi sənə?!” və sairə. Tapançanı apardılar, ekspertə yoxlatdırıb “zaklyuçeniye” yazdırdılar: “...Ubita brauninqom Sailova Murtuza Alekper oqlı”. Əmma tutmadılar. Tez-tez qonaq eləyirdim o kürəkənləri, çalışırdım lap sərxoş olsunlar, ailəm barədə söz qaçırtsınlar dillərindən. Lap yaxınlaşmışdıq, alışmışdıq bir stolun arxasında oturmağa. Bəlkə də elə ona görə tutdurmadılar. Növbəti qonaqlıqdan sonra “zajiqalka”nı çıqqıldadıb yandırdılar “zaklyuçeniye”ni. Səhərisi, saat beşdə stolüstü lampanın işığında uzanmışdım, yatammırdım. Qapı döyüldü. Soruşdum kimdi? Dedi, “Gülündü!” Açdım. Heç o yan-bu yana da baxmadı, birbaş getdi yuxarı, yorğan-döşəyin yanına. Qoftası bir yana uçdu, tuflisi, corabı o biri yana! On səkkiz yaşında qız! “Gülüm, Gülüm”ü mən təhqiramiz deyirdim. Bilirəm ki, yazıq atan Səmədin də başına oyun açıb bu Gül xalan. Cığalı Gülgəzin bacılığı olub ki, Səmədə yaxınlaşsın, qapazdasın. KQB-nin tapşırığıynan ey! “Səməd Əmirlinin pastelinə gir, inandır ki, Gülgəzi Sultan Əmirliyə zorla verməyiblər, Sultan özü zorlayıb sənin Cığalı sevgilini!..” Sovet İttifaqı Qəhrəmanının qızı Gülgəz Xalıqovna maneəsiz, sorğusuz-sualsız girirmiş KQB sədrinin kabinetinə, içəridəkilərə çox mədəni şəkildə: “Zəhmət çəkin çıxın, atamın sözü var sədrimizə”, – deyib, başlayırmış sədri zorlamağa!.. Tapançamı dirədi sinəmə: “Uzan!” Gedəndə bir paçka dollar tulladı üstümə: “Hər həftə gələrsən dükana. Payımı verərsən, payını alarsan!..” Mən demirəm, indi özün de: basım türməyə bu qancığı. Ya yox?! İndi mümkündü: Xəlvət yoxdu.

Səmi kəndin arasında, Orta yolun ortasında, ilk bahar çisəntisindən nəmlənmiş asfaltın işıltsına baxa-baxa Cığa mamanın göz yaşlarını gördü.

– Bəs... bəs Cığa mama necə bacılıqdı beləsinnən?!
Sayılov dedi:
– Çünki safdı Cığa maman.
Səmi dedi:
– Mən sizə inanmıram! “Gülüm” ha, “Gülüm!” Mənim yanımda! Uşağın yanında! Qeyri-adi uşaqdı o, çox həssasdı. Uşaq bağçasındakı o balaca bacılarının tərbiyəçisi Nobahar müəlliməyə vurulub, ağlayır! Qarmonu verir Cırımağızın qucağına: “Sevgilim, oxu!” Siz “Gülüm, Gülüm” deyəndə necə baxır o qalın qaşların altından, görmürsünüz?! Görürsünüz! Əmma yenə elə “Gülüm! Gülüm!..”
Sayılov siqaret yandırdı.
– Çətinə saldın... Məni çox çətinə saldın, – dedi. – “Cığa mama necə bacılıqdı beləsinnən?!” Çünki Cığa maman da Sultan Əmirlinin evində dərs keçib, SafAğ əbləhi olub. Gül maman da elə SafAğ ƏsƏrləri oxuya-oxuya girməyibmi o əbləh Cığalının qəlbinə?! Mənə nə deyir gör: “Repressiya qurbanı şairiniz təki hamınız deyin: “Əyil Kürüm, əyil keç, Dövran sənin deyil, keç”. Açığı, bu cəhətdən sındırıb məni o Gül; fantastika təki bir şeydi məndən ötrü bu SafAğ, Səmi bala! Bu cür qan çanağı Planetdə SafAğ Elmi yayan Pünhanlarımızın hamısı əbləhdi! Başda o uzaq planetdəki EyOdƏr Babamıznan bir yerdə. Necə yəni “insana təsir edin, təzyiq qadağandır!”
– Siz... – Səmi də siqaret yandırdı. – Siz əbləhlərdən deyilsiniz! Siz əxlaqsızsınız!
Sayılov sakitcə:
– Pozğunam, – dedi. – Əmma, eyni zamanda əbləhin lap yekəsindənəm. O – əlli beşinci il, bu – doxsan üçüncü! Gör necə ildi “tutacam, tutacam” deyə-deyə tutmuram o qancığı! Açıram Pünhanların yazılarını, qoyuram stolun üstünə. Altından qırmızı qələmlə xətt çəkdiyi yerləri göstərirəm, deyirəm oxu. Deyir: “Nəyini oxuyum. Əzbər bilirəm”. Deyirəm: “De”. Deyir: “Tövratda “Kidar qoyunları” ifadəsi həm müstəqil mənadadı, həm də rəmzi. “OdƏr safları” deməkdi”. “Tolkavatel”i adlanan monaxlar “Bibliya”ya Patriarxın əmriylə yazıblar ki, “kidarskiye ovtsı pereydut k tebe”, yəni Yerusəlimə. Deyir: “Rim o vaxtdan çalışır ki, Yerusəlim Bağdayı tutub versin Qrek-Latın koalisiyasına...” Niyə danışıram bunu sənə? Çünki sən heç, heç,

heç tanımırsan Gülbəniz Xalıq qızını, Alimdi ey! Beyni dolu, altı xarab alim qadın!.. Soruşuram: “Belə bir həqiqəti dərk edən savadlı qadın, rayon icra hakimiyyəti başçısının həyat yoldaşı niyə bu dərəcədə pozğundu?! Deyir: “SafAğ öyrəndim, dünyada saf insan görmədim, sarsıldım, qoşuldum qəhbə bəşəriyyətin qəhbələrinə!..”

> Mən cahan mülkündə mütləq doğru halət görmədim,
> Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim!..

“Bu da bizim Vaqifimiz – bilənimiz!” – deyir. “Molla Pənah Vaqif də SafAğ alimi idi. Axırda xanının zövqünü oxşayan erotik şeirlər yazdı”, – deyir. Əyrimi deyir? Xeyr! Əmma qəhbədi! Satqındı! Sənin tərəcələrini kim boşaldıb?! O özü boşaldıb! Bəli!..

Səminin ağsümük üzü qanla dolub dərisini yandırırdı.

– Bəsdi! – dedi. – Siz dəhşətli adamsınız!.. Mənim tanıdığım prokurorların hamısı mürəkkəb, ziddiyətli adamlardı. Siz kimisini görməmişəm! O cür vulqar qəhbə siz özünüzsünüz! Məndən də betər iyrənc alkaqolik!.. Mən özüm də içənəm. Qadın günahlarım da var. Siz bütün günahları ayaqlayıb keçmisiz! Şüşəni başına çəkəndə də sərxoş olmayan hiyləgər tülkü! Canavar! Gedin burdan! O murdarların qanına qataram qanını! – Əli tir-tir əsdi. Çox az, hərdən çəkdiyi siqareti yerə çırpıb qığılcımlandırırdı.

Sayılov birdən-birə qəmlənmişdi.

– SafAğlar əbləh deyillər, ucadılar. Əmma həm də “Kidar qoyunlarıdı”lar, – dedi və birdən dikəlib Səminin gözlərinin içinə baxdı. – Atan Səməd Əmirli kimi uca, pak insan niyə dəyişdi birdən-birə?! Bilirsən? Əlli dördüncü ilin yayında mən fır-fır fırlanırdım Sultan Əmirliylə Səməd Əmirlinin ətraflarında. SK KPSS-in üzvü Kiknadze Moskvadan, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general Qudalov Xalıq – “Çax-çux” kliçkalı beynəlxalq kəşfiyyatçı Bakıdan, Xəlvət Rəhimlə Zor nəçənnik Gülənov da burdan boğurdular məni ki, avqust istiləri düşəndə sərin pivəylə gedim Sultanın yanına, zəhərləyim. Getdim gördüm özünün qardaşı oğlu Səməd Əmirli xirtdəkləyib kişini ki, əl çəksin SafAğ Elmi yaymaqdan. Səsi indi də qulağımdadı: “Bu planet murdarlar üçündü!..” Elmin yeganə varisi idi Səməd. İmtina elədi varislik-

dən! Sultan da vəsiyyət yazdı, qoydu pencəyinin cibinə: "Məni varisim öldürdü!.." Niyə? Çünki bilirdi elmdən dönənləri dərhal çırpışdırır KQB. Elmin əleyhinə qoyur! Bax, buna görə də Səmədin yaşamağını istəmədi! Bəli! Şoferi Müslüm çatdırdı mənə hər şeyi. Mir Cəfər Bağırovun məhkəməsində, Dzerjinski klubunda, zəhəri tökdüm Sultanın termosuna, verdim Müslümə, dedim: "Onsuz da ölür. Ürəyinin pristupu tutub, doldur stəkanı, ver içsin". Verdi stəkanı. Öldürdü. Əmma nə Müslümdü qatil, nə mən, Səməddi! "Bu planet murdarlar üçündü!" deyən atan! Sən də belə deyirsən! Şöşü də belə deyirdi! "Ninnini!" Yəni mənasızlıq! Onun arağı pivəyə, pivəni çaxıra qata-qata kainat, bəşəriyyət haqqında danışdıqlarını dinləyə-dinləyə faniliyinizi görən prokuror Sayılov da deyir: "Bu planet murdarlar üçündü". Buna görə üz döndərməyiblərmi bizdən kainat Bağları – xaliqlər, yaradanlar?!

"Çəməndə çiçək, a Səm-səmi,
Hamıdan göyçək, a Səm-səmi.
Get bir maşın al gətir,
Bu kənddən köçək, a Səm-səmi!"

Bir dəfə getdim, Əlləzoğlunun xarabasında gördüm Aşıq Kamandarın kasetini oxutdurur: "Beş gözəl"in aşiqiyəm!.." Bağ Ata, dörd Oğlu ərş – əladı, öz keyfində, Cığa mama burda sel axıdır gözlərindən! Beş gözəldən ötrü!

Bu da sənin Cığa maman!.. Sultandan dərs alandan sonra o orta savadlı qadın SafAğ Aşıqlarımızdan da kamil, uca insan oldu, Kamandarın rəmzlərinə vuruldu. Çardağın altında mənə kabab çəkə-çəkə zümzümə eləyirdi: "Burası Hələb Gürcüstan... Yəni Gürcüstan da Elm mərkəzi Hələbdi... Uca deyilsən sən, kin-küdurət mücəssəməsisən! Gülləleri maşının şüşəsindən içəri yağdıranda tükün də tərpənmirdi. Mən təki vulqar qəhbə, rüşvətxor yaxşıdı, yoxsa sən – əli qanlı polis?! Aydındımı nə deyirəm?! Bir də belə danışma bu bədbəxt adamla! Çünki bu dünyanın murdarlarından çox da seçilmirsən sən!.. O başı dolu, altı xarabın "Pələş"indən necə pərt oluramsa, sənin bu "vulqar qəhbə"ndən də o qədər kədərləndim. Çünki insanam mən. Az-çox saxlamışam...

Sayılov bundan sonra da çox danışdı:

– O rəhmətliyin "Ninni"sini dərk eləyirdinmi sən? Mən isə aydın başa düşürdüm ki, "Ninnini"di bu dünya! Hətta ailəmin qisasını almaq istəməyim də mənasızdı. Tutaq ki, bu Kalaşnikovu aldım səndən, getdim son nəfərinə qədər qırdım o köhnə milisənerləri, indiki OMON-çuları. Nə olsun?! Nə mənası var bu qisasın?! "Ninnini" deyilmi bu qisasçılıq da?!

Lap çox danışdı Sayılov. Səmi daha heç nə eşitmədi. Sultan Əmirli öləndən sonra kitelinin döş cibindən tapılan kağızın surəti Çürük Aşıqda idi. Səmiyə dönə-dönə göstərərdi, izah edərdi ki, bu kağıza görə cinayət işi qaldırmaq olmaz. "Səməd söznən sarsıdıb, öldürüb əmisini... Doğrudu, söz daha kəskin silahdı, əmma qatil deyil Səməd. Dzerjinski klubunda son nəfəsdə Sultanın əlindən düşən stəkanda Sultanın öz əlinin "otpeçatok"undan başqa Müslümün əlinin "otpeçatok"u da tapılıb, "silist" olub, Müslümə iyirmi beş il kəsilib. Səməd isə, kağızı oxuyub əmisinin sarsıntısını başa düşəndən sonra Varisliyə qayıdıb, yeddi yüz əlli cildlik SafAğ kitabxanasından qalan əzik-üzük cildlərin bərpasına girişdi, səksən səkkizinci ilə qədər, otuz ilə yaxın Elm yaymaqla məşğul oldu...

Həqiqət belədirsə, Sayılov niyə qatil adlandırır Səməd Əmirlini?! "Bu planet qatillər üçündü!" – deməyi, Varislikdən dönməyi ötəri sarsıntıdan törəyən bir vəziyyətdirsə, qatildirmi Səməd Əmirli?!

Bu etiraz Səminin içində qaldı. Çünki Sayılovun danışdığı hadisə hər şeyi unutdurdu:

– "Mərhum Sultan Əmirlinin arvadı Gülgəzin, yəni öz əmisi arvadının oynaşıdı Səməd Əmirli". Sitatdı bu. Sənin istəkli Gül xalayın KQB-yə donosundan! Sitat!.. Sultanın ölümündən sonra general Məhərrəmov nə qədər danladı-dalaşdı, Səməd Bakıda qalmadı, gəldi Qonaqlıda kolxoz sədri oldu. Beş ildən sonra, Xruşşovun vaxtında Məhərrəmov gəldi, KQB-nin rəsmi çağırış vərəqəsini göstərdi, məni çağırdı, zorla maşına basdıq apardıq Səmədi. Yəni cəmisi beş ilə yaxın sədrlikdə qaldı atan. Bax, o vaxtlar gül bənizli Gülbəniz, "yerişindən yer yırğalanan", nazlı-qəmzəli gəlin, gecənin yarısında Məsimi dalınca baxa-baxa qoyub gəlirdi bax bu Əmirli mülkünə. Bu Orta yolun sağ-solunda qapılar, pəncərələr açılırdı, hamı açıq-aydın görürdü ki, gül bənizli Gülbəniz getdi subay Səməd Əmirlinin evinə,

səhərə qədər qaldı orda, bədbəxt Məsim də bu yanda, ağ tuman-köynəkdə, həyətində siqareti-siqaretin dalınca tüstülədə-tüstülədə qaldı. Səhər tezdən Səməd atını minib əkin-tikinə gedəndə gülüzlü Gülbəniz də çıxırdı ordan – Əmirli mülkündən, gedirdi yolun bu biri tərəfində Əlləzoğlunun həyətinə, dul bacılığının cığalarını zorla çıxardırdı kəlağayının altından, biləyindən yapışırdı, aparırdı çölə – pambıq ketmənləməyə... Bundan nə nəticə çıxardırsan, ay SafAğ Səm-səmi?! Atan Səməd də murdar idi? Xeyr! Səməd o gülüzlünü, o nazlı-qəmzəlini söyürdü! Eşiyə itələyib qapını çırpıb daldan bağlayırdı. Həyadan, abırdan məhrum gülüzlü o dirəklərin dalında, balkonda kilimə bürünüb yatırdı ki, camaat Səmədi yapsın ona. KQB-nin əmri belə idi, ay SafAğ Səm-səmi! Səmədi əxlaqsız, murdar adam kimi qələmə verməli idi, sonra da Cığalı Gülgəzin başından nöyüdü töküb, spiçkəni çəkib yandırıb öldürməli idi. Bu dediklərimi mənə o bədbəxt Məsim danışıb. Raykomda instruktor işləyirdi Məsim Qonaqlı. Sakit, təmiz adamdı. Yazığım gəldi, getdim raykomun birinci katibi Əziz Mayılovun yanına, dedim Sultan Əmirlinin arvadı Gülgəzi Sultanın oğul əvəzi varisinə yapıblar, Gülgəz özünü yandırıb, icazə ver cinayət işi qaldırım, gedim özüm istintaq aparım, təmizə çıxarım bu bədbəxt cavanları. Demə, Mayılov hər şeyi bilirmiş. Dedi, bilirsən, otuz yeddidə familiyamı dəyişdirmişəm, əslində mən də Təbrizdənəm, Sultanla əmiuşağıyıq. Səsimi çıxartsam, Zorri Gülənov dərhal Mərkəzi Komitəyə çıxardacaq işi! Rayonla az-çox təmiz adamlar dayaqsız qalacaqlar. Get ifşa elə o qancığı, Qudalılarıyla, Çax-Çux Xalıqla bir yerdə. Çətinə düşsən, Məhərrəmova zəng vuraram, özüm də qolumu çırmayaram... Arxayın oldum Mayılova, getdim, elə o günü başladım istintaqa. Çox adam dindirdim. O cümlədən Əlləzoğlunu. Dedi: “Bax bu gözlərimnən görmüşəm, o Səməd deyilən günün günortası gəlib girib evə, qapını bağlayıb daldan. Söymüşəm, tüpürmüşəm, açmayıb, a dərdin alım. Əmbə indi ayağını kəsib. Çünki Çömçəyalayanın qızına uyub, a dərdin alım, Xalıqın qızı Gülbənizə”. Bu cür bir ifadəni indi də sənin haqqında verib Əlləzoğlu. “İndi də Səmədin bu Səm-səmisi gəlib gedir. Bədbəxt balam nöyüdü töküb, spiçkəni çəkib oddayıb özünü genə. Elə o vaxtkı təki. Döşləri, qarnı, kürəyi, boynu yanıb. Gürcüstandan bizim kəndə İravaz adında bir doxtor

gələrdi, burdakı doxturumuz rus qızı Sestraynan gəzərdi evləri, dərmən-dava verərdi. O vaxt gəldi o İrəvaz doxdur, baxdı bədbəxtimə, dedi sağalacaq. Bir şərtnən: hər gün, gündə bir kərrə sim suyuynan, sizin dilinizdə marqansnan yuyandan sonra cunanı sim suyuna batırın bürüyün döşünə, kürəyinə, boynuna, üstündən qəzeti duzsuz yağnan yağlayın, qoyun, üstdən də təmiz çitnən sarıyın... Novruz günü yandırmışdı qız özünü. Üç ay hər gün bir kilo duzsuz yağnan yağladım qəzetləri, sərdim, sarıdım. Üç ayda doxsanca kilo nəhrə yağı getdi. Qonaqlıda mal azdı, qoyun da yataqlardadı. Qudalılar qoyunu da burda saxlayırlar. Hacıehsan deyilən biçənəkdə yataqlar tikiblər. Hər gün, hər gün əlimdə vedrə, Hacıehsana getmişəm, a dərdin alım. Yalvarmışam... İndi var-yoxumu balnisiyə tökmüşəm... Səmiyə görə...” Bir dəftərdi Əlləzoğlunun ifadəsi. Hamısı da bircə məsələ üstədi: kolxoz sədri Səmədin günahı üzündən qızım özünü yandırmışdı, indi də Səmədin oğlu Səmi. Yəni xərcimi versin Səmi? Xeyr. “İndi balamı, ev-eşiyinnən, vərəsə-siynən bir yerdə versin...” Qızıl adı çəkmir, qoymur yazmağa, əmma gözü o qızıldadı... Gül xalan təşkil eləyib bunu. Bildin?!

Səmi heyrətli qətiyyətlə:

– Gül xalanı tutmaq olmaz! – dedi. – Midini heç kəsə etibar eləyəmmərəm! Tutulmamalıdı! Elə şey eləsəniz, yenə deyirəm, səlamət qalmıyacaqsınız! Özünüz dediniz: qatiləm mən!

Sayılov Əmirli mülkünü göstərdi.

– Gül xalan boş qoyub o tərəcələri, ayrısı yox! Qovluqlar KQB-dədi! Səni məhv eləyəcək o qadın! Midi Əlləzoğlunun əlinə keçəcək! Neçə dəfə demək olar bunu, ay Səmi bala!

Səmi, nəhayət, susdu.

Sonra gözlənilməz bir sual verdi:

– Cığa mama sağ qalsa, Midiyə sahib durmazmı?

Sayılov tamam üzüntülü:

– Ay oğul! Cığa mamanın qan təzyiqi iki yüzdən aşağı enmir. İfadə verəmmir! – dedi. – Bundan başqa, öz iradəsi yoxdu, axı, daha onun! Əlləzoğludu indi Cığa maman! Əlləzoğludu qızın əvəzində danışan! O köpəyoğlu da elə sizə görə verbovat olunmayıbmı?! Qırx yaşında savad öyrədiblər! Əlli ildir yazır! Kim gəlir bu evə, kim nə danışır, hamısı, bax o Göbələyin əlilə yazılıb!.. Gülgəzi satdı, Sudüşənin sürüsünə sərkər çoban oldu! Süd – çal-çamır! Yun –

ton-ton! O "ət torbaları" dediyin gədələrin nəyinə gərəkdi o sürü?! Həftədə, on gündə bir kabab istəyir ürəkləri, onu da Şüşəlidə yeyirlər. Yüz dolları birdən atırlar stolun üstünə! Əlləzoğlu olacaq sürünün, bu mülkün, Midinin sahibi! Öldürmə məni, ay oğul! İcazə ver, basaq getsin o qəhbəni! O getsə, qəsəbənin ət torbaları da dəyişəcəklər. Cırımağız dediyiniz Möcüzün lenti var, verərəm qulaq asarsan. Deyir: "Ermənilər Şuşaya dolanda Gül xala hamıdan çox sevinirdi. Dedi Bakıda, dəniz qırağında Koroğulunun heykəlinin yerində Məmməd Əmin Rəsulzadənin heykəlini qoyacaqlar Cəbhəçilər. Gedin orda çalın-oxuyun: "Koroğlunu çaya təpər, Giziroğlu Mustafa bəy". Mən Kamandardan eşitmişdim ki, "gizir", kisr" – OdSar deməkdi, Mustəfa – Məhəmməd Peyğəmbərdi, "Kor oğlu"nu çaya təpir, yəni saf suya – SafAğ Elminə təpir ki, "kor[1] oğlu", olma, OdƏr oğlu ol. Buna görə getmək istəmirdim Bakıya. Babam döydü məni, dedi: "Get, yaxşı pul verəcəklər". Getdik çaldıq, oxuduq. Cəbhəçilər əl çaldılar. Ciblərimizi pulnan doldurdular. Əmbə "Bəy"lər gedəndən sonra camaat döydü orda bizi ki, "Koroğlumuz düşmənmi oldu indi özümüzə, heykəlinin yerində Məmmədin heykəlini qoyursunuz?!" Gəldim Bakıdan, dedim: "Gül xala, Kamandar dastanı şərh eləyəndə sən eşitməmisənmi ki, hər gecə dənizdən bir at çıxarmış, Mehtər Alının otardığı ilxıda qalıb, səhər gün doğanda yenə dənizə gedərmiş. "At" – Od – Həqiqət deyilmi? "Dəniz" – OdÜnƏs (Yaradan Ün həqiqəti) deyilmi? Məni niyə məcbur eləyirsən ayrı mənada oxuyum Koroğlunun bu mahnısını? Gül xala gülür, deyir: "Kamandarın izah elədiyini kim bilir? Koroğlu elə korun oğludu. Əmbə Məmməd Əmin alimdi. Oxu! Yoxsa, babana deyərəm, genə təpiyin altına salar". Özün de, Murtuz əmi, necə oxumayım, mən yazıq?!" Bu lenti müqəddəs kitab kimi saxlayıram. Əmma Möcüzə yenə "Gizir oğlu Mustafa bəy Koroğlunu çaya təpər" oxutdurur sənin Gül xalan! Bu qadın burdan getsə, bilirsənmi nə qədər dəyişər vəziyyət?!

Sayılov sözünü tamamlaya bilmədi...

---

[1] Kitabın əvvəlində deyilib ki, "Koroğlu" dastanında gözü ovulan "Mehtər" – BağOdƏr SimÜnün ("Simon"un) rəmzidir. "At" qrekcə Od mənasındadır. Rəmzin bütöv açımı: "Mehtər" – BağOdƏr "at" – Od saxlayandır, "Kiər" – "kor" olub.

## 14

...Əlləzoğlunun həyətindən tükürpədən qışqırtı eşidilirdi:

– ... Öldür məni! Onu yox, məni öldür, ay ata!..

Səmi heyrət içində:

– Cığa mamanın səsidi! – dedi. – Bəs, can üstə idi? Niyə burdadı?!

Səmi ilə Sayılovun ardınca, dəfndən qayıdan camaatın hamısı hündür qaratikan çəpərinin arxasına axışdı və tamam anlaşılmaz səhnə qarşısında hərəkətsiz qaldı.

Səmi özünü itirmişdi. Sayılovdan aralanıb, əvvəlcə çardağa, sonra su quyusundan sağdakı genişliyə – mal arxacına[1] tərəf gedib dayandı.

Vahiməli canavar ulartısına bənzər it səsilə Əlləzoğlunun bağırtısı bir-birinə qarışmışdı. Əlləzoğlu Sudüşəndə qırx evin qırxına da özü kimi ala-bula Pələşlər verəndən sonra tükü tökülmüş, qoturlaşmış, iyili-qoxulu olduğuna görə bir nömrəli evdən və bütün qəsəbədən qovulub, Qonaqlının həyət-bacalarında sülənən Pələşi – sümüklər çıxmış yarımcan iti arxacda buzov mıxına uzun bir kəndirlə sarım-sarım eləmişdi. Əlindəki dəyənəklə itin eninə-uzununa döşəyə-döşəyə dörd mərtəbəli söyüşlər söyürdü:

– ...Sənə yal verənin yalı kəsilsin, tikəyə möhtac qalsın! Altmış il gözlədim kolxoz dağılacaq, Əlləzuşağının sürüsü qaytarılacaq. "Sənə düşmür", deyir, it oğlu it! Bax, bu Pələş təki öldürəcəklər səni də, ay Pələş oğlu Pələş! Niyə mənim qapma dadanıb bu, a sənin qapını-bacanı!.. Atanı, ananı, arvadını!.. Hər həftə bir xəlbir yumurtamın axırına çıxır bu, a sənin əvvəlini, axırını!.. Qaçıb gəlib xəstəxanadan, qaçanda biləyi qalıb maşının qapısının arasında, sınıb xıncım-xıncım olub. Sınığına yumurta sarısı yaxmalıyam. Dilənçilikmi eləyim indi. Ay Başçı, dilənçi olasan səni!..

İcra başçısının əvəzində itin döyülməsinə gülənlər vardı:

– Eşşəyə gücü çatmır, palanı döyəcləyir.

Bu vəziyyətdə doğrudan da gülünclük vardı, Səminin isə dodağı da qaçmırdı.

– Necə yəni "qaçıb gəlib?!" – Bir qədər durğun gözləri o yan-bu yana dolandı.

---

[1] Arxac – mal yatan yer

Təəccüblü və dəşətli idi ki, xəstəxanada “can üstə” olan Cığa mama arxacla su quyusunun aralığında lap qədim əyyamları xatırladan ətrafı püşlü-peyinli qara torpağından seçilməyən, bir metr hündürlüyündə yatağın – kahanın günəş işığı görməyən qaranlığında dizləri üstə çöküb, bir əlilə üzünü qapayıb, barmaqlarının arasından yaş axa-axa, səsini ulartıya qatmışdı:

– ... Yumurtaynanmı sağalacam mən, ay ata?! Ayıb deyilmi, icra başçısının hayıfını bu zəlil kəlibdən alırsan! Bu qədər də qətrəhmlik olarmı, ay ata?!

Cığa mamann sol biləyindən çiyninə qədər sinəsinin bir tərəfi bintlə sarıqlı idi. Sol gicgahında saç əvəzində yaşıl dərmən sürtülmüş qızarttaq, şişkin ət qabarmışdı. Üzü əlinin altında olsa da, görünürdü ki, sol üzü də yanmış, şişmiş, dərmənlənmişdi. Lap ilk gəncliyindən başlayaraq, hətta son illərdə Şüşəli ofisiantların mühitində də zənən bədəninin aşağı qisminə baxmayan, gözü sataşanda, necə deyərlər, pul kimi qızaran Səmi burda ilk dəfə Cığa mamanın aşağısına baxmaya bilmədi: sol dizindən sol ayağının barmaqlarına qədər bint içində idi. Qışqırdıqca, yəqin ki, qıçı ağrıdığına görə tez-tez sağ əlini üzündən çəkib sol dizini sığallayırdı.

Həyətdə camaat uğuldamağa başladı. Orda-burda hirsli deyintilər eşidildi:

– Kaftara bax ey...

– Dilsiz-ağızsız heyvanı nə hala salır!

– Bu kişi bu kəndi dəli eləyəcək! Ölmür qurtarsın canımız!

– Əzrayıl zinhardı bunun əlindən!..

Məlum oldu ki, Hənifə qarı xəstəxanaya aparmaq üçün bir xəlbir yumurta yığıbmış. Gözləyirmiş ki, toyuqlarının bugünkü yumurtalarını da yığıb, axşamüstü bir erkəyin bir şaqqası ilə bir yerdə aparsın. Əmma yatağın – kahanın harmalarında yumurtlayan toyuqların eşələdikləri yerləri axtaranda görüb qaranlıqda it gözü işıldayır. Başa düşüb ki Pələşdir, yenə də yumurtaların başlarını deşib, içib. Tez yüyürüb çardağın altına, görüb it xəlbirdəki yumurtaları da içib. Çığırıb: “Vay, evim yıxıldı!” Gülbəniz, Əmirli mülkünün qabağından eşidib qışqırtını, yüyürüb gəlib, görüb Əlləzoğlu Pələşi mıxa sarıyıb. Qarı bir yanda yalvarır Əlləzoğluna, Gülgəz də o biri yanda. Çaşıb-qalıb Gülbəniz, cumub ki, “Sən niyə burdasan, ay Cığa mama?!” Cığa mama deyib: “Orda – xəstəxanada dedilər

atan erkək kəsib, ərin ət, yumurta gətirəcək. "Ərin ey?!" Donumu əynimə taxdım, çıxdım taksiyə mindim, qaçdım".

Arvadların səsləri Əlləzoğlunun söyüşlərinə, itin ulartısına qarışsa da, Gülbənizin qalınaraq, cingiltili səsi seçilirdi:

– ...Bacımın günü qaradı bu ər-arvadın əlindən. Ha deyirəm ay arvad, a kişi, zaks kəsdirmək Zor nəçənniknən Qudalıların köhnə kələyidi. Qırx ikinci ildə Tahirli kolxozunun sədri Cəbrayılnan dostunun dul arvadını zornan ər-arvad eləmişdilər. Yazıqların boğazlarına konyak töküb qarın-qarına sarımışdılar. Əlli dördüncü ildə Sultan Əmirliynən yazıq bacılığımı elə o cür ər-arvad eləmişdilər. İndi də, bilirsiniz, Səmiynən ər-arvad eləyiblər. Siz bura doluşanda istəyirdim yazıq bacımı birdəfəlik aparım Əmirli mülkünə, həm söz-gap kəsilsin, həm də uşağa analıq eləsin bədbəxtimiz. Sizi gördü, çıxdı əlimdən, təpildi ora – yatağa. Orda yandırmışdı ev özünü. Qəttəzə şubamı basdım söndürdüm alovu. Ay Səmi, nə baxırsan küt-küt! Nöyüt qabını, spiçkəni-zadı da yatağın harmasında saxlamırmı bu qarı?! Yenə yandırar, ay Səmi! Evimiz yıxılar! Uşaq tək qalar!

Səmi diksinib, Gülbənizə baxdı.

– Niyə tək?! Bəs, sən sahib saymırsanmı daha özünü?!

Gülbənizin dirsəyə qədər çirmənmiş qolları xəmirli, urvalı idi. Məlum oldu ki, qəsəbədəki qırğından sonra Məsim Qonaqlı bu köhnə arvadını, qayınanasını daha burda saxlamaq istəmir. Özü də ərizə verib ki, işdən çıxsın, uşaqlarını yığışdırıb aparsın Bakıya, mənzil alsın, kəbinsiz arvadından olan uşaqlarını, qayınanasını, Gülbənizi orda qoyub özü Rusiyaya getsin, qırğında əli olmadığı sübut edilənə qədər xaricdə qalsın.

Gülbəniz xəmirli pəncəsini Səminin gödəkçəsinin kürəyinə basıb itələdi.

– Çıxart, deyirəm, onu ordan! O kökdə adamı burda qoyma daha! Apar! Apar! Evində otursun. Səni tutsalar kimin umuduna qalacaq Midi? Əlləzoğlununmu?

Səmi hiss edirdi ki, illər uzunu Midi ilə əmisinin qulluğunda durub, indi dar gündə birdən-birə köçməyə hazırlaşan bu qadın, doğrudan da, Sayılovun dediyi adamdır.

Özündən asılı olmayaraq, Gül xalaya burada birinci dəfə əyri baxıb, Sayılova tərəf döndü.

– Neyləyim?!

Sayılov bu gözlənilməz müraciətdən tutulub, təəccüblə:

– Niyə məndən soruşursan! – dedi. – Görmürsənmi necə möhür basdı zaksın möhürünün üstündən?! Yaxa qurtarammazsan daha. Apar arvadını! Əmma nəzərə al ki, uşaq da əldən gedəcək, mülk-filan da! Çünki Gülgəz mülkə aparılandan sonra Əlləzoğlu özü sənin başını yeyəcək!

Bir göz qırpımında həyətdə necə şamartı – haray-həşir qopdusa, Səmi ilə Sayılov bir-birinə öz acizliklərini dərk etməkdən başqa bir şeydə qabil olmadılar. Gülgəz, əlində neft qabı, yatağın peyin çıxarmaq üçün açılmış yan qapısından çıxıb, bağa – çiçəkləmiş, tər yaşıllığa bürünmüş ağacların arasına cumdu.

Gülbəniz:

– Vay! – qışqırıb bacılığının dalınca yüyürdü.

İtin qabaq dişləri sınıb tökülmüş, biləklərinə, döşünə qan çilənmişdi. Əlləzoğlu isə hələ də əl çəkmir, sifətindən tər tökülə-tökülə, dəyənəyi itin cəmdəyinə döşəyir, itlə bərabər özü də xırıldayırdı:

– Hıx, sənin!.. Hıx, sənin!.. Başçı itoğlu! Mənə də Göbələk deyərlər. Elə şöhrət yaxacam kürəyinə ki, ömürlük!..

Arada Səmi yenə Sayılovun səsini eşitdi:

– Bax, bu iti belə döyə-döyə Məsimin ünvanına dediyi sözlər də təşkilat tapşırığıdı! Başa düşmürsənmi, Səmi?! Məsimin də başını yeyirlər!

Pələş birdən titrəyib, dəyənəyi qamarlayıb ağzına salıb, üzü-üstə qapandı. Əlləzoğlu var gücü ilə dəyənəyi dartıb, qəfildən geri aşırılıb sıyıq mal peyininin üstünə yıxıldı. Üst-başının batdığını görəndə, dəyənəyi qapıb itin üstünə cumdu. Əmma it artıq can verirdi. Heyvanın geniş açılmış gözlərində iztirab donub qalmışdı. O iztirabı hamı görür və elə bil itə yox, insana baxırdı, Murtuz Sayılov isə o iztirabı hamıdan aydın görürdü və qəhərini boğub, necə deyərlər, içində ağlayırdı...

...Gülgəz çardağın altında dizləri üstə çöküb, alnını yay aylarında yatdıqları taxtın qırağına söykəyib hönkürürdü. Ayaq səsinə dönüb geri baxdı. Gülbənizi görüb daha bərkdən hönkürdü, sarğısız əli ilə koftasının yaxasını didə-didə, o biri əlini arxaca tərəf uzatdı.

– Gülbəniz!.. Gülbəniz! Qurbanın olum, qurtar məni bu zindandan!.. Daha dözəmmirəm! Qurtar məni! Dözəmmirəm! Belə də qansızlıq olarmı! Allah, Allah! Gülbəniz, əzrayıl olub atam, anamın da biləyini vurdu sındırdı o dəyənəknən, yenə yumşalmadı ki yata-

ğın qapısını niyə açıq qoyubsan!.. Allahın dilsiz-ağızsız heyvanı necə yalvarırdı, Gülbəniz! Belə ataya övlad olanacan heç gəlməyəydim bu dünyaya!

Gülbəniz qəzəblə:

– Əlləzoğlu kimi atanın evində bircə gün də bənd almaram mən! Yığış gedək! – dedi. – Sən bu vəhşixanadan çıxmasan, insan kimi yaşayammıyacaqsan heç vaxt! Qalx! Uşaq da sənin pasportundadı, ev də, Səmi də! Mülkün sahibi sənsən, ay yazıq, bədbəxt bacım! Bu dağılmışdan bir çöp də aparma! Sultan Əmirlinin rayonda nəyi varıydı, hamısı bu mülkə gətirilməyibmi?! Sənin paltar-palazın-zadın, hamısı! Ayıb olmasın, dizliklərin, corabların da zil-düzən durur orda! Qalx!..

Cəmisi bir saat bundan əvvəl üstünə göz yaşları axıdılan təzə-təzə qəbirər də, Əlləzoğlu adlanan dəhşət də, o dəhşətin öldürdüyü məzlum heyvan da yaddan çıxmışdı; camaatla birlikdə Səmi də, Sayılov da Gülbəniz – Gül xala adlanan dəhşətin dəhşətindən tutulub, yanları açıq çardağın altındakı danışığı dinləyirdi.

Gülgəz, dizləri üstə, sol əli sol üzündə, hələ də qara, gur cığalarının arasından, bacılığına baxırdı.

– İndi bildim pasportumu niyə apartırdın... Midiyə görə çox sağ ol, ölüm qabağında, Gül xalası! Bəs, Səmini niyə yazdırıbsan mənim pasportuma?! Biabırçılıqdı axı!

Gülbəniz gözucu camaata, Səmiyə, Sayılova baxıb, səsini qətiyyən qısmadan:

– Pasporta yazdırmaq ər-arvadlıqdımı, ay Cığalı?! – dedi. – Ev almaqdan, ev satmaqdan ötrü camaat məhkəməyə ərizə verib rəsmi boşanardı Sovet vaxtı! İndi də elə o cür eləmirlərmi?! Bir bu. İkincisi, lap elə ər-arvad saysınlar, nə var, axı, burda?! Üzüyün salamət tərəfində bir qırış da yoxdu. Məni niyə yapır Səmiyə bu camaat? Bacın da elə sən təkidi da, ay bacın qurbanın olsun! Qalx!..

Beləcə, camaatın gözünün qabağında, Səmini də "təklikdən qurtarmaq" üçün, Gülbəniz Gülgəzi inandırdı ki, günü bu gün Əmirli mülkünə getməlidir.

Camaat mat-məəttəl həyətdən çıxıb Sudüşəndə, kürəkənlərin yan-yana evlərinin qabağında, küçənin ortasında qurulmuş çadıra tərəf getdi. Sayılov da oraya – yasa getməyi vacib bilib getdi. Səmi isə həyətin ortasında dirək kimi qaldı və burda beyni yavaş-yavaş açılmağa, nə baş verdiyini anlamağa başladı...

Əlləzoğlu kəndiri mıxdan açıb itin dal ayaqlarına salıb sürüyüb aparıb "qoşasaqqız" deyilən iki ağacın arasında xəndəyə tullayıb üstünü torpaqlayıb qayıtmışdı.

Hənifə qarı tək əli ilə ələyin qırağından bir cüt əl irilikdə "faner" qoparıb, biləyində sınan yerin üstünə qoyub, çitlə möhkəm sarıyıb Markın "medpunkt"una getmişdi.

Səmi həyətin ortasında məhz dirək kimi hərəkətsiz qalmağının səbəbini başa düşmürdü. Bəlkə gözləyirdi ki, Cığa mama təklənəndə onunla danışsın, başa salsın ki, pasportlardakı zaks möhürlərinin heç bir əhəmiyyəti yoxdur, Səmi günü bu gün gedib təzə, möhürsüz pasportlar alıb köhnələri öz əli ilə cırıb atar? Bəlkə gözləyirdi ki, o mahir, "beyni dolu" qadın özü onu – Səmini söhbətə çağırar və Səmi dünyanı çaxnaşdıranı ifşa edər? Yox, bunların heç biri deyildi. Səmi, sadəcə, yenidən kütləşmişdi. Beynində, uğultu içində sözlər vardı: "Dərk elədinmi?! Dərk elədinmi, ey silah, zor əsiri?!" Əbədiyyətdə də bədbəxt Səməd idi danışan, əmma Səmi bu Ünü də özünün sarsıntısı zənn edirdi.

Cığa mama çardağın altından çıxıb, bacılığı ilə yanaşı, ona doğru gələndə Səmi bunu da başa düşmədi. Yalnız darvazadan çıxıb Orta yolla üzüaşağı mülkə doğru gedəndə birdən ayılıb, nə baş verdiyini dərk etdi. Bütün Qonaqlı onu ən əxlaqsız adam kimi tanımışdı?! İndi Cığa mama ilə Gül xalanın arasında rahatca getdiyinə tamaşa edənlər isə onu pozğunluqdan əlavə, öz kəndinin camaatını saymayan qudurğan, murdar məxluq kimi tanıyırdı?! Əli elə bil öz-özünə qalxıb naqanı qoburdan çıxarıb, gicgahına qaldırıb tətiyi çəkdi. Lakin eyni anda oraya-gicgaha ikinci əl uzandı; Gülgəz vahiməli qışqırtı ilə, hər iki əli ilə tapançanı qamarladığına görə güllə gicgaha yox, Səminin boğazının sol tərəfini deşib, arxadan – çıxdığı yerdən boynunu dağıtdı. Səmi oyan-bu yana səndələyib, ayaq üstə bir xeyli ləngərlənib, ətrafında yolu qana boyaya-boyaya, qadınlardan bir neçə addım kənarda arxası üstə sərildi.

Gülbəniz dayandığı yerdəcə qalıb tir-tir əsirdi.

Gülgəz isə:

– Vaay! Ay camaat, kömək! Köməəək! – qışqıra-qışqıra, Səminin böyründə dizləri üstə düşüb, yaralı ovuclarını yaralı dizlərinə, üzünə, başına döyəcləyirdi. Huşsuz Səmi heç nə görmürdü, heç nə eşitmirdi.

Orta yol arvad-uşaqla, qocalarla, qarılarla dolduğu vaxt, vurnuxma-çaxnaşma arasında bir nəfər dirsəkləri ilə camaatı oyan-

bu yana itələyə-itələyə yüyürüb Səminin o biri tərəfində diz çökdü. Mark idi.

– Kakaya beda! Kakaya beda! – deyə-deyə qara, xırda çamadanını açıb eşələdi. Sonra Gülgəzin başından kəlağayısını çəkib, iki qatlayıb, ehtiyatla Səminin başının altında, boynunun arxasında yerə sərdi. Ovcundakı “medisinskiy paket”ləri cırıb, dərmənli tənzifləri arxadan və öndən yaranın üstünə qoyub, pambığı ovuclarında dağıdıb, yaymalayıb, iri, enli tənzif topasını axıra qədər Səminin boğazına, boynuna doladı. Tər içində işləyə-işləyə, arada: – Xərək! Xərək! Nasilka, nasilka! Qapım açıqdı, xərək gətirin! – deyirdi. Və bir az sonra xərək artıq orada idi, Səmi də xərəyin üstündə... “Medpunkt”a yox, yaralını Mark nədənsə Əmirli mülkünə apartdırdı. Orada, bir vaxt olduğu kimi, döşəməyə təmiz mələfə sərdirdi, – Bissimillah! Bissimillah! – deyə-deyə sarğını açıb, güllənin girdiyi və çıxdığı yerləri son dərəcə ustublu hərəkətlərlə təmizləyib bir daha “paket tənzifləri və pambıq qoyub sarıdı. Sonra Səmini dörd nəfər kişi – Mark, Təftiş, Zal və Sayılov, bu dəfə hamısı: – Bissimillah! – deyə-deyə qaldırıb taxtda döşəyin üstünə uzatdılar. – Gülbəniz yastıq gətirəndə Mark iri, abı gözlərini geniş açıb, yasdığı açıq qəzəblə kənara atdı: – İndi hamı çıxsın! Hamı! Üçünüzdən başqa, – deyib, Təftişə, Zala, Sayılova işarə etdi.

Başdan-ayağa qana batmış paltarı soyundurub, təzə alt paltarı geyindirdilər. Bu vaxt heç kəs diqqət yetirmirdi ki, taxtın böyründə, kişilərin arxasında balaca bir kişi də dayanmışdı, səssiz-səmirsiz, gözlərindən iri-iri damlalar axırdı, boğula-boğula:

– Sənə qurban olum, a Səm-səmi!..Sənə qurban olum, a Səm-səmi! – deyirdi.

Şüuru qayıdanda, Səminin eşitdiyi bu sözlər oldu. Gözlərini aça bilmirdi. Boynunun, başının bütün fəqərə sütununun ağrısının şiddətindən heç inildəyə də bilmədiyi halda dillənib:

– Hardasan? Yaxın gəl, Midi, – dedi və uşağın üzünü üzündə hiss edəndə, hətta əllərini qaldırıb, onu bağrına basdı. – Mən pisəm... çox pisəm... Midisi olan adam da özünü vurarmı, balaca balam? Mən...mən...mən... sənə qurban olum! – dedi. – Qorxma! Mark əmi sağaldacaq məni! Elə deyilmi, Mark əmisi?

Kişilərdən tək birindən – Sayılovdan başqa hamısı gözlərini silirdi.

Mark astadan:

– Bakıya zəng vurduq, Məhərrəmovu çağırdıq, xirurq gətirsin, – dedi. – Mən bilirsən, xirurq deyiləm, Səmi. Boğazında damarlar zədələnib. Boynunda sümüyün birinin ucu qırılıb. Əmbə qorxma. Heç, heç qorxma, doroqoy! Tı silnıy! Na... vpred bud umnıy. Za takoy postupok, znayeş kak karayut Boqi?! Ağrıkəsici vurmuşam. Dünən gecə heç yatmamışam. Snotvornı da vurdum. Yatacaqsan... Lap, lap rahat olacaqsan.

Qapı səmtindən Gülbənizin səsi eşidildi:

– Acdı, doktor. Dünəndən acdı. Nə bişirmək olar?

Kişilərin gözləri bir-birinin üzərində gəzdi.

Sayılov ağır-ağır Gülbənizə doğru getdi:

– Heç nə... Sən heç nə bişirməyəcəksən, – dedi. – Get burdan! Qancıq! – hətta itələdi də.

Gülbənizin sifətinin rəngi hələ də düzəlməmişdi. O ağır kəlməni eşidəndə birdən-birə lap ağardı. Pıçıltı ilə:

– Saakit, Pələş, – dedi, – o özü-özünü vurdu. Belə olmalıydı əvvəl-axır. Səni mən öz əlimnən göndərərəm cəhənnəmə! Bu bir... Məhərrəmov maraqlanacaq bu işnən. Yaxşı-yaxşı tapşır bu yan-yörədəkilərə, özün də yaddan çıxartma: Məhərrəmov heç nə bilməməlidi! Bu işin təfsilatı açılsa, bilirsənmi nə olar? Nəinki səni, Məhərrəminizin özünü də sağ qoymazlar. Çünki dövlətnən bağlıdı bu hadisələrin hamısı, Pələş! Sizin dövlətnən yox, bizimkinnən!.. Susma! Cavab ver!

Sayılovun da rəngi dəyişmişdi.

– Məhz dövlətlə bağlı olduğuna görə hər şey açılmalıdı, Gülüm! Hər şey! Get dedim!

Gülbəniz getdi. Əmma qapını arxasınca çəkəndə bir kəlmə də dedi:

– Öləcəksən!

Sayılov hiss edirdi ki, növbəti bəla, doğrudan da, onun başında çatlayacaq. Odur ki, qəti qərar kimi səslənən "Öləcəksən!" kəlməsini cavabsız qoya bilməyib eşiyə cumdu:

– Bəs, sən əbədimi olacaqsan, a qəhbə! Eşitməmisənmi, səksən, doxsan, bir də yoxsan! Toxunmuyacam, içini yeyə-yeyə öz əcəlinlə çürü!

Gülbənizdən cavab çıxmadı.

## 15

Səksən səkkizinci ilin son günlərindən birində, Səməd Əmirli ilə Mədəd Əmirlinin bir qəbirdə yanaşı dəfnindən sonra Ələsgər müəllim – Dam direktor Orta yolun ortasındaca yıxılıb ürək partlamasından ölmüşdü. O vaxtdan Qonaqlının "köhnə həkimi" Sestra əslində də elə "sestra" – şəfqət bacısı olduğuna görə, yaşının səksəni ötdüyünə, belinin əməlli-başlı əyildiyinə baxmayaraq, hələ də işdən çıxmayıb, "uşaqları" – yaşa dolmuş həkim oğlu ilə həkim qızı Bakıya məskunlaşdığına görə, özünün dediyi kimi "damın altında tək qalıb, qapını bağlayıb, medpunktda ölümünü gözləyirdi!" Lazım gələndə, əlbəttə, "sestralığını əla eləyir, Mark Revazoviçə əl-ayaq verirdi".

Gecənin bir aləmində Səmi ağrıdan inildəyə-inildəyə gözlərini açıb: "Su, su!" – deyəndə Sestra taxtın böyründə, kreslodan qalxıb, artırmadan dəmir dolça dolusu su gətirdi və heç bir söz-söhbətə ehtiyac olmadığı halda:

– Qanaxmanı kəsəmmirik, fəqərə sütunun da zədələnib. Belə yaraynan yaşamaq olmaz, – dedi.

Səmi belə rəhmsizlikdən, qəddarlıqdan heç təəccüblənməyib, hətta ağrı içində gülümsündü. Üzgün səslə:

– Nə dəhşətli kinli qarısan, a qarı! – dedi. – Atam ölən gecə... o vaxt Mədəd əmim səni "millətçi", "materialbaz" adlandırdı.

Sestranın qırışıq dodaqları bir az da qırışmışdı, – büzülüb açılırdı:

– Mən sənə sözün düzünü deyirəm, yaşamıyacaqsan. Sağkən bu uşağa bir gün ağla. Yetimdi, yazıqdı... Cığa maması xəstə, Gül maması bir ayrı cür xəstə, Əlləzoğluynan Hənifə arvad da ki, ərizə yazıblar Allaha, o dünyada yer alsınlar! Qızılınızın yerini de, uşağı özüm saxlayım.

Midinin gözləri açıq idi, Səminin böyründə uzanıb qarıya baxırdı. Səmi əlindəki dolçanı yerə atdı.

– Kəs səsini!.. Zəmanəniz dağılsın. Bu yaşda qızıl deyirsən! Sənin qulluğun lazım deyil mənə! Çıx burdan! – dedi.

Əmma sestra kreslodan tərpənmədi.

– Ələsgər müəllim dərs deyib sənə. Heç olmasa onun ruhuna hörmət elə! Demə, bu söhbəti dinləyənlər varmış: General Məhərrəmov – AdıPünhan, özü ilə gətirdiyi cərrah və şofer.

Birinci dəfə idi ki, Səmi onu – “Məhər əmi”ni boz, göyümtül kəstum, boz-göyümtül şlyapa əvəzində Dövlət Təlükəsizlik Komitəsinin generalı libasında görürdü. Əmma... Bir il bundan əvvəl Səmi ilə “pıçapıç eləyib” gedən o qeyri-adi uca boylu, dolu sifətli, gur saçlı “Məhər əmi” nə vaxt, necə yoxa çıxmışdı?! Yalnız gözlərinin azacıq süzgün baxışı ilə uzun, bozumtul kipriklərindən AdıPünhana oxşayan, qocalıqdan, arıqlıqdan çənəsinin sağ-solundan, buxağından dəri sallanan, üzgün, kədərli bir qoca general yorğun-yorğun, səssiz addımlarla yaxınlaşıb taxtın böyründə dayandı. Əlini Səminin sinəsində üst-üstə duran isti əllərinin üstə qoyub, qalın sarıqlı boynuna, üzünə, sonra Midiyə baxdı, əyilib dodaqlarını uşağın yanaqlarına söykədi. Pencəyinin sağ cibindən böyrü açarlı, oyuncaq maşın, sol cibindən iri şokalad plitkası çıxartdı.

– Açarını buranda maşın özü gedir, divara-zada rast gələndə geri qayıdır, yenə özü gedir. Qalx, bur açarı, bax gör necə gedir-gəlir. Bu həkim əmin də Səminin yarasına baxsın. – AdıPünhanın hətta səsi də dəyişmişdi; elə qəribə səsdi ki, elə bil qocanın köksündə kimsə sızıldaya-sızıldaya ağlayırdı.

Səmi nə isə demək, bu gəlişə görə təşəkkür eləmək istədi. Əmma bayaq sestra ilə danışanda boğazına nə isə olmuşdu – səsi çıxmırdı.

Şofer, deyəsən, həm də “teloxranitel” idi. Səminin, necə deyərlər, professional gözləri bircə ötəri baxışla gördü ki, şoferin başı qırxıqdı. Bığsız, saqqalsız uzun sifəti ölüm-dirimlə əlləşən adamlar kimi, tamam ifadəsiz idi; içəriyə-pəncərələrə, taxtın yanındakı Kalaşnikova ötəri göz gəzdirib eşiyə çıxdı.

AdıPünhanın səsi yenidən eşidildi. Sestraya deyirdi:

– Sən daha zəhmət çəkmə. Gedə bilərsən. Mark Revazoviç özü assistentlik eləyəcək.

Cərrah isə artıq öz işində idi; köhnə, təzə qandan islanıb qaralı-qırmızılı olub bərkimiş, tənzifi xırdaca qayçı ilə tez-tez kəsə-kəsə doğrayıb, taxtdan bir az aralı qoyulmuş ləyənə atdı, kvadrat şəklində qırmızı xaçlı, ağ iri dəmir qabdan dümağ parça çıxarıb stolun küncünə sərdi, müxtəlif biçimli dərmən şüşələrini, tənzif, pambıq topalarını qat-qarışıq, tələsə-tələsə o ağ parçanın üstünə yığdı.

– Bir az əziyyət verəcəm, – deyib hər iki əlini Səminin başının altına saldı, əyilib boynuna, güllənin çıxdığı dağılmış yerə baxdı.

– Özünüz böyrü üstə çevrilin. Yavaş-yavaş. Lap yavaş!

Midi, Məhər əminin arxasında, bir əlində maşını, o biri əlində şokaladı, quruyub, Səminin alt dodağını dişləri arasında sıxıb necə inildəyə-inildəyə, yavaş-yavaş böyrü üstə çevrildiyinə baxırdı.

Sestranın əli uşağın qolunda idi.

– Gəl... gəl bizə gedək. Sabah gələrik. Sabah-Səmi sağalanda, gələrik, – deyirdi.

Məhər əmi qarının qolunu onun qolundan kənara itələdi:

– Midi kişi biznən Bakıya gedəcək. Səmi əmisiynən, həkim əmiylə bir yerdə, Bakıya. Orda Midi balanın topu, tüfəngi var, özləri yeriyən, müharibə eləyən əsgərləri var.

Midinin gözlərində lap cüzi də olsa, maraq göründü və o anda da yox oldu. Çünki həkim əmi əlindəki uzun, qayçıtəhər ağ dəmirlə Səminin boynuna nə isə eləməyə başlayanda Səminin köksü qalxıb-enib, daha tərpənmədi, gözləri örtüldü.

Həkim əmi rusca nə isə deyirdi, Məhər əmi isə ağır-ağır başını bulayırdı. Sonra cibindən balaca, qutuvari bir şey çıxarıb, qulağına tutub, o da rusca nə isə dedi. Şofer içəri gəldi, həkim əminin verdiyi bükülü kağızı cırıb, ordan "Salfetka"ya oxşayan sarı kağız çıxarıb ovuclarına, barmaqlarına sürtüb ləyənə atdı.

Bir az sonra Mark əmi də içəridə idi. Yazıq uşaq bilmirdi və heç vaxt bilməyəcəkdi ki, Səminin boynunda damar qırılmışdı, buna görə də həkim əmi, Mark əmi və şofer əmi Səmiyə "narkoz" vermişdilər, ürəyini aparatla işlədə-işlədə, həmin damarı tikirdilər ki, qanaxma kəsilsin.

Midi eyniylə Sudüşən uşaqlarının ortalığında təpiklə, yumruqla, dümsüklə döyülə-döyülə, hərəkətsiz dayanıb səssizcə ağladığı kimi ağlaya-ağlaya, tez-tez ləyənə atılan qanlı tənzif qırıqlarına baxırdı. Bir saat keçdi, iki saatmı Midi, bunu da bilmədi. Əmilər Səmini qucaqlarında aparıb Məhər əminin maşınında rahatlayanda bunu da bilmədi, Məhər əminin dizinin üstündə oturub, sinəsinə söykənib, yolu işıqlandıran uzun işıq altında qaralan asfalta baxa-baxa nə vaxt yuxuya getdiyini də bilmədi. Səhər tezdən şofer əminin qucağında, enli daş pillələrlə qalxıb, haradasa çarpayıya uzadıldığını da, Səminin "narkoz"dan ayılıb, Midi kişini qonşu kravatda ağzı açıq yatdığını görüb necə kükrək sevinclə gülə-gülə: – Qurbanın olum, a kişi! – deyib, gülüş içində ağladığını da bilmədi. Səmi isə yalnız günortaya yaxın ikinci dəfə yuxudan oyanıb, kravatın yanında, ağ tabüretdə oturan on səkkiz-iyirmi yaşlarında

şəfqət bacısının qeyri-adi dərəcədə iri, ala gözlərinə baxıb, Kamandarın oxuduğu "alma gözlü, qız birçəkli Qırat, gəl" sətrini xatırlayıb, bu sözləri dilinə gətirib qızı güldürəndən sonra bildi ki, Respublika Klinik Xəstəxanasında, üçüncü mərtəbədə, AdıPünhanın xahişi ilə verilmiş "xüsusi palata"dadır. Nə üçün xüsusi? "Ala gözlü, qız birçəkli Qırat" birdən ciddiləşib:

– Sizə danışmaq olmaz! – dedi və nədənsə, diksinib, dik atıldı.

Qoltuq ağaclarına söykənmiş, ordları çökəlmiş Xəlvət Rəhim, parıltılı dəri pencək geyinmiş Gül xala və o vaxtkı Daxili İşlər Nazirliyi – balacaboy, yumrusifət, sarışın general kandarından bir az bəridə yan-yana dayanıb ona – Səmiyə baxırdılar.

Xəlvət başının hərəkətiylə qapıya işarə edib şəfqət bacısına:

– Çıx, – dedi.

Sonra qoltuq ağaclarını tıqqıldada-tıqqıldada yaxınlaşıb güldü.

– Xoş gəlmisən, – dedi və bir az sükutla dayanıb, gözlərilə generalı göstərdi. – Sən təki itin yanına gəlməz bu. Mənim yanıma gəlib. Bu belə... İkincisi, yaran sağalandan sonra hara gedəcəksən, bilirsənmi?!

Səminin əli taburetə uzandı. Əgər eyni anda kandardan başqa bir səs də eşidilməsəydi, yarasının tikişinin partlaması hesabına olsa belə, Səmi tabüreti qaldırıb Düşməninin üzünə çırpacaqdı; o "başqa bir səs" AdıPünhanın səsi idi:

– Lap tezliklə məlum olar kim hara getməlidi!

Nazir sərt, əsəbi hərəkətlə geri dönüb, çəkmələrinin dabanları ilə döşəməni döyəcləyə-döyəcləyə uzaqlaşdı. Burada demək lazımdır ki, adın demədiyimiz o nazir, özü ilə birlikdə Rəhim Qudalının və Gülbəniz Xalıq qızının da, deyildiyi kimi "lap tezliklə" hara göndəriləcəyini artıq bilirdi. Geniş, boş dəhlizə gedə-gedə, həmişə səmimi hörmətlə "Məhərrəm Abbasoviç" çağırdığı, son illərdə isə "Məhərrəm bəy" dediyi həmkarına söz çatdırırdı:

– Yəni sizə də məlum deyilmi ki, bu parta-partların dalında duranlar kimlərdi?! Eşşəyə gücünüz çatmır, palanı tapdayırsınız?!

"Partapart" ifadəsi Səmiyə ötən illəri və dünənki, srağagünki günlərini xatırlatdı. Özündən asılı olmayaraq:

– Yazıq Ninnini!.. Yazıq qardaşım! – deyib, ağrı içində üzünü divara çevirdi.

Səmini Bakıya kimin necə apardığını Təftişlə Zaldan, Markdan, Sayılovdan, Sestradan başqa kənddə çox adam bilsə də, bircə gün

sonra “Müsavat” qəzetinin rayon “dublikat”ı “Sudüşən müsibəti” başlığı altında hadisələri bütün rayona yaydığına görə, “Məhərrəm Abbasoviçin şəxsi himayəsi altında” olan sözlərini o məqalədən oxuyanların Bakıya – Respublika Klinik Xəstəxanasına axını başlandı; Səminin əmrlərinə müəmma ilə gülüşən, heç cür itaət etməyən polis nəfərləri, rayonun idarə başçıları, vaxtilə Sultan Əmirlinin “çesuyçalılar” adlandırdığı məmurlardan sağ qalanlar, hətta Əlləzoğlu ilə Hənifə qarı da “Çamadanlarla” gəlib, getdilər. “Alma gözlü, qız birçəkli Qırat” hər səhər Səminin yastığını dəyişəndə oradan – yastığın altından “paçka-paçka rubl, dollar” tapırdı, Səmi pulu havaya sovuranda isə, dinməz-söyləməz yığışdırıb, “tumboçka”ya qoyurdu.

– İstəməyirsiniz istəməyin... İstəyən tapılar, – deyib, gülüb “gülüşüynən də can alırdı”. – Odu, bax, ona xərcləyəcəm mən bunun hamısını, – deyib, baraban çala-çala qabaq-qarşı hücuma keçən, çaxmaqları açılanda lülələrindən tüstü çıxan “topxana”sının aralarında, döşəmədə o yan-bu yana iməkləyən Midini göstərirdi. Və doğrudan da hər gün “xərcləyib” palatanı oyuncaqla doldururdu.

Beləcə, bir-birinə bənzəyən günlər keçdikcə Səminin ağrıları azalırdı və Midi kimi, o özü də oyuncaqlarının aralarında uşaq kimi o yan-bu yana iməkləyə-iməkləyə, xəstəxanadan çıxıb, hər qarış torpağına, daşına qədər doğma Qonaqlıya qayıdacağı günü gözləyirdi. Lakin... “Sən saydığını say, görək fələk nə sayır”.

Tamam sağaldığını zənn edəndə cərrah Səmiyə dedi:

– İkinci operasiyaya hazırlaşın. Bəlkə hələ üçüncüsü də olacaq. Arterial damarların ətraflarında kapilyarlar işləməsə bütün ömrünüz boyu əziyyət çəkərsiniz. Necə deyərlər, kapitalnıy remontdan sonra buraxarıq sizi, inşallah!

Səmi özünə bir daha “fələk saydığını saysın” – dedi. “Fələk” isə bir-birinin eyni olan operasiya işgəncələrindən sonra yenə güllə səsləri verdi. “Alma gözlü, qız birçəkli Qırat” – Sürəyya boyunun ucalığında dağınıq saçları yellənə-yellənə, ağır budlarının ağırlığı altında döşəməni titrədə-titrədə içəri yüyürüb:

– Üsyandı, qiyamdı, Səmi! OMON-lardı! Hakimiyyəti ələ almaq istəyirlər! – dedi. Və Səmi cərrahının izn vermədiyinə baxmayaraq, döşəmədən, oyuncaqların arasından çıxıb paltarını geyindi. Əmma qarşısında elə bir “dağ” peyda oldu ki, istər-istəməz dayanmalı oldu. O “dağ” Səməd idi, palatanın pəncərəsindən o yanda, qaranlıq şəhərin üzərində – fəzada dayanıb, həmişəki əzablı səslə qışqırırdı:

– Sən ora getməyəcəksən! Sən ora getməyəcəksən! Deyilib, axı, sənin yolun Elm yoludu! Sənin Yolun elm yoludu!

Eyni sözləri AdıPünhanın şoferi də təkrar etdi; gülləbaran ara verəndən sonra gözlənilmədən kandarda peyda olub, balkon qapısını açıb küçəni göstərdi.

– Gəlin baxın, – dedi.

Nədənsə işıqları zəifləmiş enli küçədən üzüaşağı – şəhərin mərkəzinə doğru, kişili-qadınlı, nəhəng izdiham axışırdı. Şoferin daş üzündə möcüzəli, məlahətli təbəssüm vardı:

– Budu bax, Prezident Heydər bəy AtaTürk! Bax! Bax! Əhali onun çağırışına gedir! Sizin güllənizə ehtiyac yoxdu, müəllim!

Doxsanıncı ilin yayında, Ali Sovet binasının meydanında Xəlil Rza Ulutürk Heydər bəyə Atatürk adı verildiyini elan eləyəndə mən camaatın arxasında OMON-çulara göz qoyurdum. Demə, tanıyırmışlar məni. Yığışdılar, aldılar dörd yanımı: "Bu nə Atatürkdü belə? Hardan çıxdı bu ad?!" "Bir Atatürkü var millətin, o da Mustafa Kamaldı..." Qısası, dedim, gedək Xəlil Rzadan soruşaq. Getdik. Xəlil Rza baxdı, baxdı, dedi: "Başa düşmürəm, AXC-nin döyüşçüləri niyə sevinmirlər ki, yetmişinci ilnən səksəninci illər arasında Azərbaycanı cənnətə döndərən rəhbərə Atatürk rütbəsi verib bu xalq! Mən, sadəcə, elan etdim!" Dedilər: "Rütbə nədi?! Rütbədimi Atatürk?!" Xəlil yenə baxdı, baxdı, sonra birdən tapança kimi açıldı: "Qrek fatehliyi zamanında QayımAtası olub bu xalqın, Afinada qiyam qaldırıb, qulları azad eləyib!On ikinci əsrdə Atabəy Şəmsəddin olub Naxçıvanda, Azərbaycannan ƏrAğ – İraqnan yanaşı bütün Səlcuq səltənətini idarə eləyib! Atabəy Məhəmməd Cahan Pəhləvanı olub bu xalqın! Atabəy Qızıl Arslanı olub! Atabəy Körpə Arslanı olub! Atabəy Nüsrətəddini olub! Bəli, rütbədi, ən ali rütbədi Atatürk!" Öldülər əldəqayırma Bəylər. Bu gecə son nəfəsləri idi. Hünərləri var güllə atsınlar bu milyonlar izdihamına! Qorboçovun vaxtındakı xalq deyil daha bu xalq, əliyalın ayaqlayar OMON-u, Boz qurdu!..

Dil açmışdı qaradinməz şofer. Danışdıqca danışdı. Səmi isə axırı görünməyən izdihama baxa-baxa eyni zamanda atasını da görürdü. Və hələ bilmirdi və hələ də bilməzdi ki, iyirmi milyard kilometr məsafədən – OdAğÜz BağOdƏrdən göndərilən o əziz İşıq İnsan onun ən uca ləyaqət saydığı qabiliyyətini, iradəsini almağa gəlmişdi ki, Səmi atışma olan yerə gedə bilməsin.

## 16

Sakitləşdirici həb – “snotvornı” verib yatırdılar. Səhərisi də, o birisi gün də xəstəxanadan buraxmadılar. Nəhayət, qapının arasından içəriyə vıyıltı salan küləkli bir axşamüstü Surəyya təzə “dəyişik” – alt paltarı və təzə açılmış “Osmanlı mağazası”ndan özünün seçdiyi boz-göyümtül kostyum, qara dəri kepka və qara dərili palto gətirdi. Səmi “dəyişəyi”ni dəyişdi, kostyumu geyindi. Paltarın “razmer”inin, “rostu”nun necə “düppədüz” gəldiyinə heyrətlənə-heyrətlənə:

– Razmerimi-zadı hardan bildin, ay qız? – dedi.

Sürəyya dəyirmi, böyük stolun üstünə “zavtrak” düzürdü, çay süzürdü və müəmma ilə gülümsəyə-gülümsəyə dillənmirdi.

Dörd nəfər – Səmi, Midi, Sürəyya və şofer stolun arxasında əyləşib yeməyə-içməyə başladılar.

Səminin gözü şoferdə idi.

Şofer fikirli idi.

– Məhər əminiz bir az xəstədi. Son vaxtlar yaman düşüb kişi. Bu çaxnaşmalar çox pis təsir elədi. OMON-ların komandiri o gecə gəldi prezidentə söz verdi ki, döyüş olmuyacaq, bizim qvardiyaya lap cüzi müqavimət də göstərmiyəcək. Çıxdı getdi Razin qəsəbəsinə, öz qərargahına. Orda yoldaşları çox sıxışdırıblar, hədələyiblər ki, xarici himayədarlarına söz veriblər, çevriliş eləməlidirlər, Heydərin hakmiyyətini devirib, bizim neftə sahib olmaq üçün içərimizə milyard axıdanların istədikləri adamı hakimiyyətə gətirməlidilər. Qısası, çox pis döyüş oldu. Öz yoldaşları vurdular OMON-un komandirini. Sən tanımırsan onu. Qarabağın erməniyə verilməsində azı bircə milyon əhalimizin deportasiyasında iştirak eləmişdi xaricin təkidi altında. Qısası, canı qurtardı dünyanın əzabından. OMON-ların bir qismi qırıldı o döyüşdə. Qalanları qaçdılar-dağıldılar. Boz qurdların başçılarından da xeyli adam qaçdı xaricə. Bilirsənmi, sərhəd açıqdı hələ. Prezidentimizin Milli Qvardiyasından başqa ordumuz çox dağınıqdı, demək olar ki, yoxdu. Məhərrəm Abbasoviç tapşırdı belə məruzə eləyim sizə: “Səmi də Muğannalardandı, – deyir, – əmma vəziyyət belə gətirdi, polisə getdi. Fikri belədi ki, polislə vidalaşmalısınız daha. Yeddi yüz əlli cildlik “Vərəsə” kitbxanasından qalan materialın əsasında, bir neçə çox vacib problemlər ətrafında tədqiqat işi aparmalısınız. Türkiyədə bir böyük vəzifəli adamla müqavilə bağlayıb Məhərrəm Abbassoviç, tədqiqat işlərinizi mütəmadi çap

eləyəcəklər. Bu da beləmi? İndi buyurun, bu da sizin birinci dərəcəli əlil pensiyanız. – Stolun üstünə kitabça və pul qoydu. – Görməmisiniz bu pulu. Özümüz buraxmışıq. Əmma açığı və qisası, Müsavatçılarnan gizlin konflikt gedir aramızda. Bax, bu min manatlığın üstündəki şəkil sizin yaxşı tanıdığınız həmin o Məmməd Əmin Rəsulzadənin şəklidi. Müsavatçılar pul vahidi kimi "bir Məmməd" adlandırırlar. Rəsulzadəni xalqın şüuruna yeritmək üçün hətta puldan da istifadə eləyirlər: bir min əvəzinə: "bir Məmməd, iki Məmməd..." Bu on minliyin adını da "Şirvan" qoyublar: "Bir Şirvan, iki Şirvan..." Niyə? Sadəcə olaraq, hələ də Azərbaycanı parçalamaq, Şirvanı tamam ayırıb nefti tamam öz əllərində saxlamaq istəyirlər. Boz qurdlardan hələ dağılışmayanlar hələ ciddi-cəhdlə kömək eləyirlər Müsavata. Hələ də kolxozu-sovxozu saxlayırlar orda-burda. Hələ də Sovet arientasiyasındadırlar. Türkiyədə Sovet orientasiyasında olanlar da gizlin kömək göstərirlər Müsavata, Boz qurdların içərimizdə qalanlarını... Nə deyim, qısası, Məhərrəm Abbasoviçin əsəbləri dözmür daha. Mərdəkandan o yanda, dənizin lap kənarında ev tikdirmişik, ailəliklə ora köçüblər. O biri şoferlər ailəni korluq çəkməyə qoymurlar. Mən, qısası, sizə təhkim olundum. Hər sahədə kömək eləməliyəm sizə. Tədqiqat işində də...

– Tədqiqatda da?!

Şoferin üzü həmin təbəssümlə işıqlandı:

– Mən də Muğlardanam axı. Atam-anam Türkiyədədirlər. Diyarbəkirdə.

Sürəyya da gülümsəyirdi.

– Deyir, BağOdƏrdənəm. BağOdƏr SimÜn – "Simon"un yerlisidi.

Səminin boynu sola doğru bir az əyri qalmışdı. Sol əlini gicgahına dirək qoyub, gözucu Sürəyyaya, sonra şoferə baxdı.

– Bu qədər əziyyətmi çəkirsiniz... Sürəyyaya bir müddət "alma gözlü Qırat" dedim. Nədənsə, utanırdım adını soruşmağa. Özü dedi: "Sürəyyadı adım, Sürəyya yox, Surəyya. OdƏrcə – SarEy – "uca hökmdar". Mən bəlkə də heç bu qədər sevinməmişdim ömrümdə. "Surəyya... SarEy"... Ağladım ey!.. Sonra soruşdu ki, "de görüm, Məhərrəm Abbasoviçə niyə AdıPünhan deyirik?" Dedim: "bilmirəm". Dedi: "Təhrif adı – türkcəsi "Məhər"di, pünhan adı – OdƏrcəsi BağƏrdi..." Bu vaxta qədər sənin adını da bilmirəm. Gör nə qədər keçib! Adam niyə utanantəhər olur ad soruşanda, bilmirəm.

Şofer barmağı ilə göyü göstərdi.

– Hər şeyin sirri orda deyilmi, Səmi müəllim? Məncə, biz ad soruşanda OdAğÜzdəkilər nə isə deyirlər bizə. Adı elə deyil, belədi deyirlər, nədi, hər halda utandırırlar bizi. Mənim adımın təhrifi "İhsan"dı, OdƏrcəsi ƏsÜn.

Səmi çənəsində çırpıntı hiss etdi: "İhsan" – ƏsÜn! Qardaşımsan!.. "Həsən"də ƏsÜndü, "Hüseyn" də ƏsÜndü. Qreklər düz deyiblər də: "anlaşılmaz Midiya dili".

Şofer dedi:

– Məhərrəm Abbasovçin təxmininə görə, ulu Bağ qreklərin təzyiqi altında olandan ƏrAğa-"İraqa" köçəndən sonra SimOdun qərarını çıxardıb ki, Yerdə sırf yaradıcı dildə – OdƏrcə danışmaq olmaz. OdƏrlərin hamısı yaradıcı deyillər, tərik OdƏrlərdi. Uşaqlıqda Diyarbəkirdə nənəmə hamımız OdSan deyirdik. Babamın acığı tuturdu, deyirdi: "OdSan deməyin, KiSandı nənəyin Yer adı". Süräyya xanımımız da hirslənir: "Hardan SarEy oldum mən?! Süräyya de!" Qorxur də. Əslində qorxu bilməməliyik biz. Əmma qorxu alıb canımızı... Bir dəfə Mərdəkandakı evdə qələt elədim, çox pis içdim mən, Süräyya xanıma "SaEy" dedim, Məhərrəm Abbasoviç elə sillə çəkdi üzümə ki, sızıltısı indi də yadımdadı.

Səmi ürəyinin çırpıntısını sakitləşdirə bilmirdi: heyrətli dərəcədə doğma, ailəvi münasibət yaranmışdı. Yəqin ki, elə buna görə də soruşdu ki:

– Evlisənmi?

İhsan dedi:

– Evlənməyə namizəd ola bilərdim. Ola bilmədim.

– Niyə?

İhsan Süräyyanı göstərir.

– Səbəbkarı, bax, bu qadındı. Siz bu palataya gətirilən günün səhərisi dedim: "İcazə ver, səni evinizə qədər ötürüm". Açıqca dedi: "Səmi Əmirlini görməsəydim, ötürməyə də icazə verərdim, evlənməyə də. İncimə, yaralımıza bir baxışdan vurulmuşam".

Səmini tər basdı. Özünü zorlayıb, süni gülüşlə:

– Elə şey olmaz, – dedi, "alma gözlər"in baxışını üzündə hiss etdi.

– Niyə olmaz?! – Süräyya sərt baxırdı. – Mən həqiqətən sevirəm səni, Səmi!

Səmi əlləriylə başını qamarladı.

– Ehtiyatlı ol, ay qız, ürəyim partlayar! – Əlini yaylığına atıb, üzünü sildi. – Xoşbəxtlikdən... ürəyim partlayar, inan!

Surəyyanın də rəngi allanmışdı:
– Elə isə, Midiyə de məni öpsün!
Səmi qışqıra-qışqıra:
– A kişi, qucaqla onu, öp onu, – dedi. Sonra isə: – Özümə nə olub ki, Midiyə deyirəm, – dedi və Surəyyanın başını özünə doğru əyib sarı, sərin, ətirli saçlarını öpdü.
İhsanın qalın biçimli dodaqlarında tərəddüdlü təbəssümündən titrəyiş hiss olunurdu.
– Mən bir şərtlə xeyir-dua verirəm bu ilahi sevgiyə. Ən yaxın rəfiqələriyin, ən yaxın qohumlarıyın arasından mənə də bir "alma gözlü, qız birçəkli Qırat" tapmalısan... Siz... siz çox-çox gözəl-gözəl sözlər eşitməyə layiqsiniz bu dəqiqə. Əmma qısa deyirəm: xoşbəxt olun! Ömrünüz uzandıqca uzansın! Bu partapartlar dünyasında zaval görməyin!.. İndi hazırlaşın gedək, Məhərrəm Abbasoviçin tapşırıqları var. Onun köhnə mənzilində heç kəs qalmır daha. Ancaq Muğannalardan kim isə "Vərəsə"ni oxumağa gələn olanda mənə zəng vurur, açarı verirəm, özüm də keşiyində dayanıram. Midi kişiynən sizə verilir indi o mənzil. Nəhəng bir şeydi. Ortada nəhəng zal! Sağda nəhəng kitabxana! Solda nəhəng yataq otağı! Nəhəng foyesi, nəhəng hamamı, mətbəxi!.. Nizami kinoteatrı beş addımlığında! Midi kişinin məktəbi on addımlığında!.. Ayda-ildə bir dəfə Məhərrəm Abbasoviçin çekistləri yığışırlar ora. Qalan vaxtlarda bu ikicə nəfərin ixtiyarında olacaq.
Heyrətli dərəcədə gözlənilməz bir sual eşidildi:
– Bəs, üçüncünü niyə saymırsan, İhsan?! Məni, bax, məni!
Və gözlənilməz də sükut çökdü.
İhsan ağır-ağır başını buladı.
– Ay qız, yəni elə bu gündən ərə gedirsən?!
Surəyya gülürdü:
– Sənə nə dəxli var?.. Bu kişilərin xörəyi, çörəyi, paltarı-palazı var. Günüsabah işdən çıxacam. Bildin?! Dur gedək, kömək elə mənə, yır-yığış eləyək otağımda. Midi, sən də gəl, rezin xoruzun, rezin ördəyin var, orda hoppur-hoppur qurbağan var yep-yekə. Özün gətir, yığaq çamadanlara, aparaq.
Üçü də eyni anda ayağa qalxdı, səsi-küylü, gülüşə-gülüşə getdilər.
Və həmin anda da Səməd içəridə peyda oldu.
– O kitab şkafının sağında vaxtiylə Şöşünün vərəqləyib atdığı "Sirli dastanlar"ı seç. O cildlərin bir qismini mən özüm yazmışam, bir qismini bir Pünhanımız, bir qismini də AdıPünhanımız... Kənd

üçün darıxacaqsan... Martdı indi. Qabaqdan gur yaz gəlir... Sudüşən qəsəbəsindən köçüb dağılışacaqlar. Hacıehsan çəmənini tapdalayan sürü, naxır olmuyacaq orda... Mədəd babanızın qaranquşları yuvalarına qayıdacaqlar... Niyə belə danışıram? Çünki burnumun ucu göynəyir yurdum-yuvam üçün, ay oğul. Sən mənə oxşayırsan, bilirəm, yaz açılan kimi, istiyəcəksən kəndə qaçasan. Əmma getmə! Otur o kitabxanada. Dediyim cildi diqqətlə oxu, öyrən. Sonra qaxıl stolun arxasına, yaz, ordakı dastanların hamısının lap sadə şərhini yaz rəmzləri bircə-bircə, tam aydın, tam populyar şəkildə aç. Elə aç ki, lap yeddinci, səkkizinci sinfin şagirdləri də dərk eləsinlər. Elmimizin "xalq variantları" dediyimiz sadə əsasları var o dastanlarda. Əvvəlcə onlar tədris olunmalıdır. Pünhanımızın bir əsərində lap sadə şəkildə şərh olunub: "Şahzadə Qasım". Ona toxunma. Sən qalanlarını şərh elə...

Səmi atasından başqa heç kəsi görmürdü. Bilmirdi ki, boz-qaramtul bir İşıq – Şöşü də palatada idi:

Səməd sakit danışırdı:

– Birinci başla "Dədə Qorqud"dan. "Salur Qazanın evinin yağmalanması"ndan. Niyə? Çünki xalqın tarixi məhz o dastanda dəfn olunub. Təhqirlər kitabıdı Dədə Qorqud...

Səminin ağzı açıq qaldı:

– Ata!.. Ata, sən nə danışırsan?! Salur Qazan?! Burla Xatun?! Beyrək?! Qaraca Çoban?! O biri boylar!.. Dəli Domrul təki qeyri-adi igidlik rəmzi! Necə yəni təhqir?

Səməd birdən-birə başdan-ayağa titrədi.

– Budur, bax, məhv olan xalqın məhv olan oğlu Səmi Səməd oğlu Əmirli. "Domrul" domara deməkdi! Qozbel deməkdi! Əzrayılla – əfsanəylə döyüşməyi!.. Təkcə "Yağmalanmaya" görə nə qədər işgəncə çəkirik biz?!

Səminin əli titrəyirdi.

– Ata! Bu dəstan xalqın qəlbindədi!

Səməd başını buladı:

– Sən daha vərdiş eləmisən məni Yerdə diri insan kimi görməyə. Unutma ki, mən, mən deyiləm! OdAğÜzdən sənin fikirlərinə zərrə qədər də təsir eləyə bilməyəndə, bilirsənmi nələr çəkirəm?! Təzyiqə keçəndə, bilirsənmi necə cəzalanıram?! Nəzərə al bunları, səbrlə dinlə məni!.. Kainat sakinlərini o dastanda feodal patriarxal köçərilərə çeviriblər! Ölümdü bu, Səmi!

Səmi boynunda küt ağrı hiss etdi.

Səməd inildəyirdi:

– Mənim sənə belə yaxınlığımdı səni ağrıdan, ay oğul! Mən əsəbiləşəndə SafAğ İşıq həddən artıq keçir sənin bədəninə. Belə olmamalıdı! “Ruh”lar – ƏrAğlar maksimum rəhmdil, nəzakətli olmalıdırlar. Mən sənnən sakit danışammıram. Beş-üç dəqiqə də belə keçsə, ağrı alacaq canını, mən də məcbur olacam rədd olum burdan. Dinlə! “Dədə Qorqud”u Vatikanda monaxlar yazıblar! Ağlasığmaz qədər əxlaqsız, homeseksualist monarxlar. Dəstandakı adların hamısı murdar sözlərdi!

– Murdar?!

– Bəli! Murdar! İyrənc!.. İki yüzillik antitürk dünya müharibəsinin əvvəlində yazılıb dəstan. Altı yüz dördüncü-beşinci illərdə. O vaxtkı İlan tarixçilərinin qəsdən “İrak” yazdıqları ƏrAğı Asoru “Ərəb”lərinə vermişdilər, ƏrÜz vilayətini “pars”lara vermişdilər. Ərim – “Türkiyə” ərazisindən OdƏrlərimizin hamısı tərik düşüb Şimala, indiki Türkmənistan, Qazağıstan, Özbəkistan ərazilərinə köçmüşdülər. Oralara, bilirsən, Qalam deyiblər o vaxt. Yəni xalq ŞumƏrləri ilə birlikdə orda məskunlaşmaq fikrinə düşübmüş. Həmin o vaxtlar Rimin qrek-latınları OdEvi – “Kiyev”i tutublar, oxumusan, bilirsən ki, xalqımızın o tərəflərdəki seyrək qisminə təhrif Skandinaviya dillərində qat-qarışıq “Svitka” – “Bibliya”dan dərs keçməyə başlayıblar. Həmin o homeseksual monaxlar. “Mesopotomiya” kəlməsi o dövrün məhsuludu. “Meso” Ərəbin “Məsih” sözündəndi, “potom” Qrekin “potop” sözündəndi. O vaxtlar belə işləyirdilər.

“Dədə” təzə dil açan uşaq kəlməsidi, oğul, əsli Oddandı, GurOd-“Qorkud” qrek-latın arasında olan təriklərimizin “qorkut” sözündəndi. “Qorxut!” Nəylə qorxudur “Dədə”miz? Qalam – ərazisində hayana gedir, qəbir qazana rast gəlir. Yəni “bu ərazidən kənara çıxma, ey bədbəxt Tərik – “Türk” OdƏr, hər yerdə qəbir qazılır sənə!.. “Salur” Təbriz tərəflərin o vaxtkı ləhcəsindədi, “Salır” deməkdi. Kim “salır”, nə “salır”? AğÜn əvəzində “xan”a çevrilənimiz “xan” öz “Dədə”sinə – Oduna – həqiqətinə, Elminə, xalqına qəbir qazır! Yəni OdEvƏrEyi “KiEvərEy”i “qəbir”ə-təhrif sözə salır!.. Dərk eləyirsənmi?!

Boynunu tutma! Səbrini bas! Beş-on kəlmə də deyim, rədd olum burdan... Kimdir Burla xatun! AğOdÜn – “xatun” yazılıb.

Özü də “Dədə”mizin “dili” ilə yazılıb!.. “Burla” nə deməkdi, ay yazıq bala? Pis sözdü! Dəhşətli dərəcədə pis, seksual sözdü. Bu da o vaxtkı cənub ləhcəsindədi, tərikcə danışan o monaxların sözüdü: “burla” “xatun”u burla, “ət” ver, Od yeyilməz. AğƏlin – “Oğul”un Odunu yox, “ət”ini! Bəs, “Beyrək” nədi, oğul! Hansı dildədi bu igid oğul adı? “Ə” hərfini” “e” şəklində tələffüz eləyən təriklərimizin “dil”ində “Beyrək” ”bəyirək”deməkdi. Yəni gəyirək. İndi də işlənir bu “bəyirmək” sözü. Monax hırıldayır, “Od”u yeyək, gəyirək! Budu sənin əli qılınclı, qolu zorlu “Beyrək” oğluyun “Od”u – həqiqəti! Yeyir, qolu zorlu olur, qılınc çalır, qan tökür, vəhşiləşib. Elmdən uzaq düşüb, düşmən pəncəsində əsir qalır!.. “Atilla”nın – OdƏlin “Qazağıstan” ərazisinə sığınmış OdƏr – “Kar”Uca ordusunu “Qaraca” çobana döndərib Monax, AğUcaya – Elmə yox, təhrif sözə “ağaca” bağlayıb hır-hırıldayır ki bu “ağacı köklü-köməcli qopart, ey çoban, get qoyunlarını sapanda qoy at üstümüzə! Əvvəllərdən yazıb monax: “Kidarskiye ovtsı pereydut k tebe, Yerusəlim!” Qrek Kesarı da oturub orda, EyOd – “Yəhud”ların başının üstündə tıxışdıracaq qoyun kababını! Duyursanmı fateh məkrini, ay yazıq bala?! Sənin Kalaşnikovun neylər bu qələm fatehliyinə?! Rəngin dəyişdi. Dözmürsən. Əlvida, Səmi balam! Ağrılarına qurban olum! Səməd adında atan ölsün, əbədiyyəti məhv olsun!.. Bir şey də deyim. Dastanın əvvəlində Bağ rütbəsi əvəzində kişilərə “Buğa” adı verirlər. Yəni idrak, təfəkkür əvəzində kobud, təhqiramiz fiziki qüvvət təbliğ olunur. Budur bədbəxtliyimiz! – Səməd yoxa çıxdı. Uzaqdan Ünü gəldi: “Silahın qələmdi! Qələm!”

Səmi döşəməyə döşənib, nə qədər belə qaldığını bilmədi.

Şöşü palatanın alaqaranlıq mart havasından lap az-maz seçilirdi, yəni gur SafAğa dönmürdü. Əyilib bir əlini Səminin boynuna, bir əlini alnına qoymuşdu. Bu cüzi SafAğ İşıq nəinki ağrıları kəsdi, Səmini hətta anlaşılmaz sevinclə gülümsündürdü...

Əlləri çamadanlı, bağlamalı Surəyya ilə İhsan və qoltuğu şişman rezin xoruzlu Midi palataya qayıdanda Səmi nəinki ayaq üstə idi, hətta Surəyyanın aldığı qara dərili paltonu da geyinib yola hazırlaşmışdı. Atasının işgəncəsi, özünün əzabı nə qədər ağır olsa da unudulması, eyni zamanda yeni bilik, OdAğÜzlə bağlılıq və Elm işığı Səmini tamam dəyişdirib, gümrahlaşdırmışdı. İhsan gülürdü:

– Bəxtəvərə necə də yaraşır dəri palto!..

Sürəyya isə:

– Yaraşdıran yaraşdırıb!.. – dedi. Əmma sonrakı sözləri dodaqlarının arasında qaldı. Çünki bu ara əvvəlcə gözəgörünməz Şöşü aydın eşidilən pıçıltı ilə dedi:

– Əlvida, a ninnini! İndicə atışma başlanacaq. Üsyan, – dedi.

Sonra kandarda qoltuq ağaclarının tıqqıltıları və kin səsi eşidildi:

– Xoş gördük, cənab SafAğ Alimləri. Şəhəri biz bu tərəfdən tərk eləyirik. Sevin! Gəldim, sözümü deyim, ürəyimə yük olmasın...

Xəlvətin əlində iri, köhnə naqan vardı. Uzaqda – şəhərin harasındasa güllə səsləri eşidildi. Xəlvət qəhqəhə çəkdi:

– Başlandı!

İhsan da dərhal əlini tapançaya atdı:

– Qalxdılar bunlar! – dedi.

Xəlvət elə qaqqıldayırdı, çünki sağından, solundan uzun, boz plaşlı Boz qurdlar, Omonlar, əllərində Kalaşnikovları, içəri doluşmuşdular.

– Biz məğlub olmamışıq, İhsan! OMON rayonlarında oturur! Bu bir, ikincisi, "Ruh" – ƏrAğlarınızı" biz də gördük axı: özlərini göstərdilər. Mağmındılar, a bədbəxtlər. İndicə o koridorda kəsdilər yolumuzu: "Təzyiq olmaz, Rəhim! Təzyiq olmaz!.. "Yalvardılar ey!.. Uşaqlar baş açmadılar, dedim: "Ruhdular, qorxmayın, ayaqlayın!" Ayaqlayıb keçdik müqəddəs İşıq insanlarınızı!.. Yer güclüdü, cənab OdƏrlər! Göylər ölümlərindən qorxurlar, bildiniz? Bax buna görə də tamamilə tərəddüdsüz deyirik ki, "Mı vas vsex perestrelyayem! Ne speşa, qamas-qamas – az-az!" Üçüncüsünü də deməliyəm: bu köhnə naqanın bir gülləsi sənin ən qəddar düşmənin – Gül xalayın alnını deşdi, Səmi, çünki çox bilirdi. İkincisi, dostun Yerəbaxan Məsimin, qalanları ən sədaqətli dostların Təftiş Abbasın, Zalın, Sayılovun alnını deşdi. Türkün – "OdƏr"in hamısı ölümə məhkumdu!.. O uşağı... o yetiminizi lap kruqlı yetim qoyacayıq indi. Bizim müharibəmiz uzun müharibədi. Dünya miqyasındadı. Səmi, yetimi öldürmürəm, böyüsün, gördüyünü, eşitdiyini danışsın tay-tuşlarına, başa salsın ki, müqavimətiniz mənasızdı!

Xəlvətin birinci gülləsi İhsanın alnının ortasını deşdi.

– Bu belə! Göydə silah yoxdu, Səmi, ən güclü-dəhşətli SafAğın ölümündən çəkinmərik. Bəzi ekstrassens əbləhləriniz deyirlər qayıdıb intiqam alacayıq. Hm!..

İkinci güllə Səminin alnını deşdi, üçüncü güllə isə Surəyyanın alnını. Sonra avtomatlar şaqqıldayıb, ölənlərin gövdələrini deşik-deşik elədi.

Boz qurdlar, OMON-lar Xəlvəti çiyinlərinə qaldırıb, dəhliz boyunca gurultu sala-sala qaçdılar.

Şəhərdə atışma davam edirdi.

Klinikanın işçiləri, xəstələr, polislər hadisə yerinin qabağında izdihama çevriləndə palatanın içərisi qan gölünə çevrilmişdi. Bu qan gölünün ortasında, Midi dəyirmilənmiş gözlərlə adamlara baxa-baxa, hərəkətsiz dayanmışdı... Hələ heç kəs bilmirdi ki, "Baki", "Bakı", "Baku" adlanan bu Bağodda, öz mənzilində Pünhan OdƏl hər şeyi görə-görə, göz yaşı axıda-axıda, yenə də insanı lənətləyirdi: Bətninizdə qəbir gəzdirirsiniz, ey fəlakətdən xəbərsizlər! Mənə inanmırsınız, "Xəmsə"nin səlamət qalan yerlərindən bu sözlərə inanın: "Yer dəli olub. Kəmərini[1] qıracaq bu dəli, dağılıb parça-parça olacaq, qəlpələri səmada fırlana-fırlana qalacaq".

Kimdən alıb yazıb Nizami – ÜnƏsim bu sözləri?!

O günü Məhərrəm Abbasoviçlə birlikdə, meyitləri elə həmin palatada, çılpaq çarpayıların üstündə yudurdub, geyindirib, sayını unutduğum maşın karvanı ilə Qonaqlıya apardıq. Maşınlar dayananda Midi, Məhərrəm Abbasoviçin qucağından atılıb, Səminin sinəsinə sərildi. Hələ gün batmamış karvanımız qəbiristanda idi. Məhərrəm Abbasoviç uşağı meyitin sinəsindən götürmək istəyəndə dik atıldı.

– Pah! Pah! Keçinib ki, bu tifil!..

Bu qışqırtıdan yeni-yeni hönkürtülər qopdu. Səslər içərisində bapbalaca "pəri" qəbri yanında Möcüzün "Yanıq Kərəm"isi[2] seçilirdi. Bu vaxt heç kəs görmürdü ki, qəbiristanın səmasında Səmi ilə, Midi ilə birgə bir dəstə "ruh" hamısı – ƏrAğ yavaş-yavaş buludların arasına doğru uzaqlaşırdı. Və əlbəttə, onların – "ruh"ların hamısı bir neçə saatdan sonra yenidən yaranıb yeni, doğma planetdə, doğma insanlar arasında sevincdən hönkürə-hönkürə qucaqlaşacaqlarını da hələ heç kəs bilmirdi.

2004-2005

---

[1] Kəmər – rəmzi söz, Bağ mənasında

[2] "Yanıq Kərəm" – "KiƏrim" – OdƏrim

# GurÜn

(*ƏsƏr*)[1]

## *Birinci kitab*

### ELM[2]

Min yüz yetmiş beşinci ilin payızında “Əxi”lər – AğEylər Nizamiyə xəbər verdilər ki, Atabəy Cahan Pəhləvan, Atabəy Sultan Şəmsəddin Eldənizin iradəsinin ziddinə, Səlcuq səltənəti ilə Xilafəti barışdırmaq niyyətilə AğEy icmalarını dağıtmaq fikrinə düşüb, Həmədandan gəlib Həmdünyanın yaxınlığında düşərgə salıb ki, səhər tezdən icmalara və bəlkə hətta Nizami təkyəsinə hücum etsin.

“Təkyə” nə deməkdir, ey Təhriflərim?

Bilmirsiniz.

Şərh-izah yaz, Muğanna: Ehtiyac olanda mötərizədə şərh yaz ki, ölü sözlər dirilib idraksızlarımın zülmət beyinlərini işıqlandırsın.

(Şərh: “Təkyə” sözünün əsli – OdƏrcəsi: “TəkEy. Uca tək insan deməkdir. SafAğ Elminin batın-gizlin olduğu zülmət dövrlərində SafAğ Alimləri “Yer”də – EyƏrdə tək-tək gizlənirdilər. Təhrif Xilafət öz “Şeyx”lərinə “Təkyə” – ev bağışlayırdı. Səlcuq sultanları isə “Təkyə”nin mənasını və Şeyxlərin “ƏsSəfa” – SafAğ Elmi ilə İslam dininin əslini – türkcəsini yaydıqlarını bildiklərinə görə “Təkyə” sahiblərinə “iqtə” – AğOd (SafAğ həqiqəti) əraziləri də bağışlayırdılar. Nizami belə bir ərazinin hakimi olsa da, babası Şeyx Müəyyədə bağışlanmış Təkyədə “Şeyx” rütbəsi altında gizlənirdi).

Hücum xəbərini eşidəndə kimlərlə, nə vaxt, necə atlandığını, düşərgədə atdan düşüb Atabəyin çadırına necə girdiyini bilmədi.

Atabəy Cahan Pəhləvan təxt-xabda gözü açıq uzanmışdı.

Nizamini başının üzərində görüb diksindi.

– Şeyx?!

---

[1] Əs – yarat, yaradan; Ər – işıq: ƏsƏr – Yaradan işıq

[2] Kitabda I qədim türk – OdƏr sözləri və SafAğ Elmi hikməti çox işləndiyinə görə dərk olunması çətindir. Odur ki, hadisələrin təsviri sadələşdirilib.

Nizami çırağı gətirib taxtın yanına qoydu, əlindəki kitabı hirslə Atabəyin üstünə atdı.

– Səksən birinci səhifəni aç, oxu!

Cahan Pəhləvan əvvəlcə diksinsə də, nə bu gəlişdən təəccübləndi, nə də bu rəftardan. Kitabın cildini qaldırıb “Məxzənül əsrar” sözlərini oxuyanda isə təəccüblənməyə bilmədi.

– Gecə yarıda “Əsrar” oxutdurursan?!

Nizami:

– Aç!

Cahan Pəhləvan heyrətdən tutulub, doğma qardaş qədər doğma Nizaminin tutqun, dərin gözlərindəki müəmmanı heç cür anlaya bilməyib, istər-istəməz özü də sərtləşdi.

– Hökmdaram mən, Şeyx. Sənin iqtən cəmi Türk ərazilərini təhdi-himayəsində saxlayan sultanımızdan kənarda deyil. Mənim hüzurumda bu qədər hökmlü olma. Əgər səfərimin sirrinə vaqifsənsə, əyləş, danışaq. Vaqif deyilsənsə, yenə danışaq. Sənin bu “Məxzənül əsrar”ını hər ikimizin və Qızıl Arslanın müəllimi Atabəy Şəmsəddin dəfatla oxutdurub mənə, beytbəbeyt, sətirbəsətir şərh edib. Elmimizin xəzinəsidir bu “Sirlər xəzinəsi”, sən isə bu xəzinənin sahibisən. Sənə və bu xəzinəyə müxalif iş tutmaram mən, İlyas.

Nizami:

– Müəllimimiz AtaBəy Şəmsəddinin dərsini unutmusan sən, Cahan Pəhləvan! Bir hədis danışım, dinlə.

İsa peyğəmbər dünyanı gəzirmiş. Bir bazarda it leşi görüb, ayaq saxlayıb. Hamı tüpürürmüş it leşinə: “Qoxu basıb dünyanı!” İsa deyib: “Siz onun dişinə baxın”. Vəssalam. Budur hədis. Əlindəki kitabda yazılıb. “Beytbəbeyt, sətirbəsətir şərh edilib”. Aç xəzinəmin sirrini. Nə deyir Nizami?

Cahan Pəhləvan:

– Bu hədisi atam AtaBəy mənə lap körpə çağımda danışıb, İlyas. “Məxzənül əsrar”ın yazılmağından min yüz qırx bir il əvvəl EySarın YeruSəlimə getdiyi gün baş verib bu hadisə. Sonralar Elmimizin ən məşhur rəmzinə çevrilib. “İt Leşi” bəşəriyyətimizdir. Beyinsiz bəşəriyyətimiz ölüdür. Leşdir, iy verir. Bu iy verən bəşəriyyətin yalnız ağzında dişi səlamətdir.

Nizami:

– İnsan körpəlikdə eşitdiyini unutmur, Pəhləvanım. Çünki beyni SafAğ İşıqla dolu olur. Yaşa dolub, məkr və məhəbbət dün-

yasında məkrli Xəlifənin qız nəvəsi İnanc Xatunla evlənəndən sonra isə, beynində məkr SafAğ İşığı yeyir. “Sirlər xəzinəsi”nin sirrini aça bilmədin, AtaBəy!

Cahan pəhləvan:

– Doğrudanmı unutmuşam atamın şərhini?!

Nizami:

– EySar otuz dörd yaşında gedib YeruSəlimə. Mənim otuz dörd yaşım var. Xəlifə nəvəsi ilə evlənməmişəm. Beynimdə SafAğ İşığı məkr yeməyib. Sən isə lap kamil məkr mücəssəməsinə çevrilmisən, Pəhləvanımız. Məkr mücəssəməsi Xəlifə Müstədbillahın nəvəsi İnanc Xatun barəsində eyhamını niyə sərfnəzər edirsən?!

Cahan Pəhləvan güldü.

– Sən məndən də məkrlisən, Şeyx. Dedim, səfərimin sirrinə vaqifsənsə, əyləş, danışaq, vaqif deyilsənsə, yenə danışaq. Hökmdar təklifi hamı üçün hökmdür. Hətta AtaBəy təxtinin dayağı dayın Xoca Ömər də mənim xasiyyətimin tündlüyünü bildiyinə görə rəiyyət kimi baş əyir hüzurumda. Yəni dərk edir ki, belə olmalıdır. Başqa cür olsa, vəzirimiz Xoca Ömərlə bahəm Səlcuq səltənəti vəzirlərinin hərəsi bir hökmdara çevrilər, məmləkətdə hərcmərclik düşər. Məkr mücəssəməsi Xəlifə Müstədbillahın nəvəsi İnanc Xatunla mən zahirdə dinə söykənmək, batində SafAğ Elmini qorumaq üçün evlənmişəm. Hüzurumda belə şəstlə dayanıb hökmdara çevrilmə, İlyas!

Nizami:

– Xalis hökmdar kimi danışırsan, AtaBəy.

Cahan Pəhləvan heç nə anlamadı.

– Bəs necə danışmalıyam?!

Nizami:

– Qul kimi danışmalısan!

Cahan Pəhləvan:

– Şeyx! AtaBəyəm mən!

Nizami:

– AtaBəylər nəslən Elmimizin qullarıdırlar. Elmin qulu kimi danış, Elm hökmdarı Nizami qulun olsun.

Cahan Pəhləvan səbirsizləşdi.

– Nə istəyirsən, Şeyx?! Əmr et quluna!

Nizami:

– İt leşinin ağzındakı diş nə rəngdədir?

Cahan Pəhləvan bu dəfə dərhal anladı:

– Xatırladım atamın şərhini! Ağdır dişin rəngi. SafAğ! Bəşəriyyət ölüdür, iy verir, SafAğ Elmi isə heç vaxt ölmür.

Mən sənin iqtən Həmdünyanda Əxi icmalarını dağıtmalıyam, Şeyx. Əxilərin evlərini yandırmalıyam. Gəncədən Abxasa[1] qədər bütün Həmdünyandan qızıl axır sənin Təkyənə. Mən dağıdım, yandırım, sən tikdir. Xəlifə mənə Sultanlıq versin, səni mürtəd[2] elan etsin.

AtaBəy Məhəmməd Cahan Pəhləvan zahirdə Müstədbillaha qul olsun, batində SafAğ Elminə. Başqa cür mümkündürsə, de, Şeyx. Qılıncımızın əsiri Şirürəkli Riçard Müstədbillahın üzünə deyib: Xilafət xristianlıqdan gizlin işləmir, yəni müttəfiqdirlər! Belə bir məkr müqabilində mən necə məkrsiz qalım?!

Nizami köksünü ötürdü.

– Sən Həmdünyanın batinlikdən çıxıb həqiqi adı ilə – HəmOdÜn adlandığını görməyəcəksən, AtaBəy.

Cahan Pəhləvan:

– Niyə?!

Nizami:

– Vəliəhdlərin də görməyəcəklər.

Cahan Pəhləvan:

– Açıq danış, Şeyx. Mənim batin işlərim məhz ona görə deyilmi ki, qüdrətli Abbasilər Xilafətinin qüdrəti sınsın və Həmdünyan batinlikdən çıxıb HəmOdÜn olsun?!

Nizami:

– Şərh edirəm.

Siyasət Elmimizə müxalifdir, AtaBəy. Beynində daim siyasət dolandığına görə, təkrar edirəm, məkr yeyir SafAğ İşığı. Yəni siyasətlə məkrin fərqi yoxdur.

İndi atamız Şəmsəddin Eldənizin dərs dediyi o məkrsiz uşağa çevirəcəm səni! Oxu səksən birinci səhifəni, dilimizə tərcümə et. Belə lazımdır. Tərcümə et.

AtaBəy gah Nizamiyə, gah kitaba baxa-baxa oxuyub tərcümə etdi:

– "Süleyman və qoca əkinçi"...

Nizami:

– Dayan. Düz deyil. Bacarmadın, körpə Məhəmməd.

---

[1] Abxaziya – indiki Gürcüstan ərazisi, daha doğrusu, Kaxetiya da, qədim OdƏr məkanı kimi, Səlcuq səltənətinə daxil idi.

[2] Dindən xaric

Cahan Pəhləvan təəccüblə duruxub, sonra qəhqəhə çəkdi.

– Necə yəni düz deyil, Şeyx?! Necə yəni bacarmadın?! Burada cəmi üç kəlmə var. “Süleyman”, “ixtiyar”, “dehqan”, “Süleyman və ixtiyar əkinçi” deyim?

Nizami:

– “Süleyman” kəlməsi sənin dilində deyil, körpə Məhəmmədim. Hələlik “Süleyman” de. Sonrasını tərcümə et, görək nə əmələ gələcək bu tərcümədən.

Cahan Pəhləvan maraqla, həvəslə, birnəfəsə tərcümə etdi:

“Günlərin birində Süleyman öz elindən çıxıb dünyanı seyrə getdi. Süleymanın ölkəsi böyüklükdə təxtinin yelindən sübhün çırağı söndü. Əzəmətli təxtini bir səhra ağuşuna aldı”.

Nizami qəribə, cazibəli, məlahətli hiyləgərliklə güldü.

– Hə, körpə Məhəmməd, indi de görək “Süleyman və qoca əkinçi” nə deməkdir?

Cahan Pəhləvan bir az uzun çənəli, enli, göyümtül sifətini ovuşdurub, Nizamiyə baxdı.

– Sən mənim başıma nə oyun açırsan, Şeyx?!

Nizami:

– Sualıma cavab ver!

Cahan Pəhləvan Şeyxin gözlərinin dərinliyində titrəyən bir cüt şama diqqət yetirib, ipək yorğanın üstündəki kitabın qara ipək cildini sığalladı.

– Sən mənə Elmimizin xəzinəsini şərh etdirirsən ki, atamızın dərs dediyi körpə Məhəmmədin yaddaşını qaytarasan. Əmma AtaBəy Məhəmməd Cahan Pəhləvan qayıdıb körpə Məhəmməd ola bilməz, Şeyx. “İt dişi”ni xatırladım. Bu hekayənin adında nə sirr var? Bilmirəm. Süleyman – Süleymandır, “ixtiyar” – qocadır, “dehqan” da əkinçi.

Nizami:

– Kömək edirəm: Elmimizin xəzinəsi “Sirlər xəzinəsi”ndə hər Dəri[1] kəlməsinin altında bir Elm kəlməsi[2] gizlədilib.

---

[1] Farsca “Dəri” dili həm qədim OdƏr (Türk) dilidir, həm də Fars və Ərəb dili. Yəni hər üç dilin kökü birdir.

[2] Elm kəlməsi – OdƏr kəlməsi

“Süleyman və qoca əkinçi” hekayəsində Süleyman da, qoca əkinçi də tamam başqa adamlardır. Xörəyi bişirdim, qaba çəkdim, ye, körpə Məhəmmədim.

Cahan Pəhləvan birdən qəmləndi.

– Atamız mədrəsənin qapısını açar-açmaz deyərdi: “Süleyman nist”. Biz öz dilimizdə qışqırardıq: “Süleyman yoxdur, ƏsƏlMən var!” Xörəyi yedim, Şeyx. Bağ, Atamızın böyük Oğlu Ulu Bağ ƏsƏlMənin Adı – Odu – Həqiqəti zehnimə işıq saçdı!

Nizami:

– Afərin, körpə Məhəmmədim. Afərin!

Cahan Pəhləvan:

– Əcəb sirli gecədir bu gecə, İlyas. İndiyə qədər heç kəs mənlə belə rəftar etməyib. Heç kəs.

Nizami:

– İnanc Xatun da?

Cahan Pəhləvan:

– İlyas!.. Xatunumun mənlə rəftarını kim çatdırıb sənə?!

Nizami dodaqucu gülümsündü.

– Süleyman çatdırıb.

Cahan Pəhləvan da dodaqucu gülümsündü.

– ƏsƏlMən rütbəsi yalnız UluBağa məxsus deyil. Hansı ƏsƏl çatdırıb?

Nizami?

– Səncə hansı çatdıra bilər? Xatırla, körpə Məhəmmədim. Atamızın ƏsƏlMən – “Süleyman” – “Solomon” və Əllər barədə dərsini xatırla. Bu körpə lap hazır xörəkdir.

Cahan Pəhləvan:

– Yedim, bu xörəyi də yedim. BağBağÜn Babamız – EyOdƏr babamızın Əlidir. Bağ Atamız BağBabÜn Babamızın Əlidir. Bağ Atamızın Oğulları Ulu Bağ ƏsƏlMən, ÜnEv, EvƏrim, EySar isə Bağ Atamızın Əlləridir... sənə ƏsƏr verən EySardır. Belə çıxır ki, Xatunumun mənlə rəftarını “Allah”ımız – ƏlAğımız EySar çatdırıb sənə?!

Nizami:

– Bəli, məhz EySar.

Cahan Pəhləvan:

– İnana bilmirəm!

Nizami:

– Atamız çatdırıb desəm, inanarsan?! Atamız öz körpə Məhəmmədinə nə qədər deyib ki, “Əllah” – ƏlAğ EySar insanın beynində zərrələri də görür. Nəinki Xatunuyun sənlə rəftarını, hətta sənin təxt-xabda Xatununla rəftarını da görür. EySarla bahəm Nizami də görür. Çünki Nizami EySarın təkrarıdır. Yerdə! “Süleymanın ölkəsi” bu Kürreyi-ərz – dairəvi Yerdir, ey körpə. “Ölkəsi böyüklükdə təxti” Yer bəşəriyyətinin beynidir. “Təxtinin yelindən sübhün çırağı söndü”. Yəni bəşər beyninin hərəkətindən sabahımızın, istiqbalımızın günəşi söndü. Niyə, AtaBəy? Çünki ƏsƏlMənin “təxtini bir səhra ağuşuna aldı: insan beyni bəhrəsiz səhraya döndü. Bu “qoca əkinçi”, yəni min yüz yetmiş beş yaşlı EySarın təkrarı olan bu otuz dörd yaşlı qoca Nizami bəhrəsiz səhraya “dən” səpir. “Dən” OdÜn – Həqiqət Ünü “Dinə”ə çevrilir.

Məğzi budur bu “Süleyman və qoca əkinçi” hekayəsinin, ey bəhrəsiz səhra! Dayım Xoca Ömər kimi baş əyə bilmərəm mən bəhrəsiz səhra hüzurunda! Əxiyə əl qaldırma! AğEydir, uca SafAğ İnsandır “Əxi”. Bətnin dəyişər, məhv olarsan Əxiyə əl qaldırsan, ey məkr-siyasət!..

...Nizami yalnız çadırdan çıxıb, təhlükənin sovuşduğuna əmin olandan sonra gördü ki, müşayiətçilərindən biri Əxi babadır, ikincisi Qutayba Fərruxqızı. Hər ikisi ağ xirqədə, bir-birindən seçilməyən ağ atların cilovlarını tutub, səhərin alatoranında fəxrlə, qürurla Nizamiyə baxırdı.

(Şərh: “Əxi Baba” rütbədir, həm də ad. OdƏrcəsi: AğEy BağBağÜn. AğEylərin Beyin Bağı. Bütün Əxilərin beyinlərində fikirlərdən xəbər tutan və hamını bir-birinə bağlayan Bağ, Saf Ağ Alimi, Saf hökmdar. Dilinizin əzbəri, “qılınc qəhrəmanı”nız Babək də BağBağÜn rütbəsi daşıyırdı, ey “İdeal”ı “Ölüm-dirim”i, “Peyğəmbərin möhürü”nü dərk edə-edə idraksız qalan qeyri-adi idraksızlarım. EyƏr – Uca İşıq ikən “Yer”ə dönəniniz BağBağÜnü “Papaqan”a, “Papaq”a, “Babək”ə “Baba”ya, “Papa”ya – Rim Papasına döndərib, siz idraksızlar isə bu barədə düşünmək də istəmirsiniz: “Əşi, nəyimizə gərəkdi?!”

Bəs “Qətibə” dediyiniz “Qutayba” adı hardandır?

– Bilmirsiniz.

ƏlMən ikən “Alman”a, OdEyƏlƏs ikən “Doyliç”ə, ƏrEy ikən “Ariy”ə çevrilmiş çox adlı millətin dili AğOdumu “qut”a çevirib,

bu mənasız sözə “yaxşı”, “oldu” mənaları verib. Yeni tarixin dördüncü-beşinci əsrlərində “Roma” – “Rim” – Ərim (işığım) şəhərində təhrif Xristianları qıran “Ariy”lər,[1] təhrif dillər mühitində AğOda – SafAğ İnsan həqiqətinə “qut” deyəndə onlarla birlikdə döyüşən Təriklərim – Türklərim də məcburiyyət qarşısında “qut” deyirdilər. AğOdEyEv Adı o vaxtlar “Qut ay ba”ya çevrilib. Siz isə “Qətibə”yə çevirib, lap düzəltmisiniz.

“Fərrux” – EvƏr ƏrAğdan azıb, Türkümün özünün dilində əvvəlcə FərƏrAğa, sonra Farsın dilində “Fərrux”a çevrilib, “üzün işığı” mənası alıb. (EvƏr – İşıqEvi və ya EvƏrEy – uca İşaq Evi) “Fər” – işıq mənasına, ƏrAğ (SafAğ İşıq) “Üz” – “sifət” mənasına düşməsəydi, Fars “Fərrux”a “üzün işığı” mənası verə bilərdimi, ey təhriflərim?!” “İdeal”da sizə öz dilinizdə deyilib ki, hələ geri sanan tarixdən əvvəlki əlli minillik tarixdə vətəndən tərik düşüb “Türk” adlandığınız vaxtlardan təhrif etmisiniz OdƏr dilini. Bağdayın beş vilayətindən birinin adına – AğÜzə “Oğuz”, hətta “qız” demisiniz.

“Qutayba Fərrux qızı” – AğOdEyEv EvƏr ƏrAğ AğÜz.

Bu adın türkcəsi ilə OdƏrcəsini müqayisə edin, görün dilin təhrifi insanın mənasını-məzmununu necə dəhşətli dərəcədə təhrif edib.

EyEvə – “Həvva”, AğOd EyEvə – “qutayba” deməklə nə itirmisiniz? SafAğ İnsan həqiqətinin uca Evini itirmisiniz. EyEvdə EyOdƏr, BağBağÜn Babalarınızı, Bağ Atanızla oğulları Ulu Bağ ƏsƏlMəni, EySar ÜnEvi, EvƏrimi və məni – EySarınızı – “Əllah”ınızı – ƏlAğınızı – SafAğ İnsan Bağ Atamın Əlini – Oğlunu itirmisiniz. Nə qazanmısınız? Mənasız “Allah” və cəllad “Din”!

“Əxi baba” və “Qutayba Fərrux qızı” adları Dindən gizlənmək üçün idi).

Şərh qurtardı. Din dilinin “hədis” adlandırdığı hadisənin davamını deyirəm. Gün doğanda atlılar Gəncə çayı vadisinin ən səfalı – SafAğlı dərəsində, palıd, ceviz ağaclarının kölgəsində yəhərlərdən enib çayda yuyundular.

Uzaqda “ələm” – Əlim ağacı ucunda sümük əl ağarırdı. Nizami bu gün birinci dəfə o sümük ələ qəzəblə və hətta nifrətlə baxdı.

– Atmaq lazımdır o əli. Qırıb atmaq lazımdır!

---

[1] Dördüncü əsrdə xristianlıq rəsmi Din kimi elan ediləndən sonra ƏrEyƏlmənlər tez-tez hücum edirdilər.

Əxi Baba ağ örpək altında sarı-qızılı saçı ipək kimi işıldayan bəstəboy Qutaybaya tamaşa edirdi. Çünki Qutayba Nizamiyə vurğun gözlərlə tamaşa edirdi.

Nizami zərif ziyalı görkəmi ilə uyuşmayan kobud hərəkətlə qızın qoluna toxundu.

– Fikrin hardadır? Mənim TəkEyimi Şiə iqamətgahına çeviriblər. Səhərdən axşama qədər fars zəvvarlarına dönə-dönə moizə oxuyuram ki, İmam Əlinin əli deyil o əl, ƏlEydir – Uca Əldir. "Ələm" ağacı deyil, Əlimdir. Qanan yoxdur. Şiə sayırlar məni. Əxidən ayrı – Şiə!

Əxi Baba:

– Ələm ağacını kəssən, əli qırıb atsan, qorxudan tir-tir əsərsən, ey körpə İlyas.

Nizami bu gözlənilməz "körpə İlyas" sözlərindən tutulub, duruxub qaldı. Əxi Baba dümağ, pəmbə saqqalını sığallaya-sığallaya gülümsəyirdi.

– Hə, Şeyx Nizami, tap görüm xəzinə hökmdarı niyə "körpə İlyas" oldu?

Nizami:

– Mənə xirqə verən Əxi Babamın hüzurunda mən həmişə körpəyəm. Dərk edə bilmədim ki, Xilafətin nəzərində Şiəlik əlaməti olan sümük əl qırılıb atılsa, batin Əxi Fərrux İmadımın – Əxi Babamın bitin icmalarında adi Əxilərdən biri olsam, qorxudan xali Əxilər içində niyə tir-tir əsməliyəm mən, Baba?

Əxi Baba:

– Mərifət əhli içində TəkEy olsan da körpəsən hələ, Şeyx Nizami. Qorxudan xali Əxilər də qorxurlar.

Nizami:

– Əcəb müəmmadır! Şərh et.

Əxi Baba:

– Ey oğul, indicə qışqırırdın ki, zəvvarlar Şiə sayırlar səni, Elmi öldürürlər. Qorxudan deyilsə bu qışqırtın, bəs nədəndir?! Budur müəmma, açdım. "Həmdünyan" altında gizlətdiyimiz HəmOdÜn, "təkyə" altında gizlətdiyimiz TəkEy, Şiə "əli" altında gizlətdiyimiz ƏsEy, "sufi" altında gizlətdiyimiz SafAğ, hamısı qorxudan deyilmi?! Qəzəb mücəssəməsinə dönüb Cahan Pəhləvanı döyməyin qorxudan deyildimi, körpə balam?!

Nizami:

– Gözlərin deyir bu gün Babamız şəndir, zarafat edir. Dilin isə çaşdırır məni. “Xəzinə”mizi Fars dili altında gizlətməyim də qorxudandır?!

Əxi Baba:

– Xörəyi bişirirəm.

EySarın pənahında olan Əxinin “Xəzinə”ni Fars dili altında gizlətməyi EySarın özünü Fars dili altında gizlətmək deyilmi?! “Sirlər xəzinəsi”ni sənə EySar deyir! “Xəzinə”ni özü gizlədir!.. Hazırdır xörək, ye, körpə balam.

Nizami:

– Yedim, Baba. Mən məhz qorxduğuma görə qorxudan qəzəb mücəssəməsinə çevrilib AtaBəyi döydüm. Təhlükənin sovuşduğuna əmin olandan sonra BağBağÜnün öz şagirdinə fəxrlə baxdığını görüb qürurlandım, özümdən müştəbeh oldum, dedim o sümük əli qırıb atmaq lazımdır, sən isə məni “körpə İlyas” adlandırıb qürurumu sındırdın.

Əxi Baba:

– Mərifət əhli içində TəkEysən, ey özünü şagird adlandıranım. Mən sındırmadım qürurunu, EySar sındırdı, ey EySarımın təkrarı. EySar özü öz qürurunu sındırdı. Səni “körpə” adlandıranda məhz özünü “körpə” adlandırdı!

Nizami:

– EySarın Ününü mən niyə eşitmədim, Baba?!

Əxi Baba:

– BağBağÜnün hüzurunda sən ancaq BağBağÜnə deyilən Ünü BağBağÜnün dilindən eşidirsən. Bunu səndən düz iyirmi üç il gizlətmişəm.

Nizami:

– Niyə?!

Əxi Baba:

– EySarın Ününü sən ilk dəfə on bir yaşında eşitmisən. Harda? Yadındadır?

Nizami:

– Təbrizdə.

Əxi Baba:

– Təfsilatla de. Belə lazımdır.

Nizami:

– Cahan Pəhləvan, Qızıl Arslan, Əmir Dara, Bəhram şah, Qutayba, mən mədrəsənin birinci mərtəbəsində yanaşı oturmuşduq. İmadım dedi: “İlyas, çıx yuxarı mərtəbədəki hücrələrdən birində otur”. Soruşdum ki, “Yoldaşlarımdan niyə ayırırsan məni, Baba?” İndiki kimi onda da dedin: “Belə lazımdır”. Getdim, gördüm hücrələrin hamısının qapısı bağlıdır. Geri qayıdanda fəzadan qəzəbli qışqırtı eşitdim: “Baban sənə dedi hücrələrdən birində otur. Niyə qayıdırsan?” Dedim: “Qapılar bağlıdır”. Səs soruşdu: “De görüm, bu kimin səsidir?” Dedim: “Atamın səsidir”. Dedi: “Ata nədir, ey bisavad?![1] Əxi Fərrux İmad sənə öyrədib ki, “ata” deyəndə Od düşün. Niyə “ata” düşünürsən?! Keç otur birinci hücrədə. Qapı açıqdır”. Qapını itələdim. Doğrudan da açıq idi.

Əxi Baba:

– O hücrədə mərhum atan Yusifin səsi ilə danışan Odun – Həqiqətin EySar iki il dərs dedi sənə. İki ilin tamamında bildin ki, atan deyil, atan Yusifin səsi ilə danışan EySardır öz təkrarına dərs deyən. Sonra mənim səsimi eşitdin. Dedim: “İlyas, düş, yoldaşlarıyın yanında otur”. Düşdün, oturdun. Mən şərh etdim ki, altı şagirddən beşinə mən dərs deyirəm, birinə EySar özü dərs deyir.

De görüm, ilk dəfə Ün eşitdiyin gündən iyirmi üç il sonra, indi sənə dərs deyən kimdir, körpə balam?

Nizami:

– Bu xörəyi də yedim, Baba. “Altı şagirddən beşinə” dərs deyən BağBağÜnün dilindəki “mən” EySarın “mən”idirsə, deməl, “altı şagirddən birinə” yox, hamısına BağBağÜnün beyninə gələn Ün deyir dərsi. Mən hücrədən çıxandan sonra nə demisənsə, hamısı EySarın sözləridir.

Əxi Baba:

– Qorxudan xali kimdən qorxur körpə balam?

Nizami:

– Gecə yarıda EySar Əxilərimizin dili ilə mənə xəbər verdi ki, Cahan Pəhləvan məkrə uyub, Elmin xilası naminə Elmə qılınc çəkmək niyyətindədir. Qorxudan gözlərimə qaranlıq çökdü. Qorxudan xali Əxi Din mühitində cahildən – Divdən qorxur, Baba Div qılıncı ilə

---

[1] OdƏrcə BağƏsEvOd (Yaradan Bağ Evinin həqiqəti) sözündən azmış “bisavad” sözü dildə saxlanırdı çünki bu təhrif – əks məna verirdi).

qanının tökülməyindən yox, Elmin məhvindən qorxur. Buna görə də Şeyx Nizami qılınc çadırına qorxusuz getdi. Qalib Nizami isə, özündən müştəbeh olub, Əxi Babasının dili ilə EySarından dərs aldı.

Əxi Baba:

– Dərs davam edir, körpə balam. Bu gün mən səni bir kənizlə evləndirirəm. Nizami yenə tutulub, duruxub, bu dəfəki gözlənilməzlikdən hətta bir addım geri çəkilib, Əxi Babaya heyrətlə baxdı.

Əxi baba yenə saqqalını sığallaya-sığallaya gülümsəyirdi.

– Əmir Daraya[1] göndərdiyin qəzəlin cavabında nə yazmışdı sənə Dara? Yadına sal: "Yaxınına gedəni dişi-dırnağı ilə parçalayır o kəniz". Haman o kişi qeyrətli kəniz Afaqı sənə hədiyyə göndərib Əmir Dara. Evlənməlisən.

Nizami:

– Üzünü görmədiyim zənənlə evlənməliyəm? Bu nə əcaib işdir, baba?! Qutayba Fərrux qızının məhəbbətini tapdalayıb Dərbənd Hakiminin əlinə su tökən kənizlə?! mənim mədrəsə yoldaşım, SafAğ Alimi "Dara" – OdƏr də Cahan Pəhləvan kimi mühit qurbanı olub, təhrif Daraya çevrilib, Nizamiyə kəniz təklif edir?!

Əxi Baba:

– Daranın məktubunun cavabında nə yazmışdın?

Nizami:

– Təşəkkür... Yazmışdım ki, "Afaq"ın, yəni məktubda SafAğ Elmin məni xoşbəxt etdi.

İndi həqiqətən kəniz göndərib?!

Əxi Baba:

– Məktubu aldığın gündən bir il keçib. Bir ildə Dara dəyişə bilər?

Nizami:

– Div mühiti qatı olsa, bir gündə də dəyişər.

Əxi Baba:

– Deməkk, dəyişib OdƏrimiz, Dara olub?!

Nizami:

– İnanmıram!.. Yoxsa, bu da dərsdir, Baba?

Əxi Baba:

– Dərsdir, körpə balam. Əmma bu dərsin yekununda həqiqətən Afaq adlı kənizlə evlənməlisən. Qutayba balam necə baxır bu işə?

---

[1] Dərbənd Əmiri Dara batin Ulu Bağ ƏsƏlMənin və Atabəy Şəmsəddin Eldənizin ən zəkalı, Ün eşidən şagirdlərindən idi.

Qutaybanın gözləri qəzəb saçırdı.

– İlyası təcrid hücrəsindən, tənhalıqdan qayıtdığı gündən, on üç yaşımda sevmişəm mən. O gündən də sən təcrid buyurmusan bizə. Otuz dörd yaşına qədər gözləmişəm ki, yekunu həmişəlik təcrid olsun?! Əgər bu dərsdirsə, necə dərsdir?! Cəzadırsa, nəyə görədir?!

Əxi Baba:

– Sənin sevgilin Nizami deyil, körpə Qutaybam.

Nizami diksindi.

– Necə yəni Nizami deyil?!

Əxi Baba:

– Ey oğul, on bir yaşından bu günə qədər gündə neçə dəfə eşitmisən ki, SafAğların bir-birinə məhəbbəti Elmə, EySara məhəbbətdir! Sizə buyurduğum təcrid cismani təcriddir. Eşqiniz isə əbədi insan eşqidir, əbədidir.

Nizami:

– "Yaxınına gedəni dişi-dırnağı ilə parçalayan kəniz"lə gün keçirə-keçirə Qutaybaya əbədi eşq ilə yaşamalıyam?! Nizamiyəm mən, Baba! Bu yetim qıza altı yaşında Gəncəyə gətirildiyi gündən bağlanmışam mən!

Əxi Baba:

– İndi mən sənə sübut edərəm ki, Nizami deyilsən, körpə İlyasım, Qutaybanın əlindən tut. Tut!

Nizami əlini uzadıb tərəddüdlə Qutaybanın əlindən tutdu.

Əxi Baba:

– Nə hiss edirsən?

Nizami:

– Doğmalıq! Ülvi doğmalıq! Eşq!

Əxi Baba kədərlə gülümsündü.

Nizami deyilsən, körpəsən, körpə balam. İyirmi üç il dərs keçəndən sonra, hələ də unudursan ki, EySarın ƏsÜzü – Yaradan mənası, hissi, duyğusu Ünlə birgə Əxinin bətninə keçir, ey Təkrar ikən körpə, körpə ikən Təkrar! EySar deyilmi Qutaybanı sevən?! SafAğ İnsan eşqini yorğan altı ilə eyniləşdirsəniz, bir-birinizə nifrət edərsiniz!

Qucaqlaşın! Əmr edirəm, qucaqlaşın!

Nizami Qutaybaya baxıb, birdən geri çəkildi.

Əxi Baba:

– Nə hiss etdin? Niyə çəkildin?!

Nizami:

– “Yorğan altı” sözlərində əcaib çılpaqlıq gördüm, ikrah hiss etdim, Baba.

Əxi Baba:

– Açıq danış!

Nizami:

– Qutaybaya yaxınlaşanda vəcdimin yüksəkliyində uçan quşa çevrilib cismimi hiss etmirəm. İnsanın məna gözəlliyi bədəni unutdurur.

Əxi Baba:

Lap açıq danış!

Nizami:

– Mən səndən öyrənmişəm ki, insanın paltarı olduğu kimi sözün də paltarı olmalıdır. Qutaybanın yanında paltarımı soyunsam, EySar Günəşi qaraldar ki, Nizami sevgilisinin gözünə çılpaq görünməsin!

Əxi Baba:

– Budur Əxi – AğEylərdən qeyri heç kəsin dərk etmədiyi SafAğ İnsan! “Afaq”la yox, SafAğla evləndirirəm mən səni, ey Saf Ağım! Yanındadır “kəniz” – KiÜnƏs” – “Günəş” – OdÜnƏs! Bağrına bas Daranın – OdƏrin göndərdiyi “kəniz Afaq”ını!

Nizami Qutaybaya baxdı, Qutayba Nizamiyə. Sonra hər ikisi Əxi babaya baxdı.

Əxi baba:

– Təcrid ləğv olunur bu gün, balalarım. Nəyə təəccüblənirsiniz?

Nizami:

– Əmir Daranın məktubunda mənim qəzəlim şərh olunmuşdu. Mən “Dara”mı – OdƏrimi mədh etmişdim. OdƏrim isə “Qıpçaq qızı kəniz Afaq” göndərmişdi, “Qıpçaq” kəlməsi altında demişdi: “Qapı açaq”. Yəni zülmətə-beyinlərə qapı açaq, “kəniz” – OdÜnƏs – Yaradan Ün Həqiqəti olsun, “qız” – AğÜz olsun, “Afaq” SafAğ olsun. Bu, qəzəlimin cavabı idi. Bu cavabdakı “Afaq”ı – SafAğ Elminin qızla nə əlaqəsi, baba?

Əxi Baba:

– Qızın üzünə bax. AğÜzdür?

Nizami:

– Bəli, Saf Ağdır üzü. İşıq saçır.

Əxi Baba:
– Kənizdir?
Nizami:
– Bəli, OdÜnƏsdir – Yaradan Ün həqiqətidir. Açıq deyir ki, Nizamini sevirəm.
Əxi Baba:
– "Qıpçaq qızı"dır?
Nizami:
– Bəli, qapı açan AğÜzdür.
Əxi Baba:
– Xörək hazırdır. Ye, körpə balam.
Nizami:
– Hazır deyil, Baba.
Əxi Baba:
– Ey oğul, sənə o qəzəli deyən və Əmir Daraya o məktubu yazdıran kimdir?
Nizami:
– İndi hazır oldu, BağBağÜnüm. Təcridi EySar bir il bundan əvvəl məktubu göndərəndə ləğv edibmiş. Özündən müştəbeh Nizami qəzəli öz adına, məktubu Daranın adına yazıb. Təcridin ləğvi bir il uzadılıb!
Əxi baba:
– Bəs Qutayba balamın günahı nədir?
Nizami:
–Özü desin.
Qutayba:
– Mən də qəzəli Nizaminin, məktubu Daranın adına yazmışdım, hər ikisinin Elminə vurulub Elm sahibi EySarımı unutmuşdum. Bir ildir ki, icmalarda şeir, musiqi məclislərində Nizaminin qəzəli ilə Daranın məktubunu şərh edirəm.
Əxi baba:
–İlin tamamında dərsinizi aldınız, körpə balalarım.
Nizami:
– Yenə "körpə"?!
Əxi baba:
– Dərs hələ irəlidədir.
Elm sahibi ilə birlikdə siz zülmətə qapı açan "Qıpçaq" Əxi Babanızın qızı Afaqı da unutmusunuz. Nizami təkyəsində, kənizlər içində Afaq adı altında gizlənən qızımı niyə unutmusunuz?!

Bu gözlənilməz sual nə qədər gözlənilməzdisə, "kənizlər içində Afaq adı altında gizlənən qızım" sözləri də bir o qədər gözlənilməz idi. Çünki Nizami ilə Qutayba nə Əxi Babanın evli olduğunu bilirdilər, nə də Təkyədəki kənizlərin arasında Fərruxqızı rütbəli məşhur xəzinədar kəniz Afaqın atası olduğunu.

Çaşıb qaldılar.

Əxi Baba:

– İndi atlanın, gedək görək "yaxınına gedəni dişi-dırnağı ilə parçalayan kəniz" Nizamini necə parçalayacaq!

Nizami:

– Nizami o Afaqa yaxın getməz!

Əxi Baba:

– Gedəcək. Atlanın!

Atlandılar.

(Şərh: "Üfüq" və "Afaq" OdƏr dilində EvAğdan azıb, ey mənim dilimi "Dəri dili", "Dəri dili"ni isə "qədim Fars dili" adlandırıb Türk-Tərik dilində OdƏr dili olduğunu unudanlar! EvAğ – SafAğ İnsanın Evi də, özü də, Elmi də SafAğdır. Yəni qara rəngdən – zülmətdən kənardır. Niyə? Çünki "qara" da təhrif sözdür. Gurdan azıb, mənasını – məzmununu itirib, ey AğEvÜnü "Ağvan" adlandırıb Ünümdən məhrum olanlar! HəmOdÜnü "Həmədan" adlandırıb "qədim Fars dili"nin "Şiə"sinə (Elmdən ayrıya) uymasaydınız, mən Nizami TəkEyini Əlimdən azmış "ələm" ağacı altında, SafAğ balalarımı "Afaq", "Qutayba" adları, "Fərrux qızı" rütbələri altında gizlətməzdim.

Ələm ağacı uzaqdan qısa görünürdü. Atlılar yaxınlaşdıqca, on qulac zula[1] birə iki uzandı. Zula ilə birlikdə sərv ağaclarının sıx cərgəsi də birə iki uzanıb, bütün üfüqü tutdu.

Təkyədə zil cürə səsi bəm saz səsinə qarışıb, atlıları sehrlədi.

Nizami ilə Qutayba yəhərdən enib, bir adam boyu hündürlüyündə ağ hasarın qapısı ağzında atdan düşən Əxi Babaya baxdılar.

Əxi Baba:

– Toyundur, Şeyx!

Nizami lap yazıqlaşıb, hətta boynunu bükdü.

– Heç nə anlamıram, Baba.

Əxi Baba birdən dəyişib, yenə qəmləndi-yumşaldı.

---

[1] Zula – budaq

– Ey cavan!.. Ey cavan!.. Sənə bağışlanan xoşbəxtlikdən xəbərin yoxdur, ey cavan! Afaq mənim qızım deyil, heyrətli gözəl kənizdir. Dara göndərib. Həqiqətən OdƏr göndərib, ey xoşbəxt cavan!

Nizami lap bezikib, hətta səsini qaldırdı:

– Baba! Bu gün sən mənim başıma nə oyun açırsan! Qutayba mənim atam-anamdır, bacım-qardaşımdır! Təkyədə doğrudan toy var?!

Əxi Baba:

– Dedim sənin toyundur.

Nizami:

– Kimlə evlənirəm?!

– Əxi Baba:

– Unutduğun qızım Afaq Fərruxqızı ilə yox, məhz Daranın göndərdiyi heyrətli gözəl kənizlə! O kənizdən heyrətli gözəl bir oğlun olacaq. Adını mərhum əmin BağHəmdun təhrif adı ilə "Məhəmməd" qoyacaqsan. EyOdƏr EyƏsÜn – "Yazan" belə yazıb, EySar belə buyurub, BağBağÜn belə deyir. Yazıya pozu yoxdur, Şeyx Nizami!

Nizami üzünü kənara çevirdi.

Qutayba ağladı.

– Bu nə cəzadır?! Nə müsibətdir?! Babacan, yalvarıram, EySara yalvar, açıq desin, daha nə cahilliyimiz var?!

Aralığa sükut çökdü.

Saz, cürə səslərinin sehrli gözəlliyi Nizami ilə Qutaybanın sıxıntılarını daha da artırdı. Əxi baba qapını açdı.

Daş cığırda ağ çəpkənli, ağ örtüklü bir OdÜnƏs – kəniz dayanmışdı.

Əxi Baba kənizin qoşa əli üstündə gümüş sinidəki gümüş şərbətilərdə şərbəti göstərdi.

– İçin, ağzınız şirin olsun. Bu səhər mən sizə ilan zəhərindən də betər zəhər içirtmişəm.

Nizami küskünləşmişdi.

– Təcrid hücrəsində, tənhalıqda iki il Elm qulu olmağın müqabilində təcrid-zəhər!.. Cahan Pəhləvana, Qızıl Arslana, Bəhram şaha, Əmir Daraya – taxt-tac, Nizamiyə Firdovsi "Şahnamə"sinin xəzinəsində əsirlik[1] müqabilində yenə təcrid-zəhər!.. Xirqə alan-

---

[1] "Şahnamə" rəmzi "dəstan" – OdƏslin (Yaradan Həqiqətin Yaradan Ünü) Dərslik idi. "Şahnamə"nin xəzinəsində əsirlik" ifadəsi çətin anlaşılan rəmzlər içində batıb qalmaq deməkdir.

dan sonra. İcmalarda dərvişlik müqabilində yenə təcrid-həzər!.. Təkyə alandan sonra, son dörd ildə gecəli-gündüzlü moizələr müqabilində təcrid-zəhər! Nəhayət, icmaları xilas etməyimin müqabilində təcrid-zəhər!

Əxi Baba:

– EySara üsyandır bu, Şeyx Nizami!

Nizami:

– Şərbət vermə bir də, həqiqi ilan zəhəri ver, bu tərzi-həyat qurtarsın! Dözə bilmirik, Baba!

Otuz dörd yaş əzablarımı da əlavə etsək, həqiqi mənada qocalmışıq biz!

Əxi baba:

– Əbədi həyat müqabilində otuz dörd yaş heç nədir, Ey oğul!

Nizami:

– Səbəbini izah elə, Baba!

Əxi baba:

– EySarın Təkrarı özünə üsyan edir. Yəni özünü öldürmək qəsdinə düşən Təkrar, Təkrarını öldürmək qəsdinə düşür, körpə İlyas! Anadan olduğun gündən bu günə qədər, otuz dörd il müddətində sənə bağlı bağın EySar özü də təcrid zəhəri içmirmi?! "Süleymanın təxtini ağuşuna alan səhra"nın "qoca əkinçi"si Nizami, bəhrəsiz səhradan betər oldu beynin!

"İcmaları xilas edən" sənsən?!

Nizami:

– Təkrarımdır xilaskar! Təkrarımın təkrarı Nizamidir xilaskar! Təkrarım nə özünə rəhm edir, nə də Təkrarına!

Əxi Baba:

– Səbəbini bilmirsən?! Bu "Yer" bəşəriyyətinin beynində zülməti dağıtmaq sənə asanmı gəlir, ey ana uşağı?! "İt Leşi"ni diriltməlisən sən!

Nizami Qutaybanın göz yaşlarına baxıb, birdən süstləşdi, süst qolunu zorla qaldırıb, barmaqlarının ucu ilə o ata-ana, bacı, qardaş əvəzinin yanaqlarını sildi.

– "Ana uşağı"nın üsyanı bilməzlikdən deyil, Baba. Əgər mən təkrarıma üsyan edirəmsə, təkrarımın özü özünə üsyan edir.

Doğrudur!

Doğrudur?

Qutayba ağlayır, mən ağlayıram, Təkrarım ağlayır! Mən soruşuram: “Bu tərzi-həyat nə vaxt qurtaracaq?!” Təkrarım deyir: “Zülmət qurtaranda qurtaracaq”. Bəs zülmət nə vaxt qurtaracaq, Baba?! Təcridin ləğvindən sonra da qurtarmayacaq zülmət, demək, yenə təcrid! Təcrid! Təcrid! Budur məni üzən, taqətdən salan, Ey BağBağÜnüm, İmadım[1], Ustadım!

Sənin evli olduğunu, Afaq adlı qızın olduğunu indi eşidirəm. Təkyəmin “xəzinədar”ı, icmalarda məşhurlar məşhuru Afaq Fərruxqızı, mənim ən istəkli OdÜnƏsim öz ata-anasını tanımır! Qutayba Fərruxqızı öz ata-anasını tanımır! Dörd yaşında anadan yetim qalan on bir yaşında atadan yetim qalan Nizami Qutaybasının ata-anasının da üzünü görmür! OdAğÜzdə Təkrarım, Yerdə Təkrarım – Əxi babam, ikisi də zülmkar! Təkrarının nəzərindən təcrid yaşamağı ölümdən betər bildiyinə görə Qutaybasından təcrid Nizami özü də zülmkar! Necə üsyan etməsin bədbəxt Nizami?!

Əxi baba:

– “Gecəli, gündüzlü moizələr”ində hər gün, hər gecə təkrar etdiyin adi həqiqəti təkrar edirəm: “Xoşbəxtlik Simurğ quşunun belində uçub gedib”. Nə vaxt? Min yüz yetmiş beş il əvvəl, EySar anadan olan günü Bağ Atamız uşağı böyük oğlu Ulu Bağ ƏsƏlMənə tapşırıb, SimƏrAğ gəmisinə minib gedib, Əxilərimizdən qeyri bir kimsənin xəbəri yoxdur ki, BağAtamız bir də otuz dördüncü ilin yayında, EySar Yerusəlimdə çarmıxa çəkilən günü Yerə enib, ƏrEvOdunu aparıb gedib. Nə qədər keçib o vaxtdan? Min yüz qırx bir il! ƏrEvOda “arvad”, BağƏrEyə “Mariya”, “Məryəm”, ÜnEyə “ana”. SimƏrAğa OdÜnSim quşu, EyƏrə “Yer”, ƏsEyƏrə “Səyyarə” deyən Təriklərim – Türklərimlə bahəm “Yer”də cəmi bəşəriyyətin xəbəri yoxdur ki, on səkkiz min Aləmdə Səyyarələrin heç birində doğuluş yoxdur. Yalnız bu bədbəxt ikən xoşbəxt, xoşbəxt ikən bədbəxt “Yer”də “uşaq” – ƏsAğ verilir insana. Təcrid hücrəsində, tənhalıqda, ilk təcrid illərində atan Yusifin səsi ilə deyilən dərsdir bu dediklərim. Bədbəxt bəşəriyyətimizi “bədbəxt ikən xoşbəxt” adlandırıb EySar. Niyə? Otuz dörd yaşlı gənc ikən çarmıxa çəkilib, SafAğ İşığın qüdrəti ilə diri qalıb, SafAğ İşıq içində uçub OdAğÜzə getdiyi gündən bu günə qədər, min yüz qırx bir ildir ki, körpə bala həsrətindədir.

---

[1] İmad – EvOddan azib, “dirək” mənasında işlənir.

Əxi Baban deyil sənə bu sözləri deyən, EySar özüdür! Təcrid hücrəsində, ilk təcrid illərində eşitdiklərini təkrar edirəm, İlyas balam. On səkkiz min Aləmdə, OdƏr bəşəriyyətində SafAğ İnsanın yaşı artmır. Min yüz yetmiş beş yaşlı EySarın otuz dörd yaşlı gəncdir. Təcriddən sən nə qədər əzab çəkirsən, İlyas balam, Qutaybana yaxınlaşanda vəcdin səmasında quş kimi uçursan. EySarın Qutaybası da yoxdur. Bu bədbəxt ikən xoşbəxt "Yer"ə enib evlənsə, nə olar? Yaşı artar, ƏrEvOdu ilə birlikdə özü də qocalar, körpə balası da. Bəs sonra?.. AğƏrə – SafAğ işığa "Axirət" deyən bəşəriyyətimizin xəbəri yoxdur ki, Yerdə qocalan insan SafAğ İşıq aləmlərindən qayıdanda da qoca qayıdacaq və bir daha vəcdin səmasında quş kimi uçmayacaq, "uşaq" – ƏsAğ arzulamayacaq!

Təkrarımızın təkrar dərsindən nə nəticə çıxarırsan, İlyas balam?

Xörək hazırdır. Ye.

Nizami:

– "Sirlər xəzinəsi"nin sahibi mən olsaydım, Fars dili altında bir kəlmə də gizlətməzdim. Təkrarıma bütün sirləri açıq deyərdim. ƏsÜz – söz anlayanlar Elmimi dərk edib əbədi OdƏrlərə çevrilərdilər. Yerə qayıdıb əbədi OdƏrlərimlə xoşbəxt olardım!

Əxi Baba:

– Axir əz-Zaman istəyirsən!

Nizami:

– Necə istəməyim, Baba?! On səkkiz min Aləmin saysız-hesabsız Səyyarələrində əbədi OdƏr bəşəriyyəti uşaq, nəvə, nəticə həsrəti çəksin, bu xaraba Yerin zülmət heyvanatı öz qısa ömründə hər şey görsün?! Bizim "xoşbəxtliyimiz Simurğun belində gedib", heyvanatın xoşbəxtliyi öz əlində olsun?! İkinci doğuluşdan[1] məhrum, ölümlü murdarlar da balam-balam desinlər, EySar deməsin?!

Əxi Baba:

– Nizami bilmirmi bu ədalətsizliyin səbəbini?

Nizami:

– EySar demirsə, Nizami hardan bilsin?!

Əxi Baba:

– EySar sənə deyib ədalətsizliyin səbəbini.

---

[1] İkinci doğuluş – Ruhun – ƏrAğın Ag ("Ay") planetinə uçuşu müddətində daxilinin elementlərlə dolması, "ölən" insanın ikinci dəfə yaranması

Nizami:

– EySar deyir: “Ədalət” yoxdur. OdƏl var: Həqiqət Əli. OdƏl – Dildir – taledir. Tale – OdƏl – Dildir. Təhrif dillilər bu həqiqəti dərk etsələr, ədalətsizlik qurtarar “Yer”də əbədi OdƏrlərim də qocalmazlar və əbədi xoşbəxt olarlar.

Əxi Baba:

– Sirri nədir?

Nizami:

– “Sirlər xəzinəsi”ni mənə cəmi iki ildir yazdırır. Deyir: “Təhrif dünyanın axırı barədə “Xəzinə”nin axırında yazacaqsan”. Nə vaxt? Demir.

Əxi Baba:

– Sirri nədir?

Nizami:

– Bilmirəm, baba. Bilmirəm!

Əxi Baba:

– Mən də bilmirəm, körpə balam. BağBağÜnün də körpədir, İlyas balam. “Dünya”əvəzində OdÜnEy, “Axır əz-Zaman” əvəzində AğƏr ƏsMən yazanda yazacaqsan “Dünya”nın axırı barədə.

Nizami:

– “Xəzinə”ni OdƏr dilində yazmıram mən. Deməkm “Dünya”nın axırı barədə yazmayacam?! Demək, “Xəzinə”nin axırını mən yox, “Axır-əz-Zaman” əvəzində “AğƏr ƏsMən” yazan yazacaq?!

Əxi Baba:

– De görüm, Qutayba balamın gözü yaşlı vaxtında bu iki körpəni üz-üzə qoyub “dünya”nın axırı barədə danışdıranımızın qəsdi nədir?

Nizami:

– Babam da körpədirsə, demək, sənə də dərs deyir?!

Əxi baba:

– Körpə Şeyx Nizami ilə bahəm bu ağsaqqal körpə BağBağÜn-də üsyan edir, qan ağlayır, oğul!

Sənlə bahəm!

Mən də EySar əvəzində “İsa” yazıram! ƏlAğ əvəzində “Allah”, AğƏr ƏsMən əvəzində “Axır-əz-zaman” yazıram! Nə vaxt, kimə nəsib olacaq OdƏr dilində “AğƏr ƏsMən” yazmaq?

Nizami:

– OdƏrcə yazmaq ancaq BağHəmOda qismətdir. Demək, "Məhəmməd"ə döndərilənimiz özü gəlib yazacaq?!

Əxi Baba:

– Xeyr. Sevinmə, ey əzabkeş şagird. "Məhəmməd"ə döndərilənimiz AğƏrə "axir", "axır" deyən "Dünya"mızda Quran oxuyan divlərə necə anladar ki, axırıncı peyğəmbər deyil?

Nizami:

– Demək, Sahib-Zamanımızı gözləməyək?!

Əxi Baba:

– Sarsılma!.. Yerlə Aləmlər arasında gediş-gəlişdən xəbərin yoxdur?! Söhbət açıq qayıtmaq üstündədir. Yeni BağHəmOdumuz "dünya"nın axırını xəbər verəndən sonra "Məhəmməd"ə döndərilənimiz də açıq qayıdacaq, Bağ Atamızla Oğulları da, Axirətə gedənlərimiz də. Aləmlər arasında maneəsiz gediş-gəlişlər kimi, Yerlə Aləmlər arasında da gediş-gəliş başlanacaq.

Nizami:

– Kimdir yeni BağHəmOdumuz, Baba?

Əxi Baba:

– Demir Sahibimiz, ey oğul, demir! Yalvarıram. Deyir Əxilərimiz nə vaxt batinlikdən çıxıb Sahib-Zaman "Mehdi"yə BağOd, "Məhəmməd"ə BağHəmOd deyəcəklərsə, Sahib-Zaman BağHəmOdumuz da o vaxt aşkar olacaq.

Sən də "Mehdi", "Məhəmməd" yazırsan, mən də SafAğ əvəzində özlərini "İxvan əs-Səfa" adlandıran alimlərimiz də.

Xəlifə Müstədbillah soruşub: "Ərəb dilində AğEy kəlməsi yoxdur, hardan eşələyib çıxartmısınız bu sözü?" Alimlərimiz deyiblər: "Ərəb dilində SafAğ kəlməsi də yoxdur, ya Əmirəlmöminin. Bu qəbildən olan sözlərin hamısını biz Məhəmməd ƏlEysəlamın "Quran"ı – şərifinin bətnindən alırıq" Müstədbillah qəzəbnak olub, deyib: "Quran"ı mən əzbər bilirəm. Rəsulillahın kitabında nə SafAğ var, nə də AğEy!" Alimlərimiz deyiblər: "Quran"ın bətni var. O bətnin də bətni var. Cəmi altı bətni var. Həqiqət yeddinci bətndədir". Müstədbillah deyib: "Altı bətni varsa, həqiqət necə yeddincidə ola bilər?!" Alimlərimiz deyiblər: "Yeddinci bətn Xəlifənin seyfindəki "GurÜn"dədir, onun da üstünə qan tökülüb, oxunmur!" Müstədbillah deyib: "O Quran həqiqətən oxunmur.

Oxunmayanı necə oxuyursunuz?!" Alimlərimiz deyiblər: "Biz elə ona görə Səfa üləması adlanırıq ki, üstünə qan tökülən[1] "GürÜn"də oxunmayanları Mehdinin öz dilindən eşidirik, SafAğ olmayanlarla danışmır Mehdi".

Bu hədisi mən sənə əbəs danışmadım, körpə İlyasım.

Dinlə, gör "Quran"ın "yeddinci bətn"i nə deyir?

Nizami birdən alışdı:

– Dinlədim, Baba! Dinlədim! "Yeddinci bətn"in təkrarından eşitdiklərim bətnimdədir!

Əxi Baba:

– Kimdir "Quran"ın "yeddinci bətn"i, körpə balam?

Nizami:

– Körpədən də körpəyəm, Baba. Məcburam şagird kimi cavab verim ki, Məhəmməd deyil, Məhəmmədə "Quran" verən Allahımdır "yeddinci bətn". İxvan əs-Səfa alimləri EySarın Ününü eşitməsəydilər, "GurÜn" əbədi batin qalardı. Bədbəxt ikən xoşbəxt, xoşbəxt ikən bədbəxt İxvan əs-Səfa alimi Nizamini çox danlama, BağBağÜnüm. Körpə İlyasın dərsini aldı.

Əxi Baba:

– Xeyr! Dərs hələ irəlidədir!

(Şərh: "Mehdi", "Məhəd" – BağOd "Həmid" – HəmOd, "Məhəmməd" – BağHəmOd və sair rütbələr – adlar Sahib-Zaman EySara, həm də EySarın "GurÜn"ünü yazan BağHəmOda aiddir. Odur ki, EySarın özü ilə birlikdə BağHəmOdu da Sahib-Zaman sayılır).

Daş cığırda dayanıb söhbəti dinləyən kəniz gümüş sinidəki şərbətlərdən birini Əxi Babaya, ikincisini Qutaybaya, üçüncüsünü Nizamiyə verəndə gənclərin hər ikisinə:

– Toyunuz mübarək olsun! – dedi.

Nizami ilə Qutayba eyni vaxtda Əxi Babaya baxıb, eyni heyrətlə, eyni sözlər dedilər:

– Bizim toyumuzdur?!

---

[1] Məhəmməd BağHəmOdun nəvələrinin qatili Müaviyə özünü "peyğəmbər" elan edib. "Gürlin"ü qurşağının altında gəzdirib. BağHəmOdun əmisinin tilasın əli ilə qətlə yetirib. Guya o vaxt da "GürÜn"ün üstündə qan tökülüb.

Əxi Baba:

– Afaqın üzü qızıl saçlı, mavi gözlü Sultanımız Atabəy Şəmsəddin Eldənizin Şəms üzüdür, İlyas balam. Bax gör oxşayır atasına?

Nizami diksindi.

– Atası Şəmsəddin Eldəniz?!

Aralıqda uzun sükut oldu. Nizami "qızıl saçlı, mavi gözlü Sultanın Şəms üzünə", Qutaybanın üzünə baxa-baxa qalmışdı.

Əxi Baba:

– Batin Afaqın niyə susur?

Qutayba:

– İnana bilmirəm... Mənəm Afaq?! Atam Sultanımızdırsa, anam Möminə xatundur?! Bəs gözümün qabağında qılıncla doğranan atam, anam, qardaşlarım?! Altı yaşımdan bu vaxta qədər hələ də röyada görürəm mərhum atamı, anamı, qardaşlarımı!

Əxi Baba:

– Röyada gördüyün mərhum atan Sultanımıza oxşayır. Mərhum anan Möminə xatuna oxşayır. Mərhum qardaşların Cahan Pəhləvanla Qızıl Arslana oxşayırlar. Sənin üzün isə Şəmsəddin Eldənizin Şəms üzündən heç seçilmir. Bu nə sirdir, batin Afaqım?

Qutayba:

– Xatun ana[1] deyir min yüz qırx altıncı ilin qışında Qıpçaq düzündə köçəri tayfaların qırdıqları Qıpçaqların hamısı Eldənizlərin yaxın qohumları olublar. Sultan Toğrulun vəfatından sonra Qıpçaq köçəriləri Səlcuq səltənətinin təbəəliyindən çıxanda Atabəy atamızın ordu başında binəmizə gəldiyi də məni qucağına alıb yollarda, düşərgələrdə əzizləyə-əzizləyə Gəncəyə gətirdiyi, sonra aparıb Təbrizdə Əxi Babama verdiyi də yadımdadır!

Əxi Baba:

– OdAğÜzdən bizə röya göndərən EySar röyada sənə həqiqi ata-ananı, həqiqi qardaşlarını göstərsəydi, Təbrizdə mənim yanımda sən bir gün də qalmazdın, Afaq balam: "Qutayba Fərruxqızı"nı batinlikdə saxlaya bilməzdik.

---

[1] Cahan Pəhləvan, Qızıl Arslan və Qutayba (Afaq) Möminə Xatunun doğma övladlarıdır. Möminə Xatunu gah Sultan Toğrulun arvadı, gah da Şəmsəddin Eldənizin bacısı kimi qələmə verən "tarixi məxəz"lərə əsaslanmaq olmaz.

Qutayba:

– O qırğın röyadır?! Binəmiz, obamız. Atabəy atamız, ordusu, hamısı röyadır?!

Əxi baba:

– Bu “röya” – ƏrEy – Uca İşıq Təhrif insan beyninə göndərilən adi röyalardan çox fərqlidir, Afaq balam. “Röya” – ƏrEy – Uca İşıq içində gördüyün Xatun anan indiki anan Möminə xatundur. “Röya”da gördüyün Bay atan Atabəy Şəmsəddindir. “Röya”da adları gizlədilən qardaşların isə Atabəy Məhəmməd Cahan Pəhləvanla Atabəy Qızıl Arslandır.

“Sirlər xəzinə”ndəki sirlərin hamısı “dəri”yə döndərilən OdƏr AğEylərin – Uca SafAğ insanların, bədbəxt batin bağların həyatıdır, balalarım. Görün necə bədbəxtik ki, Rumdan[1] Bağdada, Bağdaddan Çinə qədər hakim Sultanımız yeganə qızını bu vaxta qədər “Qutayba” adı altında gizlədib, bundan sonra isə “Qıpçaq qızı kəniz Afaq” adı altında gizlətməlidir.

Qışqır indi, Şeyx Nizami. “O sümük əli qırıb atmaq lazımdır!” Qışqıra bilməzsən. “Türk divanı”ndan sonra sənə “Məxzənül əsrar” yazdıran, BağHəmOdu “Mühamməd”, ƏlAğ EySarı “Allah” yazdıran EySar, təhrif dünyanın bu TəkEyini də “Təkyə” yazdırıb ki, günəş üzlü Şəmsəddin Eldənizin göyü Nizami öz Afaqı ilə xoşbəxt yaşasın.

Sənə bağışlanan xoşbəxtliyini bağrına bas! Qucaqla ƏrEvOdunu – OdEvinin işığını!

Afaq özü Nizamini qucaqlayıb bağrına basdı.

Əxi Baba:

– “Yaxınına gedəni dişi-dırnağı ilə parçalayan kəniz” – OdÜnƏs – kiünəs – Günəş Elmimizdir. Günəşə yalnız Günəşin

---

[1] Rum – Ərim (İşığım). İndiki Türkiyə ərazisi. Bağdayın beş vilayətindən üçü – ƏrEy (“Rey”), ƏrÜz (“Araz”), YanÜzAğ (“Qazax”) indiki “İraq”, “İran”, “Azərbaycan”, “Gürcüstan”, “Abxaziya” ərazilərində, ikisi – AğÜz (“Oğuz”), ÜzAğ isə indiki Türkiyə ərazisində yerləşirmiş. Makedoniyalı İsgəndərin yürüşlərindən sonra OdƏrlərin – Türklərin çoxu Bağdayı tərk edib, “tərik”, “Tərikan” adlandıqları dövrlərdə indiki Qərbi Sibir ərazisində şərti altıncı vilayət – SarUcAğ yaranıb. UcAğlar öz qədim vətənlərinə qayıdandan sonra həmin iki vilayət, sonra isə əvvəlki beş vilayət bütövlükdə SarUcAğ (təhrif dillərdə “Sircik”, “Səlcuq”) səltənəti adlanıb.

sirlər xəzinəsinə vaqif OdƏrlər yaxınlaşa bilərlər. Yaxınlaş, saçını sığalla, dindir Afaqını, Nizami. Danışdır ƏrEvOdunu!

Nizami Afaqın Günəş üzünə tamaşa edə-edə ağlayırdı.

Əxi Baba:

– Nizami söz tapmır. Sən de, Afaq balam.

Afaq da ağlayırdı.

Əxi Baba:

– Afaq balam da söz tapmır. Sən bir söz de, kəniz balam.

Kəniz də ağlayırdı.

Sən danış, BağHəmOdum Muğanna. De görüm, Nizami təkyəsinin qapısında baş verən bu hadisə xoşbəxtlikdir, ya bədbəxtlik?

Dəhşətli faciədir?

Bəli, əzizim. Dəhşətlidən də dəhşətlidir. Rumdan ƏrAğa – "İraq"a qədər, Çinə qədər, "Türk ərazisi" adlandırılan böyük ərazidə Səlcuq səltənətinin sahibi Sultan Atabəy Şəmsəddin Eldəniz öz yeganə qızı EvAğı "Qıpçaq qızı kəniz Afaq" adı altında, göyü ƏsAğ Nizamini "Şeyx" rütbəsi altında gizlətməyə, Kainatın sahiblərinin SafAğ Elmini batin saxlamağa məcbur idisə, bundan dəhşətli faciə olarmı?!

Budur sizin tarixiniz, ey təhriflərim! Bağlarımızın OdƏr dilindən azıb Yer üzünə səpələnib "bəşəriyyət" adlanan OdƏrlərimizin, bu adi həqiqəti heç bir müqəddəs "kitab"la – OdEvlə – EvHəqiqəti ilə sübut edə bilməyən SafAğ Alimlərimizin faciələridir sizin tarixiniz!

## *İkinci kitab*

### DİN

Təhrif insan nə vaxt, harda, necə təhrifə uğradığını, bətninin necə dəyişdiyini və hətta çürüməyə məhkum olduğunu da bilmir, ey Təhriflərim. Yalnız ünümü eşidən SafAğ Alimlərinin müdaxiləsindən sonra, hər şey açılanda insan mühitinin və özünün Elmdən kənar olduğunu dərk edib sarsıntı keçirir və sarsıntılarının səbəbləri üzərində düşünməyə başlayır. Min yüz yetmiş beşinci ilin payızında Əxilərimin – AğEylərimin arasında mənim SafAğ Alimim çox idi. Sizin isə BağHəmOdum Muğannadan başqa aliminiz yox-

dur. Nə vaxt, harda, necə təhrif olduğunuzu və necə çürüməyinizi Muğannaya verdiyim “GurÜn”dən biləcəksiniz. Heyrətlənməyin, ey “İdeal”ı, “Ölüm-dirim”i, – “Peyğəmbərin möhürü”nü “Məhşər”i dərk edə-edə idraksız qalan qeyri-adi idraksızlarım. Açıq tarixinizi oxuyub dərk edəndən sonra mühitinizi, həyatınızı və daxilinizi güzgüdə görən kimi görəcəksiniz, büllur kimi saflaşıb SafAğ İnsanlara çevriləcəksiniz, daxilinizlə birlikdə mühitinizi və Səyyarəniz – ƏsEyƏriniz EyƏri – “Yer”i də saflaşdırıb əbədi olacaqsınız.

Yenə heyrətləndiniz. Sualla dolu beyinlərinizdə sual suala calandı: “Yəni ölməyəcəyik?!” “Axirətə getmədən, əbədi olacayıq?!” “Əgər GurÜn”də belə qüdrət varsa, bəs Məhəmməd – BağHəmOda verilən “GurÜn”ü oxuyanlar niyə ölüblər?! Məhəmməd – BağHəmOd özü, Əli, Fatimə – EvOdMəni niyə Axirətə gediblər?! “GurÜn” Ərəb dilinə tərcümə olunub təhrif “Quran”a çevrilənə qədər o üstünə qan tökülən “GurÜn”ü SafAğ Alimləri də, Xəlifələr də oxuyublar. Bəs niyə Axirətə gedib hamısı?! ƏsEyƏrimiz – Səyyarəmiz “Yer” zəhərlənməmişdi ki o vaxt; torpaq təmiz, su təmiz, “GurÜn” əldə, niyə əbədi olmayıb insan?!”

Sualla dolu beyinlərinizdə bir-birinə calanan suallar beyinlərinizdə qalsın, üstünə qan tökülən “GurÜn” isə cahillərin seyfində: “GurÜn”ümün bu ƏsƏrini oxuyun, görün suallarınıza cavab alırsınız, ya yox.

Keçirəm “Hədis”ə – OdƏsə – Yaradan Həqiqətə.

Təkyə qapısının qabağında söhbətin ardını oxuyun.

Əxi Baba:

– Nizami ilə Afaqın xoşbəxtliyi məlumdur. Keçin təkyəyə, görək mənim xəzinədar Afaq – Qutayba Fərruxqızı balamla göyüm AtaBəy Məhəmməd Cahan Pəhləvanın xoşbəxtliyi necə olacaq?

Nizami:

– Cahan Pəhləvan nə vaxtdan göyün olub, Baba?!

Əxi Baba:

– Bu gün iki toy var təkyədə. Afaqla Nizaminin və mənim Qutayba balamla Cahan Pəhləvanın toyu.

Nizami:

– Əcəb sehrli gündür bu gün. AtaBəy Məhəmməd Cahan Pəhləvan Əxidir. Əxi – AğEy isə bir dəfə evlənir!

Əxi Baba:

– Cahan Pəhləvan ikinci dəfə evlənir bu gün.

Nizami ilə Afaq heyrət içində, bir-birinə baxıb həyətə keçdilər.

Həyətin solunda, Əxi Baba ilə kənizlərin olduqları çoxotaqlı, uzun evin nazik daş dirəklərinin aralarında ətraf icmaların Əxiləri, sağda, xırda-xırda pəncərələri qaralan, hündür kitabxana binasının qabağındakı hündür çardağın altında isə Cahan Pəhləvanla İnanc Xatun, sərkərlər və məliklər oturmuşdular.

Evlə çardağın arasındakı kiçik, dəyirmi hovuzdan o yanda, karvan darvazasından təkyəyə gələn enli, daş yolun sağ-solu Atabəyin əsgərləri ilə dolu idi.

Fərruxqızı rütbəli kənizlər[1] hovuzdan bir az bəridə cərgələnib saz çalsalar da, nə əxilərin üzlərində toy şənliyi vardı, nə də Cahan Pəhləvanla sərkərlərin və məliklərin.

Cahan Pəhləvan hərb libası – zireh əvəzinə Əxi libası – ağ çəpkən geyinmişdi. Başında polad dəbilqə əvəzinə qabağı iri zümrüd daşlı ağ çalma vardı. Yəni Təkyəyə siyasətçi hökmdar yox, Elm qulu Atabəy kimi gəlmişdi.

Əxi Baba ilə Nizami və Afaq daş cığırın qurtaracağında, Fərrux qızlarının cərgəsi önündə dayanar-dayanmaz Cahan Pəhləvan kətildən qalxıb, Xatunundan aralandı.

Sazlar susdu.

Kənizlər dirəklərə tərəf çəkildilər.

Əxi Baba:

– Bu səhər EySar dedi: “Cahan Pəhləvan təkyənin xəzinədarı Qutayba ilə evlənməlidir”. Bu xəbəri mən eşidəndə Cahan Pəhləvan da eşidib, İnanc Xatuna və Qutaybaya çatdırıb. Atabəyi dinləyək.

Cahan Pəhləvan:

– Hamınıza məlumdur ki, iyirmi iki il bundan əvvəl, Sultanımız Toğrul bəyin vəfatından sonra məmləkətimiz parçalanmışdı. Bağdayın ilk vilayəti ƏrEy, indiki “Rey” qalası Xəlifə Müstədinin göyü Əmir İnancın əlinə keçmişdi. Qalamızı qaytarmağa gedəndə, yəni on səkkiz il bundan əvvəl mən Əmir İnancın qızı İnanc Xatunu tanımırdım. Atamızın hökmü əsasında Əmir İnanca, qalanın haki-

---

[1] TəkEyin Şeyx Müəyyəddən sonrakı, Nizamidən əvvəlki sahibi Əxi Fərrux İmad – Əxi Baba mədrəsədə təhsil alan Əxi – AğEy qızların hamısını açıq “Kəniz” (OdÜnƏs), gizlin “Fərruxqızı” rütbəsi ilə saxlayırdı.

miyyətində qalmaq şərti ilə, döyüşsüz təslim təklif etdik. Əmir, xəlifənin gizlin göndərdiyi orduya arxalanıb təklifimizi qəbul etmədi. Sərkərlərimiz də Atamızın hökmünə əsasən, xəlifənin ordusu ilə döyüşmək istəmədilər. Mən özüm qılıncımı qından çıxarıb bir qism əsgərlə qala divarına pillәkən qaldırmağa vadar oldum. İçəri keçəndən sonra da sülh təklif etdim. Əmir İnanc ərəbcə danışdı. Qızıl Arslan hirsləndi, həmən az bir qism əsgərlə döyüş başlayıb ordunu divara sıxdı, təslim olmağa məcbur etdi.

Əmir İnanc hüzura çıxdı. Qalanın açarını istədim. Dedi: "Açar qızımın qəlbindədir. Aç, götür açarı".

Mən bu rəzilliyə güldüm. Qızıl Arslan isə qışqırdı ki: "Cahan Pəhləvan sənin qızıyın üzünü də görməyib, qəlbini necə aça bilər?!"

Arslanıma dedim: "Əxinin bir baxışı da kifayətdir. Gəlsin, baxım".

İnanc Xatun gəldi, baxdım. Dedim: "Atası bizdən ayrı olanın özü bizdən ikiqat ayrı olmalıdır. Əmma ayrılanlarımızı qaytarmağa qadir Elmimiz var. Elm qüdrəti ilə Şiə zəhərindən təmizlənib saflaşanda, bu ahunun qəlbində tək bir kişi surəti hakim olacaq".

O vaxt Nizami hələ şeyx rütbəsi almamışdı. Əxi Baba qış aylarında Naxçıvanda olurdu, yazda gəlib burda dərs deyirdi.

İnanc Xatunu buraya göndərdik. Bir il dərs aldı Əxi Babadan. İlin tamamında gəldim, bu həyətdə ikinci dəfə baxdım İnanc Xatuna. Gördüm mənə hələ də şiə gözü ilə baxır. Dedim: "Bir il də dərs al".

Üçüncü dəfə gələndə dedim: "Bir il də dərs al".

Əxinin bir baxışla gördüyü ilan zəhəri altı ilə təmizləndi və mən İnanc Xatunla yalnız altı illik təcriddən sonra evləndim.

Nizaminin xoşbəxtliyi ondadır ki, Afaq-EvAğdır, SafAğdır. Mənim bədbəxtliyim isə ondadır ki, Xatunum-AğOdÜnüm, babası Müstədinin saray mühitində yenidən zəhərlənib.

Həyətə çaxnaşma düşdü. Hamının gözü İnanc Xatuna dikildi.

Cahan Pəhləvan:

– Necə zəhərlənib mənim Xatunum? Xəlifə Müstədbillahın sarayında Elmdən ayrı – şiə zəhəri hardandır?..

Atabəy Məhəmməd Cahan Pəhləvanın Əxilərə danışdığı hadisəni indi özüm danışıram, Muğanna. Yaz.

ƏsElEvi, yəni qardaşım UluBağ ƏsƏlMənin HəmOdÜndəki SarEyini heç bir məna verməyən sözlə "Səlib" adlandıran, HəmOdÜn Vizantiya tapdağında qalandan sonra "Səlib"ə xaç mənası verən Ərəbin dili ilə desək, üçüncü Səlib müharibəsinin başlanmasından dörd ay əvvəl, yəni min yüz yetmiş birinci ilin yanvarının axırında Mən, SafAğ Alimim AtaBəy Sultan Şəmsəddin Eldənizə dedim: "Müharibənin əsas təşkilatçıları YeruSəlim KeSarı ilə İngilis dostun şir ürəkli Riçard, Müstədinin sarayındadırlar".

"İngilis dostun" dedim, çünki min yüz əlli birinci ildə, birinci Səlib müharibəsində əsir düşəndən sonra Riçard düz iyirmi il Türklərimin arasında qalıb hamı ilə, o cümlədən Şəmsəddin Eldənizlə dostlaşmışdı. "Qıpçağ"ım isə, BirOd ikən "Brit" – "Brit"aniya" adlanan məmləkətimizin[1] "Riçard" adlanan hökmdarının beyninə qapı aça bilməmişdi.

Beyniniz sualla dolmasın yenə, ey Təhriflərim. "İdeal"ı, "Ölümdirim"i, "Peyğəmbərin möhürü"nü, "Məhşər"i oxuyub hər şeyi dərk edə-edə idraksız qalan qeyri-adi idraksızlarım indi adi bir həqiqəti dərk etsinlər: "İslam"ın ƏsƏlimdən, "Din"in OdÜndən azdığını bilə-bilə "İslam"dan əl çəkməyənlərim necə cahildirlərsə, iyirmi il ərzində öz mərdliyi, məlahəti ilə Türklərimi əsir edən o əsir Riçard da elə cahil idi. Əynində döşü zərli yaşıl mahud kaftan, başında qızıl tac, mavi gözlərindən zər işığı saça-saça, YeruSəlim Kesarı ilə yanaşı əyləşib, sadə, şirin Naxçıvan ləhcəsində zarafatları ilə Xəlifənin məclisindəki Türk hökmdarları əyləndirən cahil, Türklərimin hamısının sevimlisi idi. Sualla dolu beyninizə sığışdıra bilərsinizmi ki, o cahil Riçard məni – EySarını da tanıyırdı, Bağ Atamı da, qardaşlarımı – Ulu Bağ ƏsƏlMəni, EySar ÜnEvi də! EvƏrim qardaşımın nə vaxt, nəyə görə Sar ÜnAğ təyin olunub, HəmOdÜndən haraya getdiyini, "Avraam", "Sara" və "sürgün" haqqında yazılanların həqiqətdən uzaqlığını da bilirdi və gizlin müttəfiqi xəlifə Əmirəlmömininin Müstədbillahın hüzurunda, "Avraam", "Sara", "İsaak", "Yaqub" vurğunu KeSarın yanında bu əcayib adlar, "vahid din", "vahid əqidə" barədə danışa-danışa, "KeSar"ı – OdSar,

---

[1] EySar bütün "Qalaktika"nın – QalAğın ƏlAğı – "Allah"ı olduğuna görə, Yerdəki bütün ölkələr Onun ölkələridir. Əlavə edirəm: "Yer"in təhrif dili ölkələri EySarın hakimiyyətindən çıxıb.

“Xəlifə”ni – AğƏlEv adlandıra-adlandıra hamını güldürürdü. Yəni SafAğ elmini, EyOdƏr, BağBağÜn, Babalarımın, Bağ Atamın Elmini ələ salırdı? Bəli”! Belə mahir şəxsiyyət idi o Şir ürəkli Riçard...

Günəş üzlü, mavi gözlü Eldənizim, sağ-solunda oğulları, arxasında sərkərləri və Səlcuq ordusu, Bağdadın saray meydanında gurultu qoparıb, gecənin yarısında gözlənilməz gəlişlə müttəfiqləri heyrətə saldı. İçəriyə altı nəfər keçdi: Sultan Şəmsəddin özü, Cahan Pəhləvanla Qızıl Arslan və sərkərlər: Rus, Öz Əba, Ay Əba.

Şəmsəddin Eldəniz:

– Cəmi SafAğ Alimləri kimi, mən də buyruq quluyam. Nə vaxt, haraya, nə üçün getdiyimi bilmirəm. Beynimdə ƏlAğ EySarın GurÜnü gurlayanda necə getdiyimi də bilmirəm.

EySarın buyuruğu ilə indi mən sizin gizlin yığıncağınızın bir sirrini açmalıyam. Xəlifə Müstədbillah, müttəfiqləri Kesar və Şir ürəkli Riçard, mənim istəkli təbəələrim Xarəzmşah Məhəmməd Təkişlə, məmləkətimizin qapısı Misirin sultanı Səlahəddinlə birlikdə, Səlcuq səltənətini devirmək barədə gizlin müqaviləni imzalayandan sonra Sultan Atabəy Şəmsəddin Eldənizə sui-qəsd hazırlayıblar. Budur sirr! Açdım. Düzdür?!

Müstədi təxtdən dik atıldı.

Təxtin sağında, alçaq kürsülərdə oturan dörd nəfərdən birincisinin – Sultan Səlahəddinin ağ çalma altında qara sifəti boğulub daha da qaraldı, ikincisinin – Xarəzmşah Məhəmməd Təkişin uzun üzü saralıb meyit üzünə döndü, KeSarın dəyirmi, ağ üzü dümağ oldu. Şir ürəkli sakit qalıb, gözlərini Şəmsəddin Eldənizin gözlərinə dikdi.

Şəmsəddin Eldəniz:

– Hamı qorxdu. Sən qorxmursan, Şir ürəkli.

Riçard:

– Açığı, sui-qəsdimizin açılmağına sevinirəm. Çünki müqaviləmiz möhkəm deyildi. Sultan Səlahəddinlə Xarəzmşah Məhəmməd Təkiş həmişə sənə sadiq olublar, əlahəzrət.

Şəmsəddin Eldəniz Xəlifəyə baxdı.

– Gizlin düşmənliyin aşkardır, Müstədi. Aşkar düşmən ol, sən də mərd danış. Səlcuq səltənətini devirmək mümkün deyil. Məni öldürsən oğlum Cahan Pəhləvan çıxacaq təxtə. Cahan Pəhləvanı öldürsən Qızıl Arslan Sultan olacaq, sonra məliklərimiz. Elmimiz əbədi, özümüz əbədi! Sui-qəsdin səbəbi nədir? Dəqiq de!

Müstədi təxtə çöküb, əlini əlinə vurdu.

– İmam Həsən İbn Həsən Səbbahı çağırın.

Şəmsəddin Eldəniz:

– Həsən Səbbah İsmaililərin[1] şiə imamı idi, Türkün qəddar düşməni idi. Onun oğlu İmam Həsən sənin iqamətgahında nə gəzir?!

– Açıq danış, açıq düşmənim!

Gizlin müqavilə! Sui-qəsd! Bundan böyük düşmənlik olmaz, Müstədi. Açıq danış!

Müstədi:

– Açığı budur ki, sənin "İxvan əs-Səfa" Adı altında batin SafAğ Alimlərin cəmi Xilafətdə "Qurani-şərifi şərh" adı ilə dini məhv ediblər. Xəlifə təxtində müqəvvaya dönmüşəm. İmam Həsən ibn Həsən Səbbaha "GurÜn"ü qəbul etdir. İsmaililərdən əlavə cəmi təriqətlərin müridlərinə "GurÜn" oxutmaq mənim boynuma!

Şəmsəddin Eldəniz güldü:

– Üstünə qan tökülmüş, oxunması mümkün olmayan kitabı necə oxutdurarsan, ya Xəlifə?

Müstədi:

– Sənin alimlərinə deyərəm özünüz necə oxuyursunuz, camaata da elə oxutdurun. Cana doymuşam mən siz türklərin əlindən! – Müstədi əllərini tavana sarı qaldırıb qışqırdı:

– Pərvərdigara! Məhəmməd Rəsulillahın – türk! Həzrət Abbasın – Türk! Mən bədbəxt Abbasini niyə Ərəbə çevirmisən?! O seyfdəki "GurÜn" sənin, Ərəbin dilindəki "Quran"ı batil etmək əvəzində niyə öz dilindəki "GurÜn"ü batin etmisən?! Əgər bu Elm OdÜndür, OdÜn olsun! Dindir, Din olsun! Bu nə fəlakətdir düşmüşük?! Dünya sənin, Elm sənin, biz sənin! Niyə ayırırsan bizi?! Rəsulillahın Xəlifəsini sultanına düşmən etməkdə qəsdin nədir, ya rəbbim?! – Xəlifə ağlayırdı.

Şəmsəddin Eldəniz:

– Deməк, sui-qəsdin səbəbkarı rəbbin ƏlAğ Ey Sarın özüdür?

Müstədi ağlaya-ağlaya birdən lorulaşdı:

– A kişi! A sənə qurban olum! Sənə sultanlığı kim verib?! Bu təxtin yanında, Xəlifə Müstədbillahla yanaşı təxtdə oturmaq ixtiyarını kim verib?! İndi səni Naxçıvandan Bağdada kim göndərib?!

[1] İslamın "İsmaili" təriqəti – Vizantiyada yazılmış tarixilikdən uzaq-yalan hədislər

Hamısı Rəbbimizin işidirsə, sui-qəsd niyə mənim işim olsun?! Düzmü deyirəm, ay Şir ürəkli?

Riçard qəhqəhə çəkdi:

– Tamamilə doğrudur, ya Xəlifə! Nəinki EySar özü, bizim bu sui-qəsdimizdə yəqin ki, Məhəmməd BağHəmOd özü də iştirak edir.

Şəmsəddin Eldəniz də yenə gülməkdən özünü saxlaya bilməyib, hökmdarlara baxdı.

– Niyə susursunuz?!

KeSar:

– Mənim bir ayağım Həmədanda, Cahan Pəhləvanın təxtinin yanında, bir ayağım da burda – Xəlifə Həzrətlərinin yanındadır. Həmədanda Xəlifəyə xilaf danışıram ki, Cahan Pəhləvana xoş gəlsin. Xəlifənin hüzurunda isə Səlcuq səltənətinin xilafına danışıram ki Xəlifəyə xoş gəlsin. Əcdadım OdƏr, özüm türk, dilim ifrit, latın dilində “Tövrat”dan dərs alıram, Ərəb dilində “Quran”dan dərs alıram. İndi “GurÜn”dən dərs al deyirsən, alım, əcdadımın Oduna qayıdıb, KeSarlıqdan əl çəkim, OdSar olum.

İmzamı pozdum müqavilədən, sultanım! Siz öz aranızda sülhə gəlsəniz, mən EyOddan tərik Yəhudinin nə işi var xristian İngilislə?! Düzmü deyirəm, ey Şir ürəkli?

Riçard:

– Tamamilə doğrudur, ey BirOd – “Birit”in OdSar – KeSar qardaşı! Abbasi! Elminə qayıtsa, İngilis bədbəxt Latın dilində “Tövrat”, “İncil” oxuyarmı?! Bağ oğlu Bağ EySara İisus deyərmi?! Xaç yürüşünə qoşularmı?!

Hər şey səndən asılıdır, Sultanım!

İyirmi ildə sən mənə etibar etmədin ki, yurduma qayıdım, həqiqət danışım. Səhərlər üzünü gülər gördüm, Od oldum, axşamlar üzünü qəzəbli gördüm, xaç oldum! KeSar da belədir – həm KeSar, həm OdSar! Xəlifə özü də belədir – həm Abbəsidir, həm EvƏsdir! Çarmıxda qalmışıq! Etibar et, özün müqavilə bağla. Dini bir olanın dili də bir olmazmı, Sultanım?!

Şəmsəddin Eldəniz müəmmalı gülə-gülə keçib Xəlifənin sağ tərəfində, öz təxtində oturdu.

– İndi gələ bilər o İsmaili İmamı.

Qapıda orta boylu, boz sifətli, boz xalatlı İmam Həsən ibn Həsən Səbbah görünüb, Xəlifəyə təzim etdi.

Şəmsəddin Eldəniz:

– Sultana etinasızsan, İmam Həsən.

Həsən:

– Sünni Türkə salam versəm, İmam Əli qənim olar mənə! "Quran"a qəsd edən kafiri qətlə çatdırmağı mən təklif etmişəm bu müttəfiqlər məclisində. Mən özüm də səni qətlə çatdırmalıyam! Həzrət Əlinin buyruğudur!

Şəmsəddin Eldəniz:

– Əlinin ününü eşidirsən?!

Həsən:

– Həzrət ərş-əlada, mən yerdə. Bu aciz bəndə necə eşidə bilər İmam Əlinin səsini?!

Şəmsəddin Eldəniz:

– Əlinin səsini eşitməyən bəndə "Əli buyruğu"ndan necə xəbər tutur?!

Həsən:

– İndi bilirsən.

Dərin sükut, durğunluq içində birdən vahiməli qadın qışqırtısı eşidildi:

– Atabəy! Əlahəzrət!..

Hamı qışqırtı səmtinə – təxtlərdən soldakı ziyafətgah qapısına baxdı. Orda, kürsülərdə oturan məmurların arxasında İnanc Xatun, solğun üzlü, arıq, sısqa bir gəncin əlindən uzaq məsafəyə atılmaq üçün düzəldilmiş ağır bıçağı alıb, uca, incə qaməti, zərif gözəlliyi ilə uyuşmayan sərt, kobud hərəkətlə gəncin boynundan yapışıb, ortalığa sürürdü. Bıçağı təxtlərin önündə oturanların arasına, ərinin ayağının altına atıb, gənci göstərdi:

– İmam Həsənin xaş-xaş tiryəki çəkən müridlərindəndir. Əlahəzrət Sultanı vurmaq istəyirdi.

Mürid daş döşəmədə üzüüstə idi. Arxası üstə çevrilib, gözləri axa-axa İmamına baxdı.

Həsən:

– Mənim müridlərim nə xaş-xaş çəkirlər, nə də içki içirlər. Sünni qanı tökməyə hazırlaşanda əvvəlcə zəhər içirlər, sonra bıçaq atırlar və ölüb Cənnətə gedirlər.

Xalatının cibindən barmaq uzunluğunda, nazik qızıl kuzəcik çıxarıb müridinə verdi.

– İç, övladım. Kifayət qədər içməmisən zəhəri. İç, Sultan Atabəy Şəmsəddin tanısın Əli övladı müridimi.

Mürid dikəlib, kuzəcikdən zəhəri son damlasına qədər içdi. İmamının əlində "Quran"ı öpdü və uzanıb keçindi.

Həsən:

– "Quran"ın qüdrəti belədir. Təbəəliyində olduğum Təbriz hakimi Qızıl Arslan, Cahan Pəhləvan mənim bu mərhumum kimi zəhər içib cənnətə getsinlər, Sultanı! Onda məlum olar ki, "GurÜn"ü Muhəmməd əleyhüssəlam yazıb. Və biz şiələr də əs-Səfa mədrəsələrinə gedib tədris edərik kitabımızı.

Həsən xalatının cibindən ikinci qızıl kuzəcik çıxarıb Qızıl Arslana tərəf uzatdı.

Əcnəbilər, Müstədi ilə məmurları, katibləri, hamı donub, sükut içində, gah Həsənlə əlindəki kuzəciyə, gah da Şəmsəddin Eldənizlə oğullarına baxırdı.

Həsən:

– Hə, nə oldu, tərifli Qızıl Arslan?! İç! Göstər Türk kitabına etiqadını! Tanıtdır özünü alim qələmə verən Eldəniz övladını! – Kuzəciyi Cahan Pəhləvana tərəf uzatdı. – İç, qüdrətli Cahan Pəhləvan!

Cahan Pəhləvan:

– Cahan Pəhləvanla Qızıl Arslan Cənnətə getsələr, bu Cəhənnəmi sən həqiqi Cəhənnəmə döndərərsən, ismaili imamı. Əgər "Quran" qüdrətilə Cənnətə getmək olarsa, özün iç zəhəri, get Cənnətə. Özün!

Həsən:

– Mən bu Cəhənnəmdə işimi qurtarmamışam hələ!

Cahan Pəhləvan:

– Biz də işimizi qurtarmamışıq hələ!

Türklərlə Riçard da şaqqıldaşıb güldülər. Hətta sakit, susqun KeSar da qımışdı.

Həsən:

– İmama rişxənd etmək olmaz, ey Əli qəzəbindən xəbərsizlər!

Şəmsəddin Eldəniz təxtdən endi, Xəlifə təxtinin sağındakı qırmızı məxmər üstündə iki qılıncdan birini – Əlinin uzun, enli, ağır "Zülfüqar"ını götürüb yuxarı qaldırdı. Qılıncının ucunda haça işıq parladı.

KeSarla Riçard bir-birinə, sonra qeyri-iradi öz bellərindəki qılınclara baxdılar.

Şəmsəddin Eldəniz:

– Şir ürəklim desin görüm, iyirmi il bundan əvvəl kimə əsir düşüb?!

Riçard heyrət, dəhşət içində idi. Mahir şəxsiyyətin məharəti ancaq buna çatdı ki, möcüzədən sarsıldığı bir vaxtda da öz həmişəki məlahəti ilə gülümsündü. Sultan Səlahəddinlə Xarəzmşah Məhəmməd Təkişin də möcüzədən dəhşətləndiklərini görəndə isə, o igid Türklərdən birinə – sultan Səlahəddinə əsir düşdüyünü deməyib, başqa cavab verdi:

– BağHəmOdun ədalət Əli EyMən Əlinin qılıncına əsir düşmüşəm, Sultanım!

Şəmsəddin Eldəniz:

– KeSar! Üç il bundan əvvəl, ikinci Səlib müharibəsində Səlcuq səltənətinin qüdrətinə təslim olan YeruSəlim cəngavərləri kimə təslim olublar?!

KeSar:

– Mənim cavabımı özün dedin, Sultanım. Əli qüdrətinə təslim olmuşuq.

Şəmsəddin Eldəniz qılıncın qəbzəsini Həsənin ovcuna basdı. Haça işıq söndü.

Şəmsəddin Eldəniz qılıncı Həsəndən alıb yenə yuxarı qaldırdı. Haça işıq yenidən parladı.

Şəmsəddin Eldəniz:

– EyMən Əlinin ədalət qılıncı "Sünni Türk"ün əlində işıq saçır! Bu nə möcüzədir, İmam?

Həsən işığa baxa-baxa qalmışdı.

Şəmsəddin Eldəniz qılıncın qəbzəsini bir də Həsənin ovcuna basdı. Haça işıq yenə söndü.

Şəmsəddin Eldəniz qılıncı alıb qırmızı məxmərin üstünə qoydu.

– "İmam" nə sözdür belə, ey İmam?! "Özünü Alim qələmə verən" Sultan özünü İmam qələmə verən təbəəsindən soruşur: "İmam"ın mənası nədir?!

Həsənin dili söz tutmurdu.

Şəmsəddin Eldənizin zərif sifətinin dövrəsində ağ işıq haləsi əmələ gəlmişdi. Xəlifədən başlamış katiblərə qədər, bütün məclis istər-istəməz ayağa qalxmışdı.

Şəmsəddinimin qəzəbli çağlarında işıq saçan üzünü siz BağHəmOdum Muğannanın üzündə görmüsünüz, ey OdAğÜzün o adi, sadə SafAğ İşığından xəbərsiz Təhriflərim. Küt-küt baxıb, düşünməyə də qadir olmursunuz. Çünki, sadəcə, mənim işığımdan tutulur beyinləriniz, ey hər şeyi görə-görə heç nə görməyən korlar!

EyMənə "İmam" deyən "İmam"ınızın aqibətini danışıram, BağHəmOdum yazır.

Əli qılıncındakı ƏsƏlEv AğƏrə (Yaradan Əl Evinin SafAğ İşığına) "Zülfüqar" deyən, "Zülfüqar"a haça mənası verən mənasız "İmam", qırmızı məxmərin üstündəki qılıncın haça olmadığına da diqqət yetirə bilmirdi.

Şəmsəddin Eldəniz qırmızı məxmərin üstündən BağHəmOdun uzun, nazik, yüngül qılıncını götürüb yuxarı qaldırdı.

– Bax, Həsən ibn Həsən Səbbah, Peyğəmbər əleyhüssəlamın qılıncı da işıq saçır mənim əlimdə. Səbəbi nədir?

Hardan biləsən, ey bədbəxt kar! Yalnız Ün eşidən SafAğ Alimlərinə məlumdur ki, Peyğəmbər – BağÜn EvƏr İşıq Evinin beynidir. Yerdə işi, əməli EySarın Ününü yazmaqdan ibarət idi. Yəni əli kimi qılınc işlədən deyildi. Bəs bu qılıncı nə üçün düzəltdirmişdi?

Bilmirsən, ey bədbəxt kar!

Yalnız Ün eşidən SafAğ Alimlərinə məlumdur ki, BağÜn EvƏr BağHəmOd boyuna münasib olmayan bu bir qulac qılıncı yalnız və yalnız daxili xoflandırmaq üçün qurşayırdı. Yəni qan tökməyə qabil deyildi. "İmam" – EyMən Əlidə Peyğəmbər – BağÜn EvƏr qüdrətli olmadığı kimi, BağHəmOdda da əli qüdrəti yox idi. Təhrif hədislərinizdə bəzi təhrifsiz kəlamlardan bilirsən ki, Məhəmməd orta boylu, zərif adam idi. Məhəmmədin dövlət Əli EyMən Əli isə nəhəng vücudu, zəhmli, iri, yaşıl gözləri ilə cahili dəhşətə gətirən "Xəlifə" AğƏlEv, yəni ƏlEvinin SafAğ İnsanı, "ədalət" – OdƏl – Həqiqət Əli idi. "Zülfüqar"ın işığı Əllahın – ƏlAğ EySarın işığıdır qatili kəsən, ey cahil, qılınc deyil. Sən bədbəxt isə o meyitin bıçağı ilə kəsirsən insanı. Yəni Elmdən kənarsan. Yəni təhrif işlər görüb, öz əməlinlə özünü cəzalandırırsan.

Sən də cəzalanırsan, Müstədi. İxvan əs-Səfa alimlərini dinləyib Elmimizə vaqif olsan da, eyni zamanda vaqif deyilsən.

EySar özü Elm vermir sənə.

Niyə?

Səbəbini indi bilərsən.

Xəlifə Müstədbillahla müttəfiqlərinin üçüncü sirrini açıram: bu məclisdə danışılıb ki, İmam Həsənin şiə bıçağından məni istəkli gəlinim İnanc Xatun xilas edəcək, sonra xilaskarım özü təamıma zəhər tökəcək.

Qızım, olub belə söhbət?

İnanc Xatun da eynilə Şir ürəkli kimi, qaynatasının gözlərinin içinə baxırdı.

– Bəli, sultanım olub.

Şəmsəddin Eldəniz:

– Həmədanda ərinə demisən: "İzn ver qışı Bağdadda keçirim". Nədənsə məhz bu gizlin məclis gecəsi gəlmisən Bağdada və bu məclisdə söz vermisən ki, mənim təamıma zəhər tökəcəksən.

İnanc Xatun:

– Bəli, Sultanım.

Şəmsəddin Eldəniz:

– Niyə söz verdin?

İnanc Xatun:

– İmam Həsən məni inandırdı ki, həqiqi Əli övladı İmam Həsən Səbbahla oğlu Həsən ibn Həsən Səbbahdır. İmamın düşməni Sultan Atabəy Şəmsəddin Eldəniz isə insan qiyafəsində İblisdir. Bir zaman Əmir İnancın qalasını fəth etdiyi kimi, indi Xəlifə babamın təxtini fəth etmək, özünü öldürmək qəsdindədir.

Şəmsəddin Eldəniz:

– Tamam inandın bu rəzil İsmailiyyəyə, yoxsa şübhən də oldu?

İnanc Xatun:

– Tamam inandım, Sultanım.

Şəmsəddin Eldəniz:

– Niyə?

İnanc Xatun:

– Bu rəzil etdiyin qüdrətli İmam cəmi məclisin hüzurunda bu müridinə zəhər verib öldürdü, sonra diriltdi.

Şəmsəddin Eldəniz:

– Yenə dirildə bilər?

İnanc Xatun:

– Əlbəttə, Sultanım!

Şəmsəddin Eldəniz:

– Diriltsin. “İblis” də inansın İmamın qüdrətinə. Meydan sənindir, Həsən ibn Həsən Səbbah! Dirilt müridini!

Şəmsəddin Eldəniz qılıncı yerinə qoyub təxtə qalxdı.

Məclisə sükut çökdü.

Həsənin gözü “Zülfüqar” qılıncda idi. Hələ də özünə gələ bilmirdi.

Müstədi isə, əksinə, birdən-birə dirçəlmişdi. Təxtin sağında gümüş sinidəki qara cildli kitablardan birini – “İncil”i götürüb açdı, ərəbcə oxuyub tərcümə etdi:

– “...Həzrət İsa o dul qadının evinə getdi, əllərini qızın meyitinin əllərinin içinə qoyub, üzüüstə döşəndi, sonra ayağa durdu, dedi: “Qalx, qızım”. Və qız dirilib ayağa qalxdı”.

– Bu sənin həmişə pislədiyin, “təhrif tərcümə” dediyin kitabda təhrifsiz kəlamlardandır, Sultan. Bayaq burda cəmi məclisin öz gözü ilə gördüyü möcüzə EySarın möcüzəsi idi.

Dedin: “Əlidə Peyğəmbər-BağÜn Evər qüdrəti olmadığı kimi, BağHəmOdda da Əli qüdrəti yox idi”.

İndi mən sənə deyirəm:

Həzrət Əli qüdrəti var səndə. Zülfüqar işıq saçır sənin əlində. İmam Həsəndə isə Əli qüdrəti yox, Allahımız ƏlAğımız EySarın qüdrəti var.

İmam dirildəcək müridini!

Bu dəfə də sən rəzil olacaqsan?

Xeyr!

Bizi rəzil edən Allahımın – ƏlAğımın yaratdığı rəzalətə də qurban olum ki, belə rəzalətin nəticəsində insan insanla qardaşlaşır. Ərəbin dilində müsəlmanla türkün dilində BağƏsƏlMən qardaş olur.

Mən təhrif dildə “Allah” da deyirəm, OdƏrcə ƏlAğ da. Həzrət “İsa” da deyirəm, ƏlAğ EySar da deyirəm.

“Xəlifə” – AğƏlEv mövqeyi vəhdət mövqeyidir, Sultan. Bu ədalət mövqeyinə niyə zidsən?! İngilis, Yəhudi, Türk, cəmi bəşər Oddan – həqiqətdən yaranıbsa və cəmi məxşuşluq həqiqətə qayıtmaq üçündürsə, bu bədbəxt Əmirəlmömininin xəlifəni niyə cana doydurursan, ey Türk?! Sənin sözünü təkrar edirəm: meydan sənindir, İmam!

Şəmsəddin Eldəniz:

– “İncil”dəki o təhrifsiz kəlam həqiqətən təhrifsizdir, Müstədi. Bu məclisdə təpədən dırnağa qədər “Xəlifə” kimi davranan

AğƏlEvə məlumdur ki, Bağ Atamızın Əlləri – oğulları ölü zənn edilən ən ağır xəstələri SafAğ İşıq qüdrətilə bir göz qırpımında sağaltmağa qadirdirlər. Ün eşidənlərimiz deyirdilər:

YeruSəlim yoxuşunda rəmzlə "dul" adlandırılan OdƏl qadınlardan birinin qızı həqiqətən SafAğ İşıqla sağaldılıb. Əmma Ün eşidənlərimiz bunu da deyirlər ki, "İncil"in əslini – türkcəsini yazanlarımız "YeruSəlim yoxuşu", "dul qadın", "qız", "ölü", "Əl" sözlərində başqa bir həqiqət gizlədiblər, qrekcəyə, latıncaya və qeyri təhrif dillərə tərcümədə rəmzlər itib. İndi yalnız Ün eşidənlərimizlə onlardan dərs alanlara, o cümlədən AğƏlEvə məlumdur ki, "YeruSəlim yoxuşu" fatehlərin – Qreklərin tutduqları ərazi mənasındadır, "dul", OdƏli – Dili itirənlər mənasındadır, "qız" – AğÜz OdƏrləri mənasındadır. "Əllərini qızın əllərinin içinə qoyan" Həzrət "İsa" Qreklərin tutduqları ərazidə AğÜz – "Oğuz" OdƏrlərinə Əllər – Əlim-Alimlər verib, OdƏli-Dili itirənlərimiz OdƏl – Həqiqət Əli köməyi ilə "ölü"lükdən – təhriflikdən xilas olublar. Budur EySarın "YeruSəlim yoxuşu"nda möcüzəsi! Meyitin üstünə "üzüüstə döşənmək" iftirasında məqsəd nədirsə, bu rəzil İmamın "möcüzə" iftirasında da məqsəd odur: sehr, qorxu yaratmaq yolu ilə hakim olmaq. Məhz bu məqsədlə üns bağlamısan sən bu İsmaili ilə, ya Xəlifə!

Müstədi "İncil"i örtdü, öpüb siniyə qoydu.

– İndi məlum olar. Buyur, İmam!

Həsən də, nəhayət, özünə gəlmişdi. Xəlifədən izn almadan, əsl İmam sərbəstliyi ilə yeriyib, gümüş sinidəki qara cildli kitablardan birini – "İncil"i öpüb yerinə qoydu. Sonra "Quran"ı götürüb, öpüb açdı, oxuyub tərcümə etdi:

– "O inəyi tapıb kəsdilər. Yarısını ölüyə vurdular, ölü dirildi".

Kitabı örtdü, öpüb yerinə qoydu.

– Sünni Türkün dilində "İnək" surəsindən oxudum mən bu kəlamı. Hamı hafizdir bu məclisdə. Hətta, mərhum İmam atam Həsən Səbbahın əcnəbi dostu Şir ürəkli də əzbərləyib "Qurani-kərim"i, hafiz olub. Hamınıza məlumdur ki, yəhudinin dilində Musamız, Türkün dilində BağSarımız, Rəbbimizdən soruşub ki, İsrail oğullarının diriltmək istədikləri ölü üçün nə lazımdır? Rəbbimiz buyurub: Bir Sarı inək tapın. Nə cavan olsun, nə qoca. Kəsin, parasını ölüyə vurun, ölü dirilsin".

Mən bu mərhum müridimi bir dəfə diriltdim, çünki ruhu hələ köksündə idi. İndi bu mərhumun ruhu Cənnətdədir. Ruhu Cənnətdən qaytarmaq üçün isə "İnək" surəsində rəbbimizin buyurduğu və Peyğəmbər əleyhüssəlamın yazdığı kimi, bir Sarı inək tapılmalıdır. "Nə cavan, nə qoca" bir inək.

Şəmsəddin Eldəniz:

– İmam Həsənin öz müridini necə zəhərləyib öldürdüyünü və necə diriltdiyini hamı gördü bu məclisdə?

Müstədi:

– Bəli, hamı!

Şəmsəddin Eldəniz:

– Şir ürəkli, sən də gördün?

Riçard:

– Bəli, əlahəzrət.

Şəmsəddin Eldəniz:

– Danış görək necə diriltdi?

Müstədi:

– Ey Türk! Ey Türk! Sən yenə məxlətə salmaq niyyətindəsən! Vəhdətimizi pozma!

Şəmsəddin Eldəniz:

– O inək tapılana qədər, kəsilib, soyulub şaqqalanana qədər bu məclisdə ağzımıza su almalıyıq?!

Danış Şir ürəkli!

Riçard ayağa qalxdı.

Kaftanının zər haşiyəli ətəkləri çəkmələrinin uclarına qədər sallanıb, uca qamətli, şax sümüklü İngilisi daha da uca və əzəmətli göstərirdi. Eynilə Şəmsəddin Eldənizin gözləri kimi yaşıl gözlərini dolandırıb Xarəzmşah Məhəmməd Təkişə baxdı və müəmmalı gülə-gülə danışmağa başladı:

– Türkmənlər mənim adımı demirlər. Elə "İngilis" deyirlər. Əsir düşəndən sonra iki il Naxçıvanda ƏlaHəzrət Sultandan dərs aldı bu İngilis, sonra əlahəzrətin izni ilə getdim Xarəzmşah Məhəmməd Təkişin qonağı oldum.

Yeyirdim, içirdim, yatırdım.

Bir də gördüm Səmərqənddən yekə-yekə Özbək Tacirləri gəliblər Xarəzmşahın hüzuruna. Özün bilirsən, əlahəzrət, özbək tacirləri yaman qarınquludurlar. Səmərqənd Əmirinin hökmü ilə

hücum çəkib Xarəzmi tez-tez talayırdılar. Şaha dedim bu talançıların qulaqlarını kəs ver əllərinə, Əmirə töhfə aparsınlar. Özün çıx get bir yana, təxtdə Xatun anan otursun. Bu İngilis də əsir kimi yox, elçi kimi otursun təxtin yanında.

Xülasə, Şah razı oldu. Yüz tacirin yüzünün də qulaqlarını kəsdi qoydu ovuclarına, çıxdı getdi. Sonrasını özün bilirsən, əlahəzrət. Müharibə başlandı. Xarəzmşah Məhəmməd Təkiş Səmərqənd Əmirini məğlub etdi. Qarınqulu tacirlər o vaxtdan daha talamırlar Xarəzmi.

Müstədinin gözləri həlqələnmişdi.

– Bu nə hadisədir?! Nə demək istəyirsən?! Sultan buyurdu ki, İmam Həsənin öz müridini necə diriltdiyini, yəni gözünlə gördüyün həqiqəti danışasan. Sən isə, dostun Sultan Səlahəddinin Qarabağlıları kimi[1] hədyan danışırsan!

Şəmsəddin Eldəniz:

– "Qarabağ"lılar – GurBağlardır, hədyan içində həqiqət danışırlar, Müstədi. Şir ürəkli də məhz GülBağlar kimi və əsil hökmdar kimi danışdı.

Dedi mən Şir ürəkli Riçard deyiləm Türkmən arasında İngilisəm, yəni məkrliyəm. Firənglərlə ticarət zamanı əcnəbilərdən külli miqdarda qızıl alıb Özbəklə Türkmən arasında düşmənlik salmağa söz verən tacirlərin qulaqlarını kəsdirməklə İngilis Özbəklə Türkmən arasında məhz düşmənlik salıb. Sonra Xarəzmşahı paytəxtindən kənara göndərib, təxtdə zənən oturdub. Səmərqənd Əmiri güman edib ki, zənəni lap asanca məğlub edəcək. Əmma əksinə olub: Məhəmməd Təkiş gözlənilmədən arxadan hücum edib, Əmirin ordusunu qırıb. Bir düşmənlik də bundan törəyibsə, gör ingilis nələr edib!"

Müstədi:

– İmam Həsənin möcüzəsinə nə dəxli var bu İngilis məkrinin?!

Şəmsəddin Eldəniz:

– Mən dedim Şir ürəkli əsl hökmdar kimi danışır. Əsil hökmdarı isə axıra qədər dinləmək lazımdır. Buyur, Şir ürəkli!

Riçard eyni tərzdə, müəmmalı gülüb, Həsəni göstərdi.

– Hədyan danışmağımın səbəbi məhz İmamdır, ya Xəlifə. Məəttəl qalmışam ki, bu İmama özünün möcüzə qüdrətini verən

---

[1] Misir Sultanı Səlahəddinin əsli Qarabağdandı.

EySarımız niyə Əli qüdrəti verməyib ki, Əlinin qılıncına sahib olub "İnsan qiyafəsində İblis" Türkü məğlub etsin?

Müstədi:

– Sənə dedilər Rəbbimiz hər bəndəsinə bir cür qüdrət verir! Atabəy Şəmsəddin Eldəniz Sultan yaranıb. Qılınc qüdrəti verilib ona. İmama isə imam qüdrəti verilib.

Riçard:

– Sənə isə, ya Əmirəlmöminin, Xəlifəlik verilib ki, möminləri etiqada çağırasan. Bəs Əli qılıncı niyə səndədir? Qılıncı ver qılınc qüdrətiylə, təbəəsi Həsən ibn Həsən Səbbah birdəfəlik tabe olsun ona! Yoxsa, Sarı inək tapılana qədər hədyan danışmağa məcbur olub nəticədə öz məkrimlə səni tamam məğlub edəcəm.

Şəmsəddin Eldəniz:

– Mənim qüdrətim qılıncda deyil, Müstədi, Əldədir. Əl OdÜnƏsəm mən. Nə dedim mən? Cavab ver bu suala. Sonra Şir ürəkli danışsın gözü ilə gördüyü möcüzəni.

Müstədi:

– İngilislə müttəfiqliyindən bilinir ki, məxlətə niyyətindəsən!

Şəmsəddin Eldəniz:

– Niyə?

Müstədi:

– İngilis məkrilə vurdu məni ki, həqiqəti açım. İndi açaram həqiqəti.

Alimlər deyirlər "Qurani-şərif"in "İnək" surəsi də təhrif tərcümədir. "GurÜn"ün ƏsƏrində mətləb inək üstündə deyil, Sar ÜnAğ üstündədir. SağAğ İnsan Bağ Atamızın Ününü eşidən Sar-hökmdar lazım imiş ki, Elmdən kənar düşdüklərinə görə diri ikən ölü olan İsrail oğullarını diriltsin. Həqiqətimizə düşmən mütərcimlər Sar kəlməsini BağHəmOdumuzun millətinin dilindəki "Sarı" kəlməsi ilə əvəz ediblər. Sar-hökmdar əvəzində sarı kəlməsini tərcümə ediblər. ÜnAğ əvəzində isə yenə də BağHəmOdumuzun millətinin dilindəki "inək" kəlməsini tərcümə ediblər. Mən bədbəxt Əmirəlmöminin, bu rəzil etdiyin İsmaili təriqəti əhlinə dəfatla demişəm ki, "Quran"ın sirrini açmağa vadar etmə məni, cümləmiz rəzil olarıq. Dəfatla anlatmışam ki, "nə cavan, nə qoca, orta yaşlı" kəlamı "Sarı inəyə" aid deyil, Sara, hökmdara, yəni İsrail oğullarına Elm öyrətmək üçün göndərilən SarÜnAğa, yəni bağ

Atamızın üçüncü Oğlu EvƏrimə aiddir. Məndən başqa bu rəzilə KeSar da izah edib ki, məmləkətimizdə yayma bu “Sarı inək” əfsanəsini, İsrailin həqiqətdə ƏsƏrƏl olduğunu yaxşı bilən Yəhud – EyOd OdƏrlərinə çoxdan məlumdur ki, sənin dilində İbrahim, Yunanın, Latının dilində “Avam olanımız SarÜnAğ EvƏrimdir.

Budur həqiqət. Mən özüm də rəzil etdim bu “Sarı inək” tələb edənimi. İngilislə də düşmən olduq. Bəs deyilmi, ey mənə zülm edən Sultan?!

Sənin qüdrətin Əldə – Oğulda, yəni EySardadır. BağHəmOdumuzun qüdrəti də Əldə-Oğulda, EySarda olub. EySarın Əli EyMən Əli qılıncı BağHəmOdumuzun əlində də işıq saçırmış. Çünki BağHəmOdumuz “rəsul” yox, ƏrƏsƏl idi: Yaradan Əlin-EySarın İşığı. Sən “rəsulillah” – ƏrƏsƏl ƏlAğ deyilsən, sultan – ƏsƏl OdÜnsən: Yaradan Əl həqiqətinin Ünüsən. EySarımızın Ünü Ərlə – işıqla gəlir sənin beyninə. O işıq canına-qanına yeriyir və sən bu qılıncları əlinə alanda işıq qılınclara da keçir.

Bəli, qılıncda deyil qüdrətin, Əldə – EySardadır.

“İxvan əs-Səfa” – Saflıq qardaşları Alimlərinin bu sarayda hər gün təkrar etdikləri həqiqətləri indi yenə təkrar etdirməkdə niyyətin nədir?!

Şəmsəddin Eldəniz:

– Xəlifə bu külli-məxluq içində öz dili ilə “Quran”ın sirrini açır, “Xəlifə”likdən çıxıb AğƏlEv olur. Yəni beyni SafAğ İnsan BağAtamızın Əli EySarımızın Evinə Ün, həqiqət məkanına çevrilir. Nəvən – ÜnEvin də məhz bu cür dərs alıb, İnanc ikən Ün ÜnOda – Həqiqət Ününün səsinə çevrilib. İnsan ikən ÜnƏsə – Yaradan Ünə çevrilib.

Həqiqət danışan AğElEv, deyin görək, ÜnEv gəlinim həqiqəti dərk edə-edə bu “Sarı inək” tələb edənə niyə inanıb?!

Müstədi:

– Alimlərin deyirlər: “Nə qədər ki, Sar ÜnAğ EvƏrimi “Sarı inəyə” çevirən, Bağı “Boq”a, EySarı “İsa”ya “İsus”a çevirən kitablar bu sinidədir, bu sarayın ab-havasında kamilliklə qeyri-kamillik qarışacaq. Xəlifə həm AğƏlEv adlanacaq, həm də Xəlifə. İnsan həm ÜnƏs adlanacaq, həm də “İns” və SafAğ Alimləri bu saraydan çıxandan sonra burada insan insanlıqdan məhrum olacaq”.

“Açıq düşmən”in açıq danışır: Məxfi müqaviləni imzalayandan sonra nəvəmi aldatmışıq biz. Ölməyib bu meyit mürid. Zəhər yox, Həsən bihuşdar verib ki, “diriltsin”.

Şəmsəddin Eldəniz:

– Cəzalandınmı, müstədi?!

Müstədi, etirafdan sonra da yumşalmayıb belə sual verən Sultanın qəddarlığından daha da sarsıldı və təxtində ikiqat olub, yenə ağladı.

Şəmsəddin Eldəniz:

– Ağlama, Müstədi. Bilirsən ki, OdƏrlikdən məhrum olan AğƏlEvə biz “kor xəlifə” deyirik. Sən “kor” deyilsən hələ. Şir ürəkli müttəfiqin də “kor” deyil hələ. OdƏrliyə meyllidir. Dinlə, gör nə deyir.

Riçard:

– Bu rəzil Həsən ibn Həsən Səbbahın ən böyük rəzilliyi bundadır ki, Həsən Səbbahın oğlu deyil. Adı da Həsən deyil, Əhməddir. Burası sənə məlumdurmu, ya Xəlifə?

Müstədi cavab əvəzində başını tərpədib, bir az büküldü.

Riçard:

– Həsən Səbbah özünü ölmüş elan edib, Ələmut qalasından kənar, gizlin məkanda hər biri özü ağırlığında qızıla alınmış yüz gözəllə keyfə qurşanandan sonra Ələmut qalasında Həsən Səbbahın böyük qardaşı Məhəmməd “Bözörg” təxtə çıxdı. GurBağ ləhcəsində deyirəm, bambılının birisi idi o özünə “Bozörg” – böyük dedirdən Məhəmməd Bözörg. Təxtinin üzünü Məkkədən döndərib, “Naxçıvan” – ÜnAğ ƏsEvÜn tərəfə qoydu, dedi: “Qiyamət” – OdEy EvOd günüdür, “qiyamət” o vaxt qopur ki, insanın yalan əqidəsi ölür, o “biri”si – OdƏr əqidəsi dirilir. Zirzəmilərdən saysız – hesabsız şərab tuluqları çıxartdıran Məhəmməd Bözörg, şərabı sel kimi axıtdı və elan etdi ki, qardaşım Həsən Səbbah lotudur, məni təxtə çıxarıb, qızıl küpələrini aparıb. Xəlvət sarayda yüz zənənlə kef çəkir.

Burası da məlumdur sənə, ya Xəlifə.

Bəs mən Şir ürəkliyə hardan məlumdur?

Ordan məlumdur ki, Həsən Səbbahın ən yaxın dostu idi bu məkrli İngilis. Lotu, bambılı Məhəmməd Bözörg lotu, bambılı qardaşını ifşa edib Səlcuq təbəəliyini rəsmi qəbul edən günü inancın dəyişdiyini bayram edənlərin arasında mən məkrli ingilis o Bözörgün bu Əhməd oğlunun adını İmam Həsən ibn Həsən Səbbah

qoydum. Ələmut qalasında car çəkdilər ki, İmam Həsən Səbbahın batin həqiqəti yalnız öz oğluna məlum olub və Həmən Səbbah öz oğlu Həsəndə zühur edib. Müridlər Əhməd adı ilə tanınan on beş yaşlı cavanın İmam Həsən ibn Həsən Səbbah olduğuna dübarə inandılar və bu rəzil təxtə mindirdilər.

Şəmsəddin Eldəniz:

– Xəlifənin məkrli müttəfiqi desin görək, mənim sadiq təbəələrim Sultan Səlahəddinlə Xarəzmşahı necə qoşdu bu gizlin müqaviləyə?

Riçard:

– Ün eşidən ƏsƏl OdÜnə məlum deyilmi necə qoşdum?! Hər ikisi bilir ki, gizlin Xaç müttəfiqi islamla Atabəylər – OdBağlar arasında qohumluq əlaqəsini qırmaq niyyətiylə Xəlifənin və İnanc Xatunun ifşası üçün düzəldilib bu oyun...

İngilis məkrinə nifrətini təbəssümlə gizlətmə, Sultanım. Əgər günahlarımı az-çox yuya bildimsə, Sultan Səlahəddinə de, cəngavərlərimi azad etsin. Vətənə qayıtmağımın vaxtı çatıb.

Şəmsəddin Eldəniz:

– Tək gedəcəksən, Şir ürəkli, tək-tənha! Cəngavərlərin ömürlərinin axırına qədər əsir qalacaqlar. Misirdə tərsa qəbirstanı əmələ gələcək. Bir də bu torpağa ayaq bassan, sənin qəbrin də o qəbirstanda olacaq. Get! Özünü EyOd – “Yəhudi” qələmə verən Qrek KeSarı da apar.

Yəhudi – EyOd OdƏr deyil o. İskəndərin zamanından Yunan oturur ƏsƏrƏl – İsrail təxtində. Yunan latın birliyinin türkə qarşı iki yüz illik müharibəsindən sonra da belədir. Yunandır bu özünü OdSar qələmə verən KeSar! Yən irsən fatehdir! Getsin!

Riçardla KeSar kandara qədər gedib geri döndülər.

Riçard:

– Bir sualım var, əlahəzrət.

Şəmsəddin Eldəniz:

– De.

Riçard:

– Səlcuq səltənəti ərazilərində iyirmi ildə mənim gördüyüm işləri bilə-bilə, bu qədər imkan sahibi ƏsƏl OdÜn niyə imkan verib mənə?

Şəmsəddin Eldəniz:

– “Yer”in təhrif mühitində “Sultan” adlandırılan ƏsƏl OdÜn rütbəsi EySarımızın rütbəsidir. İmkan sahibi də özüdür. Şir ürəkli övlad da onun övladıdır!

Dedim: “Misirdə tərsa qəbirstanı əmələ gələcək. Bir də bu torpağa ayaq bassan, sənin qəbrin də o qəbirstanda olacaq”. EySarın Ününü dedim mən sənə. EySarın Ünü hökmdür. Mən hökmü təkrar edənəm, ey tərsa qardaşım!

İyirmi ildə sənə əl qaldırmayanın təkrarı necə əl qaldıra bilərdi sənə?! ƏlAğ EySara təşəkkürünü təhrif “İisus” adını unutmaqla bildirsəydin, sən də əbədilərdən olardın, ey bətni çürük Şir!

Riçard sinəsindəki qızıl xaça baxırdı. Gözləri dolmuşdu.

– İzn ver ayaqlarına yıxılım, ƏsƏl OdÜnüm!

Şəmsəddin Eldəniz:

– Mənim yox, Onun ayaqlarına yıxılmaq istəyirsən. O isə övladlarının ikiləşməyini xoşlamır. Get “Brit” torpağındakı təbəələrinə şərh et ƏsƏl OdÜn rütbəsinin mənasını, anlayarlarmı?!

Riçard gözlərini silib, başını buladı.

– Çətin, çox çətin, ƏsƏl OdÜnüm. Cəmi “Britaniya” “YeruSəlim yoxuşudur”.

Şəmsəddin Eldəniz:

– İndi anladınmı müsibətimizi?!

Siz necə, anladınızmı, ey təhriflərim? Mənim “ayaqlarıma yıxılmaq” istəyən Şir ürəkli Riçard mənim yox, sinəsindəki xaçın “ayaqlarına yıxılmaq” istəyirdi. Hər şeyi dərk edə-edə heç nə dərk etməyən qeyri-adi idraksızların hamısı belədir. SafAğ mühitindən ayrılıb, meyiti bütə çevirən Xaç mühitinə düşəndən sonra Riçard, vaxtilə ŞumƏrlərimin EvƏrBağ adlandırdığı “Avropa”dan, “YeruSəlim”dən və “İtaliya”dan Xaç hökmdarlarının hamısını çağırıb. Bağdadda imzalanan həmən “gizlin” müqavilənin əsasında, Xaç cəngavərlərini guya İslam üstünə göndərdi. Əslində isə, Din Dinlə birləşib, Elm üstünə yeridi. Fateh Dindir. Odu-həqiqəti öldürüb, anlaşılmaz “ki”yə, “kü”, “ku”, “ko”ya çevirən, ey Təhriflərim!

O üçüncü Səlib yürüşü Dinin məğlubiyyəti ilə qurtarandan sonra nə oldu?

Bilmirsiniz.

Min yüz yetmiş birinci illə yetmiş beşinci illər arasında o rəzil Əhməd – “İmam Həsən ibn Həsən Səbbah” Xaç və İslam qızılı ilə

saysız-hesabsız mürid yığıb, Bağdaddakı “İxvan əs-Səfa” Alimlərindən başlamış, Marağa, Təbriz, Zəncan, Naxçıvan, Gəncə mədrəsələrində dərs deyən SafAğ Alimlərinin hamısını tinlərdən, pəncərələrdən atılan bıçaqlarla bircə-bircə öldürdü. Həmin bu vaxtlar Təbrizdə, sonra da bütün Bağday ərazisində GurBağ, AğBağ adlarının – rütbələrinin əksinə, özlərini “Qara muğlar”, OdƏrlərimizi “Ağ muğlar” adlandıran saysız-hesabsız Fars-Ərəbdili, Türkdilli əcnəbilər peyda olub İsmaililərlə əlbir, qırğına – “terror”a başladılar. Bu, yalnız “Ağ muğlar”ın özlərinə yox, həm də Elmə qarşı idi; “Qara muğlar” deyirdilər: “Ağ muğların hər şeyi var, bizim heç nəyimiz yoxdur. Bağa “muğ”, Gura “qara”, Oda “tü”, OdƏsə “atəş”, GurOda “kird”, GurOdMənə “kirdman”, GurÜnə “Quran”, BağHəmOda “Muhəmməd” deyib hər şeyi tərsinə çevirsək, “Ağ muğlar”ın özlərini də tərs dildə danışmağa vadar etsək, “Ağ muğlar” hər şeydən məhrum olarlar, bizim hər şeyimiz olar.

Beləliklə, əqidəsini, dilini dəyişməyən türkə qarşı çıxan türk, Yevreyə qarşı Yevrey, Farsa qarşı Fars, Ərəbə qarşı Ərəb, Rusa qarşı Rus, Yevropaya qarşı Yevropa, Britə qarşı Brit yarandı. Xaç təxti Rimin Xaçı hətta, BağOd ikən “Budda”ya çevrilmiş “Büt” təxtlərində də özü kimi dəhşətli – yalan bütlər oturdub, bəşəriyyətinizi qula çevirdi.

Beyinləriniz yenə sualla doldu, ey Təhriflərim. “Qadir Allah niyə yol verdi belə rəzalətə?” “Qüdrətli Sultan Atabəy Şəmsəddin hər şeyi əvvəlcədən görə-görə, bilə-bilə, əhalini niyə xilas eləmirdi?!” Tutaq ki, o Şir ürəkli, KeSar, Müstədi həqiqətdə də EySarın övladları idilər, bəs o rəzil imamla o meyit mürid kimilərin imkanlarını birə yüz artıran “Qara muğ”lara – gizlin Yunan-Latın axınına niyə imkan verirdi imkan sahibi?!”

Haqlı suallardır?

Xeyr, ey Təhriflərim. BağHəmOdum Muğannaya sui-qəsd fikirləri ilə dolu beyinlərinizə baxın. Ovcumun içindədir beyinləriniz. Niyə qırmır sizi bu imkan sahibi?! Bütün Bağday ərazisində, bütün “Yer”də yeganə SafAğ Alimimi “avariya”ya salmaq, “noj”la vurmaq, zəhərləmək üçün dəridən çıxırdınız. Mən isə “GurÜn” verdim. O əzabkeşimin beynini SafAğ İşıqla əsir edib, illərlə OdƏr dili öyrədib, nəticədə onun əli ilə sizə yazdım. Nədir bunun səbəbi, ey rəzil İmam Həsəndən də betər rəzillər, o meyit

müriddən də betər meyitlər! Qatil beyinlərinizdən "inəyi" çıxarmaq üçün xüsusi şərh vermişəm, BağHəmOdum yazıb verib, yenə də ÜnAğ əvəzinə "inək" deyən meyit "mürid"lərsiniz! Rəzil Həsən ibn Həsən Səbbahın xələfi rəzil Xomeyninin meyitlərisiniz, "Qara Muğ"lar – "şiə"lər – ayrılarsınız! Sultan Atabəy Şəmsəddin Eldənizim siz seyidlərin sələflərindən birinə də əl qaldıra bilmirdi. Mən ixtiyar vermirdim, ey rəzil övladlar!

Məhz Sultan Atabəy Şəmsəddinin qan tökməyinə izn verilmədiyinə görə, "Naxçıvan" – ÜnAğ ƏsEvÜnün yaxınlığındakı məşhur Alimlər şəhəri ƏsOda – "Şəki"yə gizlin "Qara muğlar" dolub, lap qısa müddətdə SafAğ Alimlərini qırdılar, şəhəri ƏsOd əvəzində "Əski" də yox, "Şəki" adlandıra-adlandıra Naxçıvana doldular.

Yetmiş beşinci ilin oktyabrında İnanc Xatun Şəmsəddin Eldənizimin ƏrEvOdu Mömünə xatunu zəhərlədi. Mən o Zəhər zənənə də toxunmadım.

Mömünə xatunun ölümündən bir ay sonra Şəmsəddin Eldənizimin özünü zəhərlədi. Mən yenə toxunmadım O Zəhər zənənə.

Şəmsəddin Eldənizin ölümündən on il sonra, səksən altıncı ilin fevralında Cahan Pəhləvanı zəhərlədi. Mən yenə toxunmadım o Zəhər zənənə. Nədir bunun səbəbi, ey İlan-zəhər, "Avariya", "Noj" övladlarım?! Səbəb nədir ki, saysız-hesabsız SafAğ İnsan öldürə-öldürə özünüzü cəzalandırandan sonra da heç cür dərk etmirsiniz ki, siz yalnız özünü öldürürsünüz?!

Cavab tarixinizdədir.

Mən yüz səksən altıncı ilin martının axırında Cahan Pəhləvan Naxçıvanda, Sultan Atabəy Şəmsəddinlə Mömünə xatunun qəbirləri ilə yanaşı dəfn ediləndən sonra Qızıl Arslan, sərkərdələri Rus, Öz Əba, Ay Əba və ordusu ilə Naxçıvandan Bağdada tufan kimi yeridi.

Qəzəb tufanı saraya dolanda Müstədi təxtdən endi. BağHəmOdum Məhəmmədin qılıncına uyğun düzəldilmiş nazik, uzun qılıncını qından çəkib, Qızıl Arslanın qarşısında döşəməyə qoydu, diz çökdü.

Qızıl Arslan:

– Qalx! Qılıncını qına qoy. Otur, öz dəst-xəttinlə yaz: Sultan rütbəsi! Atabəy Qızıl Arslan Eldənizə! Öz əlinlə də kəbin kəs. Qardaşımın xatunu, Xəlifə nəvəsi İnanc Xatunla evlənirəm...

İnanc Xatun təxtin sol tərəfində, ziyafətgah qapısının kandarında dəhşətdən qurumuşdu.

Müstədi, katibinin yerində oturub iki sənədin ikisini də yazdı, möhür basdı. Qızıl Arslan sənədləri alıb, sağ çiyninin arxasındakı sərkərdəsi Rusa verdi.

Müstədi:

– İnana bilmirəm...

Qızıl Arslan:

– Nəyə?

Müstədi:

– Şərafətli sultanım əlahəzrət Cahan Pəhləvan Məhəmmədin dəfnindən cəmi bir gün keçib.[1] Qara libasda, yas içindəsən. Mən özüm də qəddimi düzəldə bilmirəm. Belim sınıb, Arslanım! Xəlifənizin bu halətində ordu çəkmisən Bağdada, sultanlıq tələb edirsən. Razıyam. Buna iradım yoxdur. Nəvəm İnanc Xatunun gözünün yaşı qurumayıb. Necə qaldıracaqsan onun yorğanını?!

Qızıl Arslan:

– Sultanlığın Bağ təxti Təbrizdir bu gündən etibarən. Təbrizlə Bağdadın arasında dəşti-kəbir səhrası var. O səhrada “Bisütün” qayaları var. De görüm, ya xəlifə, Rumdan Misirə qədər Türk səltənəti ikən Təbrizlə Bağdad arasındakı səhraya niyə “dəşti-kəbir” deyilir? “Dəşti-kəbir” səhrasındakı Bağstan qayalarına niyə “Bisütun” deyilir?

Müstədi:

– Mərhum əlahəzrət sultan Atabəy Şəmsəddin kimi, sən də Elm mücahidisən. Əmma çox gülünc sual verirsən: mədrəsə kandarına ilk qədəm basan körpələrə də məlumdur ki, OdEvƏr ikən “kəbir”ə dönən yağı Xaç hökmü ilə OdEvƏrə “kəbir” deyilib, Bağstana “Bisütun”. Dil müsibətinin nə dəxli var bu yas içində izdivaca?!

Qızıl Arslan:

– OdƏs OdEvƏr “Dəşti-kəbir” olalı Bağstanda bağım sütunsuz qalıb. Yəni sənin müttəfiqin Xaçın cəngavərlərinə qılınc çəkdiyim gündən Ün Eşitmirəm, ey “qəddini düzəldə bilməyən” tülkü! Arxasını Xaça söykəyən tülküyə söykənməyə gəlmişəm ki, bir daha insan qanı axıtmayım. Evlənirəm”!

---

[1] Atabəy Qızıl Arslan, Səlcuq səltənəti daxilindəki Xaç hökmdarlarının Bağday ərazisini tutduğu əsrlərdən qalan Qreklərin basqın ehtimalından ehtiyatlandığına görə qardaşının ölümünü bir ay gizlətmişdi.

Müstədi:

– Yas içində evlənsən, EySar qəzəbnak olmazmı, Arslanım?! Təhrif dünya hiddəti qarşısında tülkülüyümə görə kar qalmışam mən. Bəs sən niyə tülkülük edirsən?!

Qızıl Arslan:

– Riyakarlıqdan əl çək! Sən sevinirsən bu izdivaca. Möminə Xatunu, Şəmsəddin Eldənizi, Cahan Pəhləvanı zəhərləyən zənən Qızıl Arslanı zəhərləməyə də imkan tapar.

Müstədi:

– Mürtəd Xaçın yaydığı şayiəyə sən də inanırsan?! Xatun ananla sultanlarımız öz əcəlləri ilə vəfat etməyiblərmi?!

Qızıl Arslan:

– Dad sənin əlindən, ey Xaçı söyə-söyə Xaça arxalanan Müsəlman!

Evlənmişəm! Xatunum şərab versin!

İnanc Xatun tamamilə sakit davranışla, qızıl camda şərab verdi. Qızıl Arslan içib, camı döşəməyə atdı.

İnanc Xatun ikinci camı doldurdu. Qızıl Arslan içib, camı yenə döşəməyə atdı. Bir az sonra Xəlifə təxtinin qabağı qızıl camlarla doldu.

İnanc Xatun ziyarətgahdan gətirilən növbəti camı əlində saxlayıb Qızıl Arslanın gözlərinin içinə baxdı.

– Naxçıvanda, qəbir üstündə axşama qədər içdin, sərxoş oldun, mənə dedin: "Bu şərab çəlləyindən sonra sənin qanını içəcəm".

İçmədin. Dedin: Get Rim təxtində qıvrılmış ilanın xəlifəsindən aldığın zəhərlə yenə zəhərlən, gedib zəhərli qanını içərəm".

Şərab vermirəm daha. İç qanımı, əbədiyyətdən məhrum ol!

Qızıl Arslan:

– Vaxt var.

İnanc Xatun:

– Mənim anam, Xəlifə babamın qızı Həzrət Abbas nəslindəndir. Həzrət Abbas isə "Abbas" deyil, EvƏsdir. BağHəmOdumuzun qanını içəcəksən?!

Qızıl Arslan:

– BağHəmOdu "Muhəmməd"ə çevirən Dinin qanını içəcəm. Atan Əmir İnancın ƏrEy qalasını "Rey"ə çevirən, "Rey"də anan Türk qızının qanını zəhərləyən Dinin qanını!

Müstədi:

– Bu izdivac olmadı!

Qızıl Arslan:

– Üç ildir Ərəb-Fars çaxnaşır, Müsəlman üləması bağırışır ki, Nizami "Leyli və Məcnun" dastanını Şirvanşah Əxistana həsr edib. Müsəlman niyə hiddətlənir, ey ilan xəlifəsi?!

Müstədi:

– Şirvanşah "Əxistan" – Əxi ƏsOdÜndür. Dərbənd Əmiri "Dara" – OdƏrlə bahəm, Şiə – Qara muğ vəhdətinə divan tutularsa, Müsəlman uləmasının Şiə qismi necə hiddətlənməsin?!

Qızıl Arslan:

– "Əxi" – AğEy ƏsOdÜnümüz ŞamAğEyi Şamaxı adlandırır! Dara-OdƏrdən fərqli, mədrəsələrdə bir nəfərə də SafAğ tədris etdirmir. Gizlin SafAğ Xaqanini uzaqlaşdırıb təxtindən, mənim yanıma göndərib! AğEy ƏsOdÜn deyil o, Axistandır!

Müstədi:

– Siz Eldənizlər də Əl "Günəş" – ƏlOdÜnƏs ikən Eldəniz adlanırsınız. Bağ təxtinizi də ÜnAğ ƏsEvÜn yox, "Naxçıvan" adlandırırsınız!

Qızıl Arslan:

– Şərhi yalnız Elmimizlə mümkün olan "Leyli və Məcnun"un rəmzlərini kim şərh edib Müsəlman üləmasına, ey tülkü?! Bir nəfər Əlim – "Alim" varmı o üləma içində, ey dahilər xəlifəsi?!

İnanc Xatun:

– Sən yenə sərxoşsan, Arslanımız. Təhqirləri kəs! Cahan Pəhləvanın ili tamam olmayınca yatağa getmərəm mən!

Müstədi:

– Afərin, mənim balam! Türk qızının südü halal olsun sənə!

Qızıl Arslan:

– Sərxoş Arslan Sultanlıq alıb. Sultan sərxoş olanda da sultandır! Sözümü kəsmə!

İnanc Xatun:

– Rəiyyət qızı Qutayba kimisi xatun olmalıdır belə Sultana!

Qızıl Arslan:

– Tülkü nəvəsi bilmirmi ki, Qutayba Xatun rəiyyət qızı deyil?!

İnanc Xatun:

– Əxi Baba Xəlifə babamın rəiyyətidir. Əxi Babanın qızı isə ikiqat rəiyyətdir! Kəbin kağızını qaytar. Get Qutaybanın yanına. Sultanını kəbinsiz də qəbul edər o kəniz!

Qızıl Arslan:

– Tülkü nəvəsi bilmirmi ki, AğEvlərin "Baba"sı BağBağÜn EySarın Təkrarıdır?!

İnanc Xatun:

– EySarın təkrarıdırsa, get ona söykən! Niyə Tülküyə söykənirsən?!

Qızıl Arslan:

– EySar zor istəmir. Təkrarları da, bilirsən ki yalnız iznlə güclüdürlər. Tülkü isə zorakılar tülküsüdür! Sülhə gəlmişəm mən!

İnanc Xatun:

– Türkiyə söykənib tülküyə çevrilməkdən sülh hasil olmaz!

Qızıl Arslan:

– Dəşti-Kəbir səhrasıdır beynin, ey "ins" nəvəsi. Nə qədər "dən" səpirəm, hey Din bitirir!.. Bayaq dedim, Xaç cəngavərlərinə qılınc çəkəndən sonra Ün eşitmirəm. Şair idim mən. EySarım incə şeirlər deyərdi OdAğÜzdən, Qızıl Arslan körpə uşaq kimi sevinə-sevinə yazardı. Nizamimiz kimi, mən də SafAğ Alimi idim. Bu tülkü baban aldı mənim alimliyimi.

İnanc Xatun:

– Ləyaqətini saxla, EySar qaytarsın ləyaqətini, yenə Ün eşit, yenə şeir yazan SafAğ alimi ol... Naxçıvanda dəfn mərasiminin əvvəlində mən AğEylərə dedim, Cahan Pəhləvanın vəliəhdi, oğlum Ömər təxti-səltənət sahibi sultan olsun, Ömər həddi-buluğa çatana qədər mən özüm səltənəti idarə etməklə bahəm BağHəmOdumuzun "GurÜn"ünü cümlə Cahan Elmi kimi cəmi mədrəsələrdə tədris etdirim. AğEylər razılaşdılar. Sən, tək sən razı olmadın!.. AğƏlEv babamı "İslam Xəlifəsi" adlandırdın, məni "ilan yuvası"na qovdun. Belə təxt-tac düşkünü, ehtiras quluna Ün göndərərmi EySar?! Nizami bilib kimsən sən. Məhz buna görə də "Leyli və Məcnunu" sənə yox, Axistana həsr edib.

Nəinki Nizami, sərkərlərin də, cəmi AğEy icmaları da üz döndəriblər səndən, Qızıl Arslan! "Rim təxtində Xaç müttəfiqi"nə yox SafAğ alimi AğƏlEvə söykənməyə gəlmisən ki, babamın təxti

yanında, Sultanlıq təxtində oturub burdan hökm edəsən AğEylərə. Bu Təxt vəliəhd Ömərindir!..

Qızıl Arslan bu heyrətli zənənin heyrətli sözlərini dinləyə-dinləyə dönüb sərkərlərinə baxırdı. Heyrətli idi ki, sərkərlər Qızıl Arslanın baxışını hiss etmədən, İnanc Xatuna vurğun gözlərlə baxırdılar.

Qızıl Arslan axırıncı camı alıb içdi. Camı camların üstünə atdı, qalxıb təxtində oturdu.

– İslam səltənəti Xilafətin sultanı Qızıl Arslan hökm edir: İslam sərkərləri Rus, Öz Əba və Ay Əba İslam Ordusunu Misrə, ƏrAğa, ƏrEyə, HəmOdUnə, AğEy icmalarının üstünə yeritsinlər! Cəmi icmaların kəndlərini yandırsınlar! Xaç müttəfiqilərin orduları ilə birləşib Ruma yürüsünlər, Nizami iqtəsini Mədain xarabalığına çevirsinlər, Əxi Babanın, Nizaminin başlarını kəsib Əmirəlmömininin Müstəd-billaha hədiyyə gətirsinlər. Nizami təkyəsindəki Fərruxqızlarını, Nizaminin oğlu Məhəmmədi isə Dəşti-Kəbirə sürgün etsinlər. Bu işləri görüb qurtarandan sonra Qızıl Arslana bu təxt ayağındakı camların tutduğu şərab qədər şərab içirdib yuxuya versinlər və bir zaman Rum Qeysəri Yuli Sezarı öz sərkərləri necə öldürmüşdülərsə, o cür, hərəsi bir qılınc zərbəsi vurmaqla, qətlə şərik sirdaşlar kimi öldürsünlər!

İcra edin!..

Dəbilqələrin altından ağarmış saçları qocalıqdan xəbər versə də, gənclikdəki kimi ağır, möhkəm, nəhəng sərkərlər ağır-ağır irəli yeridilər, enli, qısa Əxi qılınclarını qından çəkib, Qızıl Arslanın təxtinin ayağına atdılar. Diz çöküb, başlarını endirdilər.

Qızıl Arslan:

– Nə oldu, ey Xilafət sərkərləri?!

Rus:

– İndi Arslanlarımızın dilindən eşitdiyimiz hökmü mən, Öz Əba və Ay Əba Naxçıvanda İnanc Xatunun dilindən eşitmişik.

Qızıl Arslan:

– Bə zənən necə cəsarət etdi sizə belə hökm verməyə?

Rus:

– Biz Əxi Babamızın Ününü eşitdik. Dedi gedin o zənənə deyin: "Səltənətin təxtində Cahan Pəhləvanın ikinci kəbinindən olan vəliəhd Ömər oturmalıdır. Qızıl Arslan vəliəhd Ömərin təxtini fəth etmək qəsdində olduğuna görə biz Qızıl Arslandan dönmüşük".

Sən “Sultan” deyilsən, Arslanımız, Ün eşidən ƏsƏl OdÜnsən. Bu zənənin hökmündən sonra yenə Əxi Babamızın ününü eşitdik. Dedi: “Arslanım o zənəni dəfndən qovacaq. Sizlə bahəm Bağdada gedib Xaç müttəfiqi Müstədinin Xaçla növbəti gizlin müqaviləsinin sirrini açacaq. O vaxta qədər üçünüz də susmalısınız.

Qızıl Arslan:

– EySarın Firəngistanlı cəngavər övladlarının qanını axıdandan sonra Ün eşitməyən sərkərlərlə Qızıl Arslan necə Ün eşidən ola bilərlər, ey ƏrÜz – “Rus?”

Rus:

– Elmimiz təhlükəyə məruz qalanda Arslanımızla bahəm biz də Ün eşidirik.

Qızıl Arslan:

– Mənim beynimə iki sözdən ibarət Ün gəldi indi. Təkrar et o iki sözü.

Rus:

– “Tülkü”, “Qancıq”.

Qızıl Arslan:

– Sərkərlərim bu qancığa niyə vurğun nəzərlə baxırdılar?!

Rus:

– Məharətli qancıqdır, Arslanım!

İnanc Xatun:

– Məni təhqir etməyin! Sultan xatunu, vəliəhd anasıyam mən hələ! Qüdrətim çatar hər üçünüzü qətl etdirim!

Xəlifə:

– Təhqirdən keçib, övladım.

Qızıl Arslan:

– İnanc Xatunun bətnini göstərdik sənə. Onun bətni sənin bətnindir!

Söhbəti davam etdirməyə hacət varmı, ey özünə AğƏlEv deyən Xəlifə?!

Müstədi təxtdə ikiqat oldu.

Nəvəsi isə, əksinə, hamanca heyrətli cəsarətlə, yenə də Qızıl Arslanın gözlərinin içinə baxırdı:

Qızıl Arslan:

– Hələ də anlamırsanmı ki, beynindəki kəlmələr əvvəlcədən məlumdur Sultan Atabəy Qızıl Arslan Eldənizə?! De o kəlmələri!

İnanc Xatun:

– Qanını axıtdığın Xaç cəngavərləri kimi, mən də, babam da EySarın övladlarıyıq. Biz özümüz sizin üstünüzə qılıncla getməsək, siz bizim qanımızı axıtmazsınız. Xəlifəlik tabe oldu Sultan Atabəy Qızıl Arslana.

Qızıl Arslan:

– Yenə sözün var. De!

İnanc Xatun:

– Dünən dəfndən bir az əvvəl çaparla babama məktub göndərdim ki, oğlum Öməri təxtə çıxarmaq və məni təxt yanında himayədar saxlamaq üçün Bağdaddakı xilafət ordusunu Naxçıvana yeritməlisən. Sərkərlər Qızıl Arslandan dönüblər. Əgər bu dönüklük Qızıl Arslanın hiyləsidirsə, ordumuz məhv olar. Səltənətin daxilindəki Xaç Əmirlərinin hamısına çatdır ki, Qızıl Arslanın başı açılana qədər ordularını Xilafət ordusunun köməyinə göndərsinlər.

Bu xəyanətə sən vadar etdin məni, Arslanımız. Xəyanət müqabilində xəyanət etdim. Sonra babamın Əmirlərə məktublarının hamısını yandırdım ki, sənin hiylən müqabilində mərdliyimi biləsən.

Qızıl Arslan:

– Yenə sözün var. De!

İnanc Xatun:

– Oğlum Öməri vəliəhdlikdən məhrum etmə.

Qızıl Arslan:

– Cahan Pəhləvanın Qutayba xatundan olan oğlu Nüsrətəddindir vəliəhd. Nüsrətəddin təxt-Səltənətə sahib olanda mənim oğlum Körpə Arslan Təbriz təxtində oturacaq.

Xilafətin gizlin qara muğlardan ibarət İlan ordusunu tərksilah etmişik. Xəlifə təxtində oturan bu tülkünün nəinki ordu saxlamağa, hətta nəvəsi İnanc Xatunla, nəticəsi Ömərlə görüşməyə də ixtiyarı yoxdur daha!

Müstədi:

– Bəs mənim Xəlifəliyim nədən ibarət olacaq, Arslanımız?!

Qızıl Arslan:

– Dindir səninki! Cəhalətdir! Elmdən kənar "Quran" oxu, namaz qıl. "İxvan əs-Səfa" alimlərinin tərtibində şərh olunan "GurÜn"ü dilinə gətirmə! Misirdən Səmərqəndə qədər, Səmərqənddən Çinə qədər, Çindən Hindistana qədər, Hindistandan Həbəşistana qədər, kürreyi-ərzin yarısı Allah, Məhəmməd deyir,

Əmirəlmöminin Müstədbillah deyir! Biz bədbəxt Ərəbə dönmüş bisavad Müsəlman əlindən tərpənə bilmirik.

Batinik biz daha.

ƏlEy Əlimizə "Leyli", BağOdÜnümüzə "Məcnun" dastanı sifariş verən Əxistanlar olduq hamımız.

Müsəlmanın Dəşti-kəbir beyni bəhrə vermədi.

"Dəşti-Kəbirə sürgün" barədə fitva vermə!

Hələlik budur səndən tələbim, ey İlan! Zəhərləmə məni! Öz bətnini zəhərləyirsən! Öz nəvəni, nəticəni zəhərləyib Əbədiyyətdən məhrum edirsən!

Qəzəb tufanı – Elm tufanı idi. Əsdi, coşdu, İlan Xəlifəsi İlanı min birinci dəfə ifşa edib getdi.

İlan isə, hətta min birinci ifşadan sonra da İlanlığında qaldı.

Min yüz səksən səkkizinci ilin aprelində Nizaminin Afaqını zəhərlədi. Nizami Dini "bədnəzər" sözü altında gizlətdi: "Afaqımı bədnəzər apardı" sözlərini yalnız AğEylər anladılar.

Afaqın ölümündən üç il sonra, doxsan birinci ilin iyulunda Qızıl Arslanı zəhərlədi İlan.

Qızıl Arslanın ölümündən sonra bu cinayəti Səlcuq səltənətinin AğEy sərkərləri Rusun, Öz Əbanın, Ay Əbanın ayağına yazıb, hər üçünü edam etdi.

BağHəmOdumdan başqa Yerdə hələ heç kəs bilmir ki, Rus Adı altında gizlənən ƏrÜz mənim "Rus" ərazisindəki Türklərimin ordusunun sərkəri idi. Öz Əba Adı altında gizlənən ƏsEv, Eldənizlərin ata yurdu Naxçıvanın AğEylərindən ibarət ordunun sərkəri idi. Ay Əba Adı altında gizlənən EyEv isə, Qutayba Adı altında gizlənən AğOd EyEvin qardaşı, yəni "Əxi Baba"nın oğlu idi.

Budur sizin tarixiniz, ey İlan İslamın, İlan Xaçın yazdığı "tarixlər"dən dərs ala-ala zəhərlənən Təhriflərim!

Sərkərlərin – SarOdƏrlərin – OdƏr Sarlarının edamı, sizin təbirinizcə deyirəm, Səltənətin belini qırdı. Rumdan Misirə, Misirdən Çinə qədər, hər yerdə Xilafətin "rəşadətli İslam orduları", İlanın gizlin "qara muğları" hakim olub, SafAğ – Səlcuq səltənətini də Türk qənimi İslam səltənətinə çevirdi, ey bədbəxt Təriklərim! O cəhalət ordularını siz yenidən yaradıb, "ən müasir hərbi texnika" ilə, "Atom"la silahlandırıb, hamanca rəzil "İmam Həsən Səbbah"-lara vermisiniz, ey Təhriflərim! Nə olacaq bunun axırı?!

## *Üçüncü kitab*

### Dİl

Bağ təxti YaÜzAğdan – "Qazax"dan "Rey"ə köçəndən sonra Ulu Bağ "Atəşgah"da Muğanna[1] rütbəsində gizlənirdi. Elmimizin Vizantiya daxilində, Ərim – "Rim"də türkcə tədris edilməsinə nail olduğuna baxmayaraq, Ulu Bağ, Bağdayın öz ərazisində Qrek-Latın-Fars hökmranlığı zamanından bəri Türkə qarşı zalımlaşmış – qatilləşmiş "Fars"dan qorunmaq xatirinə, BağOdEvÜn ikən "Paxtavan"a – "Pəhləvan"a dönmüş "Pəhləvi"lərə hakimiyyətin bütün sahələrində yer vermişdi və buna görə də ömürləri "Pəhləvan"lar arasında keçən SağƏsÜn – "Sasan" saflarından bəziləri, o cümlədən, BağƏrim Gur – "Bəhram Qur"da dili unudub təhrif "dəri"cə danışırdı. Siz bu dəhşətli bəşəri faciəyə tamam laqeyidsiniz, ey Təhriflərim. Təsəvvür edə bilməzsiniz ki, "Yer" – EyƏrdə SafAğ Alimlərimizə, o cümlədən Nizamiyə verdiyim tarix dastanları bütünlükdə Dil – OdƏl – Həqiqət Əli faciəsinə həsr olunub. "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun" barədə BağHəmOdum bir az yazıb, oxumusunuz. İndi bilməlisiniz ki "Yeddi gözəl" adı ilə tanıdığınız "Həft peykər"də məhz Dil – OdƏl – Həqiqət Əli faciəsinə həsr olunub. Dörd yüz iyirmi birinci ildə EvƏrAğ ƏrÜn rütbəsilə təxtə çıxıb, ƏrEy – "Ariy" ordusu adı ilə məşhurlaşmış "Pəhləvan"ların arasında "Fərəxrən"ə, "Bəhram"a dönənimiz, ƏsOd GurOd ikən "Yəzdi Kird" adlandırılan atasını və özünü "Pəhləvan" sayırdı və təbii olaraq, Ulu Bağı tanımırdı. Ərim – "Roma"da KeSarın təxti yanında uca BağBağÜn – ("Papaqqan", "Papaq", "Papa") təxtində BağOd ƏrAğ – "Patri arx" rütbəsində oturan OdƏr Bağından və onun ixtiyarındakı ƏrEy – "Ariy" ordu qismindən başqa hər yerdə, o cümlədən "Rey"də də hamı təhrif "dəri"cə – "Pəhləvi"cə danışırdısa, ÜnEvliyindən xəbərsiz "nəvə" Bəhrama kim anlada bilərdi ki, "Dəri" OdƏrdir, "Mağ" Bağdır, "Atəş" OdƏsdir, "Sasan" SağƏsÜndür! Öz BağƏrim – Bağ İşığı adından xəbərsizə kim qandıra bilərdi ki, "Rim"də BağBağÜnün təxtini müdafiə edərkən qan tökmək məcburiyyətində qalan ƏrEy – "Ariy" ordusunun Sarı "Bəhram" adına "qan nişanəsi" mənası

[1] M u ğ a n n a – atəşgah kahini. Məzmunu: Bizim muğlar. OdƏrcəsi: BağÜn.

verilib, Bağ Atanın, Ulu Bağın nəslini təhrif edən bu mənadan xilas olmaq üçün “Bəhram”ın bütün Saflığının mənası olmalıdır!

BağƏlAğı – “balığa”, OdƏsi – “Kis”ə – “öküz”ə çevirib, “suda balıq, balığın üstündə öküz, öküzün üstündə kürreyi-ərz bərqərardır” yazıb bu dərəcədə iyrəncliyi “müqəddəs” kitaba döndərənlər mən ƏlAğ EySardan nə qədər uzaqdılarsa, siz də ƏlAğınızın Nizamiyə verdiyi “Həft peykər” dastanındakı “öküz”lə “Fitnə”dən bir o qədər uzaqsınız, ey təhriflərim. Yeni BağHəmOduma verdiyim ƏsƏrləri oxuyandan sonra, hələ də dərk etmirsiniz ki, sizin bugünkü, sabahkı varlığınız tarixinizə bağlıdır, tarixiniz isə Dilinizin – OdƏlinizin, Şüurunuzun təhrifi tarixidir.

Dörd yüz otuz birinci ilin yayında, “Sasani” təxti “Həmədan”la “Rey” arasındakı dərədə, yaylaq iqamətgahında olanda OdAğÜzdən qardaşıma xəbər verdim ki, “Roma” “Ariy”lərinin Bağı “Nəs” OdƏr – ÜnƏsOdƏr türkcə danışan latınlara, qreklərə Elm verib BağOdƏr ƏrAğ – “Patriarx” seçiləndən sonra “Ariy”lərimiz BağOdƏr ƏrAğı “Patriarx” adlandıran Xristian cəngavərlərindən qoruya-qoruya qan tökməyə məcbur olublar, “Roma” KeSarı “Ariy”lərlə Xristianlar arasında döyüşü bəhanə gətirib NəsOdƏri Misrə sürgün eləyib. Ulu Bağın öz ərazisi daxilində gizlin Bağdayın Sarı “Bəhram Qur Fərəxrən” – BağƏrim Gur EvƏrAğ ƏrÜn əslinə qayıtmasa, Ünümü eşidib, türkcəni anlayıb “Pəhləvan”lara da elm verib Bağdayın qüdrətini bərpa etməsə, Xristianlar BağOdƏr ƏrAğ rütbəsini “Patriarx” “söz”ü içində öldürdükləri kimi, NəsOdƏr rütbəsini də “Nestor” sözü içində öldürüb, məni bütün Yerdə “İisus” Adı ilə tanıtdıracaqlar, AğƏrƏsOda “Xrist” deyən, “Xrist”ə “dirilmiş” mənası verən dəhşətli Dinin hakimiyyəti yayılıb, gizlin Bağdayda gizlin OdƏrlərim AğEyləri – “Əxi”ləri vətəndən tərik-didərgin salacaq, SağƏsÜn təxtində təhrif insan oturub Odu təhrif edəcək. Bəhram türkcə danışan Latınlarla, Qreklərlə birlikdə türk dilini anlayan Pəhləvilərinə də dərs deməlidir ki, Ulu bağ, “Rey” Atəşgahında peyda olmuş “Muğanna”nın batin SağƏsÜn UluBağ ƏsƏlMən – “Süleyman” – “Solomon” olduğunu elan edib öz Od – ad – rütbəsini bərpa edə bilsin.

Qardaşım mənim xəbərimdən dəhşətə gəlib, Bəhramın qapalı beyninə İşıq göndərdi.

1985-ci ili xatırla, Muğanna.

O il "İdeal" ƏsƏrinin ilk variantını yaza-yaza Elmimizi bərpa etmək ehtiyacı duyduğun günlərdə mən sənin beyninə işıq göndərdim. Beynin sıxıldı, xarici aləmdən tamam ayrıldın və mənim OdAğÜzdən göndərdiyim canlı insan qədər canlı şəkilləri görməyə başladın. Mağlar Mağı Muğannanın göndərdiyi İşıq "Bəhram"ın beynində, gözlərində eynilə sənin beynində, gözlərində əmələ gələn dəyişiklik kimi bir dəyişiklik əmələ gətirdi. Sənin gördüyün canlı şəkillər OdƏr sözləri işlədə-işlədə türkcə danışdıqları kimi "Bəhram"ın gördüyü canlı şəkillər də OdƏr sözləri işlədə-işlədə türkcə danışanda o bədbəxtim özünü itirdi. Niyə? Çünki OdƏr dilini tamam unutmuşdu, türkcəni isə, sizin "russkoyazıçnı"larınız kimi, lap səthi bilirdi.

Gördüyü şəkillərdən biri atası "Yəzdigird"in şəkli idi. Atasının dilini qanmadı "Fərəxrən"ə dönən EvƏrAğ ƏrÜn, "Bəhram"a dönən BağƏrim.

Dediyim kimi, dörd yüz otuz birinci ilin yayında "Sasani" təxti Həmədanla Rey arasındakı dərədə, yaylaq iqamətgahında idi. Bu, Bağday tarixindən, OdƏr mədəniyyətindən xəbərsizlərin "arxeologiya"ya əsaslanan təsəvvürlərindəki iqamətgahlardan deyildi. Ulu Bağ təhrif dil içində batin olsa da, Muğanna rütbəli Mağlar Mağı, pəhləvi ordusu içində sadə, gözəl, uca OdƏr mədəniyyətini saxlayır, gözəlliyə, ucalığa zidd rəsmi möhtəşəmliyi yandırırdı. Mənim OdAğÜzdən göndərdiyim, canlı insandan seçilməyən, danışan, gülən, mübahisə edən, hətta dərs deyən şəkillər, lazım gələndə orduların qabağına sədd çəkən alovlar, Atəşpərəstlərin dilində "Mağ sehri" adlanan bu "dəhşətlər" Muğannaya elə sehrli zəhm vermişdi ki, Muğanna qayadan kəsilən hamar-şümal, sadə-gözəl Daşa əlavə naxış vuranlara bircə kəlmə: "Olmaz!" – deyəndə, bu əmrə heç kəs, hətta "Sasani" xanədanının hakimi-mütləq vəzirlər vəziri, pəhləvi Rast Rövşən də etiraz edə bilmirdi.

Dərənin gündoğanı kaha ağzı kimi qaralan mağaralarla dolu, nəhəng, hündür, sıldırım qayalıq idi. Fısdıq, vələs ağacları, söyüd, itburnu, alça kolluqları altında selavları, uçurumları görünməyən bir dağ sağda, eynilə o cür bir dağ solda, bir çılpaq dağ isə arxada, xeyli uzaqda idi. O uzaq dağın solundan, HəmOdÜn adı dilə gətirilməyən Həmədandan sal daşla döşəli yol gəlirdi, yamyaşıl düzənlikdə haçalanıb, kiçik təpə belində Atəşgahın sağ-solundan dərəyə enib,

eni yüz, uzun iki yüz addım hamar sal daş sahəyə qovuşurdu. O sahənin başlanğıcında "Bəhram"ın çadırı, axırında, çətir altında fil sümüyündən təxti ağarırdı.

"Sasani" təxtinin yaylaq iqamətgahı bundan ibarət idi. Rəsmi, sıxıntılı möhtəşəmlikdən uzaq OdƏr mədəniyyətinin sadəliyi, gözəlliyi, ucalığı adi daşdan, adi çadırdan, adi çətirdən və qızılsız, gümüşsüz, adi sümükdən ibarət idi. Adiliyə sıxıntılı möhtəşəmlik gətirən bircə bu idi ki, dərənin dövrəsi, iki dağ arası Pəhləvanların, Sipəhsaların, Vəzirlərin və əyan-əşrəfin zər-zibalı, al-əlvan ipək çadırları, çadırlar üzərindəki ağ ipək bayraqlarda əlləri məşəlli, şahə qalxmış qızıl şirlərlə dolu idi.

Təhriflərimin beyinlərini çox yükləmə, Muğanna. İlk ƏsƏrlərindəki "roman" ənənəsi ilə "tipik şəraitin tipik ifadələri"ni təhrif adları olduğu kimi yazmaqdan çəkinmə.

Əli məşəlli şir Bağdayın Od-Həqiqət totemi deyil, "Atəş" totemidir: ƏsƏri – Yaradan İşığı "şir"ə çevirənlərimin totemi. Dili unutmuş bədbəxtlərimin qapalı beyinlərinə necə deyəydim ki, mənim Odum var, "tü", "to", "totem"im yoxdur; Odum – Həqiqətim ƏsƏrdir, "şir" deyil.

Romadakı Din fəlakəti barədə xəbərimdən sonra Bəhramın beyninə göndərilən İşıq sizin təsəvvürünüzdəki adi işıq deyildi, ey təhriflərim, Ər idi. Mənim İşığım təhrif beyini sıxıb əvvəlcə yaddaşı alır. O dərəcədə alır ki, insan hətta ən yaxın adamlarının adlarını da unudur, təntiyir – təlaş keçirir, kədərlənir və başına nə gəldiyini anlamadığına görə hirsli-hikkəli olur, ətrafında hamını acılayır, təhqir edir. Yəni, SafAğ İşıq əvvəlcə insanı insanlıqdan çıxarır.

İcazə verirəm, BağHəmOd Muğannadan soruşun: "Allah" – ƏlAğ EySar insanın yaddaşını necə alır, necə qaytarır? BağHəmOdum sizin bu sualınıza, necə lazımdırsa, o cür cavab verər. Çünki özünün başına gələn işdir; o yazdığım bəzən siz təhriflərə üsyan etməyə hazırlaşıb ifşa ehtirasına qapılanda, yaddaşını elə alıram ki, hətta ən qatı düşmənini dost zənn edib rəhmli olur.

Qardaşım işıq göndərəndə sərin, sakit lal bir gecə idi. Bəhrəm öz çadırında vurnuxa-vurnuxa qalıb, gah lap təntiyirdi, çılğınlaşırdı, gah da üzülüb susqunlaşırdı.

Burda yenə şərh lazımdır, Muğanna.

Bayaq təhriflərimə müraciətlə dedim: "BağƏlAğı "balığ"a, OdƏsi "KiƏs"ə "öküz"ə çevirib, "suda balıq, balığın üstündə öküz,

öküzün üstündə kürreyi-ərz bərqərardır" yazanlar mənim Ünümdən nə qədər uzaqdırlarsa, Nizaminin gizlin tarix dastanındakı "öküz"lə və "Fitnə" də sizin beyninizdən bir o qədər uzaqdır.

Bu müraciəti dedim, yazdın və hiss etdin ki, "Fitnə" rəmzində gizlətdiyim həqiqəti də açmalıdır.

Açıram. Yaz.

Təhrif Pəhləvim EvƏr OdÜnə – "Fər" OdÜn – "Fitnə" deyib, bu təhrif sözə alim mənası verib. Təhrif Ərəbim bu təhrif sözün cəminə "Fətənnə" deyib, alimlər mənası verib.

Sən bilirsən ki, "Fər" OdÜn – EvƏr OdÜndən (işıq Evinin Həqiqət Ünündən) azmış söz olsa da, biz "Fər" sözünü işlədirik. Türküm OdƏr dilindən uzaqlaşanda ƏsƏrə "Sar" deyib, saran – əhatə edən mənası verib. EvƏrə– "Fər" – işıq mənası verib və bu sözlər uzun əsrlər boyu işləndiyinə görə biz güzəştə gedib izn vermişik ki, ƏsƏr – Sar EvƏrOdÜnə – FərOdÜn deyilsin.

Diqqət yetirin, ey Təhriflərim, FərOdÜn hara, "Fitnə", "Fətənnə" hara?!

Nizaminin gizlin tarix dəstanındakı "Fitnə" rəmzi ilə bağlı, sizdə tanış bir rəmz də var: "Kəniz" – OdÜnƏs.

Gizlin tarix dəstanında kəniz Fitnə doqquzuncu mərtəbəyə "öküz" qaldırmır, ey təhriflərim, OdƏsi – Yaradan həqiqəti, SafAğ Elmini qaldırır.

Dəstandakı "doqquz mərtəbə qəsr" də rəmzdir; EyOdƏr, BaqBabÜn Babalarımın məskəni EyOdƏr planetindən başqa "Qalaktika"mızda – QalAğımızda doqquz əsas planet var. (Bu "planet" sözünü biz məcburi işlədirik. ƏsEyƏrdən (Uca Yaradan İşıqdan) azmış "Səyyar"ə sözü sizin dilinizə daha yaxın olduğuna görə, BağHəmOdumla Mən də ƏsEyƏr – Səyyarə deyirik). Bizim ƏsEyƏr – Səyyarələrdən fərqli olaraq, sizin EyƏr – "Yer"inizdə gizlin "zənən" – ƏsÜnlər, "kəniz" – OdÜnƏslər, "Fitnə" – EvƏrOdÜnlər çox idi. Bəhramın əyan-əşrəfinə yaxın "kəniz"lər arasında isə, Ulu Bağın özündən dərs almış tək bir Fitnə – FərOdÜn vardı. O Fitnə – FərOdÜn SafAğ Elmini öyrənən türklərimi doqquzuncu Səyyarə – ƏsEyƏrə, Bağ Atamın məskəninə qaldırdı. Cismən yox, əlbəttə,şüurca.

Çadırda beyni sıxılan gecə, UluBağı Muğanna "adı" ilə çağırdığı kimi, Bəhram, FərOdÜnü də Fitnə "adı" ilə çağırırdı və çağı-

rışa heç kəs cavab vermədiyinə görə qəzəblənib, dəmir gürzü orta dirəkdən asılı mis siniyə döyəcləyirdi.

"Dəmir gürz", "sini" fikrinizi azdırmasın, ey Təhriflərim. Yerin sahibi Ulu Bağın qoruyub saxladığı sadə, gözəl, uca OdƏr mədəniyyəti geri sananan tarixinizdən əvvəl İşıq gəmilərində uçan OdƏrlərimin mədəniyyəti deyildi. BağHəmOdum Muğannaya verdiyim ƏsƏrlərdə dəfələrlə oxuduğunuz, dərk edə bilmədiyiniz adi həqiqətdir ki, Subasqınından sonra bəşəriyyətinizin yaddaşı alınmış, Bağday ərazisində batin yaşayan OdƏrlərim də (təhrif sözlərlə deyirəm) texnikadan məhrum edilib, ata, ulağa, dəmirə, misə, cütə möhtac qalmışdı. "Sasani"lərin yay iqamətgahındakı sadə, gözəl, uca mədəniyyət gizlin Bağdayda gizlin OdƏrlərimin mədəniyyəti idi.

Mis cingiltisi kəsiləndə çadırın arxasından, Atəşgah səmtindən Muğannanın zəhmli qışqırtısı eşidildi:

– Fitnə yoxdur! Fitnə adında kəniz yoxdur, şahım!

Şamların işığı dal bacadan eşiyə; Atəşgahın divarına düşüb, o divarın dibində hərəkətsiz duran bəstəboy qocanın dümağ xirqəsi, dümağ saqqalı ilə birlikdə, azca uzun, arıq, solğun sifətini sarımtıl boyamışdı. İqamətgahda qışqırtıya vərdiş etmədiyinə görə, Bəhram bir xeyli dillənmədi, sonra bacaya yaxınlaşıb, heyrətlə eşiyə baxdı.

– Bu nə rəftardır, Mağ?! Çağırıram, hüzura gəlmirsən! Qışqırırsan! Deyirsən "Fitnə yoxdur". Şamlar söndürülməmiş kənizin nə həddi var kənara ayaq bassın?! Hüzura gəl!

Muğanna tərpənmədi.

– Mən sənə ancaq "Fitnə yoxdur" demədim, şahım. Dedim: "Fitnə adında kəniz yoxdur".

Bəhram yenə özünü itirdi. ÜnEvliyindən xəbərsiz "nəvə" hardan biləydi ki, qardaşımın anlaşılmaz sözləri mənim beynimdən gedirdi!

Siz bu sözlərə də sual dolu gözlərlə baxırsınız, ey təhriflərim, "Xəmsə"yə, "Həft peykər"ə az-çox bələd olanlar isə, ümumiyyətlə, bir şey anlamırdı. Çünki rəmzlər içində ölmüş dəstan beyninizdən çıxmır.

O ölü dəstana görə, Bəhram on yeddi yaşına qədər Yəməndə Neman şahdan dərs alır, Neman şahın oğlu Nemanla birlikdə "Qur" – vəhşi at ovlayır. Gözlənilmədən xəbər verirlər ki, atan ölüb, təxtdə bir "Pirani" – qoca oturub. Get təxt-tacına sahib ol.

Bəhram “Rey”ə qayıdır. “Sasan” tacı iki vəhşi şirin arasında imiş. Məclis qurulur. Bəhram həmin məclisin ortalığında şirlərlə döyüşür. Hər ikisnin başını ayağı altına alır, çənələrini cırır, tacını başına qoyub təxtində oturur. İllərlə davam edən eyş-işrətdən başı açılanda zindanı gəzib, günahsız məhbusları azad edir, bu ədalətsizlikdə təqsirkar vəziri Rast Rövşəni dara çəkdirir.

Bu, sizin beyninizdəki igid, ədalətli “Sasani Şahənşahı Bəhram Qur!” Ölü dastandakı gizlin tarix isə sizə yaddır.

İndi o gizlin tarixi verənin açıq tarixinə diqqət yetirin.

BağƏrim Gur “Yəmən”də yox, EyMəndə, yəni gizlin Elm mərkəzində (BağHəmOdum Məhəmmədin dərs aldığı yerdə), “Neman”dan yox, ÜnMəndən – mənim Ünümdən dərs alıb. “Neman”ın oğlu “Neman”la birlikdə “Qur” – vəhşi at ovlamayıb, yenə mənim Ünümdən dərs ala-ala öz vəhşi ehtirasını kəməndə salıb. On yeddi yaşında gənc, “iki vəhşi şir”lə yox, Pəhləvi “totemi” ilə döyüşüb: “şir” başlarını ayağının altına salıb, çənələrini cırıb, yəni alimliyinin qüdrətilə cahilləri – Pəhləviləri susdurub. “Pirani” adlandırılan BağƏrÜn (“Bibliya”nızdakı “Boq Aran”, dilindəki “İran” içində ölmüş ƏrÜn-Ün (UluBağ) Muğanna təxtdən könüllü düşüb, yerini nəvəsinə verib.

Budur açıq tarix, ey Təhriflərim.

Sualla dolu beyin yenə soruşur: “Birbaşa EySarın Ünündən dərs alan BağƏrim necə unutdu dilini?!” “Babası yanında, ağlı başında, necə oldu ki, hətta bizim “russkoyazıçnı”lar səviyyəsinə endi?!”

Mühitinizə baxın, ey Təhriflərim. Onillik məktəbi rusca bitirən, beş-üç il Moskvada təhsil alan, on yeddi, on səkkiz yaşlarında gedib iyirmi iki, iyirmi üç yaşlarında qayıdan balalarınız necə ruslaşırlar?! “Babası yanında, ağlı başında” olan BağƏrim, Şirlər – Pəhləvanlar arasında, “Vəzir Vəziran Rast Rövşən”in “Məclisi-Sami”sində “MağMağan Muğanna” rütbəsində Atəşpərəst Pəhləvisi kimi oturan “Pirani”nin Ulu Bağ ƏsƏlMən olduğunu hardan, kimdən, necə öyrənə bilərdi ki, babası ilə kəlmə kəsəydi?! Qardaşını “Muğanna” rütbəsində gizlədən EySar izn verərdimi ki, BağƏrim dilinə “Bağ” sözü gətirəydi?! BağƏrimin nəinki “Bağ” deməyə, hətta öz adını dilinə gətirməyə də ixtiyarı yox idi.

“Otuz yeddinci il”, “Repressiya ili” adlandırdığınız o müsibətli ilə qədər “türk” adlananlarım cəmisi iki-üç ildən sonra “Mən

Türkəm” desəydilər, KQB-nizin qara maşınında birbaş güllə qabağına aparılmırdılarmı, ey sualı suala calayanlarım!

“Sasani xanədanı”nın “Şahənşah”ı “Bəhram Qur Fərəxrən” sizin “otuz yeddinci il”inizi yaradan Divlərdən – vəhşilərdən qat-qat dəhşətli Divlər arasında, Səltənətinin yeddi iqlimindəki təbəələri ilə döyüşə-döyüşə, aramsız qan tökə-tökə Ünümdən məhrum olub Divə çevrilmişdi – vəhşiləşmişdi.

Qardaşıma dedim: “Bəhramın adaşını almalısan”.

Fitnəyə dedim: “Çadıra get”.

Mağlara dedim: “Atəşpərəst mərasiminə riayət edin”.

Yazıq, bədbəxt, təhrif söz içində ölən Bağlarım – “Mağ”larım həm Atəşgahda “müqəddəs Atəş”in xidmətində dururdular ki, OdAğÜzdən “alovun içinə” dediyim buyruqlara əməl etsinlər, həm “çıraqlar” adı ilə saxladıqları şagirdlərə rəmzlərdə gizlədilən SafAğ Elmindən dərs desinlər, həm də Pəhləvilərin ziyafət məclislərində eyş-işrətdən, şəhvətdən beyni qapanmış Şahı bəd əməllərdən çəkindirmək üçün “Mağ sehri” işlətsinlər.

Qardaşımın yüz Mağı vardı. Bu, yalnız Əxi icmalarına məlum olan gizlin SimOd – Uca Həqiqət məclisi idi. Su basqınından keçən əlli min dörd yüz otuz ildə Ulu Bağ, Bağdayın – BağOdEyin on nəfər əbədi Sarı ilə birlikdə o yüz nəfər əbədi Bağdan ibarət məclisini də gizlin saxlayırdı. Sizə “fantastika” kimi görünən bu həqiqətin adi, sadə bir sirri var, ey Təhriflərim. Qardaşımın özü kimi, Sarlar, Bağlar da təhrif mühitdə qocalıb əldən-ayaqdan düşəndən sonra Atəşgah Əxi İcmasına, Əxi İcmasından isə, “Yer”-EyƏrə son dərəcə gizlin gedib gizlin də qayıdan İşıq gəmilərində OdAğÜzə gəlib, “Axirət” – AğƏr (SafAğ İşıq) şəraitində cavanlaşıb, yeni təhrif adla qayıdırdılar.[1]

“Russkoyazıçnı”larınızın “indendertal” adlandırdıqları, sizin “ibtidai icma” adamları saydığınız Od-Həqiqət saxlayan əbədi Bağlar Odu “kül” altında yox, “KiƏl” – OdƏl – Dil altında saxlayırdılar.

“Atəş”in – alovun içindən eşidilən səsə – “Atəşin danışması”na inanan “Fars” şüuru ilə OdƏsi – Yaradan həqiqəti tanıyan OdƏr şüurunu müqayisə edin, fərqini bilin, ey Təhriflərim!

---

[1] Mənə yalnız 2000-ci ildə məlum oldu ki, İşıq gəmiləri ilə gəlib Yerin gizlin guşələrində işləyən, qocalan, xəstələnən OdƏrlər, AğƏr planetlərinə qayıdanda, bizim təsəvvürümüzdən kənar, havasına xüsusi elementlər hopdurulmuş otaqlarda o elementlərlə nəfəs alandan sonra bircə günə bətnən gəncləşirlər.

Atəşgahın ağ daş divarları arasında, tən ortada, alçaq daş hasarın dərinliyində yerdən püskürən alov susanda, yəni mən alovun içinə Ün göndərməyəndə, yüz Mağla birlikdə Muğannanın özü də təlaş keçirirdi. Hamı bilirdi ki, belə vaxtlarda mən Bəhramı cəzalandırırdım.

Fitnə çadıra gedəndə alov susdu. Mağlar alovun hasarının dövrəsindəki kətillərdən qalxıb eşiyə çıxdılar.

Şagirdlər – Çıraqdarlar divarlardakı dəmir həlqələrdən yağ meşələrini çıxarıb iqamətgaha yüyürdülər ki, "Atəş ayini"nə görə, Şahın sıxıntılı gecəsindən "şəri – Əhriməni qovsunlar".

Çadırın tarım ağ ipəyi arxasından Bəhramın əzabla dolu, müdhiş qışqırtısı eşidilirdi:

– Nədəndir məndə bu sarsıntı?! Hardandır?! Nədəndir?!

Diqqət yetirin, ey Təhriflərim, görün, sizə əl qaldırmayan EySarınız Bağ oğlu Bağ Bəhrama necə əzab verirmiş.

Qışqırtı Çıraqdarları qamçılayıb qovurdu, dediyim kimi, Şahın sıxıntılı gecəsindən "Əhriməni qovmağa" tələsdirirdi.

Bütün iqamətgah çil-çırağa bürünəndən sonra Bəhram, nəhayət, çadırdan çıxdı və heç kəsə, heç nəyə baxmadan, birbaş təxtinə doğru yönəldi.

Fitnə arxasınca gedə-gedə, astadan deyirdi:

– Sən Şahənşahsan. Cəmi Yer üzünün hökmdarları sənə tabedirlər. Nəinki Yer üzünün hökmdarları, hətta Kainatın sahibləri də sənin qulundurlar, Şahım.

Bəhram, zənən gözləri kimi gözəl, badamı gözlərini o yan-bu yana dolandırıb, hündür dirəklərdən asılı yağ çıraqlarının altında, qollarını döşlərində çarpazlayıb baş əyən ağ çəpkənli Kənizlərinə baxdı.

– Kənizlərimdir mənim qullarım! Sənsən! Necə yəni "Kainatın sahibləri də qulundurlar?!"

Fitnə:

– Mənim iradəmin üstündə iradə var, Şahım.

Bəhram geri dönüb diqqətlə Fitnəyə baxdı.

– Necə yəni "iradəmin üstündə iradə var?!" Mənim iradəmdən başqa kimin iradəsi ola bilər sənin iradən üstündə?!

Atəşgah səmtindən Muğannanın səsi eşidildi:

– Onun iradəsi üstündəki iradəni unutmusan sən, Şah! Mən dedim: "Fitnə adında Kəniz yoxdur". Niyə yoxdur? Demədim. İndi şərh edərəm. Keç təxtində əyləş, şərhimi dinlə.

Bəhram, Mağın səsindəki amiranəlikdən hirslənib, təxtə doğru getmək əvəzinə qayıdıb, "sehr ağacı" adlandırılan, qiymətli daşlarla bəzəkli, iki qulac uzununda ağacı çəkib Mağın əlindən aldı.

– Şərh et!

Muğanna belə kobudluqları az görməmişdi. Nəvəsinin hərəkətinə əhəmiyyət verməyib, çadırın qapısını göstərdi. Bir Fitnə orda – qapıda, ikinci Fitnə iqamətgahın ortasında – çıraqların altında dayanmışdı.

Bəhram gah qapıdakı, gah da iqamətgahdakı Fitnəyə baxa-baxa, əllərini ağır-ağır qaldırıb başından yapışdı. Sehr ağacı sağ ovcu ilə gicgahının arasında qaldı. Xırda-xırda daşların iti ucları gicgahına toxunanda başında necə dəhşətli ağrı hiss etdisə, qışqırıb, titrəyə-titrəyə ağacı Mağa qaytardı.

Muğanna nəvəsinin əzabına da əhəmiyyət verməyib, yenə Fitnələri göstərdi.

– Hansıdır kənizin, ey Şahənşah?!

Bəhram ağrıdan dillənə bilmirdi.

Muğanna sehr ağacının dəmir ucunu daşa vurdu, Fitnələr yox oldular.

Muğanna ağacı yenə daşa vuranda Fitnələr yenidən göründülər və iki tərəfdən Bəhramın üstünə yeriyib, eyni səslə eyni sözlər qışqırdılar:

– Hansımızıq kənizin?! Hansımızıq Fitnə?!

Bəhram iki Fitnə arasında, başını o yan-bu yana fırlada-fırlada qan-tərə batdı. Başında ağrı əvəzinə, bu dəfə dizlərində taqətsizlik hiss etdi. Qıçları öz-özünə büküldü və Bəhram daş döşəməyə çöküb, hərəkətsiz qaldı.

Vəzirlər vəziri Rast Rövşən, Şahın bir tərəfində titrəyirdi, Sipəhsalar o biri tərəfində. Vəzirlər, məmurlar, sərkərlər iqamətgahını sağ-solundakı çadırlardan çıxıb qurumuşdular.

Muğanna təkidlə soruşurdu:

– Hansıdır kənizin?!

Fitnələr təkidlə təkrar edirdilər:

– Hansımızıq Fitnə?!

Bəhram indi çiyinlərində və boynunda da taqətsizlik hiss edirdi. Başını qaldıra bilmirdi.

Birdən gözlərinin içində bir cüt qığılcım kimi ağ işıq çaxdı. Eyni vaxtda beynində səs eşidildi:

– Kainatın sahiblərini də tanıyacaqsan, Bəhram, Fitnənin iradəsi üstündəki iradəni də tanıyacaqsan və heç bir ağrı-acı çəkməyəcəksən. Bir şərtlə, Muğannanın iradəsinə tabe olmalısan.

Bu mənim Ünüm idi, ey təhriflərim.

Muğanna ağacın ucunu daşa vurdu.

– Qalx!

Bayaq qıçları necə öz-özünə bükülmüşdüsə, indi də o cür öz-özünə açıldı və Bəhram qıçlarının hərəkətləri ilə birlikdə bütün bədəninin hərəkətlərində kənar iradənin varlığını hiss edə-edə ayağa qalxdı.

Yazıq nəvənin xəbəri yoxdu və ola da bilməzdi ki, Ər-İşıq içində gedən Ün "beyin"ə – BağÜnə əmr verirdi, "beyin" isə bədənə əmr verirdi.

Sıxıntı, sarsıntı, ağrı-acı yox oldu. Əvəzində elə qeyri-adi yüngüllük, sərbəstlik və sevinc gəldi ki, Bəhram hətta Fitnələrin yenə yoxa çıxdığını hiss etməyib, birdən şaqqıltı ilə gülə-gülə ziyafət buyurdu.

Rast Rövşəndən başlamış, məmurlara və qulamlara qədər, heç kəsin tərpənmədiyini görüb, buyruğuna əməl olunmadığını başa düşəndə isə, birdən güldüyü kimi, birdən də duruxub, Muğannaya baxdı. Nə isə soruşmaq istəyirdi, soruşa bilmirdi.

Muğanna:

– Beynindəki sualı dilinə gətirmək üçün insan öz beyninin sahibi olmalıdır. Bu gündən etibarən sənin beyninin sahibi mənəm, Şah!

Soruşmaq istəyirsən ki, vəzirlər vəziri Rast Rövşən sənin buyruğuna niyə əməl etmir. Səbəbi budur ki, şahənşahın beyni ilə birlikdə təbəələrinin beyinləri də indi mənim iradəmə tabedir. İradəmin üstündəki iradə izn versə, bayaq gözlərində çaxan Ağ işığın qüdrəti ilə mən sənin Pəhləvilərini bir göz qırpımında yandırıb külə döndərərəm, təxtdə özüm oturub bütün ölkəni və hətta cəmi bəşəriyyəti iradəmə tabe edərəm. Şər allahı Əhrimənə[1] çevrilib, sənin Pəhləvilərinlə birlikdə bəşəriyyəti də külə döndərərəm.

Heyif, izn yoxdur. İnsanın beynini zorlamağa izn yoxdur. Mənə ancaq öz nəvəmin beynini tabe etməyə izn verilib. Əmma bu

---

[1] EyƏrMən, AğƏrMən, ƏrMən sözlərinin təhrifindən düzəldilib, EvƏrƏsdən uzaqlaşmış "Pers"lərə verilən "Din" "Allahları"ndan biri (M.)

tabelik də aramsız ola bilməz. Beyni aramsız tabelikdə saxlamaq ölümə bərabərdir, Şah. İzn verirəm, öz beyniyin hökmü ilə de, danış, ey Muğanna nəvəsi!

Bəhram dillənməyə imkan tapmadı. Əvvəlcə Rast Rövşənlə Sipəhsalar, sonra vəzirlər, məmurlar hər tərəfdən Muğannanın üstünə yeridilər. Səslər bir-birinə qarışdı:

– Sehrləmə Şahı, ey Sehrkar!

– "Muğanna nəvəsi" nədir?! Sasan varisi, Yəzdikird övladı. Bəhram Qura niyə "Muğanna nəvəsi" deyirsən?! Bu nə sehrdir yenə, Mağ?!

– Sənin iradən üstündəki iradə ulu Zərdüştün[1] iradəsidir! Ulu Zərdüştün iradəsi üstündəki iradə ulu Hürmüzdün iradəsidir![2]

– Əhrimənə uymusan sən, Mağ! Əhrimənə uyduğun üçündür ki, hökmdarlıq iddiasındasan! Hanı Şahənşahın baş kənizi! Təkdir Fitnə, iki deyil! İkiləşdirdin, yandırdın?! Dirilt Fitnəmizi! Dirilt, lənətli Əhrimən qulu! Şər qulu!

Hay-küy içində danışmayan tək Bəhram idi.

Muğanna yenə sehr ağacının ucunu daşa vurub tək Fitnəni əvvəlki yerinə – iqamətgahın ortasına qaytaranda[3] sükut çökdü və Bəhram Fitnəyə baxıb, nəhayət, dilləndi:

– Əhrimən xidmətində olanın cəzası nədir, Mağ?!

Muğannanın dodaqları titrədi.

– Babasına ölüm buyuran nəvənin beyni əsir olmalıdır. İradəm üstündəki iradənin buyruğu belədir: Əsir olmalıdır beynin!

Bəhram diksindi.

– Necə yəni "əsir"?! İradəmi alırsan?!

Muğanna Fitnəni çağırdı.

– Tapşırığa əməl et, – deyib, Atəşgaha tərəf getdi.

Bəhram, Əhrimən xidmətində olan Mağın ölümdən qorxduğunu və sehrin hökmdən düşdüyünü güman edib təxtə doğru gedəndə,

---

[1] Ulu Bağ ƏsƏlMənin rütbələrindən SarOdƏs (Yaradan Həqiqət hökmdarı) rütbəsinin təhrifindən düzəldilib.

[2] OdƏsin (Yaradan həqiqətin – SafAğ Elminin) əksi – "Atəş"pərəstlikdə "xeyir Allahı" da Elm düşmənlərinin "Pers"ə verdikləri əfsanələrdəndir (M.)

[3] SafAğ İşıq hər hansı bir əşyanın, insanın dövrəsinə hava rəngində pərdə kimi bürünəndə əşya, insan görünmür. İşığın güzgü kimi, əşyanı çoxsaylı göstərməsində də heç bir sehr yoxdur.

Fitnə ilə qarşılaşar-qarşılaşmaz, birdən yenə başından ağrı qalxdı. Elə dəhşətli ağrı ki, bu dəfə ağzında dilini də tərpədə bilmədi.

Kənizlər Şahın qolundan tutu aparıb təxtə oturtdular.

Fitnə:

– Gecənin yarısında ziyafət buyurub sübhə qədər eyş-işrət içində, kənizlərlə keyf çəkməyə adətkərdəsən, Şah.

Ziyafət olmayacaq bu gecə!

Etiraza cəhd göstərsən, bircə kəlmə desən başındakı şiddətli ağrı daha da şiddətlənəcək.

Kənizlərdən rəcidə olma, Şah. Mən deyiləm sənə hökm edən. Kainatın on səkkiz min Aləmi içində Aləmimizin sahibidir danışan. Mən deyiləm təkrar edirəm. Baban Muğanna da deyiləni təkrar edir.

Ulu baban Sasandır Mağlar Mağı Muğanna. İnanmasan da həqiqət belədir, Şah.

Bəhram iqamətgahın çıraqları üzərindən Atəşgah səmtinə boylanıb inildədi:

– Necə əcaib sözlər deyirsən, ey kəniz! Mənə zülm edən sehrkar Mağ hara, ulu babam Sasan hara, ey sehrkar əsiri?! Sülaləmizin tarixi var. Sasan babam iki yüz iyirmi üç il bundan əvvəl ölüb. İki yüz səkkizinci ildə! Mağ əsiri kənizim deyir "Ulu baban Sasandır Mağlar Mağı Muğanna". Bu cür əcaib yalan danışmaqda qəsdiniz nədir?!

Fitnə:

– Əcaib yalan yox adi həqiqəti danışırıq, Şah! Sasan baban neçə il yaşayıb?

Bəhram gicgahlarını sıxdı.

– Birinci ildə, ağsaqqal vaxtında təxtə çıxıb, iki yüz səkkiz il hökmranlıq edən Sasanın neçə il yaşadığını mən hardan bilim, ey sehrkar əsiri?!

Fitnə güldü.

– Birinci ildə, ağsaqqal vaxtında təxtə çıxıb iki yüz il hökmdarlıq edən SağSanın – SağƏsÜnün oğlu BağBağÜn niyə cəmi on dörd il hökmranlıq edib, ey BağBağÜn nəvəsi?

Bəhram əlləri gicgahlarında, duruxdu.

– Sasan Babamın oğlu Papaqdır! BağBağÜn kimdir?!

Fitnə qəhqəhə çəkdi.

– Mən soruşuram: "İki yüz səkkiz il hökmranlıq edən SağƏsÜnün oğlu BağBağÜn niyə cəmi on dörd il hökmranlıq edib?"

Alim Şah cavab verməli idi ki, BağBağÜnün həqiqəti məlum olanda, Atəşpərəst Pəhləvilərim BağBağÜnü edam ediblər.

Alim Şah yoxdur. Cahil Şah isə qışqırır: "BağBağÜn kimdir?!"

Nəinki BağBağÜn Babanı, sən öz kənizlərini də tanımırsan, ey cahil Şah!

Bəhram, əlləri gicgahlarında, inildədi:

– Necə yəni "kənizlərini də tanımırsan"?!

Fitnə:

– Tanıyırsansa, adlarını de!

Bəhram çıraqların gur işığı altında, qollarını döşlərinin altında çarpazlayıb Şaha tamaşa edən kənizlərini bir-bir gözdən keçirdi. Yeddi kənizdən birinin də adını xatırlaya bilməyib, mat-məəttəl, hərəkətsiz qaldı.

Fitnə:

– Dörd yüz dördüncü ildə anadan olmusan. Dörd yüz iyirmi birinci ildə təxtə çıxmısan. Üç il Səltənətin yeddi ölkəsini gəzib, hər ölkədən bir Kəniz gətirmisən. İndi dörd yüz otuz birinci ildir. Bu kənizlərinlə neçə ildir kef sürursən? Cavab ver!

Bəhram adi hesablamaya da qadir olmadığını hiss edib çıraqların üzərindən o yana, Atəşgahın qabağında ağ sütun kimi dayanmış Muğannaya baxdı.

Muğanna sehr ağacını daşa vurdu. Atəşgahın bacasından göyə alov püskürdü və iqamətgaha qəzəbli səs yayıldı:

– Yeddi ildir eyş-işrətdən başın açılmır, ey vəhşi at! Vəhşi ehtirasa qapılan Bağın yaddaşını alıram mən, ey BağƏrim!

Həqiqi Od-adını dedim, yaddaş verdim. De görüm, kimdir bu danışan?

Bəhram təxtdən enmişdi. Baş ağrısı keçmişdi. Beynində qeyri-adi aydınlıq, bədənində qeyri-adi yüngüllük, köksündə qeyri-adi fərəh hiss edirdi. Vəcddən dili-dodağı əsə-əsə, ara vermədən:

– EySar! ƏlAğ EySarım ! EySarım! – deyirdi.

Muğanna:

– Sehr dağıldı. Ziyafət başlansın!

İqamətgah çaxnaşdı. Qulamlar, kənizlər daş döşəmənin uzaq künclərində, kətan örtüklər altında hazır saxladıqları, nemətlərlə dolu təam təxtlərini ortalığa çəkdilər. Bəhram kükrəyib ziyafətgaha cumdu. Şah kürsüsünün qabağındakı kiçik, dəyirmi təam təxtinin üstündən şərab camını götürdü, başına çəkib qışqırdı:

– Ziyafətə aşiqlər gəlsin bu gecə! Bəhram yenidən vuruldu öz Fitnəsinə! Bəhram Qurun yeri aşiqlər məclisinin başındadır! Azadlıq, xoşbəxtlik hökm sürsun! Könlündən keçəni gizlətməsin heç kəs!

Ey Rast Rövşən, nə olub yenə, qara buludsan?

Ey SipəhSalar, ox atmaqdan, qılınc oynatmaqdan başqa eşq deyilən nemət var dünyada! O nemətdən xəbərdarsansa, qoşa gəl, qoşa əyləş hüzurda!..

Pəhləvan çadırları ilə iqamətgah arasındakı kütlə də çaxnaşdı. Uzun sürən əzablı sehrin, nəhayət, dağılmağı hamını sevindirdi.

Bəhram:

– Yeddi ildə kənizə çevirdiyim Məlikələrim də gəlsinlər!

"Aşiqlər qoşa-qoşa" gəldilər. SupəhSalar, sərkərlər, vəzirlər öz məşuqələri ilə sağda, məmurlar öz məşuqələri ilə solda dayandılar.

Məlikələr gəldilər.

Birinci: Hind məlikəsi Furak.

İkinci: Çin məlikəsi Yağmanaz.

Üçüncü: Xarəzm məlikəsi Nazpəri.

Dördüncü: Rus məlikəsi Nasirannuş.

Beşinci: Məğrub məlikəsi Azəriyyun.

Altıncı: Rum məlikəsi Huma.

Yeddinci: Rey məlikəsi Dürəstə.

Fitnə xeyli kənarda ayaq saxladı.

Tək bir alimənsəbin üzü gülmədi – Rast Rövşənin.

Bəhram camını öz əli ilə doldurub yuxarı qaldırdı.

Əmma bu kükrək sevincin ömrü qısa oldu. Cam əlində, məclisə baxanda Bəhram duruxdu.

Şah kürsüsündən beş addım aşağıda SipəhSaların yanındakı kənizdən başlayaraq, sərkərlərlə, vəzirlər və məmurlarla yanaşı duran kənizlərin hamısı hərəmxana Kənizlərindən ibarət idi.

Heyrətdən Bəhramın dili söz tutmadı.

Sonra ağır-ağır, onun-bunun üzünə baxıb, soruşdu:

– Mən röya görürəm nədir, Salar?! Mənim kənizim sənin məşuqəndir?! Ən dəhşətli bu idi ki, SipəhSalar mərd baxırdı.

Bəhramın nəzəri süfrə boyunca gəzdi. Sərkərlər, hətta kənizlər də açıq və mərd baxırdılar.

Bəhramın səsi titrədi:

– Mənim Hərəmxanəmin kənizləri təbəələrimin məşuqələridir?!
Kənardan bu müdhiş həqiqəti təsdiq edən bir səs gəldi:
– Bəs necə bilirdin, ey Şahənşah?! – Fitnənin səsi idi.
SipəhSalar:
– Biz sənə xəyanət etməmişik, Şahım. Buyurdun ki, könlündən keçəni gizlətməsin heç kəs, azadlıq, xoşbəxtlik hökm sürsün. Özün buyurdun ki, könüldən keçənə yasaq yoxdur.
Bəhramın dili-dodağı əsdi.
– Könüldə xəyanət və ya aşikarda xəyanət, fərqi nədir, Salar?!
Əlini süfrəyə atdı, nemətləri, kuzələri, camları süfrə ilə birgə çəkib dağıtdı.
– Nankorlar! Murdarlar! Mənim süfrəmdə təam yeyib mənim kənizlərimə göz dikmisiniz?! Bu nə təbəəlikdir?! Bu nə insanlıqdır?! Bu ki, heyvanlıqdır!
Əyan-əşrəf bir yana çəkildi, kənizlər o biri yana.
Hədəqədən çıxmış gözlər dolanıb Fitnənin üzündə dayandı.
– Bəs sən nə əcəb təksən, Fitnə?!
Fitnə:
– Mən həmişə tək olmuşam, Şahım.
Bəhram:
– Necə yəni "tək"?! Mənsiz?!
Fitnə:
– Sənsiz!
Bəhram:
– Mənim altımda uzananda da tək olmusan?!
Fitnə:
– SağƏsÜn təxti ƏrEyə gətirildiyi gündən bu günə qədər, yeddi ildə mən heç vaxt sənin təxt-xabında uzanmamışam, Şah.
Bəhram:
– Necə?! Heç vaxt?!
Fitnə:
– Yeddi Məlikədən heç biri sənin kənizin olmayıb!
Bəhram dəhşət içində, sırada birinci duran Hind Məlikəsi Furakın tutqun üzünə baxıb, sonra yenə Fitnəyə baxdı.
– Sən boş söz danışan deyilsən, Fitnə. Ömrünün yeddi ilini Bəhram Qurun ağuşunda, Təxt-xabda keçirən kənizim indi niyə deyir "sənin təxt-xabında uzanmamışam?!" Bu nə tapmacadır?!

Fitnə:

– Tapmaca deyil, Şah, həqiqətdir.

Bunu deyib, ziyafətgahdan uzaqda, mağaralar səmtində tüstülənən ocaqlar tərəfə üz tutub çağırdı:

– Məlixə! Hüzura gəl!

Tüstü altından qara bir yumaq yumalanıb gəldi. Təzim edib, dikəlib yumaqlıqdan çıxdı. Ağzında yeganə dişi əsən, yüz yaşlı qarı idi. Dərin çuxurlarda işıldayan açıq istehzalı, müəmmalı gözlərini birbaş Bəhramın gözlərinin içinə dikdi.

Fitnə:

– Kor ehtirasın bu qarı ilə yatıb yeddi ildə, Şah! Məlixə, doğrudur?

Qarı ağzını quyu kimi açıb, şahın üzünə güldü.

Bəhram dəhşətdən süstləşdi. Bütün varlığı ilə çalışıb iradəsini toplamağa səy göstərdi.

– Mən bu ifritə ilə yatmışam?! Bu necə ola bilər, kəniz?!

Fitnə:

– EySar yenə yaddaşını alıb, Şah. Yeddi ildə baş verənləri hifz edən yaddaşın yoxdur daha.

Bəhram:

– Mən ki, Ün eşitdim. “EySarım” dedim! EySar niyə cəzalandırır yenə məni?!

Fitnə:

– “Kor ehtiras” deyirik. EyOd ƏrƏs – Uca Həqiqətin Yaradan İşığı “ehtiras”a çevrilib, ƏrƏsimiz – “irs”imiz vəhşi at ehtirasına bağlanıb. Varlığımız “ehtiras”dan ibarətdir. Bəşər müsibətlərinin sirri bu kəlmədədir. Ehtirasdan məhrum olmalısan, Şah!

Bəhram:

– Tamam məhrum?!

Fitnə:

– Bəli.

Bəhram:

– Hissiyatdan məhrum?!

Fitnə:

– “Hiss” Yaradan mənalı Əsdən azıb, BağÜndən ayrılan insanı daimi aldadır!

Bəhram:

– Demək, daşa dönməliyəm?!

Fitnə:

– "Daş" deyəndə OdƏsi – Yaradan Odu düşünməlisən, Şah!

Kor ehtiras düşkünlərinin OdƏsdən məhrum olub "daş"a çevrilməyi ölümdür. Bu yüz yaşlı məlixə yoxdur.

Bəhram:

– Nə?! Necə yəni "yoxdur"?!

Fitnə:

– ƏsAğ idin, müdrik idin. "Şah" oldun, anlamaz oldun. Mən deyirəm: Yoxdur Məlixə! Bax!

Bəhram baxdı və qarının birdən-birə yoxa çıxdığını görüb, yenə Fitnəyə baxdı:

– Demək, olmayıb o qarı əhvalatı?!

Fitnə:

– Olub, ey "hiss bədbəxt"! Ziyafətə bax! AğƏlsiz – "ağıl"sız "hiss"ləri gör!

Bəhram qarının yoxa çıxdığı yerdən gözünü çəkib başını qaldıranda Rast Rövşənin əvəzində başı div başı, bədəni camış bədəni,[1] nəhəng, heyrətli bir məxluq gördü. O məxluğun ətrafında nəhəng, heyrətli ilanlar, cinlər, şeytanlar qab-qacağı dağıda-dağıda yeyib-içirdilər və insan səsi ilə qışqıra-qışqıra, Bəhramın anlamadığı yad-yabançı dillərdə anlaşılmaz sözlər deyirdilər.

Muğanna sehr ağacını daşa vurdu.

Əcaib məxluqlar yoxa çıxdı.

Rast Rövşən tər içində, titrəyə-titrəyə ayağa qalxıb, Atəşgahın qabağındakı ağ sütun Mağa nə isə deməyə çalışdı. Səsi çıxmadı.

Muğanna:

– Pəhləvanlarını tanıdınmı, ey Şahənşah?! ƏrEylərin niyə əcaibləşiblər?! Cavab ver, ey "qan nişanəsi"?!

Bəhram:

– Sən nə vaxta qədər zülm edəcəksən bu bədbəxt Şahənşaha?!

Muğanna:

– Yeddi ildə kənizə çevirdiyin Məlikələrinə bax!

Bəhram baxdı. Məlikələr də eynilə Məlixə qarı kimi yoxa çıxdılar.

---

[1] "Həft peykər" dastanında bu cür rəmzlər çoxdur; hamısı yalnız mədrəsələrdə uzun müddətli tədris zamanı açılırmış.

Muğanna:
– Fitnə, son dərsini de bədbəxtimə.
Fitnə:
– On yeddi yaşına qədər "Yəmən"də – EyMəndə dərs keçib, gəlib təxt-taca sahib olandan sonra sən Reydən və bu iqamətgahdan kənara çıxmamısan. Rusu, Çini, Xarəzmi, Hindistanı, Məğribi, Rumu, Reyi gəzməmisən. Səltənətimizin yeddi ölkəsindən yeddi kəniz gətirməmisən. Yeddi ildə sənə dərs deyən yeddi kənizin yeddisi də o yeddi ölkədə mövcud olan məlikələrin surətləridir. Məlikə isə məmləkətində mövcud olan ifritədir, Şah!
Bəhramı da eynilə Rast Rövşən kimi tər basdı.
Fitnə:
– Yeddi ildə sən heç Məlikələrin surətləri ilə də eyş-işrətdə olmamısan. İfritə sifətini dəyişə-dəyişə, ipəyə bürünüb təxt-xabda sənə xidmət eləyib.
Beynin tutulub. Dilin tutulub. Nə düşünə bilirsən, nə danışa bilirsən. Div, camış, ilan, cin, şəyatin Pəhləvanlar mühitində "Qur"a – vəhşi ata dönən "Şah"ı ƏsAğ etmək üçün EySarın belə dərs deyib sənə!
EySarınız siz vəhşi atlara – "ehtiras"lara da belə dərs deyir, ey dünyadan xəbərsiz Təhriflərim!
Ən yüngül dərsiniz yuxuda röyadır. Qapalı beyinlərinizə OdAğÜzdən göndərilən, canlı insan qədər canlı şəkillər əsrlərdən bəri sizə işgəncə verə-verə dərs deyir. Qan-tər içində, hövlnak oyanıb "Bismillah! Bismillah!", "Tövbə! Tövbə! – deyirsiniz. Aradan bir az keçəndən sonra isə hər şeyi unudub, yeni-yeni murdarlıqlara qurşanırsınız. Murdarlıq şiddətləndikcə ehtiras da şiddətlənir, ər arvadı, arvad əri aldadır.
Dost dostun, qardaş qardaşın həyatını zəhərləyir. Ata, ana, oğul, qız, qohum-əqraba bir-birinə işgəncə verir. Qapalı beynin xəbəri yoxdur ki işgəncələr də dərsdir. Torpağı, suyu, havanı, bədəninizi tamam zəhərləyəndən sonra, canınıza lərzə salan təpəgöz "inoplanetyan"lardan başlamış, gözünüzə görünüb yoxa çıxan "qallüsinasiya"lara qədər şəkillərin hamısı dərsdir.
Ehtiyac murdarlıqlarınızı xatırlayın. Sizin hər bir əməlinizi ovuclarının içi kimi görən "Axirət əhli" əzizlərinizin nələr çəkdiklərini bilmirsiniz. Çünki "Axirət"ə inanmırsınız, ey ehtiras əsirləri.

Fitnə Bəhrama dedi:

Rusu, Çini, Xarəzmi, Hindistanı, Məğribi, Rumu, Reyi gəzməmisən. Səltənətin yeddi ölkəsindən yeddi kəniz gətirməmisən. Yeddi ildə sənə dərs deyən yeddi kənizin yeddisi də o yeddi ölkədə mövcud olan Məlikələrin surətləridir".

Siz buna da inanmadınız, ey Təhriflərim. Çünki o surətləri – canlı şəkilləri göndərənə inanmırsınız.

Fitnə dedi:

Yeddi ildə sən o Məlikələrin surətləri ilə eyş-işrətdə olmusan, ey Şahənşah! Onlardan dərs almısan!

Sualla dolu beyninizdə bir sual da doğuldu: "Yəməndə – EyMəndə "Neman"dan – ÜnMəndən dərs alan Bəhram, iqamətgahda niyə yenə ÜnMəndən dərs almasın?!"

Dərk edə bilmisiniz ki, Bəhram "Rey"-ƏrEydə də, iqamətgahda da yenə Ünümdən dərs alıb, ey sual dalınca sual verənlər, şərh dalınca şərh tələb edənlər.

"Həft peykər" dastanındakı yeddi "günbəz", yeddi Səyyarədə – ƏsEyƏrdə yeddi OdÜn EvƏs rəmzidir. Yeddi OdÜn EvƏsdə Sar EySarınızdır. Yeddi EvƏsin Od Ünü – həqiqət Ünü mənim Ünümdür.

Həqiqət Ünümü "Rus", "Çin", "Xarəzm", "Hind", "Məğrib", "Rum", "Rey" Məlikələrinə vermişəm. Çünki "Rus" mənim tərik ƏrÜzümdür. Rus Məlikəsi "Nasirannuş" ÜnƏs ƏrÜn ÜnƏsimdir.

ÜnƏs ƏrÜn ÜnƏsim "Nas İran nuş" olub. "İran" Pəhləvilərim "nas" çəkirlər, ƏrÜz qızlarını "nuş" edir, ÜnƏsi öldürürlər.

"Nas İran nuş" BağƏrim Gura – Bəhrama nə deyirlər? "Pəhləvanlar elmimi anlamayanda mən onların kəllələrindən minarə ucaldıram.

ƏrÜzümün təhrif ərazisi "Tur"anda İskəndər Kəbirinizin cəngavərlərinin kəllələri ilə birlikdə çürüyüb beyinsiz kəllələriniz. Odur ki, "Nas İran nuş"un "günbəz"i qan rəngindədir.

Budur varlığınız – mənəviyyatınız-tarixiniz-Dilsizliyiniz-OdƏlsizliyiniz!

O birisi Günbəzlərin rənglərinə diqqət yetirin.

Çin Məlikəsi Yağmanazın "günbəz"i sarıdır.

Buynuzlu İsgəndərin ordusu içində gedib "Çin"i "Ki"ni – Odumu – həqiqətimi yağmalamısınız, EyAğMən ÜnƏsim "Yağmanaz" olub, yağmaçıların nazını çəkməkdən saralıb-xəstələnib.

Xarəzm Məlikəsi Nazpərinin “günbəz”i qızılıdır.

“Xarəzm”i – AğƏrƏsimi – Yaradan SafAğ Elmimin işığını kəsmisiniz, ÜnƏs EvƏrim “Naz pəri” olub, qızıl rəngli ehtirasın nazını çəkir.

Hind Məlikəsi Furakın “günbəz”i qaradır. Fateh İskəndərin dilində “ind”ə çevrilmiş ÜnOdumu – həqiqət Ünümü eşitmirsiniz, EvƏrEyAğım “Furak” olub, qara rəng – zülmət içində – beyində anlaşılmazlığa çevrilib.

Məğrub Məlikəsi Azəriyyunun “Günbəz”i – yeddi rəng qarışığıdır, günəşdir. “Məğrub”i – BağƏrEvi – İşıq Evinin Bağını qırmısınız, OdƏr Eyun “Azəriyyun” olub, Alova dönüb, özlərini “Azər” – atəş adlandıranlarımı yandırır.

Rum Məlikəsi Humanın “günbəz”i səndəli – palıdıdır, torpaq rəngindədir. “Rum”u – Ərimi – işığımı söndürmüsünüz, Hoyum (köməyim) – “Huma” – “Homa” – təhrif insan olub.

Rey Məlikəsi Dürəstənin “günbəz”i Ağdır. SafAğ Elmidir. Bağdayımın ilk vilayəti ƏrEyi təhrif etmisiniz. OdƏr ƏsOd – OdƏrimin Yaradan həqiqəti “Dür əst” – ağılsız olub, sizi qandıra bilmir, ey OdƏlsizlərim!

“Bəhram”ım “peykər”dən – BağOdƏrdən, EySarından dərs alıb BağƏrim – Bağ işığım olandan sonra ƏrEy vilayətinin xəstə hakiminin qızı “Dürəstə” ilə evlənir.

Rəmzlər içində olan dəstanda belədir.

Əslində isə, BağƏrim OdƏr ƏsOda – OdƏrimin Yaradan Həqiqətinə – SafAğ Elminə sahib olur. “Zindanı” gəzib “Məhbus”ları – BağEvƏsləri – EvƏs Bağlarını azad edir. ƏsÜn OdÜnü “zindan”a çevirən Rast Rövşəni “dara” çəkir – OdƏrə çevirir. Və, nəhayət, “atına minib, mağaraya səyirdib, orda – mağarada yoxa çıxır”, yəni Oduna-Həqiqətinə sahib olub Bağ Ərə – özünə qovuşur. “Mağara”nın yuxarısından “Daş” – OdƏs – Yaradan həqiqət tökülüb yolu bağlayır ki, BağƏrimin daxilinə daha heç bir təhriflik getməsin, “Bəhram” – “qan nişanəsi” – ehtiras qulu həmişəlik yox olsun.

Oxuyun Fars sözləri altındakı türk “dastan”ını – OdƏs OdÜnü, düşünün, görün, şərhsiz dastanın – Farsca dastanın atını mağaraya səyirdib daş yığınları arxasında yoxa çıxan Bəhramı necə anlaşılmazdır!

Min-min illərdir, nəsildən-nəslə ötürə-ötürə, bir-birinizə deyirsiniz: "papağını qoy qabağına, fikirləş". Bircə nəfər fikirləşən varmı ki, BağBağÜndən azanımızı "qabağımıza qoyub fikirləşəndə" fikirləşmirik ki, "papağın içi boşdur?!"

Təhqir saymayın bu sözlərimi. BağHəmOdum yazıb, oxumusunuz ki, Nizaminin dilini bilmirsiniz, ey təhriflərim. "Nizam" – ÜnƏsim sənsən, ey ÜnƏs "ins an"ım! "İns" öz ÜnƏsliyindən xəbərsizdirsə, aydın deyilmi ki, "insan"a çevrilənim öz dilini anlamır.

ÜnƏs idin, cəmi Kainatın – on səkkiz min Aləmin sahibi idin, əbədi idin sən, ey ÜnƏsliyindən – Yaradan Ünlüyündən tərik düşmüş Türküm! "Qrek" – GurAğım da tərikdir – Türkdür, "Fars" – EvƏrƏsim də, "Ərəb" – ƏrEvim də, EyOd – "Yəhud"um da, ƏrÜz – "Rus"um da, ƏlMən – "Alman"ım, OdEy ƏlƏsim – "Doyliçim" də, BirOd – "Brit"im, ÜnOd ƏlƏsim-"İngilis"im də tərikdir – Türkdür. OdƏr – "AzƏr"imin indiki ən yaxın qonşuları "Gürcü"dən, "Hay" – "Erməni"dən, "Ləzgi"dən başlamış, "Yaponiya"nın, "Çin"in, "Hindistan"ın, "Afrika"nın, "Amerika"nın ən qədim sakinlərinə qədər "Yer" üzündə ən kiçik "etnik qrup"lara qədər, hamısı OdƏr ikən tərikdir – Türkdür; özündən xəbərsiz "Allah" – ƏlAğdır, "Boq" – Bağdır.

Dərk etdinizmi niyə ölümlüsünüz, ey hər şeyi dərk edə-edə heç nə dərk etməyən qeyri-adi idraksızlar?! Dildə – OdƏldədir əbədiyyət, ey ölümlülər! OdƏldə – İdealda – EySardadır.

"İskəndərnamə"ni oxuyub fikirləşirsiniz: "İskəndər zülmətə gedib, dirilik suyu axtarıb ki, içsin, əbədi olsun, tapa bilməyib. Deyiblər: "Xızr içib dirilik suyunu. Bulaq quruyub".

"Xızr", "Xıdır İlyas" adları ilə tanıdığınız "peyğəmbər" adlandırdığınız o əbədi kimdir? Niyə iki cürdür o əbədinin adı?

Diqqət yetir, gör, Od – Həqiqət düşməni fatehin "Od"u əvəz edən "ki" "sözü" sən OdƏri – Həqiqət İşığını necə mənasızlaşdırıb: "Kidar" – "Xıdır" – "Xızr!" Nə məna verək indi bu "Xızr" – "Xıdır" "İlyas"a?!

Nə desən, hamısı Kainatdan, həqiqətdən, Əbədiyyətdən kənardır, ey "Xızr"ım – "Xıdır"ım – "Kidarım"; təhrif "beyin"də – Zülmətdə əfsanədir – "dirilik suyu"dur. ƏsOd OdƏr – Əs "ki" OdƏr olmayan "İskəndər" Əbədiyyəti OdƏrlikdə – həqiqət İşığında axtarmayıb, məhz Zülmətə gedib.

Rəmzlər içində ölü "İskəndərnamə"nin ana xəttini – süjetini xatırlayın:

"Bərdə"ni – BirOdu dağıdan, Nuşabəni əsir aparan "Rus"larımla döyüşsə də, "Nuş abə" (içməli su – Elm) adı altında gizlənən ÜnƏsEvi xilas etsə də, irsən ƏlAğ ƏsÜn OdƏr – ƏlAğSanOdƏr ikən "Alek san dr" olduğuna görə ÜnƏsEvin – "Nüşabə"nin Elmini anlamır, OdƏr əvəzinə "dəri" görür, Zülmətdə – "beynində" çaxnaşan biri-birindən əcayib məxluqlardan baş açmır; canlı insan qədər canlı şəkillərə çevrilən Ünümü eşitmir, cəzalanır – xəstələnib, ölüb torpağa çevrilir: keçinəndən sonra yumruğunu açıb görürlər ovcu torpaqla doludur. Budur kar-kor fatehin dərk etdiyi həqiqət: "Torpağam!" Budur Zülmət "beyin"in taleyi, ey ƏsOd OdƏrə – Əs – OdƏrə – "İskəndər" deyən zülmət beyinlər!

Rəmzlər içində ölü dastan əsiri zülmət beyinlərdən səslər gəlir: "Əgər İsgəndər bu dünyaya qanmaz gəlib qanmaz da gedibsə, bəs İsgəndərin müəllimlərinə – Yunan alimlərinə niyə rəğbət göstərir Nizami?", "Niyə deyir İskəndərə peyğəmbərlik verilmişdi?"

Haqlı suallardır?

Xeyr, ey qeyri-adi idraksızlar. Məcburam dönə-dönə təkrar edim ki, təhrif sözlər içində gizlədilmiş həqiqətləri axtarmadan, təhrif sözlərin məzmununu həqiqət saymaq olmaz, ey təhriflərim, təriklərim – Türklərim! "Peyğəmbər"lik, "Peyğünbər"lik yoxdur, İskəndərə BağÜn EvƏr (EvƏrin BağÜnü) verilirdi, o təhrif bədbəxt isə, dediyim kimi heç nə eşitmədiyinə görə, əzab verici əcaib şəkillərə çevrilən Ünü qanmırdı. Dünyaya məhz qanmaz gəlib qanmaz da gedən cahil fatehin təhrif müəllimi "Ərəstun"u yox, ƏrƏs OdÜnü tərifləyir Nizami.

OdƏr sözlərinin tələffüzündən yadırğamış dil-dodaqlarınız kimi, həqiqətlə yaşamaq vərdişlərindən məhrum olmuş yaddaşlarınızı zorlamayın, ey təhriflərim; BağHəmOduma verdiyim ƏsƏrlərdəki OdƏr sözlərini yadda saxlamağa cəhd göstərməyin; təhrif mühitinizin hakimi təhrif dillərdir.

OdƏri – Həqiqət İşığını rədd edir o Zülmət mühiti. Bağ Atamı, qardaşlarımı, məni, ikinci doğuluşdan sonra əbədi Səyyarələrdə – ƏsEylərdə əbədi həyatın möcüzələri içində yaşasalar da, "Yer" – EyƏrin həsrətini çəkən SafAğ əzizlərinizi rədd edir o mühit. Bircə tələbim var sizdən. Tələbim yox, ricam – xahişim var. Xahişim

yox, yalvarışım var: sözə ƏsÜzə – Yaradan mənaya diqqətli olun. “Yer” – EyƏrə varlığı Ər-İşıq içində sözlə – ƏsÜzlə göndərdiyimiz kimi, Zülmət mühitindən Zülməti dağıdan yeganə qüvvəni – Odu – Həqiqəti də sözlə – ƏsÜzlə – Yaradan məna ilə göndəririk. Bizim ən böyük rütbəmiz üzdür. Üzə – Mənaya – Bağa bağlanın. Budur yeganə tələbim, yeganə xahişim, yeganə yalvarışım! Əmma, dəhşətə baxın ki, “Yer”in mühiti bu yalvarışı da rədd edir: beyni, bədəni ehtirasa bağlı “ins” sözə – ƏsÜzə – Yaradan mənaya ən yaxşı halda bir-iki diqqət yetirib, ehtirasa əsir olduğu vaxtların təsiri ilə yenidən dəyişib, sözə laqeydləşir. Bu vəziyyət mühitinizdə ümumi haldırsa, mənim yalvarışım əbəs deyilmi?!

Əbəsdirsə, niyə yalvarıram?

Cavab yenə də tarixinizdədir.

İlan, bütün “Yer” üzünün ümidləri olan ÜnAğ ƏsEvÜn – “Naxçıvan” Bağlarının üçünü də zəhərləyəndən sonra, əsrin axırında Nizami qızılla tutulmuş satqın şair katiblərin əli ilə dəyişdirilməyə başladı. “Xəmsə”nin adını – “Nizami” kəlməsini “Xəmsə”– beşliklə əvəz etdilər. Dəstanların əvvəlini “bir olan” Allahın adı ilə bağladılar. Diqqət yetirin, “Xəmsə”də Nizami Süleymanı (ƏsƏlMəni) və İsanı (EySarı) vəsf edir, heç bir sətirdə də “Allah” kəlməsi işlətmir. Nə üçün? Çünki Nizami SafAğa bağlı idi. Budur Nizaminin böyüklüyü; sözə – ƏsÜzə, OdƏsə, OdƏlə – Dilə – İdeala bağlılıqdadır. Sizin xilasınız da SafAğa bağlılıqdır. Başqa yol, təkrar edirəm, fəlakətə aparır.

# CӘHӘNNӘM[1]

## (*ƏsƏr*)

### 1. FANTASTİKASIZ FANTASTİKA

"Cəhənnəm" deyilən, doğrudan da, varmı ya yoxdur? Varsa, ömrü onsuz da işgəncələr içində keçən insanı bir daha, özü də daimi əzaba salmağa hansı vicdansız yaradıcıya lazım olub? Və ya cəhənnəm yoxdursa, bir para adamın dediyi kimi, "insanı bəd əməldən çəkindirmək, qorxutmaq üçün din uydurmasıdır. Elə isə bir ağıllı və məntiqli sual doğur ki, əgər bu "qır qazan"lı, "Odabaşı"lı dəhşət həqiqətən uydurulmuş yalandırsa, "mif"dirsə artıq iyirmi birinci əsrə qədəm qoymuş "sivilizasiya"lı bəşəriyyətdə bircə nəfər alim-filan tapılmayıb ki, Cəhənnəmin, doğrudan da, varlığını və ya "mif"liyini sübut etsin?! Bu qəbildən sual axtarsan yenə tapılar. Mən isə, Cəhənnəmin varlığı, yoxluğu və sairə suallar üzərində düşünməkdən canımı çoxdan qurtarmışam və birbaşa deyirəm: var Cəhənnəm! Vaxtilə mərhum Muğannalardan eşitdiyim, sonra özümün, necə deyərlər, öz gözümlə gördüyüm əzab-işgəncə məkanını bütün təfsilatı ilə yazmağa hazıram.

Və yazıram, oxuyun. Şübhə yoxdur ki, Cəhənnəm haqqında həqiqət hamıya lazımdır.

Bünyad bəyin gözlərini əvvəlcə nazik yapışqanlı "leykoplastr"la, sonra qara lentlə niyə bağladılar? Maşında biri sağında, biri solunda oturub, neçə saatlıq yolda bir kəlmə də danışmadan gedib sərhədi necə keçdilər? Bunlar Mazandaran meşəsində məlum oldu. Hadisə də, əslində, elə orada – meşədə başlandı: Bünyad bəy lap çoxdan görmədiyi agenti Qumralın səsini eşitdi:

– İqamətgaha gözübağlı gətirildiyinə görə bizi bağışla, Bəy. Sənin istəkli "Bakirələr"iyin hamısı, o cümlədən mən, gözübağlı

---

[1] Tamam yeni variantda təqdim olunur.

gətirilmişik buraya, getmək lazım gələndə də gözübağlı aparılmışıq. Parisə, Moskvaya İmamımızla görüşməyə aparılanda pəncərəsiz kupelərdə, ya da lap dar arakəsməli təyyarələrdə İmamızın özü ilə birlikdə o yan-bu yana getmişik, hardansa vertolyotla gətirilmişik bu meşə içinə. İmamımızın məlumatlarını hardan-haraya, kimdən-kimə apardığımızı bilməmişik. Yalnız gecələr İmamımıza qulluq göstərmək lazım gələndə gözlərimiz işıq görüb. İnan! İncimə!.. Bizim hətta "İmam" kəlməsini dilimizə gətirməyə də ixtiyarımız yox idi, "Sahibimiz" deyirdik "İmam" əvəzinə. Sahibimizin eyş-işrət iqamətgahı idi bu yeraltı ev. Hərdən vertolyotdan düşəndə bizə deyirdilər: "Moskvaaltı" meşədəsiniz. Sonra ağaclardan tanıyırdıq, bilirdik ki, yox, Mazandarandayıq. Deyirdilər: "Fransada meşədəsiniz", tək onda çaşırdıq. Sən daha belə çaşqın yaşamayacaqsan, Bəy. Sahibimiz rəhmətə gedəndən sonra mənə dedilər: "Bundan sonra qonağın Bünyad bəy olacaq". Açığı sevinmədim, Bəy. Çünki səndə çox qəddarlıq görmüşəm. Əmma indi daha "ixtiyar"ın məndədi. Görürsənmi necə sərbəstəm, hətta gülürəm? Çünki "ispolnitel" mənəm daha, Bəy. Əmma qəddar olmuyacam mən. Əksinə, qulluğunda duracam, açığı cavanlaşdıracam səni. – Arxadan kiminsə soyuq əli uzanıb, bəyin başının dövrəsindən qara, enli, qalın lenti çıxartdı. Eyni anda yenə Qumralın səsi gəldi: – İncimə, bəy, incimə. Hara gətirildiyini dedim. Nə üçün gətirildiyini bil: yaxşıca cavanlaşdıracam səni burda ki, yüz on üç yaşdan sonra da işə yarıyasan. Sən yeganə müsafirsən ki, yüz on üç yaşında da kəşfiyyatçısan. Çünki çox təcrübəli adamsan. Yer üzündə ikinci belə adam yoxdu, ola da bilməz... Sahibimiz səksən yaşında qocaldı. Çox intizar çəkirdi, heç bilmirdi Moskvada hazırlanır, yoxsa Parisdə. İllər keçirdi, hakimiyyətə gəlməyə şərait yaranmırdı, lap partlayırdı kişi. Bir də, açığı, Bakirələrlə ünsiyyətə dözmədi. Sənə heç altmış-yetmiş yaş da vermək olmaz. Bu sirri-xudanı açmaq mənə tapşırılıb. Sənin adi, sadə agent kimi tanıdığın bu alim zənən bu yüz on üç – yetmiş yaşlı adamın hissiyatını qurdalamalıdı bir az. Gəl görək niyə bu qədər şəhvətlisən, gəl. Deyirlər itdə olur belə şəhvət.

– Nə?! Ay qız, sən nə danışırsan?! – Bünyad bəy nədənsə qızarıb titrədi.

Qumral isə, əksinə, asta-asta gülüb, əlini qocanın üzünə çəkdi.

– Hirslənmə, Bəy. "İt" kəlməsi sənin bioqrafiyanla bağlıdır. Əmma açmıram o sirri, qorxma... Türkiyədən Azərbaycana gedən

“Boz qurd” batalyonları da “it” deyirdilər sənə, əmma heç incimirdin onlardan, çiyinlərindən düşməyən “Kalaşnikov” avtomatından qorxurdun, sonra tez-tez qonaqlıq verdin onlara, adını “Bəy” elədilər. O vaxt necə sevindiyin yadındadımı? Axı sən doğrudan da Bəysən. Adın da bəydi, özün də. Bəlkə elə köhnə bəyliyindədi şəhvətin sirri? Qarayazı meşəsində, Qarasu deyilən yerdə qunduzlara – itlərə arpa yedirdə-yedirdə, hər gün gecə gedirdin Muğanlı kəndinə, hansı Muğanna haradadır, nə işlə məşğuldur, necə öldürmək olar ki, səsi çıxmasın?

Bəy qıza çəpəki baxırdı.

– Sən bunları hardan bilirsən, ay qız?!

– Vaxtı çatanda biləcəksən, Bəy. Tələsmə. Sən, necə deyərlər, ovcumun içindəsən, Bəy. Bakirələrdən hərəsindən bir az eyş-işrətdən başqa heç nə görməmisən sən bu həyatda. Düzdü? Ömrün kəşfiyyatda keçməyibmi, yazıq Bəyimiz! Deyirsən bəlkə kəşfiyyatçı həyatının məhrumiyyətləri hərisləşdirib səni, bu sinnində bakirələrlə bir yerdə olmaq keçib könlündən? Sahibimizin canı üçün, lap yazığım gəldi sənə. Mənim təklifimdi bu – bakirələrlə birgə olmaq, hüceyrələrini diriltmək. Hə! Elə bilirsən dirilməz? – Qumral elə gülürdü: – Özüm dirildəcəm ölmüş hüceyrələrini! İndiki şəhvətin birə-beş artacaq!

Bayaqkı soyuq əl yenə arxadan uzanıb Bünyad bəyin gözlərinin üstündən ikinci qara, zərif “leykoplastr”ları qopartdı, kandarın arxasındakı qara pərdəni kənara çəkdi və Bəy Sahibinin iqamətgahını gördü və heyrətdən qurudu. Sahibinin bu gizlin eyş-işrət iqamətgahı onun – Bünyad bəyin min doqquz yüz iyirmi üçüncü ildə “İran”la “Rusiya” (daha doğrusu, Şimali Azərbaycan) arasında sərhəd bağlananda tərk etməyə məcbur olduğu batin İsmaili iqamətgahının bir hücrəsi idi.

Vaxtilə “verbovat” olunanda Bakirələrdən qaradinməzliyi ilə seçilən Qumral indi heyrətli dilli-dilavər, həm də bir növ mədəni və qəribə gənc olmuşdu.

Qumral elə bil onun fikrini duydu.

– Təəccüblənmə, bəy. İyirmi üçüncü ildən indiyə qədər Bakının məscidlərindən, Lənkərandan, Astaradan, Cəfəri müridlərinin əllərilə yığıb göndərdiyin qızıl, bu hücrədə hər şey, olduğ kimi durur, mən özüm də! Bəli! Özüm də! Bunun sirrini də sonra biləcəksən...

qızıllardan lap az bir qismi inqilaba xərclənib. İslam inqilabını əslində SSRİ öz xərcinə elədimi?! Şimali Azərbaycanla Cənubi Azərbaycanın arasını həmişəlik kəsmək, Bakı, Xəzər neftinə sahib olmaq üçün SSRİ qızılı təyyarəylə daşıyırdı. Sahibimiz buradakı qızıldan lap cüzi qismini bakirələrə verirdi, vəssəlam. Bakirələrdən hamısı elə məntək kübarlaşmışdı. Gördüyün kimi, əşyalardan da kübarlıq yağır. Nə istəsən, verəcəm. Sən Sərvinazı Muğanlının o Türmən deyilən yerində tutub o dünyaya göndərmisən. Bəli, bilirəm, Bəy! Bakirələrin səni yaxşıca cavanlaşdıracaqlar. Çünki hamısı bax beləcə məntək cavan, təravətlidirlər. Niyə? Deyəcəm hər şeyi! Gəl, Bəyim, gəl! Sahibimizin xidmətində olan qızlar kimi, adım elə Bakirədir. Burda türklərimizin içində Qumral olmuşam.

Bünyad bəy içəri keçdi.

Hücrədə hər şey, o cümlədən alçaqlıq təam stolu, təxt-xabın ipəkləri, hətta balınc da tünd qara rəngdə idi. Qumralın qumral üzü, badamı gözləri ən müasir diskoteka lampalarının titrəşən "işıqlarını əks edib içəridən şölələnirdi. Bünyad bəy maşında nə qədər silkələnib əzilsə də bir necə andaca dirçəlib bu sifətin şöləsinə qapılıb daha heç nəyə diqqət yetirə bilmədi. Ətrafında hər şey dumana bürünürdü.

Qumral elə bil qocanın fikrini oxuyurdu:

– Hə... səndə günah yoxdu, Bəy. Neçə ildi o meşədəki "Zversovxoz"da[1], itlərini yemləyə-yemləyə zənən üzü görməmisən. Elə ona görə demisən ki, istefaya gedənlərə pul verməyin siz, tovarişşi, mən zənənlərlə işləyəndə dirilirəm.

Qumralın köksdən gələn sehrli səsinin hərarərti qocanı vururdu. Yaxınlaşanda əzabkeş, üzgün Bəy bu yaxınlıqdan od alıb alışdı. Sinəsi qabarıb-enib dalğalandı. Ağ, ipək saqqalı zərif üzünün gözəlliyi ilə o qədər də uyuşmayan nəhəng, sümüklü, kobud əlləri Qumralın şabalıdı ipək saçları üzərində titrəyib, zərf, uzun boynuna, çiyinlərinə, sonra gərdəninə endi. Yüz on üç yaşlı quru sümük əllər deyildi daha bu əllər; acıxmış şir pəncələri idi.

Əmma Qumralın silahı daha güclü idi. Bu silah onun müdrik sakitliyi idi.

---

[1] Qarayazı meşəsində qunduz (suiti) sovxozu

– Tələsmə, ey səksən pud qızıl sahibi!.. Düz səksən pud qızıl var burda, lap cavanlaşacaqsan, Bəy. Əmma qızıl görüb qızıl ilana dönən Bəyimi xəbərdar etməliyəm ki, eyş-işrətlə bahəm Bakirə Qumraldan həm də dərs almağa göndəriblər səni. Bəli! Təəccüblənmə!.. Sonra biləcəksən necə dərsdi bu dərs. SSRİ çekistləri arasında çekist dərsi, İran siyasiləri arasında polis dərsi almısan. Yadına sal, Peterburqdan Bakıya, ordan da uyezdə göndəriləndən bəri kimlərlə işləməmisən?! Artistlər arasında artist Bəyim, mollalar arasında molla Bəyim, inqilabçılar arasında yatıb kobudlaşıb, elə yetişən kimi əlini aşağı atır!

Bəlkə zversovxozdakı o zverlərdi səndəki şəhvətin sirri, Bəyim? Bayaq da eyham vurdum. Bir az da açıq deyim.

Açıq danışıram. Zversovxozda su itlərini yemləyə-yemləyə murdarlaşmısan!

Saflaşmağa göndəriblər səni bu iyirmi altı yaşlı alim zənən yanına. Təəccüblənmə! "Verbovka" vaxtından çox keçsə də yaşım artmayıb. Bunun üçün xüsusi şərait var. Vallah-billah, Bəy. Düz iyirmi altı yaşımdayam! Vaxtı çatanda deyəcəm bu nə sirri-xudadı. Hələlik sirlərlə çulğalanmalısan sən. Nəhayət, mən bunu da deməliyəm ki, nə Qumralam, nə də Bakirəyəm mən. Sənin Qumralıyın eyni olan tamam başqa bir zənən dərs deyəcək sənə, Bəyim. Onda özüm kimi adım da dəyişək. Uzaq yoldan gəlmisən. Öz təcrübəmdən bilirəm, maşında beş-altı saat fasiləsiz yol gedən adamın beyninə uğultu düşür, qulaqları tutulur. Çalış dediyimi eşit, Bəyim. Təkrar edirəm, nə sahibimizin Bakirəsiyəm mən, nə də sənin Qumralın. Eyni zamanda həm Bakirəyəm, həm də Qumral. Özüm kimi adım da dəyişəcək. Əmma həqiqi adım başqadı. Özüm də başqayam, Bəy. Sən bir yaxşı-yaxşı bax mənə, sənin Qumralıyın kopyası olan tamam başqa zənən deyiləm?!

Bünyad bəy baxıb-baxıb başını buladı və nəhayət, dilini tərpədib:

– Yox... sən Qumralsan. Allada bilməzsən məni, – dedi.

Qumral qumrov kmi cingildədi – güldü.

– Sən Qumralı "verbovat" eləyəndə neçə yaşı vardı onun? On altı? Mən də elə o yaşdaydım o vaxt. Əmma gör neçə il keçib? Hesabladın? Qırx olmalıdı, düzdü? Mən başqayam, Bəy. Xüsusi dərs keçmişəm: siz kimilərə dərs demək, pozğunluğunuzu pozmaq, əxlaq saflığı vermək! Çox çətin işdi bu, Bəy. Əmma bacarıram.

– Köhnə əhvalat olsa da, məntək onlarla Bakirəni “verbovat” eləyən “master jenskix del” Bünyad bəy bilməlidi ki, biz çoxduq o vaxt. “Verbovat” günü dedin: “Hamınız soyunun, mən soyunuram”. To yest “doloy stıd” Bu bir. İkincisi, “mənim kliçkalarımdan biri “Qızıl ilandı”, ikincisi “Çax-çuxdu (alverçi), üçüncüsü – “hökmdar”. Yəni mənə tabe olmayanı qızıl ilan kimi çalıram, ikinci, alverçi hökmən alladır, üçüncüsü, hökmdarın hərəmi olur. Siz mənim hərəmimsiniz”... Sonra dedin: “Kliçkalarınızı özünüz deyin”. Düzdü?

Unutmusan. Bu, əlbəttə, qocalıq əlamətidi. Əmma eyib yoxdu, bu düzələcək!.. Yadına salıram. Bundan sonra Furak de mənə. Hind qızı Furak. “Qumral” desən bağımın meyvələrinin hamısı zəhərli olar. “Bakirə” desən bağımın meyvələri lap zəhri-mar olar. Yəni bədrəftarlıq eləyərəm ha!

Bünyad bəy özünü itirmişdi.

Qapıya tərəf baxıb, bayaqkı soyuq əli xatırlayıb barmaqlarını gözlərinin kənarlarında soyuq yapışqanlı yerlərə sürtdü. Ömrünün yarısından çoxunu bir-birindən mürəkkəb kəşfiyyat işlərində keçirmiş, qorxu bilməyən “SSRİ çekisti, İran siyasisi” indi nədənsə üşürgələndi.

– Öldürülməyə gətirilməmişəm mən. Bunu bilirəm. Elə orda da öldürərdilər... Sarsılmışam. Çox qocalmışam. Əmma hələ xeyir verə bilərəm. Beş-altı ay dincəlməyə ehtiyacım var... Sən “Bakirə” mənim agentimsən. İmamımıza xidmət eləyəndə “Qumral” olmusan. Bəs “Furak” kimindir?

Furak qəribə bir sual verdi:

– Üçüncü dünya müharibəsi neçənci ildə başlanıb, bəy? İkinci dünya müharibəsi hələ qurtarmamışdı. Stalin Çörçilli “Ərəb dünyasının yeni renessansı” ilə qorxudub İsrailə müstəqillik aldı. Bunu təsdiq eləyirsən? Bəy üzünü turşutdu:

– Məni xatirələrə çəkmə!

Furak inadla:

– Lazımdı bu söhbət, Bəyim! Lazımdı! – dedi. – Mən sənə lap açıq, lap çılpaq danışmalıyam, bəzi həqiqətləri olduğu kimi deməliyəm. İsrail üç “sverxderjavadan” (SSRİ-dən, Amerikadan, İngiltərədən) gizlin silah aldı və dərhal Fələstinlə müharibəyə başladı. Sən o vaxtdan Rusiyanın bilavasitə dərsi nəticəsində etnik xəstəliyə tutulmusan, təhlükəli saydığınız “Muğ”ları qırırsan, bəyim. Buna etirazın yoxdu ki?

Bünyad bəy təəccüblə dedi:

– Sahibim də, sən “Qumral və sairələri də Sovetə xidmət eləmirdinizmi?

Furak ciddiləşdi.

– Biz hamımız bilirik ki, Stalin Qretsiyanın köhnə kəşfiyyatçılığından sonra Vatikanın ixtiyarına keçdi. Vatikan isə, bilirsən ki, bütün planetdə Yevreyin kökünü kəsmək üçün dünya müharibələrini bir-birinə calayır. Düzdü bu?

Bünyad bəy başını endirdi.

– Düzdü. Sonra?

– Biz bunu da bilirik ki, İran inqilabı da “müsəlman” adı altında yaşayan Cənubi Azərbaycan, Şimali Azərbaycan, Əfqanıstan, Pakistan, Hindistan, Orta Asiya və başqa yerlərdə Yevreyi qurmaq üçündü. Düzdü?

Bünyad bəy bir qədər əsəbiləşdi:

– Bu nə söhbətdi?

Furak yenə müəmmalı idi:

– De görüm, Sahibimizin Yevrey olduğunu səndən, məndən başqa bilən var?

Bünyad bəy bir az düşünüb:

– Yoxdur, – dedi, – ancaq russkoyazıçnı yevreylərdən bilən var. Yevreylər isə, bu müharibə bizim qələbəmizlə qurtarandan sonra açıq deyə bilərlər ki, üçüncü dünya müharibəsini Vatikan başlasa da, yevreylər indi Vatikanı əllərinə alıblar. Etnik məsələ çıxıb ortalığa, bütün planet elə yevreylərdən ibarətdi. Ümümi çaşqınlıq yaranıb. Köhnə “Midiya” – Bağday, indiki Azərbaycan Vaşinqtonla Moskvanı, Çini, İranı, hamını inandırır ki, planetdə düşmən ayrılıqlar yaranıb. Məni, görünür, köhnə işçi kimi ruhən rahatlayb, fikrimi təzələyib yenidən istifadə eləmək istəyirlər. Bu, deyək ki, aydındı, sən özün danış, düz! Birinci, aydın, sərrast qandır necə cavan qalmısan? İkinci, təhrif “Muğ” sözü işlətdin, niyə?.. Niyə Bağ demədin? Üçüncüsü, İmamımın Qumralı, mənim agentim, Stalinə, Xruşşova, Brejnevə xidmət eləyibsə, bəs bu Furak nədir?!

Furak gülürdü.

– Səni diriltməyə göndəriblər iqamətgaha, ya yox?

Bünyad bəy köksünü ötürdü.

– Qumral Zversovxozdan gedəndən sonra zənən üzü görməmişəm. Dedilər, inandım ki, doğrudan da “masaj”a göndərirlər. Axırıncı dəfə soruşuram, “Furak” kimdir?

Furak:

– Sahibimizin özü dərs alıb məndən. Bəli lap körpə idim o vaxt. On altı yaş! Sahibimiz gəldi dedi: “Gecələr ilanlar yeyir məni, həşarət qaynaşır canımda. Sahibini xilas elə, “Bakirə balam”. Soyundu, uzandı təxt-xaba.

Dedim: “İlanları, həşaratı Axirətdən göndərirlər, ya Sahib. Mənə toxunsan, məni də ilana çevirərlər. Qorx məndən”. Yazıq bilirmiş OdAğÜz BağOdƏrdən necə göndərirlər bura o canlı işıq ilanları, həşaratı, cin-şəyatinləri. Başına gəlibmiş. Qorxma, sənə elə işgəncə verməzlər OdAğÜzdən, Bəyim. Sənin dərsin başqadı... Yazıq sahibimiz qalxdı, geyindi, əllərimdən öpdü, diz çökdü qarşımda. Dedi: “Aşiq oldum sənə, Bakirə balam! Sən birinci zənənsən ki, yaxşılıq elədin, İmam nüfuzundan sui-istifadə eləmək əvəzinə, eşq verdin mənə”.

Yer üzündə xoşbəxtlik üçün işıq bəxş olunub insana, Bəyim. O işıqdan – eşqdən xəbəri yoxdu insanın. Ehtirasın sehrinə qapılıb, vəhşi ehtirası eşq zənn eləyir. Aldanır. Yanıb məhv olur. Diqqət yetir, gör nə danışır sənin Bakirən – Qumralın! Bozqurdlar, Cəbhəçilər Arazın şimalında hakim olandan sonra, bilirsən ki, çox dağıntılar eləyiblər orda, millət tamam lütlənib. Türkiyəyə, buraya axın başlanıb, çörək dalınca gələnlərin arasında bizim “Bakirə”lərlə işləyən ruslar da var. Saçlarını boyayıblar, türkdən seçilmirlər. Sahibimizin canişininin tapşırığı ilə əvvəlcə bura – mənim yanıma gəlirlər. O qədər adamın arasında bircə nəfər də ləyaqətli kişi görmədim, Bəy. Təsəvvür eləyə bilməzsən nə qədər əzab çəkmişəm hər birini insan sifətinə salmaq üçün... Sən xoşbəxt adamsan, Bəy. Bu yaşında səni də göndəriblər mənim sərəncamıma. Rütbəcə indi mən səndən böyüyəm, Bəy. Diqqət yetir, deyirəm xoşbəxt adamsan sən. Əgər məndən dərs almalısansa, demək hələ də nə isə çox məsuliyyətli, şərəfli işə göndərəcəklər səni... Min doqquz yüz altıncı ildə nə iş görmüsən bu taya? Lap qədimlərdən “Türkə – EvƏrEyə – Yevreyə düşmən olan Asorulardan ibarət dəstələr toplamısan, İranda dərs demisən, hazırlayıb, silahlandırıb keçirmisən

Şimali Azərbaycana, guya erməniidilər. Erməni-müsəlman davası başlamısan. Sənin həyatın, nümunəvi fəaliyyətin haqqında danışırdım mən burda, deyirdim öyrənin o kişinin təcrübəsindən. Məhz onun işi sayəsində Türkün – ”Yevrey”in – EvƏrEyin başı qarışdı milli ədavətə, Rus yeridi doldu Azərbaycana. Yoxsa bu gün biz burda belə sərbəst işləyə bilərdikmi?! Belə bəxtəvərsən sən, Bəy! İndi, necə dəyərlər, bil və agah ol, yüz on üç yaşında ikən yeniyetmə oğlan eləyəcəm səni. Bəli! Burda eşq yolundasan sən. Keç, yuyun, paltarını dəyiş, dincəl başlayaq. Nəyə? Eşq dərsinə! – Qumral qumrova dönüb cingildəyə-cingildəyə bəyi soyundurub hücrədən dala açılan qapıdan o yanda ılıq, ləzzətli hovuza itələdi, öz əli ilə çimdirib, öz əli qurulayıb yumşaq ipək xalat geyindirdi.

Alçacıq, dəyirmi stolun üstündə çay buğlandı.

Qumral elə ötürdü:

– Eşq yolunda tələsməzlər. Nizami deyir: “Elmin yolu tükdən də incədir”.

Eşq qışqırmır, sakit, rəvan danışır, susur, dinləyir, elmin sözünü kəsmir. Nizami deyir: “Mənim eşq bağımda meyvə çoxdu. Meyvənin acısı var, şirini var, zəhərlisi, zəhərsizi var. Hər bir nemətin dadına baxmalısan”.

Bəy nə yediyini, nə içdiyini bilmirdi. Gözəlliyin sehrindən gözləri dumanlanırdı.

Qumral qolunu boynuna doladı. Susuzluqdan yanan torpaq yağışdan necə yumşalarsa, qocanın qaysaqlı, quru dodaqları da eləcə yumşaldı, titrəyib Qumralın dodaqlarına yönəldi. Əmma yenə də qəribə, sakit təbəssümlə qarşılaşdı.

– Bir iqlimdən başqa iqlimə düşəndə çox yeyən adamın məcazı pozulur, sonra heç nə yeyə bilmir, Bəyim. O taydan, Zversovxozdan gəlmisən sən. Mən istəməzdim ki, Mazandaran meyvəsi Bünyad bəyin məcazını pozsun və Bəyim eşq hücrəsində xəcalətli olsun. Hələlik bu əlim, qolumdur eşq bağının meyvəsi. Nemətini bəyəndinsə, səbr elə, iqlimə alış. Əgər dərsimdən bəhrələnsən Cənnətə düşəcəksən.

Yumşalmış torpaq həlim yağış çisəyindən necə bəhrələnərsə, Bünyad bəy də elə bəhrələndi: zərif gözəlin şadyanalığından sevinib qəhqəhə çəkdi.

– Ümidvaram ki, qaçmaram, Bakirə balam! Razıyam səbr eləməyə. Əmma unutma ki, belə işdə qocalar səbirsiz olurlar. İqlimə alışmağım çox çəkəcək?

Qumral bu suala cavab əvəzində tamam başqa sözlər dedi:

– Sən məni tanımırsan, Bəyim. Bakirə deyiləm mən, Qumral da deyiləm. Nizami Gəncəvinin yaratdığı Furak adında hind qızıdı bu danışan.

Bünyad bəy diksindi.

Bəy bir qurtum çay içib çeçədi.

– De görüm, bu "Furak" kimə xidmət eləyir? Başqalarına işləyirsənsə, bu hovuzda boğaram səni!

Furak sakitcə soruşdu ki:

– Sahibimizin agenti Bəy Buşa xidmət eləyərmi? Daimi nəzarət altında Buşa xidmət mümkünmü?

Bünyad bəy sözün sonrasını gözlədi.

Furak dedi:

– Heydər Əliyevə satılaram?

Bünyad bəy, qaş-qabaqlı:

– Lazım gələndə çox şey olur, – dedi.

Furak bir qədər düşüncəli:

– Bu müharibə, bilirsən, etnik məsələ üstündədir, – dedi. – Əgər bütün planet EvƏrEy – "Yevrey", ƏrÜz – "Rus" və sair OdƏrlərindən ibarətdisə, bu OdƏr xalqı özünü niyə tanımır, elə döyüşür? Dildi səbəb, dindi, ya nədi?

Bünyad bəy çaşqınlaşdı.

– Məni, deyəsən, doğrudan da boş-boşuna göndərməyiblər sənin yanına.

Furak əlini Bəyin əlinin üstünə qoyub sığal çəkdi:

– Afərin, Bəy. Lap ilk söhbətdən dəyişirsən. Bilirsən ki, mən Xızıda böyümüşəm. Və bilirəm ki, "Xız" sözü olmayıb. Babalarımız AğÜz olublar. Bağdayın indiki "Qazax" mahalı içində olan köhnə AğÜz vilayəti, hətta Türkiyə ərazisini də əhatə eləyib vaxtı ilə. Düzdü? Sən axı yaxşı bilirsən "Midiya" – Bağday tarixini. De görüm, bu tarixi bilən AğÜz (Xızı) OdƏrləri ilə "Yevrey" OdƏrləri arasında heç bir fərq olmadığını bilən adam, keçmişdə vətəndən tərik düşüb "Türk" adlanan bədbəxtlərimiz keçmişdən niyə ƏrÜz "Rus"la yola getmir?

Bünyad bəy nədənsə birdən-birə qəmli görünürdü.

– “Rus” EvƏrEy Türkün əleyhinə döyüşməz. Türk özü EvƏrEyi tanımır. Furak dik qalxdı.

– Bəs sən niyə döyüşürsən, ay yaramaz Bəyim?! Sən qəsdən burda – İranda Bağ adı ilə yox, “Muğ” adı altında yaşayanlarımızı niyə qırmısan?

Bəy qururla:

– Sovet kəşfiyyatçısıyam mən, kommunistəm. Antitürk tərbiyələnmişəm – dedi. – Mən kin mücəssəməsiyəm.

Furak yenə duruxub adi səslə:

– Elə isə, özün de görüm, sənin Qumralın ikən dəyişib Furak oan bu qız kimindir? – Furak sözünü tamamlamaq üçün yenə əlini Bəyin əlinin üstünə sürtdü. – Dediyim dərs böyük, əxlaqi siyasi dərsdi, incimə. Nizaminin “Xəmsə”sini oxumusan sən. Yadındadımı “Həft peykər”də Hind gözəli Furak Bəhrama necə dərs deyir?

Bünyad bəy düşünmədən:

– Nağıl danışır, – dedi. – Bir naməlum şəhərdə naməlum bir qəssabın danışdığı nağılı danışır Furak.

Furak qımışdı.

– Nədi o nağıl?

Bünyad bəy çox könülsüz hüdülədi:

– Padşahla rəiyyətləri yas içindədilər. Səbəbini gizlədirlər. Padşah bir səbətə minir, Simurq quşunun caynağında uçur gedir İrəmə[1], yəni Cənnətə. Türk qızı Türknazla keyf çəkir, qayıdır, qara geyinir. Sonra məlum olur ki, ölkənin bütün kişiləri elə uçublar İrəmə, qayıdıb qara geyiniblər. Arvadlar ha soruşurlar, padşah kimi o birilər də heç nə demirlər.

Budur nağıl. Niyə danışdırdın mənə bu nağılı? Qəsdin nədir?!

Furak qımışdı.

– “Həft peykər”dən Bəhramı, Furakın nağılını möhkəm saxla yadında, Bəy. Lazım olacaq. Ola bilər ki, sən də qara geyinəsən.

Bünyad bəy haldan-hala düşürdü.

– Sən ki, lap adi bir agent idin, sadə bir zənəndin, necə mürəkkəbləşdin belə birdən-birə, Qumral?! Niyə bu qədər gənc qalmısan?! Səbəbi nədi bunun?! Bircə bunu izah elə!

---

[1] İrəm – “İr”Əm təhrif sözdür. “Ər” işıqdır.

Furak təmkinlə:

– Sənə dedim, “Qumral” desən bağımın meyvələri zəhərli olacaq, Bəy, – dedi. – Gənc qalmağımın sirrini də dərs qurtarandan sonra biləcəksən.

Bünyad bəy daha dözmürdü.

– İçirt zəhərini! Aç sirrini!

Furak dedi:

– Sirrim də İrəmdədi, zəhərim də. İrəmə uçacaqsan; “Səbət”də yox, işıq gəmisində. Nizami farsca yazırdı, bilirsən ki, “Səbət” yaza bilməzdi. Onun rəmzini anlatmaq üçün kəlməni türkcəyə – OdƏrcəyə çevirməlisən. Ən məşhur “Səbət” sözü, elə “səbət” mənasında anlaşılır. Burda – Azərbaycanda gərək ÖdƏrcəyə çevirəsən: “Səbət” – ƏsEvOd (Yaradan evin həqiqəti). Bu dəfəki həqiqət adicə İşıq gəmisidir. ƏsEvOd – SimƏrAğ, belədi gəminin adı.

– Nə?! – Bəyin rəngi dəyişdi. – Məəttəl qalmışam, harda, necə belə mürəkkəbləşmisən sən! Dilini qanammıram! Heç qanammıram ey, heç!

Furak dedi:

– “Adi bir agent, sadə bir zənən” kimi görünüb, lazım gələndə əsl üzünü göstərən adi, sadə razvedçikəm, Bünyad bəy! Bu “Xız”ı – AğÜz qızı sənin pişiyini ağaca dırmaşdıracaq bu gün.

– Unut bu münasibətdə dumanlı razvedçik zarafatlarını! İsti xörək ver bir az!

Furak duruxub, birdən güldü:

– İrəmdə mərhum arvadın Sərvinazın məclisində Cənnət təamları yeyəcəksən, “Hökmdar”.

Bünyad bəy heç nə anlamırdı.

– Qurtar dedim bu zarafatları! Nə cənnət?! Öldürülməyə gətirilməmişəm mən. Sözünü de! Şərtini de! Əmma nəzərə al: Sovetlərdən, Rusdan dönmərəm mən. Antitürk, antiyevreyəm! Bəli! Yevrey özü də antisemit ola bilər? EyOd OdƏri, Bağ Oğlu Bağı Kesara satan İudayam! “Sarı inəyə”[1] inanıram. SarÜnEy EvƏrimə – Avrama yox! Qızıla inanıram, qızıla.

– Qəzəblənmə, Bəyim, mən gəmi barədə danışıram, sözün əsl mənasında işıq gəmisinə minəcəksən. Simurq quşunun caynağında yox. ƏsEvOd – SimƏrAğ gəmisində uçacaqsan!

---

[1] S a r ı  i n ə k – Avramın bacısı Sara kimi qələmə verirlər.

Bünyad bəy fikrə getdi, ofuldanıb:

– Əgər bu doğrudan da ciddi söhbətdirsə, onda "gəmi" Buşun təyyarəsidi, Cənnət Amerikadı, mərhum arvadım Sərvinazla huriləri isə, şübhəsiz, məndən ayrılmış Qumralımla birlikdə Buşun agent stüardessalarıdı. Buşunkusan, ya yox?!

Furak başını buladı.

– Yox, Bəy, yox. Məni, səni ayrılmağa qoymazlar. Furak kliçka deyil, həqiqi adımdı. İnan, Bəy! Sahibimizlə kəsdiyim çörəyə and içirəm, açacam sirrimi, hər şeyi biləcəksən. Hələlik həqiqət budu ki, həqiqi işıq gəmisinə minəcəksən. "Neopoznannıy letayuşiy obyekt" deyilən şeyi min yerə yozurlar. Əslində planetlərarası gəmidi. Çoxdandı bu, Bəy, lap Ulu Bağ ƏsƏlMənin – "Solomon"un zamanındandı! "Xalça" deyil! "ƏsEvOd" – SinƏrAğ" adında işıq gəmisi gözləyir səni. Planetə uçacaqsan! "Həft peykər"də İrəm adlanan planetə! "İrəm" deyil dedim. Əslində Ağdı planetin adı, yəni işıqdı. AğaƏr də deyərmişlər əvvəllər, indi "Ay" deyirlər, Ağ əvəzinə. Bilirsən axı sən bunu. Ölən insanın "Ruh"u – ƏrAğı əvvəlcə oraya gedir. Bilirsən ki, gedib Ağa çatana qədər bədən lazım olan elementlərlə dolur "Ruh" – ƏrAğ, insan lap qısa müddətdə yenidən yaranır! SafAğ Elminin bu adi həqiqətini bilmirsənmi sən?! Mərhum arvadın Sərvinazı görəcəksən, Bəy!

Bünyad bəy yenə üşürgələndi. Sonra qəzəbdən canı alovlandı.

– Bəsdi! Bəsdi! Sözünü de! Qurtar! Nə tələb olunur məndən?!

Furak çox səmimi köksünü ötürdü.

– Nahaq inanmırsan, Bəy. Çıx, minək maşına, gedək "Həft peykər"dəki o yaş içində olan şəhəri də öz gözünlə gör. Sonra "İrəm" planetini də, arvadını da.

Bünyad bəy tamam bezikib qapıya tərəf baxdı.

– Çıxırıq?! İndi?! Çıxırıq?!

Furak ayağa qalxdı.

– Çıxırıq və gedirik ora! – dedi.

Bünyad bəy səfərin məhz Amerikaya səfər olduğuna şübhə etmədən, köksünü ötürüb qapıya yönəldi. Əmma qara pərdədə oynayan diskoteka işıqlarını görüb, istər-istəməz dönüb Qumralının gözəl üzündə oynayan işıqları da görəndə ayaq saxlamaya bilmədi.

– Əcəb diriltdin məni! Belə səfər vardısa, bəs "eşq dərsi"-zad nədi?! Acından ölürəm!..

Furakın elə bil qocaya yazığı gəldi.

– Eşq dərsi davam edir, ey əzabkeş Bəyim. Mən vaxtı ilə sənlə çox loru danışardım. Zversovxozun yaxınlığındakı Muğanlı camaatı kimi sadə, loru... İndi tərgitmişəm o danışıq tərzini. Gör necə sözlər deyirəm. "Mən, sən Bünyad bəyə həqiqətən eşq, əxlaq dərsi demək, səni yeni-yeni sınaqlara hazırlamaq üçün göndərilmişəm. Hardan? Biləcəksən! İnan mənə! İnan ki, cənnətə aparıram səni. Diriləcəksən, ey yazıq "Rus" çekisti, "İran" siyasisi!

Bünyad bəy indi çox diqqətlə dinləyirdi.

– Yaman dəyişmisən, Qumralım, – dedi, – Qarayazı meşəsində, Zversovxozda o murdar qunduz-itlərə yem verə-verə planetin siyasətçilərini barmağına dolayan Bünyad bəyi barmağına dolamısan. "Məcazın pozular!" "Mazandarandan qaçmalı olarsan!" "Bağından" bir dənə də "meyvə" verməmiş Amerikaya aparırsan məni!

Furak sakit sərtliklə:

– Çıxaq! – dedi.

Mazandaran meşəsinin qaranlığı daha da qatılaşdıran sıxlığında həmin soyuq əl Bünyad bəyin başına torba keçirdi, biləyindən yapışıb maşına basdı.

Aç, susuz üzgün qoca nə qədər yol getdiyini bilmədi. Elə hala düşdü ki, hətta maşından necə düşürüldüyünü də hiss etmədi.

Hündür gil suvaqlı divarlardan, çaylaq daşı ilə döşəli səkilərdən başqa bir həyat əlaməti olmayan darıxdırıcı bir aləmdə, səhərin alatoranında tünd qara geyimli, solğun bənizli, kədərli susqun kişilər, qara çadralı, qəmli, susqun qadınlar göründülər. Bir az o yanda bacaları tüstülənən, zavoda, fabrikaya oxşar uzun bir binaya doğru tələsirdilər.

Bu mənzərə Bünyad bəyə tanış idi. Hardan? "İran" olmağına bura, şübhəsiz "İran" idi. Bəs adamların sifətləri niyə bu qədər dəyişmişdi?! Bomboz üz! Bomboz saqqal!..

Bünyad bəylə ağ örpəkli Furaka diqqət yetirmədən dərd-ələm içində getdilər.

Bəylə Furak ikinci küçədə də həmin geyimdə, həmin əhvalda adamlarla rasrastlaşdılar, üçüncü küçədə də.

Furak hərdən nə isə deyirdi.

– "Həft peykər"dəki şəhər, bax buradı.

Bəy eynilə hücrəsini görəndə olduğu kimi, heyrətdən qurumuşdu.

Birdən:

– Bu ki İsfəhandı, ay qız, – dedi.

Furak yanğılı idi.

– Bəli, Bəy. “Həft peykər”dəki o yaslı şəhərdi. Nizaminin təsvirindəki İsfəhanla indikinin fərqi nədi, Bəy? Neftdən gəliri var fundamentalist qəddarların, bəzi mərkəzi şəhərlərdə maşın çoxalıb, zahiri sivilizasiya var.

Öz EvƏrEy qardaşlarına – Türkə münasibət isə əvvəlkindən də pisdi! Qısası, qaragüruh hakimiyyətidi din hakimiyyəti! İran Vatikanla “Rus”, Türkiyəylə ərəblərin arasında strateji baza kimi çiçəkləndirir bu qansızları! Mən bilmirəm, sən dünyagörmüş beynəlxalq kəşfiyyatçı necə dözürsən bu zülmə! Ayıldacam səni, Bəy!..

Bir az da gedib şəhərdən çıxanda gəmini görəcəksən. O gəmidə uzaqbaşı yarım saata İrəmə uçmaq olar... Hələ bu bədbəxtlərə bax. Bütün ölkə beləcə yas içindədi. Din hakimiyyəti anaxronizimdi! Qala bilməz belə!

Bünyad bəy maraqlanmışdı.

– Quruluş dəyişəcək?

Furak qətiyyətlə:

– Xeyr! – dedi. – Din dəyişmir! Əslinə – SafAğ Elminə qayıtmır! Səbəbini gedib İrəmdə öyrənəcəksən.

Bünyad bəy ayaq saxladı:

– Yenə çərənləyirsən, Qumral! Yəni mən doğrudan planetə uçmalıyam?!

Furak ciddi:

– Bu yasın səbəbini öyrənmək üçün bircə yol var, Bəyim. Elm və eşq yolu. Elm və Eşq yolu isə Simurq quşunun caynağındadı, – dedi.

Bünyad bəy lap təntiyib başını buladı.

– Sən məni öldürəcəksən, ay səbr, dözüm mücəssəməsi! Mən it oğlu min doqquz yüz altıncı ildə Peterburqdan Bakıya gəldiyim gündən razvedçikəm, məndə bu qədər səbr, dözüm yoxdu! Nə möcüzəymişsən!.. Bayaq işıq gəmisi idi, hətta adı da vardı! İndi Simurq oldu! Niyə?! Hara aparırsan məni? Təyyarəyə?! Simurqun caynağına?! Kimdi “caynaqlı Simurq”?! Buş?! Putin?! Mən ki, tabeyəm sənə. De qurtar görüm kimdi təzə sahibin?!

Furak dayandı. Və birdən:

– Mən razvedçik deyiləm, Bəy! – dedi.

– Nə?! – Bünyad bəy hətta titrədi.

Furak isə eyni ciddiyyətlə:

– Bayaq dedim bir alim zənən dərs deyəcək. Yenə deyirəm mən özüməm alim zənən. Diqqətlə dinlə bu zənəni: "Rus"un, Derjavinin Kremli siyasi blokadadı. Corc Buş (İkinci) kimi nəhəng prezident gizlin EvƏrEy Putinlə birləşiblər, boğurlar, bəy. Əmma özün hələ də podpolni Sovetə, "Rus"a qulluq eləyirsən!

Bünyad bəy xeyli düşüncəli:

– Bütün dünya Kremli Derjava mərkəzi kimi tanıyır, – dedi. – Qorbaçov Vatikanın himayəsində gizlin hakimiyyətdədir. Belə olmasaydı Putin onun başını çoxdan yeyərdi. Kremlin EvƏrEy ocağı olduğunu, bütün planetdə EvƏrEy OdƏrlərini, ƏrÜz OdƏrlərini, AğÜz, ÜzAğ, YanÜz Ağlarını, yəni bütün "Türk" – "Tərik" dünyasını birləşdirmək əzmində olduğunu başqa yerdə dilinə gətirsən səni o dəqiqə aradan götürərlər, ay bədbəxt zənən... Bildim, sən Buşunkusan! "İran", "Azərbaycan", "Ərəb" OdƏrlərini birləşdirmək, bütün planeti vahid dövlətə birləşdirmək və bunu maksimum gizli saxlamaq dilindən çıxsa, səni səlamət qoyarlarmı?!

Furak:

– Sənə dedim alimdi bu zənən, razvedçik deyil, – dedi. – Simurq quşu isə əfsanə deyil, həqiqətdi öz gözünlə görəcəksən indi.

Bünyad bəy diksindi.

– İndi?!

– Bəli!.. İndi!.. Bir sualıma cavab ver, Bəyim. İsfəhanda camaatın əhvalını gördün. İnandınmı ki, Nizaminin təsvir etdiyi şəhərlə indiki İranın fərqi yoxdu?

Bünyad bəy səsini qaldırdı:

– Simurq quşundan danışırdın. Siyasətə keçdin. İndi – "İran!" Niyə belə şaltay-baltay vurursan?!

Furak təmkinli idi.

– Sualıma cavab ver!

Bünyad bəy lap qışqırdı:

– Bəli! Bəli! O "İran"la bugünkü "İran"ın fərqi yalnız zahiri fərqdi! Külli-aləmə məlumdu ki, din boğur camaatı! Nə demək istəyirsən?!

Furak heyrətli anlaşılmazlıqla, birdən gülüb:
– Əmma səni gəncləşdirirdim, – dedi. – Lap açığı sərvətin dindəndi. İrəmdə, cənnətdə sübut olunacaq bu dediyim.
– Nə?! Yenə Cənnət deyirsən?! Bu nə cəfəngiyyatdı?!
Furak qışqırtıya, qəzəbə qəti əhəmiyyət vermirdi.
– Eşq yolu bu Furak adlı alim kimi, arvadın Sərvinaz kimi uca zənənləri öldürüb aparır Cənnətə. Sən kimi müdrik insanları isə çox vaxt elə diri-diri aparırlar Cənnətə. Tamam dəyişdirirlər orda insanı. Sonra qaytarıb qoyurlar Yerə. Bu dediklərim həm doğrudu, həm də yalan. Bir şey anladınmı, Bəy? Çətin... Sən səbrli ol. Axırda hər şey aydınlaşacaq, Bəy!
Bünyad bəy titrəyirdi:
– Sən məni cana doydurdun, ay zənən! Arvadım Sərvinaz yazığın, bədbəxtin biri idi. Mən kimi əclafın da xətrinə dəymirdi. O, deyək ki, doğrudan da, cənnətlikdi. Bəs mən kimi qan içində üzən casusu, sən kimi üzü üzlər görmüşü niyə aparırlar oraya?! Düzünü de görüm, nə məna var bu “Cənnət” söhbətinin altında?! “Amerikaya gedirik?!”
Əlimdən xəta çıxar!.. Açıq danış!
Furak hədəyə etinasız, “hm” elədi.
– Mən tamamilə açıq-aydın, kələksiz-filansız deyirəm. Yerdə əfsanə sayılan cənnətdə beynini dəyişdirəcəklər, alim olacaqsan, Bəyim. Qayıdıb başına gələnləri danışacaqsan. Daha doğrusu, başqaları danışdıracaqlar, kitab şəklində çap eləyib yayacaqlar ki, tək sənin bu istəkli “Fars”ların yox, bütün bəşəriyyət oxusun, görsün alim-kamil insan olmaq, bəd ehtiras xəstəliklərindən can qurtarıb rahat yaşamaq üçün neyləmək lazımdır?..
EyƏrdə – “Yer”də insan həqiqi sevincdən məhrumdur, Bəy. Mənasız əyləncələrlə, iyrənc seksual oyunlarla başını qarışdırır. “Firəng” – EvƏrÜn kimi qədim, mənən varlı ölkə nə hala düşüb, indi, bilmirsənmi? Qrek-Latınlar Avropaya doluşandan sonra pozğun ordu əxlaqı yayıblar EvƏrBağa – “Avropa”ya. Bir ölkədə ki, kişi kişi ilə evlənir, qadın qadınla evlənir, murdar seksə qapılıb dünya, kainat haqqında təsəvvürü tamam itiriblər, daha nə qalır orda, Bəy?!
Gedək indi, min səbətə, Simurq quşunun pəncəsində uç cənnətə, alim ol, saflaş, qayıt kamil insanın təbiətini anlat o mənasızlarına, yasa batsınlar. Bünyad bəy yenə təntimişdi.

– Lap çaşdırdın sən məni, ay AğÜz qızı! Nə möcüzəymişsən sən!

Furak dedi:

– Bu möcüzəli AğÜz qızının əsil möcüzələrini cənnətdə görəcəksən, Bəy. Buşun "Cənnət Amerika"sında yox, sözün əsl mənasında cənnətdə!

Bünyad bəy ufuldandı:

– Lap taqətdən saldın məni.

Furak dedi:

– Göyün əmri belədi... Yer adamı deyiləm mən, Bəy. Başqa planetdənəm. Qumralın sifətinə düşmüşəm. Çalış dərk elə bunu!

Simurq quşu, əlbəttə, əfsanədi. "ƏsEvOd-SimƏrAğ", "GurOd", "GurOd – SimƏrAğ" və sairə adlarda işıq gəmilərindən biri gözləyir bizi.

Şüurunu alacaqlar indi. Çox asan işdi bu şüuru almaq, şüuru qaytarmaq. Qorxma, Bəy.

Qocanın əhvalı dəyişdi. Başı gicəlləndi. Ürəyi sıxıldı.

– Tilsimə bax! – deyib huşunu itirdi. Əmma bu, anlaşılmaz şüursuzluq idi, çünki döşəli qaldığı, heç nə görmədiyi, heç nə hiss etmədiyi halda, Furakın səsini lap aydın eşidirdi:

– Yerdə "Ay" dediyimiz Ağ planetdəki "Ay dənizi" planetin dörddə biri həcmindədi, Bəy, dəniz deyil, ordan Ayın içərisinə Günəş işığı düşür. Biz "Yer" – EyƏr planetinin eşiyində yaşayırıq, çünki Yerin daxili bütün Qalaktikamız üçün lazım olan elementlərlə doludu. Yerin daxili bütövdü. "Ay"ın – Ağın Üz qabığı var, daxilində isə yaşayış üçün nə lazımsa, hər şey var. Ağ sakinlərinin SafAğ havası, SafAğ gölləri, çayları, bulaqları var. Günəş Şimaldan doğur, cənubda batır. Şimal və cənub qütblərində dağ silsilələri, qar, buz sahələri var. Bunlar ilk məlumatdı sən üçün, Bəy. İndi sənə elə gəlir ki, Ağ planeti elə cənnət deyilən yerdi. Əmma unutma ki, "cənn" və "cəhənn" ərəbin ən təhrif sözlərindəndi. Hələlik bu qədər, Bəy. Dərsin davamı məkana çatandan sonra deyiləcək.

## 2. YENƏ FANTASTİKASIZ FANTASTİKA

Huşsuzduqda nə qədər qaldığını bilmədi. Tamamilə ağrısız, acısız, əvvəlkindən dəfələrlə gümrah bədənlə gözlərini açanda ətrafında şeh parıltısı gördü.

Geniş çəmənlikdə idi. Heyrətli dərəcədə enliyarpaq pöhrəliklər, tünd mavi, dayaz sular işıldaşırdı.

Bünyad bəy göz işlədikcə uzanan, sonu üfüqə qovuşan bu çəmənlikdə könül ovlayan qeyri-adi təravət duysa da, tənhalıqdan vahimələnib, ağır-ağır, ehtiyatla ayağa qalxdı və dərhal da çöküb, otların arasında gizlənməli oldu: pöhrəliyin arxasından axar su vadisindən bir dəstə ağ geyimli gözəl çıxmışdı. Hamısının və hər birinin sehrli, cazibəli gözəlliyi lap ilk baxışdanca insanı sarsıdan gözəl qızlar!

Bünyad bəy qara çadra səltənətində yaslı şəhəri xatırladı və dərhal başını silkələyib, bədbəxt "Fars"larını unutmağa çalışıb gözəllərə baxdı.

Azad, sərbəst qızlar onun lap böyründən keçib, yüz addımlıqda, otları sığallı, yastı təpə belində süfrə saldılar. Rəngbərəng mütəkkə, döşəkcə, büllur qablar, kuzələr düzdülər. Qızlardan ikisi Bünyad bəyin Qarayazı meşəsində, Niyazi sovxozunda, Muğanlı kəndində gördüyü iri çanaxlı sazlara oxşayan sazları köynəkdən çıxarıb, bir azacıq dirinq-dirinq kökləyib, sonra bir-birinə baxıb eyni anda eyni zərblə təzənələri simlərə vurub çalmağa başladılar. Qalanları içki kuzələrinin dövrələrinə gilas, gilənar, gavalı, alça düzdülər.

Bəy otluqda sinəsi üstə uzanıb tamaşa edirdi. O iki qabaq-qarşı çalan qızlardan o yanda elə bil səmada dayanmış üçüncü bir əli sazlı adam göründü. Yerdə Qarayazı meşəsinin ətəyində və ağ daş hasarları ağarışan Muğanlı kəndində Orduqozdu ləqəbi ilə uzun-uzun illər ərzində camaatın gülüş hədəfi olandan sonra çoxdan ölüb getmiş idbar karlik çoban, bir əlində çaxır şüşəsi, o biri əlində şirmayılı saz: "Bunu çalan gəlsin. Bunu çalanı istəyirəm", – deyə-deyə qışqırırdı. Həmin kənddə – Muğanlıda hörmətli bir kişi sayılan Ağ Məmmə adı ilə tanınan "şairfason" zərif, ağsifət bir ziyalı gəlib sazı Orduqozdudan aldı:

– Gicliyin tutmasın yenə. Əvvəl qoy o hurilərə qulaq asaq, sonra çalarıq, – dedi. Sonra hər ikisi hava – üfüq təsiri bağışlayan hündürlükdən – mavi təpə belindən aşağı enib yox oldu.

Bünyad bəy əvvəlki təpəyə, qızlara, süfrəyə baxdı.

Süfrənin başında, təpənin hündür yerində öz zərifliyi ilə qızların hamısından seçilən bir gözəl mütəkkənin üstündə oturmuşdu.

Bəy günəş, şeh parıltısından qamaşan gözlərini silib bir də baxanda zərif gözəli Qumrala oxşadıb ayağa qalxdı, əmma yenə yerə çökməli oldu. Çünki zərif gözəldən qəribə, heyrətli sözlər eşitdi:

– Şəhvət nəzəri duyuram üzümdə, ay qızlar. Yandırır! Yerdən kimi isə gətiriblər yenə. Axtarın!

Qızlar çəmənə səpələndilər.

Bünyad bəy donub qaldı. Sonra başının üstünü kəsdirmiş balacaboy, alagöz bir gözəlin diqqətli baxışı altında tir-tir əsdi.

– Sərvi?!

Alagöz gülümsündü.

– Mənəm, cənab Bünyad bəy... Yenə görüşəsi olduq.

Bəy min doquz yüz qırx səkkizinci ildə Göyçə mahalının Ağlar kəndində tanış olub, o vaxt o ərazidən – Ermənistandan köçürülən əhali arasından seçib, sonralar Muğannaların Türmən yatağında "verbovat" elədiyi bu alagöz gözələ – istəkli agentinə və sonrakı arvadına – Sərvinaza bir xeyli tamaşa edəndən sonra, titrəyə-titrəyə əlini uzadıb Sərvinazın alnına dağılmış təravətli saçlarına toxundu.

– Bu niyə ağarmayıb?! Biz ayrılanda sənin əlli üç yaşın vardı!.. O, əlli üç, bu iki min üçüncü il, neçə eləyir? Yüz! Yüz yaşın olmalıdı sənin!

Sərvinazın boyunun balacalığı onu on beş yaşlı qızcığaza bənzədirdi. Məlahətlə gülüb:

– Sənin isə yüz on üç yaşın olmalıdı indi, – dedi. – Bə sən nə əcəb belə gümrahsan, Bəy. İrəmə təzə gəlmisən, əmma elə indidən ağ saçların qaralır, Bünyad.

Bünyad bəyin canından vic-vicə keçdi.

– Nə İrəm? Bura İrəmdi?!

Sərvinaz lap sakitcə:

– Bəli, Bünyad, bura "İrəm"di. ÖdƏrcə Ərimdi, adı "Ay" deyil.

Bünyad bəy özündə deyildi:

– Başqa planet?!

Sərvinazın zənəxdanları çökəldi.

– Bıy! Hələ təzə başa düşürsən?!

– Mən necə gəldim bura?!

Sərvinaz dedi:

– Gəmidə gətiriblər səni, Bünyad. Qorxma. Yaddaşını verərlər indi. Yerdən çox adamları gətirirlər bizim planetə. Dərs keçirlər. Sonra aparıb qoyurlar Yerə, öz evindən kənara. Gedək, qızlar səni gözləyirlər. Yerdə "Huri" deyirlər bizə. Əslində "Huri" deyilik, EyƏrik. Yəni Uca İşıq – öz planetimizin adını daşıyırıq: EyƏr! Sən təzəsən, dilin tutmaz, elə Sərvi de... Yerdə mənnən bədrəftar idin. Göycə, Dərə Ələyəz, Vedi camaatının taleyini sənə tapşırmışdılar. Sağa-sola dağıdırdın milləti – Muğana, Sibirə, Qazaxıstana!.. Kinli deyilik biz, Bünyad. Ağ planeti SafAğ İnsan yetirir burda, qorxma, heç bir pisliyimiz dəymiyəcək. Əksinə... Gedək!

Qızlar süfrənin ətrafında boy-boya verib, iri-iri yamyaşıl gözlərini geniş açıb tamaşa edirdilər.

Təkcə zil qaragözlü zərif gözəl mütəkkənin üstündə əvvəlki kimi rahatca oturub müəmmalı gülürdü.

– Gəl, gəl, Yer oğlu. Nəzərin üzümü yandırdı. Gəl görək özün necə yandıracaqsan bizi?.. Elə baxma. Qumral deyiləm. İnanmırsan?! Yer dilində Türknazdı mənim adım. Nizaminin "Həft-peykər" dastanının qəhrəmanı Türknaz!..

Bünyad bəy tutldu.

– Yenə oyun açma başıma, Allaha and verirəm! Özün gətirmədinmi məni bura?! Doğrudanmı Aydı – Ağdı bura?! Allatmamısan ki?! Amerika-zad deyil?!

Qızlar qəhqəhə çəkdilər.

Türknaz isə ciddi idi.

– Sənə mən hələ Yerdə demişəm ki, biz hər cür sifətə düşə bilərik. Sözümə inan, Bəy! Yoxsa ilana dönüb dolanaram boğazına, boğaram!.. Əmma qorxma, ziyankarlıq yaddı bizə. Gəl. Əziz qonağımız ol. Könlündən keçirsə, "hökmdar" ol. Könlündən keçənə yasaq yoxdu İrəmdə – Ağda!

Bünyad bəy tövşüyürdü:

– Amerikadı bura, ya yox?!

Bu dəfə Türknaz özü də qımışdı.

– Amerika nədi, a kişi?! İnan, verbovka-zad olmayacaq. Yerdə dedim axı sənə, dərs alacaqsan, saflaşacaqsan. Belə lazımdı! "Allah" dediyin ƏlAğ EySarımızın buyruğu belədi!

Bünyad bəy çəmənə, üfüqlərə boylandı.
– Belə çıxır ki, deyilənlər doğrudu?!
– Deyilənlər, yəni nə, bəy?
Bünyad bəyin gözləri ətrafda idi.
– Axirət varmış!
Qızlar yenə qəhqəhə çəkdilər.
Bünyad bəy nisbətən toxtadı.
– Belə çıxır ki, məni doğrudan cənnətə gətiriblər?!
Türknaz:
– Xeyir, Bəy, – dedi. – Cəhənnəmdi bura. Həm "Cənn", həm "Cəhənn".
Bünyad bəy:
– Yenə dolaşdım, – dedi. – Nizaminin qəhrəmanı niyə cəhənnəmdə olsun?!
– Sənin bu pak Sərvin niyə cəhənnəmdə olmalıdı?. İndicə dedim axı, "İrəm" – Ərim, "Ay" – Ağdı. Eyni zamanda cəhənnəmdi. Bir şey başa düşdün?
Bəy əlini cibinə atdı. Yoğun, yarısı yanmış siqarı, "zajiqalka"sı cibində idi. Tez çıxarıb tüstülədi.
– Siz mənnən belə danışmayın. Mən konkret söhbət adamıyam! İş adamıyam! Buyurun, neyləməliyəm?!
Türknaz ağır-ağır:
– İşin dərsdi! Dərs! – dedi. – Dinlə: İrəm cənnət deyil, Bəy. Siz Aran deyənlər "İrəm" deyirsiniz Ərimə. Ərim, dedim, işığım deməkdi, Bəy. İşığım Ağdır, "Ay" deyil. Bura, türk dilində desək, Ay planetidi. Daha doğrusu, Ay planetinin içərisidi. Yerdə əbləh-əbləh alimlərimizin "Lunnoye more" dedikləri yerin şimalından günəş doğur, cənubda batır, demişəm, təkrar eləyirəm: Yerin səthi çaylar, dağlar, düzlər necədisə, bura – Ağın içi də eləcədi, Bəy. Bax gör necə saf diyardı bu Ağ. Biz özümüz də tər-təmiz, SafAğ insanlarıq, Bəy.
Bünyad bəy hiss edirdi ki, deyəsən, təslim olur.
– Ay yox, Ağ. Bunu bildim. SafAğ İnsanlar, bunu çoxdan bilirəm. Bəs bu tərtəmiz insanların bu tərtəmiz Ağ planetinə niyə cəhənnəm deyirsiniz?
Türknaz eynilə Yerdəki Qumral kimi sakit, təmkinli səslə:

– Bu Türknaz Bəhram Gura dərs deyib min beş yüz səksən il bundan əvvəl. Saflaşdırıb, ucaldıb o “Bəhram” – BağƏrimi! Həqiqi eşq verib o sərvət düşkününə! Sənə də eşq verəcəm. Gəl əyləş yanımda, hökmdarım.

Bünyad bəy şübhə ilə:

– Mənə eşq dərsi vəd edənim Qumralım idi. “Bəhramı yadda saxla” deyən Yerdə, sən burda. Bircə bunu başa sal görüm, niyə sən də onun sözünü deyirsən? Niyə sən də o sifətdəsən axı?! Səsin də eynilə o səsdi axı? Əmma... Türknaz?!

Türknaz:

– Qumral deyildi o, sənə eşq dərsi vəd edən. Furakı tanıyırıq biz, – dedi. – Yeri və yerdəkiləri biz ovcumuzun içi kimi görürük, hökmdarım. Səni hökmdarlığa qəbul eləyirəmsə, Sar deməliyəm sənə, yəni sar – əhatə elə hər şeyi öz hakimiyyətinlə. Əmma Sar olmaq üçün Od Sarı – həqiqət Sarı olmalısan, yəni ən qədim Elmimizə vaqif olmalısan. “Fars” təbiri ilə “hökmdar” deyirəm mən sənə, yəni qəliz danışıb əziyyətə salmaq istəmirəm. Gəl! Yuxarıya buyur, hökmdar! Vaxtilə OdSara “KeSar” deyərdilər Yerdə – Qresiyada, daha belə olmayacaq. Ay qızlar, çəkin onu bura!

Sərvinaz biləyindən tutub aparıb Bəyi Türknazın yanında oturtdu.

Türknaz dedi:

– Ye, iç. Heç nəyə təəccüblənmə. Heç nəyə! Hurilərimlə birlikdə mən özüm də qulluğundayam. İç, əmma çalış sərxoş olma. Qovarıq ha! Heç nəyin həddini bilməyən İran əhli kimi gedib yasa batarsan!

Bünyad bəy acından ölürdü. Susuzluqdan yanırdı. Büllur qaba kuzədən qəribə, qatı, qırmızı çaxır töküb başına çəkdi. Gavalıdan birini iki bölüb, iki uduma ötürdü, üstündən siqarını tüstülətdi.

Türknaz dedi:

– Mən yenə “hökmdarım” deyirəm, sən heç diqqət yetirmirsən sözümə. Soruşmursan: Niyə axı “hökmdar”? Əvvəlcə bunu izah eləyim sənə. Burada – Ağda insan insanın həm hökmdarıdı, həm də nökəridi, Bəy. Yerdə isə, Yer təbirilə desək, insan eqoistdi. Sənin çox sevdiyin rusların çox vaxt “bud moyey” deyirlər. “Ya tvoya sluqa” deyirlər də, ona görə belə deyirlər ki, “sluqa”nın istədiyini versinlər.

Bünyad bəy dedi:

– O Qumral mənə o qədər söz deyib ki, lap özümü itirmişəm. Burda da sən...

Türknaz dedi:

– Qumral deyil onun adı, Bakirədi, Bəy. Bakirə də deyil. Furakdı. Furak da deyil, əsl adı EvƏrEy Ağdı.

Bünyad bəy dedi:

– Mən bilirəm SafAğ elmini.

Türknaz razılıqla:

– Bilirsən, – dedi. – Əmma o şərti bilikdi. Sən hələ etnik fərdsən. Hər şeyi guya mənsub olduğun etnosa və şəxsən öz eqoistik istəyinə tabe edirsən. Odur ki, SafAğ elmi haqqında sənin biliyin, əlbəttə, yarımçıqdı. Əgər dərsimizi mənimsəsən, qəlbən inanacaqsan ki, nəinki ayrılıq yoxdu. "İns" (an) – ÜnƏs – Yaradan Ünəs vahid kökdəndi, tezliklə belə olmalıdı o müharibələr xarabası Yerdə. Burda isə hamı, hamı OdƏrdi, yəni Həqiqət İşığı. Oddan – həqiqətdən kənarda Ər-İşıq yoxdu, Bəy. Varsa, nisbidi, orda insan özü də nisbi insandı, Şüuru, təfəkkürü, cismi, hissiyatı – hər şeyi nisbidi. Yəni kamil deyil, itirib kamilliyini, heyvanabənzərdi.

Bünyad bəy Türknaza bir də diqqətlə baxıb, əlindəki gavalını süfrəyə çırpdı.

– Əclaf qızı əclaf? Nə vaxt qurtaracaq sənin oyunun?! Orda iqamətgahda "Qumral", "Furak", burda Türknaz. Nə demək istəyirsən?! Hara gətirmisən məni?!

Türknaz həlimcə:

– Aya gətirmişik, – dedi, – hirslənmə, Bəy. Sənə dedim "İrəm" – Ərim – işığımdı. "Ay" – Ağdı, SafAğdı, tər-təmizdi. Əmma cəhənnəmdi. Yerdə indi iki min üçüncü ildi. Otuz yeddini çıx, eləyir altmış üç, üstə gəl əlli. Neçə eləyir? Yüz on üç. İndi tap burda o yüz on üç yaşlı Klaranı, yəni Yerdəki əlli yaşlı Klaranı!

Bünyad bəy qızlara baxar-baxmaz, hər budunda azı üç pud ət, hər döşündə azı beş kilo ət olan dəhşətli kök, əmma eyni zamanda heyrətli təravətli, yaşılgöz, ağ buxaq Klarasını dərhal tanıdı. Və qəribə, gözlənilməz səmimiyyətlə:

– Odu, – dedi. – Bah! Bah! Lap candan olmusan ki, Klara! Salam! Zdrastvuy, doroqaya! – dedi.

Qızlar qəhqəhə çəkdilər.

Türknaz əlini Bəyin əlinin üstündə qoyub:

– Şəhvətlənmə! – dedi. – Bayaq təpədə gördüyün yazıq kişi Yerdə sənə kitab oxutdurub. Elm verib. Nə deyib? Xatırladıram. Yerdə subasqını törəyib tamam vəhşiləşən vaxtlarında insanın ən başlıca məşğuliyyəti sərvət olub, Bəy. "Seks" deyirsiniz. İyrənc sözdü. Türkcədən azmış iyrənc söz! Gecə – gündüz seksə bağlanan insanın bədənində bütün hüceyrələr ölür, Bəy! Xüsusən beyin! Yalnız yemək və yalnız və yalnız seks tələb edir, yəni nə olur: yəni Ün Əs ölür, "ins" qalır, daha doğrusu, təfəkkür ölür, Nitsşenin dediyi fizioloji fərd qalır, Bəy! Bir vaxt gəlir, fərddə hətta instinkt də kütləşir. Kalaşnikov avtomatını dirəyirsən sinəsinə, deyirsən vururam. Tamam laqeydcə deyir: "vur!" Niyə? Çünki o fərd daha ölümü də hiss eləmir. Eyni zamanda, özü öldürəndə öz qatilliyini də hiss eləmir. Həyatın sonu? Bəli! Yerdə bax indi belə bir vəziyyət yaranmaqdadı, Bəy. Yeganə ümid dərsədi! Maarifədi! Vay o gündən ki, insana belə halda deyirlər: "Daşa döndü!" "Dədə Qorqud"un axırında hamı daşa döndüyü kimi. İndi, necə deyərlər, əlif beyni eşidirsən. Bu vaxtlarda mənim üzümdə kamil cizgilər əmələ gəlir. Çünki Üz – məna deməkdi. Dilim nə danışırsa, üzüm də o mənanı ifadə eləyir. Mən "Furak" – EvƏrAğ kimi danışdım, indi bax gör EvƏrAğa oxşadırmı bu Türknaz?

Dinimizdə axmaq bir hədis var; İbrahim peyğəmbərə deyirlər: "Oğlun İsmayılı Allaha qurban kəs, "sədaqətini göstər". İbrahim oğlunu yıxır üzü qibləyə, bıçağını çıxarır. Bu vaxt göydən səs gəlir: "Ey İbrahim! Daş içində qurd saxlamağı bacaran rəbbin məgər görmürmü sənin sədaqətini?! Yəni OdƏs itib, "daş" deyilir, GurOd itib, "Qurd" deyilir. Əmma ƏlAğımız sən təki daş insanın bətnində də elə bir hüceyrə saxlayır, o tək hüceyrədə GurOd qaldığını görür və bütün ömrünü qatilliklə keçirmiş beynəlxalq miqyaslı kəşfiyyatçı Bünyad bəyə dərs deməyi də lazım bilir.

Nə dedim indi mən sənə, hökmdarım?

Dedim "Hökmdar"ım Sar ola bilər, bu şərtlə ki, OdSarı dərk etsin.

Dedim beynindən ayaqlarına qədər şəhvətdən ibarət insan isə Klaranı Mircəfər Bağırovun "postel"inə göndərir ki Bağırov KQB-nin sədri təyin eləsin onu – Bünyad yoldaşı – Bünyad bəyi. ÜnƏsliyini qoruyan Klara razı olmayanda Bəy altında Klaranı boğur, meyiti döşəmənin altında dəfn eləyir!

İndi bir də de ona: “Canalan olmusan!” Deyə bilməzsən daha. Çünki ƏlAğımız sənin o “daş” canında cüzi ÖdƏs görüb, sənin rəhbərlərinə təlqin eləyib ki, səni bu qədər insaniləşdirməyə göndərsinlər. İndi o saf, o günahsız Klarada necə günahkarlıq hissi oyandı. İndi Klaraya günahkar kimi baxırsan, Bəy!.. Budur bax, belə adi-adi şeylərdən ibarətdi bizim dərsimiz... Fikrə getmisən! Düzünü de, nə düşünürsən?

Bünyad bəy bir az şərab içib:

– Düzü, deyəsən, inandım ki, doğrudan da cəhənnəmdəyəm, – dedi. – Siz deyəsən, mənə elə belə cəhənnəm əzabı verəcəksiniz.

Klara gözlənilməz heyranlıqla:

– Afərin, qatil Bəyim! Az-çox ağlın qalıbmış! – dedi. – Dünyaya göz açıb az-çox şüurlu həyata qədəm qoyduğun gündən etibarən insanın başına nə oyunlar gətirmisənsə, hamısını bircə-bircə, özü də dönə-dönə xatırladacaqlar, əyani göstərəcəklər, gündə min dəfə ölüb, min dəfə diriləcəksən. Budur bax, cəhənnəm! Odda – həqiqətdə yana-yana həqiqəti dərk etmək! Və... dərk etsən, cənnətə getmək! Haradı, nə olan şeydi o cənnət onu da yəqin ki, deyərik sənə.

Bünyad bəy içirdi.

– Bura bax ey! Hər şey düzmüş ki! Mən sənə “sevirəm” dedim, allada bilmədim, budur Odda – həqiqətdə yanmaq. Bəs “qır qazanı” nədi?!

Qızlar gülüşdülər.

– O sizin din xadimlərinizin müdrikliyidi.

– “Qıl körpü” necə, var?!

Dedilər:

– Qıl nədi, a Bəy! Onu bilmək üçün də dərs keçməlisən. “Qıl” da təhrif sözdü axı!

Bünyad bəy duruxub, bir az da içib mızıldandı:

– Ay... hm, Aya bax ey!.. Biz də deyirik, yarım ay çıxır, yarım ay batır! Niyə? Nədi bu?

Türknaz qımışırdı:

– Ay Bəy, dedik axı planetin adı Ağdı. Yerdə təhrif eləyiblər planetin adını, Yarım ay Ağ olur ki, Yerdə ÜnƏslər o işığa baxa-baxa Bağları xatırlasınlar, yarım ay isə görünmür ki, ÜnƏslər Bağlardan ayrılığın zülmətliyi barədə fikirləşsinlər.

Bünyad bəy dodaqlarını büzdü:
– Çatmır bu mənə.
Türknaz ciddiləşdi.
– Yenə əlif-bey deyək buna! Otuz yeddinci ildə Bakıda öz əlinlə öldürdüyün, öz əlinlə dəfn etdiyin Klaranı bu Ay palanetində sağ-salamat görürsən, əmma yenə dərk eləmirsən ki, Ağla Ayın fərqi nədi? "Axirət" desəm, başa düşərsən? Nə deməkdi "Axirət"? Mənası nədi bu sözün? Bilirsən, de, Bəy: belə lazımdır.
Bünyad bəy dedi:
– "Axirət" ərəb sözüdü. Türkcə "axır" sözündən azıb.
Türknaz dedi:
– "Axirət", yəni insanların axırları?
Bünyad bəy dedi:
– Elə çıxır.
Türknaz dedi:
– "Axirət"in axırındakı cəm şəkilçisini atsaq – "Axır". Bu "Axır"ın əsli ÖdƏrcəsi AğƏrdi. AğƏr SafAğ İşıq deməkdi. Bunu yerdə min dəfə deyib sənə Ağ Məmmənin yanında o gördüyün kişi, əmma yenə unudursan ki, Ağdan gedib sənə dərs deyib. Bilirsənmi niyə?.. Qurtum-qurtum şərab içib qızlara baxdıqca xəstə hüceyrələrin sənə gizlin sözlər deyir, a Bəy. Təkrar elə görüm "Ay" adlandırılan planetin adı niyə Ağdı?
– Demək, Ərəbin "Axirət" dediyi, Türkün "O dünya" dediyi buradı?!
Türknaz qaşlarını çatdı:
– Fəhmsiz "ins", "Dünya" deyilən OdÜnEydi. "Ey" uca mənasındadı. Od Kainatın enerjisidi, həqiqət mənasındadı. Ün də ki, bilirsən, səsdi. OdÜnEy Uca Ün həqiqətidi.
Böyükdü OdÜnEy, Kainatdı.
Nə qədər eşitmisən bunu?
"Kain" OdÜn sözündən azıb. "At"ını atsan, əvəzində Ey əlavə etsən, OdÜnEy olur... "Axır" – AğƏr bu Ağ planetindən ibarət deyil, Bəy. Yerdə indi mövcud olan gizlin SafAğ insanlardan başqa, sən kimi Təhrif insanların hamısının axırı bu "Axirət"də olmur, çox az faizi Kainata, Yəni bütün AğƏr planetlərinə uça bilir.
Bünyad bəy bir ara yenə fikrə getdi.
– Demək, öldürüb gətiriblər məni bura?!

Türknaz bir qədər səbrsiz:

– Siz “ins”lərə dərs deyənlərin səbrləri gərək bu OdÜnEyin özü boyda olsun! A kişi! Sənə necə yüz dəfə şərh olunub ki, öləndə insanın beynindən işıq çıxır. Yerdə “ruh” deyirlər o işığa. Əsli OdƏrcəsi ƏrAğdı. Yəni Saf Ağ İşıq. O “Ruh” – ƏrAğ sürətlə uçub bu “Axır”a – AğƏrə çatana qədər daxilinə elementlər dolur. “Element” də təhrif sözdü, Bəy. Əsli, OdƏrcəsi ƏlMənOddu. Əlimin enerjisi deməkdi. Ana bətnində uşaq doqquz aya əmələ gəlir. “Ruh”un – ƏrAğın daxilində isə insan lap qısa müddətə yaranıb həmən insana çevrilir. Daha doğrusu, həmən insanın xəstə, şəhvətli, idraksız, qatil bədəni əvəzində SafAğ İnsan bədəni əmələ gəlir. Yerdəki bədbəxtlərimizə ha deyirik “Ruh” dediyiniz yoxdu. Axirətdə sizdən ancaq saflığı ilə fərqlənən insanlar var, heç cür dərk edə bilmirlər. Sən hazırlıqlı adamsan, Bəy. Dərk etməlisən ki, tək-tək gətirilib aparılanlardan başqa, bu Ağ planetindəkilərdən hamısı ölüb gələnlərdi. Mərhum arvadın Sərvinaza bax! Niyə baxammırsan?! Mənəm, mən!

Bünyad bəy sıxıldı:

– Yox, baxammıram!

Türknaz sərtləşdi.

– Niyə, Bəy? Sevimli arvadıyın yanında oynaş eləmək istədiyin Klaradan xəcalətləndin?!

Bünyad bəy pərtləşdi:

– Klara! Sərvi! Türknaz... Kimsiniz?! Mən zülm eləmişəm o gözəl, zərif məxluqa! Sərviyə! Daha baxammaram üzünə

Türknaz qızlarla baxışdı.

– Deyəsən, az-çox ÜnƏs olur. Bir sualıma da cavab ver, Bəy. Sahibimiz səndən “svyaznoy” istəyəndə niyə məhz məni seçdin? Açığını de, belə lazımdı. Qumral deyiləm. Diqqətlə bax, Türknazam mən. Soruşuram mən. Soruşuram: niyə məhz məni “svyaznoy” seçdin? Açıq de!

Bünyad bəy:

– Açığı budur ki, Qarayazıya, o sovxoza göndərilən qızların arasında tək səni tutdu gözüm. İstədim tez-tez görüşək.

Türknaz eyni sərtliklə:

– Lap açıq de, Bəyim! Açıq! – dedi.

Bünyad bəy dedi:
– Lap açığı, Sərviyə oxşayırsan sən! Sərvini də boğmuşdum, bilirsən. Elə bil kim isə mənə daimi deyirdi, bunu da arvad elə, soyu bundan, soyu bundan, nəticədə bunu da elə o cür boğ rədd elə başımdan!..
Türknaz Bəyin gözlərinə baxdı:
– Xəstəlikdi bu, ya yox?!
Bəy hirslə:
– Bilmirəm nədi bu, – dedi. – "Svyaznoy"ları çox saxlamaq olmaz! İşlədib, sonra öldürəsən gərək!
Türknaz dedi:
– İndi bir diqqətlə yenə mənə bax!
Bünyad bəy gözucu baxıb üzünü kənara tutdu.
– Hə! Baxdım! Nə olsun?!
Türknaz güldü:
– A kişi, Sərvinazam, mənəm axı! Bir bax: İşıq gəmisində Aydan Yerə gedirəm, Yerdən Aya gəlirəm. İşləyirəm. Dərs deyirəm yoldan azan bədbəxtlərimizə. Bax, bax! Gör heç fərqi varmı "Qumral" adlı "Furak"dan, Sərvinazdan?! Həmişə soruşmurdunmu "Sən niyə bu qədər oxşayırsan, mənim o bədbəxtimə? Budu bədbəxtin Ağ planetində SafAğ Elmi öyrənib, SafAğ İnsan olub, çalışır ki, sən bədbəxt də insan olasan! Üzümə bax, nacins!
Bünyad bəy bu dəfə lap pis üşürgələnib, hətta titrədi.
– Sərvi!.. Bəs bayaq gördüyüm Sərvi hanı?!
– Odur bax! Sənə baxıb gülür! Mən Qumralam!
– Nə?! Doğrudan?! Bu nədi belə?! Siz məni dəli elədiniz! Qızlar qaqqıldaşdılar.
– Dəlinin nəyini dəli eləyək, ay dəli! Görürsənmi, Klara da dəyişdi Sərvi oldu. Bax mənnən birgə yeddi huri dönüb Sərvi oldu! Gör necə həyat yoldaşını boğmusan öz əlinlə, ay bədbəxt!
Bünyad bəy tir-tir əsirdi:
– Bu nədi belə?! Sifətiniz, boy-buxununuz necə dəyişir?!
Mütəkkənin üstündəki Sərvinaz Bəyə şərab süzdü.
– Hər şey aydın olacaq. Biləcəksən hər şeyi. İç!
Bünyad bəyin üzündə yalvrışlı ifadə dondu.
– Ay qız!.. Qurbanın olum, bircə bunu da başa sal.
Sərvi – Qumral gülə-gülə:

– Adam olursan! – dedi. – İşıq əlavə olunur üz-gözümüzə, bədənimizə. Başa düşdün?

– Yox!..

Sərvinaz bir qədər deyintili səslə:

– Fikirləş, gör Axirətdən Yerə gedənləri niyə tanıya bilmirlər o xarabada, – dedi. – Baxırıq, görürük cinayətkarsınız hamınız, qatil olmayanlar bətnlərində daha pis qatildirlər! Bilirik ki, pislik elədiyiniz "ölülər"i – üzümüzü görsəniz, "Ruh"unuz – ƏrAğınız məhv olacaq qorxudan, məcbur oluruq sifətimizi dəyişdirək. Çətin deyil bu, SafAğ İşığa bürünüb hər cür sifətdə görünə bilirik. Niyə? Dedim də, sizin "Ruh"unuzu sarsıtmamaq, öldürməmək üçün. Görürsənmi necə müqəddəsik biz, ay murdar cinayətkar?!

Bəy yalvarmağa başladı:

– Öz sifətinizə düşün. Hərə öz sifətinə düşsün.

Qızlardan hansısa dedi:

– Bağımızın meyvəsindən şirinini ver bu bədbəxtə. Zəhərlisini bir yana qoy, zəhərsizindən ver. Yesin, içsin, dirilsin bu ölü!

– Çalın, oynayan, hurilər, əyləndirin bədbəxt hökmdarı!

Saz çalan hurilər iri çanaqlı sazları süfrəyə qoyub, bəm səsli Osmanlı sazlarını köynəkdən çıxarıb çalmağa başladılar. Qalan hurilər balaca-balaca, dövrələri zınqırovlu qavalları başlarının üzərində döyəcləyə-döyəcləyə oynamağa başladılar.

Bünyad bəyin gözü böyür tərəfdə – öz arvadında idi. Sərvinazın zərif dodaqları nar rəngində idi – od kimi gözlərində, yanaqlarında, buxağında işıq qaynayırdı.

Ərinə baxıb, birdən qumrovtək cingildədi:

– Ağın ab-havasındandı mənim gözəlliyim. İşığım sehrləyib səni, könlündən keçir ki, məni öpəsən. Niyə öpmürsən, hökmdarım? Diqqət yetir, Sar demirəm sənə. Sarlar bağ rütbəsində olurlar. Sən "hökmdarım" anbaan hökmlü olursan.

Heyrətlənmə. Dedim ki, biz insanın beynini görürk, fikrini oxuyuruq.

İçmək istəyirsən, iç! Dirilirsən, iç!

Bünyad bəy büllur qabı doldurub bir də içdi. Gavalı yeyib, bir də içdi.

Sərvinaz gülürdü.

– Könlündən keçir ki, kəmərimi açasan, – dedi. Bu bir qədər çətin işdi, hökmdarım. Gəl açıq danışaq. Sən bu hurilərin guya əri olmusan Yerdə. Əmma məhz hansının? Niyə qarışdırırsan?!

Bünyad bəy dumanlı gözlərini geniş açıb burda qızlara diqqət yetirdi və elə bil indicə gördü ki, qızların gözlərinin hamısı bir-biri kimi idi: yaşıl, iri.

Sərvinaz danışırdı:

– Bax, bax, ey insanlıqdan məhrum hökmdarım. Altıncı ildə, Bakının Duma binasında əziz aktyor dostun Rahibin sevgilisi Klaranı verbovat eləmisən ki, Zeynalabdin Tağıyevi, Doktor Nərimanı zəhərləsin. İyirminci ildə Serqo Orconikidze On birinci ordu ilə Bakıya gedəndə hamısı bizim Türklərdən ibarət olan o “Dikaya diviziya”da Nərimanovun katibəsi Fatmanı görüb, istəmisən verbovat eləyəsən. Əsgərlər başa düşüblər iş nə yerdədi, döyüblər səni. Sonra Serqo Orconikidze “bronepoyezdə” keçirdib səni, ordakı sestralarla tanış eləyib. Orda bronepoyezdə bir yevreyka verbovat eləmisən ki, Lenini zəhərləsin. Həmid Sultanovu, Baba Əliyevi zəhərləsin. Sonralar Səməd Vurğuna, Mehdi Hüseynə, sonradan AdıRünhan Muğannaya qədər Türklərimizi zəhərləmək üçün verbovat elədiyin qızlara bax! Görürsənmi? İşıq arxasında idilər, görmürdün sən onları. İndi bax, hamısı burdadı. Bax, görürsənmi?

Qorxma! Qatil deyilik biz. Dərs verənik, ey qatil!

İnsan nə arzulasa, hamısına əməl olunur burda. Bircə şərtlə: birisinin arzusu başqasının arzusuna zidd olmasın.

Sən arzulayırsan ki, mənim kəmərimi açasan. Mən isə arzulayıram ki, əvvəlcə mənim bütün hurilərimin kəmərini açasan. Axırda, əgər könlündə istək qalsa, onda Sərvinazıyın kəmərini də açarsan. Danışdıq?

Bünyad bəy qəhqəhə çəkib çaxırı başına çəkdi.

Sərvinaz bu gözəl sifətli kişinin gülüşündəki körpə uşaq bəsitliynə heyrət etdi.

– Niyə güldün, a kişi?!

Bünyad bəy lap uğundu.

– Əşi, necə gülməyim?! Klaranı çıxsaq, səni – kəbinli arvadımı da çıxsaq, yeddi nədir, deyəsən axı, on beşə qədər qeyri-qanunu arvadım yığılıb başıma! Əla şərab! Əla meyvə! “Arzulayıram ki,

əvvəlcə mənim bütün hurilərimin kəmərini açasan. Axırda, əgər könlündə istək qalsa, onda Sərvinazıyın kəmərini də açarsan!! Əgər doğrudanda cəhənnəmdisə bu Ay necə cəhənnəmdi?!

Sərvinaz bu gözəl sifətli uşağa indi təəccüblə baxırdı.

– Guman eləyirsən ki, keyfə baxacaqsan? Ay yazıq, bədbəxt insan! Biz axı uzun-uzun illər bundan əvvəl gözəl qızları necə heyvancasına zorladığını göstərəcəyik sənə! Özü də aramsız şəkildə! Gör nə hala düşəcəksən?! "Qıl" sözü Türklə Qrekin söz qarışığındandı. "Qıl" "ki Əl"dən azıb, "ki Əl" Od Əldən azıb, Od Əl, bilirsən, həqiqət əlidi. "Qıl" körpüdən yox Həqiqət Əli EySaramızın dilinin mənasından – həqiqət körpüsündən keçə bilməyəcəksən!..

Bu qədər qızın kəmərini kim aça bilər, ay acgöz canavar?!

Bünyad bəy duruxdu.

– Bir şey soruşardım, əmma utanıram.

Düzənliyi şaqraq gülüş götürdü:

– Bunda utanan üz də varmış ki!.. Bilirik nə soruşmaq istəyirsən. Soruş, ay utancaq canavar. Açıq de! Lap açıq!

– Açığı... – Bəyin üzü qızaran üzlərdən olmasa da, bir az qızarantəhər oldu. – Hamınıznan dalbadal yatmasam olmaz?

Qızlar yenidən qaqqıldaşdılar.

– Fu! Ətin tökülsün! Heyvan lap özünü itirdi ki!

Sərvinaz əlini yuxarı qaldırdı.

– Mən sənə dedim Yerdə eləydiyin qələti burda təkrar eləməlisən. Zor işlətməlisən.

Bəy Klaraya baxıb, istər-istəməz qızların gülüşünə qoşuldu.

– Zora qalsa, təkcə o maxina əldən salar məni, sizə gücüm qalmaz. Əmma razıyam, başlayaq, görək nə çıxır.

Sərvinaz əlini ərinin ağzına basdı:

– Belə süni hırıldamaq günahdır, hökmdar. Yerdəki məclislərinizdə hamınız süni gülə-gülə ürəkdən gülməyi yadırğamısınız. Odur ki, ziyafətdən çıxıb tək qalanda qəm dəryasına batırsınız. Ağda süni gülmə! Danışdıq? İndi hurilərimin arzularını bilək. – Sərvinaz üzünü qızlardan birisinə tutub soruşdu: – Arzun nədi, Alla?

Alla dedi:

– Kəmərim mənim alınmaz qalamdı. Arzum budu ki, Sərvinaz öz əlləri ilə hökmdarımızın gözlərini tutsun, biz hamımız hökmdarımızı öpək. Hökmdar nə vaxt mənim öpüşümü başqa hurilərin öpüşlərindən seçsə, o vaxt qalamı fəth etsin.

Hurilər yerbəyerdən qışqırdılar:
– Razıyıq! Razıyıq!
Sərvinazın gözlərində qəribə-qəzəbli qığılcımlar qaynadı:
– Ürəyindəndirmi belə bir oyun, hökmdar?! Kor kişi bu qədər zənənin öpüşünü öpüşdən seçməli, Allanı və ya bir başqasını öpüşündən tanımalıdı! Bacararsan?
Agentlərinin bu mühiti və bu rəftar Bünyad bəy üçün nə qədər yeni idisə, bir o qədər də əyləncəli idi. Çaxır da öz işini görüb, əyləncə həvəsini artırmışdı.
Sərvinaz sualın cavabını gözləmədən, ərinin gözlərini tutdu.
– Təbillər çalınsın! Döyüş başlansın!
Bünyad bəy diksindi.
– Döyüş?! Nə döyüş?! Oyun demirdin?!
Sərvinaz qəhqəhə çəkdi:
– A kişi! Bu qədər qələni fəth etməlisən sən! Döyüş deyil, bəs nədi? Hurilər kənarlarındakı xırdaca qumrovları işıldaşan xırdaca qavalları başları üzərində döyəcləyib əsil təbil gurultusu qopardılar. Sağdan birinci huri Alla qırmızı, yumşaq, yüngül ayaqqabılarının burnunda yüngülcə yeriyib Bəyi öpdü və bir göz qırpımında atılıb əvvəlki yerində dayandı.
Sərvinaz əllərini ərinin gözündən çəkdi.
– Bax tap hökmdar. Kim öpdü?
Bünyad bəy hələ hurinin öpüşündən əvvəl Sərvinazın əllərinin təmasından alışmışdı. İndi gözlərini açanda da ilk növbədə arvadının nar rəngli dodaqlarına baxdı.
– Sən özün öpdün, ay qədrini bilmədiyim, zarafatlarını, gülüşlərini boğduğum Sərvinazım!
Hurilər yenə çəməni başlarına götürdülər.
– Bu nə yaltaqlandı sənə, Sərvi! Bəlkə ümidlidi ki, sənin qələni həmləsiz fəth edəcək?
Sərvinazın gözlərində həmin qəribə-qəribə qığılcımlar qaynayırdı.
– Uduzmusan, hökmdar! Ən istəkli agentin Alla öpdü səni. Demək, Allanın qələsini almağa ixtiyarın yoxdu! Bu belə: Valya öpsə, onun öpüşünü Allanın öpüşündən seçə bilməyəcəksən! Təəssüflənmə, hökmdar. İyirminci ildə bronepoyezddə bu Valyanı necə verbovat elədiyini yada sal, danış.

Bünyad bəy oyunun bu gözəl dadlı başlanğıcında bronepoyezd sözündən şübhələnib ayılan kimi oldu.

Sərvinaz dedi:

– İstəmirsən, lazım deyil, Alla özü danışar.

Bünyad bəy yenə diksindi, rəngi dəyişdi.

– Yox, yox! Danışmasın!

Sərvinaz çox sərt idi.

– Niyə, cənab Bəy?!

Bünyad bəy canının istiləndiyini, tərlədiyini hiss edə-edə:

– Gözəl oyun oynayırdınız... Təzə dirilmişdim, – dedi. – Niyə öldürürsən məni, Sərvi. Bronopoyezddəki əhvalatı danışsa, sənin gözündən düşərəm axı!

Sərvinaz səsini qaldırdı:

– A kişi, demədimi biz insanın beynini görürük, fikrini oxuyuruq?! Lap ayaq açdığın, dil açdığın gündən həyatda gördüyün, eşitdiyin nə varsa, hamısı yazılıb beyninə. Sənin özünn yada sala bilmədiyin şeyləri də oxuyuruq beyninin o bir cüt sağ, sol kürəciklərindən.

Bünyad bəy çaşqınlaşdı.

– Onda daha niyə danışdırmaq istəyirsən Allanı?! Hamınızın oxuduğunuz, bildiyiniz əhvalatı dilə gətirməyin mənası nədi?!

Sərvinaz dedi:

– Əməlini Allanın dilindən eşitməlisən! Odda yanmalısan, Bəy!

– Odda?! Lap çaşdım! Həqiqi odda?!

A kişi! Dedim axı Kainatda yeganə cəhənnəm var, o da bu Ağ planetinin içərisidi. Bu gözəl təbiətli aləmdə Od – həqiqətdi, OdÜn – həqiqət səsidi, alov kimi yandırır, Bəy.

Bünyad bəyi tər basmışdı.

– Evim yıxıldı!

Sərvinaz dedi:

– Əksinə, bəy! OdÜn – həqiqət səsi cəhənnəmdə cənnət yaradır. Qəbahətini eşitdikcə, öz hərəkətlərini qarşındaca əyani gördükcə, yavaş-yavaş yüngüllük hiss edəcəksən. Nədən olur o yüngüllük? Sadəcə, qatı qanın yuyulur, canında qan dövriyyəsi normallaşır, hüceyrələri sağlamlaşdırır. Danış, Alla!

Bünyad bəy xeyli susub, doğrudan da əyani görmək əzabını hiss etmiş kimi, əllərini yuxarı qaldırdı.

– İlahi, özün kömək ol mənə! Cənnətdi, cəhənnəmdi, nə möcüzədi bu?!

Sərvinaz dedi:

– Biləcəksən, Bəy. Səbirlə, dəyanətlə dinlə OdÜnü – həqiqət səsini! Biz Odda yana-yana gözəlləşmişik burda. Sən də yanmalısan, Bəy!

Yalnız Klaradan seçilən Allanın gözləri par-par yanırdı.

– Çalın, ey hurilər – EyƏrlər – uca işıqlar! – dedi. – Yerdə – EyƏrdə – uca işıqda biziim işığımızı söndürən bu cəllad Qarayazı meşəsində o gözəl Niyazi sovxozunda, Niyazi kişinin həyətindəki palıd ağacının altında Aşıq Kamandarın "Bayatı" – Bağ Oduna qaranlıqdan qulaq asır, qaranlıqda ağlaya-ağlaya gedir ziverləri – qunduz itlərlə qucaqlaşmağa! Zənəndən isinməyən xəstə bədbəxt qancıqları səngidir. BağOd çalın, qunduz qancıqlarını göstərin görək göz yaşı qalıbmı heç! Tfu sənə, bəy! Saz çalan hurilər Osmanlı sazlarını süfrəyə qoyub, OdEvƏr sazlarını götürdülər. Türkün sümüklərini üybəüy oynadan gurultulu, bəm simlər əvəzində incədən incə, zərifdən zəri ağ simlərin türkü titrədən cingiltiləri Türk içində böyümüş Fars beynini lap ilk cingiltilərindən titrətdi.

– Sənə qurban olum, Alla, danışma!

Alla üzünü kənara tutdu.

– Mən danışdım qurtardım, qancıqla Allanın fərqini bilməyən bədbəxt xəstə!

– Nə?! – Bünyad bəy gözlərini silib dikəldi. – Mən... gizlənməkdən ötrü, Muğannaları izləyə-izləyə it yemləyən fəhlə olmuşam orda. Bu əzab bəs deyilmi, üstəlik sən belə...

Alla Bəyin sözünü kəsdi:

– Hurilərin bu çaldıqları havanın adı nədi?

Bünyad bəy dinləyib dedi:

– BağOd!

Alla dedi:

– Səni ağladan nə oldu indi? Bunu da qanmırsan? Mənim kədərim ağlatdı səni, ya yox?

Bünyad bəy başını sinəsinə əydi.

– Hə...

Alla da ağlayırdı.

– Bu qəm içində o bronopoyezdin kupesindəki kimi zorlaya bilməzsən məni, ay cəllad! Gəl! Gəl! Aç kəmərimi!

Sərvinaz Bəyə baxdı:

– Alla heç olmasa qismən saflaşdırdımı səni, murdar "hökmdar"! Allanın əsil adı "Alla" deyil burda, Əldi. Çaldırdığı hava "Bayat" – BağOd bir az ürək verdi sənə. Qalx! Gedirik!

– Hara?!

Sərvinaz dedi:

– Yerə!

Bünyad bəy duruxdu.

– Sən də gedirsən?!

Sərvinaz kinyə ilə:

– Əlbəttə! Bünyad bəy Qumralsız keçinə bilərmi Yerdə?! Bəlkə qunduzlarınçün darıxmısan?

Bünyad bəy köksünü ötürdü:

– Yenə Qumral olacaqsan?!

Sərvinaz güldü:

– A kişi! Qumralı istəmirsən?!

Bünyad bəy hıqqıldayırdı.

– Lap çaşdım!.. Sənin öz yazıq, bədbəxt Sərvim olduğunu bilə-bilə "Sahib"in o xaraba İranında "Bakirə" adı ilə qoyub gedəcəm?!

Sərvi dedi:

– Mazandaran İran deyil, bəy, Azərbaycanındı.

– Nə? Yəni Heydər qaytardı Azərbaycanı?! Nə vaxt oldu bu?! Paho! Biz Şimali Azərbaycanı da İrana qatmağa çalışırdıq axı! Tərsinə oldu?! Necə oldu bütövləşdi Azərbaycan?!

Sərvinaz izah etdi ki:

– Sərhəd dəyişməyib, Mazandaran da, bütün qalan vilayətlər də hələ Farsın əlindədi. Əmma biz hurilər hər şeyi öz adı ilə deyirik, bəy. Ərdəbil, Zəncan, Qəzvin, Təbriz, hamısı elə köhnə Azərbaycandı – Bağdadı bizim nəzərimizdə. Sənin yaddaşın zversovxozda qancığın quyruğunun altındadı!.. Sən yenə o iqamətgahda qalacaqsan?

Bəyin səsi boğuq çıxdı:

– Tehranın bir-birindən zorakı cəllad siyasilərinin pastellərinə verəcəm səni?! Mən zorakı, callad, namussuz köpəkoğlu necə götürüm belə namusu?!

Hurilər şaqqıldaşdılar

– Bıy! Namusu varmış!

Alla dedi:

– Şimalımızı da İrana vermək yolunda hər cəfaya dözən Bünyad bəy, arvadını İmam övladlarının pastellərinə vermək cəfasına da dözər.

Bir az sükut oldu.
Bünyad bəy:
– Yox! Yox! – dedi.
Klara kuzədən çaxır töküb yırğalana-yırğalana yeriyib, büllur qabı qoşa əlində bəyin dodaqlarına yaxınlaşdırdı.
– İç, Bəy!
Bünyad bəy qabı alıb süfrəyə çırpdı.
– Zəhər verirsiniz!
Sərvinaz dedi:
– Bağımızın[1] meyvəsindən ye, Bəy.
Bünyad bəy birdən bağırmağa başlamışdı.
Sərvinaz bir az ara verib, astadan:
– Allanın öpüşü zəhərli deyildi, – dedi. – Təbillər çalınsın, döyüş davam edir!
Yavaş-yavaş vaxtı çatır, bilməlisən ki, bütün bu öpüş -filan söhbətləri sənin bətnində ən bəd xəstəliyin səbəbini aşkara çıxarmaqdan ötrüdü, Bəy, – dedi.
– Əmma biz heç bir işi birbaşa görmürük... O qunduzları Qarayazıya kim gətirdi? Sovxozu kim yaratdı? Ruslar! Düzdü. Sən sevinirdin o vaxt ki, qunduzların dərilərindən xəlvəti satıb qızıl yığacaqsan, məni al-yaşıla bürüyəcəksən. Əmma sonra al-yaşıl ipəyi qunduz qancığa bürüyüb yorğanın altına salırdın. İndi səni ilahi zənənlər qucaqlayacaqlar, a bəxtəvər!
Hurilər qavalları başlarının üzərində döyəclədilər. Bu dəfə Klara öpüb geri atıldı.
Sərvinaz əllərini ərinin gözlərindən çəkdi.
– Kim öpdü, hökmdar?
Bəy bu dəfə heç kəsə baxmadı.
– Bilmirəm! Bəsdi!
Sərvinaz sakitcə:
– Klara öpdü. – dedi. – Əziz aktyor dostun Rahibin sevgilisi Klaranın öpüşü şirindi?! OdÜnüm yandırırmı, Bəy?! İrəli bax! Klaranı necə öldürdüyünü görürmü kor gözlərin?!
Bünyad bəy mızıldanıb:
– Qurtar bu oyunu! Qurtar! Qurtar! – dedi.
Sərvinaz eyni sakitliklə başını buladı:

---

[1] Meyvə bağı yox, insanı insana bağlayan Bağ nəzərdə tutulur.

– Mümkün deyil, Bəy. Cəhənnəmdə hər günahın min, milyon dəfə fəzada təkrar olunacaq ki, bətnin saflaşsın.

Bəy qışqırdı:

– Niyə?! Niyə?!

Sərvinaz dedi:

– Çünki sən hələ təzə-təzə yanırsan, Bəy. İnandınmı ki, bura cəhənnəmdi? İnandın?

Bünyad bəy qışqırtısını zorla boğdu.

– Yox!

Sərvinaz güldü:

– Kəmər yaddan çıxdı. Bu qədər əzab çəkdin. Yenə deyirsən cəhənnəm deyil?

Bünyad bəy dedi:

– Bəs sən niyə burdasan! Günahsız Sərvi cəhənnəmdə ola bilməz? Başa sal məni görüm bu nə oyundu, nə pəstahdı belə?

Sərvinaz birdən qəmlənmişdi:

– Sərvi bədbəxtin də cəhənnəmdədi, ay bədbəxt Bünyad!

Bünyad bəy dikəlib ona baxdı.

– Ola bilməz!

Sərvinazın gözləri dolmuşdu.

– Mən bədbəxt illər uzunu sən cəlladın yastığına baş qoymuşam. O qancıqları bürüdüyün ipəyin arasına bürünmüşəm. Günah deyil bu? On qız doğmuşam sənin it qanından, qohumlarıma paylamışam, demişəm mən belə iş sahibiyəm, uşaqlarıma sahib olun. İndidən bilirəm sağ qoymuyacaq o məni. Könülsüz kəbindən böyük günah olarmı, Bünyad?! Yerdə hər gecə sən məni zorlamısan, mən də özümü zorlamışam.

Bünyad bəy başını endirib süstləşdi.

Alla dedi:

– İndi bildinmi niyə cəhənnəmdəyəm mən?!

Bünyad bəy ağır-ağır dikəlib, bir-birindən qəmli iri-iri yaşıl gözlərə baxdı. Gözlərin hamısından yaş süzülürdü.

Alla:

– Mənim bu bir-birindən gözəl bacılarım "Sahib" in gizli iqamətgahında onca il zorlayıblar özlərini, – dedi. – Bundan böyük günah olarmı, Bünyad?!

Bünyad bəyin gözləri qızların üzərində gəzirdi:

– Bəs Klara niyə burdadı?!
Klara gözünün yaşını silmədən:
– Mənim günahım dünya boydadı, Bəy, – dedi, – dünya boyda!
Bünyad bəy inanmaq istəmədi.
– Ola bilməz! Sənin həyatında, işində-əməlində zərrə qədər də ləkə yoxdu! Bütün Azərbaycanda, bəlkə də bütün Yerdə sən yeganə aktrisasan ki, ləkəsizsən.
Klaranın ağır gözləri qalxıb endi.
Dedim günahım dünya boydadı. O qədər böyükdü ki, danışmaqla qurtaran deyil.
Bünyad bəy soruşmaya bilmədi:
– Nədi axı?!
Klara inamla:
– Sən cəlladın sirlərini heç kəsə açmamışam. Bu bir, – dedi. – Altıncı ildən otuz yeddinci ilə qədər vicdanımın səsini boğaraq qatilliyini xəbər verməmişəm. Bu iki. Bundan böyük günah olarmı, Bünyad?!
Bünyad bəy xeyli susub sonra soruşdu:
– Belə çıxır ki, mən doğrudan cəhənnəmdəyəm?!
Sərvinaz səssizcə şirin-şirin gülürdü.
– Qayıtmaq istəyirsən? Qunduzları istəyirsən?
Bünyad bəy dərhal:
– Saflaşmağım mümkün deyil, Sərvinaz! – dedi.
– Sən ki, Bağların qüdrətinə bələdsən!
Bünyad bəyin üz-gözü əyildi:
– Əlimdə imkan olsaydı, mən sizin o EySarınızın özünü də öldürərdim, qardaşı EvƏrimi də öldürərdim, Bağ Atasını da, BağBağÜn, EyOdƏr babalarını da! Bu dərəcədə kin hara, SafAğlıq hara, Sərvi?!
– Səmimi danışırsan, Bəy. Bunun özü saflığa yaxınlaşmaq deməkdi. Burdan nəticə çıxart ki, biz səni bir az da səmimiləşdirib, könlündə insana istək işartısı yaradırıq.
Bünyad bəy yorğun-yorğun siqar sümürdü:
– İnsana istək... O insana ki, insan qanı içə-içə yaşayır?! Sən elə bilirsən mən heç fikirləşməmişəm bu barədə?! EySar Ün eşidən, Ün yayan Bağdı, o heç, qardaşları da belədilər. Yəni fakt budu ki, yaradıcı Bağ, xaliq Bağ deyil. Bəs bağ Ata?! Bəs BağBağÜn?! Bəs EyOdƏr özü?! Məni elə yarada bilməzdilərmi ki, qan yoluna

düşməyəydim?! Bəşəriyyəti elə yarada bilməzdilərmi ki, ümumiyyətlə ölüm-dirim olmayaydı?!

Sərvi dedi:

– Bax, belə düşünmək qabiliyyəti özü də saflaşmaq yoludu, Bəy. Peterburqda ruhani məktəbini qurtarıb Bakı Dumasına göndəriləndə sənin beynin daş, qaya kimi bir şey imiş, şpionluq dərsindən savayı bir kəlmə də girmirdi beyninə. Rahib də o məktəbi qurtarmışdı. Əmma o başqa yol seçdi – sənət yolunu və o yolda da öldü. Sən bu yaşa çatdın, indi tərəddüdlü danışırsan... Bu yeni psixoloji vəziyyətdi və bu vəziyyət burdakı bir-iki saatın bəhrəsidi. Qanırsan, ya yox?!

Bünyad bəy çox düşünmədən:

– Dəhşətli işgəncə verirsiniz, elə belə olacaq! – dedi.

Sərvinazın üzündən gülüş silinmişdi.

– Mən sənə dedim: Bağımın meyvələrinin zəhərlisi də var. mənim Bağım EySardı, Bəy. EySarımın ən zəhərli meyvəsi İblisdi. İblisi gör, gedək.

Bünyad bəyin rəngi dəyişdi:

– İblis də var burda?!

Sərvinaz açıq, hiyləli gülüşlə:

– İblissiz cəhənnəm olar, Bünyad?! – dedi.

Süfrənin ayağında, hurilərin arasında başdan-ayağa qırmızı geyimli, gözlərinin hərəsi bir qırmızı alma boyda, cüt buynuzlu, quyruqlu bir məxluq peyda oldu.

Bünyad bəy dik atıldı və üzüüstə döşənib özündən getdi.

## 3. YENƏ FANTASTİKASIZ FANTASTİKA

Gözlərini açanda özünü Qarayazı meşəsində, zversovxozla Muğanlı kəndinin arasındakı yolayrıcında gördü.

Dikəlib o yan-bu yana, sonra göyə baxdı.

Buludsuz, açıq mavi göyün dərinliyində işıq gəmisinin dairəvi işığı parlayıb yoxa çıxdı.

Bəy hiss edirdi ki, Qarayazının göylərində görünüb yoxa çıxan o gəmi ilə əlaqədar, nə isə qeyri-adi bir hadisə baş verib. Əmma nə hadisə yadında idi, nə də hadisədə iştirak edən adamlar. Beyni keçə

kimi, hissiyatı küt idi. Yadındakı ancaq bu idi ki, Zversovxozun köhnə ərzaq yeşikləri ilə dolu səmtindəki gizlin iqamətgahından axşam çıxmışdı.

Prezident Heydərin hakimiyyətə gəldiyini biləndən sonra Sudüşən qəsəbəsi adlanan yerdən çoxsaylı ailəsinin komandası altındakı silahlı dəstəni Moskvaya qaçırıb evindəki "narkotika" kisələrini Jiqulisinə doldurub, həyatının qalanını çapqınçılığa həsr etmək istəyən polkovnik Rəhim Qudalı – "Xəlvət Rəhim" burada – yolayrıcında olmalı idi. Bünyad bəydən azı on-on beş yaş kiçik olduğuna baxmayaraq, Bəy ona qəribə, istehzalı "Qocaman" və "Qoca" kliçkası və "narkotika kisələrinin əvəzində bir dəstə (saymadan) dollar verib, "kisələri də "özün satarsan" deyib, bununla "Qoca"nı guya həmişəlik əsir eləmişdi. Və həmkarının sədaqətinə əmin olduğuna görə "Qoca"nın alüminium kisəsinin içində "mərkəz"dən göndərilmiş dollarları çıxarıb, öz köynəyinin astarındakı sellofan torbalara doldurmalı idi.

Əlini sinəsinin sağ-soluna basdı. Sellefonları dolu idi. Nə vaxt görmüşdü bu işi?! Bu yolayrıcına necə gəlmişdi?! İzə düşən, müdaxilə edən vardısa, bəs pul niyə üstündə idi?! Bəs qoca niyə yoxa çıxmışdı?! Axşam görüşüb pulun yerini dəyişəndən sonra haraya isə getməli deyildilərmi?!

Bəy qorxuya düşüb yenə o yan-bu yana baxdı və bu dəfə "Qoca"nı böyründə oturan görüb, heyrətdən bilmədi nə desin.

"Qoca" qaşqabaqlı, açıq narazı soruşdu ki:

– Hara aparmışdılar səni?

Bünyad bəy səmimi etirafla:

– Bilmirəm, – dedi.

"Qoca" yenə soruşdu ki:

– Dəli necə düşüb sənin izinə?

Bünyad bəy diksinəntəhər olub:

– "Dəli" çoxdu burda, hansıdı izimə düşən?

"Qoca" çox pərt:

– Lap pisi, – dedi, – Səməd! Bir dəfə Muğannalardan "Ağ Məmmə" dediklərini gördüm yanlarında. Bir dəfə də AdıPünhan Muğanna dediklərini gördüm. Möhkəm içmişdilər, keyfləri ala buludda, valay vururdular. Bir də vaxtıynan bir məzəli gədə vardı Muğanlıda – Orduqozdu Musa deyirdilər, sənin Sərvinə vurul-

muşdu. O idi AdıPünhanın yanında, meşədə gəzə-gəzə gah çaxır şüşəsi verirdi o yazana, gah da kabab, yuxa, soğan-zad, içirdilər, oxuyurdular:

"Dad ey, Dad ey, Dad aldı məni,
Almadı qohum-qardaş, yad aldı məni..."

Sənin arvadınıydı bir də orda, Sərvi varıydı ha, indi də lap eləcə – cavanca, yalvarırdı AdıPünhana ki, qurbanın olum, ay Pünhanım, bir də oxu onu. AdıPünhan da hey elə çalırdı sazını, oxuyurdu: "Dad ey!.. Sonra Muğanlıdan Ağ Məmmə deyilən gəldi ora. Bu il ölmüşdü o. Lap məəttəl qaldım ki, bu niyə diridi?! Yadında olar, onun arvadı Baharı da sən zəhərləmişdin. Lap üşütmə aldı canımı ki, birdən o Bahar da burda olar. Dəli olmuşdum ey, a kişi!..

Bünyad bəy qovşurulurdu:

– Dayan bir görüm, a kişi! İndi yadıma gəlir, Sərvini mən də görmüşəm. Əmma burda yox... Belə çıxır ki, o gorbagor dəlilərin hamısı dirildi, gəlib-gediblər?!

Qoca dedi:

– Elə çıxır də!

Bünyad bəyin canına qor doldu.

Qocanın əli yoldan o yanı göstərdi.

– Odu bax oturublar o "Çinar" dedikləri gölün dalında, ağac altında. Ocaq tüstülətdilər. Çaxır – yeşiknən! Əyləşiblər üz-üzə: "Muğannaların sağlığına!" "Xəlvətlik"dən, "Qoca"lıqdan çıxdım, açıq-açığına oturdum rulun dalında, sürdüm birbaş Əmirlilərin dəfn olunduqları yerə. Qazdım. Qəbirdə – skelet!..

Bünyad bəy "Qumral"ı – "Türknaz"ı – Sərvini xatırladı.

– Dayan, Qoca... Əllinci illərdə, o vaxtki raykom katibi Sultan Əmirlinin başına nə oyunlar açırdıq, əmma o heç söyüb-eləmirdi də bizi, elə hey OdƏrlikdən, əbədi birlikdən danışardı!.. Gör necə heyvan olmuşuq, qanmamışıq! Əmma elə yaxşı ki, qanmamışıq... – Selefonlara toxundu, elə bil xəyaldan ayrıldı. – Pulu sən qoymusan bura, ya mən özüm?!

Qoca təəccübləndi.

– Əlbəttə, özün!

Bünyad bəy yola baxdı.

– Harda? Burda?

Qoca:

– Necə harda?! Əlbəttə, burda. Qəbirstandan qayıtdım, maşını qoydum bu yana, Muğanlı səmtindəki o qalın qaramıxlığa, gəldim, gördüm düpdüz uzanıbsan bu toz-torpağın içində. Dedim yəqin simülyantlıq eləyirsən "Dəli"ləri izləyəsən. Sonra gördüm yox, başıyın ortası qozdanıb, vurublar səni. Başa düşdüm ki, qurtarıb daha bizimki. Sonra gördüm yox, pul sellofanlardadı. İncimə bəy, boynuma alıram hər şeyi. İkimiz də yüzü çoxdan aşmışıq. Güllələməzlər bizi. Qocalığımızı nəzərə alarlar. Asmazlar, bilirsən türmələrdə adamım çoxdu mənim. Bir-iki ay yatarıq. Qızıla basaram, çıxarıq. Qalx, Bəy. Qalx gedək özümüz təslim olaq.

Bünyad bəy taqətsizlikdən üzülə-üzülə dikəlib, əlini gözünün üstünə qaldırıb gölün o tayına – çinarın altına baxdı.

– Deyirsən Sərvi də gəlib?

– Hə.

– Hanı bəs? Gözümə dəymir. Qayıdıb nədi?

Bünyad bəy azacıq düşünüb, birdən etirafa ehtiyac duydu.

– Bilirsənmi, Qoca, axı məni aparmışdılar! Sərvi özü aparmışdı!

Qocanın gözləri böyüdü.

– Nəə?

– Nə!

– Bə niyə Sərvisiz gəldin?!

Çinar tərəfdən gözlənilməz səs gəldi:

– O qatilə arvad olarmı daha Sərvinaz, ey qatil?!

Qoca dizləri üstə qalxıb, gölün o tayına baxdı.

Cavab gəldi ki:

– Sən heyvan oğlu heyvan, Muğannaların Türmən düzündən qoç almağa gedəndə "Orduqozdu Musa" deyərdin mənə. Uşaqlara Abbası[1] paylayırdın ki, gedin onun ordunun qozuna çırtma vurun qaçın. Mən bədbəxt karlık ağlayardım. Sən mənim ağlamağıma gülərdin!.. Öl indi! Nə ordumun qozu var, nə də belimin fırı!.. Sərvi mənim arvadım olacaq, Bünyad bəy! Bildin?! Sevmişik bir-birimizi!

Bünyad bəy astadan inildədi:

– Bah-Bah. Bah!.. Dünyanın işinə bax!

Orduqozlu danışırdı:

---

[1] Xalq Şah Abbasın kəsdirdiyi pulun adını 1988-ci ilə qədər unutmayıb, rusun 20 qəpiyinə "Abbası" deyirdi.

– Kainatda sevgi Yerdəki təki deyil, ay it! Doğuluş Yerdədi ancaq, onçun gəlirik biz bura Sərviynən! Sevişməyə!.. Oğlumuz olacaq! Sən qanarsanmı övlad nə deməkdir, ay it?!

Bünyad bəy ayaqüstə idi.

Gölün o tayında Sərvini görmüşdü. Dümağ, dalğalı, uzun saçları qulaqlarının üstündən sallanıb çiyinlərində qıvrılmış Səməd Əmirlini tanıyanda Səməddən solda arxasını çinarın gövdəsinə söykəmiş Musaya diqqət yetirməyə ehtiyac qalmadı. Yolayrıcı ilə çinarın arası azı yüz addım olsa da Bəyin yəqin ki, təhlükə hissindən birdən-birə işıqlanan gözləri Səmədin gözlərinin bu tərəfə dikildiyini aydın gördü.

Qoca pıçıldayırdı:

– Tanıdın? Odu!.. Səməddi!

Bəy dillənmədi, aydın bilməsə də, indi hiss edirdi ki, dəhşətli dərəcədə təcrübəli çekist onun nəinki cinayətlərini, hətta bu an beynini də görürdü, qaçmaq, qurtarmaq mümkün deyildi.

Səməd nədənsə, şaqqıltı ilə gülüb, əlindəki şüşəni yuxarı qaldırdı.

– Bunu içirəm öz EvƏrEy OdƏrliyini qana-qana “yevrey”liyini gizlətməyə səy göstərən Bünyad bəylə “erməni”liyini məharətlə gizlədən “Yevrey” Xəlvətin sağlığına!

Gəlin! Qorxmayın, həbs olunmayacaqsınız. Mən axı Yer Adamı deyiləm daha, əla toğlu kababı yeyəcəksiniz, çaxır içəcəksiniz. Sonra da sözün əsil mənasında azad olacaqsınız! Gəlin! Heyif, daha “döyüş” olmuyacaq, qızlar öpmüyəcəklər siz kaftarları. O oyunun dərsini sonra qanacaqsınız. Hələlik gəlin yeyin-için!

Yer adamı olmaması qocaları daha da ehtiyatlandırdı. Əmma getməmək olmazdı.

Ora vaxtilə iydəlikləri, göyəmlikləri, yemşənlikləri, üzümlükləri ilə məşhur olan Qarayazı meşəsinin cəngəllikləri, sıx palıdları, qarağacları, qovaqlıqları məhv olandan sonra Çinar gölü lap kiçilib dayazlamışdı. Bu yolayrıcından o taya – çinarın altına getmək üçün qərbə – Muğanlı kəndinə doğru iki yüz addım gedib Babanıoğlu körpüsündən keçib sola burulmaq və yenə iki yüz addım getmək lazım idi. Xəlvət-zəhim həmişə ata-baba kəndi sayılan Qonaqlıdan buraya gələndə Babanıoğlu körpüsünün altından gur qıjıltı ilə axan QaraSuda axından titrəşən yamyaşıl acıtərə yığıb həmin çinarın altına aparardı. Hələ o vaxtlardan – əllinci illərdən beli bir az don-

qarlanmağa başlamış uzun, arıq Bünyada adı ilə yox, "kliçka"sı ilə "Çax-çux Xalıq" deyərdi:

– "Ay "Çax-çux Xalıq" vəzəri əsl budu, bax. Qocalığın dərmanı budu. Hər dərdin dərmanı acı tərədi!" – deyərdi. Sonralar Azərbaycanda Xalq Cəbhəsi – AXC adlanan, anlaşıdmaz, zülmkar – qeyri xalq təşkilatın hakimiyyətdə olduğu doxsan-doxsan üçüncü illərdə birdən-birə "Bəy" çağırılan Bünyad bəyin nəinki cavanlaşdığını, hətta donqarının getdiyini görəndə isə: "Acıtərənin bu möcüsinin əvəzində burax məni, Bəy", – deyərdi və cavabında "bir yekə paçka" dollar alardı. Bir az sonralar isə, gur axında titrəşən yamyaşıl, təzətər acıtərə yerinə, məhv olmuş meşəni basan duzlaqların zəhər duzundan qatılaşmış, əsil zəhər dadan, qaramtı acıtərə yığıb verərdi ki, cavanlaşdırdığı Bəyi qocaltsın, əl çəksin "Qoca"sının yaxasından. Sovet kəşfiyyatında birgə işlədikləri ilk illərdə – lap ilk gənclikdə xəlvət Rəhimi əməlli-başlı inandırmışdılar ki, Xalıq onun Təbrizdə Əmirlilərin evində nökər işləyə-işləyə Moskvaya "doneseniye"lər göndərən "Yağır" Məmmədlinin oğludur. "Çax-çux Xalıq" birdən-birə Bünyad bəyə çevriləndə – AXC hakmiyyətinin başlanğıcında isə Azərbaycandakı "podpolnıy KPSS fəalarından biri olan Xəlvət, "Qoca" kliçkası ilə, yeni "rukovoditel"in sərəncamına – Zversovxoza gedəndə məlum olmuşdu ki, yeni "rukovoditel" – Bünyad bəy "qardaşoğlu-zad deyl". Bədbəxt qocanın xəbəri yoxdu ki, Bəy ömrünün yarıdan çoxunu Qarayazıda, Zversovxozda keçirmişdi. Niyazi sovxozu tərəfdə gur qalan meşənin gur Qarasuyundan yamyaşıl təzətər acıtərə dərib, səhər də, günorta da, axşam da çörəyini acıtərə ilə yeyirdi və "Əsil dərmanın acıtərə yox, o bitkinin yarpaqları arasında bitən başqa sarımtıl tellər kimi bitgi, "Qarayazı möcüzəsinin" möcüzəsi ilə yaşadıqca yaşayıb, hətta yüz yaşlı Qocadan çox-çox cavan görünürdü.

Babanıoğlu körpüsündən keçəndə Bünyad bəy, həmişə uşaq yerinə də buyurduğu Qocaya gözlənilməz bir xidmət göstərdi: körpünün ortasındakı iki addım uzununda uçuq yerdən hoppanmaq lazım gələndə bomboz, cırıq-sökük tuflilərini ayaqlarının burnu ilə o taya atıb suya düşdü.

– Min, Qoca. Ömrün boyu sən mənə qulluq eləmisən, türmədə qızıl vədinə görə bir dəfə də mən sənə qulluq eləyim. Min, keçirim!

Lap cavanlıqdan indiyə qədər bütün çətinliklərdən qızılla çıxan Xəlvət Rəhim – Qoca hardan biləydi ki, cır-cındır içində hökmdarlıq edən Bəyin bu adı, sadə hiyləsi altında ölüm təhlükəsi gizlənmişdi. Bünyad bəyin ağ tüklərlə örtülü çökək sinəsində tükün arasını qabartmış “US” – “Ultrasovremennıy” aparatda “mərkəz”in cır səsi aramsız ötürdü: “Osvobodites ot Starika. Navseqda osvobodites ot Starika. On uje obuza tebe. Konçay!”

Xəlvət için-için gülə-gülə qıçını aşırıb Bəyini mindi:

– Qadan alım, ay Bəy! Bu nə xəcalətdi! Qadan alım! Bu nə xəcalətdi!

Bu, “Qoca” kliçkalı polkovnik Rəhim Qudalının son sözləri oldu. Bünyad bəy can köynəyinin qoltuğundan rezin ucunda sallanan naqanı çəkib, belindəki “hər şeyi boynuna almağa” hazırlaşmış ağır ət torbasının dalına dalbadal atəş açdı və torbanı suya salıb körpünün altına basdı.

Çinarın altından Səmədin qəhqəhəsi eşidildi:

– A Bəy, o nə müxənnətlik idi elədin? Qarayazıya gələndə o ət torbası hər dəfə bir torba dolusu acıtərə aparırdı kəndə, bir əmliyin kababını bir oturuma yeyərdi. Acıtərənin möcüzəsi ilə hələ yüz il də yaşaya bilərdi bundan sonra. Niyə gözündə qoydun kişinin arzusunu!

Yadındamı, səksən səkkizinci ilin dekabrında sən məni Bakıdan Qonaqlıya öldürtməyə çağıranda mənim əmioğlum Dəli Mədəd Qonaqlı ilə Qurbanlının arasında o torbanın necə döyəclədi çinarın gövdəsinə. O vaxtdan on dörd il keçib. Mənim dəli Mədədim on dörd il gözləyib, Musanı göndərib ki, bu gün, iki min üçüncü ilin əvvəlinə o torbanı bir dəfə də bu çinar gölünün çinarının gövdəsinə göyəcləyib qanına qəltan eləsin. Mədədin arzusunu da gözündə qoydun, ay Müxənnət Bəy! OdAğÜzdə Bağlarımız dönə-dönə hədələdilər Mədədi ki, Xəlvətə cismi işgəncə versən, dəhşətli başağrısı çəkəcəksən.

Mədədin ünü eşidildi: “Çoxdandı cəzalandırmırsınız məni. İmkan verin Musaya, cəzalandırsın”. İndi gələr Musa, səni çırpar bu çinara, necə olar, Bəy? Qorxdun?! Sənin axı qorxu hissin çoxdan kütləşmişdi, indi nəyə görə bərpa olundu? Çünki ayda – Ağda lap cüzi saflaşma keçirmişdin, bir az insanlaşmışdın, ay Qoca canavar. Qorxma, Musa nə qədər dəhşətli sərt adam olsa da, keçmiş arvadın Sərvi kimi bizə

də tapşırıq verilib ki, “Yerin ən qaniçən iyrənc dərəcədə murdar “İNS”i Bünyad bəyi saflaşdıraq. Basdır o ət torbasını, gəl, söhbətimiz çoxdur. Musa deyiləm mən, Mədəd də deyiləm, Ağ Məmməyəm, Ağ Məmmə! Bilirsən, təbiətən çox mülayim adamam mən. Şamaxıda əziz qohumlarımız Bəylərin kökünü kəsdin, gözümlə gördüm. Babam Omar kimi mən də bağlarımızın ixtiyarına verdim səni. Bağların isə qanunu sənə məlumdu: “İns”ə təsir etmək olar, “təzyiq olmaz”. Gəl, gəl. Səmədin adını “straşnıy çekist” qoysan da, o da bağların hökmündən çıxmaz.

Əcəm dili ilə Muğanna deyirsən mənə. Bil və bələd ol bu “Muğannaya”, “Əmirli” nəslinin taleyi ilə oynayan Bəy! Muğanna nəslinə mənsub Əmirlilər siz Fars, Ərəb “Yevrey”lərinin dili ilə “Muğanna” adlanırlar. Bunu bilirsən. Bəs Türk dilində necədi bizim nəslin adı? O torbanı basdır, gəl deyim. Mənim Muğanlıdakı qohumlarımdan biri bu çinar gölünü duruldub qızıl balıq saxlayacaq burda. Murdarlama suyumuzu. Basdır onu, sonra gəl araq vura-vura, kabab yeyə-yeyə nəslimin başına açdığın bəlaları danış...

Bünyad bəy QaraSuyun axarının soyuğundan tir-tir əsə-əsə, meyiti çəkib körpünün altından çıxartdı. O mülayim Ağ Məmmənin: “Bəs lapatkanı hardan alsın?” dediyini eşitdi.

Səməd dedi:

– Yağış yağanda Babanıoğlunun körpüsünü tez-tez sel apardığına görə Muğanlılar lapatka saxlayırlar orda. Qamışlıqdadı. Körpünün o yanında. “Qoca”nı tı sam porodil, sam ubil, sam i poxoroni” bəxtəvəri dəfn elə.

Bünyad bəy meyiti körpünün sağ tərəfinə tullayıb, sudan çıxıb çinarın altına boylananda gözü ocağın qızartısına dirənib qaldı.

– Ayda huriləriniz toy-düyündən uzaqlaşdırdılar məni, bilirəm, sən də nə isə elə bir şey eləyəcəksən. İnanmıram sənə. İzn ver gəlim bir az qızınım, çox islanmışam.

Səməd baxışından başlamış, bütün gövdəsindən hiss olunan zəhm içində, elə gülürdü.

– Gəlməyinə gələcəksən. Əmma sən bilirsənmi ki, bizim Ağ Məmmə adında möcüzəmiz var, sənin paltarını da qurudar bircə saniyədə, canını da qızdırar... Hə, qızdımı canın, cənab bəy?.. Mən burdan ora sənin beyninə bir kəlmə göndərirəm: “Molla”. Xatırla-

dınmı nə vaxt verilib sənə bu "kliçka"? Stalin, Beriya, Mircəfər Mirqəzəb. Bu üç nəfərdən başqa heç kəs bilmirdi bu "kliçka" altında nə iş görürdün sən, o illəri xatırla. Belə lazımdı.

Belinə qaldırammazsan o itin leşini. Sürü, apar. Kor quyu var körpünün solunda dikdirdə. Küllükdü ora. Quyu küllüyün enişindədir. At o quyuya istəkli "Qoca"nı torpaqla, gəl Molla kliçkasını sənə kim, nə vaxt, nə niyyətlə verdiyini də deyəcəm.

Tez elə, Bəy. Orduqozdu Musanın getməyi, əslində, yaxşı oldu. Heç dözmür yerdəki işlərinizə. Gah işıqla döyür onu-bunu, əzab verir. Xüsusən, son vaxtlar "Avropa mədəniyyəti" adlandırdığınız çılpaq qadın, pullu seks, xuliqan bazar "mədəniyyəti"nə görə hətta qadınları da işıqla döyür. Baxtın kəsdi, gəmidən çox təkidlə çağırdılar, getdi. Mən isə, gördüyün kimi, vaxtilə tanıdığın Səməd deyiləm, çox yumşalmışam. Yerdə həyat lap murdarlaşıb, sizin "İns"ə yazığım gəlir, Bəy. Gəmimizi gündə bir şəhər, kənd kənarına sürdürürəm. Oralarda, əlbəttə, bilən yoxdu ki, Yer adamı deyiləm. Vəzifəli şəxs kimi təqdim eləyirəm özümü, keçmişimizi öyrənmək yolu ilə özümüzü dərk etməyin, insan xarakterinə qayıtmağın yollarını göstərirəm, kitab paylayıram. İşim çoxdu Yerdə. Amerikaya, İngiltərəyə də gedirəm. Avropadan əlimi üzmüşəm, açığı... Basdır onu, gəl! Çox bilik alacaqsan bu günkü dərsdən.

Bünyad bəy meyiti körpünün sağından soluna keçirənə qədər qan-tərə batdı, necə deyərlər, ölüb ölümdən qayıtdı. "Qoca"sının qolları, qıçları qocalıqdan nazilib çöpə dönsə də ortası – ət torbası azı yüz kilo olardı. Üstəlik, yəqin ki, çoxdan çimmədiyinə görə üfunətli idi.

Bəy "Qoca"nın "hərçibetər"inə söyə-söyə, qıçının birini sağ, o birini sol boynuna sıxıb torbanı ardınca sürüyə-sürüyə dikdirə qalxdı.

Səmədin səsi gəlirdi:

– Küllüyü gördünmü, Bəy? Quşyemişi tağına oxşayan zəhərli bitki tağları var orda. Nə qışda solur o tağlar, nə də külün içində, gömgöy qalıb. Nədi o bitkinin adı, a Bəy?

Bünyad bəy tövsiyə-tövsiyə, burda il dəfə Səmədə sərt cavab verdi:

– Mən Bünyad bəyəm, Səməd! Sözdən söz çəkən razvedçikəm! Bu həngamənin arasında istintaq aparırsan ki, çinarın altına gedənə qədər hər şey qurtarsın.

Muğanlı küllüyüdü bu küllük. İyirmi üçüncü ildə Muğannanın babası Omar ağa burda çəpərə ev tikdirmişdi. Quyu qazdırmışdı...

Səməd Bəyin sözünü kəsdi:

– Mən səndən o zəhərli bitkinin adını soruşdum!

Bünyad bəy dedi:

– O Ağ Məmmə niyə elə qımışır asta-asta? Deyəsən axı “dərs” adı verdiyiniz işgəncəni başlayırsan? Bir az möhlət ver dincəlim.

Səməd müəmma ilə:

– Musa gələr, dirçəldər səni, – dedi. – Ağ Məmmə, bilirsən, müəllimdi, Coğrafiyanı, Botanikanı maksimum bilir. “Dərs”in başlandığını başa düşüb, yumşaq-yumşaq gülür.

Planetin heç yerində adını bilən yoxdu bu bitkinin. Təkcə Muğannalar “Bağıyeyən” deyirlər buna.

– Niyə, səncə?

Bünyad bəy hər bir şeyi başa düşürdü:

– Bu külliyə göndərmədin sən məni. Muğana adlanan Bağ nəslinin mənim fəaliyyətilə bağlı tarixi ətrafında istintaq başlamısan. Zərərlidi bu “Bağıyeyən” adlandırdığınız bitki. Geri sananan tarixin beşinci əsrində bu bitkini “Bağıeyən” adlandırmısınız.

Ölkənin harasındasa bu bitki kimi kom-kom Qrek legionları görünəndə Muğannalar bunu bir kəlmə ilə ifadə eləyiblər: “Bağıyeyən”.

Əməd ucadan:

– Afərin, Bəy! – dedi. – İstintaq axıra qədər belə getsə, özünü xilas eləyəcəksən... De görüm, o boyda təpə kimi küllük niyə su quyusunun üstündədi? Nə sirr var burda?

Bünyad bəy dedi:

– Bu sirri açmaq üçün gərək dünyanın tarixini danışasan.

Səmədin səsində hiyləli gülüş hiss olundu.

– Danış da!

Bünyad bəy dedi:

– Bir aman ver, bunu quylayım bu quyuya, nəfəsimi dərim də!

Orduqozdu Musa boynu və yaxası qızılı naxışlı, düymələri gümüşü, uzun yaraşıqlı çəpkəndə, alçaraq kolların arası ilə zümzümə eləyə-eləyə gəlirdi:

A bəy, eşit nə oldu,
Çomağım saza döndü.

Sənə toy tutmaq üçün
Göylərdən yerə gəldi.

Yaxınlaşıb, əlindəki iki uzun, qalın, qara çaxır şüşəsinin birini Səmədə, birini Məmməyə verdi, üçüncüsünü Bünyad bəyə tulazladı:

– A bədbəxt! Al iç, cana gəl.

Səməd şüşəsindən bir az içib:

– A bəy, bir müəmma aç, – dedi. – Ağ Məmmə danışan adam deyil. Əmma danışmağa başlasa, işin yaxşı olmaz, sən hələ mənim müəmmamı aç. Sənə dedim lapatkanı götür o qamışlıqdan, basdır o iti, sonra dedim apar at o kor quyuya. Niyə belə iki söz dedim, a Bəy?

Bünyad bəy çətinlik çəkmədi:

– Demək istəyirsən ki, bu kor quyunun ağzına qədər torpaqla doldurmalıyam?!

Səməd:

– Afərin! – dedi. – Sözünü tamamla.

Bünyad bəy dedi:

– Bu quyu azı dörd-beş ton torpaq aparır! O hesabla neçə gün işləməliyəm mən burda?!

Səməd çaxır içib güldü:

– Suallarım var, sirri açmalısan, o boyda küllük niyə su quyusunun üstündədi? Bu birinci sual. Çinar gölünün gündoğanındakı dikdirin daşlığından əla su sızır. Qazanda bulaq olur. Bəs Omar Ağa o su quyusunu niyə qazdırıb? Bu ikinci sual. Bayaqkı sualı təkrar edirəm: Bağıyeyən bitki ilə Muğannaların tarixi arasında başqa nə əlaqələr var?

Bu üçüncü sual.

Bütün Qazaxda “Omar Koxa” adı ilə tanınan, Borçalı, Göyçə, Gəncəbasar camaatından on nəfər kişinin adlarının siyahısı çıxıb cibindən. Kimlərmiş o kişilər və siyahı niyə Omar ağanın cibində olub, sonra necə keçib sənin əlinə, sən kimə vermisən siyahını və bunun nəticəsində nələr olub?

Bu da beşinci, altıncı, yeddinci, səkkizinci, doqquzuncu, onuncu suallar.

İndi quyunu doldurmaq əzabından qurtar. Cavab verməsən, sən orda gecəli-gündüzlü, azı bir həftə torpaq tökəcəksən quyuya, bizdə burda acıtərə, kabab yeyəcəyik. Bir həftə yatmaq yoxdu, cənab

razvedçik. Danış, qurtar canını. Yoxsa, aydın məsələdi ki, hökumətə məlumat göndəriləcək, həbs olunacaqsan. Ömürlük həbs cəzası!

Bünyad bəyin əli silaha uzanırdı:

– Sənin dəhşətli adam olduğunu çoxdan bilirdim mən. Bu dərəcədə dəhşətli sadistliyini bilmirdim.

Səməd o əli də görürdü, qısa avtomatı da.

– Ay bədbəxt!.. Öz əlinlə yaratdığın tarixi danış də. Özgə bir şey tələb eləmirəm ki, səndən. Danış, qurtar canını!.. Əlini çək ordan!

Bünyad bəy diksindi, sualları xatırlamağa başladı.

– Birinci sual: "Küllük niyə su quyusunun üstündədi?"

Mən cavab verdim bu suala. Dedim ki, "Muğanlı küllüyüdü bu küllük". Kifayətlənmirsən bu cavabla. Təfərrüatını danışım.

Muğanna nəslinin qədim adəti var. Bağdaddan, Bəsrədən Ərdəbilə sürülüb, ordakı ƏrOdBil – "Səfəvi" şeyxləriylə bir yerdə Təbrizə qaçışdılar. Orda ocaq qırağında oturarmışlar. Payız, qış aylarında Təbrizdə, Əmir almalığı deyilən bağın ortasında, dörd dövrəsi qırmüzü kərpiclə hörüklü, geniş təndirxanədə bütün qışı təndirin kənarlarında kətillərdə oturarmışlar. Təndirdən, təndir soyuyana yaxın qoru uzun dəmirlərlə çəkib hasarın dibinə yığarmışlar. Hasar da qızıb isti qalarmış. Həm də kül, deyirlər, dərdi-bəladan qovarmış. Qəribə sirrdi.

Kim diqqətlə oxusa, Şah İsmayılın "Divan"ındakı bəzi şeirlərdə açıq-aydın ziddiyyətlər görər: gah Qızılbaş – şiədi, gah "Səfa", "Səfi", SafAğ. Deyirlər təhlükə hiss eləyəndə Göyçədə dostu – müəllimi Aşıq Abdalın evinə qaçıb onunla məsləhətləşdiyinə görə salamat qalıb. Əmma bilirmiş ki, öldürəcəklər. Bu barədə işarələr çoxdu. "Divan"ında, kədər, dərd-ələm var. Bilirmiş ki, Sultan Səlim Təbrizdə qalan düşmənləri rahat buraxmayacaq, onun, şahın özü də, şübhəsiz, bu zibilliyə bulanacaq. Buna görə də "Yəhudi"liyini – Tərikliyini – Türklüyünü, dilini işlətmirmiş. Azərbaycanın Sovet alimləri deyirlər: "İsmayıl Türk dilini dövlət dilinə çeviribmiş". Əslində bu da yalandı. Öz dilində yazırmış Sultan Səlimə məktublarını, sultan da, əlbəttə, dərk eləyirmiş ki, OdƏrlik mədəniyyətindən gələn bu dildə belə gözəl, aydın yazan İsmayıl onun doğması, əzizidir, tora düşüb. Odur ki, xaricdən tüfəng alırmış, müharibəyə hazırlaşırmış ki, Təbriz təxtini azad eləsin. İsmayıl isə qəsdən tüfəng almırmış ki, mənim qılıncım Peyğəmbərdən qalıb. İstəyirmiş ki, məğlub olsun,

ölkəni yabançı ordudan xilas eləsin. Ulu Bağ Əsi Mən "Musa" adı altında gizlənirmiş. Comərd (yəni sərkər) rütbəsini isə qəsdən Şah İsmayıla veribmiş ki, guya o – şah da elə gəlmə ordudandı.

Səməd sakitcə:

– Keç indi Omar ağanın adına.

Bəy bir az yüngüllük hiss etdi.

– Omar ağa əhali arasında gəzərgi imiş. Başında çoban papağı, əlində çomaq, enişlərdə atı yedəkləyə-yedəkləyə, yoxuşlarda minə-minə eldən-elə gəzirmiş. "Ay oğlum, EvƏr nədi, mənim adım Xəlifənin adıdı. Vəzifəm də sudyanın köməkçisidi. Çalışıram oğrunuzu-əyrinizi kişi eləyim, getsinlər qaçaqlara qoşulsunlar, ƏsƏlməndən dərs alsınlar, comərddən igidlik. "Omar" deyin mənə. Omar Koxa! Kim EvƏr desə, bax bu çomağın dəmirli tərəfiynən sirtini sındıraram. Qorxurmuşlar Omar Koxadan. Bu belə...

– Sonrasını danış.

– Sən həddən ziyadə incə qatilsən. Necə başa düşdün sözümü, a kişi? Mən axı həqiqi mənada deyirəm ki, "tarixi yaradan"lar özləri deməlidilər mənim şəhərimin adını!.. Yəni "qəbirdən çıxartmalısan o adamları". Ötən gecə mən sənin agentlərini, arvadını qəbirdən necə çıxartdımsa, bunu da bildin, sən də elə çıxartmalısan tarixi yaradanları.

Bəyin ağzı açıq qaldı. "Beynin"də hər şey bərpa olundu: Ay, hurilər, Sərvinaz, şəhvət dərsi, İblis, hər şey.

Səməd şüşəni kənara qoydu: boşalmışdı şüşə.

Musa hardasa asta-asta saz çalırdı, Ağ Məmmə nazik kövrək səslə zümzümə eləyirdi:

Qaranlıq dünyadı bu Yerin adı
Xilaskar Simurgum, harda qalmısan?
Məzlum bəndələrə qılasan çarə...

Səməd bir az da Sakit, qəmli-qəmli:

– Mənim bilmədiyim şeylər də var, a bəy, musiqidən zövq almaq qabiliyyəti necə qalıb səndə? İzah eləyə bilərsən?

Bəy köksünü ötürdü.

– Niyazidən soruş. Ölür sazdan ötrü.

Səməd eyni qüssə ilə:

– Niyazi öləli hər yerdə elə onu xəbər alıram. Mərhum oğlu xəlil gözəl qarmon çalardı, oxuyardı. Niyazi hardadı? Mənə niyə deyilmir? Ölüb deyəsən.

Ağ Məmmə:

– Xəlil köyrək oğlandı. Mənə də deyilmir, – dedi. – Başlayırdı çalmağa, oxumağa. Özü də çox pis sözlər oxuyurdu:

Cənnət olardı Qarayazı,
Olmayaydı Niyazi.

Bunun dalınca Ağ Məmmə oxudu:

Kişiləri söyürdü,
Arvadları döyürdü,
Bağdadda kor Xəlifə,
Burda mənəm deyirdi.

Musanın sazı gəraylının zilinə qalxdı. Ağ Məmmə susdu. Çünki zildən oxuya bilmirdi.

Hər yerə sükut çökdü. Elə sükut ki, Çinar gölündən tək-tək ördək səsləri də eşidilmədi; Musanın, Ağ Məmmənin kədərini elə bil quşlar da duyurdular.

Səmədin gözü bəydə idi. Soruşdu ki:

– Niyə susdun, a Bəy?

Bəy yenə köksünü ötürdü:

– Axşamlar Niyazi sovxozunda, palıdın kölgəsində dayanıb Kamandara qulaq asardım. Hərdən Niyazi duyurdu, çıxırdı evdən, gəlib yanımda dayanırdı. Xəbər alırdım ki, məni niyə evə dəvət eləmirsən, a Niyazi? Deyirdi: “Məndə bir az Bünyadlıq var, səndə də Niyazlıq. Biz bir stolun dalında oturammarıq, a bəy. Mən axı qohumam Muğannalara. Omar ağanın bacısı nəvəsiyəm, bilirsən. Sənin gizlin işlərinə az-çox bələdəm, – deyirdi. – Hərdən fikirləşirəm ki, belə savadlı Bəydə, qocaldıqca nuraniləşən Bünyadda bu Niyazilik hardandı?

Bir dəfə xəbər aldım ki, “sən kommunizmə nifrət eləyirdin, partiyaya niyə girmisən?” Güldü, dedi: “Stalin öləndən sonra başa düşdüm ki, Xruşşov da kommunizmə nifrət eləyirmiş. Dərhal ərizə yazdım girdim Xruşşovun partiyasına”.

Bir ara sükut oldu.

Sonra bəy dilləndi:

– Musiqini hiss eləməyim də yəqin sizdəndi.

Səməd:

– Afərin! – dedi. – Bağışla, bir az danışdıracam səni.

"İncə" Bəy bu dəfə sədalövh göründü:

– Sən hardan bildin mənim Aya aparıldığımı?! Bunu ola bilər görmüsən. Bəs agentlərimlə, arvadımla görüşdüyümü necə bildin?! Mən çox oxumuşam, OdƏr dili – Təfəkkür dili deyilənimiz barədə.

Dünən də hiss elədim orda – Ayda ki, deyəsən, doğrudan oxuyurlar fikrimi. Əmma açığı inana bilmirəm!

Səməd fikirdən ayıldı.

– Sənin, sadəcə, təcrübən – vərdişin yoxdu hələ, Bəy. AdıPünhanımızın "İdeal", "GurÜn" əsərlərini, əlyazmalarını oxumusan. Sən o kişinin evində ötən yay öyrəndiyin Kainat həqiqətlərinə elə qovuşmuşdun ki, o evdən çıxanda hətta qapını bağlamağı da unutmuşdun. Pilləkəndə "Qoca"ya deyirdin: "Harda, kimə nə danışıram, hamısını göydən alıb ötürürlər Müğannaya, yazır". Mən yazmıram, əmma gördüyün kimi, fikirlərini eşidirəm. Sənin özündə də bəzi vərdişlər yaranıb. Dünən "Sahib"in iqamətgahında Qumral deyəndə ki, "Qumral" deyiləm mən, Furakam – EvƏrAğam, sən his eləmədin ki, SafAğ İşıqla hiss olunmadan sifətini dəyişdirdi o!.. Səfəvi adı ilə Təbrizdə doluşanların qabaqlarına çoxlu pələng, şir çıxarılırmış. Müaviyələr o dəqiqə başa düşüblər ki, OdAğÜzdən işıqla göndərilir o heyvanlar – şəkillər. Deyiblər: "Əgər Muğları qırmasaq, hamımızı dəli edəcəklər". Nə qədər oxumusan sən bu barədə o evdə – AdıPünhanın mənzilində?! Bizik səni idarə eləyən, a Bəy, biz bədbəxtlər gör nə qədər işləyirik sən təki belə murdar qatillərlə! Niyə? Bilirsən?.. "Hurilər"in o məclisində biz sənin SafAğa aid biliyini almışdıq beynindən. Əsil mənada "İns"ə, vəhşiyə dərs deyirdik orada, niyə bilmədin?..

"Furak" deyəndə ki, "Simurq quşu əfsanə deyil". Niyə bilmədin SimƏrAğ gəmisində uçacaqsan? Sonra şəhvət ətrafında o adi, aydın oyunları niyə anlamadın? Nəhayət, İblis gələndə niyə bilmədin ki, "İblis" deyil o, EvƏlƏsdi. OdAğÜzdən göndərilən canlı, insan kimi canlı şəkildi, kinodu?!

Bünyad bəy düşünə-düşünə:

– Məəttəl qalmışam... heç baş açammıram, – dedi.
Səməd güldü.
– A kişi, yaddaşını almışdım axı!
Səməd elə bil nədənsə ağrı-əzab çəkə-çəkə bir şüşə də aldı.
– Ötən gecə mən göstərirdim o kinonu sənə. “Sahib”iyin gizlin iqamətgahını, köhnə Tehranı, “Ay” adlandırılan Ağ planetinin içini, agentlərini, arvadını, İblisi! Hamısını mən göstərmişəm, bax, o yolayrıcında.
Bünyad bəy duruxdu:
– Maşında aparılmağım, o soyuq əl o leykoplastr-filanı...
Səməd bəyin sözünü kəsdi:
– Zversovxozdan yolayrıcına piyada gəldin sən. Düzdü?
Bünyad bəy təsdiq etdi:
– Düzdü.
– Pulun yerini dəyişdirəndən sonra “Qoca”nın maşınında hara getməli idiniz?
Bünyad bəy heç nəyi gizlətmədi:
– “Qoca” sərhəddə düşməli idi.
Səməd qəfil soruşdu:
– De görüm, Bəy, sellofandakı pulu niyə almışdın “Qoca”dan?
Bünyad bəy dedi:
– Pulu Niyaziyə verəcəydim ki, Omar ağanın kiçiyi Mustafanı öldürtdürsün. Hirslənmişdi Niyazi, dedi: Mən nə qədər əclaf olsam da Mustafaya əl qaldırmaram.
Səməd yenə dedi:
– Tarixi yaradanları unutdun. Mustafanın ölümü barədə bildiyini saxla hələ. Çox dəhşətli ölümdü. Açığı, Pünhan dözmür bu dərdə.
Belə işləri, adətən, sən özün eləyirdin. Bu dəfə niyə Qumrala tapşırılmışdı?
– Yəqin ki, sən elə bunu da bilirsən. Məni qəsdən sıxma-boğmaya salırsan... Bakıda Dövlət Təhlükəsizliyi Nazirliyinə məlumdu ki, İranda nə qədər antitürk işlər görülürsə, hamısı bizim Sentrin tapşırığıdı. Hətta İraqda atom hazırlanması da İrandan göndərilir, Amerika birbaşa İran-Sovet istehsal qurğularını bombalamaqdan çəkinir, perspektivli kəşfiyyatlar aparır İranda, buna görə də bizim Sentr mən təki çoxsahəli işlər aparan kəşfiyyatçıları qabağa vermir mənim “Yeddi gözəl”imdən, o cümlədən, Qumraldan istifadə eləyir.

Səməd əlini alnına qaldırıb, iri, uzun barmaqlarla gicgahlarını, gözlərini sıxdı.

İndi mən sənə çox əzablı hadisələri xatırlatmalıyam, yəni sənə pis təzyiq eləməliyəm. Odur ki, görürsənmi OdAğÜzdən mənim özümün damarlarını sıxırlar.

Bünyad bəy fikrə getdi.

– Başa düşmürəm, mən təki heyvana əzab verməkdən ötrü sənə niyə işgəncə verirlər?!

Səməd ağrı içində:

– Onu sonra biləcəksən... İndi Musaya bax, – dedi.

Qəribə idi ki, Musa, əlində bir şiş kabab və bir şüşə çaxır gətirdi, bəyin üzünə tamamilə kinsiz adam kimi baxıb:

– Acsan. Al, ye, iç, – dedi. – Arada da de görüm, o bıçaqlama əhvalatı necə oldu və mən onda neylədim sənə?

Bəy doğrudan da ac idi. Şişdən bir qoşa qabırğa çıxarıb, iri balta dişlərinə çəkə-çəkə soruşdu ki:

– Səndəmi təzyiq göstərəcəksən mənə?

Musa astadan:

– Əlbəttə. – dedi. – Sərvinin, hurilərin dərsi davam eləyir. Danış o zorlama əhvalatını!

Bünyad bəy ümidsiz bir ümidlə:

– Səmədin verdiyi sualları qalıb axı! – dedi. Çaxır şüşəsinin dalını yerə vurub, qapağı açdı.

Musa dedi:

– Biz SafAğların qanına qan qarışanda uşaq hökmən urod doğulur. Sən mənim atamsan, Bəy!

– Nə?! – Bəyin dodaqları titrədi.

Musa köksünü ötürdü.

– Sən köpəyoğlu anam Güləsəri ot tayasının içinə basıb zorlamısan, anam da Orduqozdu, qozbel karlik doğub... Öldürmərəm, qorxma. Biz insanı ancaq cəhənnəm oduna salırıq... Titrətmə, qunduz köpəyoğlu. Qulaq as!

Qırx səkkizinci il hadisələrini bu günün hadisələri kimi canlı görməmisən! Unutma ki, mən o gülməli karlik Orduqozdu Musa deyiləm. İndi bu Yer planetində bu "Musa" – BağSar AğEy adı daşıyan SafAğ alimi qədər ikinci məlumatlı adam tapılmaz, Bəy!.. Mən də Muğannalardanam axı.

Bünyad bəy hərdən qurtum-qurtum çaxır içə-içə danışmağa başladı.

Danışdıqlarını bütün incəliklərinə qədər görürdü.

Görürdü ki, o ili aprelin əvvəlində Türmən yataqlarında qar əridikcə, sel-su yovşanlıqları, xırda-xırda dərə-təpəli boz otluqları götürdükcə eyni zamanda lopa-lopa bol qar yağırdı. "Yeddi gözəl"lərdən ən çox "ipə-sapa yatmayan" nəhəng Klara gecə ikən "it sovxozu"ndan – Zversovxozdan qaçıb, Qarayazı meşəsinin qurtaracağında, dul, qoca anası ilə qara damda – töylədə olan, onuncu sinif şagirdi Sərvinaza xəbər vermişdi ki, bu gecə sənin ərin Zversovxozda itləri yemləyən kişi gəlib damınızın bacasından içəri düşərək, səni məcbur eləyəcək ki, NKVD-yə xidmət göstərəsən, Muğannalardan Mustafanı zəhərləyəsən, qaç burdan, uzaq bir yerdə gizlən. O, Zversovxoz iti əvvəlcə məni məcbur eləyəcək ki, səni eşiyə çağırım. Orda gədə-güdə agentlər səni zorlasınlar, işgəncə versinlər. Gəldim sənə deyim bunu, çıxıb İtin gədələrini döyəcəm, özünün əl-ayağını tutacam, sən bacadan çıx qaç.

– Dayan, cənab qatil! – Musanın rəngi ağarmışdı. – Nəyi, necə görməmisən, onu mən danışım indi. Sən gör öz əməlini! Sərvi qaçıb Türmənə gəlmişdi. Quzuların küzündə döşək saldım ki, heyvanın hənirində qurusun paltarı. Gecənin bir vaxtı yaman səsizlik oldu. Qalxdım, gördüm dörd itimizin dördü də ölüdü. Zəhərləmişdin sən itləri. Sərvini sürüyüb aparmışdın. Lopa yandırdım, qurşağa qədər qarın içində izinizə düşdüm, getdim gördüm qızı qara basdırmısan, özün də qarı yara-yara qaçıb getmisən. Eşdim qarı, qızı çıxartdım, qolları, qıçları kəmərlə, iplə bağlanmışdı özü də qan içində çıl-çılpaq donmuşdu. Qaldırdım apardım kahaya, ocağı bərk çatdım. Niyə? Çünki sən – qatil qızı qara basdıranda yaddan çıxartmışdın ki, bu heyvanlığı göydən görən var!.. O vaxt heç kəsin xəbəri yoxdu ki, Muğanlıdan o yandakı Sadıxlı kəndindən "Dəli Əhməd", – "Molla Əhməd" adında bir ağsaqqal kişi gəlirdi Türmənə, gecələr kahalarda çobanlara "Səfa" – SafAğ dərsi deyirdi, ərəb əlifbasıyla dəftərə yazdırırdı, gedirdi. Hələ o vaxt o bədbəxt, şikəst Orduqozdu EySarı görürdü, ay heyvan! EySarın Ününü eşidirdim, ey kar, kor "İNS" qatil! O gecə məhz EySar mənə dedi: "Qız dirildi. Qaynar süd içində bədənini qoyun mizi ilə ovuşdur; qarın altından yovşan yığ, suda qaynat, o su ilə çimdir qızı. Bax bu idbar

Orduqozdu o mələyi soyundurdu, öz bacısı kimi dizlərinin üstündə uzadıb bədənini ovuşdurdu, çimdirdi, qaynar süd içirdi. Səhər tezdən Sərvinin anasıyla arabaya mindirdik, Klaranın bələdçiliyi ilə getdik, tapdıq sən heyvanı. Çomağı çəkdim, dedim: "Sən bunu zorlayıb guya arvad eləmişdin özünə, murdar ətə döndərmişdin sən bu gözəli! Öl! Qaçdın! Qaçdın bu uzun qıçlarnan qurtardın. Qorxdun çomağın dəmirli yeriynən başını paralayaram. Sərvinin ölümündən sonra OdAğÜzə gedəndə bildim ki, Sərviynən hətta kəbin kəsdiribmişsən ki, bilən olsa, özünü təmizə çıxardasan. Halal arvadanı döyə-döyə zorlayırmışsan həmişə. Görürsənmi o işləklərini?!

Bəyi soyuq tər basmışdı. Titrəyə-titrəyə deyirdi:

– Görürəm!.. Necə... aydın görürəm! Möcüzənə bir yerdə öləsən səni, Musa!

– Həə... budu bax Odda – həqiqətdə yanmaq! Budu bax Cəhənnəm! İnsanın ölümündən sonra ƏrAğı ("Ruh"u) uçub fəzada həmin insana çevriləndə Ağ planetində olur bu işgəncə – Odda yanması! Sən niyə Yerdə yanırsan, bunu sonra biləcəksən. Yan, it oğlu it!

Səmədin səsi gəldi:

– Bəsdi, ay Musa, qoy mənim suallarıma cavab verməyə taqəti qalsın. – De görüm, a Bəy... Mənim şəhərimi kim dağıdıb?

Bəy dedi:

– Aleksandr dağıdıb.

Səməd dedi:

– Bəsit demə!

Bəy təfsilatı xatırladı:

– Əsas dağıntını Birinci Aleksandr eləyib, 1797-ci ildə.

Səmədin üzündə narazılıq göründü.

– Birinci Aleksandr hara, ƏrOdBil hara, Bəy? Təkrar eləyirəm: bəsit demə, ay "Yevrey" qəbiristanı!

Bünyad bəyin də üzündə narazılıq gəzdi.

Səməd dedi:

– Bir də de!

Bəy qəzəbdən ağappaq ağardı.

– Nəyi əşi?!

– Bir də de: ƏrOdBili kim dağıdıb?!

– Demədimmi?!

– De görüm, niyə təkrar dedirdirəm, a Bəy?

– Aydın məsələdi: mənə işgəncə verirsən.

– Niyə?! Bax bu suala heç cür cavab verəmməzsən, Bəy. Özüm deyirəm: çalışmısan Muğannaların qəlbinə girəsən. Nədi bu, a Bəy? Ən dəhşətli “ins” hiyləsi deyilmi?! Məhz bu hiylə ilə neçə Muğanna öldürmüsən, onu da danışacaqsan. Kimi, harda, necə öldürmüsən? Hamısını danışacaqsan, əməllərini göz önündə görə-görə! İndi, de görüm, “Şəhri-Yarı” kim dağıdıb?

– A kişi, demədimmi?! “Özünü Rus qələmə verən fransız yevreyi Birinci Aleksandr Romanov dağıdıb! Razı qaldın?

Səməd hirsli idi.

– Mən niyə bu qədər “Yevrey”, “Yevrey” deyirəm, ay Yevrey qəbirstanı?! Bünyad bəy dedi:

– Muğanna fəlakətinin tarixini yaradanlar tək Yevreylərdi?! Faciənin tarixi daha qədim deyilmi?!

– Danış!

Bünyad bəy tir-tir əsdi.

– Axı çox qədimdi! Çox!

Səməd eyni inadla:

– Danış – dedi.

Bəy az qalırdı ağlasın:

– Lap cana doydurdun məni! “Şəhri-Yar”da “Mağ” adı altında gizlənən Bağların hamısı hər axşam “Musa” adı altında gizlənən Ulu BağƏsƏlMən BağSarın su quyusunun dövrəsinə yığılırmışlar.

Səməd birdən güldü:

– Yaxşı... O gizli köçü danış.

– Niyə?

– Demədimmi niyə?!

Bünyad bəy bar-bar bağırmağa başladı:

– İyirmi üçüncü ilin yazında Məmməd ağa Bakıdan gələndə mən də gəldim. Zaloğlu stansiyasında o düşəndə mən də düşdüm.

– Dayan! – Səməd bu dəfə daha gözlənilməz sual verdi: – Məmmədağanı nə vaxt öldürdün?

Bünyad bəy çaşqınlaşdı.

– Sən məndən o gizlin köçü soruşursan, yoxsa cinayətlərimin tarixini?!

Səməd güldü:

– İkisi də eyni tarix deyilmi, ay tarix yaradan?! Ulu Bağın faciəsini danış indi.

Bünyad bəyi titrətmə tutmuşdu.

– Ədalətsizsən!.. Ulu Bağ ƏsƏlMən SağSan BağSar bir dəfə Antitürk müharibəsinin əvvəlində qaçıb Bəlxə, orda da öldürülüb. Bir dəfə də bayq dedim. Yezidilər Şah İsmayılın ətrafında "Səfəvi" adı ilə Ərdəbildə SafAğ Şeyxlərini qıranda sürülüb, Mərvdə ikinci dəfə öldürülüb. Sən bu cinayətləri də mənim ayağıma yazırsan?!

Səməd dedi:

– Muğannalar sənin cəmisi üç kilometrliyində olurlar – Muğanlıda. Gedirsən, salam verirsən, süfrələrində oturursan. Neçəsini zəhərləmisən, ay "qızıl ilan"? "Qızıl ilan"! Belə bir kliçkası var bir nəfərin. Küllüyü danış.

Bəy əlacsız:

– Yaxşı, danışım, – dedi. – Direktivləri Stalindən, Beriyadan, Bağırovdan alırdım. Sentrdən... Romanovların qəbiri məndən əvvəlkilərin beyinlərində torpağa gedib! Necə danışım onlarınkını?!

Səməd dodaqaltı nə isə pis söyüş söyüb, o dəqiqə alnını tutdu.

– "Dəhşətli dərəcədə təcrübəli çekist"ə etiraz eləmə. Altıncı ildə Petroqraddan kimin direktivi ilə gəlmişdin Bakıya?! Nikolayı çıxart beynindən!

Bünyad bəy astadan inildədi.

– Yaxşı, Nikolay İkinci də girdi bu beyinə! O birisi Nikolay da, Aleksandrlar da.

Səməd dedi:

– Fikrində sən "Nikolay əvvəl", "Nikolay Dəvvum", "Aleksandr Əvvəl", "Aleksandr Dəvvum" deyirsən. Çünki son vaxtlar çox tez-tez gedirsən o qara çadra ölkəsinə, atom bazarlarında yalnız farsca danışırsan ki, müsahibləriyin russkoyazıçnoye yevreylikləri bilinməsin. Bir şey anladınmı mənim bu qeydimdən? Anlamazsan. Özünü zora salma, Bəy. Mən demək istəyirəm ki, hətta Muğanlıda həftələrlə Muğannaların arasında olub kamilləşmək eşqilə SafAğ təfərrüatları öyrənəndə də sən ruhən "Fars Yevrey"i qalırsan. Yəni EvƏrEy ola bilmirsən. Ən qədim Bağdayda EvƏr OdƏrləri ilə EvƏrƏs ("Pars", "Fars") OdƏrləri nə qədər vəhdətdə idilərsə, indiki "Fars" OdƏrləri ilə Fars Yevreyləri iki o qədər vəhdətdədilər, EvƏrEy OdƏrlərinə isə düşməndilər. Sənin beynin xalis

Fars beynidi. Fransız yevreyləri olduqları halda özlərini Rus qələmə verən Romanovların Muğlar barədə direktivləri Fars Yevrey agentlərinin əli ilə icra olunub.

Anladınmı, ay Yevrey?!

Bünyad bəy bir an zorla rişxəndli oldu:

– Demək, Birinci Aleksandrdan başlamış, hamının qəbiri bu beyindədi.

Olsun.

Səməd dedi:

– Çıxart o qəbiristandakı Yevreylərini, bəşərimin əsil adını desinlər!

Bünyad bəy hələ ruhani məktəbində ikən bilirdi ki, Ulu Bağ ƏsƏlMən BağSar SağSanın ən məşhur Elm Mərkəzlərindən biri ƏrOdBildir. "Səfəvilər" adı altına dolan Yezid "ayrıları" – "Şiə"ləri Ərdəbili dağıdıb, Ulu Bağ ƏsƏlMənin o vaxtkı iki yüz illik müharibə dövründə, yəni 687-ci ildə rütbəsi çox böyük idi. SarOdƏs idi. Farslar "Zərdüşt", hərdən SarOdƏc deyirdilər. Bilirdilər ki, Ulu Bağ Yerdə salamat qalsa, millətləri vahid kökə – OdƏrliyə qaytaracaq, müharibə baş tutmayacaq. Elə ona görə də əvvəlcə Mərvə – Ərəb içinə sürgün elədilər, ordakı elmdən uzaq, nadan bir Türkanı ("Tərik"i – "Türk"ü) yoldan çıxartdılar ki, bu adam "Zərdüşt"dü, o da qılıncını vurdu Ulu Bağın başını paraladı. Ulu Bağ sağalıb Yerə qayıdanda Farslar hələ bilmirdilər bunu. Bağınız ƏrOdBili tikdirdi, mərkəz elədi oranı yenə özünə.

Sonralar Birinci Şah Abbas İsmayılın əzablarını göstərən "Xətai" təxəllüsünü "Xitai" yazdırmağa, hadisələri malalamağa çalışıb. Əmma Bağlardan, əlbəttə, heç nəyi gizlətmək mümkün deyil. OdAğÜzdən EySar özü danışır indi bunları Pünhan Muğannasına. Bakıda o yazıq Pünhana əzab-işgəncə verənlər var, onlar o bədbəxti vadar eləyirlər yazdığını öz əlilə pozub, imkan olduqca yeni variant çap elətdirsin. Bu sahədə mən bir növ köməkçiyəm ona. Dəli Əhmədə, Mustafaya dönə-dönə danışmışam İsmayılın faciəsini.

UluBağ bir də yeddinci əsrin əxırında daha ƏrOdBilə yox, Muğanda tikdirdiyi gizlin Elm Mərkəzi Şərhi-Yara qayıdıb.

Bəy bu təfərrüata varmadan, qısaca dedi ki:

– "Şəhri-Yar "ın əsl adı ƏrOdBildi. "Səfəvi" şiələrinin əlilə ikincisi dağılandan sonra bu taydakı ƏrOdBil unudulub, o taydakı təhrif "Ərdəbil" qalıb.

Səməd dərhal soruşdu ki:
– ƏrOdBili Farslar qəsdən “Ərdəbil”ə çeviriblər, ya yox? Niyə keçirsən bunun üstündən?
Bəy dedi:
– Dəhşətli dərəcədə təcrübəli çekist dərhal soruşa bilərdi ki, bəs ƏdOrBildən əvvəlki gizlin şəhərlərimizin əsl adları necə olub? Bağ nəslinin ƏrOdBildən əvvəlki gizlin Elm Mərkəzlərinin hərəsinin bir kitab tarixi var. Qorxdum də! Necə gizlətməyim?!
Səməd soruşdu ki:
– Bəs ƏrOdBili kimlərin dağıtdığını niyə demədin?
Bünyad bəy dedi:
– Mən bunu Muğannalara min dəfə demişəm. Onlar çox yaxşı bilirlər ki, Yezidlər, Səfa – “Səfəvi” şeyxlərini büsbütün qılıncdan keçiriblər, ƏrOdBilin də daşını daş üstə qoymayıblar. Adını da qoyublar ki, OdƏrlikdən uzaqlaşan Tatərlər dağıdıblar. Şah İsmayıldan sonra sağ qalanlar hər şeyi bildiklərinə görə şahın Göyçədəki dostlarına xəbərlər göndərirmişlər. Bu tarixdi! Birinci Şah Abbasın arxivindən öyrənmişəm mən.
Şah İsmayıl Xətainin “Divan”ı başdan-başa SafAğ elmidi. Bu olub Yezidilərin sui-qəsdinin səbəbi.
Musa çinarın altına qayıtdı.
Səməd uzaqdan-uzağa:
– Danış, Bəy, – dedi. – Muğanlı küllüyünün tarixini danış!
Bəy hələ də titrəyirdi.
– Bir sualım var... bir sualım...
Səməd dedi:
– De.
Bünyad bəy dedi:
– Pünhanınız Muğanna tez-tez görükür mənə, özü yox, şəkli. Sual verir, cavab alır. O elə rəhmli, siz belə sadist! Səbəbi nədi?!
Səməd güldü:
– Sadist bax o Musa idi, çağırdılar getdi. Çünki təzyiq göstərirdi mənə. Mən axı qat-qat mülayiməm, Bəy.
Bu dəfə Bünyad da qımışantəhər oldu.
– Hm, iki yüz addımlıqdan bu yüz on üç yaşlı adamı belə qışqırda-qışqırda titrədən adam mülayimdi?
Səməd dedi:

– Mənim o el qızıma o cür işgəncə vermisən, toxunmuram sənə. Mülayim deyiləm, bəs nəyəm?

Bəy dedi:

– Bir sözüm də var.

Səməd dedi:

– De.

Bəy dedi:

– Əgər "Qumral" deyilsə, doğrudan da Sərvinazdısa, əlli iki il müddətində Sərvinaz necə xidmət göstərir mənə?! O, necə deyərlər, o dünyada, mən – Yerdə!

Səməd qəhəqəhə çəkdi.

– Xidmət göstərir?!

Bünyad bəy dedi:

– Zorlamıram axı! Gəlir oturur yanımda, söhbət eləyirik. Özü soyunur, qolunu dolayır boynuma. Baxıram Qumraldı!.. Arada keçirdirəm Arazın o tayına, işini görür, qayıdır Qumral! Sən yenə deyirsən yox, Sərvinazdı.

– Pünhan hər şeyi birbaşa deyir. Soruş ondan, izah eləsin.

Bünyad bəy heç nə anlamadı:

– Niyə Pünhandan?

Səməd yenə qəhqəhə çəkdi:

– Sərvinaz deyil o, ay yazıq, ay bədbəxt. Sənin ən bədbəxt agentlərin "Bakirələr" indi. Kim gəlsə Sərvinaza oxşadır özünü. Gülür, deyir: "Doymadınmı məndən, Bəy?.. Zorlayırsan axı yenə". Sən yalan danışma! Bu heç. Yuxarıdan təzyiq vardı, bir az zarafat elədim ki, bəlkə ağrım getsin. Küllüyün tarixini danış qurtar. Yoxsa, lapatka gətirəcəksən!

Bünyad bəy başını buladı:

– Bayaq dedin: "Tarixi yaradanlar deməlidir mənim şəhərimin əsl adını". Mən də dedim: "Romanovları, Stalini, Beriyanı, Mir Cəfər Bağırovu, Xomeynini necə çıxardım qəbirdən?!" Etiraf eləyirəm, bu yaman maraqlandırır məni.

Səməd ciddiləşdi:

– Marağın məlumatsızlıqdandı, Bəy. Tarixi yaradanların qəbirləri sənin beynindədi, Bəy. Sən onlarsan. Danış.

Bünyad bəy əlacsız çaxır içdi.

– Bayaq oraya – yanına çağırırdın məni, olarmı gəlim orda danışım?

Səməd dedi:

– Yuxarıdan izn vermədilər. Deyirlər yoluxucu xəstəlik var səndə. İtlərdən yoluxmusan. Həqiqətən Ağa getmiş olsaydın, sağalardın. Hələ murdarsan, cənab Bəy. Danış!

Bəy istər-istəməz səmaya baxdı.

– Pis qurulub bu dünya!.. Onlar bizim başımızda saçın sayını bilirlər. Hətta biz onları görmürük!.. Necə yaşayırlar, bilərdik, ibrət götürərdik.

Səməd bu qədər təfsilatla kifayətləndi.

Bəyi qəsdən dolaşdırırdı.

– Küllüklərin tarixini bütöv danışmalısan!

Bəy köksünü ötürdü.

– Yaxşı!.. O vaxt Birinci Aleksandrın dövründə Muğanna icmaları gizlin-gizlin, yavaş-yavaş Ulu Bağın ətrafına yığışırmışlar. Aleksandr xəbər tutub. Başda Hüseyn ağa bir icmanı Qazax uyezdinə sürüb. Hüseyn ağa kənd saldırıb, "Rus" EvƏrEy – "Yevreylər" İnin gizlinləri Aleksandrın hökmü ilə "Sarskoye Selo" – "Padşahlıq" qoyublar o kəndin adını. Çünki Romanın əksinə, Ulu Bağ ƏsƏlMənin əbədi "Solomon" olduğuna inanırmışlar. Bu əslində Ulu Bağın xeyrinə olub. Peterburq nəzarətçilərindən yayınmaqdan ötrü o tez-tez sifətini dəyişdirib "Musa ağa" adı ilə yaşayırmış. İşin üstü açılanda, icmalarda, qayalıqlarda məskən salan, rus dəstələrilə döyüşməyə məcbur olan Muğannaların arasında o qədim "Comərd" rütbəsi ilə yaşayırmış, Ağbizənə, ya da Ağbizəndən o yandakı Qızıl AğÜn kəndinə, SafAğ alimlərinə Ün məlumatı çatdırmağa gedəndə orda "Süleyman" adı ilə yaşayırmış. O yerlərdə Ulu Bağın qaldığı evlərin hamısında baca var, bacanın altında, iri-iri ocaq daşları arasında küllüklər, deyirlər, indi də elə bu quyunun Üstündəki küllük kimicə ağara-ağara durur. Deyirlər, o tərəflərə köçürülən Ermənilər arasında elə etiqadlı kəndçilər var ki, uşaqları xəstələnəndə həmin küllüyün ətrafında yatırdırlar, o ocaq daşlarının arasında "Muğ" lardan öyrəndikləri müalicəvi xörəkləri bişirirlər: "Tər halvası", "Bəzirgan hörrəsi"-filan!..

Səmədin dodaqlarında müəmmalı təbəssüm vardı.

– Ətraflı danışmırsan, Bəy! Ətraflı! Ətraflı!

– Off! Bu nə işdi düşdüm mən?! Yaxşı, olsun... Sən bilirsən ki, Qazax-Tiflis şossesinin qırağında qazılmış quyuların dövrəsində də küllüklər var. İyirmi üçüncü ildə Nəriman Nərimanov Moskvaya aparılanda, Zeynalabdin Tağıyev Muğannalardan kompanionu Məmməd xozeyini kabinetinə çağırıb, qapını açarla bağlayıb deyib: "Nərimanov vəzifəyə yox, ölümə getdi. Əgər Omar ağa həbsə alınsa, çox çətinliklər əmələ gələr, qırılarlar Muğannalar.

Nərimanın, sənin Muğannalara mənsub olduğunuz açıla bilər. Nərimanın Leninlə gizlin danışıqları Ulyanovların EvƏrEy OdƏrliyi, Tərikliyi də açıla bailər. Ulu Bağın cəmi Yer üzündə vahid Ədalət Səltənətinə dair yazdıqları axtarılar. Hətta, hətta bəlkə hamını qırarlar. Belə bir təhlükə gözləyir Bağ Nəslimizi, Məmməd ağa. Bütün işlərini at. Mədənindən, milyonlarından əl çək. Rus dili müəllimi vəzifəsi hazırlamışam sənə. Adi müəllim kimi təcili get, ayqaranlıq gecədə, Padşahlıqdakı – Omarağalıdakı Muğannaları köçür Kürün o tayına, Qarayazı meşəsinin yoldan-izdən uzaq, ağılagəlməz yerinə. Qohumları Şıxlıya qatışdır".

Səməd dedi:

– Düz danışmırsan.

Bünyad bəy təəccübləndi:

– Niyə?!

Səməd dedi:

– O köçhaköçün, fəlakətin tarixini yaradan adamlardan Bünyad bəyin adını çəkmirsən!

Bəy dedi:

– Tarixi yaradan Aleksandr Romanovdu. Sonra Birinci Nikolay davam etdirib, sonra İkinci Aleksandr, sonra İkinci Nikolay davam etdirib! Sonra Stalin! Sonra Beriya! Mir Cəfər Bağırov! Sonra Xomeynı[1] davam etdirib! İndi də gizlin antitürk Sentr davam etdirir.

---

1. Xomeyninin fitvası – hökmü əsasında iyirmi nəfər "Bəhayi" – BağEy – Uca Bağ dara çəkilib. (Əlavə qeyd: "Bəhayilər deyirdilər" Biz də Lailahəillallah deyirik; yaşadığınız aləmin Allahı İsayi Məsihdir". (Məryəmin guya işıqdan hamilə olması barədə "Quran"a məhz Farslar əlavə ediblər, "Məsih sözü buradandır. Əslində – batində "Bəhayilər" də həqiqətlərlə işləyir – EySarı Aləmimizin "Allah"ı kimi tanıyır və Bağ Atanın oğullarını sərfnəzər etmir, öz adları ilə OdƏrcə adlandırırlar: Bağ Ata, Ulu bağ ƏsƏlMən, EySar ÜnEy – ("Nuh"), EvƏrim ( İbrahim) və ƏlAğ ("Allah"), EySar (Uca hökmdar), İsa ("İsus")

Qorbaçov hələ də heç cür inanmır ki, Muğannalardan adı qalan olar. Bağlara yox, indi o həqiqətən cəmi Yer üzündə vahid Səltənətə qulluq eləyir. Söz qüdrətilə yox, Amerikanın gücü ilə! Rusiya səlamət qalmıyacaq.Vahid dövlət dağılacaq. Bu da olsun Sizin tarixinizə, tarixə əlavə! Mən bədbəxt adi icraçıyam. Niyə mən olmalıyam axı "o fəlakətli tarixi yaradan"?!

Səməd bir az durub:

– İndi baxarıq, – dedi. – Stalinin sözüdü: "Şəxsiyyət tarixi yox, tarix özü şəxsiyyət yaradır". Niyə tərsinə deyib?

Bünyad bəy çətinlik çəkmədən:

– Aydın deyilmi, – dedi, – Aleksandr Romanov Azərbaycanın Şimalını fəth etməsəydi, gizlin Bağdayın gizlin Bağlarını sürgün eləyib "Şəhri-Yar"ı dağıtmasaydı, yaranardımı bu fəlakətli tarix?!

Səmədin sualına bir sual da calandı:

– "Şəhri-Yar" ın əsl adı nədi, Bəy?

Bünyad bəy gözlənilməz, qəribə, ani çılğın hərəkətilə əlini başına çırpdı.

– Bu nə bəladı düşdüm, ya rəbbi?! Sən ki, bilirsən öz Şəhərinizin adını, niyə məndən soruşursan, ay sadist?! "Yumşalmışam", "Budurmu yumşaqlığın?! Şüşəni söykəyir dodağına "qurt", "qürt" Sual! Özü də necə? "Şəhri-Yar "ın əsl adı nədi?!" Ay kişi, ay göy adamı, sənin yəni bilmədiyin bir şey varmı bu dünyada? Niyə məndən soruşursan axı?!

Səməd şüşəni bu dəfə dodaqlarında qəsdən çox saxlayıb:

– Tarixi yaradanlar özləri deməlidilər mənim Şəhərimin əsl adını, – dedi.

– Nə?! Hamısını deməlidi?! Mən bədbəxt neyləyim indi?! Romanovları, Stalini, Beriyanı, Mir Cəfər Bağırovu, Xomeynini necə çıxardım qəbirdən? "Sahib"lərimin sümükləri də qalmayıb gorxanada! Bura bax, bəlkə sərxoş oldun, nədi?

Səməd bu dəfə lap heyrətli sual verdi:

– Bəy, sən özünü Yezidi saymırsan?!

– Nə?! – Bünyad bəy lap çaşdı. – A kişi, Yezid nə vaxt alıb hakimiyyəti?! Keçib gedib o tarix!

Səməd dedi:

– Zaman, dövr, dövran nisbi məfhumlardı, Bəy!

– Necə, necə?! Zaman – nisbi?!

Səməd daha qəribə sual verdi:
– De görüm, Müaviyə kimdi milliyətcə?
Bəy qışqırdı:
– Necə kimdi?! Ərəbdi də!
Səməd elə gülürdü:
– Özünü əbləh yerinə qoyma, Bəy, “Ərəb” – Ərəbdi, ya yox?
– Bəli, ƏrEv olub!
– EvƏrƏs – “Pers”, “Pars”, “Fars”, ƏrEv – “Ərəb”, EvƏrEy – “Yevrey” və ya EyOd – “Yəhud”, ƏrÜz – “Rus”, AğÜz – “OğÜz”, – hamısı vahid ölkə Midiya – Bağdad tərkibində, müxtəlif vilayətlərdə vahid xalq deyilmi?!
– Olub, sonra dağılıb!
– Mən özümü EvƏrEy, ƏrÜz, AğÜz, ƏrEv, OdƏrlərinə mənsub bir ÜnƏs sayıram, sən isə özünü keçmiş Bağdaya dəxli olmayan “Yevrey” sayırsansa və təhrif babalarının “irs” inə tam uyğun işlər görürsənsə, aydın deyilmi ki, Ulu Bağ ƏsƏlMən BağSar SağSana qılınc çəkənlərin icra etdikləri hökmü verən müaviyələrin hökmlərinin qəbiri də sənin beynindədi?!
Bünyad bəy qəribə üsyankar hayqırtı ilə:
– Vaveyla! – dedi. – Mənə həm “Fars Yevreyi” deyirsən, həm də Müaviyələrə bağlayıb “Ərəb Yevrey”i eləyirsən! Niyə?
Səməd dedi:
– İranda və Zversovxozda işləyən rus kəşfiyyatçıları içində ən müdrik adam sayılırsan, yüz on üç yaşında da yaxandan əl çəkmirlər ki, azdan-çoxdan yenə iş görəsən. Bu cür həqiqətən müdrik “ins”in yadından çıxmamalıdı ki, “Ərəb”in özünü “Yəhudi” yə əmioğlu çıxması boş-boşuna deyil. “Ərəb” dili “Fars” dili arasında indiki halında qırx-əlli faiz fərq var. EvƏrEy – OdƏrlərinin İsrayıl səmtlərindəki indiki “İVR” dili, EyƏr OdƏrlərinin “ƏrimEy” dili (keçmiş EvƏrEy OdƏr dili), “Ərəb”, “Fars” dillərindən çoxmu fərqlənir, ey müdrik?! Məni məcbur eləyirsən yenə xatırladım ki, Bağdayın müxtəlif səmtlərində müxtəlif təhriflərə məruz qalanlarımız, bayaq da dedim bunu, vəhdətdə olmadıqlarına görə, tədriclə ayrıldıqlarına görə, sən Bünyad bəy vahid OdƏr xalqına mənsubluğunu qəşəngcə bilsən də, iş sahəndə hakim olan psixoloji etnik təfəkkürə qapılmısan. Odur ki, özünü “Fars Yevrey”i sayıb, həm də “Ərəb Yevrey”i olduğunu,

Müaviyələrin hökmü ilə icra edilən cinayətlər zəminində cinayətlər tarixini rədd eləyirsən! Halbuki sənin cinayətlərin o keçmiş cinayətlərlə qırılmaz zəncirlə bağlıdı, Bəy!

Bünyad bəy nəfəsinin çatmazlığı hiss edib çaxır içdi.

– Sənin məntiqinə etiraz eləmək əbləhlikdi, – dedi. – Əmma sünidi məntiqin, əlbəttə! Sofistikadı!

– Nə?! Nə?! – Səməd elə bil əməlli-başlı yanıb yaxıldı. – A kişi!.. Diqqətlə dinlə! OdAğÜzdən mənə təsir edən əcdadımın neçə min yaşı var?! Mən niyə belə bağlıyam o Bağa?! Sənin əcdadların OdAğÜzə getməyiblər, qəbirlərdə çürüyüblər. Sən niyə belə bağlısan o çürüntülərə?! İndi də bir cavab ver: zaman nisbidi, ya yox?! Bu küllüyün qədim tarixi sənin cinayətləriyin qədimliyi deyilsə, bəs nədi, ey əsrlərin cinayət tarixi Bünyad bəy! Danış!

Çaşdırdın yenə məni. Nədən, kimdən başlayım?

Səməd acı-acı güldü:

– Yerin yaddaşı yoxdu. Mən nə soruşdum Məmməd ağa – Xozeyin Məmməd barədə?

– Hə, bildim... – Bəyin səsi rəvanlaşdı. – Yaxşı... İmkan versən, indi xeyli şey deyərəm.

Otuz doqquzuncu ilin yayında Böyükkəsik stansiyası ilə razyezdin arasında paravozun qabağına itələdim Məmməd ağanı. Stansiyadan Muğanlıya gedən adamlara dedim üzü küləyə getdiyinə görə paravozun səsini eşitmirdi Məmməd xozeyin. İnandılar.

Mir Cəfər Bağırov Mirqəzəbin vaqonu Ağstafada idi o günü. Haman paravoza mindim getdim Ağstafada düşdüm, keçdim vaqona. Dedim: “On myortv”. Mirqəzəb dedi: “Za to, çto tı pakonçil s poslednim millionerom, za eto ya daryu tebe million zolotom. No, za to, çto tı ostavil lişayu tebya qeneralskoqo zvaniya”. “Snimok” “porol” indiki Pünhanımızın otuz dördüncü ildə Göy qılınc yaylağında çəkilmiş şəkli idi. Şəkilin biri Pünhanımızın atası Mustafada, biri Sultan Əmirlidə, biri sənin atan Mədəd Əmirlidə, ikisi də Təbrizdəki Əmirli Muğannalarda Ağ Əmirlə Boz Əmirdə idi. Təbrizdəki Əmirli – Muğannaları heç kəs tanımırdı bu tayda Stalin Mirqəzəbə yazmışdı ki, iki ildən sonra müharibə genişlənəndə Təbrizdəki Bağlar Xalxalını[1] sürgündən qurtarıb həmin parolla bu taya keçirəcəklər,

---

[1] Pişəvəri

Əlincə qalasının yanında, "Şeyx Xorasan" türbəsində görüş olacaq, Cənubi Azərbaycanda Milli hökumətin təşkili üçün iş planı tutulacaq. "Snimok – parol" lazım idi ki, Stalinin direktivası əsasında sovet agenti keçə bilsin o görüş yerinə.

Mirqəzəb qızıl kisəsini çıxartdı, göstərdi, dedi: "Ruka Lavrentiya[1] kosnulas etoqo meşka. Ne dostaneş parol, ruka Lavrentiya kosnetsya tebya. Beri maşinu sekretarya raykoma Akopova[2], poyezjay".

Getdim.

Elektrik yox idi o vaxt Muğanlıda. Qaranlıqda Məmməd xozeyinin evinin qabağında camaata qarışdım. Dedim: "Rəhmətliyin dəfnində iştirak eləyəmmədim. Olarmı sovxasının üstündə Quran oxuyum?"

Apardılar, paltarı tökdülər qabağımda. Gördüm pencəyin, köynəyin cibləri boşdu. Dedim: "Kişinin paltarının ciblərindən nə çıxıb, yaylığına qədər hamısını gətirib qoyun, qırx bağlayacam".

Muğannalardan "snimok – parol" un sirrini bilənlərin hamısı Göycə mahalında, Göy qılınc yaylağında idi. Dərhal gətirdilər dokumentləri. Pasportu açdım. Şəkil pasportun arasında idi. Ala dovşan dərisindən papaq vardı yaddi yaşlı AdıPünhanın başında.

– Bünyad bəy əvvəlcədən bilirdi ki, ala dovşan dərisi Nəriman Nərimanovun EyAğOd – "Yakut" səfərindən sonra bir "Yakut" türkünün əlilə Məmməd ağaya, Məmməd ağadan Omar ağaya göndərdiyi "hədiyyə-rəmz" idi. Otuz dördüncü ilin yazında Omar ağanın bacısı oğlu Mahmud Yolcuyevin çamadanında gedib Göy Qılınc yaylağına çatandan sonra gizlin SafAğ alimi "Hacı" Babanın[3] əlində papağa çevrilib, altı yaşlı varisin[4] başına qoyulmuşdu. Sonra həmin Mahmud Yolçuyevin göndərdiyi fotoqrafın fotoaparatında altı ədəd şəkilə çevrilmişdi ki, Türk ərazisində "Dəli" ləri birləşdirə-birləşdirə Naxçıvanda "Şeyx Xorasan" türbəsinə gedib Milli Hökumət təşkil etsin.

"Snimok – parol" un yaddinci kopyası Bünyad bəyin fotoaparatında Mirqəzəbin vaqonuna getdi. Görüş iştirakçılarının hamışı dərk etdi ki, Stalinin pəncəsinin altında gizlin yaşamaq mümkün deyil.

O tayda Milli Hökumət SafAğ Elmi əsasında qurulmalı idi. "Şeyx Xorasan" – Nəimi türbəsində, Nəiminin "Cavidannnamə"

---

[1] Beriya

[2] Bağırovun erməni kadrlarından

[3] "Hacı" Baba – ən məşhur Ün eşidənlərdən

[4] Saf Ağ varisi BağHəmOd

sinin arasında saxlanan proqrama görə Elm Türkiyədə, İraqda, Ərəb ərazilərində yayılandan sonra İslam dini ifşa edilməli idi və "Əxi" – AğEy bayrağı[1] qaldırılmalı, Bağday elan olunmalı idi.

Gəncə qubernatoru Muğannaların nizami ordu hissələrini – "Qaçaqlar"ı qırdıqdan sonra Muğannaların böyük bir qismini öz əmri ilə müxtəlif cəhətlərə sürdüyünə görə onların gizlin dağılışdıqları əraziləri şəxsən bilirdi və hələ 1920-ci ildən (Sovet hakimiyyəti qurulmasından) bir neçə il əvvəl "Muğ" ları axtaran casuslar seti yetişdirmişdi və raport almışdı ki, "Muğ"lardan bir qismi "Yevrey" – EvƏrEylər Yakutiyaya qaçıblar və orda Elm yayırlar.

Parolu Mirqəzəbin pasportunun arasında görəndə görüş iştirakçıları dərhal əl çəkdilər bu proqramdan. Milli hökuməti Nərimanovun 1904-cü ildə yazdığı sosializm proqramı əsasında qurmağı lazım bilib, Stalinə məktub yazdılar.

SafAğ "Dəl"si, EvƏrEy OdƏri Məmməd xozeyininizi arzusu ilə birlikdə öldürdü bu Yevrey Bünyad! Arzusu ilə birlikdə!

Səmədin səsində istehza hiss olundu:

– Əminsən ki, Məmməd xozeynini arzusu ilə birlikdə öldürmüsən?

Bünyad bəy "hm" eləyib dedi:

– Əlbəttə!

Səməd dedi:

– İzah elə.

Bəy dedi:

– İzahsız da məlumdu. Otuz dördüncü ildə Omar ağa dünyasını dəyişəndə cibindən çıxan siyahıda on nəfərin adları kimlərin adları idi, bunu hamı bilir. On nəfər "Comər"din – qaçaq başçısının adlarının mənim əlimə keçməsi demək idi. Göyçə mahalının, Dərələyzin, AğBabalı kəndlərində səssiz – səmirsiz, beşbir-üçbir öldürülməsi deməkdisə, bu, gizlin Bağdayın tamam ordusuz qalması demək idi. Məmməd ağanın cibindən tapılan parolun Mircəfər – Mirqəzəbin əlinə keçməsi isə Cənubi Azərbaycanda, kürdüstanda dövlətlərinizin məhvi deməkdisə, Məmməd ağanın arzusu da özü ilə getmədi?!

Səməd qımışırdı:

– Hara getdi? OdAğÜz BağOdƏrə, ya yox? OdAğÜz sakini, Kainat sakini Səməd Əmirli qarşısında əyləşib səni Cəhənnəm

---

[1] Bağdayın Bağ BağƏrAğ – bayrağı; mavi ipək üstündə kəhkəşan rəsmi. 3000 ildən sonra bu bayraq bərpa olunmalıdır.

Odunda yandırırsa, Kainatın bütün OdƏr bəşəriyyəti Yerdə – EyƏrdə Bağdayın bərpasını gözləyirsə, Məmməd ağanın arzusu harda, nə vaxt ölüb, ay kar, kor "ins"?! Bu da sofistikadı, yoxsa, reallıqdı?! Cavab ver!

Bəy düzgün, üzgün:

– Yenə üstələdin, – dedi. – Səhvə yolverdim mən. Nöqsanım var mənim: hissə qapılanda həmişə səhv eləyirəm.

Səməd dedi:

– Məmməd xozeyninin arzusu bütün Kainatda bütün OdƏr bəşəriyyətinin arzusudu, əlbəttə. Əmma o arzu indi həyata keçir, ay ağılsız Yevrey!

Bünyad bəy diksindi:

– Həyata keçir?!

– Bəs necə?!

– Mən niyə görmürəm?!

– Görürsən. AdıPünhan kimdi?

– SafAğ Elmi varisidi. "Yeni GürÜn" yazan Muğanna Adıünhan, yeni BağHəmOd – "Məhəmməd" deyilmi, ay bədbəxt?!

Bünyad bəy bir xeyli susub, sonra diksindi.

– Məhəmməd?!

– Xeyr. "Məhəmməd" də, "Quran" da Ərəbin təhrif sözləridi, ay idraksız! O BağHəmOdumuzun "GurÜn" ün guya üstündə qan töküllüb, guya oxunmur. Yeni BağHəmOdumuzun "GurÜn"ünü o qanlı əllərinlə vərəqləyə-vərəqləyə, dəhşətə gələ-gələ oxumamısan?!

Bünyad bəy özünə arxalanır, ay bədbəxt! Yalançı lailahəilləllaha ən fanatik islamçılar da inanmırlar. Hə, yanırmı için?! Düzünü de!

Bəy astadan:

– Yanır, açığı yanır. – dedi.

Bəy yenə çaşqınlaşdı:

– Bu günə qədər yüzlərlə çekist qarşısında oynamışam, sirrimi heç kəs görməyib. Dəhşətli yox, sən möcüzəli çekistsən! Ayıltdın sən məni: Bünyad bəy səni də Məmməd xozeyinin dalınca göndərəsi oldu.

– Afərin, bəy! Kar-kor Yevreylər qalib gəlsələr, yeni Sovet imperiyasının gələcək mərkəzi Moskvada heykəl ucaldacaqlar sənə.

– Bünyad bəydə qətiyyən şübhə yoxdu!

Səməd dedi:

– Yəni sən görmürsənmi ki, gizlin Sovetlər – İran, İraq, Suriya, Şimali Koreya və sairə – hamısı yanır?!

Bu dəfə Bəy güldü.
Səməd dedi:
– Müharibə dayansa da dağılacaq!
Heyrət bəyi xeyli susmağa məcbur etdi. Sonra ağır – ağır soruşdu ki:
– Kim dayandıra bilər belə qlobal müharibəni?!
Səmədin cavabı öldürücü idi.
– Müharibə özü dayandıracaq müharibəni. Görmürsənmi Yeri su basır, ay kor!
– Hə?! Yəni doğrudan "potop"?!
Səməd elə bil öz-özünə:
– Potop... potop... potop, – dedi. – Heyif səndən, ey gözəl EyƏr!
Bünyad bəy duruxmuşdu.
– Bura bax, – dedi. – bəs Pünhanınız yazır ki, Bağdayı su basmayacaq?!
Səməd dedi:
– Bunu gələcək göstərər. Keçək başqa suala: Omar ağanın hansı oğlunu harda öldürdün?.. Mustafa əhvalatı yarımçıq qaldı, Omar ağanın böyük oğlu PirVəlini, İşıqsaçan deyilən Hüseyni... Sarıyoxuş deyilən yerdə Hüseynin dostu, qardaşlığı Musanı necə öldürdün? Danış!
Bünyad bəy sakitcə dedi:
– Sənə, şübhəsiz, bu da məlumdu ki, iyirminci ilin yazında Hərbi Komissar Əliheydər Qarayev çağırdı məni, uzun bir söhbət başladı: "Doktor On birinci ordunu Türk ordusuna döndərir[1]. General Şıxlınski ilə general Mehmandarovu güllələməli idik biz. Əlimizdən aldı, ikisini də, guya Leninin sərəncamına göndərir. Əslində danışıblar ki, Ermənistanı almalıdırlar, ordakı köhnə Türk ərazisini bərpa eləyib Türkiyə ilə birləşməlidirlər. Başını burda

---

[1] On birinci ordu, əksəriyyəti Azərbaycan Türkləri olan"Dikaya diviziya" müasir "Azərbaycan tarixçilər"inin bir çox cəhətdən falsifikasiyasının əksinə, "Dikaya diviziya" ləqəbi ilə şöhrətlənən, həmişə qalib çıxan bu diviziyanı şəxsən Nərimanov maarifləndirmiş və Azərbaycanı xaricilərdən təmizləmək niyyəti ilə Bakıya gətirmişdi. Bakının ən görkəmli yerində Nərimanova heykəli boş-boşuna qoymayıblar. O diviziyanı "işğalçı" adlandırmaq cinayətdi. Bu qəhrəman və əzabkeş diviziyanın xatirəsini əbədiləşdirmək üçün ucaldılmış abidənin dağıdılması onqat cinayətdi. Çünki abidə 1920-ci ildə müstəqil respublika elan edilmiş Şimali Azərbaycanın mənəvi tarixi ilə bağlıdı. Stalin bu respublikanı SSRİ təşkilində hüquqsuzlaşdırmışdı. Budur tarix.

islat, Tiflisdə qırxdır. Şəxsən Ayolloya çatdır ki, Omar ağanın oğulları PirVəli ilə Hüseyn, Məmməd xozeyinin mədənindədirlər. Səs yayıblar ki, Hüseynin toyuna hazırlaşıblar, guya toya hazırlıq üçün PirVəli TürMən yatağında qoyun sürülərini atıb gəlib. Hüseynin özü ilə birlikdə fəhləlik eləyir, pul qazanır. Bu nə deməkdi?! Türmən yatağındakı sürülərdən on-on beş qoyunu Qazağın Maltəpəsi bazarına çıxarıb Qazaxdaca qazanmaq olmazdı pulu?! Qoyun heç. Maarif Komissarının finansisti Mahmud Yolçiyev yəni belə kasıb düşüb ki, bir toyun xərcini çəkə bilmir? Nərimanov cənab Tağıyevə xüsusi malikanə verib, var-dövləti də içində. Məmməd xozeyinin Sabunçudakı malikanəsi hələ də öz ixtiyarındadı. Sual olunur, milyonerlə oturub-duran Mahmud ağa başına and içdiyi dayısının mötəbər sərkər çoban oğlu PirVəlini Türmən yatağının gül-çiçəyi içindən gətirib mazuta basır?! İş çox ciddidi, Bünyad bəy". Hərbi komissar az savadlı idi. Nərimanov onu heç cür başa sala bilmirdi ki, "Sən Yəhudi" – EyOdOdƏrilə "tərik" – "türk" EvƏrEy OdƏrinin arasında heç bir fərq yoxdu. Ayrı-seçkilik salma! Bədbəxtlik olar, xalqımız parçalanar. Komissar isə elə hey deyirdi: "Yəhudi Yəhudidi, Türk Türkdü, vəssalam!" Mənə dedi: "Necə deyirəm, o cür, başını burda islat, Tiflisdə qırxdır. Yaz, Ayollunu başa sal ki, Lenin Mustafa Kamal Paşanı[1] əbəs hazırlamayıb Budyonnunun, Voroşilovun ştablarında. General Şıxlınski ilə general Mehmandarov "Leninin sərəncamına" nə məqsədlə göndərilirsə, xəncərindən qan daman PirVəli ilə qardaşı Hüseyn də o məqsədlə "fəhləlik eləyirlər". Omar ağanın Hüseyndən də betər "İşıq saçan" oğlu İsa əfəndi Qazağa əbəs yerə voyenkom göndərilməyib. Türk zabitlərini biz əlbəəl gəzirik ki, divara söykəyək. Türk İsa Əfəndi voyenni komissar Əliheydər Qarayevin[2] voyenkomu olub Qazaxda! Nəinki divara söykəyə

---

[1] Mustafa Kamal Paşa Cənub cəbhəsində, Antantaya, general Denikinə qarşı uzun müddət döyüşüb, hələ Rusiyada ikən təcrübəli komandan kimi tanınmışdı.

[2] Əliheydər Qapayev son dərəcə məhdud dünyagörüşlü hərbçi olduğuna baxmayaraq, Nərimanovun iradəsinə tabe olmayan siyasi dairələrin təkidilə hərbi hərbi komissar təyin edilmişdi; "Türk adlananlarla "Yəhudi" adlananları vahid etnos saymırdı və Türklərə qarşı qatı düşmən mövqeyindən çıxışlar edib. Nərimanovla çox tez-tez açıq mövqeyindən çıxışlar edib. Nərimanovun Azərbaycanda Komisarlar Sovetinin sədri vəzifəsindən azad edilib, Moskvaya Milli məsələlər üzrə komissar Stalinin bilavasitə nəzarəti altında göndərilməsi S.M.Kirovla Ə.Qarayevin və Zinovyevin təkidləri ilə olmuşdu.

bilmirik, heç yaxınlaşmağa da cürətimiz çatmır!.. Nə deyirəm, hamısını yaz çatdır, Bünyad bəy, PirVəli! Hüseyn! Bunların müşayiətçisi Musa Salahlı kənd sakini, İsa əfəndi ilə yavəri Mikayıl. Bu beş nəfərin beşi də aradan götürülməlidir ki, AtaTürklə gizlin əlaqələr kəsilsin".

– Əliheydər Qarayevlə o söhbətdən sonra məni dərd götürmüşdü. Omar ağanın iki oğlunu o cür öldürmüşdüm. İsa Əfəndinin də ölümə məhkumluğunu başa düşəndə Omar ağanın kiçik oğlu – doqquz yaşlı Mustafa gəldi durdu gözümün qabağında. O cür ailədən bir uşaq qalırdı, bir də ki, Omar ağa özü. Demişdim: "Cənab Qarayev, qansız keçinmək olmazmı?!"

Səməd dedi:

– Yenə əbəs yerə tülkülük eləmə, ey qaniçən! İyirminci ildə artıq xəstə idin: qan tökməyəndə gözünə yuxu getmirdi! Fransız ədibi Emil Zolyanın "Vəhşi insan" romanının qəhrəmanı kimi evlərin daldalarında dayanıb cibində bıçaq, boğula-boğula gözləyirdin ki, qan axıdasan! Türk qanı!

Bünyad bəy bir xeyli susdu. Sonra düşüncəli:

– İnsan insanın fikrini oxumamalıdı! Bağlarınızın bu icadı heyvanlıqdan da betərdi! – dedi və cavabında Səməddən kəşfə bənzər bir ifadə eşitdi:

– Sən bütün bəşəriyyətin düşmənisən, Bünyad bəy! De görüm, Əliheydər elə ciddi tapşırığı kimdən almışdı?

Bəy dedi:

– Stalin zəng vurmuşdu.

– Bəs Stalinə o məlumatı kim vermişdi, Bəy? Sən Stalinə depeş göndərmişdin, Stalin isə Əliheydərə və Ayolloya! Bu heç. De görüm, bolşevik Stalinin menşevik Ayolloya direktiv göndərməyində nə sirr var?

Bəy dedi:

– Stalin heç vaxt bolşevik olmayıb!

– Hə?! Bəs kim olub?

Bünyad bəy:

– Qrek olub, AntiTürk Stalin Qrek idi. AntiRus, AntiAlman, AntiYevrey Stalin! Sən ki, bilirsən bunu. Niyə soruşursan?!

Səməd başqa sual verdi:

– Sverdlov kim idi milliyətcə?

Bünyad bəy dedi:
– Yakov Sverdlov Rus Yevreyi idi:
– Bağdaydan, ƏrÜz OdƏrliyindən xəbəri vardımı?
– Bilirdi.
– Hardan?
– Mən yazmışdım. Lenin Nərimanovla təkbətək görüşüb demişdi ki, Stalinin Bakıdakı "Molla"sı Bünyad bəy, Komissarların çoxuna, o cümlədən, Sverdlova yazıb: "Bağday – Midiya" tarixinə dair heç nə oxumayın və Nərimanovun o tarix barədə söhbətlərinə uymayın. Çünki "Midiya" ərazisi Olam (Olimp) adlanan ərazidən, Türkiyə də daxil olmaqla, Sibirə qədər uzanır və etnik cəhətdən indi artıq başqalaşıb. Əgər Lenin Nərimanovun "Lenin və Şərq", "Şərqə hansı şüarlarla gedirik? "Kitablarından taktiki nəticə çıxartsa, Türk əhalisi Rusiyanın Yevrey əhalisindən dəfələrlə çox olar və bu, əlbəttə, bizi məhv edər..." Mənim bu məktubum Nərimanovla bərabər Leninin özünü də gözdən salmışdı. "Soratnik Lenina" Sverdlov əslində Stalinə işləyirdi.

Qara şəhərdə özünün müalicəxanası vardı Nərimanın. Həm də o müalicəxananın yanındakı gimnaziyada dərs deyirdi. Omar ağanın iki oğlunu, sonralar İsa Əfəndi adı ilə Şəkər bəyin qalasında Osmanlı qoşunu ilə bir yerdə ölümə məhkum etdiyim Musanı ilk dəfə o gimnaziyada tanıdım.

Görüşəndə arkadaşım Doktoru qucaqlayardım həmişə, Musası ilə bir yerdə bağrıma basırdım. İsa ilə Musanın arkadaşı Müşfiqlə qədəh döyüşdürürdüm.

On dördüncü ilin yayından qoşuldum o cavanlara, əvvəlcə Göyçəyə Müşfiqin saz-söz ustadı Aşıq Ələsgərə, sonra Göy qılınc yaylağına, Omar ağanın – EvƏr AğEyin özünün binəsinə qonaq getdim. Stalinin direktivası, Mikolayın tapşırığı ilə Osmanlı qoşununu qıranda Omar ağanın ailə üzvü kimi bir şey idi bu Yevrey!

Nər budlu, at ağızlı igid Hacı Əli çumadan öləcəyini əvəlcədən bilə-bilə qaladan Musanı qucağına çıxartdı, gətirdi evə. Arvadı-uşağı evdən qovub, tək özü üç gün qardaşına qulluq elədi.

Çuma dəhşətli ağrılı olur, ay sadist. Musa ağrıdan qıvrıldıqca Hacı qardaşını bağrına basırdı.

Səməd dedi:

– Bax o ağrını da çəkəcəksən, ey “ins”anlıqdan məhrum bədbəxt, danış!

Bəy kənardan kənara Səmədin üzünün ifadəsini görməyə çalışdı.

– Heç cür inanmıram ki, Sultan Əmirli kimi SafAğ Aliminin tərbiyəsini alan adam mənə bu dərəcədə işgəncə versin. Qalanını danışıram.

Musa Qara şəhərdəki o hərbi gimnaziyanın son kursundan çıxmışdı. Çünki cismən zəif idi. Əmma zərif yazıçı Nərimandan dərs alan zərif ziyalı idi. Bilirdi ki, Hacı Əli özünü qurban verir qardaşına. Təsəvvür elə, gör o iyirmi yaşlı zərif ziyalı BağSarın – Musa ağanın adını daşıyan o həssas oğlan nələr çəkib! Mən bilirəm bunu!

Səməd dedi:

– Bir sual da var, de görüm, fəlakətin tarixini incəliyinə qədər bilən adam səni danışmağa vadar edirsə, səncə nə deməkdir bu, Bəy!

– Nərimanov da bilirdi, əmma o da danışdırırdı məni. Dedi: “Harda təhsil aldığını, Bakıya nə üçün göndərildiyini bilirəm. Əmma bu “mollaça” nın istedadı məni əsir eləyib. Bizim arkadaşlarla sıx ünsiyyətdə olsan, millətin xeyrinə işlərsən, çox xeyir verə bilərsən”. O qədər demokratik insanpərvər adamdı ki doktor, özümdən asılı olmadan gülüb, açıq açığına dedim: “Peterburq məndən hər altı aydan bir hesabat istəyəcək ki, neçə sosialist öldürmüsən, neçə türk “verbovat” eləmisən, nə kimi perspektiv planlar cızmısan?” Bu cavabdehliyin altından necə çıxım, cənab doktor?!” Dedi: “Peterburqa, departamentə hesabatlarınla yanaşı, hətta çarın özünə elə məktublar tərtib edərik ki, hamısına inanar”. Dedim: “Məsələn?!” Dedi: “Firqəmizin kassaından pulla yanaşı, Odessa sosialistlərindən bir admirala məktub verərəm çara məktubunda yazarsan ki, Bakıda sosialist firqəsi “Hümmət”in rəhbəri Nərimanovun etibarını qazanıb, onun Odessadakı dostları ilə tanış oldum, ən fəal dənizçi sosialistlərdən filan filan adamların da güllələnməsini təşkil etdim. O adamlar doğrudan da güllələniblər, əmma çarın şəxsən məlumatı yoxdu”. Qısası getdim...

– Cinayətlərindən danışmalısan, konkret olaraq, – deyib Səməd yenə əvvəlki sərbəstliklə Bəyi öz fəaliyyət sferasına qaytardı. – Getdin, yayın qızmarında lüt soyunub özünü verdin plyajda ofisiantkaların arasına, İra adlı on yeddi yaşlı gözəli quma basdırıb zorladın,

verbovat eləyib özünlə Bakıya apardın. Həmin 1906-cı ilin payızında "Hümmət" in yeməkxanasında ofisiant düzəltdiyin o bədbəxt İranın əli ilə neçə "Hümmət" çini zəhərlədin, ay zəhər Yevrey?!

Bəy başını sinəsinə əydi:

– Səndən heç nə gizlətmək olmaz. Əmma... niyə qoymursan özüm danışam?

Səmədin səsinin sakitliyində boğuq qəzəb vardı:

– O cinayətləri axırda, nəhayət, İranı boğub dənizə atdığını mənim səsim danışacaq, işgəncədən it kimi ulayacaqsan, ay it! Danış!

– Nəyi?

– Nərimanovun dərs dediyi qubernskaya voyennaya gimnaziyada nələr elədin? Danış!

Bəy fışıltı ilə köksünü ötürüb, hətta:

– Baş üstə! – dedi.

Əmma Səməd yenə başqa sual verdi:

– Dzerjinski kim idi, ona da yazmışdın?

– Ondan qorxurdum, yazmamışdım. Feliks Dzerjinski Polyak Yevreyi idi.

Səməd gülümsündü:

– Türk Lenin niyə Yevreylərlə işləyirdi, Bəy?

Bünyad bəy üz-gözünü qırışdırdı:

– "Tatar Lenin" desən, münasib olar.

Səməd dedi:

– Farsla Yəhudi arasında çaşqın Bünyad bəylə, Yəhudi Əliheydərlə Qrek Stalinin milli mənsubiyyəti arasında fərq yoxdursa, Tatar Lenini Türk Lenindən, Türk Lenini EvƏrEy Lenindən niyə ayırırsan?!

Bünyad bəy tam səmimi:

– Ürəyim götürmür, ay sadist! – dedi. – Sənə də, mənə də aydındı ki, qədimdə əslində Qreklər də OdƏr olublar, GurAğ OdƏrləri adlanıblar. Əmma nə Stalinin özünün ürəyi götürürdü bunu, nə də mənim. Görüşəndə deyirdi: "Ne napominay mne, çto mı oba nesçastniye! Protiv sobstvennoqo natsiya rabotayem. Ya teper poçti zabıl drevnuyu istoriyu. Zabud qrekov. İnaçe prosto ubyu".

Başa düşmürəm, bunların nə dəxli var sizin fəlakətin tarixinə!

Səməd dedi:

– Sənin komissarlara o məktublarında yazılmayıbmı bu tarixin ən faciəli səhifələri?! Nərimanovdan danış!

Bünyad bəy əllərini böyürlərinə çırpdı.

– Ya Rəbbi, özün qurtar məni bu Dəlinin əlindən!

Səməd dedi:

– Yaxşı, de görüm, iyirmi beşinci ildə Stalinlə ətrafındakı Qrek casuslarından başqa, Sovnarkomdakı, MK-dakı Yevreylərin hamısı niyə məhz Nərimanı seçirdilər Leninin yerinə?! Deyə bilməzsən! Dinlə!

Nəriman eynilə bizim indiki AdıPünhan Muğannamız kimi "Bibliya"nı açıb qoyurdu Yevreylərin qabağına, deyirdi oxuyun: "Boq". Soverşenno bessmıslennoye slovo. Krome xaotiçnoqo znaçeniya, nikakoqo smısla net v etom slove. "Verno?!" Deyirdilər: "Verno". Soruşurdu: "A slovo "Bağ" imeyet smisl?" Sonra başlayırdı izah eləməyə ki, Bağ insanı insana bağlayan Bağdır; "Svyazıvayet çeloveka s çelovekom i çeloveçestvu so vsem çeloveçestvom v Qalaktikax".

İndi, de görüm, "Tatar" dilini fəməl – yəməl bilən Dzerjinski Nərimanın "Tatar" dilini başa düşürdüsə, uşaqlığını vətəni Tatarıstanda keçirən Lenin ömrü boyu rusca danışırdısa, Nərimanovun SafAğ Elminin mürəkkəbliklərini necə başa düşürdü?

Bünyad bəy:

– Nərimanov rusca elə izah eləyirmiş ki, kim olsa sehrlənərdi. Lenin isə bilirsən ki, çox idraklı insan idi. Bağlara inanırdı.

Bəs "Materializm i empriokritisizm" niyə elə qətiyyətlə inkar eləyir "Maxizmi"? Axı, Bağ sözündən azan Max, qatı ruhani olsa da, Kainatın materiyalılığını lap qəşəngcə duyurdu və bizim xilasımızı Kainatda görürdü!

Bəy bezikmiş üzünü yana çevirdi, qışqırdı ki:

– Bunlar da sizin tarixdi?!

Səməd:

– Əlbəttə, Bəy, əlbəttə! – dedi. – Lenin sadəcə, planetin vəziyyətində kütləvi savadsızlığı, təfəkkür bəsitliyini nəzərə alıb, qəsdən hər şeyi yalnız Yerlə, qatı, bayağı materializmlə bağlayırdı. Sinfi mübarizə ilə planetimizi təzələmək, yenidən maarifləndirmək istəyirdi. İşinin ilk pilləsində öldürdünüz yazığı! Maarifə inamını öldürdünüz!.. "Sosializm plyus elektrofikasiya vsey stranı". Sosializmin əsli nədi, Bəy? Sosial bərabərlik yəni yüksək Şüur.

Düzdü? Elektrofikasiya nədi? Zəhmətin maksimum yüngülləşdirilməsi. Düzdü? Maarif; "Uçitsya, uçitsya, uçitsya". Bəs bu nədi? Bağ səviyyəsidi, Bəy. Lenini gərək kəlmə-kəlmə izah eləyəsən. Leninin ömrünü kəsməsəydiniz, bütöv, tam kamil Lenin kim olardı? Allah? Xeyr! Bağ! Yəni, cəmi proletariatı, başqa sözlə bəşəriyyəti birləşdirərdi. Yerdə Lenin qədər ikinci uzaqgörən, etibarlı adam tanımıram mən.

Bünyad bəy dönə-dönə başını buladı.

– Qulağım nələr eşidir, ya rəbbi! "Materializm i empiriokritisizm" kitabında bədbəxt Alman Yevreylərinin ən görkəmli Din xadimi Maxı göy Bağlarından bəsit – empriokritisizm", kritisizmdə taqsırlandıran Lenin həqiqəti bilə-bilə qəsdən, şüurlu tənqid eləyirdi Maxı?! Bəşəriyyətin xilasını, səadətini göydə görən Maxin idealizmini tapdalayıb, materializmi qaldıran Lenin düz deyib?!

Səməd düşüncəli:

– AdıPünhanın "İdeal"ından bir cümlə deyirəm: "Ən böyük ateist Bağ Atanın özüdür", – dedi. – Şərh elə!

Bünyad bəy dedi:

– Məlumi məsələdi. Nəimi, Nəsimi kimi bütün SafAğlar, ƏlAğlar kimi AdıPünhan da insandan, Kainatdan kənarda Allah görmürlər.

Səməd:

– Fikirləş, gör nədi materiyanı təhrif edən?! Din ya materiya özü?! BağOdƏri "materiya"ya döndərən sənin Latın dilli alimlərin deyilmi, ay zibil müdafiəçi?!

Mən Səməd Muğanna Kainatın energiyasına həqiqətən Od deyirəm. Sən deyilsənmi mənim Odumu Kainatdan ayırıb, Yerə bağlayıb "atəş"ə çevirən?! Sən deyilsənmi məni "atəşpərəst"ə çevirən, ay pədərsüxtə?! Petroqrad universitetini çıxart arxivdən, Şərqşünas, türkoloq tələbələrinə "Bağ" deyib o TatƏr "Boq" deməyib! Sonradan Stalinin əmrilə dəyişdirilib Qumilyovun mühazirələri. Materiyadan kənarda nə varsa, hamısı dəyişdirilib! Düzdü?

– Düzdü.

İndi, de görüm, Qədim dünya tarixini nöqtəsinə, vergülünə qədər öyrənən Marks niyə BağOdƏri yox, "materiya"nı birinci sayırdı. Axı bilirsən ki, "Materiya" kəlməsi BağOdƏr adının latınca təhrifindən başqa bir şey deyil!

Bəy qətiyyətlə:

– Marks məhdud adam idi. Materiyanın məhz Bağlar tərəfindən yaradıldığına inana bilmirdi. Deyirdi: “Şübhəsiz, yaradıcı var”. Əmma Bağları qəbul eləmirdi. Məntiqə bax: bəs Bağların özləri hardan, necə yaranıb? Bu deyilmi hamını çaşdıran? Deyirlər: Kainat sonsuzdur. Bu sonsuzluğun özünü nisbiləşdirmişik: bir nöqtədən hərəkət elə, fırlanıb-dövrə vurub, yenə həmin nöqtəyə gələcəksən. Məhdudluq deyilmi bu, Səməd? Bəs nöqtələr arasında dairələrdən kənarda nə var? Boşluq?! Elə o “boşluq” deyilmi yaradıcı?!

Səməd dedi:

– Bağlarımız bu sirri çoxdan deyiblər Yerə, Bəy. “Boşluq” yox-du. “Zülmət” adlandırdığımız sonsuzluq var. Məsələ burasındadı ki, “Sonsuz” sözü də təhrifdi. Əsli ƏsÜnƏsÜzdür: Yaradan səs – yaradan məna. Hardan gəlir o Ün – səs? O səsə ən qədim zamanda “Gur” deyilib: ən sıx, ən yaşlı adamlar məkanı Gurdan bizim Kainata, hətta lazım gələndə bizim Yerə enən İnsana – ÜnƏsə də “Gur” deyirik. Öz səsi ilə birlikdə Gur İşıq o qədər güclüdür ki, Bağlarımız o işığı zülmət kimi görürlər. Hətta Bağlar da o Zülmətə uçmurlar.Yalnız EyOdƏr ƏsÜn Babamız (yəni Günəş dairəsinin daxilindəki EyOdƏr planetinin sahibi) öz gəmisində Zülmətə uçur, qayıdıb oğlu BağbağÜnə məlumat verir. O məlumata əsasən, Zülmətdə yalnız söz eşıdilir: ƏsÜn – yaradan məna. Qədim Midiyanın – BağOdEyin – Bağdayın “ölü dil”ini axtaranda Marksla Engels cəmisi üç gün məşğul olub, öyrənib ki, Bağday – BağOdEy varmış yerdə, “Midiya” təhrif admış, “Bağ” varmış, “Boq” yox imiş, OdƏr varmış, “Atrii” yox imiş. “Materiya” – BağOdƏr imiş. Buna görə də yaradıcını təsdiq edib Yevrey Marks! Bir az EvƏrEydi, ya yox?

Təhrif dilində danışan bütün dahilərin bədbəxtliyi kimi, Marksın da bədəbxtliyi onda olub ki, OdƏr dilinin lap cüzi bir qismini öyrənib, Kainatın, planetimizin, Bağdayın tarixindən xəbərsiz qaldığına görə, “Materiya” nı – BağOdƏri OdƏrlərdən, yəni Bağı insandan ayırıb, Yer sakinlərinin arasında Ün eşidib, Ün yazan Bağlardan xəbəri olmayıb. ÜnƏsin – “ins”anın Yerə OdAğÜz BağOdƏr planetindən gəldiyini bilməyib, meymun beyinli Darvin səviyyəsinə enib: Təkamül – evolyusiya nəzəriyyəsini, “insanın meymundan əmələ gəlməyi” ni qoy bir kənara. İmperializmin son mərhələsində dövlətin məhvini yüz əlli il əvvəldən görən Yevrey Marksı tanı, ay Yevrey! Məhv olur ki, dövlət! Vəhşiləşir insan, ya yox?

– Yox!

– Ey Bəy! Dövlət idarə olunmur axı daha. Və olunmayacaq! Kriminal kapital insanı kamilləşdirmir və kamilləşdirməyəcək. Demək ədalətsizlik, zorakılıq, kapitalistlik, hərc-mərclik, səfillik, beyinsizliyə doğru "evolyusiya" çiçəklənəcək, Bəy. Bəs potop?!

– Hə... Potop... İşləri korlayır.

– Afərin, Bəy! Bax bu cür söhbətlər olanda beynin az-çox dincələcək.

Bünyad bəy dedi:

– İndi doğrudan da bir az rahatlıq hiss eləyirəm, hərdən bu quyuyla bu meyitə gözüm sataşmasa, hətta şərabın təsirini də itirirəm. Sakit, xumar kimi oluram.

– İç!

– Sağ ol, ay sadist. Beynimdə bir-iki sual fırlanır.

Səməd də şərab içdi, əlində kabab peyda oldu... – Musa, gəl bəyə də kabab ver!

Musa kolların dalından dikəlib ordları çökələ-çökələ, məlahətlə gülürdü:

– Cəhənnəmin arabir belə cənnətliyi olmasaydı, halın nə olardı, ay itəbaxan nökər?! Al, zəhərlən. Bu sakit vəziyyətin dəyişəcək.

Səməd dedi:

– Qoy hələ sualını desin!

Bəy kabab yeyə-yeyə dalbadal iki sual verdi:

– Mənə de görüm, sənin sevimli Marksın Monarxiyanı niyə sevmir? Sən də sevmirsən. EyOdƏrin iradəsi bütün Kainat üçün dəyişməz qanundusa, ən dəhşətli monarxiya deyilmi Bağday?! Və ya elə o "Zülmət"in özü!

Haradansa, həm uzaqdan – İşıq gəmisinin düşdüyü tərəfdən, həm də elə beş addımlıqdan cingiltili qadın, kişi gülüşləri şaqqıldadı. Bünyad bəy bu cür qəribə şaqqıltıdan tutulub Səmədə baxdı.

Səməd dedi:

– OdAğÜzdə güldülər sənin mühakimənə, ey kar, kor! Gülüşü gəminin planetlə daimi bağlı işıq zehləri ilə bu yana ötürdülər ki, suallarının necə gülünc uşaq mühakiməsi olduğunu eşidəsən. Kainatın "monarxiya"sı – MənƏrAğdı. Mən, yəni bütün ƏrAğ aləmi, yəni bütün planetlərdə "ins"an – ÜnƏslərin "Əxi" – AğEy icmalarında əbədi OdƏrlər əbədi həyat tərzilə tərbiyələniblərsə, EyOdƏr Babamız da öz planetində, öz icmasında həmin həyat

tərzilə yaşayırsa, Yerin təhrif "Monarxiya"sını bizim MənƏrAğla yanaşı qoymaq olarmı, Bəy?! Yəni təhrif sozü – mənasızlığı məna ilə yanaşı qoymaq olarmı? Mənəvi EvƏrƏslə mənasız məna ilə yanaşı qoymaq olarmı? Nə deməkdir "Pers", "Pars" "Fars", a Bəy? Bütün planetlərdə axtarırlar "Fars" nə deməkdi?

Bəy dedi:

– AdıPühhan Muğanna Lenini həm əvəzsiz müdrik insan sayır, həm də qan tökməyini Stalinlə yanaşı qoyur.

– De görüm, Nəriman hardan öyrənmişdi SafAğ Elmini?

Bünyad bəy düşünmədən, dərhal dedi:

– "İdeal" da yazılıb ki, Şeyx Xorasan – Nəiminin türbəsindəki "Vərəsə" kitabxanadan öyrənib. Səməd dedi:

– Bilirsən ki, Qrek Mirqəzəblə çekistləri də gedirmişlər Nəimini türbəsinə. Niyə öyrənməyiblər SafAğ Elmini?

Bünyad bəy dedi:

– Öyrənirdilər. Əmma "İstoriya Midii" kitabının müəllifi Dyakonovdan dərs alırdılar.

Səməd ara vermədən soruşdu ki:

– Bəs niyə ağıllanmadılar? Niyə dağıtdılar "Vərəsə"ni? Bilmirsən, ey Təhrif!

Dyakonov kimi onların da beyinləri təhrif dil üstündə qurulmuşdu. İrsiyyəti sağlam qalmış Lenin, Dzerjinski təhrif dil, təhrif təsəvvür aləmində addımbaşı fəlakət törədib, özləri də o qədər duymadan Stalinə uyub, "SSRİ "adlı fəlakət yaratdıqları kimi, sənin" müdrik Yevrey" Dyakonovundan dərs alan müdrik "Yevrey"lərin də addımbaşı tarix yaradıblar! "Dağılıb" deyirlər. Yalandı. "Podpolnıy SSSR" var! Amerikayla döyüşür! Dərk eləyirsənmi dediyimi?

Bünyad bəy dedi:

Marksı sən həm dahi adlandırırsan, həm də "meymun beyinli Darvin" in səviyyəsinə endirirsən!

Səməd dedi:

– Təkrar eləyirəm: AdıPünhanın "Məhşər" romanında Nəimi öz xəlifəsi Mövlana Tacəddinə deyir: "Bizim kamilliyimizlə qeyrikamilliyimiz arasında fərq yoxdu, övladım".

Niyə belə deyir Nəimi, Bəy? Bilmirsən, ey kar, kor Təhrif!

Nəimi təhrif dil içində gizlənirdi; Firdovsi, Nizami kimi, Nəimi də "Əxi" – AğEy mühitindən kənarda anlaşılmayan rəmzlər üs-

tündə qurulmuş təhrif dilli əsərlər yarada-yarada özündən asılı olmayaraq bütün Şərq miqyasında "Din" adlı fəlakət tarixi yaradıb!

Bünyad bəy təəccüblənmişdi:

– Deməsk, təhrif dilli dünyanın kamil insanı ilə qeyri-kamili arasında fərq yoxdu?

Səməd dedi:

– SafAğ insanı Təhrif insanla yanaşı qoyma, ey Təhrif! Leninə, Dzerjinskiyə OdƏr dilində "Bağ" dedirdən, Nərimanımın dili üstündədi bu söhbət. Get gir arxivlərə, yoxla, gör Nəriman bircə dəfə ölüm cəzası kəsdiribmi ətrafındakı təhrif heyvanata? Bu SafAğ İnsan əməlidi. Əmma SafAğ Nəriman danışdığı dilə görə həm də qeyri-kamil idi.

İndi qeyri-kamil cəhətə diqqət yetir... "Nadanlıq" pyesinin ilk variantında qəhrəmanın adı EvƏr olub. Yəni Evin İşığı. EvƏrin bilirsən ki, "Tövrat" da, "İncil" də, "Quran" da "Avram", "İbrahim" şəklindədi. Yəni təhrifdi. Nərimanov Ömər yazsa da, EvƏrimin adını nəzərdə tutub. Çünki EvƏrim də, EvƏrEy də, EvƏr də çox vaxt eyni mənada işlənir. Arkadaşları Nərimana deyiblər bu bircə kəlmənin – adın anlaşılması üçün gərəkdir ki, tamaşaçı SafAğ Elminə az-çox vaqif olsun. Yaxşısı budu ki, ərəbsayağı "Ömər" yaz.

Başa düşürsənmi EvƏr adının Ömərə döndərilməsi pyeslə birgə Nərimanovun özünü də təhrif eləyib. Gülüb doktor, deyib: "Pyesin adını qoydum "Nadanlıq". Yəni nə? Yəni Elmdən – həqiqətdən məhrumluq.

Bəs indi nə oldu, Bəy? OdƏr Nəriman özü həm nadan, həm kamil oldumu! Budu Nəimini üzən dərd: "Bizim kamilliyimiz yoxdu, övladım".

Bəy əlini qaldırdı:

– "Bibliya"dakı fraza yadımdadı: "Poyavilas belaya ruka i na stene na bojem yazıke napisala: "Səni TəkƏl aparsın"[1]. Bu "Bojıy yazık" bizim indi danışdığımız həmincə "Tərik" – "Türk", "Azərbaycan" dilidirsə, Nərimanov qəhrəmanının adını "Ömər" yazmaqla niyə qeyri-kamil olsun?!

Səməd ucadan gülürdü. Kolun dalında Musa da şaqqıldadı.

---

[1] Faraonların – EvƏrÜnlərin zamanında ƏlAğ ("Allah") hərdən fəzada tək əlini göstərib "mənəm" deyib, sonra EvƏrÜnə sözünün davamını deyərmiş. Bu vərdişi indi də hərdən təkrar eləyir.

Səməd:

– “Omar”ın yazısı “O” “bojiy yazık”dandı, Bəy! Fəhmini niyə itirirsən, yazıq, yorulma! “Mar” axı “ne bojiy yazık”! Kainatda, planetlərdə “Omar” ağanı indi kim belə adlandırar? “EvƏr AğEy” deyirlər də! “Mər” nədi, Bəy? Heç nə! “Mərə” olsaydı, yenə məna vermək olardı.

Danış görək necə güllələdin Omar ağanın oğullarını!

Bünyad bəy, deyəsən, doğrudan da üzülmüşdü:

– Yaxşı, danışım, – dedi. – Əliheydər Tiflisə Ayollonun üstünə teleqramma göndərdi: “İz Baku vışli tri vsadnika. Poydut po qornomu xrebtu, çerez Şabran, Zakatala, Turmen yataq. Vstreçayte na Sarıyoxuşe”.

Nərimanın Qazaxlılar polku Poylu körpüsündə idi. Poyludan o yan, o cümlədən Türmən yatağı, Sarıyoxuş da Gürcülərin əlində idi.

Səməd dedi:

– Düz danış!

Bünyad bəy duruxdu.

– Gürcü Qrekləri deyim?!

Səməd:

– Bəs necə?! Bədbəxt gürcü xalqı hətta indiki “Müstəqil Gürcüstan”ın da Gürcü Qreklərinin əlində olduğunu bilmir. Dağlarda Qreklər yaşayırlar, onların da heç nədən xəbəri yoxdu. Şərq səmtindəki dağlarda “Nidri”lər deyilən bədbəxt təhrif ÜnOdƏrlərin də heç nədən xəbəri yoxdur: “Tərikcə” danışırlar, bilmirlər ki, “milli azlıq”-zad deyillər, nəhəng OdƏr bəşəriyyətinə mənsubdurlar. Bax buna görədi faciələrin hamısı! Bütün incəliyinə qədər danış görüm, o “vsadnik” lərin qanlarını necə içdin?!

Bünyad bəy nəfəsini dərib elə bil adi bir şey danışmağa başladı:

– Əliheydərin teleqrammasını alan kimi Ayollo libasını dəyişdi, otryad götürdü, gəldik. Tiflislə Sarıyoxuşun arası əlli verstdi. İndiki hesabla təxminən yetmiş beş kilometr. Gecəni Qardabanidə qaldıq. O vaxtkı Qaratəpədə...

Səməd dedi:

– Dayan, Ayollonun elə bir adamı yoxdumu ki, göndərəydi? Niyə özü gəldi?

Bünyad bəy gözlənilməz əsəbilik hiss etdi:

– Bu sual da “dərs” üçündü?!

Səməd:

– Daha çətinə salmayacam səni. Omar ağanın altı oğlundan hansını harda öldürmüsən? Danış!

Bünyad bəy:

– Belə sualların cavabında mən çətinlik çəkmirəm, – dedi. Bədbəxtin xəbəri yoxdu ki, o oğulların ölümləri barədə burada dilinə gətirdiyi hər bir kəlmə sabahısı, birisigün – ta son nəfəsinə qədər, beynində öz səsi ilə daimi səslənəcək, kəlmələrdəki hadisələr isə gözlərinin qabağında kino lentindən də aydın görüntülərlə fırlana-fırlana qalacaq və bu Od – həqiqət dəhşəti onu çırpına-çırpına tərə batmağa, hətta başını yerə döyməyə məcbur edəcəkdi. Tamam sakitcə başladı ki: – On səkkizinci ilin yazında Nəriman Nərimanov indi "İyirmialtılar" adlananlardan ayrılmışdı. İndi deyirlər başda Stepan Şaumyan, hamısı erməni idi. Əslində, indi AXC-çi lərin termini ilə desək, Demokrat idi hamısı. Yəni Yevrey. Nərimanov, Məşədi Əzizbəyov, Vəzirov lazım gələndə çox vaxt azərbaycanca danışırdı onlarla, hətta SafAğ Elmindən bəzi çox lazımlı cəhətləri izah eləyirdi. İkinci Sovetlər qurultayında, Nərimanov hökumət başçısı olanda dedi: "Ərazilər məsələsi SafAğ əqidəsinə görə, sərhədlərə bölünməməlidi, bəs sən niyə Göyçəni ermənilərə vermək istəmirsən?" Nərimanov dedi: "Ya vınujden budu skazat: dadim bratyam zemlyu. A vot vı xoteli bı razdelit Sibir s yapontsami". Sərhədlərin götürülməsi üçün bütün xalqlar eyni əqidədə olmalıdırlar, bir-birinin dilini asan anlamalıdırlar, yəni cəmi Yer üzündə Vahid Ədalət Səltənətinin yaranmasına heç olmasa minimum şərait yaranmalıdır". Buna görə də, Zəngəzurun ermənilərə verilməsinə razılıq versə də, Sovet sədrliyindən çıxdı, xəstələndi, Həştərxana getdi ki, həm orda müalicə olunsun, həm də Leninlə əlaqə saxlayıb Azərbaycanda vəziyyətin həddən artıq mürəkkəb olduğunu başa salsın. Sovetdə Müsavat sosialistləri Daşnak sosialistləri ilə, Eser fraksiyası ilə birləşib İngilisləri Azərbaycana çağıranda məsələ daha da mürəkkəbləşdi, hərc-mərclik başlandı. Türk ordusu Azərbaycana gəldi ki, qırğınları yatırtsın. O günlərdə Müsavatçılardan "Türk"ün kimliyini bilənlər də, qalan Müsavatçılar da ermənilərlə gizlin danışıq apardılar ki, Türk ordusunu elə bəri başdan zəiflətmək lazımdı. O vaxt Anastas Mikoyan on yeddi-on səkkiz yaşlarında Sovetdə əl buyruqçusu kimi bir şeydi, əmma azərbaycanlılara qarşı çox qəddar idi. O vaxt çox məşhur olan

polkovnik Amarazspın dəstəsi tez-tez ora-bura hücum çəkəndə Mikoyanla qarış-qarış gəzmişdi, yaxşı tanıyırdı hər yeri; Amazaspın, bir də o vaxt "Kobra" kliçkasıynan tanınanın tapşırıqlarıynan gəldi məni tapdı, dedi: "Qazaxda Şirinin qalası deyilən yerdə yerləşdirilmiş türk qoşununu təkbaşına zəhərləməlisən. O qonşu Gəncədəki, Bakıdakı türklərlə birləşsə, erməni, Müsavat hissələri gərək buranı tərk eləsinlər. Beş-altı gün möhlət verilib sənə, Bünyad!.."

Omar ağanın altı oğlunun altısı da sağdı onda. Böyük oğlu PirVəli Türməndə qanadlı ilanları xançalla havada vuran idi. Boyca lap balaca adam olsa da, yaman cahıl idi. Sonra Hacı Alı kommersant adı ilə Məkkəyə qədər gedirdi, zəvvarları xəlvəti yerlərə çəkib SafAğdan dərs deyirdi. Hacı Alının kiçiyi İsa Əfəndi hərbi gimnaziyanı qurtarandan sonra Müsavatçıların Bakı kəndlərində qadınların sırğalarını qopardan zabitlərdən aralandı, getdi Dərbənd səmtində Denikinlə döyüşdü.

Səməd bu dəfə lap qəribə şaqqıltılı gülüşlə tamam başqa sual verdi:

– De görüm, həqiqətən baş vermiş subasqınından sonra bu barədə bir də nə vaxt söhbət olub?

Bəy ilan kimi fısıldadı:

– Nizaminin vaxtında.

– Niyə?

– "Sirlər xəzinəsi"ndə Nizami yazıb ki,"Yer dəli olub" kəməri" ni, yəni Bağları qıracaq, parça-parça olub səmada fırlana-fırlana qalacaq", Nizaminin zəmanəsinin şeyxləri bunu Subasqını qələmə veriblər. Nizami isə, cavab yazıb onlara ki, heç bir Subasqını olmayacaq indi.

Birinci Subasqınından sonra Yer doğrudan da parçalanıb, "Ay" – Ağ planetinin yaxınlığında parça-parça fırlanır. İndiki Yer planetini də gələcəkdə elə fəlakət gözləyir... Şeyxlər qorxuya düşüblər, "Xəmsə"nin katiblərinə əmr veriblər ki, "Xəmsə"də o yeri dəyişdirin. "Xəmsə" də çox belə şeylər var. Məsələn, heç kəs bilmir ki, "Nizami" – ÜnƏsim kəlməsi Nizaminin yox, kitabın adıdır, "Yaradan Ünüm" deməkdi. Katiblər çox çalışıblar bunu izah eləsinlər, bir şey çıxmayıb. Axırda kitabın adını şairin adı eləyiblər.

– Bir də baş verəcək Subasqınının qarşısını almaq olmaz?

Bəy dedi:

– Bilmirəm.
Səməd dedi:
– De görüm, Muğanlıda Omar ağaya niyə “Koxa” deyirmişlər. Cavab ver, lazımdı.
Bəy dedi:
– Aydın məsələdi. Babası“Comərd“ kimi Omar ağa da gizlənirmiş.
– Niyə?
Bəyin gözləri böyüdü.
– Bıy! Necə niyə, a kişi?! Muğannaların çoxu “AdıPünhan” olmurlar?! Məsələn, sənin əsl adın SimOddu (Uca Həqiqət), əmma adına Səməd dedirdirsən.
Səməd dedi:
– Ağ Əmirlə Boz Əmir gizlənməyiblər. Səbəbi nədi?
Bəy dedi:
– Onlar talelərini əvvəlcədən bilirmişlər.
– Niyə?
– Əstəğfürillah! Nə bilim, a kişi, yəqin, əvvəlcədən deyilib ki, Orda “İran” da SafAğ baş tutmayacaq, o kişilər də öldürülücəklər. Bu da məntiqi! Əmma nahaq qorxudublar kişiləri, məncə!
Səməd gülürdü:
– Afərin, Bəy! A kişi, aqibəti Əbədiyyət olan adam ölümdən qorxarmı?
Keçək başqa mövzulara ay Yevrey – EvƏrEy . Ayollo niyə özü gedirdi operasiyalara? Danış!
Bünyad bəyin səsi də sərtləşdi:
– Yevrey Ayolla da Qrek Koba kimi bandit idi!
Səməd dedi:
– Səhv eləmə. Sən çox gözəl bilirsən ki, Koba qrek keşişi Visarrionun tələbəsi olub, ordan Bakı mədənlərində inqilabi təcrübə qazanmağa, Leninin diqqətini cəlb eləmək, Peterburqda yaxşı mövqe qazanandan sonra da casus Qreklərdən ibarət dəstə toplamaq niyyətində olub.
Bəy dedi:
– Özün demirsənmi ki, Qrek də mənşəcə OdƏrdi. Sözümün başına ip salma, ay Sadist, imkan ver danışım, bəlkə hardasa rəhmin gələ, dayandırasan bu əzablı sorğu-sualı!.. Bəli, Koba Qrek idi, əmma Gürcü kimi tanınırdı, cuhud kimi tanınırdı. Tərbiyəçisi keşiş

Vissarion da Peterburq ruhani məktəbindəki kimi belə – mən kimi qaniçənlər yetirirdi. Əslində Koba məndən qat-qat üstün qaniçənlərdəndi. Qadınları zorlayardı, elə yerindəcə də güllələyirdi. “Verbovka – tvoyo delo” deyirdi mənə, “Ya rastrelyayu”. Ayolla da Leninin yetirməsi Atatürkün işləri ilı bağlı Türklərin qanlarını içmək lazım gələndə şəxsən özü gedirdi operasiyaların icrasına! Razı qaldın?!

Səməd dedi:

– Necə yəni “razı qaldın”?! Bu əhvalatı axıra çatdır. PirVəliyə necə işgəncə verdin? Bütün incəliklərinə qədər danış! Dərs üçün lazımdı bu.

Bünyad bəy hələ də sərt idi:

– “Yevrey” – EvƏrEy dərsi deyil bu, Yevreyə işgəncə verməkdən zövq alırsan. Mənim yerimdə sən olaydın, sənin yerində mən olaydım, onda görərdin qaniçən Türkə necə işgəncə verirəm! Yer üzündə elə bütün hökmdarlar qaniçən olublar!

Səməd çox ciddi ahənglə soruşdu ki:

– De görüm, UluBağ Birinci Aleksandrın sürgün əmrinə niyə boyun əydi? Dünya dolu Əxi ordusu deyildi?

Bütün Kainatda OdƏr Bəşəriyyətini EyOdƏr, BağBağÜn Babalarımızı, Bağ Atamızı, oğullarını bir yana qoyuram, təkcə “Allah” – ƏlAğ EySarın hökmü Aleksandrın təxt-tacını tar-mar edə bilməzdi?!

Bünyad bəy bir xeyli susub, səmimi etirafa məcbur oldu.

– Məəttəl qalmışam. Elmdə əmma var: “İnsana təsir etmək olar, təzyiq yox”.

Səməd dedi:

– Budu bax, hər şeyi dərk edə-edə heç nə dərk etməyən idraksızın qeyri-adi idraksızlığı! Yəni sən bu vaxta qədər dərk eləmirsən ki, Bağlar doğrudan da qan tökmürlər, ay qaniçən təhrif? Qreklərdən qalan hədsiz işgüzarlıqla, hədsiz hakimiyyət hərisliyi ilə bütün millətlərin daxilinə girib, hamısını bir-birilə vuruşdurursunuz, milli kin yaradırsınız! Özünüzə qarşı da kin yaradırsınız! Qırılırsınız! Bütün planetdə qaniçən “Rus Yevrey“ inin ağılsızlığını dərk etdinmi, ay Yevrey?!

Bünyad bəy eyni səmimiyyətlə:

– Dərk edirəm, – dedi. – Əmma yenə də sənin qanını içməyə hazıram.

– Niyə, ay idraksız?!

Bünyad bəyin bu dəfəki cavabı qəribə oldu:

– Siz bizi məhv eləyirsiniz! – dedi.

Səməd buna necə təəccüblənməyəydi? Bəyin bu fikrinin hardan, necə yarandığını bilsə də, istər-istəməz soruşdu ki:

– Bağ nəsli məhv edir sizi?!

Bünyad bəy eyni inamla:

– "Tərik" – "Türk" – ƏrÜz – Rus milləti bütün Rusiyada qırmırlarmı Yevreyi?!

Səmədin fikri uzaqlara getdi.

– Bayaq dedim, qocalanda "ins" in zehni tutulur.

Xatırladıram, altı yüz dördüncü ilə qədər Latının, Qrekin arasına dolub Vizantiyanı "Türk" ün üstünə yeritdiniz! Türk vətənini tərk edib Sibirə, Şimala, Avropaya qaçıb, tərik oldu. Yevrey bununla da kifayətlənmədi, "Şəhri-Babək" adı altında gizlənən BağBağÜn SarEyini Konstantinopola "köçürüb", gizlin Bağdayda qalan Muğannaların qanını içdiniz! Bununla da kifayətlənmədiniz, Vizantiya legionlarını Rusiyaya yeridib, səkkiz yüz ikinci ilə qədər, iki yüz il sərasər qılınc çəkə-çəkə ƏrÜz – "Rus" millətinin qanını içdiniz! Bununla da kifayətlənmədiniz. "Türk" – "Rus" millətinin özünü Amerikaya yeridib, Amerika OdƏrlərinin qanını içdiniz. Bununla da kifayətlənmədiniz, "BağBil" in təhrif tərcüməsi "Bibliya" ilə silahlanmış poplar ordusunu Vizantiyadan bütün planetə yeridib, təhrif "İsus"un xaç üstündə taxta "bədən"ini bütə çevirib, KeSarların qılıncları ilə xaç yaydınız! Budu bax, indi sizi yeyən qədim ayrılıq kini! Boş-boşuna kin oyanardımı, ey Yevrey?!

Sonrasını dinlə. İndi ayırıblar millətləri. İsraillə qalanları bu günün özündə də döyüşdürürsünüz! Buş da dərk edib ki, planeti məhvə aparan qaniçənlər tərksilah olunmalıdır. Hamı, hamı dərk edir fəlakəti, "Rus Yevrey"indən başqa! Bir də soruşuram kimdir Yevreyi qıran?! Buşdu, ya "Alman", Vatikan fitvasına uyan italyanlardı, yoxsa, əli yaderli "Rus Yevrey" inin özü?! Vot qde zarıta sobaka! V Yevreye zarıta sobaka! EvƏrEy OdƏrləri əlinə silah almır! EySar "ne ubiy" deyir, ay qanmaz! De görüm, niyə rusca dedim bu sözləri?

Bünyad bəy dodaqlarını büzdü:

– Sənin dilini qanmaq olmur.

Səməd dedi:

– Qanırsan, ay tülkü. “Vonyayete” sözü “Bibliya”dandı. “Bibliya” sənə “Vonyayete” deyir, sən isə hələ də əl çəkmirsən “Bibliya” dan! Vatikanın monaxları yazıblar.

Bünyad bəy tutuldu:

– Onu təkrar eləmə sən!

– Düz deyil ittihamım?

Bünyad bəy nədənsə etirafa ehtiyac duydu:

– Düz olmağına, əlbəttə, düzdü. Qaniçən olmağına qaniçənik. Təkcə Əfqanıstan hadisələri hərdən mənim özümə də qəribə gəlir. Bu son vaxtlar Qarabağ deportasiyası, Bakıda iyirmi yanvar qırğını göz qabağındadı. Amerika EvƏrEyi “Yevrey”in dünya miqyaslı möhtəşəm hakimiyyətinə son qoyur! Sizin qanınızı içməsək, azadlıq yoxdu Rusiyaya!

Səməd başını bulayırdı.

– Neftdən başlamış göy-göyərtiyə qədər, vətənimin bütün varidatından respublikaya gələn ixracat gəlirinin hamısına sahib olub, üstəlik, “Vv” ordusunun raketi altında əsir saxlayırsınız! O nə azadlıqdı sənin istədiyin, ay Yevrey?! Mümkündümü?!

Bünyad bəy söz tapa bilməyib duruxanda Musanın səsi gəldi:

– Küllüyün tarixi qaldı, ay Səməd.

Səməd dedi:

– Küllüyün tarixi “Yevrey” – EvƏrEy tarixi deyilmi?

Musa dedi:

– Meyit də qaldı. Gün vurur.

Bünyad bəy pis qoxu hiss etdi və ağlına qəribə bir fikir gəldi:

– Bura bax, ay sadist... Bu söz-söhbətləri, hadisələri ilə birlikdə sən bu ilin meyitini də gözümə soxacaqsan?!

Səməd güldü:

– Afərin, Bəy! Gələcəyə baxırsan!

Bəy meyiti göstərdi.

– Heydər Əliyev hakimiyyətə gələli bu it mənim itlərimin yanına qısılmışdı. Mən də belə elədim bunu. Çoxmu qalacaq günün altında?

Səməd dedi:

– Tarixi danış!

Bünyad bəy başa düşdü ki:

– Yəni tarix qurtarana qədər burda bu qoxu məni vura-vura qalmalıdı?

Yenə Musanın səsi gəldi:

– Cəhənnəmin qanunudu bu, ay it!

Bünyad bəy əlacsız fısıldıyıb:

– Qayıdım, – dedi. – PirVəligil dərədən çıxıb Sarıyoxuşun başında görünəndə baxdım ki, atın biri yüklüdü. Ayolloya dedim: "Birləşmə planı o xurcunda, gəlin paltarının içində olmalıdı. Əliheydərə belə deyiblər. Həm də Əliheydər "toya hazırlıq" deyəndə başa düşdüm ki, bəyə paltar, kəmər-filan aparacaqlar, plan hökmən gəlin paltarının içində olacaq.

Sonra papağı basdım gözümün üstünə, ortadan dala keçdim ki, görməsinlər məni.

– Bilirdin ki, üçü də öldürüləcək, sənin iştirakın gizli qalacaq? Otryadın arxasına keçməyini belə başa düşək?

Bəy dedi:

– İnsanam. Mən də PirVəlinin evində çörək kəsmişdim. İstəmədim görsün.

Səməd kolların arxasında tüstüdən ocağın yanından Musanı çağırdı.

– Musa, "mən də insanam" deyir Bünyad bəy. Gəl bunun insanlığını əyani göstər.

Bünyad bəy kolların dalından çıxan əlli il bundan əvvəlki Orduqozlu, donqarbel, boynu əyri Musaya diqqət yetirməyə imkan tapmadı. Bir göz qırpımında özünü lopa-lopa yağan qar altında, qurşağa qədər qar içində gördü. Türmən düzü qış dumanına bürünmüşdü. Qara yapıncılı, qarayanıq Orduqozlu Musa çomağa dirənib, qurşaqdan aşağı meyitə baxa-baxa ağlayırdı, cır-cındır geyimli "itəbaxan fəhlə" Bünyad bəy isə sağ-soldan qarı eşələyib meyitin üstünə doğru basırdı. İşini görüb-qurtarıb Orduqozluya doğru atıldı, ordan-burdan kom-kom pambıqları çıxmış sırıqlı pencəyinin altından çıxartdığı bıçağın havada gümüş kimi ağarması ilə yapıncının yaxasından içəri qan püskürməsi bir oldu. Sonra Türmən düzü, qar, Sərvinaz, Orduqozlu, hamı, hər şey şəkil kimi donub yoxa çıxdı.

Gözəl naxışlı çəpkəndə, yorğun-arğın dayanmış gözəl Musa qayıdıb kolların arxasına getdi.

Səməd qışqırdı:

– Danış, ay "ins"! Danış heyvanlığını!

Bünyad bəy bir xeyli özünə gələ bilməyib, sonra:

-Yenə sadistləşsən heç nə deməyəcəm, – dedi.

Səmədin rəngi ağarmışdı.

– Necə sadistləşməyim, ay nəslimin kökünü kəsən qaniçən.
– O iy çəkəni at ora, lapatkanı götür, başla torpaqlamağa! Bircə həftə katorqa cəzasından sonra danışarsan!
Musanın gülüşü səsləndi:
– Səməd, qoy itlərlə ünsiyyətinə baxsın!
Səməd dedi:
– İyrəncliyinə sonra da baxar. Get, lapatkanı götür, a Bəy!
Bünyad bəy ayaqlarını sürüyə-sürüyə, üzülə-üzülə gedib, körpünün üst tərəfində təzə göyərməyə başlayan xırda, qoşayarpaq qamışların aralarına yapıxmış köhnə, boz qamışların altından lapatkanı tapıb qayıtdı.
Səməd dedi:
– İndi küllüyün quyuya lap yaxın yerini qaz, görək nə çıxacaq ordan.
Bünyad bəy lapatkanı yerə çırpdı.
Səməd güldü:
– Nə oldu, Bəy?
Bünyad bəy xırıldayırdı:
– Sən... Sən bunu da bilirsən?!
Səməd istehzalı idi:
– Nəyi, Bəy? O küllükdəki iki küpə qızılı deyirsən?
Bəy lapatkanı götürüb küllüyün quyuya lap yaxın yerini eşdi, hər biri bir səhəng irilikdə iki küpə çıxarıb, quyudan bir neçə addım kənara qoydu. Yəni ehtiyatlandı ki, küpələr enişə dığırlanıb quyuya düşər.
Səməd yenə qəhqəhə çəkdi.
– Varisin-zadın da yoxdu ki, deyəsən vərəsədi. Bir ayağın burda, bir ayağın gorda, o qədər qızılı neynirsən, ey “ins”!
– Bu işgəncənin arasını kəs, küpənin birini apar ver Muğannalara.
– Rüşvət verirsən? Bilmirsən ki, Muğlar torpağı qızıldan qiymətli sayırlar, ey “ins”?
Bəy dedi:
– Başa düşmürəm, niyə çıxartdırdın bu küpələri?
Səməd dedi:
– Sovxozdan bura həm də qızılı aparmağa gəlmirdin? Aparar-san də!
Bəy dedi:

– “Qoca” yoxdu daha. Maşını da bilmirəm harda gizlədib. Tək aparammaram. Bir də ki... sən yəni doğrudan imkan verəcəksən qızıl aparım, yaşayım mən?

Səməd dedi:

– Mən qatil deyiləm. Musa da əl qaldırmaz sənə.

Küllüyün tarixinə keç! Sarıyoxuşa! Atlılar gəldilər dayandılar otryadın qabağında. Sonra nə oldu?

Bəy dedi:

– Sonrasını, şübhəsiz, bilirsən. Ha fikirləşirəm, tapammıram, niyə axı danışdırırsan məni?! Cəhənnəm əzabını da başqa cür çəkdirirsiniz siz, bayaq lap aydın oldu. Bu danışmağımın nə mənası var, ay Səməd?!

– Bayaq dedim, sonra biləcəksən. Dərsdi bu. Dərs! Başa düşmürsən?

– Yəni mən doğrudan yaşayacam?!

Səməd dedi:

– Qızılın əlində, Rusiya, İran arasında niyə yaşamayasan?! Danış! Ayolla mauzerini qoburdan çıxaranda nə oldu?

Bünyad dedi:

– Ayolla mauzeri o işıqsaçan Hüseyninizin sinəsinə qaldıranda, PirVəli dedi: “Qardaşım toy üstədi, muradını gözündə qoyma. Yanımdakı da sağdışıdı. Cavanlara qıyma. Sən də mən təki yaşlısan. Yəqin oğul-uşağın var, toy-şan gözləyirsən. Qıyma cavanlara. Vurursan, məni vur. O pal-paltardan da nə istəyirsən, götür”.

Yalvardı PirVəliniz.

Bandit Ayollanın qolu boşaldı.

Banditlərin otryadında pıçıldaşma düşdü. Gördüm hamısının heyfi gəlir Hüseynə.

Naqanımı çıxartdım, əvvəlcə PirVəlinin sağ qoluna atdım. Dedim: “Get Hüseynin toyunda tək qollu oyna”.

PirVəliniz baxdı, tanıdı məni. Dedi: “Sən hara, bunlar hara, Bünyad bəy?! “

Dedim: “Sən hara, mazutun içində fəhləlik hara, ay sərkər çoban?!”

Dedi: “Bu müxənnətliyi heç Müaviyə də eləməyib. Yezidi göndərib ki, get Kufədə qır Hüseyngili, gözüm görməsin. “Yezid”in də

əsli ƏsOd olub, ay "Muğ". Ta qədimdən dəyişmişik, dönük olmuşuq. Bir-birimizin qanını tökməsək, işimiz yerimir!"

PirVəliniz ayıldı, tanıdı düşmənini. Üzünü döndərdi ki, Ayolloya nəsə desin. Üzünü döndərəndə ikinci güllə ilə ağzında dilini vurdum. Dedim: "İndi get atana xəbər ver ki, Bünyad bəy Rusun adamıymış. Şəkər bəyin qalasında Türk qoşununa çuma salıran da Bünyad imiş, kiçik qardaş Musanı böyük qardaş Hacı Əlinin qucağında çumaya yoluxdurub öldürən də Bünyad imiş.

PirVəlinizin ağzının qanı qolunun qanına qarışdı. İşıq saçanınızla "sağdiş" Musanın rəngi saraldı.

Dedim: İndi "murad üstə" olan Hüseyninlə sağdışına bax! "

Döndü baxdı.

İşıqsaçanınız dedi:

– İndi-indi başa düşürəm ki, yuxuda yaşamışam, insanı tanımamışam. Aman ver bir az yaşayım!

Üçüncü gülləm sağdışının kəlləsini deşdi. Dördüncü gülləm Hüseyninizin alnını deşdi. Bu itdən öyrənmişəm alının düz ortasına atmağı. Bu meyit həmişə belə atardı həmişə alının ortasına. Beşinci gülləni PirVəlinizin ardınca atdım. Çünki cavanların meyitlərini görəndən sonra Sarıyoxuşun yarğanından özünü atıb Türmən yatağına qaçdı. Demə, Mustafa Kamala məktubun yerini düz deməmişəm mən, PirVəli özü ilə aparıb. Ağlıma bir fikir gəldi: O vaxt Mustafa Kamal Trabzona təzəcə getmişdi. Ordusu Gürcüstanın bəri tərəfində Qreklər olan səmtindən meşəliklərə, kiçik-kiçik hissələrlə topxana, ərzaq daşıyırdı. Fikirləşdim ki, məktubu paltarın arasından çıxardım, gedim orduya qoşulum. Məktubu təqdim eləyim, Mustafa Kamalın əzizi olum. Əmma demə, məktub PirVəlinizin özündə imiş. Paltarın, hətta yəhərin içini atım-atım elədik, məktub tapılmadı. Ayollaya dedim: "Mən Omar ağanın evinə gedəsi oldum. PirVəlinin paltarı soyundurulanda birtəhər eləyib məktubu ələ keçirməliyəm!" Özüm getdim, çobanları eşiyə çağırdım, dedim, Gürcülər vurdular, öz gözlərimlə gördüm. Atlanın, xəbər çatdırın. Omar ağa dava-dərman göndərsin, rahat araba göndərsin. Bir-ikiniz də gedin Hüseynnən, Musanın meyitlərini gətirin.

Səməd soruşdu:

– "PirVəliniz", "PirVəliniz", Niyə belə deyirsən?

Bəy dedi:

– Çünki bütün Omarağalıya ət, yağ, motal, yun, dəri verən HacıAlıdan tutmuş Hüseynə qədər, hamını gimnaziyaya göndərib özü savadsız qalan PirVəliniz bütün nəslin pənahı idi. Peterburqdan Bakıya gələndə mənim cibimdə gimnaziya, institut qurtaran Muğannaların siyahısı vardı. O vaxt bilirdim ki, o siyahının dalınca Muğannaların daha böyük siyahıları göndəriləcək. Başda da çoban Pirin adı.

Səməd soruşdu:

– Başda Omar ağa olmalı deyildimi?

Bünyad bəy:

– O çörək qazanan adam deyildi, – dedi. Çünki günü dağlarda, dərələrdə Qaçaqların arasında keçirdi.

Dağlarda atışmaların arası kəsiləndə Dəli Alı həmişə Omar ağanın dalınca atlı göndərirdi ki, qohumu AğBizənli Aşıq Alıynan getsin Qaçaqları ruhlandırsın. Siyahıda Omar ağanın adını lap axıra salmışdılar.

– Niyə?

– Məlumat çatmışdı ki, guya savadsızdı. Mən bilirdim ki, Amasiyada, Ağbabada təhsil alıb. Muğlarla, qaçaqlarla onun vasitəsi ilə əlaqə saxlayırdım. Qəribə, heyrətli adam idi Omar ağa. Beynimi görürdü, hər şeyi bilirdi, deyirdi: “Sən təki qaniçəni anası doğmayıb”. Əmma əl qaldırmırdı mənə, kəmərində qılınc kimi uzun, enli, gümüşdəstə xançalı vardı. Mənə qəzəblənəndə, xançalla azı yarım saat qanqal döyəcləyirdi, yığırdı, qucaq-qucaq gətirib camışların arxacına tökürdü, qan-tər içində lənət oxuyurdu mənə: “İt təki öləcəksən! – deyirdi. – Sənə görə mən əbədiyyəti əldən verməərəm”.

Səməd dedi:

– Sən kimisini öldürməklə əbədiyyətini itirməz Bağ. Bəs səncə niyə vurmurdu səni Omar ağa?

– Deyirdi sən təki adamların cəzası dərgahdan gəlir.

– Sən inanırdın buna?

– İnanırdım... Qəzəbləndə Omar ağanın gözləri dəhşətli olurdu. Yaşıltəhər kül rəngiydəydi gözləri. Qəzəbləndə elə bir ağarırdı. Qorxurdum bir az. Bilirdim vurmaz, əmma qorxurdum.

– Niyə?

Bəy dedi:

– Bilmirəm.

– Bilirsən, Bəy! De!

Bünyad bəy anlaşılmaz hirslə:

– Başa düşmürəm, niyə soruşursan? – dedi. – Sənə ki, hər şey məlumdu, hər şey!..

– Məsələn?

– Məsələn, Ulu Bağ ƏsƏlMən SağSan BağSar – “Süleyman”, “Solomon” padşah deyiləndə mənə elə gəlirdi ki, bizim Yer, yurdla heç bir əlaqəsi olmayan, qədim, nağılvarı bir varlıq olub, ölüb gedib. Əmma İsa əfəndi Məmməd ağa-filan (rusca danışanlar) hərdən “Solomon” deyəndə canıma üşütmə dolurdu. “Solomon” adı çox real, həm də doğma gəlirdi mənə, “Bibliya”, “Quran”dan doğma görünən təki. İstər-istəməz fikirləşirdim ki, axı bu Ulu Bağ ƏsƏlMən nəsli “Solomon” nəslidisə, mən bunlarla bir cəbhədə olmaq əvəzinə, niyə öldürürəm bunları?!

Səməd “hm” eləyib, qəmli-qüssəli soruşdu:

– İndi bildinmi kimsən?

Bəy bu sualdan heyrətləndi:

– Necə yəni “kimsən?”

Səməd dedi:

– Sadəcə, təhrif!.. Hər şeyi dərk edə-edə heç nə dərk etməyən qeyri-adi təhrif “ins”, bədbəxt!.. Otuzuncu illərdə Qarayazı meşəsində “Zversovxoz” tikmək, “nutra” dərisi istehsal eləmək ideyası təzə-təzə ortalığa çıxırdı, əmma Omar ağa sənə deyirdi: “İt kimi öləcəksən!” Sən hiss eləyirsən ki, “Solomon” nəvəsi deyir bunu sənə! Ulu Bağ ƏsƏlMən SağSan BağSar “Süleyman” rütbələrini hiss eləməyən təhrif “Yevrey” təhrif “Solomon” rütbəsindən üşürgələnirdi.. Sən həqiqətən it kimi öləcəksən, Bəy! Bu heç. Başqa söhbət var.

De görüm, “Şəhriyar”dan sürgün olunan yüz bir Bağdan yüzünün yurdları Muğanlı, Muğlar, Muğan, OdƏsmən və sairə adlandığı halda, Musa babanın kəndi niyə Padşahlıq adlanırdı?

İndiki suallarıma dərhal, həm də yerli-yataqlı cavab versən, axşama qədər o itin iyindən öləcəksən, Bəy. Danış!

Bünyad bəy inlədi:

– Musa ağanın gizlin BağSar AğEy – AğEy Sarlarının Bağı olduğunu AğEy OdƏrlərinin hökmdarı olduğunu o vaxtkı Qazax mahalında heç kəs bilmirdi. Nəslin “Muğanna” adı altında gizləndiyini Məmməd xozeyinin xanımı, beş-altı adam bilirdi:

“Məhəmməd xozeyinin xanımı Hilal, Omar ağanın oğlu Mustafa, qardaşı oğlu Xanbaba bilirdilər.

Xanbaba çox ayar, danışan-gülən, yeyən-içən adam idi. Arağı içər, əlini qoyardı qulağının dibinə, başlayardı oxumağa. Həmişə bircə bənd oxuyardı:

> Dolayı-dolayı yolun olaydım[1],
> Ay qız,[2] ağzındakı dilin[3] olaydım.

Hamı gülürdü ki, bu Xanbaba niyə elə həmişə bu beyti oxuyur? Kim idi bilən?

Xanbaba gizlin dərs dediyi cavanları başına yığıb qumar oynayırdı. “Əşi, heç bilmirəm mən təki belə sərdanənin kəndinin adını niyə Padişahlıq qoyublar? Biz hara, padşah hara?” Sonra da başlayırdı hönkür-hönkür ağlamağa.

Bu cür “cavab”ıma bunu da əlavə eləyim ki, altıncı ildə mən Peterburqdan Bakıya gələndə xeyli sonralar da Bakı qubernatorunun “Upravleniye po delam pereselensev” siyahısında kənd hələ “Padişaxlıq” adlanırdı. “Upravleniye”nin o vaxtkı gizlin rəisi Əlibəyova dedim: “BağSarı Arazın bu tayında camaatdan gizlədirsiniz. Bəs Arazın o tayında öz gizlin adlarını da gizlədib “BağOd”, “Səfəvi”, “Bəhayi”, “Əmirli” adlanan Bağları gizlətməyi lazım bilmirsiniz?!”

Əlibəyov bilirdi ki, Birinci Aleksandrın zamanından qalan “soverşenno sekretnıy” departament materiallarının hamısı mənim beynimdə idi.

Dedi: “Padşahın özünün izni olmasa, kəndin adını biz necə dəyişdirə bilərik?”

Dedim: “Hüseyn ağa ölüb. Omar ağanın BağSar olduğunu, Zeynalabdin Tağıyev, bu tayda oğulları, üç qardaş ilə onların oğulları, Məmməd ağa, Nəriman Nərimanov, Aşıq Ələsgər, Aşıq Alı, bir də qaçaqbaşı Dəli Alı bilirlər. Əgər Padişahlıq adını yalnız “Upravleniya”nın siyahısında saxlayıb, köhnə Qazax mahalının “Naloqovaya kniqa”sında “Omarağalı” yazsaq, necə olar?!”

---

[1] Ulu bağın sarayı yerləşən Olam (Olimp) dağının dörd dövrəsinə – OdAğÜz BağOdƏr planetindən gələn 124 min nəfər OdƏrə işarədi. İslam dini bu adı, real insanlar “124 min peyğənbər”ə çevirib.

[2] Ay qız (*rəmz*) – AğÜz

[3] Ağzındakı dil (*rəmz*) – OdƏl (Həqiqət Əli)

Əlibəyov dedi: “Bəs o taydakı BağOdlar, Səfəvilər, Bəhayilər, Əmirlilər Omar ağa ilə, Nərimanla, Məmməd ağa ilə, Aşıq Ələsgərlə, Aşıq Alı, Dəli Alı ilə əlaqə saxlamırlar?”

Dedim: “Cənab Əlibəyov, o boyda “Upravleniye”nin rəisisən, bilmirsən ki, köhnə “Naloqovaya kniqa”da “Padışahlıq” adını pozub “Omarağalı” yazsaq, təzə “Naloqovaya kniqa”da kəndin adı “Omarağalı” olsa, yəni Əxi Padişahının yeri itsə, adlarını çəkdiyimiz adamların, o cümlədən Omar ağanın ölümündən sonra BağOdlar, Səfəvilər, Bəhayilər, Əmirlilər bizə necə sübut edəcəklər ki, Bağdayın BağSarı Ulu Bağ ƏsƏlMənin nəsli bu tayda imiş?! Axı mənə xüsusi tapşırılıb ki, Bağların kökünü kəsməklə yanaşı, coğrafi ərazilərini unutdurmaq lazımdı ki, elə bu əsrdə əlli-altmış ildən sonra tərik OdƏrlər Bağlarla birgə özlərini də tanımasınlar. Cəmi Fars siyasətçilərinə də tapşırılıb ki, OdƏr əvəzinə Azər desinlər onlar. Qoy “Muğanna” desinlər”.

Əlibəyov dedi: “Sən uzağa baxırsan, Bünyad bəy”.

Dedim: “Uzaqgörən olmasaydım, Nikolay Romanov məni bura göndərərdimi, cənab Əlibəyov?! Poz siyahıdan “Padişahlıq” adını. “Omarağalı” yazdır!”

Sən məndən kəndin niyə Padişahlıq adlandığını soruşdun, mən Padişahlıq adını necə pozdurduğumu da danışdım. “Yerli-yataqlı cavab”dan razısanmı?!

Səməd:

– Yox, – dedi. – Mən səndən soruşdum: “Omar ağa niyə işləyən deyildi?” Sən bunu daim at belində dağda-bağda gəzməyilə izah elədin. Əsas məsələni gizlətdin.

Bəy dedi:

– Gizlətmədim, sadəcə ixtisar elədim ki, söhbətimiz qısalsın, axşama qədər “it iyində” qalmayım. Madam ki, tələb eləyirsən, danışım. Əmma izn ver yenə soruşum: belə şeyləri niyə danışdırırsan?

Səməd sərtləşdi:

– A kişi, dedim axı, bu dərsin səbəbini sonra biləcəksən.

– Yaxşı, yaxşı, hirslənmə, – deyib Bəy tələb olunan sualın cavabını danışmağa başladı:

– Əmin Sultan Əmirli hələ əlli dördüncü ilin yayında, AdıPünhan general Məhərrəmovun mənzilində səni başa salıb ki, Yer Bağları yalnız Ün eşitdiklərinə görə, Ün yaya-yaya SafAğ İnsan yetirməklə Bağlıq eləyirlər. Ün eşidən Bağın niyə işləyən olmadığını bilmək

üçün Məhəmməd – BağHəmOd peyğəmbərin bioqrafiyasını oxumusan, o mənzildə Ağ Əmirlə Boz Əmirin yeddi yüz əlli cildlik "Vərəsə" kitabxanasının "xronika"sını – Heydər Hüseynovun "Posle potopa" kitabını oxumusan. Kitabxanadan qalan parçaları haman xronikanın əsasında tərtib eləyib SafAğ Alimi, batin çekist olmusan. EySarın Ününü eşitmisən. AdıPünhan Muğannanız kimi, gecə saat on ikdə stolun dalında oturub, səhər saat yeddiyə qədər Ün dinləmisən. Gündüzlər nə iş görə bilərsən sən beyinləri oxumaqdan, adamları tanımaqdan başqa?

Səməd soruşdu:

– Omar ağa nə yazıb?

Bəy dedi:

– Heç nə.

Səməd soruşdu:

– Niyə?

Bəy dedi:

– Onun bir böyük həcmli "Quran"ı vardı. Omar ağanın yaxın bir qohumu AdıPünhanın evində saxlanır o "Quran". Vatikan casusu Aliksiyin dəyişdirib çox yerini anlaşılmaz şəklə saldığı "Quran"ın əksinə o böyük "Quran"da hər şeyi olduğu kimi oxumaq, şərh eləmək mümkündü. Aşıq Ələsgər öz gizlin şagirdləri ilə AğBizən kəndinə gedəndə, ya da yayda Omar ağa Göy Qılınc yaylağında olanda "Quran"ı oxuyub şagirdlərə şərh edirdilər. AğÜz OdƏri olduğunu, "XIZ"ı – AğÜz camaatının Qazaxdan, Muğandan sürüldüyünü biləndən sonra İsa əfəndiyə, Musaya vurulan Mikayılı Müşfiqinizlə birgə mən də gizlin şagirdlər olmuşuq. ƏlƏsgərin, AğBizənli Alının, Omar ağanın özünün şagirdləri idik.

– Müşfiqi də sən öldürməli idin?

– Əlbəttə!

– Bəs niyə öldürmədin?

– Bilmirəm, düzü, o şairin üzündə nə isə, qəribə doğmalıq görürdüm, elə bilirdim qardaşımdı.

Səməd Bəyə maraqla baxdı.

– Hə! Cəlladda doğmalıq hissi!.. Təzə şeydi bu məndən ötrü... De görüm, Dəli Alı bilmirdimi ki, "gizlin şagird Bünyad bəy" Nikolayın casusudu?

Bəydən qəribə, çox pis hırıltılı gülüş qopdu. Bu yeni əlamət idi; Səməd diqqətlə baxıb anladı ki, Bəy çox səmimi, ürəkdən gülürdü.

– De, de, – dedi. – Nəyə güldün?

Bəy dedi:

– Əşi, bir orduluq Qaçağın başçısı Dəli Alı Nikolayın casusu deyildimi? Dəli Alı cəmi Yer üzündə Ədalət Səltənətinin aşiqlərinə, AdıPünhan ƏlƏsgərin özünə açıqca deyirdi: “Cəmi Yevrey OdƏrləri EvƏr Eyliklərini və cəmi bəşərin OdƏrliyini qanıb zorakılıqdan, müharibələrdən əl çəkməyiblər, sən mənim Gəncə qubernatorunun qoşunlarını qırmağımı niyə vəsf eləyirsən, ya Şeyx ƏlƏsOdƏr?!”

ƏlƏsgər deyirdi: “Nikolay itoğlu tutur bizi, ay Alı, zəliyə dönüb qanımızı sorur, sən qırırsan, mən də sənin igidliyini vəsf eləyirəm”. Əgər Nikolay sovetniki Tağıyevdən aldığı dərsdən bəhrələnib EvƏrEyliyinə ürəkdən inansaydı, sənin millətin belə ayaq altda qalardımı?! “Siz Bağlar da, biz Təhriflər də lap belə axmaqcasına söz oynatmaqla məşğuluq, Səməd!” Sizin Dəli Alısayağılarınız, belə alayarımçıqlarınız azdımı indi? Onlar da qan tökmürlərmi?!

“Yevangeliya”da EySar öz Apostollarına – EvƏsOdƏllərinə demirmi ki, “Sizdən biri satacaq məni”. Hər şeyi görən, əvvəlcədən bilən EySar, Vizantiya casusu Paveli, o Yevreyi niyə ifşa eləmir?! Mən Yevrey, mən yəhudi, soruşuram səndən indi: “Ay sadist, “BağBil”dəki “ÜnEvEy” sözü “ne ubiy” tərcümə olunubsa, EvEyin Ünü insan öldürmürsə, məni niyə öldürürlər?!”

Səməd dedi:

– ÜnEvEy “ne Ubiy” demək deyil, ay Yevrey, ÜnEvEy öldürür!

– Nə?! Öldürür?!

– Əlbəttə! Bayaq sənə demədimmi ki, cinayətlərini yenidən görəcəksən! Dəfələrlə! Mənim səsimlə, öz səsinlə dönə-dönə eşidəcəksən Odu – Həqiqəti!

– Və öləcəm?!

Səməd bir az ara verdi. Sonra Omar ağanın sözlərini təkrar etdi: “İt kimi öləcəksən!”

Bünyad bəy bir daha, dönə-dönə soruşmaq istədi ki, “Əgər bu sorğu-sualın yekunu ölümdürsə, məni də danışdırmağın mənası nədi?!”

Əmma dillənə bilmədi.

Səməd bir daha dedi:

– Sonra biləcəksən hər şeyi. Sonra, sonra.

Bəy birdən-birə lap çılğın qışqırtı ilə:

– Heç qanammıram ki, niyə danışdırırsan məni! – dedi. – Niyə? Niyə?!

Səməd əksinə, sakitliyini saxlayırdı.

– Mən sənə dedim: “Muğanlı küllüyü”nün tarixini danışıb qurtarandan sonra biləcəksən bu sadistliyin səbəbini! Alimlərlə Dəlilər arasında əlaqə necə qurulmuşdu? Dübarə və yerli-yataqlı cavab! Danış!

Bəy dedi:

– Əlaqəni yaradan Aşıq ƏlƏsgər idi. ƏlƏsgərin qardaşı Məhəmməd idi. Təkcə Alının əlinin altında bir orduluq Dəli vardı. Demədimmi?!

– Aşıq Alının?!

Bünyad bəy təkrar çılğınlaşdı:

– Öldürürsən məni! AğBizənli Aşıq Alı, dedim ki, Ələskərin bacısı oğlu idi, ƏlƏsgərdən sonra AdıPünhan, açıq ƏsAğ olmalı idi BağBağÜn, Əxi Baba yanında. O tayda, Türkiyədə əxilərlə əlaqə saxlamalı idi. Yəni gizlin BağÜnlərin – “Muğanna “ların gizlin “Aşıq məclis” lərində “Ustadnamə” – “ƏsOdÜnMənləri, “Təcnis” – OdƏsÜnƏsləri, “Bağlama”ları – BağBağa bağlayan “Qıfılbənd”, “Dastan” – OdƏsOdÜnləri şərh edə-edə, təhrif mühit Bağlarının biliklərini, yaddaşlarını təzələməli idi. Omar ağanın EySardan eşitdiyi xəbərləri çatdırmalı idi.

“Alı” deyildi Aşıq Alı, Əli idi. Rütbədi bu “Əli” sözü, Göyçəli Aşıq “Alı” Hüseyn ağanın – ƏsÜn AğEyin Əli – işləyəni, söz ilə yaradanı imiş. “ƏlƏsgər” – ƏlƏsOdƏr EySarın özünün Əli idi. ƏlƏsGərin şagirdi Aşıq AğBizənli “Alı” da dediyim kimi, Əli idi. Ustadından sonra ƏsAğ – Yaradan SafAğ İnsan olmalı idi.

Səməd soruşdu ki:

– Niyə “olmalı idi” deyirsən? Baş tutmadı?

Bəy dedi:

– Mən deyirəm ƏlƏsGərdən sonra olmalı idi və oldu da. Hələ ƏləsGərin sağlığındakı Əlilərdən danışıram axı, ay sadist! İmkan ver, danışım də!

Səməd dedi:

– Danış. Çox əziyyət verməndən daha.

Bünyad bəy nisbətən sakitləşdi.

– Dəli Alı da “Alı” deyildi, Əli idi. Dəli “Alı” rütbəsinin “Aşıq Alı” rütbəsindən fərqi bunda idi ki, “Dəli Alı” – OdƏl Əli – həqiqət

Əlinin Əli idi. Yəni Bağ Sarın – Musa ağanın vuran Əli idi: Qırğın təhlükəsi yarananda, ərazini tərk eləyib bir daha Tərik – Türk olmaq mümkün olmayanda Ulu Bağ ƏsƏlMən özü "ƏsƏlim!" deyirdi. Yəni dözmürdü. Bağ Ata əzab verirmiş buna görə... o əziz oğluna əzab!

Səməd soruşdu ki:

– İkiliyin səbəbi yoxdu?

Bəy fikirləşməli oldu:

– Görünür, yerdə həyatın ağırlığındandı də, yoxsa Ulu Bağ səbrini itirməz.

O Dəli Alının Səttar kimi sərkərdələri, Qaçaq Nəbi, Qaçaq Kərəm kimi sərkərdələri vardı o tayda, bu tayda. On birinci ildə Səttar xan vurulandan sonra Ağ Əmirlə Boz Əmirin mədrəsəsində dərs alan Dəlilər, yəni farsca Fədai adlananlar bilavasitə Dəli Alının başçılığı liə döyüşürdülər.

– Səttar xanı kim vurdu? Niyə ötürürsən?

– Sadist! Mən heç bilmirəm niyə Adil – OdƏl sayılırsınız siz belə zülmkar ola-ola! Sənə məlum deyilmi ki, Birinci Aleksandrın Muğanı tutduğu vaxtdan da əvvəllər dolmuşuq biz İrana?! "Rus vurdu Səttarxanı" deyirlər. Camaat nə qanır "Rus" kimdi, "Yevrey" kimdi? "Yevrey" də elə "Rus" üstə getmirmi?! Meydanda sinəsini qəribə, qorxusuz-ürküsüz durubmuş Səttar xan. Lap uzaqdan, tindən atıblar, yıxılıb, vəssalam! Ümumiyyətlə ehtiyatsızdılar Qaçaqlar, Fədailər. Yalnız Təbrizdə Ağ Əmirlə Boz Əmirdən dərs alıb Mazandarana-filana İngilis ordusunun qabağına çıxan Fədailər əsgərsayağı intizamlı, ehtiyatlı idilər, bir də onların arasından bu taya – Göyçəni, DərəƏlEyƏzi, AğBizəni qorumağa gələnlər bildilər ki, bu yanda Rus hər cür cildə girir, ona görə də özlərini qoruyurdular. Yayda, Göy Qılınc yaylağında Omar ağa əli çəlikli gedib, gizlin yolun qırağında otururdu. Göy Qılıncdan özünün geyindiyi arxalıq kimi qara arxalıqlı, ağdəstə xançallı, əli dərviş əsalı adam görəndə bilirdi ki, AdıPünhan Əmirlilərin qasididi. Binədəki "qonaq dəyəsi"ndə çətən qapını bağlayıb EySarın əmrlərini danışandan sonra "qonağ"ının çantasına pendir, çörək qoyurdu. Nə Göy Qılınc yaylağının "Omarlar" yurdunda, nə Qılıncın ayağındakı dərədə Omar ağanın bacısı uşaqlarının "Qanlı yurd"unda, nə də "Qanlı yurd"dan o yanda, dağ döşündə Omar ağanın ana qohumları "AllahMənlər" yurdunda heç kəsin xəbəri yoxdu ki, "qonağ"ının çantasındakı çörəyin içində Göyçəyə, Aşıq

ƏlƏsGərə məktub gedirdi. Göyçədə də heç kəsin xəbəri yoxdu ki, haman çörək Aşıq ƏlƏsGərin atının tərkində, heybədə Dəli Alıya gedirdi. Dəli Alının Dəliləri məktubun üzünü köçürüb Qaçaq Nəbiyə, Qaçaq Kərəmə aparırdılar. Qaçaqlar dəstə-dəstə yayılıb o tayda Ərbabların dədələrini yandırırdılar, bu tayda qubernatorun mən təki batinlərinin də dədələrini yandırırdılar. Omar ağanın dönə-dönə tapşırığına baxmayaraq, SafAğa vaqif Bünyad bəyi də bir-iki dəfə döymüşdülər. O Orduqozdu olanın gəlsin aparsın bu iki küpə imperialı! Kefinizi çəkin dünyada, ay bədbəxtlər! Cəmi Yer üzündə Vahid Ədalət Səltənəti ideyasını Rusiya imperiyası ideyasına çevirmişik biz "Yevrey"lər, ay bədbəxt![1] ƏsƏlMən – "Solomon" – "Süleyman" yerə qayıdanda Ədalət Səltənətini bərpa eləmək çox çətin olacaq. Yer Kainatdan ayrılıb, a bədbəxt! "Ərəb" "Yevrey"lərini doldurmuşuq İraqa. Şimali Azərbaycana Asoruları doldurmuşuq "Kürd", "Erməni" adı ilə. Ən xırda milli azlıqlar arasında da ədavət salmışıq. Hətta talışların könlündən də müstəqil respublika keçir! Əbləhlər qanmır ki, "talış respublikası" Xəzəri sizin əlinizdən qopartmaqdan ötrüdü. Şimali Azərbaycanla Cənubi, Şərqi Azərbaycan arasında sədd çəkəcəyik, xırda-xırda hər cür "kürd", "ləzgi" respublikaları ilə SafAğ İnsanı – OdƏri, Bağday ərazisini yoxa çıxarırıq. Döyüşür indi "Yevrey", a bədbəxt!

Orda-burda "podpolnıy KPSS"də Səddamın dövləti də, Xomeneyinin dövləti də, qeyriləri də bizimdi!

Səməd dedi:

– Ehtirasa qapılma, Bəy, Sən küllüyün tarixini danış.

Bünyad bəy bar-bar bağırırdı:

– Saysız-hesabsız sualların cavabında "yerli-yataqlı cavab" lar uzandıqca uzanacaq! O Göy Qılınc yaylağında, o "qonaq dəyə-si"ndə Omar ağanın qara arxalıqlı" "qonaq"ların çantalarına, çörəyin arasına qoyub göndərdiyi məktubların sayı-hesabı yox idi. "Qərib oğlan" deyilən Mikayıl Müşfiqi yanıma alıb çıxırdım Qılıncın belinə ki, Omar ağanın heç olmasa, bircə "qonağ"ını gö-rüm, bir çarə tapım, məktublardan heç olmasa birini oxuyum. Mümkün deyildi. Qılıncdan dərəyə enən kimi yoxa çıxırdı "qonaq". EySar torlandırırdı gözümü. Taqətdən düşüb yıxılırdım.

[1] Orta əsrlərdəki "Vahid Ədalət səltənəti" ifadəsi yalnız XIX əsrin axırında kökündən dəyişdirilib. Müasir "qlobalizasiya" ideyası ifadəsi ilə əvəz olunub.

“Yerli-yataqlı cavab” versəm, gərək qubernatorun Qaçaqlarla döyüşdən sonra ələ keçirdiyi o saysız-hesabsız məktublarla bağlı hadisələri də danışım! EySarın öz BağSarına əvvəlcədən xəbər verdiyi müharibələri, siyası keşməkeşləri, saysız-hesabsız qırğınları danışmaq olar?! Amerika İngiltərə ilə, Almaniya, Fransa, Yaponiya, Çinlə bağlı idi o məktublar! Bütün planetlə, bütün Kainatla bağlı idi! Birinci, İkinci dünya müharibələrindən sonra şəhərlərdən-şəhərlərə, ölkələrdən-ölkələrə aparılan gizlin arxivlərlə birlikdə Amerikaya qədər yayılıb o məktublar! Bu “qəbristan” bədbəxtin beyni “Fəlakət tarixi” deyil, “Muğanlı küllüyünün tarixi” deyil, dünya tarixidi! Dünya! Bu meyitin bu narkotika dartan kürəkəni vardı, Türkiyədə hazırladığımız “Boz qurd” batalyonlarından, deyirdi: “Mı vas vsex perestrelyayem!” Göz gəzdir indi planetə, gör necə əlavə üsulla perestrelyayem “qloballaşma” üsuluynan Vahid dövlət xəyalına düşən əbləhlərinizi!

Səməd dedi:

– Bax, bu çılğın səsin səslənəcək öz beynində! Danış! Fasiləsiz səslənəcək o it kimi öləcəyin günlərdə. Məsləhət görürəm, tarixi danış. De görüm, ƏlƏsGər də Ün eşidirdisə, Omar ağa niyə məktub yazırdı? Sözünü Göy Qılıncdan Göyçəyə birbaşa deyə bilməzdi?

Bünyad bəy dedi:

– Ağ Əmir, Boz Əmir kimi ƏlƏsGər də Ün eşitmirdi o vaxt.

– Niyə?

– Necə niyə, ay sadist! Bir birindən eşşək çar Ağaları, çar bəyləri gecə-gündüz qapısını kəsdirib kef məclislərinə aparırdılar! İçib keflənib, o səksən yaşlı kişinin gözü qabağında Rus, Erməni zənənlərini soyundurub min oyundan çıxırdılar! Mühiti çox pis idi ƏlƏsGərin. Hətta mən Bünyad kimiləri heyrətlənirdik onun dözümünə.

“Qanlıda qonaq qalanda, aşığa sataşdı birə. Əl atdım birini tutam, tutammadım, qaçdı birə”. “Birə” yə yox, qansoranlara yazılıb bu.

“Güləndam”, “Pəri”... bəylərin sifarişi ilə yazılıb hamısı. SafAğ alimi Molla Pənah Vaqif xanın təkidi ilə yazdığı erotik şeirlərdən necə işgəncə çəkibsə, ƏlƏsGər də elə işgəncə çəkirdi. Murdar mühitdən qaçıb Omarağalıya, Göy Qılınca gedəndə beyni açılırdı, Ağa, bəy mühitinə gedəndə yenə kar olurdu.

Səməd dedi:

– Bir yersiz sualım var, Bəy. SafAğ Elmini incəliyinə qədər bilə-bilə murdar mühitdən niyə qurtara bilmirsən yaxanı?!

Bünyad bəyin səsi endi:
– Gecdi! Çürümüşəm mən! Axirətdə yerim yoxdu!
Səməd dedi:
– Bir də təkrar sualım var. De görüm, axirətdə yeri olmayan bu canlı meyitə niyə dərs deyirəm mən? Özün də soruşursan bunu. Cavab ver.
– Deyirsən "sonra biləcəksən".
– De görüm Ağın içində deyilən dərsdən nə nəticə çıxartmısan?
Bünyad bəy bir xeyli baxa-baxa qaldı.
– Ay sadist, bayaq danışmadın mənə hər şeyi?!
Səməd dedi:
– Yol ayrıcında, ya Ağın içində, nə fərqi var, Bəy? Gördüyünü gördün, eşitdiyini eşitdin. Dərs dərsdi. Mən səndən soruşuram: nə nəticə çıxartmısan?
Bünyad bəy dedi:
– Kütləşmişəm.
Səməd dedi:
– Səhv eləmə, bəy. Birinci nəticən budur ki, Kainatla Yer arasında gediş-gəliş var. Bax, o meyiti "öz əlinlə dəfn elədin". Səməd Əmirlinin "Ruh"undan – ƏrAğından yeni Səməd – SimOd yaranıb. İşıq gəmisində Yerə gəlib. Sənin həyatına müdaxilə eləyib. İkinci nəticə: Axirət – AğƏr planetlərində "İns" Yerdəki bütün cismani, mənəvi nöqsanlardan azad olur, cavanlaşır, gözəlləşir, əbədi olur. Üçüncü: sənin Yerdə tamam nöqsansız kimi tanıdığın adamlar da Ağ planetinin içində Odda – həqiqətdə yanır, təmizlənirlər, yalnız bundan sonra AğƏrə uçurlar.
Bəy dedi:
– Bunları mən dəfələrlə oxumuşam, dəfələrlə eşitmişəm.
Səməd dedi:
– İndi isə inam qazandın?
Bəy dedi:
– Ola bilər.
– Yəni doğrudan da dərs aldın. Düzdü?
Bəy təsdiq elədi.
Səməd soruşdu ki:
– İndi, de görüm, Ağın içində inanırdınmı ki, Sərvinaz doğrudan da dərs deyir sənə?
– İnanırdım. Əmma o qədər yox.

Səməd dedi:
– Səni inandıran da mənəm, inamını alan da, verən də mənəm. Bax bu da bir nəticə! Beynin ovcumdadı də.
Bəy yandı-yaxıldı
– Siçan-pişik oyunu oynayırsan, ay sadist! Sənin nəyinə lazımdı bu beyin?!
Səməd dedi:
– Bütün Ün eşidən Muğannalar kimi, mən də EySarın hökmü ilə işləyirəm, bəy. EySar deyir: "dərs de o təhrifimizə", mən də deyirəm.
Bünyad bəy hirslə:
– Allahımız desin görək, onun nəyinə lazımdı bu dərs?
Səməd:
– Deyib... Sonra biləcəksən, – dedi.
– Bu "Sonra" nə vaxt olacaq?
Səməd əlini alnına çəkib:
– O vaxtı da demişik: "İt kimi öləndə" hər şeyi yenidən görüb, yenidən eşidəcəksən! Budu Od – həqiqət, ey bədbəxt Təhrif! Qadın dərsi adı dərs deyil, fantastikasız fantastika deyirlər buna Yerdə.
Yaratdığın tarixi danış.
PirVəlinin çobanları qanın izi ilə gedib otryadınızı gülləyə basdılar, qovdular. Səhərisi Omarağalıda, Omar ağanın həyətindən üç cənazə birdən qaldırıldı. Harda idin sən onda? İşıqsaçanın cənazəsi altında idin. Niyə qabaqda getmirdin?
Bünyad bəy dedi:
– İstəyirdim camaatın söhbətini eşidim.
Səməd soruşdu ki:
– Nə deyirdilər?
– Deyirdilər, "Mustafa körpədi. Bir İsa əfəndisi qaldı Omar ağanın. Onu da vursalar qapısı bağlanacaq".
Səməd sərtləşdi:
– Danış görək, necə bağladın Omar ağanın qapısını?!
Bəy ağır-ağır başını tərpədib:
– Bağladım, bağladım, – dedi. – PirVəlinin, Hüseynin Salahlı Musanın qırxına qədər yedim, yatdım Omar ağanın su quyusunun yanındakı qonaq otağında – çəpərə evdə[1].

---

[1] Divarlar və tavan söyüd şiviylə, bir-iki günə tikilməsi mümkün olan ev

İndi söz düşəndə Muğanlıda çox adam bir-birindən heyrətlə soruşur ki, “PirVəlinin dili kəsilibmiş. Hüseynnən Salahlı Musa da ölübmüşlər. Bəs onların necə güllələndiklərini necə bilib Omar ağa?” Hardan bilsinlər ki, özüm danışırdım hamısını. Bəli, sadist! Mən də belə sadistlik eləyirdim.

İsa əfəndinin bir ayağı Qazaxda idi, bir ayağı kənddə. Qardaşlığı, adyutantı Salahlı Musanın qohumu Salahlı İsmayıl da yanında, xır yoldan Omarağalıya dönəndə bütün kənd, arvadlı-uşaqlı tamaşasına çıxırdı. Qara atının belində, vəznəli çuxada, qılınclı, mauzerli, işıq saça-saça gələndə elə bilirdilər Allah gəlir.

Səməd dedi:

– Dayan. Musa – Salahlı, İsmayıl – Salahlı. Nə ilə bağlı idi bu?

Bəy dedi:

– Qazağın indiki Salahlı kəndlərinə “Saloğlu”da deyirlər, çünki Rus indi də ardıcıl çalışır Bağlar – “Muğannalar” əsillərini itirsinlər, “Əslim haray!” deməsinlər.

Leninqradda şərqşünaslıq institutunda xüsusi düşünülüb bu, planlaşdırılıb. Əsli – ƏsƏl AğƏldi. “Saloğlu”nun – “Salahlı”nın əsli Bağdayın necə deyərlər, lap dib ocağından – ƏrEydəndi.

Ulu Bağ İraqı tərk eləyəndə, Qreklərin qabağınca qaça-qaça Ərdəbilə, ordan Muğana, Muğandan buraya – Qazax qəzasına sürüblər. “Kürd” sayırlar özlərini. Bax beləcə parçalanırsınız siz, ay bədbəxt OdƏrlər.

Sizin Səməd Vurğun bilirdi hər şeyi. “Yerlərə baxıram, baxçalı-Bağlı, göylərə baxıram qapısı Bağlı”. Xəlvətdə özünə “Kürd” deyirdi: GurOd! Əslən ordudu Salahlılar. İsa əfəndiyə adyudantlığa o İsmayılı verməkləri də irsidi, Hüseynə adyutantlığa Musanı verməkləri də. Vurğununuzun atası Yusif saz, söz adamı olmalı idi, mühiti qarışıq oldu, itirdi hər şeyi. Vurğunun qardaşı Mehdixanın ölümündən sonra özlərini tamam itirdilər, xəlvətdə “kürd”cə, “cuhut”ca danışan, əsilsiz-nəsilsiz adamlar oldular. Əmma o İsmayıl, o Musa hər şeyi bilirdilər və Bağlara bağlı idilər. İsa əfəndini xüsusilə sevirdilər. Çünki hamısını orduya bağlayan o idi...

– Dayan, Bəy. De görüm, Ün eşidirdimi İsa əfəndi?

Bünyad bəy köksünü ötürdü.

– Gör neçənci dəfə məcbur eləyirsən deyim ki, təhrif mühitdə Bağların beyinləri qapanır.

PirVəli, dedim, savadsız qalmışdı, məlumatsız çobanlar arasında yaşadığına görə, Ün eşitmirdi.

Hacı Əli atasını, nəslini Din içində gizlətmək xatirinə, əmisi Hacı Qaryağdı ilə birlikdə Məkkəyə gedib "Hacı" olmuşdu. Dəllalların, alverçilərin arasında çarvadarlıq eləyirdi. Amasiya mədrəsəsində Mövləvilik adı altında öyrəndiyi elmi, etiqadı itirib, nəinki Ün eşitmirdi, hətta evə qayıdanda atasını başı yığnaqlı görəndə qışqırtısı göyə dirək olurdu: "Çıxın! Mən bu xarabadan cəhənnəm olana qədər birinizin də ayağınız dəyməsin bura! Casussunuz hamınız!"

"Qonaq"lar Omar ağaya baxırdılar, Omar ağa isə küncə çəkilib ağlayırdı.

Gedirdim otururdum dizinin dibində, yalvarırdım ki, "Başa sal məni, ağa. Hirslənəndə bircə baxışı ilə şagirdlərinin canına lərzə salan EvƏrAğEy öz oğlunun qabağında niyə belə acizdi?"

İkicə kəlmə deyirdi həmişə: "Dərdim böyükdü". Yəni alver Hacı Əlini çox kobudlaşdırmışdı.

– Dayan, bəy. De görüm, bəs niyə deyirlər ki, Omar ağa Hacı Əli ilə fəxr eləyirdi?

– Bir hadisə ilə bağlı idi o fəxr eləməyi. Hüseyn ağa bilirsən ki, lap çox yaşamışdı. "Fantastikasız fantastika" İsa əfəndinin sözü idi. Dedim, bilirsən ki, bir qədər russkoyazıçnı idi o. Lazım gələndə, Tiflisə – qubernatora məktubları da o yazırdı. Deyirlər ki, bir dəfə böyük bir məktub yazıb qubernatora, deyib: "Baba, Tiflisin qubernatoru da türkcə pis bilir. Sən götür bu məktubu, özün apar, oxusun, başa düşmədiyini də özün başa sal ki, bəşəriyyət bütünlüklə ƏrEydən – "Rey"dən çıxıb, (Siz "Rey"ə – Ray deyirsiniz) budu, nəvəm təfsilatla yazıb, izah eləyib, sən özünü bizə yad bilmə, Başkeçiddəki qaçaqların üstünə soldat göndərmə, əksinə, özün get onların yanına, bu məktubda yazılanları de qaçaqlara, qardaşlaşın, birləşin, gedin Peterburqdakılara da dərs deyin, Vahid Səltənət yolunda daha bir belə addım atılsın". Hüseyn ağa – ƏsÜn AğEy Ün eşidirdi. Bilirmiş ki, nəvəsi belə bir şey təklif eləyəcək, əmma bu işin axırında nə isə qanlı hadisə olacaq... Götürür məktubu, minir faytona, gedir. Qubernator çox yaxşı – xoş-beşlə qəbul eləyir, yazılarını da dərk eləyir. Əmma Hüseyn ağa Padişahlığa qayıdandan sonra dəftərxananın zabitləri yığışırlar qubernatorun başına, deyirlər Musa ağanın oğlu səni tora salıb, Peterburqa söz çatmamış adam göndər Padişahlığa, öldürtdür onu. Qubernatorun yanında Qaçaqlarla işləyən təcrübəli casus varmış.

Qubernator deyib: "Sən get. Tüfəngsiz. Xançalını da gizlət. Vur, qaç". Casus deyib: "Axı Hüseyn ağaya hər şey əyandı. Öldürtdürər məni". Qubernator inandırır ki, Muğannalar heç toyuq başı da kəsmirlər, hətta qan düşmənlərilə təam kəsirlər, elmi söhbət eləyirlər... Qısası, gedir o casus qaçaq, həyətdə sələm verir, əlini atır çuxasının altına, xançalı çıxardıb endirir Hüseyn ağanın başına. Əmma Hüseyn ağa əlini atır xançalın tiyəsini əli ilə tutur, qanı tökülə-tökülə dartır, burur, xançalı alır. Görür əli şikəst qalacaq. Hacı Əli hirsindən ağlaya-ağlaya düşür yola, o qaçağı da öldürür, dəftərxana işçilərindən üç-dördünü də. O vaxtdan Omar ağa Hacı Əliyə hirslənsə də, xəlvətdə "nər oğlum" deyirmiş. Hacı Əlinin Ün eşitməməyi, dəllallıqla kobudlaşmağı, üstəlik qan tökməyi həmişə əzab verirmiş Omar ağaya. Mən deyirəm, öz gözümlə gördüm necə ağladı Omar ağa, "Dərdim böyükdü", – dedi.

Səməd bu təfsilatı təqdir eləyib, gülüb:

– Bax bu yaddaşı da mən verdim sənə, bəy, – dedi. – İndi soruşsam ki, Hüseyn ağadan olanları nə adla tanıyırlar Muğanlı, Sadıqlı, Şıxlı kəndlərində, Bakıda, deyə bilərsənmi?

– Yox.

– Niyə?

– Çünki bilmirəm.

Səməd yenə dodaqucu qımışıb:

– Yaddaş verirəm, danış, – dedi.

Və lap qəribə oldu ki, Bəy o dəqiqə:

– Çıraq deyilənlər Hüseyn ağanın nəslindəndi, – dedi.

– SafAğ olanları varmı?

– Bilmirəm.

– Niyə?

– Məncə, sən özün qoymursan bilim. – Bildiyim budu ki, mühitləri pisdi Çıraqların. Məndən də bəd adamlar arasında işləyirlər.

Səməd dedi:

– De görüm, İsa əfəndi niyə Ün eçitmirdi?

Bəy dedi:

– Qan tökmüşdü o. On beş-on altıncı illərdə hərbi gimnaziyada oxuyanda "İstoriya İslama" yazmışdı İsa əfəndi. Batin Elm katibi idi. Həqiqi Din tarixi deyildi. Gətirib atasının "Quran"ının yanına qoymuşdu ki, "po delam pereselentsev" idarəsindən gəlib-gedənlər görsünlər, desinlər, İslamı qəbul eləyib bunlar.

Denikinçilərlə – Ruslarla Trabzonda döyüşdən sonra, Dəlilər stansiyası ilə Gəncə arasında Rus ordusunu qırıb-çatmışdı İsa əfəndi. Belə kinlə qan tökən adam necə Ün eşidə bilərdi?!

Səməd gözlənilmədən:

– İndi əziyyət verəcəm, – dedi, – Musa burda zəhləmi aparıb ki, Peterburqdan təzə gəldiyi vaxtda, altıncı ilə aparaq onu, Nərimanın birinci müəllimlər qurultayı keçirdiyi günə. Özümüz də oturaq o qurultayda, deyir, Doktorumuzun istəkli arkadaşı, türk aktyoru Bünyad bəyi danışdıraq, qulaq asaq. Necə baxırsan sən bu təklifə, Bəy? Gedəkmi altıncı ilə?

Bünyad bəy birdən tir-tir əsib, əllərini qaldırıb göyə doğru qışqırmağa başladı:

– Ey yeri-göyü yaradan! Əgər mən sənin bəndənəmsə, lap bir parça vaxtımdan namaz qıla-qıla sənə bəndəlik eləmişəmsə, niyə saldın məni Nikolayın bu razvetka cəhənnəminə?! Su kimi saf, körpə idim, sənin öz icazənlə yaranmış Ərəb dilində “Quran” oxuyurdum! Sənin öz icazənlə yaranmış Rus dilində “Bibliya” oxuyurdum! Müqəddəsdən də müqəddəs ruhanı olmaq istəyirdim! Niyə göndərdin məni o müzür Nikolayın departamentinə?! Ruhani seminariyasının dili-ağzı özündə, fəqir, yazıq şagirdi hara, razvetçik hara?! Niyə bədbəxt elədin bu fəqir bəndəni, ya Rəbbim?!

Səməd dedi:

– Aktyorluğunu yada saldın, oynadın, bəy. Müsibətləriyin günahını EySarda görürsən?

Bəy dedi:

– Ayağımın altında qarışqa qalanda ona da yazığım gəlirdi! Bu “Yer” adlanan EyƏrin sahibi EySardırsa, qarışqadan filə qədər, cəmi heyvanat, ana bətninə düşən körpədən bu yüz on üç yaşlı bədbəxtə qədər, cəmi bəşəriyyət onun ixtiyarındadırsa, niyə saldı məni bu razvetka cəhənnəminə?!

Səməd dedi:

– Düz deyirsən, ay bədbəxt razvetçik.

Bünyad bəy duruxdu.

– Nə?! Təsdiq eləyirsən?! Günahı Onda görürsən?!

Səməd soruşdu ki:

– De görüm, EyOdƏr Babamızın ikinci rütbəsi nədi?

Bəy dedi:

– EyƏsÜndü.

Səməd soruşdu ki:
– Təhrifləri nədi EyƏsÜnün?
Bəy dedi:
– "Yazan" dı, "Yazdan" dı. Niyə soruşursan ki?
Səməd dedi:
– İndi biləcəksən, ən böyük günahkar insanın taleyini yazan – "Yazan" – "Yazdan", – "Yasin" – EyƏsÜn EyOdƏr Babamızdı, ay bədbəxt razvetçik. İkinci günahkar Yazanın yazdığını Bağ Atamıza çatdıran BağBağÜn Babamızdı. Üçüncü günahkar yazılanların əsasında hökm verən Bağ Atamızdı. Dördüncü günahkar hökmləri icra edən EySarımızdı. Bəndədə nə günah var?!
Bünyad bəy bir xeyli ağzıaçıq baxıb dedi:
– Əgər bilsəm ki, bu sözlərin altında da ayrı söz yoxdu, ayağına yıxılaram!
Səməd dedi:
– Sözlərimin altındakı "ayrı söz" nədi?
Bünyad bəy pis səs çıxardı – bu dəfə lap pis fısqırdı.
– Evim yıxıldı!.. Söz altında gizlədilən SafAğ Elmidi. Bütün elmi danışım indi?!
Səməd dedi:
– "Yazan" – "Yazdan" – "Yasin" – EyOdƏr EyƏsÜn Babamız – Uca Yaradan Ün Babamız yazmır, danışır, bəy. BağBağÜn Babamız – BağÜnlərBağı – beyinlər Bağı danışılanı çatdırır Bağ Ata, yazılanı yox.
Yəni "Yadro" adlandırılan EyOdƏr planetində ümumən Kainatda yazı çoxdan yoxdu.
De görüm, ey günahı göylərdə görən, EyƏsÜn EyOdƏr Babamızın adını "Yazan" qoyan Türkün günahı böyükdü, "Yazdan" deyən Farsın, ya "Yasin" deyən Ərəbin?
Bünyad bəy inildədi:
– Yenə bir aləm şey danışmalıyım?!
Səməd dedi:
– Lap qısası! Türkün "Yazan"ı yaxındı EyƏsÜnə – Uca Yaradan Ünə, ya Farsın "Yazdan"ı ilə Ərəbin "Yasin"i?
Bəy dedi:
– Mənə dedirtmək istəyirsən ki, nə "Yazdan"ın mənası var, nə də "Yasin"in. Türk dilinəki "Yazan" isə EyƏsÜnə yaxındı. Dedim bunu! Özgə nə deməlidi bu bədbəxt?!
Səməd dedi:

– Çox şey deyəcəksən hələ, ay bəndənin günahlarını "Rəbbi" də görən bəndə! Sən "yazıq", "fəqir" şagird hələ ruhani seminariyası yaşına ayaq açanda, ilk dəfə "Rəbbi" deyəndə batmısan günaha. EySar baxıb o təhrif beyninə, görüb Birinci Nikolayın cəsusu Bünyad o seminariyanı qurtaranda İkinci Nikolayın departamentinə sevinə-sevinə gedəcək, razvetçik kursunu qurtaranda Peterburqdan Bakıya sevinə-sevinə gələcək.

Yaddaşını almışdım bayaq, o titrədiyin, qışqırdığın dəqiqələrdə. İndi qaytarıram.

De görüm, Ağ planetinin içində hurilər – EyƏrlər səni öpəndə cavanlaşdın, ya yox?

Bünyad bəy mısmırıqlı oldu.

– O oyunun axırı pis qurtardı.

Səməd dedi:

– İblis peyda oldu, sən huşunu itirdin. Gözünü açanda gördün burda – yol ayrıcındasan, yatıb dincəlmisən, gümrahlaşmısan. Yaddaşın qaytarılandan sonra bildin ki, "Ay" planeti adlandırılan AğƏsEyin daxilində cəhənnəm haqqında əməlli-başlı təsəvvürün var. İblis adlandırılan EvƏlƏsi öz gözünlə görmüsən. Bunun nəyi pisdi, Bəy?

Bünyad bəy dedi:

– Yer alimlərinin mülahizəsinə görə, iki mininci ildə bu planetdə bəşəriyyətin sayı beş milyarda çatmalı idi. Bədbəxt təhriflərin gözlərinin qabağında qan su yerinə axır. Atom stansiyalarından, katakombalardakı atom silahlarından yayılan şüa təbiəti məhv edir, Yeri Su basır, yoluxucu xəstəliklər baş alıb gedir, ölüm artır. Doğuluşun məhvə getdiyini dərk edə-edə niyə xidmət eləyirsən bu təhrif bəşəriyyətə!

Bəy dedi:

– Özüm də məəttəl qalmışam.

Səməd gülüb gözlənilməz sözlər dedi:

– Sən hələ də AğƏsEyin içindən çıxmamısan! Cəhənnəmdəsən!

Bünyad bəy qarşısındakı meyitə, lapatkaya, küpələrə, küllüyə, bağıyeyən tağına, quyuya baxdı. Sonra Çinar gölünə, köhnə bulaq yerinə, çinarın altına, ocaq tüstüsünə və nəhayət, birbaşa şüşədən çaxır içən Səmədin özünə baxıb, ağır-ağır başını buladı.

Səməd:

– Nə fikirləşirsən? – dedi.

Bünyad bəy dedi:
– Mən ki Yerdəyəm. Niyə alladırsan məni?
Səməd dedi:
– Gözünü yum, aç, bir də bax mənə!
Tərəddüd eləmə! Qorxma!
Bünyad bəy itaətlə gözlərini yumub, açıb, bir də baxanda AğƏs – EyƏrində gördüyü hamanca İblisi gördü və Ağdakı kimi, yenə huşunu itirib yıxıldı.

## 4. BİR DAHA FANTASTİKASIZ FANTASTİKA

Aradan nə qədər keçdi? Bilmədi. Gözlərini açıb dikələndə özünü yenə küllükdə gördü. Xəlvət Rəhimin meyiti, lapatka, küpələr, kolların arxasında tüstülənən ocaq – hər şey yerində idi.
Musa kolların arasında ocağın küncünə yığılmış şişlərdən birini götürüb, ayağa qalxıb çinardan o yandakı qalın pöhrəliyə doğru getdi. Bünyad bəy yalnız indi gördü ki, orda – pöhrəlikdə süfrə açılmışdı. Sərvinaz Ağda süfrənin başında, mütəkkənin üstündə necə oturub yayxanmışdısa, indi də elə rahat, əmin-arxayın oturub yayxanmışdı. Klara Sərvinazın sol tərəfində bardaş qurmuşdu. İra sağdan birinci, ayaq üstə dayanmışdı. Qalan "verbivannıye" qızlar süfrənin dövrəsində cərgələnmişdilər.
Bünyad bəy heç nə anlamadan ayağa qalxanda arvadının hamanca həlim səsini eşitdi:
– Gəl, gəl, ay bədbəxt Yerin bədbəxt oğlu. Bağımızın acı meyvələrindən çox yedirtdik sənə. Gəl otur öz yerində, şirin meyvələrdən ye, cana gəl.
Bünyad bəyin canında gizilti vardı.
– Əvvəlcə başa salın görüm haradı bura?
Hurilər gülüşdülər.
Sərvinaz dedi:
– Necə yəni haradı, a kişi? Görmürsənmi, Ağdasan?
Bəy ətrafını göstərdi.
– Ağdayamsa, bəs bu küllük, bu quyu, bu meyit nədi?! O göl, o çinar, ocaq nədi? SimOd, bədbəxt günahsız Orduqozdu Musa hara, cəhənnəm hara?!
Qızlarla birlikdə bu dəfə Səməd də qəhqəhə çəkdi.

Sərvinaz dedi:
– Səmədlə Musa OdAğÜzdən gəliblər ki, dərs desinlər sənə. Yaratdığın tarixi danışıb qurtarandan sonra çıxıb gedəcəklər onlar. Sən burda bizim yanımızda qalacaqsan. Cəhənnəmdə! “Cəhənn” də, “Cənn”də təhfir sözlərdi, ey hökmdarımız, hər ikisinin əsli OdÜndü.
– Hər ikisi – OdÜn?!
– Bəli, Bəy. Həqiqət Ünüdü OdÜn. “Dünya” dediyimiz isə OdÜnEydi – Uca Ün Həqiqəti. Bu isə, eyni zamanda AğƏr – “Axirət” aləmi Kainatdı. İndi özün nəticə çıxart, hökmdarımız: Nə “cəhənnəm” var, nə də “cənnət”!
Bünyad bəy qəzəbli idi.
– Mən oxumuşam. Qreklər, Fars, Ərəblər və sairələr OdƏr dilini dəyişdirə-dəyişdirə əcaibləşdiriblər. Vaxtilə inanmışam mən buna, İranı, Klaranı, səni, qeyrilərini qanına qəltan eləyəndən sonra isə beynimdən atmışam hər şeyi! Çünki Səmədə demişəm OdÜnEyimiz – “dünya”mız ümumiyyətlə düz qurulmayıb elə anlaşılmaz Kainatda! Biz Yerdə necə insanlıqdan məhrum vəhşiləriksə, siz də eləcə hiyləgər, dağıdıcı, vicdansız sadistlərsiniz!
Hamı gülürdü.
Sərvinaz dedi:
– A kişi, inan, bura Ağın içidi!
Bünyad bəy qışqırdı ki, bəs deyilmi?
– Sən nə oyun açırsan başıma! Ağın içi niyə belədi axı?! Dünən cənnət kimi, bu gün Muğanlı küllüyü! Quyu! Meyit, iy-qoxu!
Sərvinaz dedi:
– Meyit deyil o, ay yazıq. “Qoca”n Xəlvətin meyitini apardılar qohumları, Qonaqlı qəbiristanında dəfn elədilər. Səni yatırmışdıq, onda çürümüş Yevrey Xəlvətin beynindən bir az işıq çıxdı, o işıq “Ruh” – ƏrAğ hamanca Xəlvət Rəhimə çevrildi. Yatır indi. Vaxtı çatanda oyadacaqlar, şüur verəcəklər.
Bünyad bəy arvadına hey qışqırırdı:
– Fırıldaqdı hamısı!.. Yaxşı, bu heç! Bəs o QaraSu?! Babanıoğlunun körpüsü?! Qamışlıq?! Bu lapatka-filan nədi?!
Sərvinaz dedi:
– Kinodu, ay yazıq kişi! Məni necə görürdün o Zversovxozda, yeraltı evində? Bu da eləcə kinodu də, SafAğ işığının içində Yerin mənzərəsini göndəriblər bura, olub Babanıoğlunun körpüsü,

qamışlıq, küllük, quyu, lapatka və sairə! Əyil, götür o lapatkanı, görəcəksən boşa çıxdı əlin. Əyil deyirəm, götür o lapatkanı!

Bünyad bəy əyilib əlini lapatkanın sapına uzatdı. Boz, köhnə ağac parçası əvəzinə nə isə yumşaq, soyuq, nəm bir şeyə toxundu. Eyni anda lapatka, küllük, Bağıyeyən tağı, küpələr, quyu yoxa çıxdı və Bünyad bəy özünü dünən gördüyü şehli çəmənlikdə gördü.

Sərvinaz deyirdi:

– Başa düşdün? Bax! Hanı yolayırıcı?! Hanı Çinar gölü?! Hanı çinar ağacı, ocaq?! İnandınmı ki, heç yana getməmisən Ağdan?

Bünyad bəy xeyli o yan-bu yana boylana-boylana qalıb, birdən dəhşət içində geri atıldı. "Qoca"sının sağ-solunda iki nəfər ağ geyimli, ağ saqqallı oturub, ağ mələfə üstündə çılpaq uzanmış Xəlvətə nə isə deyirdilər. Xəlvətin kirpikləri, dodaqları titrəyirdi. Gözlərinin kənarlarından yaş süzülürdü.

Bünyad bəy özünü ələ almağa, toxtamağa çalışıb, qocaların sözlərinə diqqət yetirdi:

– O bədən qəbirdə qalıb, Rəhim. Bu bədən sənin təzə bədənindi, Rəhim. Axirət dediyiniz, o dünya dediyiniz dünyasan indi sən, Rəhim. Atanı, ananı görəcəksən burda. Əzizlərinə qovuşacaqsan, Rəhim...

Sərvinaz dedi:

– Xəlvət Rəhim Yerdə necə çürüyübsə, büsbütün əxlaqsız əzizləri eləcə çürüyüblər. Fikir vermə o qocalara! Qorxma, Bünyad! Gəl, deyirəm. Nə durmusan!

Bünyad bəyin qıçları tutulmuşdu. Bağırırdı ki:

– Bu adam KQB-nın polkovniki olub, başının tükü sanı adam öldürüb, tonlarla narkotika satıb nayomniklərə – qatillərə! Yerdə gedən müharibənin ən fəal qaniçənidi bu "Qoca" polkovnik köpəyoğlu. Bunda ƏrAğ tapılıb?! Kainat sakini olacaq bu?! Düzünü de, Sərvi, budamı kinodu?!

Şaqqıltılı, cingiltili gülüş çəməni götürdü. Sərvinazın sözləri seçilirdi:

– Bəs necə, ay yazıq hökmdarımız! Bəs necə, ay qatilimiz! Bax, indi bax, hanı "Qoca"! Nə "Qoca" vardı, nə qocalar.

Sərvinaz ciddiləşmişdi:

– Sənin öldürdüyün it Yerdədi, küllüyün yanında iy verir! Heç kəs aparmayacaq onu ordan, dəfn eləməyəcəklər. Qurdun-quşun

dişində didim-didim olacaq "Qoca"n, hər sümüyü bir dərəyə düşəcək!.. Gəl! Bura gəl! Dərs davam eləyəcək!

Alçaq, enliyarpaq kolların aralarında büdrəyə-büdrəyə hamar otlu, alçaq təpəyə doğru gedib, Səmədlə Musanı təpənin aşağısında, süfrənin ayağında görəndə istər-istəməz ayaq saxladı.

Səməd dikəldi, soruşdu ki:

– Niyə dayandın?

Bəyin gözləri Səmədin gözlərinə dirənib qalmışdı. Axırıncı dəfə min doqquz yüz səksən səkkizinci ilin axırında Qonaqlı ilə Qurbanlı kəndlərində gördüyü qara gözlər əvəzində Bünyad bəyə yamyaşıl gözlər baxırdı.

Bəy udqundu.

Səməd dedi:

– Nə demək istəyirsən?

Bünyad bəy dedi:

– Sən Səməd deyilsən!

Səməd rişxəndlə dedi:

– Bıy! Niyə, a kişi?.. Bax gör bəlkə Musa o Musa deyil?

Bünyad bəy baxdı. Türməndə o qar içində öldürdüyü Musanın o tutqun gözləri də yamyaşıl idi.

Səməd dedi:

– Xoflanma, bəy. Gəl əyləş. Bir az dərs al.

Bünyad bəy dedi:

– Başınıza dəysin dərsiniz! Bu nədi belə? Sehrkarsınız nəsiniz? – dedi.

– Ad barədə düz deyirsən. Yerdəki təhrif ad – "Səməd" burda SimOddu. Yerdəki təhrif Musa isə burda BağSardı. Əlbəttə, çaşdıran gözlərimiz idi. Onu da bildim.

Səməd dedi:

– Bayaq mən sənə demədimmi "İblis" hər sifətə düşə bilər.

Səmədlə birlikdə hurilər gülüşdülər.

Səməd dedi:

– Allahın sağ əli İblis təkdi, Bəy. Bəs biz niyə ikiyik? Qulaq as!

Tariximizdə bir hadisə olub. Çox danışmışan, sən də eşitmisən ki, Qreklər son dəfə bizim Bağdayı dağıdanda camaatımız bilirmiş ki, Ulu Bağ ƏsƏlMən BağSar Türməndə imiş. Çobanlar arasında "Musa ağa" adı ilə tanınsa da, bilirmişlər ki, BağSardı, həmincə qədim-qayım "Musa peyğəmbər" adı ilə tanınan kişidi bu.

Yüyürüşüblər üstünə ki, camaatımız özünü kürə tökür, çoxu boğulur. Qreklər də geridən çathaçatdılar. Neyniyək? "Musa ağa" OdAğÜzdən xahiş eləyib, bax bizim bu möhkəm işığı salıb – körpü saldırıb Kürün üstündən, tökür keçib, Qreklər yetişəndə körpü yoxa çıxıb. Qazaxda bizim bircə ƏrSar – "ritsar" dəstəsi qalıbmış, hücum eləyiblər. Bu əhvalatı çaparlar ƏrEyə çatdırıblar. ƏrEydə, yəni o birisi baş şəhərimizdə məmurlar tez atlanıblar, atları dəyişə-dəyişə dayanmadan gəlib, Kürdən keçib indiki Poylu stansiyasından təxminən on verst o yanda qoyunları yunundan tanıyıb gediblər, görüblər göydən işıq zehi düşüb bir çobanın başına, səs eşidilir: "Sağdı Sarınız", yəni BağSar rütbəsində olan Ulu Bağ ƏsƏlMən sağdı, gedin səcdə edin, aparın EyÜnAğa (yəni "Qazaxa")[1] Sarlığını eləsin... bu yaşıl işıqları gözlərimizə göndərən həmin o SafAğımız BağSar AğEyin kiçik qardaşıdı, Bəy, yəni ƏlAğ EySarımızdı. Görürsənmi "Allahımız necə məzəli işlərlə məşğuldu? Mənim gözlərimdə irsi yaşıl rəng əslində bir nöqtə qədərdi. Əmma EySar bu gözləri indi yamyaşıl göstərir sənə, biləsən, bu EvƏrEy rəngidi, Saf təbiət rəngidi bu rəng. Sən – təhrif insan isə yırtıcılıqdan başqa heç nəyə qadir deyilsən, Bəy! Çaşma, mən həmin Şişəlidə ölən Səmədəm, fərqim budu ki, gəncləşmişəm, ƏlAğ EySarımızla yaşıd – otuz dörd yaşlı gənc olmuşam. Sən mənə yenə zülm eləsən yaşım yenə artar, saçım ağarar, tökülər, Bəy. Sağ ordundakı iri pis yara şişginliyinə görə "Orduqozdu" ləqəbilə tanınan o bədbəxt də dönüb həmin bədbəxt olar.

– Öləndən sonra?

Səməd dedi:

– Bizim – OdƏrlərin işlərimiz dəyişdikcə o işimizlə adlanırıq, Bəy. Məsələn, OdƏsEy, Qreklər OdƏsEyin əvəzinə "Odisseya" deyirlər, Ruslar "Kaşşey bessmertnıy" deyirlər, Bəy. Bilirsən sən bunu. Necə yəni "öləndən sonra?" zülmkar Yerdə bu vəziyyətimizdə görünsək, cibimizə pasport qoyub sərbəst vətəndaş olsaq, bizi heç kəs tanımaz, "həmin Səməd" deyirəm, şərti deyirəm. "Həmin Orduqozdu" olar, deyirəm, bunu da şərti deyirəm. EySar

---

[1] SağSar və BağSar Ulu Bağ ƏsƏlMənin ƏrEydən ("Rey"dən) – "Qazağ"a, "Sibir"ə qədər uzanan vətənini tarixdən silmək üçün fatehlər Kür vadisini qeyri-müəyyən dənizə çeviriblər, Pompeyin komandası altında Qrekləri isə gizlədiblər, Ulu Bağ ƏsƏlMənə qarşı gedən vəhşiliyi ört-basdır eləmək istəyiblər.

istəsə, elə o əvvəlki halımızda da göstərə bilər. Heç nəyə təəccüblənmə! Dərs davam edir! SimOdam mən, “Səməd” demə, bu oğlan da “Musa” deyil, BağSardı. Diqqət yetir, gör necə uca rütbəyə ucalıb indi: BağSar!

– Hə?! Doğrudan Bağdı?!

– Əlbəttə. Libasını görmürsən?!

Bəy başını qarmaladı.

– Dəhşəəət! Orduqozdu Musa necə Bağ oldu, canım?!

Qəhqəhə çəməni götürdü.

Bəy özünü yığışdırdı. Və nə isə deməк xatirinə soruşdu:

– Hər sifətə düşən İblis iki də ola bilər, beş də, on da?

Səməd:

– Afərin, – dedi. – Səni çıxsaq, burda on nəfərik biz. Sərvinaz da İblisdi? Klara da? İra da? Alla da? Qumral da? O hind gözəli də? Hurilər də? A kişi, bunlar hamısı OdAğÜzdən göndərilən kinodu, dedik axı sənə! Lazım olsa lap milyon İblis gələr. Bəs necə?! Əmma bu böyük zülm olar Yer planeti üçün, beş dəqiqəyə məhv eləmək olar bəşəriyyətinizi. Bildin?!

Bünyad bəy dedi:

– Dünyamızı tanımıram.

Səməd dedi:

– Çaşmamısan, bəy. Sadəcə, beynini zir-zibillə doldurublar. Suala cavab ver.

Bünyad bəy beynində qeyri-adi aydınlıq hiss edib, hətta bir qədər sevinən kimi oldu:

– Yəni siz doğrudan öldürmürsünüz heç kəsi?!

– Öldürürük! Həm də dirildirik!

Bəy duruxdu:

– Çaşdım yenə...

Səməd soruşdu:

– Sən təhrifsən?

Bünyad bəy dedi:

– Təhrifdən də təhrifəm. Bu aydındı.

Səməd dedi:

– Bir halda ki, təhrif insan olduğunu və OdAğÜzdən göndərilən kinonun təhrifi cəzalandırdığını da dərk edirsən, bəs Yerdəki qaragözlü Səmədlə qaragözlü Musanın əvəzində göstərilən bu yaşılgözlü SimOdla bu yaşılgözlü BağSarın kino olduğunu niyə

dərk etmirsən, ay idraksız? Biz hərəkət edən canlı insandan seçilməyən işığıq.

Bünyad bəy dedi:

– Elə hey dolaşdırırsan bu idraksız bədbəxti!

Səməd dedi:

– Cəmi "Yevrey"lər arasında ən müdrik "Yevrey" belə idraksızdırsa, o birilər necədirlər, ay idraksız?! Ağa, Marsa raket göndərirlər. Kim izn verər buna?!

Bünyad bəy dedi:

– "Yevrey", "Yevrey", "Yevrey" eşitməkdən beynim mozol oldu. Heç olmasa, "Cuhud" de bir dəfə! "Yəhudi" de bir dəfə!

Səməd dedi:

– "Cuhud" "Ərəb" kəlməsidi, "Tərik" – "Türk" – "TürkMən", – "Tərəkəmə", "Tatər" – "Otar" və sairə və ilaxirə... Bu zir-zibilin hamısını təkrar eləyim? Ümumiləşdirirəm mən milləti: EvƏrEy OdƏri, ƏrÜz, AğÜz OdƏri! Hər OdƏr öz vilayətinin adı ilə fərqlənir.

Biz Yerə qayıdanda yenə belə vilayətlər olacaq.

Bünyad bəy bir ara boğulan kimi oldu.

Səməd dedi:

– Sözü içində boğma, açıq de!

Bəy dedi:

– Qayıdacaqsınız? Heç nə qanmıram, bu qədər sivil Aləm niyə məhv eləmirsiniz Yeri, niyə qurtarmırsınız canınızı bizdən?!

Səməd gözlənilməz qəmləndi:

– Milyon dəfə deyilib sənə: "öldürmək olmaz", "təzyiq olmaz". Sənə təzyiq göstərirəm, diqqət yetir nə qədər ağrıkəsici şərab içirəm. Sənə görə zülm çəkirəm, ay it!

Səməd birdən-birə başqa suala keçdi:

– Planetdə təsəvvür dolaşıb, Bəy. "Dyavol" düzdü, yoxsa "İblis"!

Bünyad bəy dedi:

– Sözüyün altında söz var.

Demək istəyirsən ki, EvƏlƏs, OdEvƏl təhrif kitablarda "İblis"ə, "Dyavol" a çevrildiyinə görə, mənim EvƏlƏs, OdEvƏl haqqında təsəvvürüm düz deyil. Təhrif "İblis" təhrif "Allah" ın sağ əli olub, təhrif "müsəlman"a əzab verir. Təhrif "Dyavol" isə təhrif "xristian"a əzab verir.

Səməd dedi:

– ƏsƏrOd ikən "çort"a çevrilən də var, Bəy. ƏsOdÜn ikən "Şeytan"a çevrilən də var. ÜnOdƏr, MənOdƏr ikən "hinkir", "minkir"ə çevrilən də var. ƏrOdEv ikən "Ərdov"a çevrilən də var. Sənə mən hələlik "Quran", "İblis"i göstərmişəm. Məqsədim nə olub? Cavab ver.

– Demişsən ki, EvƏlƏs – Yaradan Əlin Evi – ƏlAğın – "Allah"ın evidi, Din uydurması "İblis" deyil. Bunu mən min-milyon dəfə eşitmişəm, oxumuşam. Əvvəlcədən bilirdim ki, gözləri alma boyda, libası qırmızı qorxunc "İblis" yoxdu.

– Bəs niyə qorxdun?

– Çünki, görünür, o anda sən mənim biliyimi almışdın.

– Afərin, bəy! Səbəbi dərsdi? Düzdü?

Bünyad bəy dedi:

– Yəqin ki, elədi də.

Səməd təsdiq etdi:

– Dərsdi, Bəy, dərsdi... Dərs aldın?

Bünyad bəy dedi:

– Şübhəsiz aldım. Əmma sirlidi.

Səməd dedi:

– Bəli, sirlidi!

Bünyad bəy dedi:

– Aç sirri.

Səməd dedi:

– Dərsin əsas səbəbini hələ deyə bilmərəm. İxtiyarım yoxdu, Bəy. Əmma bir sirr açıram.

Bağ ƏsƏlMən ikən "müsəlman"a çevrilən təhrifin təhrif təsəvvürünə görə, İblis hər cür dona girə bilir. Yəni hər cür sifətə düşə bilir. Düzdü?

Bəy dedi:

– Düzdü.

Səməd dedi:

– Deməli, mən Səməd – SimOdun, Muğanna Pünhanın sifətinə də düşə bilərmi İblis?

Bünyad bəy diksinən kimi olub duruxdu.

Səməd dedi:

– Dərs deyirəm, Bəy. Cavab ver!

Bünyad bəy dedi:

– Sözüyün altında dəhşətli söz gizlənib bu dəfə, ay sadist!

Səməd dedi:
– De!
Bünyad bəy dedi:
– Muğanlı küllüyündə Muğannaya Muğanlı deyirlər. İsa əfəndi deyirlər. Bəs niyə Pünhan deyən yoxdu heç? Sirr açılar? Deyəsən, bu dəfə mən sənin fikrini oxudum, ay İblis?
Səməd başını buladı.
– Çaşma. Mən özüm Pünhanı yetirdim beyninə, Pünhanın adının Pünhan adını bilirsən?
– Yox...
– OdAğÜzdən mənim səsimi eşidir, yazır. Peyğəmbərdi-nədi Pünhanlığı?
– Yox!
– Niyə?
– Alı da, ƏlƏsGər də, Aşıq Kamandar da saysız-hesabsızdılar, Nizami də belə imiş, Füzuli də, Nəimi də, Nəsimi də, onlardan əvvəl Əxi Fərrux İmad da beləymiş. Lap qədimləri də var. Məsələn: Qreklər EvƏr adlı böyük şairə "Homer" deyirmişlər, "Kor"da, "Gur"da deyirmişlər. Bu Pünhanların Pünhan adları elə hamısı Peyğəmbər imiş?
– Peyğəmbər varmı, Bəy?
– Bıyy!.. – Bəy bağırdı: – Bu nə sualdı? Əlbəttə, var! İisus kimdi? Məhəmməd kimdi? İbrahim kimdi? Min yerdə oxumuşam ki, yüz iyirmi dörd min peyğəmbər olub!
Səməd köksünü ötürdü:
– İnsan bədbəxtdi! Sayı-hesabı yoxdu o cür Bağ səsi eşidən, şeir, roman yazanların, Bəy!
Bəyin gözləri böyüdü:
– Hamısı da peyğəmbərdi?!
– Xeyr!.. "Peyğəmbər" də təhrif sözdü, ay yazıq Bəy, "Prorok" da. O gözəl, sehirli əsərləri yazan saysız-hesabsız yazıçıların BağÜn EvƏr (İşıq evinin Bağ səsi) deyiblər. Yadına düşdü?
– Hə, hə! Oxumuşam. Pünhan Muğanna bu barədə çox yazıb.
Səməd çaxır içdi:
– Mən də yoruluram, Bəy. Pünhan Muğannaya niyə Muğanlı demirlər? Bunu bilmirsən sən, yazılmayıb, BağÜn sözü eşitmisən?
Bəy cəld dedi:
– Milyon dəfə.

– Bax, o sözə BağƏl də deyirlər (Bağın oğlu). Bax bu təhrif olub, BağƏl əvəzinə "Muğanlı" deyilib. Fars, Ərəb sözlərindən ibarət "Muğ", "Muğ-an" (Muğlar) ... Ərəbcə "an" bizim indi "lar", "lər" dediyimiz şəkilçidi, Bəy. ƏlƏrƏlin Oğlun işığı sözünü öldürmüşük, əvəzində çoxluq işarəsi bildirən "lar", "lər" demişik... İndi bildinmi niyə EvƏrEy OdƏri əvəzinə "Yevrey" demisən, OdƏri də itirmisən. Təkcə Gürcüstanda "OdƏrnə" deyilir OdƏrÜn əvəzinə. Ərəbdən keçib bu. Dərk eləyirsənmi necə bədbəxtlikdi?! Bir İspandan soruşdum: "Milliyətin nədi?" Dedi: "İspanam". Dedim, bəs OdƏr nə deməkdi? Dedi o bizim qədim adımızdı, OdƏr yox, "Adar" deyirik.

Bu məlumatı niyə verdim sənə? Cavab ver!

Bəy gözlərini döydü:

– Bilmirəm.

Səməd güldü:

– Əşi, dərs deyirəm də, ay bədbəxt! İndi, de görüm, "kliçka"n nədi?

Bəy dedi"

– Bilirsən. "Çax-çux".

– Sonra?

– Sonra... "Qızıl İlan".

– Bəs "Qızıl İlan" "kliçka"sını niyə veriblər?

Bəy "hm" elədi:

– Bu, kəşfiyyatçıları gizlətmək üçün deyilmi?

Növbəti sual lap gözlənilməz oldu:

– Omar ağanın kiçiyini kim öldürdü? Mustafanı?!

Bəy dedi:

– Allaha and içirəm, bilmirəm! Hər halda "Qızıl İlan"lardan biri vurub. Belə deyirlər: Mustafanı qırx altıncı ildən öldürmək istəyirmişlər. Bir divizionla, on ikicə dənə top divizionu ilə almanların bir tank briqadasını məhv eləyib Mustafa. 416-cı diviziya bütüncə qaçıbmış Taqanroqdan. Mustafanın əsgərləri, top komandirləri – hamısı müəllim vaxtından öz tələbələri imiş. Özü yığıbmış Şıxlı, Muğanlı, SarıVəlli kəndlərindən. Deyib: "O gələn, görürsünüz, briqadadı. Diviziyamız bizi yolun ortasında qoyub qaçıb. Deyin görüm döyüşərsinizmi o briqadayla?! "Yekə Alı deyilən, sonralar professorluğa yüksələn bir oğlan varmış. Deyib: "Biz komandirimizin əmrinə tabeyik. Döyüş deyirsiniz, döyüşək". Mustafa deyib: "Təkrar eləyirəm üstümüzə gələn briqadadı,

diviziyamız qaçıb gedib. Qərarınız nədi?! Hamısı deyib: “Sən necə, biz də elə”. Mustafa deyib: “Onda topları təpələrin aralarına çəkin, snaryadları da topların yanına daşıyın. Mən komanda vermiyəcəm. Bircə dənə snaryadınız da boşa çıxmamalıdı. Oldu?! Deyiblər: “Yest!” Bütüncə briqadanı qırıb alova, tüstüyə bürüyüblər... Hə, arxadan diviziya komandiri birinci gəlib: Zuvanov... Mustafa SafAğ barədə dərs keçibmiş ona. Zuvanov bilirmiş ki, dünyada bir nəfər də “Türk”, “TürkMən”, “Qazax”, “Tatar”, “Alman”, “İngilis”, “Macar”, “Polyak”, “Ukraines” yoxdu, hamısı OdƏrdi. Buna görə də Zuvanov Mustafanı çox istəyirmiş. Maşınında arxadan gəlib. Sadıxlı kəndindən tək bir oğlan-batareya komandiri başından yaralanıbmış. Zuvanov hamını qucaqlayıb, öpüb, Mustafaya da “geroy” luq yazıb, təyyarə ilə göndərib. Necə olubsa, Jukov da gəlib ora çıxıb, bir qızıl ulduz da o yazıb. Müsəlmanın əsas bədbəxtliyi nədi, səncə, ay sadist! Diviziyada nə qədər müsəlman varmışsa, hamısı Stalinin şəxsən özünə yüzlərlə məktub yazılblar ki, Mustafa Hüseynov Ömər oğlunun atası “Koxa” sözü altında gizlənirdi. Ömərin atası Hüseyn ağa qədim Yevreylərdəndi, “Solomon” – Süleyman nəslindəndi. Solomon 1900-cü ildə İşıq gəmisində “Türbə” adlı müqəddəs yerdən uçub gedib. Siz, yoldaş Stalin – Velikiykomandan belə adama geroyluq verərsiz? Özü də birini yox, ikisini bir gündə”. Stalin, əlbəttə, verməyib.

Səməd şüşəni uzun-uzadı qurtuldatdı.

– Mustafanın öldürülməsinin səbəbini yaxşı izah elədin, – dedi, – təkrar edək ki, kin yaddaşı kütləşdirir. Nədi Yaddaş?

– EyOdƏs deyil? Uca Yaradan həqiqət. ÜnƏsə “ins”ə niyə verilib bu?

– Eşit: mühakimə üçün! İdrak üçün! Sadəcə ağıl üçün! Demək, kin insanın yaddaşını alır? Bəli, Bəy. Buna görə də ruhani məktəblərində uşaqlara ilk növbədə kin aşılayırlar: “Allah” yolundan azan bəndəyə – “kafir” ə kin!.. KPSS-in təsiri ilə yox, Romanovların Peterburqdakı “Musulmanskaya Duxovnaya Seminariya”sında “İsrail oğulları”ndan danışan o təhrif. “Quran”ı tədris edə-edə dumanlı “kafir”ə içərini kinlə doldurub, altıncı ildə Bakıya qayıdanda itirmisən yaddaşını sən. “Kafir” – “KiEvƏr” – OdEvƏr.

Bəy etiraf etdi:

– Heç nə başa düşmürəm.

Səməd dedi:

– İzah eləyərəm. De görüm, İsa əfəndi ilə İsmayılın dəfnindən sonra cəmaat nə danışırdı?

Bünyad bəy dedi:

– Cəmaat deyirdi: "Omar ağanın qapısı bağlandı". Bayaq dedim bunu!

Səməd soruşdu ki:

– "Qapısı bağlanan" Omar ağa neylədi dəfndən sonra?

Bünyad bəy qəribə şeylər danışdı:

– Nabat Alılı[1] kəndindən zurnaçı çağırtdırdı. Arabasını xalı-xalça ilə bəzədi. Bir-birindən körpə yetimlərə, dul gəlinləri toy paltarı geyindirdi, doldurdu arabaya. Özü də əyləşdi qabaqda, zurnaçıların yanında. Toy havaları çaldıra-çaldıra arabanı sürdürdü xır yolla üzüyuxarı. Eminlilərdə, Nabat Alılıda, Şıxlıda, SarıVəlilidə gəlinlərini, qız nəvələrini tez-tez arabadan düşürüb gözü yaşlı-yaşlı oynamağa məcbur elədi. Qayıdanbaş yenə gumrah havalar çaldırdı, arvad-uşağı oynatdı. Özü də oynadı. Belə iş tutdu Omar ağa dəfndən sonra.

Deyirdilər: "Omar koxa dəli olub". "İki ildə beş oğul itirən ata necə dəli olmasın?!"

Sonra mən elə onun özündən öyrəndim ki, "Bünyad təki cəhənnəmlikləri, Rusun casuslarını allatdım." Hələ mən də fikirləşdim ki, hə, kişi doğrudan dəli olub.

Səməd dedi:

– Danış.

Bünyad bəy çiynini çəkdi:

– Nəyi?

Səməd gülüşən qızlara təpinib:

– Necə nəyi?! – dedi. – Muğanlı küllüyünün tarixini sona qədər danışmalısan! Sona qədər!.. Rus ordusu qayıdandan sonra Omar ağanın intizarı vardı. Dedik, Dəlilər stansiyası ilə Gəncə arasında, İsa əfəndi ƏrÜz OdƏrlərinin qanını tökməyə məcbur olduğuna görə sarsılmışdı. Müsavatçılar deyirlər: "On beş eşalonda ordunu biz qırdıq ki, silahlanaq gedək Bakını alaq". İsa əfəndi isə rusu ona görə qırmışdı ki, Bakıya girib Orda möhkəmlənib qalmasın o ordu. Sonralar bayatı deyirdi, ağlayırdı. Omar ağa qorxurdu ki, OdAğÜzə getməsin oğlu. Danış dalını.

---

[1] Nabat Alılı – I Şıxlı

– Qəbiristanda bir hadisə oldu. Vay-şivənin içində birdən hamı susdu. İsa əfəndinin qara atı başını qəbirə sallayıb ağlayırdı. Omar ağa isə qara atın başını sığallaya-sığallaya göyə baxırdı. Birdən diksindi, dönüb məni çağırdı. Dedi: "Göyə bax, mənim baxdığım səmtə. Gör hardadı mənim SafAğ balalarım! "

Baxdım, PirVəli, Hacı Alı, Musa, Hüseyn, Salahlı Musa göy çəmənlikdə İsa əfəndi ilə İsmayıla doğru yüyürürdülər, İsa əfəndi ilə İsmayıl da onlara doğru.[1]

Omar ağa dedi: "Daha dərdim yoxdu. Heyif, camaatı başa salammıram, bir də atı".

Səməd soruşdu ki:

– İndi, de görüm, iyirminci ildən indiyə qədər, səksən iki ildə bu hadisəni xatırlamısanmı heç?

Bəy dedi:

– Yox.

Səməd dedi:

– On beşinci ildə Göy Qılıncdan Göyçəyə qayıdanda nə gördün, nə eşitdin?

Bünyad bəy dedi:

– Qəribə sistemsiz danışdırırsan məni.

Səməd dedi:

– Sistem xronologiyada deyil, məzmundadı, Bəy.

Səni mən Mazandaran meşəsinə apardım, ordan "İrəmə", sonra Yerə... Saflıq dərsindən bir az faydalandın, əmma yenə də zorakı, vəhşi, murdar, təhrif insanlığın üstələdi, qızların öpüşlərini bir-birindən seçmədi, "kəmər" açmaq ehtirasına qatılıb ağlını itirdin. Bunun ardınca o zorakı təhrifliklə yırtıcılıq, qatillik arasında məsafə olmadığını göstərdim: sənə qul kimi tabe olsa da, "verbovka" ya razılaşmayan, yəni vətənini, xalqını satmağı ölümdən betər sayıb, sənin it dizlərin altında qarın-bağırsağının dağılmağını ölümdən betər bilən məzlum Sərvini qarın altına basmağını göstərdim, Orduqozlunu necə soyuqqanlı öldürdüyünü göstərdim. Məmməd ağanın, Omar ağanın beş oğlunun, Salahlı Musanın, Salahlı İsmayılın ölümləri sənin Peterburqda dərsinə, casusluğuna bağlandı, casusluğun saysız-hesabsız insan qanından Bünyad Bəy adında vəhşi heyvan yaratdı.

Yer indi Bünyadların pəncəsi altında yanır, qana batır, suya batır!..

---

[1] OdAğÜzdən hadisənin özü – əsli yox, canlı şəkli göstərilir.

Omar ağa qəbiristanda, o faciənin içində sənə Kainat həqiqətini – Əbədi ÜnƏsləri göstərdi, onda da qətiyyən dəyişmədin.

İndi təsdiq elə ki, insan təfəkküründə sistem hadisələrin xronikasında deyil, sənin, mənim, bir başqasının həyatının ümumi məzmunundadır. Bu məzmuna "təzyiq olmaz", "öldürmək olmaz" qanunlarından kənara çıxanda Kainatın harmoniyası pozulur, Bəy! İndi Göy Qılıncdan Göyçəyə qayıdanda gördüklərini danış!

Bünyad bəy bir az susub, sonra xatırlaya-xatırlaya danışmağa başladı:

– Göy Qılıncdan çıxanda Omar ağa özü ötürdü bizi.

Qılıncın gündoğanındakı Çınqıllı dağla günbatanındakı Çiçəkli gəz[1] dağının arasından Göyçə gölü tərəfə gedəndə yol yoxuşdu. O yoxuşun başında Muğannaların "gəz" dedikləri yerə çıxanda Omar ağa dedi: "Geri baxın".

Baxdıq, gördük Göy Qılıncın üzərində, fəzada dümağ, nəhəng bir Əl var.

Omar ağa dedi: "İndi irəli baxın".

Baxdıq, Əli irəlidə gördük bu dəfə.

Omar ağa dedi: "Quran"da oxumusunuz "Allah laməkandı". Soruşuram ki, "Düzdümü bu kəlam?" Mən dedim: "Düzdü". Müşfiq dedi: "ƏlAğın məkanı Kainatdı". Öpdü, dedi: "İndi genə öz balam təki öpürəm. Çünki ƏlAğ bir geridə göründü, bir də irəlidə, dedi: "Yol təhlükəsizdi". Səni öpəmmirəm, Bünyad. Get, mənim qohumum Aşıq Alıya OdAğÜzdən deyilib ki, səkkiz ildən sonra Omar ağanın Mustafasının Şolloy adlı oğlu olacaq. "İsa" deyəcəksiniz, batinləşdirəcəksiniz. Çünki Elmin varisidi o Şolloy – İsa. Bünyad bəy gecə-gündüz çalışacaq ki, varisi öldürsün. Öldürəmməyəcək. Bil bunu, Bünyad!

Səməd dedi:

– Öldürəmmirsən.

Bünyad bəy dedi:

– Yox.

Səməd soruşdu ki:

– Bəs o beş oğlu, Məmməd ağanı, qızları və sairə Muğannaları nə əcəb öldürdün?.. Cavab verə bilməzsən, Bəy. Sənə elə gəlir ki,

---

[1] G ə z – dağ belində yastana

doğrudan da sən öldürmüsən. Amma əslində, məni də, oğlum Səmini də EySarım aparıb, anladın?!

Bəy gözünü döydü.

– Yox.

Səməd dedi:

– Söhbətimizin davamını danış.

Bəy bir az fikirləşib dedi:

– Omar ağa Müşfiqə ayrıca dedi: “Gəzirsən, görürsən, öyrənirsən, deməli, dərs keçirsən. Dönmə bu yoldan. Bu Alı yoludu, ƏlƏsGər yoludu”.

Döndü, mənə baxdı, dedi: “Mikayılla vidalaşdım mən. Çünki Yerdə bir də görmüyəcəm onu. Sən mənim küllüyümdə bitibsən, küllüyümdə də qalacaqsan”.

Səməd dedi:

– İndi Küllüyə bax. Nə görürsən orda?

Bünyad bəy dedi:

Lapatka görürəm.

Səməd dedi:

– Bəs Bağıyeyən tağı? Yerindədi?

Bəy dedi:

– Yerindədi.

Səməd dedi:

– Muğanlı, Muğan kəndlərinin hamısında indiki əhali “Bağıyeyən”ə “Bağayeyən” deyir. Niyə?

Bəy dedi:

– İndiki əhali Sovet İttifaqının son dövründə Qorbaçovun Türkiyəyə rus doldurduğunu görər-görməz çox pis qorxuya düşdü. Muğannaların Muğlar vilayətindən bura gələnlər oldu, xəbər verdilər ki, Anadoluda türkləri qıranlar Qorbaçovun adamlarıdı, söz gəzir ki, Türk ordusunda sıravi əsgərlərdən bir nəfəri də bilmir ki, dağlarda Kürdləri yox, kəndlərdən qaçaq düşən “Türk”ləri qırırlar. Burda – Azərbaycanda qırğınlar hələ qurtarmayıb, siz ta Amerika, İngiltərə Rusiyanın nəfəsini kəsənə qədər çox ehtiyatlı olun”... Belə xəbərdarlıqdan sonra hətta Muğannalardan ən mərd adamlar da daha “Bağıyeyən” yox, “Bağyeyən” deyirlər. Guya bu belə qalınyarpaq bitkini ancaq tısbağalar yeyirlər.

Səməd içir və elə bil zorla gülümsəyirdi:

– “Tısbağa”, “qurbağa”... hardandı bu adlar, a Bəy!

Bəyin sifətində də təbəssüməbənzər tərpəniş oldu.
– "Çanaqlı tıs"ın adını, "qur-qur"un adını Omar ağa kimi hətta düşmənə də rəhm eləyən Muğannalar özləri qoyublar.
– Niyə?
– Çünki nə qədər rəhmli, mülayim, hətta mehriban adamlardılarsa, bir o qədər də hiyləgərdilər: "Tısbağa", yəni bu çanaqlı Tıs Bağ yeməyi olsun, "qur-qur" – "Qurbağa" da Bağ yeməyi olsun.
Səməd dedi:
– Afərin, bəy! Düşmən belə olar bax! Hətta ən əhəmiyyətsiz görünən şeyləri də öyrənmisən!.. İndi yenə sualım var. "Sən mənim küllüyümdə bitibsən, küllüyümdə də qalacaqsan" sözlərini xatırlamamısan bu vaxta qədər heç?
Bünyad bəy tutulub, Bağıyeyənə baxa-baxa qaldı.
Səməd dedi:
– "Yaddaş yoxdu, EyOdƏs var. Uca Yaradan Həqiqət.
EyOdƏr EyƏsÜn, BağBağÜn Babalarımızdı, bağ Atamızdı EyOdƏs. Bağ Atamızın əlləri Oğullarıdı. "Yaddaş". Kainatda bütün "səyyarə"lərin, planetlərin – ƏsEyƏrlərin bağları, bütün OdƏr bəşəriyyətidi EyOdƏs. EySarın Ününü eşitməyən, Yerdən baxıb OdAğÜz ƏsEyƏrini görməyən kor insan bilmir ki, az-çox Ərli – işıqlı insana ölüm yoxdu. Qatil bilmir ki, öldürdüyü Ərləri öldürmür, əksinə, əbədiyyət – EvOdEyOd aləminə göndərir...
Bünyad bəy dedi:
– Mən bilmək istəyirəm ki, SafAğ insanlar – OdƏrlər əbədiliklərini bilirlərsə, öləndə, əbədiyyətə gedəndə niyə şivən qoparırlar.
Səməd dedi:
– Şivən qoparan OdƏr əbədiliyini bilmir.
Bəy dedi:
– Məhəmməd peyğəmbər də bilmirdi?! Axı can verəndə o da ağlayıb!
Səməd dedi:
– Yalandı! De görüm, indi kimi öldürmüsən sən, ay yaddaşsız – EyOdƏssiz?
Bünyad bəy heyrətlə qımışdı:
– Yəni heç kəsi öldürməmişəm?!
Səməd dedi:
– Bir nəfəri də öldürməmisən! Bayaq dedim axı, ey EyOdƏssiz!

Bünyad bəy bir daha Bağıyeyən tağına, küllüyə baxdı.
Səməd soruşdu ki:
– Nə fikirləşirsən?
Bəy dedi:
– İyirmi üçüncü ildə Omar ağa Göy Qılınca getmədi. Malı, qoyunu AğBizənə, qardaşı İsmayıl ağanın örüşlərinə göndərdi. Tək – subay malı meşədə saxladı, çünki buğa-yazabuğa çox idi o naxırda, AğBizən örüşlərində böyürtü salıb hökümətin diqqətini cəlb edərdi. Bu quyunun yanındakı çəpərə evdən başqa QaraSuyun bu sol yanında yeddi çəpərə ev tikildi. Cəmisi dörd aydan sonra evlərin hamısını yandırıb indiki Muğanlının yerinə köçdülər. Fikirləşirəm ki, o dörd ayda bu quyunun yanında gör nə qədər ocaq qalanıb ki, iyirmi üçüncü ildən bu vaxta qədər belə küllük qalıb?!
Səməd dedi:
– Təhlükə hiss elədin, yenə başladın yalan danışmağa! İyirmi üçüncü ildən indiyə qədər, səksən ildə o quyunun qırağında minlərlə ocaq qalanıb. Muğanlının uşaqları Bağıyeyənin üstünə quru sirkən yığırlar, sirkənin üstünə çırpı tökürlər, çırpının üstünə palıd kötüyü qaldırırlar. Ocaq bu gün günortadan sabah səhərə qədər yanır. Üç-dörd gündən sonra uşaqlar gəlib görürlər Bağıyeyən yenə cücərib küllükdə. O lapatka ilə qazıb köklərini çıxarıb atırlar. Bağıyeyən yenə bitir;
Budu sənin fikirləşdiyin. Sən də özünü ölümsüz sayırsan!
Düzdü?
Bünyad bəy dedi:
– Düzdü.
Səməd dedi:
– Kökləri çıxarılıb atılan bitki necə bitir? Nə sirdi bu?
Bünyad bəy dedi:
– Bağıyeyən dəniz bitkisidi. Toxumu yeraltı sularla planetin su qatının hər yerinə yayılıb. Harda quyu qazılır, o quyunun qırağında hökmən Bağıyeyən bitir. Muğanna nəslinin Ün eşidənlərindən, bir də məndən başqa heç kəs bilmir ki, bu dəniz bitkisinin kökləri su qatına qədər gedir.
Səməd köksünü ötürdü.
– Dərindi kökləriniz, ay "Yevrey"!
Bünyad bəy dedi:
– Okean bitkisidi "Yevrey", dəniz yox.

Səməd bozardı.

– Niyə zəhərlidi?!

Bünyad bəy dedi:

– Zəhərlidi ki, heyvanat yeməsin Bağıyeyəni! Muğannalar baxıb fikirləşsinlər, əsəbiləşsinlər.

Səməd dedi:

– İzah eləyə bilərsənmi Rusun OdƏrə kininin kökü hardandı?

Bəyin dodaqları əsdi:

– Yenə məlum şeylər danışdırırsan! Həm də qəsdən “kin” deyirsən, əslində “kin” deyil bu sözün əsli, Oddu, EvƏrEy OdƏrinin Odu – Həqiqət ayrı, “Yevrey” Odu ayrıdı! Və əsil Od bizimkidi.

– Subut elə!

– Hm!.. Sənin nəzərində ikrah doğurucu şeylər danışacam indi. Lap açıq danışıram indi. “Qore ot uma”nın müəllifi məşhur Qriboyedov İranda posol olanda deyib ki, orda – İranda atasını, anasını tanlmayan çoxlu yetim uşaqlar var, gündüzlər oğurluq eləyirlər, gecələr bir-birinin ustə çıxa-çıxa səhərə qədər guya pis işlə məşğul olurlar. Əslində bu təbii ehtiyacdı, deyib Qriboyedov cənabları. Bu uşaqları yığın aparın Peterburqa, ehtiyaclarını maksimum ödəyin deyib... Bilirsən ki, sonralar belə uşaqlar deyiblər: “Mən oldum Peterburqda. Gündüz çılpaqlanıb” Eşşəkbeli “oynayırdıq, çıl – çılpaq! Bu işə elə alışdıq ki, hətta gecələr yanımıza göndərilən mollalarımıza da “eşşəkbeli” oynayırdıq. Sonra mollalarımız bizə dedilər, meyitxanaya gedəcəyik, ordakı ölü “eşşəklərlə” iş görəcəyik. Düz bir il ölüxanaya getdi”.

Səməd dedi:

– Ətraflı izah elə!

Bəy dedi:

– Nə izah?! Vatikan iki yüz il döyüşdürüb bizlə sizi! “Bibliya” bizə dil verəndən sonra lap antaqonist olmuşuq: “Russkoyazıçnıy Yevrey” və “turok” dilimizdə söyüş kimi səslənir.

Ölü OdƏrlə dirinin arasında fərq hələ Makedonskinin vaxtında itib. Müqəddəs kitab bizi həm də “İsrayıl oğulları” adı altında, sizi “tərik”, “Türk” adı altında gizlənən “Muğannalar” kimi tanıtdırırdılar. Üstəlik sizin dildə bizə “kafir” dedirdiblər. İndi biz əminik ki, hər iki dünyada kafirə zülm eləmək üçün yaranmışıq!

Sonra başqa dərs keçdik. Çoxlu araq içib hamamlarda, divarların tinlərində dayanıb, başlayırdıq sizə bıçaq atmağa. Kindimi bu?

Xeyr! Biz bəndə “kafir”in və ümumiyyətlə, insanın haqqında fikrimiz pisdi. Bəla “Avram”dı, oğullarıdı. Siz əbləhlər necə dəyişdirə bilərsiniz əsrlərin etiqadını?!

Səməd soruşdu ki:

– Rusdillilər hakim-mütləqdirlərsə, bəs o hurilər səni niyə bu qədər gülünc şəklə salırlar, a Bəy? “Hökmdarımız!”, “Kəmərimizi aça bilərsən” və sairə.

Bəy tərəddüdsüz:

– Bizim gücümüz kütləvilikdədi! – dedi. – Mən tək düşmüşəm sizin əlinizə. Buna görə deyilmi ki, hətta Orduqozdu Musa da ələ salır məni?!

Səməd bir qədər yorğun kimi, yenə də ikrahla:

– Yaxşı, bəsdi çərənlədik, – dedi. – Küllüyün tarixində ən faciəli hadisələrdən biri, Omar ağanın sonbeşiyi Mustafanın ölümüdü. Pünhan Muğannamızın atası Mustafa Yerdə qalsaydı, indi doxsan üç yaşında olardı. Əmma Pünhan hələ də unuda bilmir onun faciəsini. De görüm, Mustafanın taleyi haqqında nə bilirsən? Dərsi qurtarıram bununla.

– Hə?! İnanım?!

– İnan, Bəy!

– Yaxşı: Mustafa Qazax seminariyasını qurtarmışdı. İsmayıl ağa AğBizənə çağırdı, başa saldı ki, kommunizmin kağız üzərində ədalətli qanunlarına inanmısan sən. Bəyənirəm mən bu inamı. Kütləvi məcburi tədrisdən istifadə eləyin, xalqı maarifləndirin. SafAğı yaymağı ancaq aşıqlara tapşırmışıq. Siz ədaləti qoruyun.

Seminariyadan sonra Məmməd ağa onu Qazax mahalının Yenikənd məktəbinə direktor təyin etdirdi. Mustafa iki il orda – Yenikənddə dərs dedi. Muğannaları yerləşdirəndən sonra Məmməd ağa Muğanlı məktəbinə direktor təyin elətdirdi onu. O, orta savadlı təcrübəsiz cavana qəti tapşırıq verilmişdi ki, hər yerdə Muğannaları ətrafına yığsın, xaricdəki Muğannalarla əlaqə saxlasın. Mənə isə tapşırılmışdı ki, “Çax-çux” kliçkalı köhnə yoldaşımla sıx əlaqə saxlayıb, Mustafanın “okrujeniye” sindən adamlar “verbovat” eləyib xaricdəki, daxildəki Muğannaların siyahısını yenidən tərtib eləyək. Min doqquz yüz otuz yeddinci ildə həm daxilimizə, həm də Cənubi Azərbaycana, Türkiyəyə “karatelniye qruppa” lar göndərək. “Hümmət” partiyasının köhnə nərimanovçuları ilə yığıncaqlar keçirək, kolxozları köhnə AğEy icmaları şəklinə saldıraq.

Salahlıdan çox bacarıqlı maarifçi Əli Əliyev, Qazaxdan öz bacanağı Məcid Nəsibov, AğBizəndən Məcid Tağıyev çox ciddi cəhdlə Muğannalardan ibarət maarifçilər ordusu yaradırdılar, Məmməd ağanın, Mahmud Yolçuyevin köməyilə, Muğandan Şamaxıya sürülən Muğannalardan ali təhsilliləri universitetə, APİ-yə doldururdular. APİ-də Aslanbəylidən professor Seyidovun, universitetdə Nabat Alılıdan Məmməd Şıxlınskinin əlilə, Muğannalardan ibarət "Qazax"lılar deyilən saysız-hesabsız maarifçi yetirirdilər. Moskvadan Mircəfər Bağırova gizlin direktiv verilmişdi ki, otuz yeddinci-otuz səkkizinci illərdə bu kütlənin hamısı məhv edilməli, ya da "verbovka" yolu ilə zərərsizləşdirilməlidirlər. Omar ağanın qardaşı İsmayıl ağa Mustafanı tez-tez AğBizənə çağırıb təhlükə sovuşana qədər gizlədirdi. Omar ağanın "İşıqsaçanlar" ından idi, Mustafanı bütün nəsil qoruyurdu. 1941-ci ildə müharibə başlayanda bizə göstəriş verilmişdi ki, Mustafanın partiyaya keçməsinə imkan verməyək. Əmma Səməd Vurğunun qardaşı Mehdixan Vəkilovla KQB-nin Ağstafadakı rəisi Saşa Babayev, yəni bütün qohumlar köməkləşib konspirativ üsulla partiyaya keçirdilər onu, tezcə də Dörd yüz on altıncı diviziyaya divizon komissarı elətdirdilər. Əlimizdən çıxdı qaçdı o İşıqsaçan.

Qırx ikinci ildə Taqanroqda 416-cı diviziya Almanların qabağından qaçdı, tək Mustafa ön cəbhədə, öz qohumları ilə qalıb, ən çox sevdiyi xalqın qanını su yerinə axıtdı.

Səməd dedi:

– İzah elə görüm o qatil hərbçi niyə OdAğÜzdədi, ay özünün qatili!

Bünyad bəy dedi:

– Başa düşmürəm!

Səməd dedi:

– İsa əfəndi kimi Mustafa da Ər oğlu Ərdi, kini aşıb-daşan "verbovşik" deyil, ay kin mücəssəməsi! Sən əminsən ki, "Yevrey"də EvƏrEy irsi qalmayıb! "Nəinki Ağ planetində, heç bu təhrif Yerdə də yerin yoxdu sənin! Çürümüsən! Ölmüsən", ay ölü!

Bünyad bəy tutqun:

– Yenə başa düşmürəm. Həm dərs deyirsən, həm ölü sayırsan! – dedi. – Həqiqətən ölüyəmsə, niyə dərs deyirsən axı bu ölüyə?! De bunu! De!

Səməd dedi:

– Əsəbləşmə, Bəy. Yenə təkrar edirəm ki, fəlakət tarixini danışıb qurtarandan sonra biləcəksən hər şeyi. Yaxşı-yaxşı, de görək Muğanlı küllüyünü kimlər yaradıblar?

Bünyad bəy "tfu" eləyib dedi:

– Yüz bir Bağ "Şəhri-Yar"dan sürgün olunandan sonra Musa ağanın ocağını Muğanda çobanlar qalayırdılar. Musa ağanın quyusunun qırağında. Omarağalı bura köçəndən sonra Nabat Alılının, Eminlilər çobanları qalayırdılar ocağı Omar ağanın ordakı quyusunun qırağında. Burdakını da ki dedik Bağıyeyən Romanovlardan başlamış Bağıyeyən Bünyad bəyə qədər, nəhəng "Yevrey" zənciri yaradıb Muğanlı küllüyünü! Axırıncı öldürülən Mustafadan sonra tarix qurtarıb! Daha nə istəyirsən?!

Qurtardı tarix! İndi, nəhayət, bilməliyəm mən, niyə dərs deyirsən bu ölüyə?!

Səməd sakitcə:

– Tək sənə yox, səhərdən bəri mən bütün Bağıyeyənlərə dərs deyirəm, ay Bağıyeyən! Bir şey qandın?!

Bəyin gözləri bərəldi:

– Əcəb abrakadabradı! Bu Çinar gölünün qırağında danışılan tarixi sənlə məndən, bir də o yanındakı Orduqozsuzdan başqa kim eşidir?!

Səməd dedi:

– Pünhan Muğanna eşidir.

Bəy dedi:

– Bu lap ikiqat abrakadabra oldu. Pünhan Muğanna da Bağyeyəndi?! Ona da dərs deyirsən?!

Səməd dedi:

– Qanmadın, ay müdrik "Yevrey". Mən səni danışdırıram. Sən və mən nə danışırıqsa, AdıPünhan Muğanna hamısını eşidir və yazır.

İndi necə, qandın?!

Bəy dedi:

– Muğanna EySardan eşitdiyini yazır.

Səməd dedi:

– SimOd – "Səməd" deyil bu danışan, ay bədbəxt, EySardı.

Bünyad bəy əlini yellədi.

– İndi deyəcək İblisəm, kinoyam. OdAğÜzdən EySar göstərir!

Səməd dedi:

– Tamamilə doğrudu, ay ən müdrik "Yevrey", Səmədlə Musa Muğanna OdAğÜzdədi, ay qeyri-adi idraksız "Yevrey"!

ƏsEyƏrlərdə kino fəzada göstərilir. Lap adi kino kadrlarıyıq biz.

Bünyad bəy qaşlarını çatdı:

– Demək, real ÜnƏs deyilsən?!

Səməd dedi:

– Axırda hər şey aydınlaşacaq, Bəy. Mən sənə dedim Pünhan Muğanna eşidir bizim danışığımızın hamısını, bax bu saat lap taqətsiz vəziyyətdə, tövşüyə-tövşüyə yazır ki, ƏsƏrini tezliklə bütün Yerdə oxusunlar SafAğ Elminin Mücahidləri Muğannalar, Bağlar – “Muğ”lar haqqında məlum olmayan təfsilatları da bilsinlər. Aydın oldumu bu?

Bəy dərindən nəfəs aldı:

– Bildim.

Səməd dedi:

– İndi, de görüm, Omar ağanı kim öldürdü?

Bəy başını buladı:

– Bilmirəm. Otuz dördüncü ilin yayında Göy Qılınc yaylağında heç kəs yox idi bizdən – “Yevrey”lərdən. Eşitdiyim budu ki, səksən dörd yaşının tamamında da Omar ağa çox gümrah imiş. Bir günortaüstü Göy Qılıncın aşırımından qayıdıb, gəlinlərinə deyib:

– “Muğanlıya, Mustafaya depeş vurdurun,” Böyük dəyədə yerimi salın, mən köçürəm bu gün. Aşıq Alını da çağırtdırın, bir az bayatılasın”.

Hamı heyrətlənib ki, “necə yəni köçürəm”, belə sapsağlam kişiyə birdən-birə nə oldu?!

Omar ağa cavab verməyib. Qonşuluqda qohum Əli Paşanın toyu imiş. Deyib: “Mən köçəndən sonra toy əhlinə heç nə deməyin. Sabah gəlin gələndən sonra deyərsiniz”.

Səməd soruşdu ki:

– Səncə nə olmuşdu?

Bünyad bəy dedi:

– Məncə, həmin gün Omar ağaya OdAğÜzdən məlumat verilmişdi ki, tezliklə Muğannaları qıracaqlar, Sibirə, Qazaxıstana sürəcəklər. Əlli üçüncü ilin axırında Mustafanı da öldürəcəklər. Evdə “Şolloy” çağrılan SafAğ Varisindən – Mustafanın oğlu Pünhan Muğannadan başqa Yer üzündə OdAğÜzlə əlaqəsi olan tək-tək “Muğ” – Bağ qalacaq. Onların fəaliyyəti də ta əsrin axırına qədər məhdudlaşdırılacaq... Yerdəki belə müsibətlərdən çox sarsılmamaqdan ötrü çağırmışdılar Omar ağanı OdAğÜzdən... Belə izahat yazmışam mən

Moskvaya. Bizdən heç kəs əl qaldırmayıb Omar ağaya. OdAğÜzdə özləri istəməyiblər ki, kişinin əlaqələri davam eləsin.

Səməd dedi:

– Bəs Mustafanı kim vurdu?

Bəy dedi:

– Məndən – "Çax-çux"dan başqa bu tərəflərdə "Qızıl İlan" kliçkasında bir kəşfiyyatçımız da vardı. Çox dəqiq konspirasiyada saxlanırdı. Tanımırdıq biz onu. Aldığım məlumata görə, Mustafa özündən başqa dörd nəfər işçisi ilə Ceyrançöl deyilən yerdə kolxozun örüşlərini müəyyənləşdirməyə gedirmiş. Muğanlıda kolxoz sədri idi. O vaxt – əlli üçüncü ildə gürcücə "Kuxeti" deyilən dəmiryolu stansiyasından bir az aralananda, düzənlikdə "Qızıl İlan" maşının qabağına çıxıb, əlini qaldırıb ki, "saxlayın, sözüm var Mustafaya". Mustafa "Villis"dən düşəndə "Qızıl İlan" gözlənilmədən tapançanın küpü ilə vurub Mustafanın gicgahını deşib. Sonra maşındakılara əmr eləyib ki, maşını döndərin, Mustafanın başını maşının altına soxun. Budu. Maşındakı adamları danışdırıblar, hadisəyə "avariya" adı qoyublar. Vəssalam.

Səməd soruşdu ki:

– Mustafanın böyük qayğı ilə qoruduğu "Şolloy" nə əcəb sağdı hələ?

Bəy dedi:

– Özün bilirsən ki, SafAğ Elmi çox yayılıb indi. Əlli-əlli ikinci illərdə Moskvada təhsil alanda Şolloyu institutda qoruyanlar çoxdu. Eşitdiyimə görə, bizimkilər yeddi-səkkiz dəfə sui-qəsd eləyiblər Pünhan Muğannaya, bir şey çıxmayıb. Maksim Qorki adına institutun rektoru Fateyev Pyotr öz maaşına xüsusi adam tutubmuş, avtobuslarda, "elektriçka"larda, yataqxanada da o adam Şolloyu qoruyurmuş. Burda, Bakıda da Mehdi Hüseyn Həsən adlı bir oçerkisti təyin eləyibmiş ki, Şolloyu gözdən qoymasın. Saatlıda bir raykom katibi Şolloyu öldürtdürmək üçün dəridən çıxıb. Həsən oçerk yazıb, o katibi ifşa eləyib, işdən qovdurub, sonra da başını əkib. Altmışıncı illərdə bir neçə əsərinə görə Şolloyu həbs eləyirmişlər. O vaxtkı məşhur tənqidçilər Cəfər Cəfərovla Məmməd Arif məqalə yazıblar ki, "İsa Hüseynovun" siyasi mövqeyi kommunizm ideyaları mövqelərinin ziddinədir". Elə həmin il Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının birinci katibi təyin olunub. İş elə gətirib ki, o vaxtlar Moskvadakı EvƏrEylərdən birini

buraya – Azərbaycana ikinci katib təyin eləyiblər. O iki nəfər lap belə cəngavərcəsinə qoruyublar, Şolloyu tutmağa qoymayıblar. İndi təzə-təzə açılır ki, Comərd – Musa ağa adı ilə tanınan adam – UluBağ ƏsƏlMən özü, OdAğÜzdən SafAğ işıqla qoruyurmuş. İndiki Pünhan Muğanna qorxusuz-hürküsüz yazır bu barədə. "Heydər də əbədiyyətə gedəcək", – deyir, "Babamız qoruyur", – deyir. Belə qorxusuz-hürküsüz olublar indi Muğannalar.

Musa hardasa yorğun-yorğun saz çalırdı:

– OdAğÜzün, Kainatın qüdrətini hiss eləyirsənmi?

Bəy qətiyyətlə:

– Yox, – dedi. – Kainat Bağları Yerin iradəsinə təzyiq göstərmirlər. Odu ey, su basır Yeri, Bağlar müdaxilə eləmirlər. Belə əcəb sarsaqdılar Bağlarınız. Bizə ancaq yumşaq-yumşaq təsir eləyirlər: "Müharibəni kəsin! Atom istehsalını dayandırın" – filan. Aç indi görüm həqiqi Səmədsən, ya yox?

Bəy sözünü tamamlaya bilmədi. Səməd, Musa, ocaq hamısı birdən-birə yoxa çıxdı. Bir az sonra uzaqdan, göyün dərinliyindən SimOdun səsi eşidildi:

– Ətrafına bax. Yolayrıcındasan, Bəy. İlk gəncliyində daxilən iki yolayrıcında çırpınırdın. Əgər Romanovlara təslim olmayıb o ruhani gimnaziyadan qaçsaydın, indi Şimalla birləşmək əzmində olan Cənubunuzda uca ruhlu vətəndaşlardan biri olardın, şübhəsiz, bir SafAğ mücahidi kimi, əbədi həyat qazanardın... İndiki yol ayrıcının ikisi də səni faniliyə çağırır, biri deyir" get Küllüyün quyusunda gizlətdiyin qızıl küpələrini çıxart, o sovxozdan bir kənarda "Vayenni qorodok"dakı zemlyankanda bir kənarda həyat qur. Cavan zənən, cavan qulluqçu, plov-çilov və sairə. O biri yol deyir: "Taqətin kəsilib, ömruyün sonudu, get gir o zemlyankaya, Öl orda!.." – Səs kəsildi.

Bəy küllüyə doğru baxıb, birdən daha da təqətsizləşdi: ondan – Bəydən kiçik olsa da, Bəyin gülə-gülə "Qoca" kliçkası verib "tapdaqda saxladığı" "Qoca" sağ-səlamət, öz sarı "Mersedes" ində, yanında beş-altı nəfər nəvəsi, uzun ip ucunda bir adamı quyuya sallatdırdı, qızıl küpələrini "Mersedes"ə doldurtdurdu, özü "rul"un arxasında oturub, özünün saldırdığı Sudüşən qəsəbəsinə gedən torpaq yolda, qalın toz arxasında yox oldu.

Bünyad bəy ayağa qalxa bilmədi. Dörd əl-ayağı üstündə, iməkləyə-iməkləyə, gözləri qarala-qarala hara getdiyini bilmədi.

Nəfəsini dərib gözlərini açanda özünü çılpaq çarpayıda gördü. Bura “Vayenni qorodok “dakı gizlin yaşayış yeri idi. Ehtiyacı olmadığına görə çoxdan gəlməmişdi. Birdən... Sərvi?! Bəli, Sərvi idi. Çarpayının yanında dayanmışdı.

– Nədən belə heyrət elədin, a kaftar! – dedi. – Sənin “ins” bədənində bir az ÜnƏslik əmələ gətirmişik. Odu ki, gəldim ki, ÜnƏs abırında dəfn eləyim səni. – Belə deyib, birdən lap İblis kimi qəhqəhə çəkdi. – Səndən “ins”də olmaz, a bədbəxt!

Yastı quyruğunu şappaşap yerə döyən bir qunduzun ardınca qunduzlar içəri doluşdular. Çarpayının sağ-solunda bəyin dövrəsinə yığışdılar, dişləri, dırnaqları ilə şalvarı cırıb dağıtdılar, kimisi ön, kimisi arxa tərəfdən bəyə sürtüşməyə başladılar. Tappıltı ilə yerə düşənlər dəyirmi, yaşarmış gözlərlə sahibə baxa-baxa yuxarı dırmanmağa çalışırdılar.

– Sərvi ikrahla üz döndərib yoxa çıxdı...

Kim xəbər verdi, necə oldusa, lap çoxdan “verbovat” olunmuş “Muğ”lardan biri özünü yetirib itləri o yan-bu yana itələdi, baldırlarından qan süzülən “Bəy”i qucağına götürüb, yekəpər, uzun, güclü qollarının üstündə eşiyə çıxartdı, özü ilə gətirdiyi palanlı eşşəyin belinə qaldırıb: “Hoş! Hoş!” – dedi.

Hara apardı? “Bəy” sağaldımı, öldümü? – Bunu nədənsə mənə demirlər. Bəlkə də haqlıdırlar. O çarpayı, qunduzların o vur-hayı, o qan yadıma düşəndə, nədən kədərləndiyimi bilmirəm. Bəzən hətta gözlərim yaşla dolur. Yalnız bir neçə kəlmə eşidirəm:

– “Cəhənəm məkanını tap, ey “ins”, o fantastikasız fantastika sənin özündə deyilmi?! “

Mənim yaşla dolan gözlərim sənin taleyinə görə deyilmi?! Sənin o zərif, məlahətli, yüz on üç yaşlı sifətin yalnız öldürdüyün anda dəyişib idbarlaşırsa, biz necə deməyək ki, o, Cəhənnəmi özündə olan – çürüməkdə olan sifətdir. Mənim sirr açmağı, qisas almağı tamam mənasız sayan babamdır səni tanıyan, o da məlumdur ki, əlimiz çatan yerdə deyil. Övladları, qohum-əqrabası ətrafında, Vətənimiz EyƏrin dərdini çəkə-çəkə məndən ötrü qəribsəyən əziz babam!.. Bu kitabçanı oxuyan Yer övladları, son gününüzü, üzünüzdə son ifadəni təsəvvür edə bilərsinizmi? Dərk edirsinizmi niyə belə olursunuz, ey cəhənnəmi içərilərində olanlar?!

# İSAHƏQ, MUSAHƏQ

## MÜQƏDDİMƏVARİ BİR ŞEY

Həyatımı və mübaliğəsiz demək olar ki, bütün varlığımı kökündən dəyişdirən hadisələr burulğanı Qara Canbalayevin ilk baxışda çox adi görünən sualı ilə başlanmışdı: "Sənin ana dilini əlindən alanmı var ki... Anadil qoymusan təxəllüsünü? Necə yəni Anadil?! İzah elə". Adi, əmma eyni zamanda təkidli izah tələb edən sualın cavabında təxminən yarım saat danışandan sonra kişinin marağının tələbatını ödədiyimi düşündüyüm halda, həmin gündən, yəni 1957-ci il sentyabrın birindən etibarən, yuxarıda dediyim kimi, elə hadisələr burulğanına düşdüm ki, bu burulğandan qurtarmağa – xilas olmağa heç bir ümidim yox idi. İndi, aradan xeyli keçəndən sonra, qələm əlimdə, stolumun arxasında oturub fikirləşirəm: xilas ola bilməmişəmmi? Beynimdəki bu qaynar qazanın səbəbi nədir? Müxtəlif dövlət təşkilatlarında, müxtəlif evlərdə sorğu-suallardan, çək-çevirdən niyə qaçıram? Yazdığım əsərin, özümün taleyim necə olacaq? Səbəb nədir ki, Azərbaycan Sovet Sosialist Respublikası adlanan bu ölkədə "sovet yazıçıları" adlanan əliqələmlilərin arasında beş-on nəfərdən başqa heç kəsin tanımadığı, hələ bir hekayəsi də çap olunmamış bu bədbəxt gənc yazıçının ətrafında, Canbalayevin ifadəsi ilə desəm, "ajiotaj" başlanmışdı? Səbəb nədir ki, bəlkə də əvvəlinci və axırıncı olan bu əsərdə Qara adı, Canbalayev familiyası ilə oxucuya təqdim etdiyim dəhşət mücəssəməsindən başlamış, özüm də daxil olmaqla, burulğanda burulanların hamısının adını, familiyasını dəyişdirib, həqiqətdə sənədli olan əsərdə, hətta hadisələri də mümkün qədər dəyişdirmək istəyirəm? Belə bir qorxaqlıqdan, acizlikdənsə, bəri başdan qələmi atmaq daha yaxşı deyilmi?.. Mənə elə gəlir ki, qaynar qazanda qaynayan saysız-hesabsız sualları burdaca kəsib, hər şeydən əvvəl, Canbalayevin hədsiz marağına və mənim burulğana düşməyimə səbəb olan

təxəllüsün harda, nə vaxt, necə yaranmasının tarixcəsini danışmasam, həyatımı və bütün varlığımı dəyişdirən hadisələrdən birini də lazımı dərəcədə yerli-yataqlı danışmaq olmaz.

"Anadil" təxəllüsü "sovet yazıçıları" adlanan əliqələmlilərin mühitindən çox-çox uzaq bir aləmlə, mənim "Nailə" əvəzinə "Nalə" çağırdığım bir qızın əsl mənada dünya dolusu dünyası ilə bağlıdır.

## 1. ANADİL SİRRİ

O vaxt mənim vur-tut yeddi yaşım vardı.

Müharibənin başlanmasından cəmi dörd ay keçsə də, artan vergilər, "tank pulları", ən əsası da kişilərin səfərbərliyə alınması camaatın əksəriyyətini, o cümlədən bizi də kasıblatmışdı. Hər axşam anamla həyətdə, çardağın altında oturub, yovşandan süpürgə bağlayardıq ki, süpürgələri satıb ələ gələn qəpik-quruşa çörək alaq.

Bir axşam darvazada, bomboz bozarmış əsgər paltarında, uzun, qapqara bir kişi ilə on iki-on üç yaşlarında arıq bir qız uşağı göründü.

Anam əlini gözlərinin üstünə qoyub, diqqətlə baxıb, birdən dik atılıb gələnlərin qabağına yüyürdü.

Kişiyə əl verib, əyilib əlindən öpdü.

– Qədəmlərinə qurban olum, Seyid! – dedi.

Qızın isə yanaqlarından, alnından öpdü. Bəriyə, mənim yanıma gəlmədən, elə orda – darvazanın qabağında nə barədəsə uzun-uzadı söhbət elədilər.

Sonra gəlib çardağın altında oturdular; kişi ocaq yerinin yanına atılmış sacayağının üstünə çöküb məni qucaqladı, qız isə onun ayaqlarının böyründə, palazın qulağında bardaş qurdu.

Anamın sifəti tutulmuşdu. Ocaq yerinin qırağında qonaqların əlinə qara aftafadan su tökdü, tələsə-tələsə süfrə açıb, iki nimçə qatıq və çörək gətirdi. Bugünkü kimi yadımdadır; anam çörəyi qıyma-qıyma doğradıqca, kişinin hulqumu tez-tez qalxıb-enirdi. İri, qırxıq başının ortasında yastılanmış əzik-üzük pilotkasını qaldırıb, islaq yaylığını təpəsinə, boyun-boğazına sürtürdü. Qız tez-tez qatığa, çörəyə baxıb, qızarıb-pörtüb, qarayanıq əllərini dizlərinin üstünə sıxıb eynilə atası kimi udqunurdu. Atası olduğunu indi deyirəm. O vaxt isə ancaq hiss edirdim ki, atasıdır. Sifətlərinin

uzunluğu ilə gözlərinin göyüklüyü bir-birinin eyni idi. Baxdım ki, qızın ayaqqabısının birinin burnu deşilib, baş barmağı görünür. Hardansa, uzaq yoldan gəlmişdilər, həm bərk yorulmuş, həm də acıb təntimişdilər.

Sacayağının üstündən qalxıb süfrənin qırağında qızı ilə üz-üzə bardaş quranda, kişi, anamın doğradığı çörək dilimlərini dalbadal götürüb, ovcunda ovub nimçəyə doldurdu.

Doğrama qatı oldu, kişi, hətta nimçənin içində qaşığı hərləyə bilmədi.

Anam mənə göz-qaş eləyib, çardağın dalına çağırıb pıçıldadı ki:

– Qonaq çörək yeyəndə ağzına baxmazlar.

Atam müharibəyə gedəndən hamı məni "evin kişisi" adlandırsa da, görünür, bu adı doğrultmağıma hələ çox vardı: anamın sözünü başa düşməyib, lap ucadan soruşdum ki:

– Dilənçidilərmi?

Və sol qulağımın üstündə gupbuldayan şillədən özümü itirdim.

Kişinin duruxub, qaşığı doğramaya sancıb kənara itələdiyini görəndə anam dümağ ağardı.

Qızın da eynilə atası kimi, qaşığı doğramaya sancıb, əlinin çəkdiyini görəndə isə, anam uğuldayan qulağımın üstünə bir şillə də çəkdi.

– Kişi sənin əmindi. Seyid Əli əmin! Qızı da sənin əmin qızıdı, bacındı! Dağdan gəliblər.

Uşaqlıqda mən ağlağandım. Əmma orda gözümdən bir damla da salmadım; heyrətlə anamın ağarıb birdən-birə islanmış sifətinə baxa-baxa qaldım.

Anam isə, yalnız indi başa düşürəm ki, görünür, mənim baxışıma dözə bilməyib, üzünü döndərib çardağın altına qayıtdı. Orda qızın saçlarını sığalladı, yanaqlarından öpdü, nimçəni yenidən kişinin qabağına qoydu.

Bu dəfə kişi doğramanı çox könülsüz yedi, qız isə yenə əllərini dizlərinin üstünə qoyub yerə baxdı.

Orda – çardağın altında çox şey oldu, bunların üstündən keçirəm.

"Çox şey" deyəndə, məsələn, kişi məni bir də qucaqlayıb qəribə sözlər dedi:

– Uzaqda, İrəvan deyilən yerdən bəridə, dağda bir kənd var. Adını yadında saxlayammazsan. Ağbizən deyirik. Ağlar da deyirik. Ordan gəlmişik biz. O kənddə anadan olubsan. Ağlar kəndində. Bir

az da böyü, özün biləcəksən hər şeyi. Yorğun olmasaydım, çoxlu-çoxlu danışardım sənə Ağlar kəndindən. Uzun-uzun qayalar var orda. Üzünü tutursan qayalara, deyirsən: "Mən Rəşidəm", qayalar da deyir: "Mən Rəşidəm". Dərədə çay var. Çayda çoxlu yekə-yekə daşlar var. Əlini salırsan daşın altına, balıq tutursan. Qızıl balıq!.. Yüz kilometr pay-piyada yol gəlmişik, Rəşid balam. Çox acmışdıq, yedik, doyduq. İndi yatmasaq, bax elə burdaca yuxu tutar bizi, ocağa yıxılarıq. Hə, bə nə! Yuxun gələndə sən də həmişə ocaqdan aralı dur...

"Çox şey" deyəndə, məsələn, qız qoftasının qoynundan bir dəstə sarı çiçək çıxartdı.

– Sənə gətirmişəm. Boxça çiçəyidi, – dedi. – Saxlasan lap sən qoca kişi olanda da görərsən xarab olmur boxça çiçəyi. Al.

O bir dəstə sarı-qızılı çiçək dəstəsi hal-hazırda bir qəbrin içindədir; yeri gələndə deyərəm kimin qəbrinin içindədir. Yəqin ki, orda da "xarab olmur". Nə isə, belə şeylərin yeri deyil hələ.

Anam evimizin o biri gözündə, atamın taxtında kişiyə, mənim çarpayımda isə qıza yer saldı. Bu azımış kimi, hətta mənim yorğanımı aparıb qızın üstünə örtdü.

Bütün bunlar – qohumlarımızın gəlişi də, anamın birdən-birə belə dəyişib sərtləşməsi də mənim üçün tamam anlaşılmazdı. Əmma azacıq sonra daha müəmmalı, daha sirli bir hadisənin şahidi oldum.

Seyid Əli əmi qızını öz əli ilə çarpayıya uzadıb üstünü örtəndən sonra, bayaq dediyinin əksinə, yatmaq əvəzinə qayıdıb çardağın altında, yenə sacayağının üstündə oturdu.

Məni soyundurub yerə salandan sonra anam da oraya – çardağın altına qayıtdı. Orda gecə yarıdan keçənə qədər oturdular.

Nə danışırdılar? Nə üçün elə xəlvətdə danışırdılar? Ürəyimi narahat döyündürən bu sualların cavabını o gecə söhbətindən çox-çox sonralar bildim. O gecə isə bildiyim yalnız bu oldu ki, anamla əmimin söhbəti nə isə heç xoşagələn deyildi. Mən ayağımın altına stul qoyub pəncərədən onları pusurdum. Seyid Əli əmi hərdən ah çəkə-çəkə, aram-aram nə deyirdisə, anam hər iki əli ilə saçlarını xışmalayıb sızıldaya-sızıldaya yırğalanırdı. Bu vaxt Seyid Əli əmi sacayağının üstündən dikəlib, anamın biləklərindən tutub, əllərini saçlarından qoparırdı, yenə nə isə danışmağa, başını bulayıb ah-uf eləməyə başlayırdı.

Mən vahimə içində donub qalmışdım.

Gecə yarıdan keçəndə Seyid Əli əmi “saldat sapoqları”nı sürüyə-sürüyə, ağır-ağır gəlib o biri otağa keçdi. Nədənsə, burda o, mənə donqarlanmış kimi, çox dərdli, həm də (indi fikirləşirəm ki) doğmalaşmış kimi, həqiqətən əmim – atamın qardaşı kimi görünürdü.

Daha səbr edə bilməyib evdən çıxmışdım. Soyuq gecədə büzüşüb eyvanda, məhəccərin dalında gizlənmişdim. Bilirdim ki, səsimi çıxarsam anam dərhal götürüb yorğan-döşəyə basacaq.

Çardağın altında ocağımız çat-çat yanırdı. Anam sac asmışdı. Alovun dilləri sacın qırağından uzanıb qarmaq kimi qatlandıqca, anamın yanaqlarında yaş parıldayırdı. Əvvəllər anam gecələr sac asıb yuxa yayanda məni həmişə yanında oturdardı, ya da elə ordaca yorğanın arasına bükər, “sən yat, anan da sənə fətir bişirsin”, – deyərdi. Anamın urvadan-undan ağarmış iri əllərinə, sacın üstünə salınan kimi buğlanmağa başlayan, ordan-burdan üfürülüb qabaran fətirə, gecənin qaranlığında gah sacın altına çəkilən, gah da yanlardan baş vurub titrəyən qırmızı alova tamaşa edə-edə, uzaqda, meşədə öz quş dillərində bir-birini çağıran Anadil quşlarının “qub-qub”, “qub-qub” səslərinə qulaq asa-asa nə vaxt yuxuya getdiyimi bilmədim.

Bəzən evimizin həndəvərindəki əkinlər suvarılanda, çardağın altına, ocağın işığına min cür bədheybət cücü uçub gələrdi. Belə vaxtlarda əlimə süpürgə götürüb anamın oturduğu palazın altına doluşmağa çalışan eybəcər danadişləri qırmağa başlardım. Anam mənim canfəşanlığıma baxa-baxa gülərdi: “Vur! Vur! Başına dolanım! Qır bu faşist köpəkuşağını!” Danadişilər az-az uçan vaxtlarda o məni dizinin dibində oturdardı, isti fətiri dürməkləyib təkidlə axırıncı loxmayacan yedirərdi. Mən ağzımı açanda anam da açardı, mən loxmanı udanda anam da udqunardı, elə bil o da mənlə bərabər yeyərdi.

Bir gözü sacda, bir gözü məndə olardı: “Mənim həyanım! Evimin yanan çırağı,” – deyərdi. İndi isə oğlunu yaddan çıxartmışdı.

Yalxı köynəkdə, məhəccərin dalında soyuqdan büzüşmüşdüm, titrəyirdim, anam isə orda ağlayırdı. Bu qədər ağladığını heç vaxt görməmişdim. Uzun dəmir şişlə qara sacın üstünü cıza-cıza fətiri çevirdikcə, şalının ucu ilə tez-tez gözlərini silirdi. Böyründə, saçaqlı süfrənin üstündə artıq bir qarış qalınlığında fətir vardı. Bu qədər fətiri neynirdi?

Arada yuxu basdı məni. Sonra, nədənsə, oyanıb, anamı yenə orda – ocağın qırağında gördüm.

Seyid Əli əmi içəridə, palaz üstə uzanıb o yan-bu yana çevrikirdi, "Of, ay fələk! Of, ay fələk!" – deyirdi. Qızı isə mənim çarpayımda, mənim yorğanımın altında idi. Gah ona baxdım, gah atasına. Köksümü ötürdüm. Bu adamlar öz gəlişləri ilə bizim rahatlığımızı niyə pozmuşdular. Niyə elə uzaq kənddən gəlmişdilər? Mən niyə orda – o "uzun-uzun qayaları olan" kənddə anadan olmuşdum? Anamdan küsmüş olsam da, yanına getmək, suallarıma cavab almaq istəyirdim. Əmma necə oldusa, bir vaxt gözümü açıb özümü yenə yorğan-döşəkdə gördüm. Deyəsən, səhər açılırdı. Otağımız hələ alaqaranlıqdı. Gözümü dolandırıb anamı axtardım.

Kandarda uzun bir adam dayanmışdı. Seyid Əli əmi idi. Çiynində yekə çanta vardı. Anam onun yanında durub hələ də ağlayırdı.

– Arxayın get, Seyid! Balanı öz balam kimi, ağzımda dilim kimi saxlayacam. Bu gündən Nailə Rəşidin əmisi qızı deyil, doğma bacısıdı. – Belə dedi.

Seyid Əli əmi də ağlamsındı. Dedi:

– Bizim nəsildə hamı etibarlıdı. Qardaşım arvadı yox, sən də doğma bacımsan. Hamılıqla Allah əmanəti olun!

Anam mis dolçamızı su daşının üstündən götürüb dalınca çıxdı. Bir azdan eşikdə su şırıltısı eşidildi.

Anam asta-asta, yorğun-yorğun qayıdıb dolçanı su daşının üstünə qoydu, "doğma bacım Nailənin" yatdığı çarpayıya baxdı və bu vaxt mən yeni bir heyrətli hadisənin şahidi oldum.

Nailə çarpayıdan hop qalxıb tövşüməyə başladı.

Əynində gödəcik boz çit don vardı. Çöp kimi quru qıçları, bomboz dizləri görünürdü.

Yalın ayaqlarını səssizcə ata-ata yaxınlaşıb anamın üzünə baxdı. Lap çoxdan tanıdığı bir adamla danışan kimi, anamın adını tutub soruşdu:

– Səriyyə bibi, dədəm getdi?

Anam qızı qucaqladı.

– Getdi, başına dolanım, – dedi. – Allah qoysa, sağ-salamat qayıdıb gələcək.

Nailə elə hey anamın üzünə baxırdı.

– Bəs mənə deyirdi gedəndə səni oyadacam?

Anam onu bir də qucaqladı.

– Səni yuxudan eləmək istəmədi, qıymadı, başına dolanım, ağıllı balam! – dedi. – Gəl qardaşıyın yanında uzan, qurbanın olum!...

Anam elə yalvarırdı ona, dönə-dönə o üzündən, bu üzündən öpürdü.

– İnşallah, sağ-salamat qayıdacaq! İnşallah! – deyirdi.

Nailə daha dillənmədi. Atası gedəndən sonra bu evdə o, nəinki ağlamadı, heç köyrəlmədi də. Nəfəsi ilə mənim çiynimi isidə-isidə yuxuya getdi. Eşikdən hələ də Anadil səsi gəlirdi: "qub-qub..."

Burda mən Anadil quşunun sirrini açmalıyam. O sirri mənə həmin bu Nailə adında, mənim pəltək dilimdə "Nalə"yə çevrilən, əslində də Nalə əmim qızı – bacım danışıb. O sirri on-on beş kəlmə ilə də demək olar, bir kitab qədər də. Bir şərtlə ki, gərək əvvəlcə Nailənin – Nalənin özünü tanıyasan. "Uzun-uzun qayaları olan" "Ağlar kəndi"ni, ordan bizim bu kəndə – Qonaqlıya, bütün Azərbaycana, o cümlədən Bakıya yayılan "Ağlar" adlananları tanıyasan. Buna görə də birbaşa o sirri açmaq əvəzinə Nailə barədə danışıram.

Məndən beş yaş böyük idi. Demək olar ki, mən kimi uşaqdı, əmma uzaq səfərə gedən atasının dalınca ağlamırdı. O vaxt mən, öz uşaq ağlımla, bunun necə qeyri-adi olduğunu dərk edə bilməsəm də,sonralar, yaşa dolduqca tez-tez xatırlayırdım və həmişə də heyrət edirdim. Doğrudur, mən artıq onun hələ lap körpəlikdən başının bəlalı olduğunu, gözünü açıb dünyaya baxan gündən məşəqqətlər gördüyünü bilirdim. Məsələn, bilirdim ki, vaxtı ilə Təbrizdə, Ağ Seyid adı ilə məşhur olan adam, şahın qəzəbinə keçib, qaçıb Arazın o tayından bu tayına adlayarkən güllə yağmuruna düşmüşdü və o beş yaşlı Nalə atasının qolları üstündə anasının necə can verdiyini görmüşdü: yad qəbiristanda ucqar bir qəbirin yanında atası ilə yanaşı dayanıb "anasının gözünə torpaq tökmüşdü". Mən artıq bilirdim ki, bu tayda, həmin danışan qayaları olan Ağlar kəndinin məktəbində "tədris proqramından" kənar, "qadağalı elm" barədə dərs dediyinə görə Ağ Seyid – Seyid Əli əmi ordan da qaçıb qızı ilə birlikdə bizim Qonaqlıya gələndən sonra Nalə gözlənilmədən onların daxmasında peyda olan Bikə adlı zalım bir arvadın tapdağına düşmüşdü. Sonralar mənə Nalə özü danışırdı ki, o vaxtlar, yəni otuz doqquz-qırxıncı illərdə atası mənim atam Ələkbərin direktor olduğu məktəbdə atamla

müəllimlərimizə "qadağalı elm" öyrətdiyinə görə tez-tez "hökumətdən qaçıb" haralardasa gizlənəndə, o zaman Bikə arvad Naləni "özü ağırlığında səhəngnən" su daşımağa, balta götürüb odun yarmağa, paltar yumağa məcbur edirmiş. Qırx birinci ildə Əli əmi mənim atamla birgə cəbhəyə gedəndən sonra Bikə arvad daxmadakı var-yoxu götürüb dağlara qayıdıbmış. Orda Nalə dərələrdən şələ-şələ asırğal çöpü, qucaq-qucaq əvəlik yığıb, bizim tərəflərə köçüb yaylağa gedən fermalarda – binələrdə satarmış. Bəzən Nalə binələrdən əliboş qayıdanda Bikə arvad yazıq qızcığazın paltarını çirmələyib boynunun ardında burub, açıq dalına gicirtkən döyərmiş... Cəbhədə yaralanandan sonra bir aylıq "otpusk"dan qayıdan Seyid Əli əmi on iki yaşlı qızını belə bir həyatdan qurtarıb, öz etibarlı qardaşı – cəbhə yoldaşının evinə gətirmişdi. Bütün bunlara bələd olan adam, öz yeganə əzizini yenə müharibəyə yola salandan sonra Nalənin ağlamadığına, "Səriyyə xala, dədəm getdimi?" – deməklə kifayətlənməsinə bəlkə də heç təəccüb etməzdi. Bu kədərli əhvalatı indi yuxu kimi nəql edən adam, o vaxtkı yeddi yaşlı Rəşid isə heyrətlənməyə bilmir.

O vaxt mən təkcə Nalənin yox, anamın nələr çəkdiyini də qanmırdım.

Seyid Əli əmi gedəndən sonra anam Nalə ilə mənim aramda uzanmışdı. Yorğanı başına bürümüşdü, üzünü görmürdüm. Əmma necə çətin nəfəs aldığını eşidirdim. Nalə başını qaldırıb, daha da böyümüş gözlərlə gah mənə, gah da anama baxırdı. Deyəsən, bərk qorxmuşdu.

Mən isə anamın belə çətin nəfəs aldığını birinci dəfə görmürdüm.

İlk dəfə o, atam gedən günü bu hala düşmüşdü. Mən onda qışqırıb şivən qoparmışdım, səsimə qonum-qonşu tökülüb gəlmişdi, arvadlar anamın üzünə su çiləmişdilər, əllərini ovuşdurmuşdular. İkinci dəfə belə bir hadisə kolxoz idarəsinin qabağında olmuşdu. Orda, həyətin lap ortasında qırmızı örtüklü stol qoymuşdular. Qonaqlının bütün camaatı yığışmışdı. Qocalarla uşaqlar qıraqda cərgələnib dururdular. Qızlar, gəlinlər, qarılar bir-bir stola yaxınlaşıb, qırmızı örtüyün üstünə qalaq-qalaq corab, əlcək, isti köynək, qulaqlı papaq, yaylıq qoyurdular. Orda, stolun yanında növbə ilə hamı danışırdı. Əlbəttə, mən bu danışıqlardan çox az şey başa dü-

şürdüm. Qandığım ancaq bu idi ki, kəndimizdən müharibəyə gedənlərin ana-bacıları, arvadları, nişanlıları faşistlərə qarğayırdılar.

Lap axırda anam toxuduğu yun köynəyi qoynundan çıxardıb, mənim biləyimdən tutub ortalığa yeridi. Əli stola çatmamış birdən dayandı və biləyimi əlindən buraxmadan yerə çökdü. Yenə də üzünə su çilədilər, əllərini, ayaqlarını ovuşdurdular.

Sonralar anam həftədə, on gündə bir dəfə belə olurdu. Mən də əvvəlkitək vahimələnmirdim. Anamın bənizinin ağardığını, əlini sinəsinə qoyub yavaşca yerə çökdüyünü görən kimi su dalınca yüyürürdüm. İndi də dərhal dolçanı qapıb anamın həmişə axşamdan doldurduğu su daşının altındakı vedrədən su gətirdim. Anamın böyründə diz çöküb əlimi dolçaya batırdım, üzünə, sinəsinə su çırpmağa başladım. İndi anam hıçqırmalı, dərindən nəfəs alıb yavaşca dikəlməli idi, sonra isə məni bağrına basıb yırğalana-yırğalana əzizləməli idi: “Mənim pənahım, bircə-pircə balam!”

Əvvəllər həmişə belə olmuşdu.

Bu dəfə əvvəlkilərtək olmadı; dolçadakı suyun hamısını anamın üzünə çırpdım, anam isə nə nəfəs aldı, nə də qalxıb məni bağrına basdı.

Anamın belə gec ayılması məni əvvəlcə təəccübləndirdi. Hətta bir də su gətirmək istədim. Əmma yarı yolda dolçanı yerə atdım, qayıdıb anamın əl-qolundan, çiyinlərindən yapışıb silkələməyə, çağırmağa başladım.

Artıq səhər açılmışdı, evimizin həyətə baxan pəncərəsindən içəriyə gün düşmüşdü. Mən isə hələ də anamın taxta kimi quru əl-qolundan çəkişdirə-çəkişdirə ağlayırdım.

Nalə içəridə yox idi. Evdən çıxdığını bilməmişdim.

Bir azdan qapıda göründü. Saçı üzünə dağılmışdı. Rəngi, necə deyərlər, kül kimi, bərk tövşüyürdü. Ayaqqabının burnundan çıxan barmağından qan axırdı. Bir az əvvəlki kimi böyük-böyük, gömgöy gözlərlə gah anama, gah mənə baxırdı. Niyə belə baxırdı? Qeyri-adi böyük, tünd göy gözlər nə deyirdi? Əlbəttə, onda mən belə incəlikləri heç cür anlaya bilməzdim. Bu suallar məni yalnız indi, əlimdə qələm, oturub o dəqiqələri yada salanda düşündürür. Bu sualların cavabı çətin deyil. İndi o gözlər, o qayaları danışan Ağlar kəndindən çıxandan sonra bütün yol uzunu Seyid Əli əmimin öz qardaşı Ələkbərin gözəl arvadı Səriyyə bibi haqqında danışdıqlarını

dinləyən, bütün yol uzunu Səriyyə bibi haqqında düşünən, Səriyyə bibinin qoynunda isinməyə gələn yetim qızın ümidlərinin puça çıxdığını danışırdı. O gözlər Səriyyə bibinin qoynunda isinmək əvəzinə, yeddi yaşlı bir uşaqla dam altında qaldığını fikirləşən qızcığazın qorxusunu-dəhşətini nəql edirdi. Əmma onda mən o gözlərdəki mənanı oxumaqdan məhrum idim. Məni ancaq bir şey düşündürürdü: anam niyə ayılmırdı?

Eynilə atam əsgərliyə gedən günü olduğu kimi, evimizə çoxlu arvad, kişi gəldi. Məni anamdan ayırıb bir evə apardılar. Orda mənə deyirdilər: "Anan dədəyin yanına gedib". Bu vaxt artıq atamın da həyatda olmadığını bilmirdim. Bilmirdim ki, Seyid Əli əmi uzaq cəbhələrdən anama xəbər gətirmiş və anamın xəstə ürəyi bu xəbərə dözməmişdi. Bunların heç birini anlamırdım, ona görə deyiləni də anlamırdım.

Əmma tezliklə hər şeyi bildim. Daha doğrusu, bir hadisə məsələlərin yavaş-yavaş açılmasına səbəb oldu...

Məni anamdan ayırandan sonra, qapısından baxanda dal bacası görünən, karvansaray kimi uzun, yarımqaranlıq bir dama – töyləyə aparmışdılar.

Töylənin gerisində çubuqdan hörülmüş çəpərə arakəsmənin dalında xeyli mal-qoyun saxlayırdılar. Bəridə, orta bacanın altında iri bir kötük tüstülənirdi. Bu korun-korun yanan ocağın qırağında bir-birinə oxşayan iki arıq, balaca ağsaqqal qoca otururdu. İkisi də eşiyə-bacaya çox az çıxırdı. Bu ona, o buna: "Ay İsa", "Ay Musa" – deyə-deyə, xırıldaya-xırıldaya nə barədə isə uzun-uzadı danışırdılar. Gah saatlarla qəlyan sümürə-sümürə susur, gah da bir-birilə bəhsə girmiş kimi, ağız-ağıza öskürüşürdülər.

Qocalardan başqa, damda səhərdən axşama qədər küncdə-bucaqda dümələnən, həmişə yaşmağı burnunun üstündə duran, bürüşük-qırışıq bir qarı vardı. Mənim əllərimi anamın əllərindən qoparıb, sümük kimi quru, sərt əlləri ilə belimdən məngənətək sıxıb, qışqırda-qışqırda evimizdən çıxardan, Nalənin biləyindən yapışıb yanınca çəkə-çəkə bu yarımqaranlıq töyləyə gətirən həmin qarı idi. Yadımdadır ki, qarı məni həyətimizdən çıxaranda dalımızca bir dəstə arvad-kişi düşmüşdü. "Evləri-imarətləri qoyub uşağı qara dama niyə aparırsan?" "Nə olsun ki, simsarsınız? Biz Səriyyənin balasını sizin heç birinizdən az istəmirik" "Dağa, Ağalara da gön-

dərmək olar, yaxın qohum-əqrəba içində böyüsün!" və sair belə qışqır-bağırla qarını hər yandan fənikdirirdilər – təntidirdilər. Əmma qarı heç kəsə məhəl qoymadı; bir adama bir kəlmə cavab da verməyib, məni qoltuğunda töyləyə sürüdü, içəri girəndə isə məni qocaların üstünə atıb, Naləni ocağın qırağına itələyib, qayıdıb qapının rəzəsini keçirdi...

Qısasını deyirəm. Nalə qocalarla lap ilk gündən dostlaşdı. Gah "İsa baba", gah "Musa baba", – deyə-deyə nə barədə isə şirin-şirin danışdığını indi də xatırlayıram. "Nə barədə isə" deyirəm, çünki ilk günlərdə onların söhbətinə qulaq asmırdım; ürəyim öz evimizdə, anamın yanında idi. Mizgək iyi verən bu yarımqaranlıq töyləyə, korun-korun yanan orta ocağın içəridə lay-lay yatan acı tüstüsünə, iki yandan dəmlənən qəlyanların iyinə, iki tərəfdən öskürüşməyə başlayanda saqqalları islanana qədər susmayan bu qocalara heç cür isinişə bilmirdim. Nalə deyirdi bunlar da dağdan – Ağlar kəndindən qaçan alimlərdəndilər, guya dünyada bu qocalardan bilikli adamlar yoxdur. Guya Seyid Əli əmini və mənim atamı da bu qocalar saxlayıb. Niyə? Bunların öz uşaqları olmayıbmı ki, başqa uşaqların dərdinə qalıblar?

Nalə nağıl kimi bir şey söyləyirdi. On il əvvəl, kolxoz qurulan vaxt, belləri mauzerli, çiyinləri beşaçılan tüfəngli "otryadnik"lər bir gecə həmin qara dama dolub İsa baba ilə Musa babanın oğullarını güllələyiblər. O vaxtdan İsa baba ilə Musa baba yasa batıb bu qara damda qalıblar. Guya indi bizim burda olmağımız babaları sevindirir.

Əmma mən orda heç bir sevinc əlaməti görmürdüm.

Gecələr arakəsmənin dalında gah dana böyürürdü, gah çəpiş məkkildəyirdi, gah da dal bacanın ağzında səhərə qədər it hürürdü. Yalnız səhərə yaxın qarı durub heyvanları çölə çıxardandan sonra gözümə yuxu gedirdi. Onda da orta bacadan işıq düşməmiş ayılan qocaların öskürtüsünə oyanırdım. Bu vaxt qarı yenə küncdə-bucaqda dümələnirdi, Nalə İsa babası ilə Musa babasının əllərinə sarı aftafadan su tökürdü. Qocaların açıq dirsəklərindən süzülən su ocağa doğru axıb isti qoru qaynadır, qatı buğ qalxıb orta bacaya doğru diklənirdi. Mən ancaq bu vaxtlar, yəni qocaların dəstəmaz alan, qarının fıshafıs üfürə-üfürə, şappaşap ətəkləyə-ətəkləyə ocağı qalayıb qara çaydanda çay qaynadan vaxtında, fürsət tapıb qapının arasından sivişib həyətimizə yüyürürdüm. Bağlı qapının qabağında

büzüşüb, dizlərimi qucaqlayıb, gözümü uzaqlara dikib "dədəmin yanına getmiş" anamın yolunu gözləyirdim. Burda hər şey – çardağın altında qaralan ocaq daşları da, dirəkdən asılı qalmış yovşan süpürgələri də, tozlu pəncərənin dalında görünən su daşı ilə mis dolça da mənə anamı xatırladırdı. Hər gün, hər saat, hər dəqiqə onun yolunu, qucağını gözləyirdim. Günlərin birində onun hökmən gələcəyinə şübhə eləmirdim. Əmma hərdən canıma üşütmə düşürdü; anamın taxta kimi qurumuş əl-qolunu, hərəkətsiz donuq gözlərini görürdüm, barmaqlarımın ucunda alnının, sinəsinin soyuqluğunu duyurdum. Belə dəqiqələrdə məni yaş boğurdu. Əmma nədənsə, ucadan ağlamağa ürək eləmirdim. Kimlərsə deyirdilər: "Necə sızıldayır yetim!" "Taftıdan qorxur". Və mən, doğrudan da, Taftı qarının yenə gəlib məni aparacağından qorxurdum, için-için sızıldayır, göynəyirdim. Yalnız Taftı gəlib, yenə öz qurusümük qolu ilə ortamdan bərk-bərk sıxıb, böyrüncə sallaya-sallaya aparanda hönkürməyə, vay-həşir salmağa başlayırdım. Qara damda adamı təngə gətirən öyüd-nəsihət yenə davam edirdi; İsa baba susanda, Musa baba deyirdi, Musa baba susanda İsa baba deyirdi: "Allah qoysa dava qurtaracaq, dədən də, anan da gələcəklər, çıxıb gedəcəksən evinizə..."

Hərdən gecələr burda saqqalsız bir qoca da peyda olurdu. Adına gah "Çürük" deyirdilər, gah da "Aşıq". Sonradan bildim ki, adı Çürük aşıqdır, sazı da var, mütəkkənin üstündə oturub lap asta-asta çalıb, asta-asta oxuyur:

Alçaq dağdan duman qalxar
Dağı dolana – dolana.
Usta bağban bağı saxlar
Bağı dolana – dolana...

O, astaca səslə gecələr həmişə təkrar olunan bu sözlər indi mənə tamam başqa sözlər deyir; yeri gələndə danışaram. O vaxt isə bu mahnı yox, məni Çürük Aşığın təkrar elədiyi başqa sözlər maraqlandırırdı: "Allah qoysa dava qurtaracaq, dədən də, anan da gələcəklər, çıxıb gedəcəksən evinizə".

"Bu dava nə vaxt qurtaracaq? – Mən soruşanda, qardaşına nisbətən bir az dirmik görünən, burnunun sol tətəfində iri, tüklü xalı olan Musa baba əllərinin hər ikisini yuxarı qaldırıb əyri-üyrü

barmaqlarını göstərirdi: “Bax bu qədər yatıb duracaqsan, bir də qalxıb görəcəksən dava qurtarıb”. Mən hər gecə yerə uzananda barmağımın birini yumurdum. Axırıncı barmağımı yumduğum gecənin səhərisi yenə həyətimizə yüyürdüm, yenə də demək olar ki, eyni əhvalat təkrar olunurdu.

Bir gün kolxozumuzun sədri Mədəd Əmirli əmi qara dama gəldi, məni dizinin üstünə alıb qocalarla nə barədə isə danışdı, sonra vaxtı ilə atamın dediyi kimi, məni çiyninə götürüb, kəndin qırağına apardı. Orda xırman döyürdülər. Belə vaxtlarda atam həmişə məni vələ[1] mindirərdi, sonra yumşaq küləş yığımının üstünə yıxıb qarnımı qıdıqlardı və özü də mənlə uğunub keçinərdi. Mədəd Əmirli əmi isə yaman qaraqabaq adam idi. Məni nəinki vələ mindirmədi, ağzını açıb iki kəlmə söz də demədi. Ancaq hərdənbir çiynindən düşürüb üzümə baxırdı və həmişə də yaylığını çıxardıb gözlərini silirdi. Tək bir dəfə, xırmanın yaxınlığındakı bostandan dərdiyi qırmızı şamamanı köynəyimin ətəyinə qoyanda üzümə güldü və axır ki, dilə gəlib: “Oynat, sonra da ye”, – dedi. Axşamüstü Mədəd Əmirli əmi məni yenə çiyninə götürüb idarənin qabağına apardı. Orda bir arabaya çoxlu qarpız, yemiş yığılmışdı. Arabanın dalında isə bir inək və buzov bağlanmışdı. Mədəd Əmirli əmi bir də üzümdən öpdü, məni qaldırıb qarpızların üstünə qoydu. Arabanı sürən oğlan – Mədəd Əmirli əmimin oğlu Səməd yolda məni başa saldı ki, inək də, buzov da, qarpız-yemiş də mənimlə Nalənindir.

Bu əhvalatdan sonra Mədəd əminin oğlu Səməd qıvrım saçaqlı balaca bir çoban papağı və lap gödək bir yapıncı gətirdi. İsa baba ilə Musa baba köməkləşib, mənə bir cüt “Quşburun çarıq” tikdilər, çomaq da qayırdılar.

Əmma nə bu bəxşişlər məni inadımdan döndərirdi, nə də Nalə. Fürsət tapdıqca yenə həyətimizə qaçırdım.

Nəhayət, bir hadisə də baş verdi.

Deyəsən, Taftını da, qocaları da cana doydurmuşdum. Və yəqin elə cana doydurduğuma görə idi ki, bir səhər yenə gözdən oğurlanıb həyətimizə qaçanda, Taftı məni yarı yolda haqlayıb şapalaqlamağa başladı. Orda Taftının yaşmağı düşdü və mən qarının lap

---

[1] V ə l – xırmanda öküzə və ya ata qoşulan, taxıl dərzləri üstündə bir neçə saat süründürülüb, taxılı sünbüllərdən çıxaran ağır taxta alət

kişi kimi saqqallı olduğunu gördüm. Taftının bu heybətli görkəmindən vahimələnib qışqırdım, əl-qolunu cırmaqlayıb yaxa qurtarmağa çalışdım. Qarı isə daha rəhmsiz şapalaqladı. Məni vura-vura titrəyirdi, ağlayırdı.

Bu deyilənlər mətləbdənkənar şey kimi görünür. Əmma vaxtı çatanda məlum olacaq ki, burda hər şey, hətta Taftının birdən-birə kişi kimi saqqallı çıxması da mənim Naləmin dünyadolusu dünyası ilə bağlıdır, o dünyadolusu dünya isə mənim təxəllüsümlə, Anadil quşlarının sirri ilə bağlıdır. Mən bütün varlığımla inanıram ki, bir zaman gələcək, yer üzündə Anadil quşlarının sirri ilə maraqlanmayan bir adam da olmayacaq. Çünki dünyamızın varlığı-yoxluğu o sirrlə bağlıdır: necə yəni "peyğəmbərin danası"nı itiriblər? O necə danadır ki, dünyanın varlığı onun tapılıb-tapılmamasından asılıdır?! Çox ciddi məsələdir, elə deyilmi? Buna görə də yeddi yaşlı Rəşidin gördüyü və yalnız yaşa dolandan sonra dərk etdiyi hadisələri mümkün qədər hərtərəfli danışıram ki, sirrin açılması çətin olmasın.

O şapalaqdan sonra biz damın həyətində idik. Qocaların ikisi də hay-küyə qalxıb, qapının ağzında durmuşdu. Nalə onların arasında dayanıb baxırdı. Neçə vaxtdı ki, biz bir qabdan xörək yeyirdik, bir yorğanın altında yatırdıq. Əmma İsa babası ilə Musa babasına "şırthaşırt qulluq" eləyən əmim qızına hələ də ürəyim yatmırdı; mənə elə gəlirdi ki, bütün bu bədbəxtliklərimə səbəb o əsgər paltarlı kişi Seyid Əli əmimlə onun bu ayaqyalın, qarayanıq qızıdır. Gecələr Nalə qolunu boynuma salanda əlini itələyirdim, təpikləyib onu yorğanın altından çıxardıb: "Get, ayrı yat", – deyirdim. Gündüzlər hərdən Nalə: "Qardaş, qardaş!" – deyib yan-yörəmə dolananda da itələyirdim.

O şilləlmə hər şeyi birdən dəyişdirdi. Nalə qəfildən qocaların arasından atılıb məni qarının əlindən çəkişdirməyə başladı. Ancaq onu hiss etdim ki, birdən Taftı cin kimi qışqırıb məndən əl çəkdi, Nalə isə bir göz qırpımında məni belinə götürüb qaçdı. Qara damdan uzaqda, kəndin qurtaracağında, Mədəd Əmirli əminin heç bir evə oxşamayan nəhəng evinin yanında məni belindən sürüşdürüb, yerə qoyub boynumu qucaqladı:

– Ca-an, can, ağlama qurban olum! – deyib donunun ətəyi ilə gözlərimi, yanaqlarımı sildi. – Çoxlu quşlar ötüşən bu kimsəsiz

çəmənlikdə ilk dəfə onun səsini çoxdan bəri həsrətini çəkdiyim bir səsə oxşatdım: – Mənim bircə-pircə qardaşım! Taftının əlini dişləmişəm mən. Bir də ora qayıtsaq, məni də döyər. Getmə-yəcəyik daha ora.

Əmma, demə, bunun hamısı məni ovutmaq üçün imiş.

– Çürük Aşıq sədr Mədədin evində olur. Gedək Çürüyün sazını çalaq, – deyib, əlimdən tutub aparıb, o nəhəng evdən divardan, xalçanın üstündən asılı üç sazdan birini – balacasını, indi anlayıram ki, cürə sazı köynəkdən çıxarıb, əvvəlcə bir az dınqıldadıb, sonra başını sazın üstünə əyib, birdən-birə eynilə Çürük kimi astaca-astaca, elə gözəl çaldı ki, elə Nalə boyda olan qıvrımsaç oğlanın – Səmədin gözləri böyüdü. Gəlib əllərini simlərin üstünə qoyub dedi:

– Çürük məni öyrədəmmir. Səni necə öyrədib?

Orda mən Nalənin dilindən bir daha Ağlar kəndinin adını eşitdim: Ağbizən.

– Yəni biz Ağ – təmiz adamlarıq. Orda hamı saz çalır. Uşaqlar da çalırlar, oxuyurlar, – dedi. Sonra yenə çalıb-oxudu. Cürəni köynəyə qoyub, Səmədə verib, əlimdən tutub çəmənliyə çıxanda, çəmənlikdən o yandakı meşəyə baxıb, evdə oxuduğu mahnını bir də oxudu. Elə bil indi də qarşımdadır; yanaqlarından iri-iri damlalar axa-axa, eynilə Çürük Aşıq kimi, nazik, asta səslə oxuyur:

Sıx ormanda[1] ötən bülbül[2],
Ötmə, bülbül, mən Qəribəm...

Sonra gözlərini silib, əkə-pikə arvad kimi, çox ciddi görkəmlə başladı ki: – Taftı bizə analıq eləyir, saxlayır, biz də gərək onun sözündən çıxmayaq. Biz ikimiz də yetimik, ikimizin də anamız ölüb.

Biləyimi onun əlindən çəkdim.

– Ölüb?! – Qışqırdım ki: – Mənim anam ölməyib! Mənim anam dədəmin yanına gedib!

Doğru deyirlər: "Uşağın yadından söz çıxmaz". Əmma orda Nalənin nə dediyi, nə danışdığı yadımda deyil. Çünki bu vaxt yenə

---

[1] SafAğ alimlərinin – ustad aşıqların rəmzi sözü: Sıx orman – meşə (gizlin yer)

[2] Bülbül – guya gözəl oxuduğuna görə məşhurdur. Əslində SafAğ alimlərinin gizlin rəmzidir: "Bil! Bil!" oxunur, SafAğ Elmini bilən alim nəzərdə tutulur.

anamın taxta kimi quru əl-qolundan çəkirdim, barmaqlarımın ucunda onun sinəsinin, alnının soyuqluğunu hiss edirdim.

Nalə yenə əlimdən tutub məni harayasa aparırdı. Bir vaxt ayılanda gördüm qəbiristana doğru gedirik.

– O vaxt biz Təbriz şəhərinə qaçmaq istəyirdik, – deyirdi, – anam yorulanda bura gəldik.

Aparıb məni lap ucqarda iki yanaşı qəbrin yanında saxladı, yeriyib əvvəlcə köhnə qəbrin başdaşından, sonra təzə qəbrin torpağından öpdü. Dedi:

– Sənin ananı burda basdırıblar. Mənim anamı da dədəm gətirdi burda basdırdı. Güllə dəymişdi anamın başına. Düşmən gülləsi...

Nalə danışırdı, mən isə qara torpaq yığınına baxırdım.

Qəribədir ki, nə orda durduğumuz müddətdə ağladım, nə də geri qayıdanda.

Çəməndə Nalə xırda kol-kosun aralarından bir qucaq quru çırpı yığdı. Dama yaxınlaşanda çırpının üç-dördünü mənə verdi. Dedi:

– Qoy, Taftı görsün ki, ağıllanıbsan, sən də iş görürsən. Taftının saqqalından qorxmuşdun sən. Qorxma, Rəşid. Bilirsənmi, İsa babaynan Musa baba necə çox istəyirlər bu qarını. Bacılarıdı. İsa babaynan Musa babanın doqquz oğlunu birdən güllələyiblər bu damda. Taftı özünü öldürmək istəyib, qoymayıblar, salamət qalıb, əmbə bircə ildə belə çirkinləşib saqqal çıxardıb. Biz necə yetimik, Taftı da elə yetimdi, Rəşid! İsa babaynan Musa baba da elə biz təki yetimdilər. Ata-analarını ağalar öldürüblər, bunlar qaçıb bura gəliblər. Lap bapbalaca vaxtlarında yaydan-yaya yaylağa gediblər. Ağlara. Mənim orda nənəm vardı. Nailə nənəm adını Nalə Ağlar qoymuşdu.

Elə bil məni birdən-birə dəyişdirmişdilər; gözümün önündə qara torpaq yığını, qucağımda çırpı, Nalənin danışdığı dəhşətə qulaq asa-asa, fağır-fağır gedirdim. Orda dama yaxınlaşanda mən ilk dəfə Nalənin adını dilimə gətirdim, "Nailə" yox, "Nalə" dedim. Nalə isə birdən dayanıb, boynumu qucaqladı.

– Nalə deyən dilinə qurban olum! Nailə deyil axı mənim adım. Nalə nənəmin adıdı adım. Çürük də sən təki deyir: "Nalə". "Aşıq Nalə"... Yaşı yaman çoxdu Çürük Aşığın. Bizim Ağlardandı o da. Nənəmin ustadı olub, indi məni də şəyirdliyə götürüb. Özü nə bilir, hamısını öyrədəcək mənə. Bax o çaldığım sazı mənə verəcək, əgər yaxşı öyrənsəm hər şeyi...

Damın həyətində çırpını yerə yox, qollarını irəli uzadan Taftının qucağına qoydum.

O gündən, necə deyərlər, taleyimlə barışdım. Daha həyətimizə qaçmırdım, bağlı qapının kandarında büzüşüb yollara baxmırdım. Getdikcə qocalara da, Taftıya da alışırdım. Axşamlar inəkləri sağanda, səhərlər buzovları mıxdan açanda ona kömək eləyirdim. Taftı ilə birgə, heyvanları naxıra qatmağa gedirdim.

Anamın sağlığında mən həmişə gün yayılanda oyanırdım. İndi isə orta bacadan üstümüzə işıq düşən kimi qalxırdım, naxırçı dul arvadın: "Ay Taftı nənə, ay Taftı nənə!" çağıran səsini eşidəntək çəpərə arakəsmənin dalına qaçıb, inəkləri, danaları eşiyə çıxarırdım.

Şalvarımı çirmələyib, Sudüşən çəmənində şehə bata-bata heyvanları biçənəkdən o yana tez ötürməkdən ötrü, əri ilə oğlu müharibəyə gedəndən sonra naxırçılıq eləyən dul arvadın "dadına çatırdım". Bu vaxt ala qancığın balaları bir-birinin əl-ayağına dolaşa-dolaşa sağ-solumda yüyürüşürdülər. Küçüklər anadan olanda Taftı onları ətəyinə yığıb, damın dalındakı peyinliyə basdırmağa aparmışdı. Musa baba peyinlikdə dərin bir çuxur qazmışdı, Taftı küçükləri tappatap o çuxura atırdı, peyini ayaqları ilə küçüklərin üstünə axıdırdı. Mən zığıldaşıb bir-birinin qarnının altına soxulan balacalara baxıb şivən qopardıb Musa babanı küçükləri çuxurdan çıxarmağa məcbur elədim. Sonralar, hər axşam Taftının sağdığı süddən iki-üç qab dolusu götürüb küçüklərin yalağına tökürdüm. Taftı dillənmirdi. Küçüklərin qarınları yumrulanıb bərkiyirdi, bir azca çuxura düşəndə çör-çöpə ilişəndə yıxılırdılar. Mən ləzzətlə qəhqəhə çəkirdim, saatlarla küçüklərlə oynayırdım. Gündüzlər hara getsəydim, onların altısı da balaca, qırmızı dillərini çıxarıb ləhləyə-ləhləyə dalımca düşürdülər, gecələr isə yorğanımın altına doluşurdular, soyuq burunları ilə qarnımı dürtmələyib bir-birini basa-basa yatışırdılar. Hərdən ala qancıq bacanın ağzında hürəndə yorğanın altında həngamə qopurdu: analarının səsini eşidən balacalar ordan-burdan başlarını çıxardıb vay-həşir salırdılar, ya İsa baba, ya da Musa baba oyanıb öskürməyə başlayanda isə, dərhal səslərini kəsib, yorğanın altına dürtülüb mənim qoltuqlarıma sığınırdılar.

Bir gecə yorğanın altında boşluq hiss eləyib, diksinib dik atıldım, gördüm ki, küçüklərim yoxdurlar. Bu dəfəki şivənim elə dəhşətli oldu ki, içəridə hamı oyandı. Demə, balacalar çox toz-tor-

paqlı olduqlarına görə Nalə hamısını ətəyinə doldurub aparıb bizim çardağın altına, anamın ləyənində çimdirirmiş. Sevincimdən atılıb Nalənin boynuna sarıldım. Sonra nə oldu? Ocağımızın qırağından tapdığım köhnə ərsinə[1] necə baxdım, əllərimin içində niyə sığalladım və Nalə buna baxıb niyə ağladı?.. Düşünəndə indi də qəhər boğur məni. Uzaqda – meşədə Anadillər də elə bil Nalə kimi ağlayırdılar.

Sonra gördüm hətta Taftı da gəlib əlimdəki ərsinə baxa-baxa ağlayır.

Bu ağlaşma bir ayrı ağlaşmaya oxşadı. İndi onu deyəcəm.

Sentyabrın birində, kəndimizdə hamının Göyçək çağırdığı müəllimə məni məktəbə yazmağa gəlmişdi. Bu həmin Göyçək müəllimə idi ki, vaxtı ilə mənlə dost olmuşdu. Səhərlər atam çiyninə qaldırardı, kitab-dəftərini qoltuğuna vurub orta yolla gedən qəşəng gəlini göstərib deyərdi: "Bax o gedən Göyçək müəllimədi, xoşuna gəlir?" Göyçək müəllimə isə gülümsünüb bizə əl edərdi. Sonralar o, tez-tez bizim çəpərin dalına gəlib məni çağırardı, ordakı yaşıl kalafada oturub mənə konfet yedirdərdi.

Bir gün biz yenə çəpərin dalında oturanda anam böyürdən çıxdı, məni çəkib Göyçək müəllimənin dizinin üstündən götürüb evə apardı, dedi: "Göyçək müəllimə pis gəlindi, dədəni də, səni də mənim əlimdən almaq istəyir". Əmma, heç unutmuram ki, anam öləndə, səhər tezdən evimizdə ağlaşma düşəndə Göyçək müəllimə hamıdan bərk hönkürürdü. Niyə? Bilmirəm.

Müəllimə qara dama gələndə də mən o ağlaşmanı xatırladım, mənə elə gəldi ki, anamın tez-tez özündən getməsinin səbəbi elə bu gözəl Göyçəkdir, ondan qaçmaq istədim. Əmma elə buradaca dədəmin Göyçəyi necə xoşladığını da xatırladım və qaçmadım.

Müəllimə mənə "Əlifba" kitabı, bir dəftər və bir qələm gətirmişdi.

O günlər bərk yağarlıq idi. Kişilər rezin çəkmə ilə, arvadlar isə ətəklərini bellərinə vurub ayaqyalın gəzirdilər.

Damdan çıxanda Nalə bir göyə baxdı, bir də yerə, eynilə arvadlar kimi donunun ətəyini dəstələyib, yuxarı sancıb, məni belinə

---

[1] Ərsin – sacda çörək bişiriləndə bir kündəlik xəmir kəsmək üçün yastı, dəstəkli dəmir

aldı. Bu dəqiqə də gözümün qabağındadır: mən məktəbə gedən yaşıdlarıma baxıb, onun dalından düşməyə çalışırdım, "yekə oğlan" olduğumu iddia eləyirdim. "Ona bax, ona bax, qıçı sallana-sallana dala minib" deyən uşaqların sözünü götürmək istəmirdim. Əmma Nalə elə bil heç nə eşitmirdi; palçığa baba-bata, tövşüyə-tövşüyə: "Fikir vermə, sən mənə qulaq as", – deyirdi. Sonra gündəlik dərsimi təkrar eləyib, mənə də təkrar elətdirirdi: "At. Ot. Ata ot at" və sairə.

Yaz açılıb yer-yurd quruyana qədər belə oldu. Nalə məni məktəbə aparıb, sonra mən məktəbdən çıxanda da qabağıma gəlib yenə belinə alırdı və yol uzunu elə hey danışırdı:

– Nə qədər ki, Ələkbər əmi müharibəyə getməmişdi, birinci, ikinci, üçüncü, dördüncü siniflər səhər-səhər oxuyurdular. Müharibə başlananda cavanlar əsgər gedəndən sonra iclas olub burda. Sədr Mədəd deyib: kolxozumuzda kişi azalıb, müəllimlər də işləsinlər çöldə, dərsi günortadan sonra keçsinlər. İndi bax ona görə belə axşama düşürsən sən məktəbdən çıxanda, hamımız intizar qalırıq, onçun qabağına gəlirəm...

Bilirsənmi, Anadillər niyə bu vədə – axşamlar başlayırlar bir-birini çağırmağa? Çünki adamların içində çoxlu düşmənləri var Anadillərin, ona görə də gündüzlər gizlənirlər, qaranlıq düşəndən sonra uçurlar. Hərəsi bir yanda uçur, onunçun bax elə səsləşirlər, bir-birini çağırırlar. Biri deyir: "Tapdın?" O birisi deyir: "Tapmadım". Nədi axtardıqları, bilirsənmi? Camaat deyir iki qardaşdı Anadillər. Naxırçıymışlar. Peyğəmbərin danasını itiriblər. Çox axtarıb tapammayıblar. Axırda Allaha yalvarıblar ki, quşa döndər, qanad ver bizə, uçaq dananı axtaraq. Allah eşidib, deyib indiyə qədər birinizin adı İsahəq idi, o birinin adı Musahəq idi. İndi ki quş oldunuz, ikinizə də bir ad verirəm: Anadil. Niyə Anadil? Bunu heç kəs bilmir. Çürük deyir Naləni zəhərlədilər, öldürdülər düşmənlərimiz. O vaxtdan Anadilin sirrini çox istədiyi şəyirdlərindən savayı heç kəsə açmır Çürük. Bir vaxt gələcək sənə də açacam, deyir, Anadil sirrini. Sən də ancaq və ancaq öz istəkli şəyirdlərinə danışacaqsan. Başqaları bilsələr səni də öldürərlər, deyir, axtarıb tapıb Anadilləri də öldürərlər... "Mən özüm də ustad olanda mənim şəyirdim olarsanmı, Rəşid? Hələ demə. Dördüncünü, beşincini qurtaranda, saz, söz biləndə, bax onda ya hə deyərsən, ya yox..."

Əmma nə "hə" deyə bildim, nə də "yox".

Damın həyətində, malın arxacında, yəni gecələr yatdığı yerdən bir az aralı hündür yeri-yastı təpəni yamyaşıl ot, əlvan gül-çiçək basanda Taftı ilə Nalə oraya kilim salırdılar, mütəkkə düzürdülər, samovar qoyurdular, bükülü fətir, kasalarda pendir, qaymaq düzürdülər və Çürüklə Nalə orda iki mütəkkə üstündə üz-üzə oturub, çalıb-oxuyurdular.

Bir axşam Nalə dedi:

– Nalə nənəmin ölən günüdü. Bu gün Çürük qəmli oxuyacaq. İsa babaynan Musa baba, Taftı ağlayacaqlar. Mən ağlamayacam. Sən də kişi ol, ağlama, möhkəm olmalıyıq biz, Rəşid! Çünki dərdimiz çox olacaq bizim, İsa babaynan Musa baba da öləcəklər. Taftı da öləcək. Lap çox olacaq dərdimiz.

Təpənin üstünə yaxınlaşanda Çürük doğrudan da qəmli oxudu və hamı ağladı. Hamı deyirəm, çünki Göyçək müəllimə də orda idi; o, ağlayanda, nədənsə, məni də ağlamaq tutdu və Nalə də mənə baxıb ağladı. Və hamımızın Çürüyə qulaq asa-asa ağladığımız vaxt çox pis bir qəziyyə oldu. İndi o qəziyyəni danışmalıyam. Əmma Çürüyün orda oxuduğu mahnını sonralar Nalə mənim dəftərimə yazıb; əvvəlcə onu oxuyun.

Sonralar bildim, orda "Bəhməni" çalırdı Çürük və çala-çala deyirdi:

– Bəhməni "BağMəndi", övladlarım, məni sizə, sizi mənə bağlayır Bağlarımız. "Allah" bizim sözümüz deyil. "Bağ" deyirik biz. Bir zaman Ağlar naləsi aşıq Nalə məclisi "Divani" ilə yox, "BağMən"lə başlayırdı, "BağMən"lə də xətm eləyirdi. Naləmiz əbədiyyətə köçəndə, ermənilər bizi Ağlardan sürəndə əllərim əsirdi, çalammırdım. Naləmizin ilinin tamamında sinəmə söz gəldi. Köhnə şagirdim Abıya dedim, sən çal, görüm qəhər aman verirmi oxumağım eşidilsin. Görək o vaxt nə dedi bədbəxt Çürük:

Sən gedəli ələ saz alammıram,
Könlümün kök simi sınıb, ey Ağlar.
Hamı yanır səsə, mən yanammıram,
Ürəyimin odu sönüb, ey Ağlar...

Dediyim kimi, Göyçək müəllimə ağlayanda hamımız ağladıq. Həmin bu vaxtı da qəziyyə baş verdi.

Taftının "Düyüş, Düyüş" çağırdığı düyənin ilk balası ölmüşdü. İsa baba ilə Musa baba əllərində bıçaq, bir müddət hıqqıldaşandan sonra buzovun dərisini elə soymuşdular ki, burnu, göz yerləri, qulaqları da dərinin üstündə qalmışdı. Taftı o dərini başqa bir buzovun üstünə salıb, üstünə duz səpirdi və Düyüş duzu yalayıb qurtarana qədər düyəni sağıb qurtarırdı... Bu dəfə necə oldusa dəri buzovun üstündən düşdü, Taftı dərini götürüb buzovun belinə salanda Düyüş vahimə ilə böyürüb, buzovu təpikləyib, ayaqlarının altına saldı, çığnadı, sonra isə Taftını buynuzlayıb yıxdı, onu da elə yad buzovu çığnadığı kimi çığnadı. İsa baba: "Vay, evim yıxıldı!" – deyəndə, Musa baba: "Ocağım qaraldı!" – dedi. Təpənin üstündən tökülüşüb, yazıq qarını Düyüşün dırnaqlarının altından çıxartdılar, arxaçın qırağına çəkib otluğa uzatdılar. İsa baba bacısının bir tərəfində, Musa baba o biri tərəfində dizlərini yerə qoydular, Çürüyə qulaq asa-asa, səssiz-səmirsiz ağladıqlarının əksinə, burda hönkürdülər, səsləri bir-birinə qarışdı: "Belimizi sındırdın! Çörəyimizi kəsdin, ay Taftı! Qardaşların sənə qurban, ay Taftı!.."

Mən Anadil sirrini açmağa başlayanda və sonralar, taleyimizin keşməkeşlərində görəcəksiniz ki, Seyid Əli əmi ilə qızının Qonaqlıya gəlişindən başlamış, Çürük Aşığın yarımçıq qalan mahnısına və "düyüş"ün Taftını çığnamasına qədər, nə danışıramsa, hamısı Nalənin dünya boyda dünyasını sizə göstərmək, yaşadığımız dünya haqqında heç nə (təkrar edirəm), heç nə bilmədiyimizi sübut etmək üçündür.

Mən – Rəşid Fətullayev zərrə qədər də iddialı deyiləm. Otay-butay Azərbaycan deyilən bu bədbəxt insanlar ölkəsində bədbəxtliyi dərk edib, kütləvi bəxtsizliyimizdən qurtuluş üçün nə isə bir iş görməyə səy göstərən ən adi ziyalılardan biri də mənəm. Heç kəs məni tanımır və yəqin bilirəm ki, heç vaxt tanımayacaqlar. Nalənin dünya boyda dünyası isə hökmən tanınmalıdır. Yalnız belə bir niyyətlə, uşaqlığımızın son hadisələrini də danışmalıyam ki, başlanğıcda adını çəkdiyim Canbalayevlə bağlı əsas hadisələrə keçə bilim.

"Düyüş" əhvalatının da qısasını deyirəm.

Taftını içəri apardılar.

Əsli qayaları danışan Ağlar kəndindən olan qohum-əqrəbalarımız hardansa Ağbil adında nəhəng pəhləvan kimi bir sınıqçı gətirdilər. Sınıqçı Taftının qıçlarının yanlarına uzun-uzun taxtalar düzüb sarıdı,

qarının sağalacağını deyib, qocalara ürək-dirək verib getdi. Əmma Taftı daha yataqdan qalxmayıb, korun-korun tüstülənən kötüyün böyründə döşəli qaldı.

O vaxtdan Nalə məndən başqa daha üç "uşağın" dayəsi oldu. Nalə inəkləri sağırdı. Nalə sac asıb çörək bişirirdi, Nalə kürək götürüb heyvanların yatdığı yeri kürüyürdü, Nalə qulplu qazanda su asıb paltar yuyurdu, orta bacadan üstümüzə işıq düşəndən gecə yarıya qədər fırfıratək fırlanırdı. Biz isə aramsız ötürdük, onu buyururduq. Dilimizdə Nalə, ürəyimizdə Nalə, dörd "uşaq" bir uşağın himayəsində dolanırdıq. İsa baba ilə Musa baba, hər dəfə çörək yeyəndən sonra üzlərini göyə tutub: "Nalə balamızı saxlayın, ey ucalar[1]!" "Pənahımıza pənah olun, ey doqquzu da birdən gedənlərimiz!" – Elə danışırdılar ki, elə bil doqquz oğlun hamısı hardasa sağ-salamətdi. Taftı özü də çöp kimi nazik qollarını damın hispasdan qaralmış pərdilərinə doğru qaldırıb, orta bacadan görünən buludlara baxa-baxa uzun-uzadı nə isə pıçıldayırdı, "Nalə bala, Nalə bala"... – deyirdi.

Kimin ağlına gələrdi ki, günlərin birində Nalə qara damı tərk edəcək, özü də həmişəlik tərk edib səssiz-səmirsiz itib-batacaq?!

Bu müsibət qırx beşinci ilin yazında, yəni üç il sonra, müharibə qurtaranda baş verdi. O vaxt məni rayon mərkəzinə, həlak olmuş döyüşçülərin uşaqları, daha doğrusu, yetimlər üçün açılmış internata aparmışdılar. Əmma mən internatda bənd almırdım, həftədə, on gündənbir kəndə qaçırdım. Bir dəfə yenə gizlincə, kolxozumuzun maşınına minib kəndə gedəndə Naləni evdə görmədim. Yenidən yasa batmış İsa baba ilə Musa baba məni aralarında oturdub qəlyanlarını dəmlədilər. Taftı isə qalın yun şalının ucu ilə gözlərini silə-silə əhvalatı danışdı.

Demə, Göyçək müəllimə cəbhəyə – Seyid Əli əmiyə məktub yazıb xəbər veribmiş ki, qardaşı arvadı Səriyyə vəfat eləyib, Nalə qara damda əlsiz-ayaqsız Taftının yanında, Rəşidlə bir yerdə gözüyaşlı qalıb, Seyid Əli əmi isə qohumumuz sınıqçı Ağbilə yazıbmış ki, Krımda faşistlərin mühasirəsində qalıblar, ordan salamət çıxmayacaq, məktubu "kukuruzniknən" yəni poçt təyyarəsiynən göndərir və Ağbilə yalvarır ki, Naləyə yiyəlik eləyib müharibədən

---

[1] Ucalar – Bağlarımız nəzərdə tutulur.

sonra aparsın... Taftı deyirdi: “Qızı vermək istəməyiblər, əmbə ispalkom Qılınc Qurban deyib: “Seyid Əli qızıl əsgərdi. Əsgərin yazdığı zakondu”.

Mən internatı qurtarandan bir az sonra Nalə sınıqçı Ağbil ilə Ağlara gedib, üç il sonra – qırx səkkizinci ildə “Sovetlərə düşmən Ağlar” haralarasa sürgün olunanda isə bütün Ağbizən nəsli ilə birlikdə Nalə də yoxa çıxıb... Belə tale! O itən itdi, tapılmadı. İnternatdan çıxandan azca sonra mən öz qocalarımdan axırıncısını – Musa babanı dəfn etdim və universitetdə qəbul imtahanlarına çatmaq üçün tələsib Bakıya gəldim...

Gözlərimi yumuram, qarşımda orta ocağının kötüyü korun-korun tüstülənir. “Nalə bala, Nalə bala”, “Qardaş, qardaş”, “Can, ağlama, qurbanın olum!” – deyən səslər eşidirəm. Qəbirlərin baş daşlarından torpağından öpən, dizə qədər palçığa bata-bata, qan-tər içində, tövşüyə-tövşüyə gedən ağır yüklü bacımı görürəm... Taftının qıçlarını “Hoy çıx, hoy çıx”, – deyə-deyə “hoy-houc suyu”, yəni müxtəlif otların, güllərin, çiçəklərin qaynar suyunu tökə-tökə qarı ilə birlikdə özü də tərə batan, qara qazanda südü mayalayan, dələməni süzgəc torbaya töküb, süzülən dələmə suyu ilə yeddi itin yeddisini də doydurammayıb un kəpəyindən yal qaynada-qaynada, aramsız ora-bura yüyürən “dayə”mizi görürəm... Əllinci ilin payızından əlli dördüncü ilin yayına, yəni universiteti qurtarana qədər, müxtəlif qəzetlərə, milis idarələrinə yaza-yaza, saysız-hesabsız “rozısk” – axtarış elan edə-edə, familiyasını Ağbizənli yazdıran Nalə Seyid Əli qızından bir səs-soraq axtardım. Çürük Aşıqla elə özü kimi yaşı bilinməyən köhnə şagirdi Aşıq Abıya yalvardım ki, Dərə Ələyəzdən, yəni Ağlar kəndinin ətrafından, Göyçədən sürülənlərimizin arasındakı aşıqların hamısına, hamısına yazıb soraqlaşsınlar; heç ola bilməz ki, Çürük Aşıq kimi məşhur sənətkara uzun müddət şəyirdlik edən gözəl səsli qız aşıq belə səssiz-soraqsız itib-batsın!.. Əlli dördüncü ilin yazında, diplom müdafiyəsi ərəfəsində dözməyib yenə Qonaqlıya gedib, həmin nəhəng evdə Çürüklə Abını tapdım. Və Çürük gözlənilmədən köyrəlib:

– Neynirsən, övladım, tapsan da, yenə itirəcəksən! – dedi.

– Niyə itirəcəm?!

Dedi:

– Abı, axı görücüdü, övladım. Soruş özündən, desin.

Soruşdum, dedi:

– Sənin Həbibulla adında müəllimin var darülfünündə[1]. O Həbibulla çox şey bilir Nalə barədə, əmma demir sənə. Desə, çox sarsılarsan.

Dedim:

– Belə çıxır ki, sən də çox şey bilirsən?

Dedi:

– Bilirəm.

Xahiş elədim, yalvardım, Abı demədi ki, demədi. Elə ikicə kəlməni təkrar edirdi:

– Çox sarsılarsan. Çox sarsılarsan.

Bakıya qayıtdım. Sarsılmaq nədir, necə deyərlər, dirigözlü öldüm.

O "ölüm"ün səbəbini bilmək üçün indi Canbalayevləri tanımalısınız. Təsadüfdümü? Yoxsa, burda nə isə qeyri-adi bir qanunilik – zərurilik vardı, hər nəsə, iş belə gətirmişdi ki, Bakı Sovetinin nəzdindəki mənzil idarəsi mənə "dəhşətli adam" dediyim Canbalayevin həyətində otaq vermişdi. Canbalayevin pilləkəninin yancağında.

Canbalayevlər pilləkənlə ikinci mərtəbəyə qalxıb-düşəndə həmişə mənim iki addımlığımdan keçirdilər; yəni otağımın yeganə pəncərəsi birbaşa onların pilləkəninə açılırdı. Biz gündə azı üç-dörd dəfə üz-üzə, göz-gözə gəlirdik, əmma görməmişdim ki, ya Qara Canbalayev özü, ya da arvadı Göhər xanım mənlə kəlmə kəssin. Mənə elə gəlirdi ki, Canbalayev də, arvadı da məni heç adam saymır, ağızucu salam verməyi də şənlərinə sığışdırmırlar. Canbalayevin hirsli-hirsli bir-birinə sıxılmış qalın dodaqları, zəhmli gözləri, Göhər xanımın ağ, soyuq, laqeyd çöhrəsi təsəvvürümdən silinmirdi. Bəzən saatlarla çox qəribə təəssüratla yaşayırdım; durduğum yerdəcə öz-özümə əsəbiləşirdim: bu adamlar nə üçün bu qədər laqeyddilər? Qonşuluq bir yana, axı biz – Qara Canbalayevlə mən, demək olar ki, həmsənətdik. Doğrudur, mən Yazıçılar İttifaqının nəzdindəki "Gənclər günü" adında həftəlik dərnəyə hələ təzəcə ayaq açmışdım.

---

[1] Universitet

Və nə vaxtsa hansı əsəriminsə o dərnəkdə təsdiq olunub çapa verilməyini gözləyirdim. Canbalayevin isə ilk tənqidi məqalələri otuzuncu illərdə çıxmışdı: yəni bizim mövqelərimiz arasındakı böyük fərqi başa düşürdüm.

Əmma bu o deməkdimi ki, Qara Canbalayev mənlə üz-üzə gələndə heç olmasa başını tərpədib salamımı almamalıdır! Bunun sirri nə idi?

İldə dörd dəfə poçta gedirdim, İsa baba ilə Musa babanın mal-qoyunu mənim adıma keçirib "mənsi"li, yəni məhsulu-yağı, pendiri satdıqca hər kvartalın axırında mənə pul göndərən Çürüklə Abının yazdıqları "blank"ı dolduranda kürəyimin arxasında köhnə tələbə yoldaşımın – Bəkirin hənirini duyurdum. Bu o deməkdi ki, aldığım pulun üstündən "pivə pulu" ayırıb Bəkirlə getməliyəm. Əmma qəribə idi ki, hərdən özü də əlini cibinə salıb mənə sədaqətini sübut edən Bəkir birdən-birə eynilə yeznəsi Canbalayev kimi, müəmmalı qaraqabaqlığa başlamışdı. Səbəb nə idi?

Başlanğıcda dediyim gün – sentyabrın biri bütün suallara cavab verən heyrətli bir gün oldu.

O gün ərlə arvad dəniz kənarından qayıdırdılar. Bəyim xalanın, yəni dalandarımızın dediyinə görə, həkim onlara çox gəzmək məsləhət görmüşdü, əmma onlar bulvara çatana qədər təngnəfəs olub skamyalardan birində otururdular, qayıdanbaş isə yol yoxuş olduğuna görə, ya taksiyə, ya da trolleybusa minirdilər.

Maraqlı idi ki, Bəyim xala zahirən Canbalayevlərə laqeyd görünsə də, əslində onların hər addımından xəbər tuturdu.

Burda mətləbdən bir az uzaqlaşmalıyam. Çünki illərdən bəri bu həyətdə qulluq eləyən Bəyim xala haqqında bir neçə kəlmə deməmədən, burda baş vermiş hadisələri danışmaq mümkün deyil.

Bəyim xala da elə məntək qohumsuz-əqrəbasız adam idi. Canbalayevlərin pilləkəninin o tərəfində, eynilə mənimtək balaca bir otaqda olurdu. Yaşı altmışdan ötsə də, hələ bir dəfə "yoruldum, usandım", – dediyini eşitməmişdim. Gündə bir-iki dəfə həyətimizi süpürür, bağırsaq kimi çözələnən rezin borunun bir ucunu su kranına taxıb, yay aylarında, hətta gecələr də asfaltı yuyurdu ki, sərinlik olsun. Belə gecələrdə mən axşamdan yatıb, necə deyərlər, yuxumu alıb, düz saat on ikidə stolun dalına keçib, bir də küçədə hərəkət başlayanda ayağa dururdum. Bu vaxt pəncərəmin ağzında

birinci növbədə Bəyim xalanı görürdüm, onun yorğun, xırdaca, sarımtıl gözlərində məzəmmət duyub, hiss edirdim ki, Bəyim xala mənim çox işləməyimi, zəhmətə qatlaşdığımı bəyənsə də, "gecə yuxusunu" tərgitdiyimə görə yatağa düşəcəyimdən qorxurdu. Gecənin bir aləmində qəfildən kiminsə hənirtisindən diksinib dikəlirdim və bu arıq, balaca qadının buğlanan çay stəkanını ehtiyatla stolun küncünə uzadan iri əlini görürdüm. Qəribə idi ki, mənə bu qədər sonsuz və təmənnasız qayğı göstərən qarı Canbalayevlərin qapısını bir dəfə də açmamışdı. Əlbəttə, mən bunun səbəbi ilə maraqlanırdım, Bəyim xalanın bu ailə haqqında fikirləri ilə öz hisslərim arasında bir yaxınlıq görmək istəyirdim. Əmma bəyim xala Canbalayevlərin barəsində çox danışmaqdan ehtiyatlanırdı. Cəmicümlətanı iki dəfə mənim suallarıma bir qədər təfərrüatla cavab vermişdi. Birində mən Canbalayevlərin əslinin xəbər almışdım. Bəyim xala cavab vermişdi ki, bu adamların "altı-üstü" haqqında onun da elə bir xəbəri yoxdur; deyilənə görə, vaxtilə Gədəbəydə çox rəhimdil bir bəy varmış; rəiyyətlə danışanda hər sözünün başında "Can, bala!" – deyərmiş, buna görə də el arasında "Canbala bəy" çağırarmışlar. Qara, bəyin ən istəkli, etibarlı nökəri sayılırmış. Hətta and içibmiş ki, ömrünün axırına qədər Canbala bəyin nəvə-nəticəsinin qulluqçusu olacaq. Əmma deyirlər: "sən saydığını say, gör fələk nə sayır". Təxminən 1914-15-ci illərdə, günlərin birində bəy Qaranı yanına çağırtdırıb, dövranın tərsinə dövr elədiyindən, özündən sonra bir varisinin olmadığından danışıb, onu Qori seminariyasına oxumağa yollayıb. Qara isə, yəqin ki, öz ağasının niyyətini duyduğuna görə, seminariyanı bitirib gələndə bəyin yeganə övladı Göhər xanıma elçi düşüb, toydan sonra isə familiyasını atıb, əvvəlcə Canbalinski, bir az sonra Canbalayev yazdırıb... Bəyim xala deyirdi ki, bu əhvalatı ona Göhər xanımın xalası nəvəsi Bəkir, yəni mənim pivə yoldaşım, çox pivə içib, səndələyə-səndələyə gəlib Bəyim xalanın "turşu boçkasının üstünə düşəndə" danışmışdı; təxminən səkkiz il bundan əvvəl Canbalayev oğlu Vahidi Moskvaya yola salanda Bəkir bu dəfə "araq içib, pyan olub" və "oğlunu ondan əziz tutan" yeznəsinə hirsləndiyi üçün "ailənin sirrini" açıb söyləmişdi. Şübhəsiz ki, Bəkir də öz böyüklərindən, kim bilir, bəlkə lap Göhər xanımın özündən eşitdiklərini söyləmişdi. Demək istəyirəm ki, bütün bunlar həqiqətə oxşayırdı.

Bəyim xalanın Canbalayevlər haqqında ikinci söhbətinə gəlincə, bu da xeyli qəribə idi; xala danışırdı ki, beş-altı il bundan əvvəl, şəhərin Dağlı məhəlləsinə yaxın olan bu ensiz, qısa küçədə çoxlu pişik peyda olubmuş. Pişiklər hər gecə əl-ayaq yığışandan sonra həyətə doluşub, tərs kimi həmişə də Canbalayevlərin pilləkəninin üstündə şivən qoparırmışlar. Bir gecə Canbalayev ağ tuman-köynəkdə balkona çıxıb, hirsli-hirsli evdən qapdığı stəkanı cingilti ilə pilləkənə çırpıb pişikləri qovub, bir az sonra isə çəkələklərini sürüyə-sürüyə, "suyu bol olan həyət tualeti"nə enəndə, stəkan qırığının bir parçası dabanına sancılıb. Kişi qəzəblənib ağzının acısını Bəyim xalanın üstünə töküb ki, bəs "əldən düşəni niyə dərhal yığışdırmırsan? Səni bu həyətə xorhaxor yatmağa qoyublar?!" Demə, bu əhvalat baş verəndən bəri Bəyim xala nə Canbalayevlə danışırmış, nə də Göhər xanımla; "Qədrimi bilmədilər", – deyirdi.

Bəyim xalanı dinləyəndən sonra mən heyrətimi gizlədə bilmədim; axı mümkündür ki, onda Canbalayev hirsləndiyi üçün nə danışdığını dərk eləmirmiş; Bəyim xala bu qədərmi kinli idi ki, beş-altı kəlmə acı sözdən ötrü illərlə incik gəzirdi? Mən elə beləcə də soruşdum. Bəyim xala qəmli-qəmli başını bulayıb köksünü ötürdü: "Nə deyim, oğul. Bəlkəm də kinliyəm. Ancaq mən o gecə bir şeyi başa düşdüm. Gördüm o kişi məni adam yerinə qoymur". Bəyim xala bir daha köksünü ötürüb getdi. Məni isə şübhə götürdü: "Bəlkə Canbalayevlər bu həyətdə heç kəsi adam yerinə qoymurlar?.." Əmma o vaxt bu, elə şübhə olaraq qaldı.

Yuxarıda dediyim həmin sentyabr günü stolumun arxasından təzəcə qalxıb pəncərənin qabağında oturmuşdum.

Darvaza qapısı cırıldayıb açıldı. Bakıda çox az-az olan nadir qatı duman içində əvvəlcə Canbalayevin hündür, pər-budaqlı kölgəsi, geridə isə Göhər xanımın asta-asta ləngər vuran alçaq, yoğun qaraltısı göründü.

Ağır addımlarla həyətə girdilər və... möcüzə baş verdi. Bəli, mənim nəzərimdə, əməlli-başlı möcüzə; pilləkənin ayağına çatanda ər də, arvad da mənə sarı döndü. Hər ikisi ehtiramla (Bəli, məhz ehtiramla!) əyilib salam verdi. Özünü necə itirməyəsən?! Hətta salamı almağı da unutdum. Məni hər şeydən çox heyrətləndirən bu oldu ki, Canbalayevin zəhmli qara gözlərinin kənarları azca qırışdı,

dodaqları tərpəndi – kişi gülümsündü! Göhər xanım isə, qəfildən lap uşaq kimi şirin-şirin qımışdı.

– Oğlum, kefin necədi?

Ayağımın altından yer qaçdı deyim, nə deyim?

Həmişə mənlə üz-üzə gələndə donuq nəzərlə başımın üstündən o yana dikilən gözlər indi mənə baxırdı! O laqeyd sifət indi mehribanca gülümsünürdü. Göhər xanım mənim kef-əhvalımı xəbər alırdı!

Hələ özümü toplamamış, yeni bir möcüzədən tamam çaşıb qaldım: Göhər xanım əri ilə birgə yuxarı qalxmaq əvəzinə sola dönüb, mənim otağıma girdi. Görünür, eşikdəki qatı dumana görə içəriyə çökən qaranlığa gözü alışmadı, stula toxundu, əlinin divara söykəyib qaşlarını çatdı. Mən də dik atılıb, yönəlib işığı yandırdım. Əmma hələ də özümə gələ bilməyib, gözlənilməz qonağım üçün stul çəkməyi də unutmuşdum.

Göhər xanım dayanıb, içəriyə göz gəzdirirdi.

Birdən redikülünü eşələyib, yaylığına burnuna basdı:

– Oğlum, bu nə iydi?

Dedim, heç bir iy-zad hiss eləmirəm.

– Necə hiss eləmirsən? Burda bərk rütubət var... Bay, bay, bay!.. Yazıq bala, sən burda necə yaşayırsan?! Otaq deyil bu, toyuq hinidi!.. – Çeçələ barmağının ucunu divara sürtüb, təəssüflə köksünü ötürdü. – Yazıq bala, yazıq bala! Sənin yiyən-zadın yoxdu? Bəs özün niyə əfəllik eləyirsən? Baksovetə ərizədən-zaddan yazmısan? Yox?.. Hə, axı sən heç yanda işləmirsən. Eşitmişəm bu hini tanışlıqnan almısan. Bə sənin o hörmətli qohumun Həbibulla niyə bir baş çəkmir bura, görsün nə kökdə yaşayırsan? Bəkir deyir istedadlı cavansan sən. Əmbə, görünür, çox əfəlsən. Gör bir neçə ildi dürtülübsən bu iyli hinə. Qonşuynan-filannan ünsiyyətin-zadın da yoxdu! Yoxsa, Qara qoyardımı səni belə hində qalasan! Yazıq, əfəl bala!..

Mən öz haqqımda onsuz da o qədər yaxşı fikirdə deyildim. Bu qədər sözlərdən, “yazıq, əfəl”– filandan sonra isə mənə elə gəldi ki, necə deyərlər, ölmüşəm, yerdən götürənim yoxdur.

Otağım balaca olsa da, mən burda doğrudan da heç bir rütubət iyi duymurdum. Günortadan əvvəl mənim bu “hücrəmə” hətta gün

işığı düşürdü. Bəs Göhər xanım niyə ifrat danışırdı? Həyata təzəcə qədəm basan kimsəsiz bir cavan, kiçicik kitabçası – "çərəkəsi" də nəşr olunmamış "gənclər dərnəyi üzvü" gənc yazıçı məgər süd gölündə üzməli idi?

– Ay yazıq bala! – Göhər xanım yaylığını burnundan aralamadan dönüb çıxdı. Pəncərənin qabağına hərlənib, dərindən nəfəs aldı, yaylığını redikülünə qoya-qoya başını buladı: – Bəri çıx, bəri çıx, söhbət eliyək, qonşuluq eliyək bir az... Hə, yaxşı yadıma gəldi, sənə işim də düşüb, oğlum!

"Mənə?! Nə iş?!" – Soruşmaq istəyirdim ki, Göhər xanım əlini pilləkənin yan ağacına atdı, bir yuxarı, bir aşağı baxıb, "ya Allah!" – deyib qalxmağa başladı: əmma heç beş-altı pillə qalxmamış dayandı, ağır-ağır dönüb geri baxdı.

– Bəs gəlmirsən? – Mən böyük maraq və təəccüblə otaqdan çıxdım. – Gəl, gəl, oğlum. Sən də mənim balam, qolumdan tut.

Çılpaq qollarına ani nəzər salıb, özümü eşitməzliyə vurdum. Göhər xanəm özü əlini uzadıb çiynimdən yapışdı.

Yeddi-səkkiz pillədən sonra arvad bir kökə düşdü ki, mən istər-istəməz onun iradəsinə tabe oldum.

Kandara çatanda Göhər xanım, yalan olmasın, azı üç-dörd dəqiqə nəfəsini dərdi. Rəngi sapsarı saralmışdı. İndi ona yazığım gəlirdi.

Qolunu elə bil güclə qaldırıb qapını itələdi.

– Keç, oğlum, keç, – deyib bir addım kənara çəkildi. – Ayaqlarını sil! Yaxşı-yaxşı sil! Mən bir az vasvasıyam, tuflilərini çıxartsan daha yaxşı olar. Amma yox, bizim Qara təki sənin ayağın da iyli olar.

Mən qızardım. Həmişə olduğu kimi indi də pərtliyimi gizlədə bilmədim:

– Çox sağ olun, içəri keçməyəcəm.

– Bıy! Niyə?.. Böyük nə deyir, kiçik ona baxar, oğlum. Keç, keç!

Özü qabağa düşüb dəhlizə girəndən sonra bir də geri döndü.

– Yaxşı-yaxşımı sildin? İncimə məndən, ay oğlum. Ağrılı adam çox danışan olur.

Dəhlizi keçəndən sonra geniş, uzun bir zala girdik. Zalın o başından və sağdan, küncə yaxın yerdən iki qapı açılırdı. Bilmirəm o tərəfdə nə vardı. Yəqin ki, yataq otaqları idi. Zalın haqqında isə yalnız bunu deyə bilərəm ki, içəri girər-girməz, görkəmli yerdə

qoyulmuş royalın və servantın üstündəki saysız-hesabsız büllur qabların parıltısı gözlərimi qamaşdırdı. Diqqətimi cəlb edən bir də bu oldu ki, geniş sahə başdan-başa çox bahalı zililərlə döşənmişdi. Hündür və enli pəncərələr altdan süd rəngli ipək pərdələrlə, üstdən Dram Teatrında gördüyüm tünd qırmızı məxmər pərdələrlə örtülmüşdü. Gözümü ətrafımda dolandırıb fikirləşdim ki, bu cür cahcəlalın müqabilində mənim otağımın toyuq hini kimi görünməsi, əlbəttə, tamamilə təbiidir.

Göhər xanım ağır, ləngərli yerişlə yaxınlaşıb pərdələrdən birinin ipini çəkdi. Geri qayıdanda, mənim o yan-bu yana baxa-baxa qaldığımı görüb, mənalı-mənalı gülümsündü.

– Keç əyləş, oğlum, keç, – deyib ortalıqdakı nəhəng, uzun stolun üstündən qar kimi ağ örtüyün bir tərəfini çirmələdi. Burda da büllur qablar parıldaşdı, müxtəlif rənglərdə, irili-xırdalı alma-armudlardan əlavə, tən ortada uzun yemiş gördüm.

Adət etmədiyim şərait məni sıxırdı. Bir də heç unuda bilmirdim ki, yəqin indicə Qara Canbalayev qapılardan birini açıb zala girəcək. Gənclər gününə, başqa yaşlı yazıçılardan fərqli, tez-tez gələn, oxunuşdan sonrakı müzakirələrdə iştirak etmədən, bəyənilən hekayələri, oçerkləri, şeir və poemaları alıb, gözlüyünü taxıb hamısını vərəqləsə də, anlaşılmaz müəmma ilə susan zəhmli adamla üz-üzə oturmaq istəmirdim. Bir başqa gənc qələm sahibi bəlkə də bu təsadüfdən sevinərdi, bu köhnə ədəbiyyatçı ilə kəlmə kəsib yaxınlaşmaq üçün fürsəti əldən verməzdi. Mən isə anlaşılmaz müəmma ilə susan zəhmli adamla üz-üzə oturmaq istəmirdim. Bir başqa gənc qələm sahibi bəlkə də bu təsadüfdən sevinərdi, bu köhnə ədəbiyyatçı ilə kəlmə kəsib yaxınlaşmaq üçün fürsəti əldən verməzdi. Mən isə anlaşılmaz qorxu təlqin edən o zəhmli gözləri görmək istəmirdim. Bəlkə də bu təcrübəsizlikdən, kübar adamlarla oturub-durmamış bir cavan hissiyatı idi.

Göhər xanım stolun ətrafında hərlənib, qurdalanırdı.

Birdən başını qaldırıb, üzümə baxıb, təəccüblə qaşlarını dartdı.

– Niyə qıraqda durursan, oğlum?! Yaxın gəl də! Yaxın gəl! Otur!

– Göhər xanım...

– Olmaz! Bax, səni burda əyləşdirib, lap kəndçisayağı deyirəm, qarnını doydurmamış bir kəlmə də danışmayacam!

– Sağ olun, ac deyiləm.

– Bəsdi! Otur, vəssalam! – deyib ərkyana əmr etdi. – Stolun başına keç! Bax, bura! Kresloya yox... Ora Qaranın yeridi. İndi gələcək. Kreslonun böyründə otur, kişinin qulağı ağır eşidir... De görüm, könlün nə istəyir? İsti xörək gətirim?

Mən pörtmüşdüm.

– Çox sağ olun, – dedim. – Vallah, yemək istəmirəm.

Göhər xanım gözlənilmədən elə məlahətlə, ordları çökələ-çökələ, elə şirin-şirin güldü ki, bu qəfil açılan gözəllikdən də çaşantəhər oldum.

– Sənə dedim qarnını doydurmalıyam, ay kəndçi balası! Otur! Yeməlisən!

Sağa açılan qapıdan keçib, bir müddət yox oldu. Sonra padnosda bir kasa küftə, sumaq, göy-göyərti gətirdi.

– Hə, di ye, oğlum! Kimdən utanırsan? Mənim utancaq adamlardan xoşum gəlmir. Ələlxüsus kişi ki, utancaq oldu, ondan bir başı ləçəkli yaxşıdı!.. Aldınmı payını? – Yenə güldü. – Di ye.

Başımı sallayıb, utandığımdan, sumağa-filana əl uzatmadan, noxudlu, ləzzətli küftəni yedim.

Göhər xanım danışırdı, gülürdü.

– Qara soğannan yeyir küftəni. Yumruğu yekəlikdə baş soğanı yumruğuynan əzir kəndçi oğlu kəndçi, xınc-mınc eləyib duzlayır, tərə bata-bata yeyir!..

Deyəsən, təəssüratım dəyişirdi. Bu çox “meşşanka”dan, eyni zamanda kübardan və eyni zamanda lap qatı kənd qadınından xoşum gəlirdi. Əmma kasanı boşaldıb, kağız salfeti götürüb başımı qaldıranda yenə qızardım. Çünki Göhər xanım qabağımda dimdik oturub, əlini əlinin üstünə qoyub, başını gah sağa, gah sola əyə-əyə, düz ağzıma baxa-baxa gülümsünürdü. Yenə də pərt oldum, özümü küçədən tutulmuş ac-yalavac, səfil bir uşaq kimi hiss etdim. Mənə elə gəlirdi ki, Göhər xanım da elə belə düşünüb “qarnımı doydurmaqdan” zövq alırdı. Qısası, qonaqlıq deyildi bu, əməlli-başlı işgəncə idi.

Göhər xanım qarşıma təmiz nimçə, bıçaq və bir yekə ağ alma ilə, bir yekə armud qoyub yenə güldü.

– Ye! Ye! Hörümçəkdən can diləyirsən!

Bu an Canbalayev zala girməsəydi, şübhəsiz, vəziyyətim ağırlaşardı.

– Əvvəla, məlumun olsun ki, bu evə yalnız və yalnız Göhər xanımın şəxsən bəyəndiyi adamlar ayaq basırlar. Mənim isə adamları tanımaq və qiymətləndirmək cəhətdən zövqüm Göhər xanımın zövqündən qətiyyən fərqlənmir. Bundan belə nəticə çıxır ki, səndən mənim də xoşum gəlir!

Canbalayev, əynində qara, qırmızı zehləri diqqəti çəkən, uzun türkmən xalatı, ayaqlarında çəkələk (Bakı ləhcəsində "şapşup"), əlində ağır, qara, yastı çamadansayağı bir şey – köhnə markalı maqnitofon, kreslosunda oturub, maqnitofonu sol əlinin altındakı boş yerə qoyub qapağını qaldırdı.

– Məhz xoşum gəldiyinə görə çox nadir bir sürpriz hazırlamışam sənə. Göhər xanımdan xahiş eliyək, bu maqnitofonun quyruğunu o divarda razetkaya taxsın və zəhmət çəkib çay versin bizə.

Göhər xanım birdən-birə dəyişib, həmişəki kimi tutqun, dinməz-söyləməz oldu. Maqnitofonun "quyruğunu divarda razetkaya taxıb", stolun o biri tərəfindən ağ "padnos"da üstü "paduşka"lı çaydan və iki armudu stəkan gətirib çay süzəndən sonra oturub əllərini üzünə söykəyib, sükuta daldı. Canbalayev isə sol əli maqnitofonda, sağ əli stəkanda, gözlərinin ciddiliyi, zəhmi ilə ziddiyyətli sözlər deyirdi:

– Əvvəlcə bu lentin baçlanğıcını dinləyəcəksən, xoşuma gələn oğlan! Sonra bir sualıma cavab verəcəksən. Sonra yenə lenti dinləyəcəksən və şəxsən məndə və "Gənclər günü"nün rəhbərliyində böyük maraq doğuran ikinci bir suala cavab verəcəksən... Demək, əvvəlcə lentin başlanğıcı...

Maqnitofonun "vklyuçatel"ini – açar başını oxşayan yastı dəmiri çıqqıltı ilə sağa burub, gözlərini gözlərimə zillədi.

Məni bircə saniyədə soyuq tər basdı. "Bircə saniyədə" deyirəm, bu sözlərdə zərrə qədər də mübaliğə yoxdur; lent xışıldayar-xışıldamaz, Çürük Aşığın Naləyə bağışladığı qara çürədə "Divani"ni və bu qanadlı hava ilə birlikdə özümün kədərli səsimi eşitdim: "Atam əvəzi Həbibulla müəllim! Atam Ələkbərlə, əmim Seyid Əli əmi və bütün Ağlarla birlikdə ağlı-qaralı günlər keçirmiş əziz müəllimim! Əvəzedilməz dostum! Bütün Azərbaycanda, həsrətini çəkdiyimiz Türkiyədə, Kərkükdə və yer üzünün hər yerində böyük və əzəmətli xalqımızın haqqında öz ustadından öyrəndiklərini danışan aşıq bacımın sirrini sənə etibar edirəm ki, sən də surətlərini çıxarıb özün kimi etibarlı vətən oğullarına verəsən, zülm altında

inləyən millətimiz böyüklüyünü və əzəmətini dərk edib, zülmün taxt-tacına lənət oxusun".

Canbalayev "vklyuçatel"i sola burub, lentin hərəkətini dayandırdı. Bir qurtum çay içib stəkanı tappıltı ilə nəlbəkiyə vurub, məni diksindirdi, ayağa qalxıb, mənim arxa tərəfimə keçib pəncərələrdən birinin pərdələrini çəkdi, "dil təmizliyi tərəfdarları" olan keçmiş tələbələrin öz aramızda "nəfəslik" dediyimiz "fortoçka"nı açdı, mənim sağımda, solumda, stol boyunca gəzinə-gəzinə, xalatın cibindən hədsiz uzun, "Koroğlu" qutusundan uzun papiros çıxarıb, papirosun müştüyünə küyültü ilə üfürüb, kibrit qutusunu xışıltı ilə eşələyib, kibrit dənəsini də əsəbi çıqqıltı ilə yandırıb, hətta tüstüsünü də əsəbi üfürdü.

– Çay iç! "Zülm altında inləyən xalq..." Bu qorxunc sözlərə qulaq asdıqca, hər dəfə boğazım quruyur mənim! Çay iç, boğazını yaşla və indi deyəcəyim suala lap hərtərəfli, yerli-yataqlı cavab ver! Qorxma! Azadlıq hərəkatı qaldırmaq niyyətilə görülən işlərin üstündə güllələlənlərimizə, sürgünlərdə çürüyənlərimizə, təsadüfən sağ qalanlarımıza, bilirsən ki, reabilitasiya verilib. Ədəbiyyatımızın ruhu kökündən dəyişib, "konfliktsizlik" nəzəriyyəsi[1] adlandırdığımız bəladan canımız qurtarıb. Sözümüzü deyirik! Yediyimizi yeyirik, geyindiyimizi geyinirik! Azadlıqdı bu, ey gənc qələm! Əmma siz gənclər həddinizi aşırsınız. Kim bilir, bəlkə də siz haqlısınız. Bir vaxt vardı, hətta saz da, tar da qadağan olunmuşdu. "Oxu tar, oxu tar, səni kim unudar" şerinə görə tutulmamışdımı yazıq, nakam Mikayıl Müşfiqimiz?! Səməd Vurğun bir-birindən gözəl, xalq ruhlu şerlərini "Ölən şerlərim" adlandırmasaydı, şübhəsiz, o da elə Müşfiq kimi gedərgəlməzə göndərilməzdimi? Yusif Vəzir Çəmənzəminli "İki od arasında" romanında nə deyirdi? Çar Rusiyası ilə Fars arasında yanırıq demişdi. Yalandımı?! İndi, odur, qərar çıxartmışıq ki, bütün sürülənlərin, o cümlədən Çəmənzəminlinin, Hüseyn Cavidin külliyatı çap olunsun. Bax elə bircə buna görə Xruşşovun atasına, əslinə-nəslinə rəhmət oxumalıyıq biz, yoldaş gənc qələm! Qorxudan demirəm mən bu sözləri. İnan! Yazıçı adlanan, xüsusilə gənc yazıçı saf

---

[1] "Konfliksizlik nəzəriyyəsinə"görə, Sovetlər İttifaqında, cəmiyyətdə qolfliqt yox idi.

olmalıdı. Rəhmətlik Sabir demiş "əyrini əyri, düzü həmvar" yazmalısınız. Şəxsən Xruşşovun özünün və ümumiyyətlə, Sovet İttifaqı Kommunist Partiyası adlanan qüdrətli Lenin partiyasının ideoloji xətt-hərəkəti belədi indi: düzü-düz, əyrini-əyri!.. Azadlıq deyilmi bu?! Bəli, təkrar edirəm, azadlıqdı! Məhz buna görə də sənə sual verirəm: bir gənc qələm kimi, tam şüurlu, tam sərbəst münasibətlə təsdiq eləmirsən sən bu azadlığı?!

Sıxıntı canımı alsa da, o cür lentdən sonra düzünü deməli idim.

– Yox, – dedim. – O lentdəki sözləri də mən Xruşşov baş katib olandan sonra yazmışam. Dəniz kənarında[1] Təbib Həqqinin kabinetində İdeoloji xətt-hərəkətdə doğrudan da yenilik var. Açıq danışırıq indi. Açıq yazırıq. Əmma azadlıq deyil axı bu, Qara müəllim. "Böyük qardaşım Rus xalqı" deyə-deyə Rus müstəmləkəçiliyinin ömrünü daha uzadırıq biz. İldə cəmi dörd yüz milyon manat verir Azərbaycana Moskva. Ən gəlirsiz respublikalarla bərabər. Halbuki təkcə neftdən milyardlar veririk SSRİ-yə. Üstəlik sistemin özü, kolxoz quruluşu tamam əsir-yesir eləməyibmi xalqımızı?!

Canbalayev arvadına baxırdı.

– Eşitdin?! Gör necə gənclik yetiririk, ey köhnə müəllimə Göhər xanım! Qulluqçularıyın sayını artırsam, belə azad gəncliyə azad dərs deməyə gedərsən?

Göhər xanım çox ciddi idi.

– Məmnuniyyətnən gedərəm, professor! – dedi. – Birinci sualına yaxşı cavab verdi. İkinciyə də cavabı belə olsa, bu mərd oğlu mərdə özüm açacam sirrimizi, bizi dardan qurtarsın.

Mən hiss etdim ki, "bizi dardan qurtarsın" sözləri diksindirdi Canbalayevi.

"Vklyuçatel" bir də çıqqıldadı və... İtkin Naləmin "Divani" üstündə, eynilə Çürüyün həzin, titrək, yanıqlı səsi eşidildi. Hiss etdim ki, əzəmətli ərinin qorxuya oxşayan diksinməsi Göhər xanımı için-için güldürdü. Əri isə:

– Tələsmə o barədə! – deyib hətta bir az təpindi də. – Danışdığımız kimi, demək, indi lenti dinləyək. Sonra ikinci sual. Və yalnız ondan sonra sən deyən məsələ, Göhər xanım.

---

[1] "Dəniz kənarı" – Sovet Azərbaycanında Dövlət Təhlükəsizliyi Komitəsi ("KQB") el arasında belə adlanırdı.

Xanım gülüşünü xırp kəsib “vklyuçateli” söndürüb, hətta sərt əda ilə:

– Sənin ikinci sualından əvvəl mənim bircə sualım var. De görüm, ay oğul, əllinci ildə, sizin dekanınız rəhmətə gedəndə folklorçu professor dediyiniz Məmməd Hüseyn Təhmasib üç-dörd günlüyə dekanlığı əvəz elədiyi yadındamı? (Mən zamdekanınızdım o vaxt).

Dedim:

– Yadımdadı.

İtkinimin səsi qulağımdan getmirdi. Əmma Göhər xanım elə sözlər dedi ki, hətta o ilahi səsi də unutdum.

– De görüm, niyə “folklorçu professor” deyirdiniz o kişiyə adı, familiyası əvəzində?

Tərəddüd eləməsəm də, düzünü dedim.

– Bizim aşıqlar, daha doğrusu, ustad aşıqlar bu fikirdədirlər ki, nağıllarımız, dastanlarımız, hətta bayatılarımız o professorun və hamının dediyi kimi, “folklor” – “xalq yaradıcılığı” deyil, professorun söhbətindən sizə məlumdu ki, kainatı idarə eləyən, insanı insana bağlayan Bağlarımızın Ünləri Yerə, yəni beyinə gizlin gəlir, odur ki, insan bilmir şeir, dastan hardan dolur beyinə, elə bilir özünün yaradıcılığıdı. Bunu mən lap uşaqlıqdan bilirdim, buna görə də Məmməd Hüseyn müəllimə “professor” yox, “folklorçu” deyirdim, o da gülə-gülə mənə barmaq qıcayırdı: “Qovduraram universitetdən”, – deyirdi. Bir dəfə də filologiya elmi barədə danışırdıq. Dedim: “Folklorçu professorum”, əgər bütün ustad aşıqlar, hətta xalqımızın əksəriyyəti dastan, nağıl, şeir yaranması barədə həqiqəti bilirsinizsə, millətimizin ideologiyasını, yəni Kainat Bağlarının SafAğ Elmini niyə gizlədirsiniz? Üstəlik, dastanları tamam dəyişdirib lorulaşdırırsınız, savadsız aşıqların dilindən mətnə əyri-üyrü dialekt ifadələri doldurursunuz!.. Professorumuzun rəngi ağardımı, Göhər xanım, yadınızdadırmı?

Göhər xanım sərt idi.

– Hə! Ağappaq oldu. Bəs sən, belə süyümsüz bir uşaq niyə o cür cəsarət elədin, bala?! Necə yəni “ideologiyamız”?! Kommunist ideologiyasının hakim olduğu bir ölkədə sən nə cəsarətlə elə danışırdın?! Qorxmadın? Yoxsa...

Sözünü kəsdim. İçərimi titrətmə götürsə də dedim:

– Siz, belə mötəbər xalq adamları, SafAğ Elmini gizlətməyib, beynəlxalq miqyasa çıxartsaydınız, vəziyyətinizə təsiri olardı?! Axı dünyaya məlumdu bu elm!

Göhər xanım səsini qaldırdı:

– Ay uşaq! Otuz yeddinci ildə, qırx səkkizinci ildə, əlli birə, əlli ikiyə, əlli üçə qədər Sibirə sürülənlərimizin taleyi bizə dərsdi! Tutqu hətta indi də gedir Qara müəllimin "azadlıq dövrü" dediyi bu son illərdə xəlvəti nə qədər adam sürülüb bizim bu milli ideologiyamızın üstündə?! Sən elə bilirsən "pantürkizmlə mübarizə" qurtarıb doğrudan da?! Bağ Atanı da tanımırlar. Ulu Bağ ƏsƏlMəni[1] ("Solomonu", Süleymanı) da tanımırlar SSRİ Şərqşünaslıq İnstitutunda?! Yerə göndərilən Ündən – "xalq yaradıcılığından" da xəbərdardılar. Bildin?!

– Bu elm bütün dünya şərqşünaslarına məlumdu, Göhər xanım, – dedim. – Bağışlayın məni kobudluğuma görə, siz elə bil məni bura qorxutmaq niyyətilə çağırmısınız. Niyə?!

Göhər xanım ərinə baxdı:

– İxtiyarı verirəm sənə, professor, işini gör!

"Vklyuçatel" çıqqıldadı.

Naləm nalə çəkdi:

Bir zaman Ağlarda şad oxuyardım,
Deyərdim Bağların bülbülü ollam.
Eşqi sazla, sazı eşqlə çalardım,
Deyərdim bu eşqdən mən dəli ollam.

Tərsalar əlində qaldı Ağlarım,
Qarsız, barsız çölə döndü dağlarım,
Bulaqlar qurudu, yandı Bağlarım,
Dedim mən də yandım, Bağ külü oldum.

Diqqətli olun, mənim əzizlərim. Ustad kəlamını şərh edirəm.

Ustadımın bu "Ustadnamə"sində nə bağlar, əlbəttə, o bağlardandı, nə də dağlarımız o dağlardandı, mənim əzizlərim. Bağlara, dağlara[2] vaqif olmayan Ağlara şərh edilir ki, Bağlarımız insanı

---

[1] ƏsƏlMən – Bağ Atanın dilindən deyilib; Mənim yaradan oğlum deməkdir.

[2] Dağlar – Ulu Bağ ƏsƏlMənlə OdƏr icmalarının vətəni Bağdayın rəmzi kimi oxunur (Xalqın adı OdƏr ikən Fatehlər tərəfindən "AzƏr"ə döndərili).

insana bağlayan Bağlardı; Ağlarımız, sahibsiz qalıb ağlayan SafAğ insanlardı. Dağlar isə çalın-çarpaz sinə dağlarımızdı... Sinəmizə dağ o zaman çəkilib ki, Bağlarımızın on səkkiz min Aləminlə səyyarələri ilə yad dildə “kürreyi ərz” adlanan bu yer səyyarəsi arasında dil səddi yaranıb. Kimlər yaradıblar bu səddi, necə yaradıblar? Necə olub ki, on səkkiz min Aləmin Bağları tərsa dilində “Boq”a dönüb? Necə olub ki, bağlarımızın cəmi Kainatda işləyən, yaradan əlləri – oğulları ƏlAğ ikən yabançı dildə “Əllaha – Allaha” dönüb?. Dilimiz əsir, titrəyir, məna yaradır, mənim əzizlərim. Üzümüz də əsir, titrəyir, məna yaradır. Buna görə də Bağlarımızla birgə biz də Ünlərik. Yəni əsən, titrəyən, məna yaradan Ün eşidə-eşidə bir-birimizə və Bağlarımıza bağlandığımıza görə ÜnƏs adlanmışıq. Bəs necə olub ki, ÜnƏs ikən “ins”ə – “insan”a dönmüşük? Cəmi Kainatın, cəmi Bəşərin gücü Oddu, İşığı Ərdi. Buna görə də on səkkiz min Aləmin səyyarələrində, o cümlədən Yerdə yaşayan bəşəriyyətin adı OdƏr bəşəriyyətidir. Hər bir ÜnƏs OdƏrdi. Dilimiz də OdƏr dilidi, yəni həqiqət işığıdı. Həqiqət yalnız bu dildə aşkardı, mənim əzizlərim. Bəs necə olub ki, hər birimiz OdƏr ikən “Fars”a, “Ərəb”ə və sairə millətlərə parçalanmışıq? Necə olub ki, Bağlarımızın OdÜnü – həqiqət səsi “Dinə” dönüb? Necə olub ki, hər bir OdƏrin Evi EvOdƏr, yəni Həqiqət işığı Evi BağÜnEvƏr ikən – “Peyğünbər”ə, BağHəmOdumuz, yəni Vahid Həqiqət Bağımız – “Muhəmməd”ə dönüb, BağHəmOdumuzun dilində ƏsƏlim, yəni yaradan Əlim kəlməsi “İslam”a dönüb? Necə olub ki, OdƏr dilində EyMən yəni mənim ucam “imama” dönüb?.. Sual çoxdur, suallara aşkar cavab verənimiz yoxdur, mənim əzizlərim, cəmi ustadlarımızın hər biri ƏsAğ, yəni Yaradan SafAğ İnsan ikən “aşığ”a dönüb. ƏsAğlarımız batin, yəni gizlin olublar. Odur ki, səyyarələrdən SafAğ İşıq içində Ünlə gələn SafAğ Elmimiz də batindi – gizlindi, mənim əzizlərim. ƏsAğÜz, yəni Yaradan SafAğ İnsanın üzü – mənası ikən “saz”a dönməsi ilə birgə Ünümüz də ah-naləyə dönüb.

Əvvəl çəpər bağlanardı,
İndi Bağlar çəpərləndi.

Nə bu çəpər o çəpərdəndi, nə bu bağlar o Bağlardandı, mənim əzizlərim. Əvvəl çəp Ər, yəni Elmimizə çəp baxanlar Elm öyrənib Bağlara bağlanardılar. İndi Bağlarımız həqiqi mənada hər yandan çəpərlənib dar ərazilərdə qalıblar.

Məclisi ustadlarımız, üç ustadnamə ilə başlayarlar, əzizlərim. İkincisini dinləyin:

Ey məndən həqiqət istəyən nadan,
Həqiqət oxunub, nə oxuyum mən?
Ərişi, arğacı hürufatdadır,
Onlarsız hanamda nə toxuyum mən?

Əlif, Beyim Sinə, Sata[1] bağlıdır,
Hər birisi min bir ada bağlıdır,
Türküm, tatım, kürdüm mənə bağlıdır,
Fəqət hər üçünün bir yoxuyam mən.

Sazım simdi, simi sazdı, nə dedim?
Yazım qışdı, qışım yazdı, nə dedim?
Sinnim ötdü, səsim əsdi, nə dedim?
Adını demirəm, kim oğluyam mən?!

Bu ikinci oldu ustadımın ustadının ustadnaməsi.

"Ərişi, arğacı hürufat" olan həqiqətin otuz iki həqiqi adı var.

"Əlif" deyilənin həqiqi adı ƏlEvdir. Ev-kainat, Əl – SafAğ insan Bağ Atamızın Əli – Oğludur. İlk Oğlu Süleymanın digər təhrif adı Solomon, həqiqi adı ƏsƏlMəndir. Ərəbimin dili məndən ayrılıb "Süleyman" deyib, Qreqin dili ayrılıb "Solomon" deyib.

"Bey" deyilən hərfin həqiqi adı Bağdır. Bağlarımız "Sin"ə – ƏsÜnə – yaradan Ünə bağlıdırlar. "Sin"imiz "Sata", yəni ƏsÜnümüz ƏsOda – yaradan həqiqətə bağlıdır. Hər bir "hərf" min bir Oda-həqiqətə, yəni Bağ Atamızın SimOd – uca həqiqət məclisində min bir Bağ Oduna bağlıdır.

"Türk"üm – vətənimdən tərikim, "Kürd"üm – KürOdum, "Tat"ım – "Tüy"üm Oda bağlıdır. Fəqət üç təhrif ad içində yoxam, yox olmuşam mən: mənamı itirmişəm.

"Sazım simdi", – yəni yaradan SafAğ İnsanın üzü – mənası simdi – ucadı, SafAğdı.

"Sinnim" – "Sin"im – ƏsÜnüm – yaradan Ünüm ötdü, "səs"im əsdi – yaratdı. "Adım pünhandı" – "kimin oğlu", kimin AğƏliyəm, yəni ki, Odun SafAğ Oğluyam mən!

---

[1] Əlif, Bey, Sin, Sat – hərflərin təhrif adları

Yazım, yəni yazılaram "qış"dı, bəhrə vermir, Qışım "yaz"dı, yəni qarlı qışda danışıram – bəhrə verirəm. Yazıram, oxuyuram.

Üçüncü söz cəmi ustadlarımızın ustadı Nəsimiyə məxsusdur:

Dabanımdan yarırlar, başdan-ayağa soyurlar,
Görmürlər Odu canımda cəllad cəlladlar.

Çün bıçaq sümüyə yetdi, ciyərim qan ilə doldu,
Ağladılar halıma cəmi Fərhad-fəryadlar.

Diləmirdinmi, ey Nəsimi, vəhdətdə olmaq yar ilə,
Qoy necə soyurlar soysunlar vələd qəssablar!

Ustadnamələrin sonunda ustadlar ustadını vəsf edərlər:

Ustadımsan, ey Nəsimi,
İmdadımsan, ey Nəsimi,
İmad[1]ımsan, ey Nəsimi,
ÜnƏsimsən, ey Nəsimi,
SimƏsimsən, ey Nəsimi,
Məndən qeyri bilən varmı
Kimsən, kimsən, ey Nəsimi?!

SimƏsim Uca Yaradanımdı. Yaradanlarımızın "dəri"sini – OdƏr dilini soyurlar-talayırlar, "Divan"lardan çıxarırlar".

Kədər, yas havası "Zarınçı" üstündə ağlayan həzin səsdən gözlərim doldu. Təəccüblə baxdım ki, Göhər xanımın və heyrətlə baxdım ki, hətta Canbalayevin də gözlərindən yaş axır, əmma bu an daha heyrətli bir hadisə baş verdi; "Zarıncı"dan sonra, ağır sükut içində xışıldayan lentdən Həbibulla müəllimin səsi eşidildi:

– Yaşa! Var ol, ƏsAğ qızım! Sim qızım, ÜnƏsim! ÜnƏl qızım!

– Həbibulla müəllimdi?!

Canbalayev lenti dayandırıb, xalatının cibindən qara ipək yaylıq çıxarıb, tələsmədən gözlərini sildi.

---

[1] İmad – dayaq, dirək ("İmadəddin" – "Din"in – OdÜnün dayağı). Nəsimi "Yer"də ƏlAğ ("Allah") EySarın təkrarı – əvəzi olduğuna görə çarmıxa çəkilmişdi. Bu edamdan əvvəl qırx gün "məhbəs"də – zindanda saxlanılıb, hər gün bir barmaq sədəfi enində dərisi soyulduğu vaxtlar bu məzmunda qəzəllər deyib. Bizə bu məzmunda üç qəzəli məlumdur.

– Bəli, oğul, bizim sənə nadir sürprizimiz lentdi, lentdə daha nadir sürprizimiz isə Həbibullanın səsidi. Həbibullanın özünün şəxsən yazdığı lentdi.

Keçən il yayda gətirib, burda bir yerdə qulaq asmışıq. Bu səhər bir də qulaq asdıq.

Mən nəyi isə başa düşmürdüm. Nəyi? Tapdım, soruşdum ki:

– Bəs mənim səsim hardandı burda?!

Canbalayev dedi:

– Sənin səsini mən əlavə eləmişəm. Həbibullaya bağışladığın lentdən. Haman yerdə – dəniz kənarında, Həbibullanın kabinetində. Hələ soruşma niyə əlavə eləmişəm. Sonra biləcəksən.. Davamını dinləyək.

Mən yenə nəyi isə başa düşmədim. Gərgin fikirləşib tapanda həyəcandan titrədim.

– Bircə dəqiqə, Qara müəllim. Bu lenti Həbibulla müəllim yazıbsa, belə çıxır ki, Nalənin yerini bilir o?!

Canbalayev güldü.

– Əlbəttə!

İnsan sevincdən də dəhşətlənərmiş; özümü itirib, hətta kəkələdim:

– Siz də?! Siz də bilirsiniz?!

Ər-arvad, bir-birinə baxdı. İkisi də birdən:

– Əlbəttə! – dedi.

Mən yerimdən dik qalxıb, oturub, əməlli-başlı titrəyirdim.

– Hardadı Nalə?! Hardadı?!

Canbalayev köksünü ötürdü:

– Muğana sürübmüşlər. Adını "Bağlı" qoyubmuşlar kəndin. Beş-on evmiş sizin o Ağlardan. Ehtiyatsızlıq eləyib Nalə gedib Gürcüstandan sürülən Bayraqdarlar türklərinin arasında elə belə danışıb, oxuyub. Naxələfin birisi... Mollasayağı bir adam çatdırıb orqana. Lazım gəlsə adını deyərəm sənə, o da folklorçudu. Özü də lap məşhurlardandı. Yazıb verib. Yaxşı ki, yenə Həbibullanın əlinə düşüb lent. Təcili adam göndərib, ordan qaçırdıb Naləni, orqana məlumat yazıb ki, Bayraqdarlar Nalə Seyid Əli qızı adında aşıq tanımırlar. Əslində, dedim, qaçırdıb.

– Hara?! Hara?!

– Onu Həbibulla bilir. Deyir, o Bayraqdar türkləri də bilirlər.

– Muğandakılar?!

– Hə... onlar...

Mən yenə dik atıldım.

– Bağışlayın, mən gedim.

Canbalayev başını buladı.

– Həbibulla deməz qızın yerini.

– Niyə, Qara müəllim?!

– Səbəbi var, ey gənc qələm! Xruşşovun verdiyi azadlıq öz yerində. Bütün dünya düşməndi axı bu elmə! Həqiqət məlum olsa, bəşəriyyət bilər ki bütün Dinlər SafAf Elmindən azıb. "İslam"a ƏsƏlim deməyin kifayətdi ki, boynun vurulsun!... Sən də çox qulaq asmısan Çürük Aşığa, Aşıq Abıya. Bilirsən ki, yer üzündə həqiqətdi Bağların Elmi. Biz isə deyirik, marksizmdən, leninizmdən başqa doğru nəzəriyyə yoxdu, materialist dünyagörüşündən kənarda nə varsa, hamısı yalandı. Mən kommunist Qara Canbalayev Aşıq Alının, Aşıq Ələsgərin SafAğ Elmi barədə "Ustadnamə"lərini, Nəsimiyə aid tərifnamələrini oxumuşam. Nəsimi isə dedik kimdi: EySar (İsa peyğəmbər) "təkrarım" adlandırıb onu! "Qıfılbənd" şerləri bilən Aşıqlarla tanışlığımı hətta arvad-uşağımdan da gizlədirəmsə, dəniz kənarının məsul işçisi Həbibulla Aşıq Nalə kimi batin alim nəvəsi Naləni gizlədib batin eləyəndən sonra sənə deyərmi hardadı qız?!

– Axı.. Axı o mənim bacımdı, Qara müəllim! Bacım!..

– Yalan demə. Əmin qızıdı. Cəmi-cümlətanı dörd il bir yerdə olmusunuz. Qırx birinci ildən qırx beşinci ilə qədər. Qırx beşdə atası məktub yazıb qohumuna, qızı Ağlara apartdırıb, ordan da qırx səkkizinci ildə köçürülmə adı ilə sürgün olunublar Muğanın duzlaqlarına ki, qırılsınlar o istidə dağ adamları. Çox ciddi şeydi bu, əzizim! Bilirsən EvƏrEy OdƏrlərini – "Yevreyi", yəni "Türk", "TərikMən"i qırmaq planı var bu xaraba dünyada. Rusların tək-tükündən başqa heç birinin xəbəri yoxdu ki, onların da kökü türkdü, bərk silahlanırlar antitürk-antiyevrey müharibəsinə! Həbibullaynan bir kəlmə də danışammazsan sən Nalə barədə. Folklorçu professorumuz korlayıb işləri. Kreml bilir hər şeyi. Kreml!

Gözlənilmədən Göhər xanım bu biri yandan çiynimə toxundu:

– Universiteti qurtarandan sonra görüşübsənmi Həbibullaynan?

Dedim:

– Yox.

Dedi:

– Bilirik. Həbibulla özü danışıb bizə hər şeyi. Xruşşov hakimiyyətə gələli respublikalarda milli ruhun çox gücləndiyinə görə, xüsusilə bizim Azərbaycanda milli çekistləri çox çək-çevirə salıblar, oğlum. Rayonlarımızı gəz, gör sizin çürük Aşıqnan Aşıq Abınız da içində, ortalığa çıxanı varmı heç. Rəhmətlik Səməd Vurğun Aşıqlar qurultayı keçirdi o illəri. Qara məni də apardı. Özü də yaxşı çıxış elədi: "Qədim sənətdi bu sənət", – dedi. İndi olsun elə bir qurultay çıxış eləməz Qara. Çünki azadlıqnan bərabər, etiraf eləsin ki, təhlükə də var. Soruş özündən, gör nə deyib Xruşşov. Qara, de! De bilsin.

Canbalayev dedi:

– Politbüronun iclasında Xruşşov qışqırıb bizim İmana[1]: "Çem vı zanimaetes tam!" Sonra üzünü tutub özününkülərə ki, "azerbaydjansı moqut vzyat vlast!" Budu bax Həbibullanın son illərdə gözə görünməməyinin səbəbi. Bir tərəfdən elə özü də çalışır-vuruşur ki, bəlkə doğrudan da ayrıla bildik SSRİ-dən, o biri tərəfdən Çexovun "Qlaflı adam"ına dönüb. Get soruş: "Ağbizənli Aşıq Nalə barədə nə bilirsən?" Deyəcək: "O kimdi? Elə aşığımız olmayıb bizim!" Aşıq Nalənin nəvəsi Nalənin yerini deyərmi?!

İstər-istəməz soruşdum ki:

– Bəs sizə niyə deyib? Nalənin Muğana sürüldüyünü, ordan qaçırtdığını, batin elədiyini?

Canbalayev birdən-birə sərtləşdi:

– Biz sən deyilik! Bizim Bəkirnən qabaq-qabağa durub bir boçka pivə içirsən bir gündə, sonra haralarda gəzib-dolandığını, kimlərlə nə danışdığını da bilmirsən, yoldaş gənc qələm!

Və burda Canbalayev başlanğıcda dediyi həmin sualı dedi:

– Niyə "Anadil" qoymusan təxəllüsünü?! İzah elə!.. Yazmalıyam!

Canımı alan qorxu xeyli sovuşmuşdu. Bir qurtum çay içib dedim:

– Təkrar edirəm, bilirsiniz ki, quş adıdı Anadil. Gündüzlər susurlar, adətən, gecələr çağırışırlar; biri deyir: "Tapdınmı?", o birisi deyir: "Tapmadım!" Vurğun da qəzəlində deyir: "Mənim sevdalı qəlbimtək asılmışdır ayağından..." Ağacın budağına tərsinə qonur Anadil; ayaqları yuxarıda, başı aşağı. Niyə belə tərsinədi bu dil?! Mənim təxəllüsümün əsas mənası ana dilimizin tərsinə çevrilməyindədi.

---

[1] İman Mustafayev – Azərbaycan Kommunist Partiyası MK-nın Birinci Katibi

Boynuma Canbalayevin isti nəfəsi dəydi:

– Dayan!.. Necə yəni, “dilimizin tərsinə çevrilməyi”?

Dedim:

– İndi izah eləyərəm... Siz qədim tarix mütəxəssisiniz, arxivlərdə olmusunuz. Şübhəsiz, bilirsiniz ki, beynəlxalq aləmdə “Midiya” adlanan ölkəmizin adı Bağday olub. Dilimiz, indiki türk dili OdƏr adlanıb. Qədim tarixdən bildiyimiz kimi, kainatımızda on səkkiz min Aləm var – Qalaktika. On səkkiz min aləmdə vahid OdƏr bəşəriyyəti yaşayır. Firdovsini, Nizamini öyrənmək, ustad Aşıq ustadnamələrinin şərhini bilmək kifayətdir ki, xüsusən, Nəsiminin edamından sonra OdƏr dili ədəbiyyatdan sıxışdırılıb, daha doğrusu, qəsdən pozulub, OdƏr dili əvəzinə “dəri” deyiblər. Bağdayın indiki Rey adlanan ƏrEy vilayətinin adı ilə “ƏrEy”, “ƏrimEy” dili, “Aramey” dili də deyiblər. İndi “türk”, “Azərbaycan”, “tatar”, “türkmən” dilləri adlanan dillə o “ƏrEy”, “ƏrimEy” dilinin yaxınlığı çoxdu. Bəzən eynidi. “ƏrimEy” dili fars, ərəb dillərilə qarışıb, o vaxtkı EyOd OdƏrlərin, yəni indiki yəhudilərin dili OdƏr dilindən çox uzaqlaşıb. “Aramey”, sonra da EvƏr əvəzinə, “ivr” adlanıb. O zamanlar, yəni yeni tarixdən əvvəlki əlli min illik geri sananan tarixin axırlarında, “ƏrEy”, “ƏrimEy” adlanan OdƏr dilinin EvƏr sözündən əmələ gələn “ivr”, “ifr”, “İfrit” vaxtlarında təhrif sözlərin sayı çoxalıb dilimizdə. Mənşəcə heç oxşamayan sözlər əmələ gəlib. Bunu mən çox tez-tez deyirəm, Uca həqiqət mənasında EyOd ərəbcə olub “Hud”, “Yəhud”. İndi dilimizdə işlənən “tərs” sözü “OdƏrƏs” (yəni əsən – yaradan OdƏr) sözündəndi. İndi yalnız Firdovsini, Nizamini, Nəsimini bilən ustad Aşıqlara məlumdu ki, “tərsinə” ifadəsinin əslində “OdƏr ƏsÜn”, yəni OdƏrin yaradan Ünü var. “OdƏr ƏsÜn”ü “tərsin”ə – yəni “sin”dəki – aşağıdakı OdƏr mənasında işlədirlər: “Aşıq deyər tərsinə...” Lap aydın desək, “tərsinə qoymaq”, “tərsinə çevirmək” OdƏr – türk dilini “sin” – aşağı, bəsit dil səviyyəsinə endirmək, Bağlardan ayırmaq deməkdi. Məsələn, “Od” kəlməsinin əvvəlki mənası bütün Aləmin Odu-enerjisi – həqiqəti deməkdi. Odun “sin”ə – aşağıya çevrilməsi isə adi od-alov deməkdi. Yer planetini zəncirləmək deməkdi.

Canbalayev ayaq saxladı:

– Şərhin qəlizdi.. Qulaq as, mən deyim, – dedi. – Sənə də, mənə də məlumdu ki, “ƏrEy” – “ƏrimEy” – “AramEy” dilini Rimdə də

bilirmişlər. Qretsiyada da. İndiki Kipr adasında “AramEy” yox, “Tərik”, OdƏr dili deyirmişlər. Avropada, Germaniyada ƏrEy – “Ariy” adlanan əhali də bilirmiş, çoxmuş bilən.

Bu belə, sonrasına qulaq as.

Mənə də məlumdu ki, xalq arasında əfsanə gəzir: İki naxırçı qardaş olub. Peyğəmbərin danasını itiriblər. Allaha yalvarıblar ki, qanad ver, quşa döndər bizi, uçaq, axtaraq. Allah eşidib deyib: “Birinizin adı İsahəq idi, o birinizinki Musahəq. İndi ki, quş olursunuz, ikinizə də bir ad verirəm: Anadil. Bunu bilməyəm adam azdı Azərbaycanda. Yerdə Ün eşidən, Elm yayan – Bağlar yayıblar. Əmma çox adam bilmir ki, niyə məhz “Anadil” adı verib Allah o quşa döndərdiyi qardaşlara? Bunu izah eləsən təxəllüsünü izah eləmək də asan olar. Düzdümü? Nəinki İsanın, böyük qardaşı Musanın dili də sənin ana dilindi. Allahların – Bağların, bəşəriyyətin dili OdƏr – “türk” dilidir, bunu bilənlər –”dana”lar indi “meşədə gizləniblər”, yəni batin olublar.

Dedim:

– Hər şeyi bilirmişsiniz!

Dedi:

– Göhər xanım da dönə-dönə qulaq asıb sənin Həbibullaya bağışladığın lentin bu surətinə. Gözəl çalır, gözəl oxuyur qız... Özüm köçürmüşəm surətini. Xüsusən, Çürük Aşığın “Divani”si bizi lap ey cavanlıq çağlarımıza qaytarır. Hər il Gədəbəydə qulaq asmışıq biz Çürüyə. Qız da eynilə elə çalır. Açığı, ağlaşırıq. Ər-arvad, beləcə oturub, sənin bacıyın “Mənim əzizlərim, mənim əzizlərim” deyə-deyə danışığına nə qədər qulaq asmışıq!.. İndi də eyni məmnuniyyətlə dinləyirik. Əvvəlcə, demək, təxəllüs! Təkrar eləyirəm: niyə “Anadil”? Özün de, yazıram.

– Buyurduğunuz kimi, Yer bəşəriyyətinin dilini dəyişdiriblər: baş-ayaq eləyiblər. Məsələn, “Əl” kainatda həm adi Əldi, həm də BağOğludu.

Canbalayevin nəfəsi ilə birlikdə dövrəmdə tüstü fırlandı:

– Bu danışdığımız dili almayıblar ki, dilimizdən? Özün de, yazılsın, qalsın.

Dedim:

– Odunu-həqiqətini alıblar.

Dolanıb kreslosunda oturdu:

– İndi danışdığımız dil "İsa"nın dövründən əvvəllər də olub axı, ay bala. "Bibliya"da Kesar özü "İsa"ya demirmi ki" mən sənin Ərimey dilində də danışıram sənnən. OdƏrcə ey! "Türkcə!.." Belə çıxmırmı ki, sən kicişməyən yerdən qan çıxardırsan!

Dedim:

– Anadil tərsinə qonur!

Dedi:

– Aydın danış!

Dedim:

Danışmaq üçün gərək imkan verəsiniz.

Dedi:

– Yəni sözünü kəsməyim?!

Mən mümkün qədər, yumşaq, ehtiyatla:

– Təxəllüsüm "ayağından asılmış Anadil", "tərsinə" çevrilən OdƏrƏsÜn, "sin"ə aşağı endirilən dil çox mürəkkəb tarixlə bağlıdı, Qara müəllim. Bilirsiniz ki, EyAğ (uca Ağ) – "ayağ"a döndərilib, yəni baş ayağa dönüb. ƏsÜn – Yaradan Ün "sin"ə – aşağıya. Var o kasetdə! Yəni dilimizin əlimizdən alınması qədimlərdən başlanıb. Hər yerdə təkrar-təkrar deyilməlidi ki, Assuryiyalıların-Suriyalıların, ikinci tərəfdən Qreklərin Bağday ərazisinə, ən qədim vilayətimiz ƏrEyə aramsız basqınları dəhşətli olub. ƏrEydəki ilk mərkəzimiz HəmOdün – Həmədana çevrilən şəhər bir müddət Ağbatan adlanıb. Ağların batdığı – məhv olduğu yer! "Süleyman", "Solomon" adlandırılan Ulu Bağ ƏsƏlMənimiz o zamanlar əbədi Sarlar – əbədi hökmdarlar olan on nəfər Sarımızın – hökmdarlarımızın əbədi qanununa görə, SimOd məclisinin əbədi qanununa görə bizim orduya ərazimizdən kənara çıxmağa, fatehliyə izn verilmirmiş. BağOd EvÜn adlanan xüsusi təsərrüfat sahələrində işləyirmiş o AğEy – "Əxi" ordusu. Bir dəfə basqın təhlükəsi olanda, Rimdə öz ƏsEvün təxtində oturan "Babək" (BağBağÜn – "Papaq"ın – "Papa") Dardaneldən keçib ƏrEyə UluBağın hüzuruna gedib ki, SimOd izn versin, basqınçıları qıraq. Sizə yəqin məlum deyil ki, Cənubumuzdakı Bəzz qalasını Babək Xürrəminin adına yazırlar, halbuki düşmən o qalanın adını qəsdən "Bəzz" – Darboğaz qoyub, yalnız bir məqsədlə ki, BağBağÜnün – "Papağa"nın – "Papaq"ın – "Babək"in Rimdə imperatordan da yüksək BağBağÜn rütbəsini –

hakimiyyətini, Ərimin – “Rim”in SafAğ Elmi mərkəzlərindən biri olduğunu gizlətsinlər. Ulu Bağ izn verməyib Babəkə: “Qayıdın, qırsınlar ordunu, özünü də edam eləsinlər. Nə dəyişəcək bundan? Siz Əbədiyyətə gedəcəksiniz, səni edam edənlər, ordumuzu qıranlar isə Ərimə – “Rim”ə sahib olacaqlar, qanı su kimi axıdacaqlar və torpaqda çürüyəcəklər. O vaxt siz yenidən qayıdacaqsınız”. EvƏrƏs – Yaradan İşıq Evi adlanan o ordunu “Pers” şəklinə salıblar, EvƏrEy OdƏrlərini isə hələ o zamandan “Yevrey” şəklinə salıblar. Təkrar eləyirəm, müasirlərimiz “Yevrey”lərdən tək-tək alimə məlumdu ki, vaxtilə OdƏrcə danışıblar. Məsələn, belə: “Od su”. Yəni həqiqət suyu, yəni yağış.

Canbalayev mənim susub, xeyli elə-belə susqun qalmağımdan tutuldu.

– Nə oldu? Danışdığını yazıram! Çünki belə lazımdı! Çox lazımdı, bala.

Dedim:

– Bunların çoxunu siz bilirsiniz axı, niyə yazırsınız?

Əlimi asta-asta üzünə çəkib, birdən:

– Sonra deyəcəm səbəbini, sevinəcəksən, – dedi.

– Sevinəcəm?!

– Hm! – elədi. – Ay uşaq, yenəmi deyim ki, respublikanın ayrılmaq söhbəti gəzir dildə-ağızda. Düzdü, hər yerdə, Türkiyədə də dəyişdiriblər dili. Bəşəriyyətin dil kökünü parçalayıblar! Sən qədim dünya barədə çox axtarış aparmısan. Bu deyilənlərin hamısını çap eləsən (bəlkə lap anonim müəllif əsəri kimi), proqramdan kənar oxutsaq, bilirsənmi necə oğullar yetişər bu ölkədə?! Danış! Bəkirə tapşırmışam bu lentdəkiləri öyrənmək üçün ən gənc, ən seçmə, ən etibarlı çekistləri yığsın başına, özün dərs de cavanlara. Bu lenti isə Xruşşovun qarşısında dağ kimi dayanan İman kişi paylayacaq, evlərdə xəlvətdə dinləsinlər, günlərin birində bəxtimiz gətirsə, Rusiyadan ayrılsaq, oğullarımız bu ümumbəşəri ideologiyanı mənimsəsinlər. Bağdayın heç olmasa, öz ərazimizdə bərpasına hazır olsunlar. Danış!

“Vklyuçatel”i burdu, yenə İtginimin səsi gəldi. Canbalayev dedi:

– Yaxşı, qoy bu qurtarsın, sənin yaddaşın da təzələnsin.

Mən yenə doğma səsə qapıldım. Sonra birdən yenə Canbalayev zəhm göstərdi.

– Təxəllüs! Məncə, nədənsə, bayaq bağ-ayaq vurdun. “Təxəllüs”ü yaxşı izah eləmədin.

Mən dözməyə çalışdım. Dedim:

– “Təxəllüs” alınma sayılır. İndi aydın olacaq. Sözümün canı budu ki, “Anadil” quşu ayağından asılan dilimizdi, “EyAğı – Uca Ağı” (SafAğ insanı) unutdurub, “ayaq” eləyiblər; Ayaq düşünməz! ÜnƏs – “ins” – “insan” yalnız Yeri görər! OdAğÜz planetindən məlumat almaz, yaşayışın qanunlarını itirər: budur ölümlü insan!

Dedim, “təxəllüs”ü “alınmış söz” sayırsınız. Düz deyil. Həqiqətdə, bu, bizim qədim sözlərin təhrif tələffüzüdü.

– Nə?! – Canbalayev hətta diksinən kimi oldu. – Nə danışırsan, a kişi? “Təxəllüs” bizim sözdü?!

Mən isə təmkinimi qorudum:

– Bəli, Qara müəllim. Mənə verdiyiniz sual ilk baxışda son dərəcə adi sualdı, həqiqətdə isə çox mürəkkəb, bəlkə hətta uzun cavab tələb edir. Sizdən bir daha xahiş edirəm, sözümü kəsməyin, nitqimin məntiqini pozmayın. Məcburam bir daha deyim ki, “təxəllüs” ərəb-fars dillərindən “alınmış sözlər” sayılsa da, həqiqətdə hər üç xalqın, yəni keçmişi eyni olan xalqın sözüdü. Sözün əslinə – OdƏrcəsinə qulaq asın: OdAğ – ƏlƏs. Bu iki kəlmə dörd sözün birləşməsidi. Od – həqiqətdi, Ağ SafAğ İnsandı, Əl işləyən, yaradandı. Diqqətli olun, görün nə yaranır: OdAğ, yəni SafAğ İnsan Bağın həqiqəti – “Oğul” AğƏldi, “Allahdı...” İndi fikir verin, məna nə oldu: “SafAğ İnsan Bağın yaradan Oğul həqiqəti”. Budur, “təx əll üs”.

ƏlƏs həm ad sayılır, həm də rütbə. Bir Pünhan adlanan qələm sahibi hər yerdə təkrar eləyir ki, Qaçaq Kərəmin kiçik qardaşının adı – Odu – rütbəsi ƏlƏs idi, məhz buna görə də ƏlƏs adının mənası qanmayan, “Ales” deyən Rusun təhrif dilinə nifrəti vardı; ƏlƏsə – Yaradan Ələ güllə atan Rusa güllə atmağa məcbur idi. Bu heç. Elə-belə, yeri gəldi, dedim. Söhbətimiz “od” əvəzinə “tü”, “tə”, hətta “ti”, “ta” deyən, OdƏrə – yaradan həqiqətə “atəş” deyən, “Ağ” əvəzinə “ax”, AğEy – uca SafAğ İnsan əvəzinə “əxi” (yəni guya “qardaşım”) deyən ərəb, fars dilləri üstündədi. Tək bir “təxəllüs” kəlməsi nəinki bütün OdƏr dilini, xalqa məlum olan qədim türk dilini, hətta bütün Kainatın həqiqətini təhrif edir, bu Yer planetini on səkkiz min Qalaktikanın saysız-hesabsız planetlə-

rindən, nəhəng OdƏr bəşəriyyətindən ayırır, Qara müəllim! Ərəb də, fars da, biz OdƏr – "Az Ər"ilər də "təxəllüs" deyiriksə və bu "üç xalq" "üç dili" vahid kök üstündə OdƏr xalqı olduğunu heç cür təsəvvür edə bilmirsə, əsli ƏrEv (Evin İşığı) olan "Ərəb"lə əsli EvƏrƏs olan "Pers" – "fars" qılınca sarılıb, özünün qanı-canı olan OdƏrin – "Türk"ün qanını içirsə, "təxəllüs" sözünün izahı nədi, Qara müəllim?! "Dəri"dili dilçilikdimi, fəlsəfədimi, ya bütün on səkkiz min Aləmin təhrif olunduğunun səbəbini açan açardımı, nədi bu?! Siz ədəbiyyat tarixçisisiniz... Təkcə yeddinci əsrdə nə qədər qırıblar BağHəmOdun – "Məhəmməd"in, Əlinin nəslindən. "QürÜn" kitabını, guya tərcümə eləyib nə hala salıblar?! Pünhanlarımız yazırlar, izah eləyirlər bu bəlanı.

Canbalayev elə əyilmişdi ki, sinəsinin stola sıxıldığını da hiss eləmirdi. Arvadı heyrət, dəhşət içində mənə baxa-baxa, yavaş-yavaş yeriyib kişini ayıltdı. Canbalayev ağır-ağır dikəlib əlini qaldırdı; barmaqları titrəyirdi.

– Sən.. sən nəymişsən, əşi?! Sən nəymişsən?!

Dedim:

– Mən "Türkün" OdƏrin uca ana dilini, tarixi bilən "Peyğəmbər"in "daana"sıyam, itirilmişəm. Özünüz deyirsiniz ki, "Fars" "daana"ya bilən mənası verib. Halbuki, sözün əsli OdÜn – Həqiqət Ünüdü, Qara müəllim! "Ana dili" – ÜnEy OdƏldi – Həqiqət Əlinin – Oğlunun – "Allah"ın uca Ünüdü. Bu Ündü itirilən. "QürÜn" kitabıdı "Quran"ın əsli! "Tapdınmı?" – Soruşur. Cavab verir: "Tapmadım". "Allah". EySarımız – "İisus" "QürÜn" verib BağHəmOda – "Mühəmməd"ə, "Musa"ya döndərilən BağSar – hökmdar Bağı "Tapmadım" deyir.

Barmaqlar titrəyirdi.

– Dayan... "Quran" təhrif tərcümədi?!

– Bəli, lap az bir hissəsi. Qalanı qarışıq uydurmalardı! "Ərəb" "Tövrat" deyir, EvƏrEy – "Yevrey" "Tora" deyir, Nədi bu?!

– Demək... biz Yəhudilərlə birik?!

– Bəli! Pünhanlarımız şərh eləyirlər: bəşəriyyət vahid xalqdı!

– Ərəb, fars, türk... "QurÜn" oxuyurmuş?!

– Bəli! Ərəb də, Fars da, Türk də OdƏr dili ilə indiki tyürk dilinin qarışığına oxşayan Türk dilində oxuyublar "QürÜn"ü.

– Nalənin lenti tamam həqiqətdi?!

– Bəli! Bax bu Od, Əl, Ağ, BağHəmOd deyən "AzƏr"in dilini, həqiqəti şərh edir o! Aşıq Çürük deyib: "Son nəfəsimə qədər yorulmadan, usanmadan dönə-dönə car çəkəcəm ki, Türk yalnız vətənindən yox, dilindən də tərik düşüb!" Nalə də deyib, mən də deyirəm, həqiqəti bilənlər həmişə, hər yerdə car çəkiblər ki, məhz tərikliyə görə ƏrEy yox: "Rey" deyirlər, EvƏrEy OdƏr əvəzinə "Yevrey" "Adar" deyirlər. EyOd Ərləri əvəzinə "Yəhud" – "Cühud" deyirik, EvƏrƏs OdƏrləri əvəzinə "Pers" – "Fars" deyirik, Kür Od OdƏrləri əvəzinə "Kird", "Kürd", BirOd OdƏrləri əvəzinə "Brit" – "Britaniya" deyirik, "ƏlMən" əvəzində "Alman", AdƏləs əvəzinə "Doyliç" və sairə və ilaxirə. Planetimizin bütün xalqları OdƏr xalqıdı, Qara müəllim. SafAğ elmi hər yerdə rəsmi qadağan olunduğuna görə, hətta sizin kimi belə təcrübəli professor da məlumatsız qalıb, indi öz tələbəsini dinləyə-dinləyə belə mat-məəttəl baxır. Bütün "xalqlar" OdƏr dilindən tərikdilər – "türk"dürlər, didərgindilər. Babalarımızın Ünündən məhrum olduğumuza görə, bəsitləşib, ağılsızlaşıb, murdar, iyrənc olmuşuq. Üzr istəyirəm Göhər xanımdan, açıq deməliyəm, pozğun olub bəşəriyyətimiz. Odur ki, cəmi Kainatda OdƏr bəşəriyyətinin nifrətini qazanmışıq. Daha əlaqə saxlamırlar bizlə. Orda-burda tək-tük batin, gizlin SafAğ alimlərimiz ƏsAğlarımız – "Aşıq"larımız var, onlar da üzə çıxammırlar.

Çox danışdım mən. O qədər ki, Canbalayevin gözlərindəki gərginlik yorğunluğa, üzgünlüyə çevrildi, üzü tamam kütləşdi; gördüm kişi daha heç nə dərk eləmir, istər-istəməz ayağa qalxıb, getmək üçün icazə istəyib qapıya yönəldim.

Professor dalımca yeriyirdi.

– Bu nə dəhşətdi?! Bu nə müsibətdi?!

Gedə-gedə dedim:

– Lentdən, məndən eşitdiyiniz Elmimizin mində biridi. Kainatın yaranışı, quruluşu var bu Elmdə. İnsanın öz yaşayış qanunları var bu Elmdə! Deyiləcək! Yazılacaq! Vaxtı var.

Ayaq saxladı.

– De görüm... doğrudanmı "İslam" ərəbcə deyil?!

Mən də ayaq saxladım.

– ƏsƏlimdi! – Yaradan Əlim – Oğlum – AğƏlim – ƏlAğım – "Allahım"dı "İslam"!

Kişi kəkələdi:

– "Müslüm" ərəbcə deyil?!

– BağƏsƏlimdi! Yaradan Əlimin Bağı deməkdi! Ulu Bağ ƏsƏlMənin rütbələrindən biridi.

– "Rəsul" ərəbcə deyil?!

– ƏrƏsƏldi! Yaradan Əlimin – Oğlumun – AğƏlimin – ƏlAğımın – "Allah"ın İşığı deməkdi. Yəni Qalaktikamızın "Allah"ı "İsa"nın – EySarın işığı.

– Əli... İmam Əli kimdi? Kimin Əlidi?

– Bağ Əlidi. EyMən Əli! Saysız-hesabsız Əllərdən biridi, Qara müəllim! OdƏr bəşəriyyətini necə alıblar beynimizdən, Əlləri də elə alıblar fatehlər!

– Dayan görüm... Dalını çevirmə mənə! – Qolumdan yapışdı – "Yevangeliya"nı tənqid eləyirlər sizinkilər. Deyirlər, çarmıxdan düşəndən sonra EySar yoldaşlarına deyib ki, BağOdƏr SimÜndən – "Simon"dan başlamış, hərə ayrılıqda yazsın bu çarmıx, dirilmə qəziyyəsini". "Niyə? Həbibulla deyir: "Məncə EySar qəsdən belə eləyib ki, qəziyyənin – "çarmıxa çəkilməyin" ətrafında nə baş veribsə, kim necə görüb, kim necə dərk eləyibsə, "o cür yazsın", çünki insanın qavrama qabiliyyəti müxtəlifdi. Nizaminin, Füzulinin, Orta Asiya şairlərinin "Leyli və Məcnun" yazmasında nə sirr var? Bilirsənsə, bunu de, yazılsın da.

Dedim:

– Həyat dəyişdikcə, insan dünənki hadisəni bu gün başqa cür dərk eləyir. Buna görə də həqiqəti itirməmək şərtilə alimlərimiz Elmin hadisələrini dönə-dönə təkrar eləyirlər... Çox şey danışdım, yazdınız. Eyni söz-söhbəti lentdən də eşidirsiniz, başqa alimlərlə rastlaşsanız, onlar da eyni həqiqətləri təkrar eləyəcəklər! Bu ümumi qaydadı. Mənim bu gün sizə dediklərimi hələ çox-çox alimlərdən eşitməlisiniz, çünki hamı təkrar eləyir.

– Dayan! Getmə! Bir sürprizimiz qaldı. Sənnən bağlı işdi bu.

– Açığını deyim siz məni yordunuz! Sağ olun!

## 2. “PEYĞƏMBƏRİN DANA”SI

Fikirləşdim ki, elə bil canımdan bütün əsəblərimi çıxarıb, yun kimi, çubuqla döyüb-döyüb, bədənimi başdan-ayağa kütləşdirmişdilər. “Laqeyd” qonşularım, necə deyərlər, “cikimə-bikimə” qədər bilirdilər; tamam aydındı ki, hər şeyi nə isə çox ciddi “iş”lə əlaqədar öyrənmişdilər. Əmma söhbətimizin gedişində məni sarsıtmaqla bərabər, özləri də sarsılmışdılar. Qəribə, heyrətli bir hadisə başlanmışdı. Sonrasında nə vardı? – Daha düşünə bilmədim.

Otağıma qayıdıb, səhərdən yana-yana qoyub getdiyim işığı söndürüb, çarpayıya uzandım. Hələ universitetin yataqxanasında olanda pis adət eləmişdim; axşamlar otaq yoldaşlarımın yanında işləyə bilmədiyimə görə, dərsdən qayıdantək yatardım, düz saat on ikidə qalxıb stolun dalında oturardım. Yataqxana ilə vidalaşdığım gündən çox keçməsinə baxmayaraq, hələ də bu adəti tərgidə bilməmişdim.

Yorğanı başıma bürüyüb, hər şeyi unutmağa çalışdım. Əmma, görünür, bu gün mənə dincəlmək qismət deyilmiş, gözümə təzəcə yuxu gedirdi ki, pəncərə ağzından Bəyim xalanın səsi gəldi; deyəsən, Göhər xanımın məni evə apardığını görmüşdü və indi bu möcüzənin səbəbilə maraqlanırdı. Özüm də hiss etmədən arvada acıqlandım. Yazıq Bəyim xala! “Yat, yat, başına dönüm! Bağışla, bağışla!” – deyə-deyə dərhal pəncərənin qabağından çəkildi.

Çarpayıda çevrikdim. Yenə təzəcə mürgüləyirdim ki, pilləkən taxtalarının cırıltısını eşitdim. Daha yata bilməyəcəyimi hiss edib, çarpayıdan qalxdım, işığı yandırıb pəncərənin qabağına yeridim.

Ərlə arvad, adətləri üzrə, bir-birinin qolundan yapışıb, yuxarı qalxırdı. “Bıy!” – elədim. – Bunlar nə vaxt düşüblər aşağı? Niyə bilməmişəm? Deyəsən, yol gəliblər hardansa?!

Bir gündə bir neçə dəfə harayasa getmək Canbalayevlərin adətindən kənar şey idi. Nədənsə, maraqlanıb, səbəbini o qədər də anlamadan, əynimdə qırışmış köynəyimi, ütüdən düşmüş şalvarımı dəyişdim. Hiss edirdim ki, “mürgü” adlandırdığım yarıayıq yuxum çox çəkmişdi, beynim açılmış, bədənim yüngülləşmişdi. Hətta plaşıma baxdım ki, bəlkə geyinim gedim, “Kürdün kafesi” dediyimiz yerdə bir şey yeyim. Əmma bu an Bəkirin səsini eşitdim:

– Fanatikə eşq olsun!

Pilləkənin yuxarısında dayanmışdı. Başında qəhvəyi şlyapa, əynində eyni rəngdə yüngül plaş, əlində dolu zənbil. Qapını açıb,

nəzakətlə geri çəkilib Canbalayevi irəli ötürəndən sonra, iki-üç pillə aşağıda ləngər vuran xalasına baxıb gülümsünüb başını buladı. Göhər xanım isə, görünür, mənim nəzərimi öz üzündə hiss edib, qanrılıb bəri boylandı və ... heyrət! Səhərki xoş sifət əvəzinə arvadın ağ, dolu yanaqlarının çəhrayı pudraları ilə təzadlı – zil qara gözlərində elə anlaşılmaz qəzəb parıldadı ki, mən istər-istəməz geri çəkildim.

Göhər xanım isə dönüb Bəkirlə pıçıldaşdı. Söhbət məndən gedirdi? Bilmirəm Bəkir nə dedi, ancaq bunu eşitdim ki, onun pıçıltısının cavabında Göhər xanım elə bil mənə eşitdirmək üçün:

– Razılaşmasa, tutdurarıq! – dedi.

Bu iki kəlmə də mənə aid idisə, Bəkir niyə güldü? Mənə lap çoxdan, universitet illərindən tanış olan qəfil, zil qəhqəhə çəkib sağ əlinin baş barmağını göstərdi.

– Baxtın açılıb, fanatik! Evdə ol, bu saat düşürəm yanına.

Yeri gəlmişkən, burdaca deyim ki, universitetin birinci, ikinci kurslarında mənim Bəkir Səfquluyevdən o qədər də xoşum gəlməzdi. Həmişə son dəblə geyinməyi sevən, yayın istisində də qalstuku xirtdəyindən açmayan bu arıq, uzun oğlan mənə həddindən artıq dərdsiz-qəmsiz görünürdü. Mübaliğəsiz deyirəm ki, o illərdə mən onun bir dəfə düşüncəli vaxtına təsadüf etmədim. Səhərdən axşama qədər universitetin həyətində, pilləkən üstündə, paltarasılanın qabağında, auditoriyalarda Bəkirin zil qəhqəhəsi eşidilirdi. Tələbələr komitəsinin üzvü idi. Təşkilati işlərdə fəal çalışırdı; elə bir yığıncaq, şənlik olmazdı ki, Bəkirin orda gülüşü eşidilməyəydi. Qısası, mən onu hər yerə burnunu soxan, yüngülxasiyyət bir adam kimi tanıyırdım. Əmma burası da vardı ki, bu "yüngülxasiyyət", "dərdsiz-qəmsiz" oğlan zehninin itiliyi, əqlinin oynaqlığı ilə, demək olar ki, hamıdan seçilirdi; seminar saatlarında, imtahanlarda bir dəfə də dilinin dolaşdığını görməmişdim. Hamletin qəbiristanda monoloqunu, Kefli İsgəndərin ölülərlə söhbəti"ni[1] əzbər deyirdi. Bəkirin bu üstünlüklərini mən aydın dərk edirdim. Üstəlik, "vətən, millət vurğunu Quru bəyin vurğunu" idi. Yəni mənim. Hər bazar günü, axşamlar "yuxu rejimi"ndən onun səsinə oyanırdım: "Pivə, Quru bəy! Pivə, pivə noxuduynan!" Dənizkənarı bulvarda,

[1] Mirzə Cəlilin "Ölülər"i

“Kürdün kafesi”ndə bapbalaca bir cürə saxlayırdı. Filarmoniyada “Sazçı qızlar” ansamblında kimdənsə satın alıb istəkli Kürdümüzə vermişdi ki, hər bazar günü “Quru bəyin sinəsinə basıb ağlatsın”. Bir çox belə şeylər vardı ki, Bəkiri mənə bağlayıb əziz yoldaş eləmişdi. Əmma qayğısız qəhqəhələri, əksər hallarda şit zarafatları dinlədikcə, nəzərimdə o, yenə də yüngül, yoldaşlarımdan bəzilərinin dediyi kimi, “quş-quşu” Bəkir olurdu. Boynuma alım ki, hətta bir dəfə Yazıçılar İttifaqında həftədə bir dəfə keçirilən “Gənclər günü”ndən fərqli olaraq bizə “dünya ədəbiyyatının ən parlaq nümunələrini öyrədən” ədəbiyyat dərnəyinin rəhbəri, dekanımız Həbibulla onu Səfquluyev əvəzinə, “səfehquluyev” çağıranda, ürəkdən gülən dərnək üzvlərindən biri də mən oldum. Güldüm və qəribədir ki, elə ordaca məndə ayrı bir təəssürat oyandı: elə bil qulağıma pıçıldadılar ki, “o, nəinki Səfehqulu”, “quş-quşu” deyil, bəlkə əksinə, sizin hamınızdan ağıllı və həssasdır. Bir bax, sizə qoşulub şaqqaşaq gülür, əslində isə sizin ən cüzi hərəkətlərinizin altını da görür”. Elə bil yalnız bu fikri təsdiq etmək niyyəti ilə, tənəffüsdə Bəkir məni xəlvətə çəkdi: “Bura bax, Quru bəy! Mən niyə vurğunam sənə? Çünki safsan, dosta sadiqsən. Həbibulla müəllimin məni dolamağına sevinənlərnən bir yerdə sevinmə! Kin oyatma məndə! Çünki kin getmir ürəkdən”. Bu əhvalatdan sonra Bəkir nəzərimdə müəmmaya çevrildi: “Kin getmir ürəkdən! Təcrübədən keçirib, nədi?! Axırıncı qərarım bu oldu ki,”çox mürəkkəb adama oxşayır”.

Bütün bunlar mənim köhnə təəssürat və qənaətlərim idi. Universiteti bitirəndən sonra, əvvəldə dediyim kimi, çox vaxt poçtda-kassanın qabağında və “Kürdün kafesi”ndə görüşürdük. Onu bir də həmin bu pilləkənin üstündə, hərdən də redaksiyalarda görürdüm. Tay-tuşlarımız arasında o, həyat yolunu vaxtında tapan xoşbəxtlərdən hesab olunurdu. Çünki Bəkir hələ filoloji fakültənin ikinci kursunda ikən öz ixtisasını müəyyənləşdirmişdi: “Yeznə” adlandırdığı xalası ərinin sənətini seçmişdi. İndi qəzetlər, jurnallar Bəkirin təzə çıxan bədii əsərlər haqqında, təqvim əsasında “mədəniyyət korifeyləri”nin doğuluş günləri münasibətilə məqalələrini çap edirdi. Məqalələrdə Bəkir, hər şeydən əvvəl, gözlənilməz və cəsarətli tənqidi mülahizələri ilə mübahisə doğururdu, səs-küyə səbəb olurdu. Məsələn, görün nə yazmışdı: “Lev Tolstoy dərk etməyib ki, Şekspir insan qanı ilə yazılmış tarixi xronikalarda bəşəriyyətin bədbəxtliyini

görüb". Belə fikirləri çox olduğuna görə hərdən mənə elə gəlirdi ki, şəhadət barmağını sətirlərin arasından dik qaldırıb: "Baxın, mən necə cəsarətliyəm! Baxın, mən necə korifeyləri tənqid atəşinə tuturam! Məni sayın, mənə qiymət verin!" – deyən müəllifin səsini eşidirəm. Əmma çox ola bilər ki, səhv edirdim. İstər gənc, istərsə də yaşlı tənqidçilərin arasında bununtək məhsuldar işləyəni yox idi. Mübaliğə olmasın, Səfquluyevin az qala hər həftəsinə bir məqalə düşürdü. Bu qədər yazının fiziki cəhətdən öhdəsindən gəlmək özü elə qəhrəmanlıq idi. Nə isə, söhbəti ora gətirmək istəyirəm ki, illərlə yoldaşlıq, dostluq elədiyim Bəkir Səfquluyev də yeznəsi kimi mürəkkəb və anlaşılmaz idi.

İndicə yuxarıdan "fanatikə eşq olsun!" – deyəndə sözlərində ılıq bir səmimiyyət duydum. Bu ifadəni vaxtilə Həbibulla müəllim işlətmişdi. Niyə "fanatik"? Bu, mənim ona – Həbibulla müəllimə şəxsi münasibətimlə bağlı idi; ürəyiaçıqlıq, bəlkə də sadəlövhlük eləyib Bəkirə danışmışdım ki, Həbibulla müəllim bizim nəsildəndir; mənim ulu babam Fətulla əsrimizin əvvəllərində Ağlar kəndindən Sibirə sürgün olunanda Həbibulla müəllimin atası Həqqi milyonçu Zeynalabdin Tağıyevin mədənində işləyirmiş və Tağıyev onun – Həqqinin xətrini çox istəyirmiş, buna görə də Həqqinin əmisinin "yatap" göndərilmək üçün Gəncəyə gətirildiyini eşidəndə Tağıyev gedib zamin olub, kişini bizim kəndə – qohumlarının yanına göndərtdirib, ordan da Bakıya öz mədəninə gətirib, yaxşı pul qazandırıb, ailə içinə qaytarıb. Bəkir Həbibulla müəllimin ifadəsini deyəndə, təkrar edim ki, səsində səmimiyyət vardı. Odur ki, pəncərədən ayrılmadan gözləməyə başladım.

Bəkir yuxarıda çox ləngimədi.

Başlanğıcda dediyim "hadisələr burulğanına məhz bu görüşdən sonra düşüb, daha çıxa bilmədim o burulğandan.

Görüşümüzü bütün təfərrüatı ilə danışmalıyam ki, o burulğanın dəhşətləri aydın görünsün.

Həmin zənbil əlində, hələ pilləkənin ortasında ikən danışmağa başladı:

– Ax, qarnıyın altını biləydim, görəydim, sən nə yuvanın quşusan, Rəşid! İllərlə bir yerdə oxuduq, bir pilləkəndən qalxdıq, bir auditoriyanın qapısını açdıq, bu son illərdə isə, yeznəmin sözü

olmasın, gündə bir boçka pivə içə-içə bu qədər yaxınlaşmışıq, əmma o lentlərdəki bioqrafiyan barədə bir kəlmə də danışmamısan! Yeznəmin sözü olmasın, nəymişsən sən, əşi?! Bizim Gədəbəydə Şirnək meşəsi var, "Şırnak" deyirlər. Orda bir odunçu kişi vardı. Balaca arabası vardı. "Eşşək arabası" deyirdilər. İndi yarpız, kəkotu-filan gətirib satır burda – Bakıda. Dedim: "Heç Gədəbəyliyə oxşamırsam. Gözlərin yaşıl nəlbəki boyda, boyun – şalban! Hara adamısan?" Dedi: "Ərdəbil şeyxlərindəndi əslim, ay oğul. Ordan sürüblər İraqa. İraqdan sürüblər Dərə Ələyəzə. Ordan sürüblər Muğana. Ordan da özüm qaçıb getmişəm Gədəbəyə. Necə deyim indi haralıyam?" Yaman maraqlandırdı məni. İndi də dostumdu elə. Bir də dekanımız vardı. Əmi uşağıdırlar. İkisinin də gözləri eynən sənin gözlərin təkidi, belə yamyaşıl, nəlbəki boyda. Dekanın adı Həbibullaydı, tələbəninki – Rəşid; qohumun-zadın deyillər ki?" Ağladı kişi, dedi: "Məndə o bəxt hardadı ki, qohum tanıyım? Gah fars pərən-pərən salıb bizi, gah rus". Dedi, getdi. Hə, bu heç, elə-belə yadıma düşdü dedim... Xalam sənə baxanda hirsindən çatlayır. Deyirəm: "Ay xala, ürəyin çox təmizdi, rəftarın düz deyil. O cür də ünsiyyət yaradarlarmı adamla? Elə bunu demiş oldum, gözü çıxdı kəlləsinə, başladı ki, "rəftara qalsa, qonşumuz qanacaqsızdı. Salam vermir, gözləyir ki, biz ona baş əyək, biz salam verək! Tərbiyə görməyib. Canbalayev kimi kişiyə arxa çevirdi". Nə isə, əşi, bunlar hamısı düzələn şeylərdi. Sənin əvəzində söz verdim, dedim bundan sonra hörmətinizi saxlayar, özüm danışaram, qonşuluq da eləyər, lap dostluq da!

Dedim:

– Xalana sən bayaq nə isə pıçıldadın.

Bəkir qəhqəhə çəkdi.

– Sənin barəndə? Nədən bildin? Həssaslığına bax bunun! – Əlini pəncərədən içəri uzadıb saçlarımı dağıtdı. – Bilirsən nə dedim?.. Əmma incimə, bu mən ölüm! Dedim xala, dəlixanalıqdı qonşun. İncimə, mən ölüm! Öz aramızdı, bir yana baxanda əməlli-başlı anormallıq yoxdumu səndə? Stula çaxılıb səhərəcən işləmək ağıllılıq əlamətidi?! Özün demisən mənə, gözünə ruh-zad görünür. Bəri çıx, gedək hava alaq deyirəm, yeznəmin sözü olmasın – Bəkir duruxub, peysərini qaşıyıb, sonra diqqətlə üzümə baxdı. – Sənə vacib işimiz düşüb. Çox vacib ey! Gəl!

Mən zaldakı həngaməni xatırladım.

– Nə "vacib işdi" ki, bu gün Canbalayevlərin hamısı elə "işimiz düşüb" deyir?!

Bəkir yenə peysərini qaşıdı:

– Əvvəla, mən Canbalayev deyiləm. Əsrin böyük münəqqidinin familini daşısaydım, mən də az-çox xoşbəxt olardım indi. Bu bir. İkincisi, beş-on kəlməylə danışılan şey deyil o iş. Əgər köməyin dəysə, inan ki, bu evin, hətta Vahid Canbalayev qədər əziz adamı olacaqsan! İnan, fanatik! Ən axmaq cızma-qaralarına qədər çap olunacaq, ay bəxtəvər, bundan artıq nə lazımdı bu quru bəyə?! Gəlirsən, ya yox?

İstər-istəməz gülümsündüm.

– Belə vədlərdən sonra necə gəlməyim!

Dedi:

– Pul götürmə. Cibim doludu. Kürdün də baxtı gətirib bu gün, kassası dolacaq yüzlüklərlə.

Dedim:

– Başqa qonağın da var, nədi? Necə yəni yüzlüklərlə?

Dedi:

– Orda bilərsən. Gəl də, əşi!

Mən səbirsizlik eləməyib daha sorğu-suala tutmadım onu.

Kolodezaya[1] küçəsilə üzüaşağı enib, qısa olsa da baş küçə sayılan Kommunistlə də üzü aşağı enib, dənizkənarı bulvara doğru getdik. Yanaşı yeridikcə tez-tez dirsəklərimiz bir-birinə toxunurdu, dönüb bir-birimizə baxırdıq. İllərlə ruhunu ruhuma yaxın bildiyim bir adamla elə bil ilk dəfə yanaşı yeriyirdim; özümü çox qəribə, anlaşılmaz vəziyyətdə hiss edirdim və şübhə eləmirdim ki, o da eyni şey haqqında düşünürdü.

Bulvara çatıb sola buruldduq.

Bu ilki payız sakit, mülayim gəlsə də, bu vaxtlar – günortadan sonra dənizdən sərin-soyuqtəhər duman qalxıb sahilləri, xüsusilə, Həbibulla müəllimin təzə iş yeri səmtindəki sıx cərgə binaları basırdı. Boylanıb Həbibulla müəllimin kabinetinin pəncərələrini görmək istədim, hündür, sal qaya kimi boz divarlardan başqa bir şey görmədim. O divarlardan bəridə, şəhərlə bulvar arasında sədd kimi

---

[1] Bakının küçələrinin əksəriyyəti rus dilində idi.

uzanan sıx ağaclığın dalından aramsız boğuq uğultu eşidilirdi. Ağacların seyrək yerlərindən görünən səki tamam kimsəsiz idi. Mən Bakının nadir illərdə təsadüf edilən belə dumanlı vaxtlarında həmişə qəribsəyirdim.

Şəhərin dumanı içində şəhər yox, müharibədən əvvəllər, dörd-beş yaşlarımda, atamla, anamla, İsa, Musa baba və Taftı ilə birlikdə, nəhəng xurcunlarla yüklü yedək atlarını çəkə-çəkə, yumşaq "çərkəzi" yəhərlərdə yırğalana-yırğalana, enişlərlə, yoxuşlarla yaylağa gedəndə gördüyüm dumanlı dərələri görürdüm, iri-iri daşları qaralan, köpüklü, qıjıltılı, Dərəçiçək çayını, İsa baba ilə Musa babanın dediyinə görə əsl adı AğOd olan "Axta" kəndindən dağ döşünə qalxan çaxraxlı yolda atların nallarının altında şaqqıldayan, qığılcımlanan çaxmaq daşlarını görürdüm; Çaxraxlı yolun yam-yaşıl, güllü-çiçəkli yastanaya çatan yerindən kiminin Ağ, kiminin Ağlar, kiminin Ağbizən dediyi kəndimizin girəcəyində, qırmızı kirəmidli, töyləli evimizi görürdüm; kənddən sağdakı boxçaçiçəkli, qaymaqçiçəkli hündürlərdə "Mən Rəşidəm" deyən, danışan qayaları görürdüm; o qayaların girintilərində yumurtayıb balalayan saysız-hesabsız dolaşa quşlarını görürdüm; Ağlar barədə Nalədən eşitdiyim sözlərin arxasından elə bil iti uşaq yaddaşı törəmişdi ki, hətta dolaşaların "qaq-qaq" səslərini də eşidirdim. Bakının belə payız, yaz havalarında gəzməyə mən həmişə tək çıxırdım. Gözlərimi yumub, nəm havanı acgözlüklə ciyərimə çəkib, sinəmə işləyən sərinliyi duyduqca, özümü uzaq uşaqlığımın oylağı olan o qayaların kəlləsində zənn edirdim; küləkli Bakı, aramsız səs-küyü, gurultusu ilə qulağı dəng edən küçələr mənim ruhuma yad idi; dümdüz, qup-quru asfalta baxdıqca, Qonaqlıdakı çala-çuxurlu, otlu-ələfli "aran torpağı"nın, hətta Ortayolda mal-qaranın qaldırdığı tozun qoxusunun, axşamlar göyün qatına gedən tüstülərin qoxusunun həsrətini çəkirdim; ayaqqabımın dabanları asfalt üstündə taqqıldadıqca, bu taqqıltı beynimə işlədikcə Qonaqlının Südüşən çəməni üçün ölürdüm, gözlərim sal divarlara dirəndikcə danışan qayaların xiffətini çəkirdim... Müharibə başlanandan sonra daha yaylağa getmədiyimizə görə Seyid Əli əmimlə baldırıaçıq qızı məni bir ara Ağı unutmuş o körpəliyimə qaytarmışdılar. İndi bu duman içində yenə Ağa, Qonaqlıya getmişdim.

Bəkirin səsinə ayılıb dabanlarımın taqqıltılarını və birdən-birə içərimi qayğı ilə dolduran sözlər eşitdim:

– Nəşriyyata verdiyin povestini maşınkada iki nüsxə yazdırıblar, bir üzünü yeznəmə, bir üzünü də mənə rəyə veriblər. Diksinərsən, diksinməzsən?!

– Nə?!

– Bəli, yoldaş quru bəy!

Bu nə heyrətli gün idi. Hissimi gizlətmədim:

– Deynən batdım də.

– Niyə?

– Nə bilim.. Nə isə qorxdum mən bu xəbərdən. Düzü... O lentlər... İndi də bu...

– Qorxma, qorxma! – deyib o, mənim xoflanmağımın müqabilində ciddi cavab verdi. – Hər halda pis rəy yazmarıq. Yeznəm sənin o povestinlə xüsusi maraqlanıb ey! Canbalayev ha! İşi başından aşan adam. Lap açığı, işi düşdüyünə görə yaxşılıq eləyəcək sənə!

Mən tutuldum.

– Belə... alver?!

Bəkir mənim heyrətimi elə bil heç hiss etmədi.

– Yeznəmin resenziyası hazırdı, – dedi. Bir müsbət rəy var, birini də ki, mən yazmalıyam. Başdan bir az vərəqləmişəm. Səmimidi, yatımlıdı... – gözlənilmədən özü öz sözünü kəsib, mənim sözümü təkrar etdi: – “Belə... alver!” Nə alver?! İşgüzarlıq eləmişik bir az, vəssalam! Necə deyərlər, əl əli yuyar, əl də dönüb üzü yuyar... Yeznəmin sözü olmasın, sənin üzüyün çirki var, yumalıyıq biz o çirki. Yoxsa, bilirsənmi nə olar? Yeznəm bir az deyib sənə. Söz azadlığıyla ehtiyatlılıq barədə.

Onun eyhamlı sözlərində hədə duydum...

Burda bir əhvalat danışmalıyam ki, o dumanlı sentyabr günü “Kürdün kafesi”ndə baş verənlərə aydınlıq gətirsin.

1950-ci ilin yaz kanikulundan Bakıya qayıdanda, o vaxt Kommunist küçəsindəki köhnə binada yerləşən universitetimizin qabağında tələbələr mənə dəhşətli bir xəbər dedilər: “Həbibulla müəllim rəhmətə gedib Nizami muzeyinin səkisiynən üzü o yana gedirmiş, daldan bir maşın çıxıb səkiyə, kişini kül-xınc eləyib. Biz

də indicə bildik... Pasport-zad, heç nə yoxmuş üstündə. Tanıyan olmayıb, Semaşkonun[1] morquna[2] qoyublar. Bir həftə qalıb orda. Sonra bacısı xəbər tutub. Üç-dörd fəhləynən aparıb dəfn eləyiblər. Qəbirinin yerini öyrənsəydin, gedərdik üstünə, ay Rəşid".

Anamın buz əllərini, İsa babanın, Taftının Qonaqlı qəbiristanında "sapmaya"[3] qoyulduğunu xatırlaya-xatırlaya, bütün sifətim göz yaşı içində, gedib Həbibulla müəllimin dəniz kənarına yaxın, dörd mərtəbə bir binanın ikinci mərtəbəsində mənzilinin bağlı qapısını döydüm ki, bəlkə bir möcüzə baş verər, qapını açan olar. Və məhz möcüzə baş verdi. Qıçları dümağ gips içində, qoltuqları "kastil"li – qoltuq ağaclı Həbibulla müəllim qapını açıb, üzümə, göz yaşlarıma baxıb başını buladı: "Gəl, gəl, – dedi. – Ölüm xəbərini Bəkir Səfquliyev yayıb. Sanksiya verilibmiş ki, həbs eləsinlər məni. Sonra fikirlərini dəyişiblər, bax bu hala salıblar... Hamı ölmüş bilir. Hamı. Qara Canbalayevdən, Bəkirdən, bir də həkim Veysovdan başqa. Sən oldun dördüncü... Bəri başdan deyim bil. Bəkir hətta qəbir düzəltdirib, tabut sallayıb, başdaşı qoydurub: "Həbibulla Həqqi. 1898-1950". Yerimə dekan da təyin eləyiblər... Belə-belə işlər, yoldaş Fanatik! Tam məxfiyəm. KQB-nin çox məxfi işçisiyəm. Maaş alıram – "Ministerskaya zarplata!" Sən yalnız gecə saat on birdən, on ikidən sonra gəlməlisən bura. Doktor Veysov gələndə!.. Özgə nə deyim? Bacım həmişəlik köçüb gedib. Hə, saqqalım necədi? Oxşayıram o rəhmətliyə?

– Yox, – dedim, – hətta gözləriniz də dəyişib. Kiçilib elə bil.

– Belə-belə işlər, yoldaş Fanatik! Hətta gözlərim də "dəyişib"sə, deməli, sümüklərim bitişəndən sonra "rəhmətlik" Həbibullanın bu axsaq qardaşı Təbib Həqqi bu mənzilin, bu şəhərin azad sakini kimi küçəyə də çıxacaq, öz ayaqlarıyla gedib maaşını alıb əzizlərilə "Ararat"[4] da vuracaq!...

Bunu da deyim ki, Həbibulla müəllim KQB-də "osobo zasekreçennıy rabotnik" kimi qalmışdı. Bu qeyri-adi hadisənin ikinci bir tərəfi də vardı ki, əziz qohumum mənim öz xəttimlə "dilimdən

---

[1] Doktor Semaşko adına xəstəxana

[2] Ölüxana

[3] Qəbirdən sola qazılan yer

[4] Konyak

iltizam” almışdı ki, “vətəndaş Təbib Həqqi haqqında heç vaxt heç yerdə danışmayacam. Əks halda, özüm, burada göstərilməyən, lakin mənə məlum olan ünvana gedib, bu iltizamı mühafizə edən vətəndaşa öz səhvimi açmalıyam və onun göstərişinə əməl etməliyəm. İmza: Rəşid Fətullayev Ələkbər oğlu.

“Göstəriş bu idi ki, Çürüklə şagirdi Abıdan və Nalədən eşitdiyim gizlin həqiqətlər haqqında sənədli bir povest, ya oçerk, bacarmasam, yarıməqalə, yarıxatirə kimi bir şey yazıb Təbib Həqqiyə verməli idim, “Həqqi”nin redaktəsindən sonra isə, məsləhət görülsə, “Azərnəşrin” bədii ədəbiyyat şöbəsində şöbə müdirinin şəxsən özünə verməli idim...

Getdik, oturduq.

Kafenin lap çoxdan əkilmiş daimi yaşıl həmişəcavan kolları ilə əhatəli genişliyindəki iki cərgə ağ stollardan o yanda, gecələr dəmir qapağı endirilib qapanan bufetin böyründəki dar, uzun dəhliz kimi boş yerin dərinliyində bizim xüsusi stolumuz vardı. Hamının “Kürd” çağırdığı, sol qolu dirsəkdən kəsili, müharibə əlili, Bəkirlə məni görər-görməz, yekə ağzını geniş açıb, çoxlu qızıl dişləri par-par yana-yana, gurultulu səslə:

– Əşi, gəlin çıxın də! – dedi.

Gəlib Bəkirin gətirdiyi zənbildən xırdaca bir çamadan çıxarıb açdı. Mən diksindim: maqnitofon?! Həmin maqnitofon?! Həmin lent?! Niyə? Bu nə üçündü?!

Kürd elə gülə-gülə, gözaltı mənə baxa-baxa, maqintofonu bufetin üstünə qaldırıb, açıb mənə yaxınlaşdı və gülə-gülə Canbalayevin o sualından da gözlənilməz bir sual verdi:

– O təhqiramiz adın əslini bilərsən sən. De görüm, Gədəbəydi, yoxsa Gidi bəy?

Mən fikrimi toplayıb uzaq keçmişimizlə – tariximizlə bağlı olan bu “gədə”, “gidi” ad məsələsini danışmağa hazırlaşana qədər Kürd dedi:

– Gədəbəylilər soruşurlar: bu nə addı belə? Deyirlər: Şura hökuməti qurulanda Qara müəllimin qayınatasına deyiblər: “Get, a bəy”. Sonralar “get” “gədə” olub. Düzdümü bu?

Dedim:

– Yox. Nə “Get, a bəy”di, nə də “Gədə bəy”di, nə də “Gidibəy”. Azərbaycanda bütün şəhər, kənd, dağ, dərə, çay, göl, dəniz – nə

varsa hamısının adı dəyişdirilib. “Gədəbəy” deyilən yer çox qədim yerdi. Adı da tamam başqadı[1].

Kürd elə müəmmalı gülürdü.

– Od OdBağ?

Mən heyrətlənib Bəkirə baxdım, Bəkir də gülürdü:

– Kürdümüzün alimliyi sənin alimliyindən bir az fərqlidi: bu nə yazır, nə də danışır. Çünki, sadəcə, qardaşı Qurban elə bu “Gədəbəy” əhvalatının üstündə Sibirdə çürüyür, özü isə akademiyadan qovulub, gördüyün kimi, bu kafedə çürüyür. Bir-iki saatdan sonra Kürdün həyatından ibrət götürəcəksən.

Mən nə isə təhlükə hiss etdim.

Dedim:

– Başa düşmürəm.

Bəkir dedi:

– Sonra... bu barədə sonra.

Kürd söhbəti dəyişmişdi:

– Xeyli vaxtdı buralarda görünmürsünüz. İndi də camaatın gözünün kökü saraldı sizi gözləməkdən. – Nəhəng, qədim bir sinidə üst-üstə qalanmış nimçələri, tək əllə üçbir-beşbir götürə-götürə taraqqataraq, stollara paylamağa başladı. Mən yalnız indi gördüm ki, kafedəkilərin hamısı milis zabitləri libasında, köhnə yoldaşlarım – “A” qrupunun tələbələri idi. Maqnitofondan İtginimin səsini burda da eşidib özümü itirsəm də, qalxıb, stolların aralarında dolana-dolana yoldaşlarımla görüşüb öpüşdüm. Yerimə qayıdıb, sonralar “A” qrupu əvəzinə “siyasi qrup” adlandırdığımız, milis işinə cəlb olunanlarımızın sifətlərinin tutqunluğuna, hərəkətsizliyinə baxa-baxa, şübhədən, qorxudan tər tökə-tökə, donub qaldım. Sonra nə onlara baxa bildim, nə də Bəkirə. Lent fırlanır, İtginim çalıb-oxuyurdu, danışırdı. Biz isə, hamımız donmuşduq. Ara-sıra qulaqlarıma yoldaşlarımın heyrətlə dolu səsləri də gəlirdi:

– Midiya – Bağday! – BağOdEy?! OdƏr bəşəriyyəti?! Bağ!.. Boğ – Bağ!.. Bağ Atamız?!

– Ay uşaqlar, bəs millətin niyə xəbəri yoxdu bu tarixdən?!

– Millət çox gözəl bilir! Bizik kar-korlar! Təzə nəsil!

– O aşıq qız, bax bu Rəşidin doğmaca əmisi qızıdı.

---

[1] Adları dəyişmək Makedoniyalı İskəndərin zamanından əvvəl başlanıb.

– Sakit! Sakit! Mane olursunuz! – və sairə.

Lent qurtaranda, necə deyərlər, başım keçə kimi idi. Sifətim, göz qapaqlarım yanırdı; əgər məni həbs etmək niyyətində idilərsə, bu qədər adamı bura yığmağın nə mənası vardı?! Min doqquz yüz qırx səkkizinci ildən əlli üçüncü ilə qədər davam edib səngimiş kütləvi həbslər, sürgünlər yenidən başlamalı idisə, bu lentin əldə olması kifayət deyildimi ki, məni tutsunlar? Burdakı bu həngamə nə üçündü?!

Kürdün dediyinə görə, "nemes" reseptli pivə ilə Göyçə gölündən buz içində gətirdiyi "farel" – qızıl balıq Bəkiri "dəli eləmişdi" – "Pah-pah! Dada-duza baxın! Ləzzətə bax!" – deyə-deyə sükutu pozub bar-bar bağırırdı.

Birdən pivə "kruşka"sını stola taqqıldadıb dik qalxdı:

– Kürd! Yüz-yüz araq! – dedi.

Kürd isə:

– Səndən zəhmət, məndən xəcalət, a Bəkir. Dal otaqda pencək var, gətir, çiynimə sal. Hava soyuyanda sümüyüm sızıldayır, – deyib stollara qədəh düzməyə başladı.

Bəkirin "dal otaq" deyilən yerə gedib qayıdıb, tünd abı pencəyi Kürdün çiyninə salıb, ucadan:

– Dolsun qədəhlər, dəyişsin hallar! – deyib sonra nə danışdığını bilmədim: abı pencəyin çiynində "podpolkovnik" paqonları parıldayırdı.

Bəkir böyrümü dümsüklədi.

– Əşi, nə oldu sənə, ay quru bəy? Təzəmi bilirsən ki, bu kafe "dəniz qırağı"nındı və buraya yalnız və yalnız paqonlu paqonsuzlar gəlirlər! Bu gün sənin şərəfinə paqonlanıb hamısı! – çox pis gülürdü Bəkir: hiyləli, şit.

Kürd qədəhləri paylayıb, qayıdıb pencəyi çiynindən o yana – bufetin dalına atdı.

– İstiləndim, əşi, – dedi.

Eyni vaxtda bufetin arxasında uzun, sarı saçları səliqə ilə arxaya daranmış, uzun, sarı sifətli, aramsız əzablardan göyümtül çalan adam görünüb, mənə sarı gözucu baxıb o yana, yəqin ki, "dal otağa" keçdi. Professor?! "Folklorçu professor..?!"

Bəkirin əli bir daha böyrümə toxundu.

– Fikrin məndə olsun! Təzəmi bilirsən ki,"Folklorçu" da buranın adamıdı?!

Sözün açığı qorxuya düşmüşdüm: bu qədər adam tək mənə görəmi yığışmışdı buraya?! "Dəniz qırağı" neyləriydi?!

Bəkir üçüncü dəfə böyrümü dümsükləyib pıçıldamağa başladı:

– Yeznəm tor qurub sənə. Kürd gəlir. Qorxma, Kürd mənə xəbərdarlıq elədi indicə. Səni qorumalıyıq... Tək qalanda ağlayır Təhmasib müəllim, açıq deyir ki, Almaniyaya xüsusi mütəxəsislərə göndərilir, dastanlarımız, rəmzlərdə gizlədilmiş ən qədim tariximizi dəyişdirirlər, "Türk"ü "Türk"ə qarşı qoyurlar. Bu qorxunc siyasətdi, Rəşid... Hə, onu da bil ki, mən yeznəmin tapşırıqları əsasında işləyirəm, incimə məndən...

Onu da deyim ki, "Koroğlu"dan başlamış, lap balaca bir nağıl var: "Göyçək Fatma", bax o nağılcıqaza qədər, hamısının rəmzlərini çıxartmasaydı bu bədbəxt folklorçu, indi bütün millətin Sibirdə olardı, Quru bəy! Səcdə eləməlisən sən "Folklorçuya"! Bəli! Bəs necə?! Xilaskarımızdı "Folklorçu professor"... Bu barədə ətraflı danışarıq.

Sözünə ara verib, astadan, bir az da düşüncəli:

– Burda söhbət tək sənin üstündədi. Sənin xidmətlərin üstündə! – dedi.

Sonra "A" qrupunu qurtaranların hamısının adlarını çəkə-çəkə, bütün qrupun sağlığına içib, Rəşid Fətullayevin sağlığına isə ayrıca içməyi təklif etdi. Niyə?! Çünki:

– Bu, nadir şəxsiyyətdir! Nadirliyi bundadır ki, artıq bildiyimiz kimi, bu vaxta qədər bütün bəşəriyyətin arxivlərə basıb gizlin saxladığı ümumbəşəri həqiqətləri meydana çıxarıb, bu vaxta qədər "Azərbaycan xalqı" adı ilə tanınan, milliyətcə OdƏr olduğuna görə repressiyalara məruz qalan millətimizin həqiqi tarixi haqqında əsər yazmaqdan çəkinməyib! Yazı stolundan zorla qopardıb gətirdim ki, hər il sentyabrın birində kurs yoldaşlarımıza bircə-bircə zəng vurub çağıran bu gözəl insanın gözəl kafesində yenidən tanıyasınız Rəşidimizi...

Bəkirin hər kəlməsi bir daş idi, – başıma daş yağdırırdı:

– Rəşidimiz "Sağ" adında fenomenal əsər yazmış bir fenomendi! "Sak"ın – Sağ"ın OdƏrcəsi AsAğdı – Yaradan SafAğ İnsan! Dünya tarixində təhrif "Sak" adı ilə tanıtdırılan, OdƏrlikdən uzaqlaşdırılan ƏsAğlar məhz OdƏr xalqına mənsub olan saysız-hesabsız "Aşıq"larımızın rütbəsidir. Dövlətimizin, xalqımızın qədim dünyaya məlum çağlarında yaşayıb yaradan ƏsAğlarla indi küncə-bucağa qısılmış gizlin ustad "Aşıq"larımızın arasında fərq azdır. Bəli, yaşayır ƏsAğ – Yaradan SafAğ OdƏr!.. Siz respublikamızın çağırışı

ilə ixtisasınızı dəyişdiniz, şərəfli Sovet milis orqanlarında şərəfli siyasi əməkdaşlar oldunuz. Bilməlisiniz ki, bu antitürk zəmanəsində dövlətimizin yuxarı mərtəbələrinə soxulmuş antitürk elementlər, biliksiz, mədəniyyətsiz bambılı aşıqsayağı adamları ələ alıb, alim ƏsAğların əleyhinə qoyublar, siz bundan xəbərsizsiniz. Aranızda bir mənəm indi imkanım daxilində ədəbiyyatçı olan, bir də bu fenomenimizdi ki, deyəcəm indi, görün nələr eləyib!

Mən özümdə deyildim. Əmma deyiləni eşidirdim:

– Avropadan, Amerikadan, Böyük Britaniyadan başlamış, Çinə, Yaponiyaya qədər bütün alimlər bir dilemma qarşısında acizdirlər: necə olub ki, bəşəriyyətin mədəniyyətsizlik zülmündə boğulduğu zamanlarda Qresiyada mədəniyyətin bütün sahələri çiçəklənib? Dramaturgiya! Poeziya! Fəlsəfə! Arxitektura! Və sairə. "İlliada", "Odisseya" müəllifi nəhəng Homer hardan, necə, hansı özül üzərində yaranıb?! Adını ilk dəfə mərhum Həbibulla müəllimin dilindən eşitdiyimiz, Həbibulla müəllimin tərcüməsində oxuduğumuz nəhəng şair Esxilin "Persi" – "Farslar" dramı necə yaranıb?! Həmin nəhəng Esxilin "Zəncirlənmiş Prometey" adlı heyrətamiz poeması necə yaranıb?! "Persi" dramının məzmunu niyə sətirbəsətir səmadan eşidilir və bu səmadan eşidilən səsin sahibinin adı niyə türkcə Gurdur?! Yaşı məlum olmayan Kainat sakini qoca Gurun səsi niyə "Persi"ya adlanan ərazidə yox, Bağdayın mərkəzi "Akbatan"ın – Ağ batanın darvazası qabağında eşidilir?! O darvaza qabağı OdƏrcə ƏsÜz – Yaradan məna ikən Qreqlər onu niyə "suz" adlandırıblar?! Suriyalıların Qreklərlə birlikdə, dəfələrlə dağıtdıqlarına görə türkcə "Ağ batan" adlanan şəhərdə Ağlar – SafAğ insanlar – OdƏrlər yaşadığı halda Esxilin dramı niyə "Persi" adlanır?! Dramın ən qədim variantında qoca Gurun səmadan eşidilən Gur ünü sonrakı əsrlərdə niyə pozulub, əvəzinə qrekcə "xor" yazılıb?

Aydındırmı iş nə yerdədir?

Yadınızda olar, Ellin mədəniyyəti haqqında danışanda Həbibulla müəllim müəmmalı bir şey dedi: "Elli"n (Əlün) sözü türk mənşəlidir. Mühazirə qurtarandan sonra tənəffüsdə başına yığışdıq, yalvardıq izah eləsin ki, "Ellin" niyə türk mənşəlidir?" Həbibulla müəllim dedi: "Mən antik ədəbiyyat mütəxxəsisi deyiləm. Hərdən professor Əli Sultanlını əvəz eləyirəm, çünki bilirsiniz başqa yerlərdə də mühazirə oxuyur o. Gedin soruşun Əli müəllimdən, özü izah eləməsə, izn versin

mən bildiyimi deyim”. Nə oldu? Əli müəllimin göy sifəti daha da göyərdi, qaraldı. Nə dedi? “Gedin deyin, “Türk” sözünün özünün mənşəyini izah eləməyə cəsarəti çatırsa, “Ellin”i də izah eləsin”. Yəni müəllimlərimizin ikisi də siyasi mülahizəyə görə susdu.

Rəşidimiz isə, heç nədən çəkinmədən birbaşa yazıb: “Ellin mədəniyyəti Bağdayın ƏrEy vilayətindən tərik salındıqlarına görə “Tərik”an və “Türk” adlandırılan EvƏrEy OdƏrlərinə, yəni ən qədim “Türk”lərə – “Yevreylər”ə mənsub olduğu halda Qreklərə aid edilməsi Qreklərin fatehliyi ilə bağlıdı. Planetimizin geri sananan əlliminillik tarixinin otuz mininci illərindən başlayaraq Qreklərlə Suriyalıların – Asoruların Bağdaya, başqa sözlə, indiki “Rey-ƏrEy, “İraq” – ƏrAğ, otay-butay Azərbaycan, Türkiyə ərazilərinə aramsız basqınları həmin tarixin beşinci əsrinə qədər davam eləyib, nəhayət, yeni tarixin dördüncü əsrində bütün Bağdayın fəthi ilə nəticələnib, Sarlarımızdan biri təhrif adla “Atilla” adı ilə tanınan OdƏl, əhalinin çoxunu Sibirə aparıb, bir əsr meşələrdə saxlayıb. Bu arada Bağday İskəndər Zülqərneyinin satranları arasında parça-parça, ayrı-ayrı xanlıqlarsayağı olub. Həmin zamanlardan OdƏrlər – “Tərik”an – ”Türklər” planetin müxtəlif ərazilərinə səpələnib, yalnız yeni tarixin yeddinci əsrindən başlayaraq vətənə qayıtmağa başlayıblar. Bu barədə ən etibarlı rus məxəzləri, Qrek-latın, ərəb, fars məxəzlərində, əsasən, çox yazıblar: “Naçinaya s sedmoqo veka turki naçali vozvraşşatsa na svoyu iskonnumu rodinu”. Yəni Bağdaya – “Midiya”ya. Dramatik dialoq şəklində yazılmış “Sağ” povestinin tarixçi, şərqşünas, dilçi qəhrəmanlarının gəldiyi nəticə budur: Ellin mədəniyyəti OdƏrlərə – Türklərə” aiddir. “Ellin “sözünün əsli – OdƏrcəsi ƏlÜndür”. Nə deməkdir bu “ƏlÜn? Povestin əvvəlində ortalığa qoyulan bu sualı oxuyanda professor Əli Sultanlı ilə Həbibulla müəllim və Rəşidimizin “beyinsiz küt kütlə” adlandırdığı “A” qrupu tələbələrini xatırladım. Heç kəsin xətrinə dəyməsin. Mühazirələrin konspektlərini əzbərləməkdən savayı neylərdik? Küt kütlə deyiliksə, Rəşidimizin o vaxtlar üzümüzə dediyi “özünüzü tanımırsınız” sözlərini də qanmayıb, heç inciməməyimiz nədi?! Rəşidimiz elə o vaxtlar deyirdi: “Millilik – ümumbəşərilikdir!” Niyə? Çünki, demə, bəşəriyyətin kökü vahid imiş və Rəşid elə o vaxtlar gizlin dərs ala-ala yazırmış ki, Ellin mədəniyyəti ocağının dibində ilk dramaturq sayılan “Esxil” adında şair heç də dramaturq olmayıb və Qresiyada yox, Bağdayda doğulub,

Bağdayda da yaşayıb. “Bağday” adı “Midiya”ya döndərildiyi kimi, ƏsAğƏl də “Esxil”ə döndərilib. “Sağ” povestinin bu yerində qəhrəmanlardan biri – ədəbiyyatçı Rəşid gülüb söhbətə müdaxilə eləyir: “A kişilər, “Kür” çayının adını Rus niyə “Kura” yazır? “Araz” çayının adını niyə “Araks” yazır? Sonra başlayır izah eləməyə ki, Qazax şəhərilə indiki Marneulinin arası maşınla bir saatlıq yoldur, əmma Qazaxda “Sadıxlı” deyirlər, Marneulidə “Sadaxlı”. Qədim Bağdayda isə nə “Sadıx” olub, nə də “Sadax”, qəşəng OdƏr sözü olub: ƏsOdAğ. Yəni SafAğ İnsanın – Ağın Yaradan Odu-həqiqəti. Diqqət yetirin, deyir, Rəşidimiz, görün bəşəriyyətimiz, o cümlədən, bu bədbəxt millətimiz sözün həqiqi mənasından necə uzaqlaşıb, necə mexaniki, saxta danışır! Sübut edir Rəşidimiz, ƏsOdAğ, ƏlAğın, yəni “Allah”ın, həmincə qoca Gurun Yer planetində Əli olub. “Qreq” “Astiaq” yazır, ƏsOdAğ deyə bilmir. Bunu dönə-dönə təkrar edir, deyir dərk edin ki, şair ƏsAğƏl ƏlAğın (Gurun) Əli olub. Yəni Gurun Ününü eşidib, yazıb, Bağdaya yayıb. Kim oldu indi ƏsƏlAğ? – soruşur Rəşidimiz; Bağdır ƏsƏlAğ deyir. Ün eşidən və Ün vasitəsilə insanı insana bağlayan Bağ! Rəşid Fətullayev “Sağ” povestində yana-yana, qışqıra-qışqıra, dönə-dönə təkrar edir ki, dünya haqqında həqiqətlərdən məhrum olan fatehlər, OdƏr həqiqətini köklü-köməçli məhv etmək, Bağsız[1], yəni guya azad yaşamaq üçün Od (həqiqət) sözünü “at”la, “ki”lə, OdÜn (həqiqət Ünü) sözünü “ki ün”lə – “kon”la əvəz eləyiblər və müsibətimizə baxın ki, əsli OdƏs (Yaradan od) olan “Odisseya” dastanında AğEyləri (Uca SafAğ İnsanları) ərəblərin indi dedikləri kimi, “Əxi”yə – “Axey”ə çeviriblər, Axeyləri qreklərin öz adı kimi qələmə veriblər. Dastanı beləcə, qrekçəyə tərcümə eləyə-eləyə, dəyişdirib gülünc şeylər yazıblar: Axeylər, “Troya” (OdƏr) Ey şəhərinə “kon” – “at” heykəli içində hücum eləyiblər! “Troyanı” tutan Qreklərdən yox, “Troya”lılardan – OdƏrlərdən almaq üçün “OdÜn”lə (həqiqət Ünü ilə) yox, “Kon” – heykəl içində gediblər! Bütün bəşəriyyətimiz də inanır bu gülünc əfsanəyə! Rəşidimiz yazır ki, “Axilles”ə döndərilən AğƏlƏs qılıncla yox, məhz OdÜnlə qalib gəlib. “Kon”la, “at”la yox! Yəni danışıb OdƏrləri inandırıb ki, biz – “Axeylər” də SafAğlarıq”! Nələr var, əzizlərim?! Məlum olur ki, Sar “Odissey” – OdƏsEy müharibədən sonra itkin düşməyib, əksinə,

[1] Müasir Türkiyədə “Bağımsız” deyilir; “azad”, “müstəqil” mənasında

Qressiyanın fəth etdiyi əraziləri gəzə-gəzə, “donuz kimi xortdayan”, yəni Gür əvəzinə “xor” deyən yoldaşlarını, OdÜnƏs ikən “donuz”a döndərilən “xoruldayanları”nı azad edib. Buradan özünüz nəticə çıxarın: dastanın birinci yarısı “İlliada”da Qreklərin deyil. Hər iki dastan, əslində vahid dastan olub. “İlliada”, “Odisseya” yox – “ƏlEyOd, OdƏsEy”. ƏlEyOd – uca Əlin həqiqətidir. Yəni kimin? Qoca Gurun – Bağ Atamızın. OdƏsEy isə Uca yaradan həqiqətdir, yəni ÜnƏsdür və Sar (hökmdar) OdƏsEy belə bir rütbə sahibidir.

Qrekcə “Homer” tam mənasız, təhrif sözdür, əsli HəmƏrdir (vahid İşıq!). Bu Vahid İşığımızı – HəmƏrimizi İskəndər Zülqərneyin söndürüb. Bağdayı fəth eləyib satraplarının arasında bölüşdürəndən sonra, indi rusların “Aleksandriysı” adlandırdıqları yüz nəfər alim-şairin əli ilə mədəniyyətimizin ən görkəmli nümunələrini qrekcəyə tərcümə etdirə-etdirə qrekləşdirib, daha doğrusu, həm də hərbiləşdirib. Elmdən məhrum macəralara çevirtdirib. Qəribədir ki, Qreklər bu dastanı “Midiya” ərazisindən, xalqın dilindən yığıb yenidən yazdıqlarını heç də gizlətməyiblər! Fateh harınlığıdı bu!

“Esxil”dən – ƏsAğƏldən sonra ikinci dramaturq sayılan şairimiz SafAğƏlin “adına” baxın: “Sofokl”! SafAğƏlin ən məşhur dastanı “Sar OdEvin” adına baxın: “Sar Edip!” Sar OdEv – Həqiqət Evinin Sarı nəyə çevrilib?!

“Esxil”dən – ƏsAğƏldən – “Sofokl”dan – SafAğƏldən sonra üçüncü dramaturq sayılan EvƏrEy EvOdun (“Evripid” in) ən məşhur dastanı BağOdEyin (Bağdayın) adına baxın: “Medeya!”

Bütün dastanlar bəşəriyyətin adı ilə “OdƏr” janrında imiş, “OdƏr” – “KiƏr” – “kor” eləyiblər, əsərləri “kor dastanları” adlandırıblar! Belə kor olub xalqımız! Axıcı, gözəl, sehrli, sadə sətirləri oxumağı xoşlamayıblar fatehlər, “OdƏr”i “dram”a – tamaşaya çeviriblər. Rəşidimiz belə xəbərdarlıq edir: planetimizdə müharibələrin şiddəti insanı oxumaqdan, təhsildən, bilikdən məhrum edə bilər, səhnəyə qoyulan tamaşalar isə əhalinin kiçicik bir hissəsini əhatə eləyər, qalanlar – icmalar bəsitləşər, dünyadan xəbərsiz olar!

Olmayıbmı?! Kimik biz?! “AzƏr” nədir, ey adsızlar!

Adlarını çəkdiyim şairlərdən sonra əslən Qrek dramaturqlar yaranıblar, hamısı biri-birindən zəif! Lap zəif ey! Bu daha mənimsənilmiş mədəniyyət deyil, bəsit insanın bəsit mədəniyyətidir! Qrek fəlsəfəsinin zirvəsi Platonun korluğunu Rəşidimiz bircə cümlə ilə deyir:

EvƏl OdÜn adından azan “Platon” Yer planetindəki Ün eşidən Bağları sərfnəzər edib deyir: “Gözəllik dünyanın (yəni Yerin) xaricindədir”. Ün eşidənlərimiz kainatdan aldıqları məlumat əsasında yaradırlarsa, Yerdəki bu gözəllik “dünyanın xaricindədirmi?!” Dəhşətə baxın ki, özləri kor olanlar bəşəriyyəti kor eləyiblər!

Nəticədə Rəşidimiz qışqırır: mifdən yaxa qurtar, ey OdƏr – vətənindən, dilindən tərik “AğTürklər”, “Kürdlər”, “TütTatlar”!..

Az-çox tanıdınızmı kimdir bu adam?

Gizlətmək istəmirəm sizdən: “Sağ” povesti haqqında məlumat çatıb müəyyən yerlərə, hətta Xruşşovun qulağı alıb, deyib: “Azerbaydjansı moqut vzyat vlast”.

Çox danışdığıma görə üzr istəmirəm. Bugünkü toplanışımız bilirsiniz ki, mənim xahişimlə təşkil edilib. Məqsədim sizə belə bir məlumat vermək və hamınızı vətənimizin bir alim oğlunun müdafiəsinə qaldırmaqdır! Biliyini xalqdan alan Rəşidi müdafiə edən çekist xalqını müdafiə edir!

Bir də içək Rəşid Fətullayevin sağlığına! Ura, əzizlərim!

Bəkir pivə ilə dolu “kruşka”nı başına çəkib qışqırdı:

– Ay Kürd, hardasan, noxud ver!

Kafeyə uğultu düşmüşdü. Diqqət yetirdim ki, nəinki “ura” qışqıran, heç içən də olmadı. Necə deyərlər, nitqim tutulmuşdu: yazı stolu arxasında özünü “Herakl” – ƏrAğƏl kimi hiss edən Rəşid Fətullayev, ən rəzil bir qorxaq kimi, başı köksündə, dirigözlü ölə-ölə kafedən çıxdı.

Lap sonralar bildim ki, “Kürd” “kliçka” imiş. Əslində o, “Qarabağ”dan – GurBağdan imiş; min doqquz yüz otuz yeddinci ildə Sibirdən “iz kolonii smertnikov”dan – “ölümə məhkumlar koloniyasın”dan Jdanovun adına böyük, elmi məktub-traktat yazıb, sübut edib ki, bütün planetdə, o cümlədən, bütün Rusiyada “Rus”, “Russkie”, “Tatarı”, “Başkirı” və s. adlanan xalqların hamısı “Ray”dan – “Reydən” – Ev ƏrEydən pərən-pərən olub tərik düşmüşük. EvƏrEy OdƏrləridir; “Kürd”ün təxmininə görə Stalin bu tarixi bilirmiş və ən mahir – bir nömrəli Qrek casusu kimi, bütün planetdə EvƏrEylərin – “Yevrey”lərin məhvində maksimum fəal iştirak edirmiş, buna görə də Jdanova deyib: “Ya o “Kürd”lə bu

əsərini və Jdanovu öz əlinlə məhv et, ya da o “Kürd”ü maksimum konspirativ əməkdaşımıza çevir”. Bəkirin dediyinə görə, “Kürd”ü qaytardıqdan sonra Jdanov çox müəmmalı şəkildə ölüb.

Bulvarın lap xəlvət guşəsində, sıx-sıx əkilmiş çinar ağaclarının aralarında skamyalardan birində oturmuşdum. Bəkir necə gəldisə, həmişə xışıldayan plaşının xışıltısını da eşitmədim, bir vaxt ayılıb gördüm böyrümdə qıçını qıçının üstünə aşırıb “Koroğlu” çəkir.

Dedi:

– İndi daha diqqətli ol, Quru bəy, gör qulaqların nələr eşidəcək... Demə, Kürd sənin ətrafında qurulan tor barədə Həbibulla müəllimə çatdırıb. Və hətta “Sağ” haqqında müsbət rəy yazıb. O rəydə elə cümlələr var ki, istər-istəməz coşuram, ürəyim qürurla çırpınır: “...Bağdayın birinci vilayəti ƏrEyin daxilində biri-birindən xeyli fərqlənən iki bölgü olub: EvƏrEy – “Ray” OdƏrləri və EvƏrƏs OdƏrləridi. EvƏrƏslər (qrekcə “Pers”lər) Qreklərə daha yaxın olublar və Qreklər Bağdaya hücumlar zamanı həmişə “Pers”ləri öz tərəflərinə çəkməyə çalışıblar, çox vaxt elə birgə döyüşlərinə görə Qreklərin nəzərində “Midiya”lılar – OdƏrlər məhv olublar, ərazi guya elə “Pers”lərdən ibarət olub. Maraqlı sual törəyir ki, “Pers”lərlə çox tez-tez əlbir olan Qreklər müasir zamanımızda da eyni siyasəti işlətmirlərmi? Hanı Arazın o tayında, İraqda əlli milyon OdƏr?! Adı niyə pozulub o bədbəxt “Türk”lərimizin?! Qreklər, farsların vasitəsilə Rusiya ilə daimi əlaqə saxlayırlar, Rusiyanın əli ilə Bağdayı həm ərazi, həm də tarixi cəhətdən məhv edirlər ki, Yer üzünün bu ən qədim ölkəsi bir daha öz möhtəşəmliyini bərpa edə bilməsin, yaxın şərq ərazilərində və bütün planetdə hegemon Yer Bağları həmişəlik mif qalsın!.. “Kürd” belə “kürd” imiş, quru bəy! “Kürd”ün traktatındandı məni belə qanadlandıran fikirlər.

Deмək, “Sağ”dan fərqli olaraq, traktatda və o rəydə daha aydın göstərilib ki, Kainat Bağlarının, yəni yaradıcı Bağların Ünündən informasiya – məlumat alıb Yerdə Ünü yaymaqla məşğul olan Yer Bağları, Ünün ən ümdə müddəasını tez-tez təkrar edirmişlər: “Bağın” insana, insanın insana təzyiqi Yeri kainatdan ayırır, Yerin kainatdan ayrılması isə nəinki xalqla xalq arasında, hətta fərdlə fərd arasında mənəvi uçurum yaradır!..

Bəkir bunları niyə açdı? Bilmirəm. Mən Bəkirlə özümün aramızda duman görürdüm, uçurum duyurdum.

Dedi:

– Bəzi çox vacib şeyləri qəsdən demədim. Povestin dialoqlarının ən dramatik yerlərinin birində yazırsan ki, Rus tərcüməçiləri əsərləri qrekcədən tərcümə eləyəndə həmişə heyrətlənirmişlər: "Oşuşşaetsə nesootvetstvie. Tut vsesobıtiya proisxodyat v Midii vmeste s yeqo izvestnoy stolitsey Akbatan. A ved Akbatan nikoqda ne bıl stolitsey Persov". Sonra təxminən belə deyirlər ki: "Po istorii Midiya çerez Dardanel ne nastupali na ostrova Qrekov. A tut budto ne Qreki, a Akbatansı postroili most çerez Dardanel..." Tarixlə düz gəlməyən "ne sootvetstvuet" faktları ruslar çox çalışıblar düzəltsinlər, mümkün olmayıb. Çünki əsərlərin hamısında, xüsusilə "Persı"da, bir də "Zəncirlənmiş Prometey"də Qreklərə nifrətdən açıqca görünür ki, müəlliflər OdƏrlərdi.

Ruslara nöqsan gətirən psevdodüzəlişləri desəydim, səni "pod udar" qoyardım, Rəşid. Düzdü?.. Qreklər deyirlər, Sofokl guya özü də tamaşaya qoyub öz "dram"larını. Ruslar isə yazırlar ki, tarixdə Sofokl dramlar yox, dastan – poemalar yazıb. Onun vaxtında teatr olmayıb və "Sofokl" dastanlarının heç birini tamaşaya qoymayıb.

Avropa tərcüməçiləri də yazıblar bunu. Qreklər tərəfdən səs çıxmayıb.Yəni heç nəyə etiraz eləməyiblər.

Bunları mən kafedə demədim. Ümumiyyətlə, bir az tələsdim. Çünki Kürd yanımdan keçdikcə pıçıldayırdı ki, "dal otaqda böyük adamlar var, çox uzatma..." Heyf, çox şeyi demədim. Məsələn, dastanlarda Gurdan başqa, OdƏrlərimizin Yer Bağlarının adları var.

Dastanlarda qoca Gur özü Yerə enib, fəzada dayanır "dram"larda isə "Dara" enir. Halbuki tarixdəki "Dara" o uzaq tarixdə yox, İskəndərin zamanında olub. Həm də "Dara", OdƏr adlanıb. Necə ki, OdƏr dili "Dər"i adlanıb (başqa dillərdə "Dari"). Ruslar bunun üstünü vurmurlar, sən açıb tökürsən. Yəni Rusları falsifikator sayırsınız. Düzdü?.. Açıq-aydın yazırsan ki, dastanlar Avropa dillərinə tərcümə olunanda, hər yerdə EvƏrEy OdƏrlərini pozub, əvəzinə EvƏrƏs – "Persı" yazıblar. Ruslar bunu bilə-bilə Avropa tərcümələrindəki falsifikasiyanı saxlayıblar – özləri yazırlar bunu. Yəni "Midiya"nın – Bağdayın üstündən qələm çəkiblər. Vatikan belə buyurub. Çünki "Midiya"nın bərpası heç birinin xeyrinə deyil. Öz xristianlarına mən

bu barədə danışmadım... Yazırsan, İskəndər Bağdayı parçalayanda bizim bu tərəfləri “Atro Patan” yazdırıb. Yəni HəmOdÜnü “Ağ batan[1]” yazdırdığı kimi, ölkənin bu hissəsinin adı “OdƏr batan” qoydurub. Ruslar bunun da üstünü vurmurlar. Mən bunu da demədim. Qısası, kafedə mən səni xilas elədim, Fanatik! “Saq”ı verməyəcəyik bu siyasi yoldaşlarımıza. Mənim məlumatımla kifayətlənəcəklər. Kafenin dalındakı o “böyük” adamlar barədə isə Həbibulla müəllimə deyəcəm, özü danışsın onlarla.

Sən qiymətləndir mənim bu xidmətimi, fanatik!

Diqqətlə üzünə baxdım. Əmma hərdən Bəkirin ürəyini üzündən oxumaq çətin idi; gözləri gülür, qaynayırdı.

– Əsər çıxandan sonra kəfəni boğazıma dolayıb, mübaliğə olmasın, lap Belinskisayağı bir məqalə yazacam, – dedi.

– Xoşbəxtsən, Fanatik! – dedi.

Sonra elə bil birdən-birə üzündən bir maska götürüb başqasını taxdı. Mən əvvəllər də Bəkirin qanının qara vaxtını görmüşdüm. Belə hallarda, yəni gözləri ciddiləşəndə son dərəcə kədərli olurdu.

– Açığı, hissiyatımda bir az haçalanma var, Rəşid! O cür nitqdən, elə tostdan sonra məni stolun dalında tək qoydun! Dinməz-söyləməz durdun çıxdın!.. İstəyirəm açıq danışaq. Uzun illərin yoldaşlığına, mən tərəfdən səmimi dostluğa baxmayaraq, bilirəm ki, məndən xoşun gəlmir. Doğrudur?

Bu cür söhbətlərə mən o qədər də alışmamışdım; əvvəlcə tutuldum, hətta qızardığımı hiss etdim. Əgər bu, təsadüfi bir sual olsaydı, mən bəlkə də ürəyimin səsini boğmağa çalışıb, aramızdakı pərdəni qaldırmamaq xətrinə başqa cür cavab verərdim. Əmma başa düşdüm ki, Bəkir belə bir ciddi söhbəti heç də əbəs yerə başlamır. Odur ki, açıq və kəsə cavab verdim:

– Doğrudu, – dedim, – sən çox müəmmalısan, Bəkir, çox!

– Atan rəhmətlik! – Heç bir inciklik göstərməyib başını qaldırıb saldı.

Mənə elə gəldi ki, “müəmma”ların məhz nədə olduğunu soruşacaq və məni açıq danışmağa sövq edəcək. Və bununla, bəlkə də aramızda hər şey qurtaracaq.

---

[1] SSRİ dövründə “Atropatan” yazılıb, bu falsifikasyanı hələ də qoruyub saxlayan “milli” alimlərimiz var.

Əmma heç nə xəbər almadı.

– Atan rəhmətlik. Qalx, gəzinək, – deyib, məni bulvarda yaşıl-qırmızı-alabəzək skamyalar boyunca çəkdi. Asta-asta danışırdı: – Mənim də sənin bəzi xasiyyətlərindən xoşum gəlmir, açığı. Sən mənim nöqsanlarımı gözümün içinə demirdin. Lazım da deyil: özüm özümü hamıdan yaxşı tanıyıram. Sənə gəlincə, demək istəyirəm. Sən, Rəşid, nə qədər geniş düşüncəli, əsl mənada fenomen olsan da, incimə, tısbağa kimi, çanağına çəkilmisən, kirpi kimi yumrulanmısan, üzünü göstərəndə də dilini tərpətmirsən. Bu bir. İkincisi, həyatın zövqünü ancaq batraq kimi işləməkdə görürsən. Qısası, birtərəfli adamsan, əzizim. Xalq, həqiqət uğrunda döyüş, əmma özünü qurban vermə, fanatik! Mən istəyirəm, sən bircə şeyi dərk edəsən: həyatda özünü ancaq ideal adamlarla əhatə etməyə çalışsan, tək qalarsan. Çünki həyatda nə absalyut müsbət var, nə də absalyut mənfi. Hər şey nisbidi, Rəşid. Bu da düzdü? Düzdü!

Barmaqlarının arasında fırlatdığı ikinci papirosu damağına alıb yandırdı. Kibritin alovu gözlərində əks etdi. Çünki hava qaralırdı. Bir cüt soyuq işıltı bir müddət təsəvvürümdən getmədi, çünki kibriti alışdırdığı anda Bəkirin üzü dənizə tərəf idi, gözləri isə mənə sarı çevrilib diqqətlə sifətimə dikilmişdi. Bu çəpəki nəzər də mənə çox müəmmalı və sirli göründü. O isə, yəqin ki, mənim bu baxışlar altında özümü yaxşı hiss etmədiyimi duyub, birdən qımışdı:

– Deyəsən, yenə xoşuna gəlmədim, ey absolyutizm fanatiki! Absolyut müsbət müəllimimiz Ellinizm haqqında o sözü deyəndə eyhamını qanırdıq. Əmma başqaları da qanırmışlar. Yazığın başına elə iş gətirdilər! Aramızda qalsın, sui-qəsd eləyiblər axı! Sən heç ehtiyatlanmırsanmı ki, sənnən bərabər sənin resenzentlərin Qara Canbalayevlə Bəkir Səfquluyevi də incidə bilərlər?

Fikrimi cəmləməyə çalışdım.

– Bilmək olmazmı bütün bunları nəyə görə soruşursan? – dedim. – Sən heç hiss eləmirsənmi ki, ziyalılarımızda milli şüur oyanışı var? Mən tək deyiləm!

“Koroğlu”sunu sümürdü.

– Əlbəttə, tək deyilsən, Həbibulla müəllim bəsdi ki, səni qorusun təhlükələrdən. Əmma... necə deyim ey! Özündən müştəbehsən deyim, ya çox eqoistsən deyim? Çox gizlinsən ey, Rəşid! Əmma əsərin əllərdə gəzir. Ziddiyyətlisən. Özünü tay-tuşundan,

tanış-bilişindən təcrid eləmisən! Sənin nəzərində, bizim ziyalıların arasında Həbibulla müəllimdən başqa müsbət adam yoxdu.

Mən qəti etiraz etdim:

– Düz deyil! – dedim. – Mən sadəcə, başqalarıyla o qədər yaxın olmamışam. Həbibulla müəllimi isə doğrudan da çox istəyirəm.

Papirosunu sümürüb, eyni diqqətlə gözlərimin içinə baxdı.

– İnanıram. Qohumluq hissi... – deyib yenə qımışdı. Bir də ki, məlumdur, fanatiklərin nifrəti də böyük olur, məhəbbəti də. Əmma onu da bil ki, bütün fanatiklər kimi, sənin də gözündə pərdə var. Sən mənə nifrət eləyirsən, quru bəy! Bəli! Şərt kəsmişik ki, açıq danışaq. Özün gördün ki, mən səni işdən-gücdən ayırıb bura ancaq hava almağa gətirməmişəm. Səndən iki böyük xahişim var, Rəşid. Birincisi, elə Həbibulla müəllimlə əlaqədardı. "Özündən də çox istədiyin" adamla... Sənin qohumun mənim məqalələr məcmuəmin çıxmasına mane olur. Qlavlitə zəng vurub deyib ki, "mən bu kitabın çıxmasına qəti etiraz edirəm: çox lovğadı"! Bilirsən də, onun da sözü sözdü, o saaat dildən-dilə gəzib ki, bəs filan şey haqqında filan yerdə belə deyib Təbib Həqqi. Köhnə yoldaşlığımızın xatirinə, sən gərək bu işdə mənə kömək eləyəsən. – Son sözləri deyəndə Bəkir barmaqlarının ucunu çənəsinin altına aparıb, elə səmimi xahiş etdi ki, bir az əvvəlki hökmlü danışıq tərzi ilə indiki görkəmi arasındakı təzaddan təəccüblənməyə bilmədim. Həbibulla müəllimin məqalələrə etiraz etdiyinə gəlincə, bu, məni daha çox təəccübləndirdi. Axı, əvvəllər bizim ikilikdə söhbətimiz zamanı o, Bəkir Safquluyevin yazılarına müsbət münasibət bəsləyirdi. İndi birdən-birə nə olmuşdu? "Lovğa!.." Bəlkə Bəkir öz kitabında bayaq kafedə danışdığı, yəni "Sağ"dan öyrəndiyi tarixi faktlar barədə "lovğalıq" eləmişdi: milli lovğalıq?! Bəlkə, hətta Rus tərcüməçilərinin falsifikasiyası barədə də yazmışdı?

– Elə deyil, – deyib, məni dinləyəndən sonra yanıqlı-yanıqlı ah çəkdi. – Məsələnin kökü dərindi, əzizim.

– Nədi axı?

– Müəllimimizin yeznəmlə arası dəyib.

– Niyə?

Dedi:

– Orasını özü daha yaxşı bilir. Yeznəm çox yayır "Sağ"ın məzmununu. Niyə?.. Bilmirəm.

Soruşdum ki, Canbalayevin yaymağı şübhəli olsa da, mənə görə sənə pislik eləyir? Yəni Təbib Həqqi o qədər xırda adamdı?

– Başqa səbəb yoxdu.

– Ola bilməz! Heç cür ola bilməz! – dedim. – Əgər yeznən mənim kəşflərimi pis niyyətlə yayırsa, səni də bu işə cəlb eləyirsə, açıq yazar Həbibulla müəllim. Bunu sən özün də çox gözəl bilirsən.

– Elə bildiyim üçün də heyrət eləyirəm və səni köməyə çağırıram, əzizim! – Bəkirin səsi yenə də çox səmimi çıxdı. – Mən başqa cür də hərəkət eləyə bilərəm. "Sağ"ı lap təhlükəli millətçilik adlandırıb mətbuata vermək olar. Ancaq istəmirəm sənin, Həbibulla müəllimin adına ləkə gəlsin. Köhnə kadrlar sürgünlərdə çürüyüblər. Onlardan sonrakılar "Oktyabr, Lenin" deməkdən cana doyublar, danışırlar! Xəbərin varmı ki, Ruslar özləri nə qədər deyirlər bizim haqqımızda: "Dvuruşniki vse oni! Mı toje sıtı po qorlo! Nado osvejat literaturu v respublikax!" Budu bax!

Gör necə təhlükəlidi! Yeni repressiya başlanar ey! Səndən xahiş eləyirəm, ünsiyyətimiz xatirinə, ona bir balaca işarə elə. Səni doğma qardaş kimi sevir, dünyasında yerə salmaz sözünü. Nə deyirsən, söz verirsənmi?.. Yenə açıq deyirəm. Gördünmü, hara qaldırdım əsərini?!

Mən mat-məəttəl gözlərimi döyürdüm.

– Bu səhərki – evdəki həngamə elə buna görəydi?! Sənin kitabına görəmi səsləndi o maqnitafon?! Üstəlik, Göhər xanım hədələdi məni: "tutdurarıq"-filan.

Bəkir sərt qətiyyətlə:

– Sarsaqlama, mən ölüm, Fanatik! Başqa işimiz də düşüb sənə, – dedi. – Çox ağır işdi. Sən çiynini işin altına verməsən, Həbibulla müəllim məhv eləyəcək Qara Canbalayevi! Əmma bu barədə sonra! Sonra! Bəlkə də özləri danışarlar.

Qulağıma uğultu gəldi. Şəhərin uğultusu. Nədənsə, sıxıldım, yenə Sudüşən çəmənini, meşəni xatırladım. Könülsüz, dodaqucu təkrar etdim ki, məqalələr kitabı barədə danışaram Təbib Həqqi ilə. Bir şərtlə, Bəkir onu intriqa adamı saymasın və bu barədə bir də danışmasın.

Bəkirin üzü sərtləşmişdi. Gözləri narahatlıqla bulvarla dəniz səmtinə, tək-tək uçuşub harayasa, uzaq sahillərə gedən qağayılara, "dəniz gəzintisi" körpüsünün sağ-solundakı hərəkətsiz katerlərə tərəf baxırdı, əmma, deyəsən, heç nə görmürdü.

Mən hələ bilmirdim ki, bu bir saatlıq-saat yarımlıq görüş zamanı onda hələ çox qəribəliklər – müəmmalar meydana çıxacaq.

Duman altında ləpələrinin şırıltısı eşidilməyən sakit dəniz səmtlərinə xeyli baxandan sonra, birdən dönüb çiynimdən yapışdı.

– Ayaq saxla! İndi daha ciddi bir məsələ barədə! Qısası belədi. Yeznəmin oğlu Vahid ata-anasından xəlvət arvad gətirib. Dörd gündü mənim otağımda olurlar. Yeznəm bu məsələni bilsə, oğlundan qabaq mənə düşmən kəsiləcək. Buna görə də onları təcili başqa evə köçürmək lazımdı. Səndən ikinci xahişim budu ki, bu işdə mənə kömək elə.

Mən Həbibulla müəllim barədə bir az əvvəlki söhbəti unudub, adını bir neçə dəfə eşitdiyim Vahidin Canbalayevlər ailəsində yeganə övlad olduğunu, məhz buna görə də adının "Vahid" qoyulduğunu, Moskvada aspirantlığı, zehni, istedadı haqqında ondan-bundan eşitdiklərimi xatırladım.

– Qəribə hadisədi, – dedim, – elə ləyaqətli, tək övlad niyə xəlvət evlənir ki?

– Əşi, qız yetimin, kimsəsizin birisidi. Heç bilmirəm hardan gedib çıxıb Moskvaya, necə olub rastlaşıblar. Vurulublar, Leyli-Məcnun... Bu heç. Olan işdi. Pis burasıdı ki, elə ordaca zaqsa gediblər. Əməlli-başlı ər-arvaddılar ey! Boyuna uşaq düşüb qızın. Aydındı?

– Aydındı, aydındı, – dedim. – Çox qəribə hadisədi... Belə işdə mənim nə köməyim dəyə bilər?

Bəkir qamətini düzəldib, ərklə, ucadan dedi:

– Sən mənə pulla kömək eləməlisən!

Qulaqlarıma inanmadım.

– Pul?! Sən bilmirsən ki, kənddən göndərilənə möhtacam. Özün ki, pullusan!

Bəkir əlini çiynimdən çəkdi.

– Dedim kafenin xərcini özüm çəkəcəm, yüzlüklərlə dolacaq Kürdün kassası. Yalan dedim ey! On nəfər o cür milis işçisi olan yerdə mən niyə doldurum Kürdün kassasını?! Varımdı pul, əlbəttə. Əmma Vahidlə qızdan ötrü çox pul lazımdı. O da ki səndə!

– Məndə?!

– Bəli, Quru bəy! Bu səhər hesablamışam, hökumətin bankında sənin azı otuz min pulun yatır.

– Röya görmüsən?!

Bəkir güldü.

– Mən bu saat sənə röya kimi görünən bir həqiqətdən danışıram, Quru bəy! Bəs demədimmi ki, yeznəm sənlə xüsusi maraqlanıb? Bəs mən ağzımı açanda başa düşmədin ki, mən özüm də fanatiklə xüsusi maraqlanmışam! Demədimmi ki, povest haqqında rəyin biri hazırdı, o biri də hökmən yazılacaq? Buna əlavə eləyim ki, on çap vərəqi həcmində kitab üçün nəşriyyatda müqavilən hazırdı. Günü sabah gedib qol çək! Ordan da cum "Azərnəşr"in üçüncü mərtəbəsində kassirin hüzuruna. Çünki yeznəmin adından tapşırmışam ona, sabah versin qonorarıyın altmış faizini. Qalan qırx faizini kitab çıxanda verirlər.

Bir neçə dəqiqə nə deyəcəyimi bilmədim. Bu axşam əməlli-başlı möcüzələr aləminə düşmüşdüm. Qara Canbalayev öz qonşusunun qayğısına qalmışdı! Niyə? "İşi düşüb". O da nə – pul?! Yəqin borc.

Çaşqınlıq içində soruşdum ki:

– Bəs kafedə həngamədən başqa iy gəlir axı, Bəkir... Bir də bəs bayaqdan bəri bunu niyə demirdin?

Bəkir yenə müəmmalı qəhqəhə çəkdi.

– Bunu mən öz kitabımın məsələsindən əvvəl desəydim, sən müsbət adamın ağlına nə gələrdi? O dəqiqə fikirləşərdin ki, aha, deməli, mənim işimi düzəldib nəğd eləyib ki, öz işi də nəğd olsun. Düzünü de, fikirləşərdin, ya yox?

Mən hələ çaşqındım.

– Doğrudu, – dedim, – fikirləşə bilərdim.

– Məsələn, necə? Necə fikirləşərdin?.. Madam ki, açıq danışırıq, gəl hərtərəfli açıq danışaq də. Mən, necə deyərlər, sənin daxilinə nüfuz edib, ürəyindəkiləri bir-bir açım. Bax, sən, Quru bəy, sən müsbət adam, bu saat fikirləşirsən ki, bu işlər hamısı əvvəlcədən düşünülüb, yeznə ilə qayın oturub plan tutublar ki, əgər biz Rəşid Fətullayevin əsərinin çapına kömək eləsək, üstəlik, siyasi təhlükədən qorusaq Təbib Həqqi xırıldayıb qalar, məqalələr məcmuəsi haqqında fikrini geri götürməyə məcbur olar. Bax, sən bu saat belə düşünürsən, Quru bəy! Yeznəmin sözü olmasın, məlumun olsun ki, belə alverlərdən qaçmıram mən. Dillən görək!

Dedim:

– Ümumiyyətlə, bu danışıqların həqiqətə çox oxşayır. Mən povestimi nəşriyyata verəli altı aydan çoxdu. Gedirəm, otururam bədii

ədəbiyyat şöbəsində. Heç kəs bir söz demir. İndi birdən-birə... Əgər sizin elə bir alveriniz varsa, mən o müqaviləyə yaxın da durmaram.

Bəkir yenə sərtləşdi.

– Ba, ba, ba! Quru bəyliyin tutmasın, sən Allah... De görüm, kafedə çıxışımı bəyəndin?

Dedim:

– "Fenomen"i – filanı çıxandan sonra, qalanını, əlbəttə, düz dedin. "AzƏr"lərin özünü tanıması bəşəriyyətin özünü tanımasıdı.

Dedi:

– Rəşid, vallah, billah, dahisən sən! O cür tarixi falsifikasiyaları kəşf eləyib vətənimizin dünya mədəniyyətinin beşiyi olduğunu bu qədər aydın, anlaşıqlı şəkildə açmaq üçün xüsusi yazıçı intuisiyası azdı. Məhz dahilikdi bu.

Dedim:

– Kəşf deyil axı bu. Bakı ziyalısının tanımadığı xalq özü verib mənə o həqiqətləri.

Bəkirdən elə qaqqıltı qopdu ki, hətta çinarların budaqlarında gecələyən sərçələr pırıldaşdılar.

– Öz dahiliyini xalqın adına yazdın? Demirdinmi Bağlardan gəlir Elm?! İndi bir sualıma da düz cavab ver: qorxursan bizdən?

İradəmi toplayıb özümü ələ aldım. Dedim:

– Qorxuram, Bəkir. Dəhşətə gəlirəm... Nə mürəkkəb adamlarsınız siz!

– "Mürəkkəb" yox, ağıllı! Sən Rəşid, birdəfəlik bil ki, Səfquliyev bir para adamların düşündüyü qədər pozqun deyil. İndi yaxşı qulaq as, gör nə deyirəm. Mən Dağlı məhəlləsində bir xəlvət ev tapmışam. On beş minə deyirlər. Mənim də əlimdə vur-tut beş minim var. Sabah nəşriyyat sənin qonorarını verəndə on minini borc verməlisən bizə?

Dedim:

– Sən bilirsən xəsis adam deyiləm mən. O qədər pulum olacaqsa, üstəlik, elə xeyir işə sərf olunursa, niyə vermirəm? Onsuz da o müqavilə göydən düşmədi məndən ötrü... On min də verərəm, on beş min də!

Bəkir qorxumu hiss etdi.

– Həbibulla müəllimin gizlin adını qəsdən demirəm mən sənə. Aramız açıq olmalıdı. "Folklorçu professor"un adını da biz dördü-

müz bilirik: yeznəm, Təbib Həqqi, sən, mən!.. Açmamışıq ki, bu vaxta qədər? Bundan sonra da açmayacayıq. Çünki sən təki mən də iltizam vermişəm dilimdən. Unut canına birə saldığımı! “Təbib həqqi”dən də pis hala salarlar bizi. Bu belə! Tariximizi xalqdan, müəllimimizdən alsan da, sən aylarla, bilmirəm, bəlkə də illərlə zəhmətin haqqını alırsan! İkincisi də... O nə sözdü çərtirsən? Necə yəni “xeyirliyə sərf olunursa”? Mən sənin pulunu oğruya vermirəm, quldura vermirəm. Vahidin bu məsələsinin axırını bir yana çıxarandan sonra, otağın haqq-hesabını qoyacam xalamın ovcuna. Lap arxayın ola bilərsən! Kitabımı düzəltsən, bu yaxınlarda öz qonorarımdan da qaytarram borcu. Onu da bil ki, başqasından da ala bilərdim borcu. Əmma mən sənin bu quru bəylik xarakterini sındırmalıyam, Rəşid! Biz yaxınlaşmalıyıq! Hökmən yaxınlaşmalıyıq! Mənlə sənin aranda və Həbibulla müəllimnən Qara Canbalayevin arasında soyuqluğa son qoyulmalıdı! Qaynayıb-qarışmalıyıq! Arxa durmalıyıq bir-birimizə! Zəmanə özü tələb eləyir bunu, Rəşid! Otuzuncu-əllinci illərin vulqar sosiologiyası ayırıb bizim böyüklərimizi. Həbibulla müəllim Zeynalabdin Tağıyevin Nikolay Romanova[1], çarizmə münasibəti üstündə Nərimanovun əvvəlki düşmənçiliyi, sonrakı dostluqları barədə roman yazıbmış. Yeznəm qılıncını çəkib düşüb Təbibin üstünə ki, Leninizmin əsas prinsipinin – sinfi mübarizənin əleyhinə getmisən, kapitalisti sosialist “Hümmət” partiyasının başçısı Nərimanovla qardaş kimi təsvir eləmisən!.. Əslində, həqiqətdi bu. Əmma vulqar sosialogiya zamanı qurtardı, Rəşid. Deyirlər, bizim bir yazıçıya, hətta xüsusi tapşırıq verib İman ki, Nərimanov haqqında yazanda Tağıyevi unutmasın! Təkrar eləyirəm, sındır quru bəyliyini! Özün sındır! Dostun Səfquluyevlə formal yox, həqiqi dost ol! Gör necə perspektiv imkanlar verər bizə belə dostluq!..

Mən daha dinləmirdim onu. Gərgin fikrə qapılmışdım, əmma tək bir məsələni aydın dərk edirdim. O da bu idi ki, bu dumanlı payız axşamına qədər mən öz “Hücrəmdə” zahirən çox sakit, yeknəsəq, əslində isə həyəcanlı və xoşbəxt bir həyat keçirirdim, öz

---

[1] Zeynalabdin Taqiyev Nikolay Romanovun Şərq üzrə məsləhətçisi idi, Nərimanovun sosialistliyinə görə 1906-cı ildə onunla savaşmışdı, sonralar isə Nərimanovun ideyalarını bəyənib, onunla dostlaşmışdı.

yazılarım, gələcək planlarım haqqında düşünürdüm. İndi isə beynimdə müxtəlif, sarsıntılı fikir və qayğılar bir-birinə qarışmışdı; nə üçünsə Bəkirin məqalələr kitabı haqqında müəllimimdən xahiş etməli idim; nəşriyyata gedib, ömrümdə ilk dəfə müqaviləyə qol çəkməli, mənə birdən-birə belə qayğı göstərən adamların qəribə "vacib iş"inə yaramalı, ilk kitabım üçün aldığım qonorarın on minini verməli idim ki Bəkir "xəlvət ev" alsın.

Qısası, özümün də xəbərim olmadan çox şübhəli diqqət mərkəzinə çevrilmişdim, çaşqınlığım da ancaq bu səbəbdəndi.

Birdən Canbalayevin oğlu haqqında, onun Moskvada evlənib gətirdiyi qız haqqında fikirləşdim. "Qızın boynuna uşaq düşüb..." Gizlədir və özü də gizlənirsə və mən öz pulumla bu işə qarışıramsa, demək, istər-istəməz iştirakçı oluram?.. Heyrətli bir hiss keçirdim.

O hissin necə oyandığını heç cür anlaya bilmədim; birdən-birə o bədbəxt gəlinin taleyinə doğma və əziz bir insanın taleyinə acıyan kimi acıdım. Üzünü də görmədiyin o qadına yazığım gəldi. Yalnız sonralar Həbibulla müəllim mənə danışmışdı ki, onun özünün də şərti olaraq "ruhlar aləmi" adlandırdığı planetlərdə OdƏr bəşəriyyəti, Yer planetində "Kainat elmi" adlanan SafAğ Elmini qəlbən duyan Ağlara – SafAğ insanlar səssiz-ünsüz Ün göndərirlər; psixoloqlar bunu "intuisiya" adlandırırlar (materializmə zidd getməmək üçün), əslində isə bu "söz" də "tərsinə" çevrilmiş sözlərdəndir: əsli – OdƏrcəsi "ÜnOdƏs"dir. Yəni Yaradan həqiqətin Ünü. Yerdəki Ağların böyük əksəriyyətinə Ün səssiz gəlir, buna görə də insan güman eləyir ki, "ağlına gələn" fikir onun öz beynində oyanan fikirdir. İndi belə çıxırdı ki, mənə də Ün gəlmişdi.

Narahat, başımı qaldırıb, Bəkirin yenə də papirosun işıltısını əks edən, nə isə gizlin mənalı parıltı ilə yanan gözlərinə baxıb soruşdum:

– Vahidin gətirdiyi qız kimdi?

Bəkir duruxdu. Gözlərinin odu söndü: məndən belə sual gözləmirmiş.

– İndicə demədim? Kimsəsizin biridi... Xalam Vahidə çox mötəbər bir vəzifəlinin qızını nişanlayıb, o da birdən-birə belə qələt eləyib o mötəbərin qızının gözünü yaşlı, başını daşlı qoyub. Soruşma, adını demərəm o mötəbərin... – Bir ara susub, üzü dənizə, çəpəki nəzərlə, diqqətlə üzümə baxdı. – Əmma çox maraqlı təsadüfdü. Onun adı sənin qəhrəmanıyın adındandı.

– Nalə?

– Hə də Nalə.

İçərimdə çırpıntı yarandı. Dedim:

– Nailə adı az deyil Azərbaycanda, əmma Nalə yoxdu mən bilən. Bir Aşıq Nalə, bir də ki, o nənəmizin adını daşıyan Nalədi. Nalə Ağlar. Üçüncü Nalə də varmış?! Familiyası nədi? Ağbizənli deyil?!

Bəkir bəri çevrildi.

– Dəli oldun, Rəşid Fətullayev!

Əlindən yapışdım.

– Sazı var?! Aşıqdı?! Niyə dillənmirsən, Bəkir?

Bəkir güldü.

– Dilləndim mən. Dedim, dəli oldun... Nə saz?! Nə Aşıq, əşi?! Yoxdu "Aşıq"... ƏsAğdı sənin HəmƏrin təki, "ƏlEyOd OdƏsEy" yazıb! Ha! Ha!.. Yazıq quru bəy, dəli oldun, doğrudan ey! Gedək bir az pivəliyək. Yanıram.

Hiss etdim ki, yalan danışır. Nalənin familiyasını da çox gözəl bilir; bayaqdan üzümə qəribə diqqətlə baxmağı təsadüfi deyil; əvvəlcə nə isə yoxlamaq, öyrənmək istəyirdi, indi daha bilir ki, mən nəinki Canbalayevin oğlunun "gizlin evləndiyi" Nalənin mənim İtginim olduğunu bilirəm, hətta Canbalayevin "povestlə xüsusi maraqlanmağının" səbəbini də. Göhər xanımın "ünsiyyət yaratmaq" cəhdi də, bunun məni "hava almağa" çıxarıb, sonra Kürdün kafesinə aparması və o nitqi də heç biri təsadüfi deyil!

Soruşdum ki:

– Harda rastlaşıblar deyirsən, Moskvada?! Orda neynirmiş qız?!

Bəkir bir "Koroğlu" da yandırdı. Başını bulayıb:

– Əşi, fəhlədi qız ey, ay yazıq Rəşid! Aşıq nədi, zad nədi?! Ağbizənli nədi?!

– Gözləri necədi?! Gözləri!

– Hm, Təbib Həqqi düşdü yadına. Dəliyə bax ey! Mən nə bilim necədi gözləri? Diqqət yetirməmişəm... Bildiyim elə budu ki, fəhlədi. Necə deyərlər, "qabaqcıl zəhmət adamı" kimi, Moskvaya "Vıstavka" deyilən o kənd təsərrüfatı sərgisinə göndəribmişlər. Vahid də gedibmiş ki, özbək plovu yesin "Vıstavka"dakı restoranda. Bunun gözü onu görüb, onun gözü bunu görüb, vəssalam, şüt tamam! – Bəkir papirosunu hirslə yerə atıb, deyindi: – Zibilə düşdük! Xalamın qəribə-qəribə "vacib iş"ləri o qədərdi ki, lap təngə gəlmişəm ey!..

Ağacların dibində burulub, quru dondurma kağızlarını, qəzet cırıqlarını xışıldadan boğanaq, papirosdan dağılan qoru asfaltın səthi ilə bulvar boyunca süpürüb dənizə doğru apardı. Orda duman parçalanmışdı, dənizin qətran kimi qara, durğun üzündə buy işıqları sirli-sirli yumulub açılırdı. Sağda, Bayıl tərəfdə müxtəlif biçimli gəmilərin qaraltıları qaralırdı. Biz hər ikimiz pərt və gərgin vəziyyətdə Xəzərin cansıxan qətranına baxa-baxa susuqduq.

– Bəkir! – Mən, nəhayət, sükutu pozub, səsimdə qətiyyət hiss etdim. – Bəkir! İndi mən bilirəm sən nə fikirləşirsən!

– O, "hardan bilirsən nə fikirləşirəm"? – demədi və ya buna bənzər bir sual da vermədi. Deyəsən, axır ki, özünü ələ aldı, şlyapanın kölgəsi altında gözləri güldü.

– Məzəlisən, Quru bəy, – dedi. – Bir erməni yazıçısının "hissiyatölçən" adlı yarımfantastik bir hekayəsi var, lap çoxdan oxumuşam, unutmuşam. Təkcə bu yadımdadır ki, insanın ürəyini, fikrini göstərən bir barometrdən söhbət gedir.

– İnsan barometrdən həssasdı, Bəkir, – dedim. – Hardasa mən də belə bir şey oxumuşam. Bir dənizçi kişi uzaq səfərə gedir. Evdə qızını xəstə qoyubmuş, həmişə intizarını çəkibmiş. Birdən qulağına qızının səsi gəlir: "Ata, hardasan, ölürəm!" Kişi səsi eşitdiyi vaxtı qeyd eləyir. Evə qayıdanda arvadından soruşur, arvad təsdiq eləyir ki, həmin saatda, həmin dəqiqədə qız doğrudan da atasını çağırıb. Ustad Aşıqlar deyirlər səsi Bağlar çatdırırlar.

Bəkir, yəqin ki, gərginliyini gizlətmək üçün skamyaya çöküb əllərini dizlərinə sürtdü.

– Belə şeylər çox olur bu sirli-soraqlı dünyada. "Sirrini verməyir sirdaşa dünya". Düz deyir Səməd Vurğun. Həbibullamıznan bir yerdə nə qədər uzaqlardan xəbər versəniz də, dünyanın sirri dünyada qalacaq, Fanatik!

Yanında oturub üzünə baxdım. Mənə aydın söz demək niyyətində deyildi. Əmma çox papiros çəkməkdən bezdiyi halda yenə papiros yandırmasından hiss etdim ki, həyəcanlıdır. Yəqin elə bu həyəcana görə idi ki, qəfildən söhbəti hərləyib hər ikimizi düşündürən məsələnin üstünə gətirdi:

– Bura bax!.. Hələ universitet vaxtlarımızdan mən də özümü adi ziyalılardan saymıram. Sən bilirsən bunu. Əmma indicə başa düşdüm ki, adilər kütləsindən o qədər də uzaq deyiləm. Niyə?

Çünki, əslində bax bu papirosu yandırdığım dəqiqədə, təzə çatdı mənə ki, axı sənin "Sağ"ın – "ƏsAğı"n – "Aşıq"ın sənədli əsərdi. Həm tarixi cəhətdən sənədlidi, həm də müasirliyi: qəhrəmanların hamısı var həyatda. O cümlədən yaxın qohumların Nalə, Həbibulla müəllim – "Təbib Həqqi" də!

Mən səbirsizləşirdim.

– Bəkir! Niyə demirsən ki, Vahidin Naləsi də başqa Nalə deyil?!

Dedi:

– Dəli yox ey... həqiqi mənada psixopatoloji xəstəyə dönmə! Bəsdi! Hə, onu deyirdim, povestdən lap aydın görünür ki, son dərəcə doğma adamların barədə yazmısan sən. Həyatdan götürülən qəhrəmanlarla təxəyyül məhsulu kəskin seçilir axı həmişə. Həyatdan götürülən obrazın fərdi xüsusiyyətlərindən başlamış, yaşadığı məkanın detallarına qədər maksimum canlı olur. Düzdür? Məsələn, Rus inqilabının tarixini az-çox bilən adam Qorkinin "Ana" romanında açıq görür ki, bu yazıçı şəxsən tanıdığı doğma adamlarla yanaşı, həm də elə özünü yazıb. – Bəkirin gözləri yenə çəpəki baxırdı, yəni mənim sifətimin haldan-hala düşdüyünü, vəziyyətimin ağırlaşdığını görürdü və elə buna görə də ədəbi söhbətini uzadırdı. – Furmanovun "Çapayev"ində də lap aydın hiss olunur ki, bu qədər canlı qəhrəmanlar heç də təxəyyül məhsulu deyil: o komissar Furmanovun özüdü, Çapayev də, o birilər də həmişə ürəyində gəzdirdiyi adamlar olublar. Necə ki, sən o itgin əmiqızıbacını hələ də ürəyində gəzdirirsən! Deyirəm, bəlkə sevginiz-zadınız da olub, hə?!

Dedim:

– İndi də sən patoloji olursan! Bacımdı mənim!

– Maraqlıdı, heç təxmini də bilmirsənmi indi hardadı o qız?

Dedim:

– Sənin mənzilindədi! Yeznən Qaranın oğlu Vahidin yanında! Sənin mənzilində! Bəsdi! Qurtar bu işgəncəni.

Hiss etdim ki, o məhz belə bir cavab gözləyirdi. Əmma gözləri böyüyüb, mənə çox təbii heyrət göstərdi. Sonra özünəməxsus qəfil, zil qəhqəhə ilə gülüb, şlyapanı aşağı basdı:

– Vallah, doğrudan, psixopat oldun! Ə, yoxsa təzə povest sujeti-zad qurursan?! Gətir bir böyründən çimdikləyim, ayıl!.. Əmma çox qəribə sujet çıxar: gənc bir yazıçı uzaq bir kənddə görüb, həyatından

povest yazdığı bir qızla şəhərdə yenidən görüşür. Qızın başına gələn macəraları öyrənib, cumur yazı stolunun dalına, gecə-gündüz, ac-susuz işləyib axırda ruhi xəstəliyə uğrayır. Təcili yardım maşını gəlib qolunu sarıyıb aparır "Maqazinni sorok"dakı dəlixanada dəlilərin əlinə verir! Özünü ələ al, birdən sən də "Maqazinni sorok"a düşərsən!

Dedim:

– Dur gedək!

– Hara?

– Sizə!.. Nalənin, Vahidin yanına!

Bəkirin dili ağırlaşdı:

– Ağlını başına yığ, əzizim, – dedi. – Əvvəla, bu vədə cavan bəy, gəlin yanına getmək yaxşı düşməz. Yəqin indi qucaqlaşıb yatırlar. İkincisi də, mən bu sirri sənə açdım ki, bir dost kimi, yoldaş kimi mənə kömək eliyəsən. Daha demədim ki, xalxın ailə işinə qarışasan! Qara Canbalayev kimi titanın ailə işinə qarışmaq heç bilirsən nə deməkdi?! De görüm, sevdamız baş tutur, ya yox? Unutma ki, taleyin Bəkir Səfquluyevin əlindədi ha! – Ayağa qalxıb, zarafatyana əda ilə əlini çiynimə vurdu. – Mənfi resenziyanı yapışdırram kürəyinə, ondan sonra gəl sübut elə ki, Səfquluyev bunu qəsdən eləyib, vicdanının əleyhinə gedib!.. Yaxşı, dur, yaman oturduq. Saat on tamamda mən bir yerdə olmalıyam. Sabahı sənə möhlət verirəm. Birisi gün Həbibulla müəllimlə söhbətiyin nəticəsini öyrənməyə gələcəm. Həqiqi alverimiz onda olacaq. Centlmen söhbəti! Açıq! Mərd! Sən mənə, mən sənə!

Taksi saxlayıb, burada ilk dəfə çox sərt kobudluq eləyib:

– Sən minmə! Mən tək gedəsi oldum! – deyib maşının qapısını çırpdı.

Beynim uğuldayırdı. Hiss etdim ki, dar günlərimin dayağını – Həbibulla müəllimi görməsəm, vəziyyətimi başa düşə bilməyəcəm.

Bulvarla şəhər arasındakı küçəni sağa buruldum. Dövlət Təhlükəsizliyi Komitəsinin işçiləri üçün xüsusi layihə ilə tikildiyinə görə o cərgədəki binaların hamısından fərqlənən binanın foyesində pasportumu milisionerə verib, "buraxılış vərəqi" alıb ikinci mərtəbəyə təzəcə qalxırdım ki, qarşımda – pillələrdə çəlik tıqqıltısı eşitdim. Həbibulla müəllim:

– Salam, fanatik! Nə olub rəngin qaçıb? Naləyə görədisə, həyəcanlanma. Hər şeyi bilirəm. Səfquluyev gəlmişdi indicə, göndərdim getsin cavanların rahatlığıyla məşğul olsun.

Məni heyrət götürdü.

– Bəkir... burdaydı indi?! Necə ola bilər?! Mən ki cəmisi on beş-iyirmi dəqiqədi ayrılmışam ondan!

Həbibulla müəllim gülümsündü: ağlı-qaralı qısa saqqalı ilə qırışlarla doğranmış alnı arasında elə bil bir cüt işıq dairəsi parladı.

– Bəkiri mən məhz çevikliyinə, operativliyinə görə götürmüşəm işə. Bu axşam kafedə uşaqlardan bir nəfəri də bilməyib ki, Səfquluyev özü də həmin mövzuda işləyir. Gülür ki, Rəşid özü də hiss eləmədi ki, "Sağ" povestinin məzmununa öz fikirlərimi də qatıb danışıram". Bizim idarədə çox olur belə şeylər. Başqalarına qadağan olunan mövzunu öz işçimizə tapşırırıq, lazım gəlsə, kömək də eləyirik, daha dəqiq, daha geniş yazır, verir, öz mətbəəmizdə çap eləyib öz işçilərimizə paylayırıq... Sən çox da narahat olma Bəkirin mövzuya müdaxiləsindən. "Folklorçu professor"un ƏsAğları necə gizlətməyi lazımdı bizə. "Sağ"lar yoxdu professor Təhmasibdə, Bəkirin işində açıqdı. Dastanlarımızda, ustadnamələrimizdə, qıfılbəndlərimizdə rəmzləri kəsib atıb əziz müəlliminiz Məmmədhüseyn Təhmasib, GurÜn məhsullarının hamısını bəsitləşdirib, "folklor" – "xalq yaradıcılığı" kimi qələmə verib. Mir Cəfər Bağırovun şəxsi təzyiqi, şəxsi nəzarəti altında işləyib o bədbəxt Təhmasibimiz. "Koroğlunu", "Aşıq Qəribi", "Əsli və Kərəmi" qədim kökümüz "ƏlEyOdƏsEy"dən ayırıb. Bəkir bunu açır. Populyar şəkildə – məqalə kimi. Sənin xoşbəxtliyin, Səfquluyevdən, Təhmasibdən fərqin bundadı ki, senzurasız yazırsan. Rahat oldunmu? Di gəl! Gəl! Bu gün İmanımız özü gəlmişdi bu mənzilə. Nə üçün bilirsən? Həbibulla müəllimin sehrli təbəssümü ürəyimi isindirdi:

– Bu şəhərdə, bu respublikada nə deyilir, nə danışılır, hamısı bizim idarədə və İmanımızın stolunun üstündədi. Sevin! Sənə görə gəlmişdi İmanımız! Açıq dedi ki, "Fətullayevin əsəri Moskvaya göndərilsə, sənin boğazın əlimdə qalacaq". Mən də ki, bilirsən, bir dəfə ölüb diriləndən sonra ikinci dəfə qəbirə getmək istəmirəm. Sənin sahən üzrə, Nizaminin bioqrafiyasını yazan bir böyük alimimiz var Moskvada. Eşit, yadında qalsın: Andrey Bertels... İmanımız gedəndən sonra Andreyə informativ məktub yazdım EyAğ – "Əxi" barədə, ətraflı yazdım ki, "İskəndərnamə"nin əvvəlində bir olan "Allaha aid nə varsa, hamısını dinin hökmü ilə katiblər yazıblar: Nizami "Əxi"lərdən AğEylərdən yazır, AğEylər də ki, bilirsən Ulu

Bağ ƏsƏlMənin ("Solomon"un) təbəələridirlər... Axırda xəbərdarlıq elədim ki, ayıq olsun, Fətullayevin povesti göndərilsə, başqa ələ verməsin. Aydındırmı vəziyyətin, yoldaş fanatik? Di gəl, gəl! Bertelslər, bilirsən, şərqşünasdılar. Atası Yevgeni Bertelsdən fərqli olaraq, Andrey bizim "Əxi"liyimizi təfsilatla yazır. Çünki Bertelslərin əcdadları da EvƏrEy OdƏrlərindəndilər. Cəmi Yer üzündə "Yevrey"ləri, daha doğrusu, bütün bəşəriyyətimizi birləşdirmək niyyətindədi... Başım qarışıb, bu gün çörək almamışam. Növbətçidən xahiş eləyərəm alar. Sən gəl!...

Qayıdıb qapını açdı. Dəhlizdə, sonra sola açılan dermantinli qapının dalında kabinetinin çilçırağını yandırdı.

– Pivə içmisən. Çay istəməzsən yəqin. Əyləş. Bəkir səni hökmən görüşdürəcək sabah Naləylə. Taleyi, əlbəttə, dumanlıdı onun. Deyəsən, mən də qarışmalı olacam bu məsələyə. Yalnız ona görə yox ki, qohumumuzdu, nadir istedaddı Nalə! Çürükdən aldığı dərsin üstünə nələr qoyub!.. Bəkir-məkr deyir: "Qorxuram, Rəşid özü də çalışar boşatsın qızı, özü alsın, çünki vurulmamaq mümkün deyil Naləyə!"

Həbibulla müəllimin sifəti tünd sarı, hətta palıdı çalırdı. Burun pərələrinin iriliyindən zənciyə oxşayırdı. Əmma güləndə gözlərindən necə nur saçılırdısa, o çirkin sifət sehrli, məlahətli olub, dediyim kimi, ürəyini isindirirdi.

– Sən küsmə o Bəkir-məkrdən. Xaraktercə, əlbəttə, sənə, mənə yad adamdı. Canbalayevin tərbiyəsindən çıxıb. Əmma şəksiz istedadlıdı. Vahidin dissertasiyası haqqında çox kəskin mənfi rəy almışdıq: "Dissertasiya lişena nauçnoy osnovı". Çağırdım Səfquluyevi, dedim: "Al oxu qohumuyun əsərini, gör xilas eləmək mümkündümü?" Səhərisi zəng vurdu ki, bəs "nauçnıe osnovanie naydenı". Nizaminin yubiley münasibətilə buraxılan almanaxdan professor Rəfilinin "İxvan əs-Səfa"nı[1] əməlli-başlı açan məqaləsini gətirmişdi. Vahidə zəng vurduq, gəldi oturdu mənim bu bu qırıq stolumun arxasında, bircə həftəyə yazdı elmi əsasları, apardı. Bertels oxuyub, titul səhifəsinə bircə kəlmə yazıb: "Otliçno!" Heyf ki, bu "otliçno"nun "no"su – əmması var: "dissertasiyadan yalnız KQB-

[1] Ərəbcə Bağdadda buraxılmış "İxvan əs-Səfa" – "SafAğ Elmi qardaşları" almanaxı məşhur olub. Professor Mikayıl Rəfilinin məqalələri Nizaminin SafAğ Elmi alimləri silsiləsindən olduğunu açır.

nin xüsusi icazəsilə, yalnız xüsusi mütəxxəsislər istifadə edə bilərlər”. Bertels zəng vurub bizimkilərə ki, göndərin almanaxı, əmma bizimkilər bütün nüsxələri yığışdırıblar. Məncə, bu da Bəkirin məkridi. Şübhəsiz, Qara Canbalayevin də əli var, Canbalayevlərin kumiri “Birbaşa Moskvaya “donos”larla hamımızı güllələyən “Ta-Ta-Ta” dediyimiz Tahir Tahirovun da. Bədbəxtliyimizə bax ki, hətta Nizamini də “ideoloqiçeski ne sovmestimıy” adlandırıblar. Özümüzünkülərin əliylə! Səfquluyev bax bu cəhətdən təhlükəlidi. Nəzərə al bunu, yoldaş Fanatik!

...Bu məzmunda söhbətdən də sarsılıb elə hala düşdüm ki, hələ otağımın qapısını açmamış plaşımı, şlyapamı stulun üstünə atıb çarpayıya sərildim.

Pəncərənin qabağında pilləkənin taxtaları aramsız cırıldayırdı. Gah kimlərsə cəld, sürətli addımlarla yuxarı qalxırdılar, gah da, deyəsən, Canbalayevlə Göhər xanım özləri tez-tez düşüb qalxırdılar. Həyətdən hətta nə isə sirli pıçıltılar eşidilirdi. Bu nə deməkdi? Pilləkənlə gündə iki-üç dəfə qalxıb-enməyi özləri üçün işgəncə sayan bu adamlara indi nə olmuşdu? Kimlərlə nə barədə pıçıldaşırdılar? Məndənmi ehtiyatlanırdılar?!

Adətən, həmişə süst gəzən, öz ləngərli yerişlərinə xələl gətirməyən bu adamlar bərk narahat olmuşdular; mənə elə gəldi ki, nə barədə isə məsləhətləşirlər, gərgin düşünürlər, tədbir tökürlər.

Pilləkənin ayağında Bəkirin boğuq səsi eşidildi. Mən istər-istəməz pəncərəyə yaxınlaşdım. Göhər xanım ağ, yumru əlini sinəsinə qoyub, pilləkənin yan ağacına söykənib ağır-ağır nəfəs alırdı. Canbalayev başını aşağı salıb müti dayanmış Bəkirə əlini silkələyə-silkələyə nə isə deyirdi. Qəzəbli xırıltısından heç nə anlamırdım. Ara-sıra bəzi kəlmələr qulağıma çatırdı: “Yox!.. Mümkün deyil! Ayrı cür olmaz!..”

Mən hiss edirdim ki, yaxşı iş görmürəm; adamları pusmaq, gizlin söhbəti dinləmək ən azı qəbahətdir. Əmma qarşısıalınmaz bir zərurət məni bu adamların söhbətini dinləməyə məcbur edirdi. Məndə heç bir şübhə yeri yoxdu ki, bu saat burda mənim ən əziz adamım haqqında danışılır, həm də burdakıların heç biri o adamı sevmir. Nəinki sevmir, bəlkə, lap onun məhvi üçün çalışırlar; gör nə qədər sarsıntılıdırlar ki, şübhəsiz Vahidlə bu evin arasında gedib-gələn

Bəkiri içəridə gözləməyə də səbirləri çatmır. Bəs bayaq Bəkirin ayaq tappıltıları ilə yanaşı, sürətlə qalxıb-düşən tappıltılar kimlərindi? Niyə o cür tələsirdilər?..

Nəfəsimi qısıb, heç olmasa, ucdan-qulaqdan bir şey eşitməyə çalışdım. Əmma bu dəfə Bəkir dönüb darvazaya doğru yüyürdü. Canbalayevlə Göhər xanım isə bir-birinə baxıb hər ikisi eyni anda köksünü ötürdü. Pilləkənin taxtaları yenə ağır-ağır cırıldamağa başladı. Yuxarıda qapı açılıb-örtüləndən sonra isə daha heç nə eşidilmədi; həyətə elə bir sükut çökdü ki, mən istər-istəməz məşhur "tufandan əvvəl sükut" ifadəsini xatırladım.

İndi mən nə isə eləməli idim. Fikirləşdim ki, yəqin Bəkir bir də qayıdacaq, darvazada onu yaxalayaram.

Bir saat, bəlkə bir az da çox gözlədim, Bəkir gəlib çıxmadı. Artıq saat on ikiyə işləyirdi. Şəhərdə hərəkət azalmışdı. Hərdən aşağıdan – Qolodezni küçəsindən iti sürətli maşın qıjıltısı eşidilirdi. Mən, fikri dağınıq, bu əsəbi qıjıltını dinlədim. Yaxşı, indi neyləyim? Axı tamam aydındı ki, Nalə ilə Vahidin xeyrinə olmayan bir iş görülürdü!

Bəkirin evi bizdən, yəni Verxnyaya Naqornaya küçəsinin Qolodeznaya küçəsinə yaxın yerindən təxminən üç yüz addım yuxarıda – Dağlı məhləsindən universitetin dördmərtəbə yataqxanasına doğru sallanan əyri-üyrü bir küçənin başlanğıcında idi. Çox düşünmədən dar, yarımqaranlıq küçə ilə qalxmağa başladım. Səyimin havayı olduğunu hiss etsəm də, yarıyolda dayanmadım.

Beşcə dəqiqə sonra artıq dalanda idim. Aynabəndini sağ-soldan tənək bürümüş alçaq ev zülmətə gömülmüşdü. Mən gözlərimi qaranlıq pəncərələrə dikib durmuşdum. Üzücü bir qəriblik, tənhalıq hissi ürəyimi sıxırdı: Nalə, Nalə! İtgin bacım, sən doğrudanmı bu evdəsən?! Ötən illərdə hardaydın? Başına nə gəlib? Xoşbəxtsənmi?! Xəbərin varmı ki, mən səni daim ürəyimdə saxlamışam?! Səni bir gün də yaddan çıxarmamışam, Nalə! Mənim incə, köyrək bacım! Səfalı torpaqlarımızdan SSRİ-nin sürdüyü əhalinin bir-birindən uzaq, pərakəndə məkanlarına, adlarını öyrəndiyim kəndlərin hamısına, gah "Nalə Seyid Əli qızına", gah "Aşıq Naləyə" saysız-hesabsız məktub yazmışam. Heç birinə cavab almamışam! Axırıncı məktuba tamamilə yad bir adam ikicə

kəlmə cavab verib ki, itgin düşmüsən. İndi burdasansa, qalx işığı yandır, o şüşələrin arxasından qamətini göstər. Mən heç nədən, heç kimdən çəkinməyib, bu dəqiqə atılıb oraya – sənin yanına qalxaram... Beləcə, dəli kimi danışa-danışa, addım-addım həyətə yaxınlaşırdım. Mənə hətta elə gəlirdi ki, bu səssiz yalvarış ona agah olacaq və Nalə indicə doğrudan da qalxıb işığı yandıracaq. Əmma vaxt ötür, qaranlıq aynabəndin arxasından hənirti də gəlmirdi. Şəhər indi daha dərin sükuta batmışdı. Yalnız hərdən limanda gəmilərin, bir də uzaq stansiyadan növbətçi parovozun kəsik-kəsik fiti eşidilirdi. Burda – həyətdə isə öz nəfəsimdən başqa heç nə eşitmirdim. Bəkir buraya – öz evinə gəlmişdisə, niyə qayıtmırdı? Yatdı?! Yox! Ola bilməz!

Geri döndüm.

Birnəfəsə gəldiyim yolu ayaqlarımı sürüyə-sürüyə qayıdırdım. Tez-tez geriyə, ağ divarların arasınca uzanan qaranlıq dalana baxırdım. Mənə elə gəlirdi ki, səhər açılana qədər ona nə isə bir fəlakət üz verəcək. Yan ağacına söykənib ağır-ağır nəfəs alan Göhər xanımı, hiddətlə barmağını silkələyən, qəzəblə xırıldaya-xırıldaya Bəkirə nə isə tapşırıq verən Canbalayevi görürdüm, pilləkən taxtalarının beynimə dolmuş aramsız cırıltısını eşidirdim və onun – Nalənin başında qaranlıq olduğuna inamım daha da güclənirdi.

Həyətimizə açılan ensiz, uzunsov dəmir darvazaya çatdım. Əmma içəri keçmək istəmirdim. Deyirdim: "Geri qayıtmalıyam, qapını döyməliyəm! Nəzakət vaxtıdımı?! Mütləq qayıtmalıyam və qapını döyməliyəm!" Əgər yanımda bir ürəyi yananım olsaydı, yəqin ki, əbəs yerə özümə əzab verdiyimi deyib məni ovundurmağa, sakitləşdirməyə çalışardı. Əmma yəqin ki, sakitləşməzdim.

Əsəbi gərginlikdən sonra məni, deyəsən, hətta qara basmağa başlayırdı: uzaqdan ağzı qaralan dalanın dərinliyindən, tənəkli evin aynabəndindən işıq gəlirdi! Doğrudanmı?! Bir az bundan əvvəl ora – həyət də, aynabənd də qaranlıqdı, indi isə İşıq!.. Qızını xəstə qoyub səfərə gedən dənizçi haqqında əhvalatı xatırladım. Kim bilir, o səssiz yalvarışlarım bəlkə doğrudan da çatıb Naləyə?!

Yerimdən qopub, küçəyuxarı yüyürməyə başladım.

Yüyürürdüm və tez-tez büdrəsəm də gözlərimi işıqdan çəkmirdim. Əmma birdən işıq söndü.

İstər-istəməz yavaşıyıb dayandım və indicə işığın söndüyü yerdə qapının açılıb-örtüldüyünü eşitdim. Sonra isə, dalandan çıxıb solğun işıqların sarılığı çökmüş dar səki ilə sürətlə üzüaşağı enən Bəkiri gördüm. Bir-birinə möhkəm sıxılmış dodaqları arasında papiros közərirdi. Sərt sifətində, gözlərində qətiyyət vardı. Bəkir nə isə çox ciddi və çətin tapşırığı yerinə yetirməyə gedən adama oxşayırdı.

Mənlə rastlaşanda üz-gözündə çaşqınlığa bənzər bir ifadə əmələ gəldi. Yəqin ki, belə bir görüşü heç gözləmirdi. Hətta özünü itirib papirosu damağından götürəndə qıpqırmızı qoru yaxasına dağıtdı. Sonra mən öz uzun-uzun quru barmaqlarımı gördüm, qorxaq, istiqanlı, sadəlövh Rəşid əvəzində tamam başqa bir adam Bəkirməkrin xirtdəyində dırnaq sədəfi irilikdə düyünlü, sarımtıl qalstukundan yapışıb dartdı.

Bəkir biləyimi qarmaladı.

– Yavaş, ə! Niyə boğursan?! Hara çəkirsən məni?

– Ora... Sizə!

– Orda heç kəs yoxdu!

– Necə yoxdu?

– Qapını bağlayıb çıxmışam. Dayan! Bu dəfə doğrusunu deyirəm. Həyətdən kimsə gəlib yeznəmə xəbər verib ki, Həbibulla... eee!.. Təbib Həqqiylə bacısı iştirak eləyiblər bu işdə. Zaqsdafilanda... Moskva qəstinin üçüncü mərtəbəsindəki kiçik zalda toy eləyiblər. Vahidin nişanlısının atası "Ta-Ta-Ta" – Tahirov hardansa peyda olub orda. Camaata qışqırıb: "Dağılışın! Rədd olun burdan! Toy-zad yoxdu, bu saqqallı axsaq düşmənimdi mənim, kürəkənimi o pozğun qancıqla evləndirib qisas alır məndən!.." Uzun əhvalatdı, Rəşid! Söz-gap götürüb Bakını! Qızın boylu olduğuna qədər ey! Hamısını çatdırıblar yeznəmə! Köpək uşağını bircə-bircə məhkəməyə çəkdim, boynuna almadı heç biri. Deyirlər, "biz nəinki Canbalayevin evini tanımırıq, heç o famildə adam olduğunu da bilmirik". Nə isə, işlər yaman korlanıb, qardaş! Xalamın axşamdan bəri iki dəfə ürəyi gedib, kişi də ki, qızıl ilana dönüb. Arvada başı qarışmasaydı, kim bilir, indi nə oyun çıxartmışdı. Vahidin bəxti varmış. Tez özümü yetirdim, gəldim, yerlərini dəyişdirdim. Haman o on beş minlik evə apardım, avans verdim, danışdım ki, qalanını tez verəcəm. Sabah hökmən get nəşriyyata pulu al! Ordan da birbaşa Təbib Həqqinin yanına! Sənnən sövdamız hökmən baş tutmalıdı. O "vacib işi", nəhayət, deməliyəm:

Naləylə bağlıdı. Özləri deyəcəklər sənə. Bilmirəm nədi, inan Rəşid! Məncə, sənin vasitənlə Həbibulla... eee!.. Təbib Həqqini göndərəcəklər "Ta-Ta-Ta"nın evinə ki, düşmənçilik götürülsün aradan. Özün bilirsən necə dəhşətli adamdı. Boş yerəmi "Ta-Ta-Ta" qoyublar adını?! Qalstuku burax! Nə olub sənə?! Səhər gəlib özüm aparacam səni. Öpüşün, görüşün, nə qədər istəyirsiniz, doyunca söhbət eləyin. Özü də heç narahat olub eləmə. Madam ki, aralıqda sən varsan, mən qoymaram bu cavanlar pozuluşsunlar! Axşam, ümumiyyətlə, əhval-ruhiyyəm başqaydı mənim, düzünü demirdim sənə. Vahid ata-anasından keçər, qızdan keçməz. İnan, Rəşid! Yazarıq ey! Özü də hara? "İzvestiya"ya.

Məncə, əsas məsələ "Ta-Ta-Ta"nın üstədi. Feyleton yazıb ey! Üstəlik, məqaləsi də var "Kommunist" qəzetinin redaktorunda. Açığı, məncə, yeznəm bir az çək-çevirə salır, o lent yazılarını "kommunizm ideologiyasına zidd ideologiya" adlandırır, qorxudur səni ki, sözündən çıxmayasan. Budu mənim qandığım. Görürsən ki, açdım hər şeyi! Gəl gedək sənin otağına, küçədə söhbət eləmək yaxşı deyil!..

İndi də mən özümü itirmişdim; bir-birinin ardınca saysız-hesabsız suallardan hətta beynim kütləşən kimi olmuşdu.

O isə elə ötürdü:

– "Ta-Ta-Ta" gəlibmiş! Nişan üzüyünü atıb gedib. Gəl, gəl! Mən xalam sarıdan narahatam. İkicə dəfə təcili yardım maşını gəlib dayanıb darvazanın qabağında. Filan dərmən çatmır, "Bəkir, yüyür gecə aptekinə!" Buz lazımdı! "Bəkir, qaç Kürdün kafesinə, onda olur həmişə!.." Ölmüşəm ey yüyürüb-yıxılmaqdan!..

Arvada dəyim, sonra oturaq danışaq.... Qohum olmuşuq ey, ay quru bəy, nə özünü qurutmusan! – Gözlənilmədən səsini qaldırıb, böyrümü dürtmələdi. – Dünyanın işinə baxırsan? Kimin ağlına gələrdi ki, belə bir iş olacaq? Anam-bacım olsun, nə gözəl bacın varmış, Rəşid! Tək zahiri gözəlliyini demirəm, mələkdi zahirən! Mən, sözün açığı, birinci gün pərtdim. Olan olub, keçən keçib, niyə gizlədim, fikirləşirdim ki, yəqin bizim xalaoğlu qızın zahirinə aldanıb. Sən gərək bağışlayasan məni, Rəşid. "Ta-Ta-Ta"nın qızı da çox saf qızdı axı! Heyfim gəlirdi! "Ta-Ta-Ta"ynan qohumluğumuzun pozulmasından da qanım qaralmışdı. Açığı budu ki, yeznəm kimi, xalam kimi, elə mən də bu işin tərəfdarı deyildim. Əmma axşam səndən ayrılandan sonra Nalə bacıyla xeyli söhbət elədim və belə qərara gəldim ki, bütün yer üzündə bizim Vahiddən xoşbəxt

adam yoxdu! Qardaş, bu yaşa çatmışam, hələ bu qədər incə, həssas, bu qədər mülayim, şirindil insan görməmişəm. İki sözündən biri "qardaş"dı. "Qardaş, çay dəmləyimmi?" "Qardaş, ürəyin nə istəyir, nə bişirim?" Hələ mən sənin adını çəkəndə!.. Bircə kəlmə demiş oldum ki, Nalə bacı, sən Rəşid Fətullayevi tanıyırsanmı? Tir-tir əsdi, Rəşid! Gözünün on yerindən tökdü! Görəydin necə yalvardı! "Qurbanım olum, qardaş! Qabağında ölüm, qardaş, tez tap gətir mənim qardaşımı!" Sonra da başladı sorğu-sual eləməyə: "Nə işindədi, canı-başı necədi?" Bircə saat danışdım sənin haqqında. Sir-sifətini lap yazıçı kimi təsvir eləmişəm, sən öləsən: arıq, uzunqıç hacıleylək, fındıqburun, yumruçənə, nəlbəkigöz, alnının eni bir qarış! Əməlli-başlı təsvir elədim. Əl çəkmək istəmirdi yaxamdan: "Danış! Danış!.." Söz verdim ki, səhər tezdən mütləq səni aparacam ora, o aldığım evə.

Biz darvazaya yaxınlaşanda Bəkir elə bil diksinib başını qaldırdı, küçəyə doğru süzmüş enli, geniş balkona baxıb, əli ilə ağzını qapadı; Canbalayev balkonda dayanmışdı. Başı ağ, tüklü dəsmalla çəkili idi. İçəridən balkona düşən gur işıqda mən onun sifətini aydın görürdüm. Gözləri yaşlı, papirosu sümürürdü.

– Evim yıxıldı! Yəqin xalamın halı xarabdı! – Bəkir vahimə ilə xırıldayıb, qolumdan çəkdi və bir göz qırpımında darvazanın açıq dəmir qapısından içəri atıldı.

Mən həyətə keçəndə o, yenə biləyimi qarmaladı.

– Danışdıqlarımı eşidibsə, dərimə saman təpəcək! Arvad babat olsa, düşərəm yanına. Yatma!

Qəfəsdə vurnuxan kimi, otaqda dala-qabağa getməkdən yoruldum. Bütün olub-keçənlərdən sonra beynimdə yenə ağırlıq hiss edirdim. Gözlərimin qabağında gah Bəkirin qayır-qayır qaynayan gözləri, çax-çax kimi aramsız işləyən çənəsi, gah da Canbalayevin əmmamətək ağaran iri, dəsmallı başı oynayırdı; Bəkir öz güclü, təqlinedici səsi ilə ara vermədən nə isə sirli xəbərlər söyləyirdi, Canbalayev ağır, tüklü əlini zabitə ilə silkələyib əmr edirdi, tüstülü, isti nəfəsi elə bil pəncərədən keçib boyun-başımı, üzümü bürüyürdü. Bəkirin pillələri tarappatarap döyən ayaqları pəncərəmin arxasında bir an dayanır, mənim "burulğana düşmüşəm, boğuluram" dediyimi eşitsə də, yenə "gözlə, gözlə!" – deyib, həyətdən sola cumub, darvazadan küçəyə güllə kimi atılıb, alaqaranlıq küçədə yüyürürdü.

Onun hələ də beynimdən çıxmayan uzun-uzadı nitqi heç xoşuma gəlmirdi, yenə də dumanlı bir şübhə ürəyimi çırpındırırdı. Bəkirin özünü itirib papirosun qorunu üst-başına dağıtması, sonra birdən-birə açılışıb hər şeydən danışmağı yaxşı əlamət deyildi: o, yenə də məndən nə isə gizlədirdi. Özü də çox ustalıqla gizlədirdi. Canbalayevlər ona nə isə, Nalənin taleyi ilə əlaqədar ciddi tapşırıq vermişdilər, mən buna şübhə etmirdim.

Gözlənilməz bir qərara gəldim: bu dəqiqə yuxarıya, onların yanına qalxmaq! Heç bir ədəb-ərkan gözləmədən, lap həyasızcasına, birbaşa Canbalayevin üstünə yeriyib, heç bir şey xəbər almadan, heç bir izahat vermədən xəbərdarlıq etmək! Nə barədə, necə xəbərdarlıq?.. Belə gərgin, əsəbi halımda, belə qaynayıb dumanlanan beyinlə, əlbəttə, orda nə deyəcəyimi aydın bilmirdim. Əmma qərarım qəti idi. Və bunu da hiss edirdim ki, nə qədər qaynayıb-coşsam da hamısı içəridə qalacaqdı, çünki qərarımın tələb etdiyi kobudluğa qabil deyildim; mən bu stolun arxasında "hücrə" pəhləvanı idim, fikir-xəyal adamı idim.

Elə coşa-coşa gözlədim.

Nəhayət, yuxarıda qapı açılıb-örtüldü.

Bəkir pilləkənin ikisini-üçünü birdən ötürə-ötürə endi, boğanaqtək burulub, özünü içəri salıb, başını qoşaəlli tutub yırğalandı:

– Dəhşət, Rəşid, dəhşət! Arvad partlayır, ölür. Kişi əməlli-başlı dəli olub. Bu dəqiqə Vahidgilin yanına getməliyəm. Gəl gedək! Mənə şübhəylə baxma! Gəl! Gedək!

Beş dəqiqə sonra taksidə oturmuşduq.

Tutqun payız gecəsində, sarı təsbeh dənələri kimi düzülüb gedən işıq cərgələrinə, uzun yola baxırdım. Üzüntülü intizarla ürəyim sıxılıb açılırdı: "Doğrudanmı, Naləni görməyə gedirəm?!

## 3. "TAPDIN?" "TAPMADIM!"

Sovet küçəsindən keçib dikinə, sərt yoxuşa qalxdığımız yerdə "sarımtıl təsbehlər" qurtardı, maşının işığında torpağa qısılmış kimi görünən, qır damlı, qədim, yastı-yappa evlər, hamısı qapalı, boz taxta darvazalar, sonra isə darvazasız-filansız, qumlu, çala-çuxurlu həyətlər ətrafında xarabalığa oxşayan uçuq-sökük divarlar, xırda-xırda, tozlu-torpaqlı aynəbəndlər gördüm. Elə həyətlərdən birinin

çala-çuxurlarında atılıb düşdük, dayanıb maşından düşdük. Bəkir həyətdə taqqaturuq fırlanıb geri dönən maşının işığında mənim üzümə baxıb, gülüb bir beyt şeir mızıldadı:

Qurbanı olduğum uca dağların
Səfalı qoynundan uzaqlaşmışam.
Ürək bulandıran, könül küsdürən
Tozlu bir diyarla qucaqlaşmışam.[1]

– Qanın qaralmasın, buranı cəmisi bir aylığa kirələmişəm. On beş minə aldığım mənzil mənimkiylə qapı-qapıyadı, – dedi.

"Fara"ların gur işığı gözlərimi qamaşdırıb gedəndən sonra toz-torpaqlı aynabəndlərdən birinin dalında neft lampası gördüm.

Həyətin tən ortasında, budaqları yanlara süzmüş qoca bir tut ağacı vardı. Belə gərgin intizarlı vaxtımda mən bəlkə heç o boyda ağacı da görməzdim. Əmma bayaq maşının işığı həyəti dolananda o ağacın altındakı skamyadan dik atılan bir oğlan gördüm. Vahid?!

O dəqiqə də bildim ki, bəli, Vahiddir. Gözləri eynilə Nalənin gözləri kimi "nəlbəki", sifəti Göhər xanımın ağ, zərif sifəti, boy-buxunu eynilə Qara Canbalayev kimi iri sümüklü, hündür. Əlbəttə, Vahiddi. "Bu gözlər o gözləri görüb, vurulub". "Yamyaşıl, nəlbəki gözlər!.." Maşının işığı fırlananda gözlərin yaşıllığı itdi. Əmma tənha oturub elə bil kimi isə gözləyən oğlanın skamyadan dik atılması da deyirdi ki, bəli, Vahiddi... Tut ağacının o tərəfində, elə bil aynabənddən içəri təpilmək istəyən budaqların dumandan nəmlənib işıldayan yarpaqları arasında neft lampası yanırdı. O solğun işıqda Vahidə bir də baxdım. Bəkirlə söhbətdən sonra məndə belə qənaət əmələ gəlmişdi ki, Vahid bolluca var-dövlət içində yeyib-içib səmrimiş, sağa-sola pul səpən, əhlikef bir cavan olmalıdır. Doğrudur, Nalənin elə bir adama ərə getdiyini heç cür ağlıma sığışdırma bilmirdim, məntiq mənə deyirdi ki, Nalənin əri sənin təsəvvür elədiyin kimi olmamalıdır. Əmma Göhər xanımın saysız-hesabsız büllurlarının parıltılarını yada saldıqca, əvvəlki qənaətimə qayıdırdım. İndi isə hər şey tərsinə oldu.

Bəkir qoluma toxunub, astadan dedi:

---

[1] S.Vurğundan

– Gör indi necə biləcək ki Rəşidsən. Özüyün də xəbərin yoxdu necə oxşayırsan Naləyə. Taleyə bax ki, bu Canbalayev özü də sizin kopyanızdı! Qohumluğunuz çatır, nədi?!

Canbalayevin gur, hökmlü səsindən yalnız bir az yumşaqlığı ilə fərqlənən səs eşitdim:

– Rəşid?!

– Hə, – dedim, – Rəşidəm. Sən də, şübhəsiz, Vahid Canbalayevsən!

Heyrətli bir yaxınlıq bizi o dəqiqə bir-birimizə bağladı.

– Xoş gəldin, qardaşım! – deyib hərarətlə əlimi sıxdı. Həmin bu anda da Nalə yəqin ki, eşikdəki səs-küyü eşitdi.

Biz içəri keçəndə bir cüt dolu damlanın ardınça "göz yaşı selə döndü". Bu sözləri mənim barəmdə də demək olar. Hiss etdim ki, Vahid də ağlayırdı, hətta Bəkir də yaylığını gözlərinə sürtürdü.

– Bah, bah, bah! Sarsıntılar içində insan xoşbəxtliyinə bax, ilahi! – deyirdi. – Nələr yaradırsan, xaliq, sən nələr! Duyub-düşündükcə donur bədənim![1] – deyirdi. – Bu da sənin qardaşın, Nalə bacım! Ah-naləni unut daha! – deyirdi.

Nalə, Vahid, mən isə bir kəlmə də deyə bilmirdik.

Qolları boynuma dolandı, həm soyuq, həm də isti üzünü üzümə söykəyib hönkürdü.

– Necə... necə də uzanıbsan, ay çinar boylum! Qurbanın olum! O qırx beş, bu altmış, düz on beş il keçib ayrıldığımızdan. Sifətin eləcə qalıb, sifətinə qurban olum!..

Nələr dedi, nə qədər hönkürdü! Mən özüm nələr dedim, nə qədər hönkürdüm! Bəkir düz deyirdi: "Sarsıntılar içində insan xoşbəxtliyi"ni sözlə ifadə etmək mümkün deyildi. Əmma elə Bəkir özü bu doğma əmiqızı-əmioğlu, qardaş-bacı xoşbəxtliyini lap adicə sözlərlə bircə anda şüşə kimi sındırdı:

– Yaxşı, mən getdim yeznəmi, xalamı gətirim, xeyir-dualarını versinlər elə bu gecə. Çünki çox haqlı olaraq dözəmmirlər bu cür evlənməyə! Gəlsinlər, görsünlər necə dünya gözəli gəlinləri var və necə xoşbəxtlik gətirib özüylə Canbalayevlər ailəsinə!

Demə, bizi gətirən taksini buraxmayıbmış; taksist şüşəni döydü.

---

[1] S.Vurğundan

– Benzin tökdüm, ağzıma çörək də aldım. Lap sabaha qədər qulluğunuzda hazıram!

Bəkir:

– Afərin sənə! – deyib, məncə,Vahidin etirazını eşitməmək üçün həyətə atıldı. Qəfil, gərgin sükut içində motorun nəriltisi, torpağa sürtülən təkərlərin qıjıltısı eşidildi. Sonra yenə sükut çökdü.

Vahidin ağ üzünə, geniş alnına sıxıntısını bildirən tər çıxmışdı.

– Heç yaxşı olmadı, – dedi. – İndi bildim bizi niyə bu səhrayi-kəbirə gətirdi. Şübhəsiz, səs-küy olacaq, Nalə. Bəlkə qardaşımızı yola salım, eşitməsin ata-anamın səs-küyünü?

Nalə asta-asta başını buladı, döşlərinin kənarlarından sallanan sarı, parıltılı hörüklərini dala atıb, boğucu sükutu da dağıtdı:

– Sən, Vahid, çox yaxşı bilirsən ki, bizim xoşbəxtliyimizdən ötrü bədbəxtliyimizi ayaqlayıb keçməliyik. Rəşid də iştirak eləməlidi bu söhbətdə.

Vahid yenə başını buladı.

– Söhbət yox... mübarizə olacaq. Özü iştirak eləmək istəyirsə, əlbəttə, qalmağı yaxşıdı.

Dedim:

– Qalıram.... Məni dünəndən qoşublar bu işə.

İkisi də birdən:

– Bilirik, – dedi.

Sonra bir neçə dəqiqə elə bil məni tamam unudub, qayğılı, gərgin fikrə qapıldılar.

Aynəbəndin yuxarıbaşında, açıq nəfəsliyin altında, “farsunka” adlanan xırda neft “maşınka”sının üstündə çaydan buğlanirdı. Döşəmədə qırmızı kərpic parçasının üstündə dəm çayniki ağarırdı. Bir az sağda, ensiz yazı stolunun üstündə isə qırx beşinci ilin yayında Çürüyün əlində və Nalənin sinəsində gördüyüm, şirmayısız, qarapalıd cürə qaralırdı. Nalə başını qaldırıb mənim baxdığım səmtə baxanda birdən sifəti canlandı, gözlərində donmuş kədər yox oldu.

– Çay! – dedi və hələ də ayaq üstə dayandığımızı indicə görmüş kimi, çəhrayı örtüklü yemək stolunun dövrəsində sıx düzülmüş stulları o yan-bu yana çəkib, aralayıb, arxasında həyəcan gizlənən təbəssümlə, hər ikimizin çiyinlərimizdən basıb oturdub, təkrar etdi: – Çay!

Cürənin arxa tərəfindən üç armudu stəkan-nəlbəki, qənd qabında qənd, mürəbbə qabında moruq mürəbbəsi gətirdi. İki dəqiqə

də çəkmədi ki, qara, gül-çiçək naxışlı, taxta “podnos”da şəkərçörək, şəkərbura, şokalad konfetləri gətirib, çayları düzüb, özü də oturdu. Mən cürəyə baxa-baxa həmin qırx beşinci ildə, Çürüyün Nalə ilə mənə dönə-dönə dediyi tövsiyəsini xatırlayırdım: “Çalanda da, oxuyanda da məclisi yaddan çıxardıb, yalnız və yalnız öz bətninizə baxmalısınız, övladlarım: müqəddimədən – “Divani”dən sonra nə çalmaq istəyir ürəyiniz, kimin hansı sözlərini oxumaq istəyir ürəyiniz. Bu tövsiyəmi unutmasanız ƏsAğ qüdrətli Aşıq olarsınız. Yox, əgər gözləriniz məclisdə, fikriniz yüngülməcaz lotu-potunun cibində olsa, beşmanatlıq çayxana aşıqlarından o yana getməzsiniz, övladlarım!” – Bir kəlməsini də unutmamışdım. Ürəkdən ürəyə yol açıldı, Nalə çayını içə-içə:

– Saz! – dedi. – Belə vaxtlarda ancaq saz! – Ayağa qalxıb, yenə döşlərinin kənarlarına gəlmiş hörüklərini dala atıb, zərif, vərdişli yüngül hərəkətlərlə qaytanı sağ çiyninə keçirib, cürəni sola itələyib, təzənəni simlərə toxudurub, yenə gülümsündü.

– Od OdBağı “Gidi bəyə”, “Gədəbəyə” döndərilən oğlanı saznan, söznən saxlayıram. Yuxusu ərşə çəkiləndə, bu ərköyün Göhər xanım körpəsinə saznan layla çalıram, – dedi. Sonra asta-ağır “Divani” çalmağa başlayıb, başını endirib, doğrudan da “bətn”inə – içərisinə baxa-baxa, elə bil iki nəfərin yox, böyük bir məclis qarşısında, “batin”lərdən söhbət açdı:

– Yurd-yuvamızdan tərik düşüb, pərən-pərən dağılsaq da, biz OdƏrlər bir-birimizlə əlaqələrimizi itirmirik. Məndən dərs alanlar öz məkanlarında başqalarına dərs deyirlər. Odur ki, ƏsAğ – Aşıqlarımız heç də azalmayıb, qardaşım! Bu məşəqqətli günlərdən Eylərimizin[1] qayıdacaqları günlərə Kainat Elminin Yer üzündə açıq Elm olacağı günlərə gedirik, qardaşım!.. “Sağ” – “Əsağ” ƏsƏrin işıq üzü görməyəcək, ey cəfakeşim! Nə mənim qayınatam Qara Canbalayev imkan verər buna, nə Bəkir, nə də Pünhan Təbibimiz özü. Burda – Bakıda bir AdıPünhanımız deyib bunu sənə, sən nə o vaxt əməl eləyibsən onun dediyinə, nə də sonralar. Sənin öz ehtiyatsızlığına görə dilə-dişə düşübsən. Pünhan qohumumuzun iş yoldaşı “folklorçu professor” dediyimiz, adını çəkmədiyimiz marksist alimin əməli üzündən mən də dilə-dişə düşmüşəm. Nə

[1] Ucalar, əbədiyyətə gedənlər, Bağlar

yazmalısan yaz, əmma batin yaz, qardaşım. Gizlin ƏsƏl, aşkar “Sol” təxəllüsü ilə ƏsƏrlər (Yaradan İşıqlar) yazan bir Pünhanımız ƏsƏrlərimizi yığır, gizlin məkanda çap etdirib Ağlarımız arasında yayır. Bir şərti var bu işin. Hər bir Pünhanımız öz həyatını, başına gətirilən müsibətləri qeydə alıb “Sol”a verməlidir, “Sol” – ƏsƏl o üsibətlərin haralardan, necə törədiyini yazıb, lap yaxın gələcəkdə çap etdirməlidir. Diqqət yetir, bir zamanlar öz nənəsitək ümidsiz olan, naləli bacın nə deyir yaxın gələcəkdə! Sənin vur-tut iyirmi beş yaşın var. O tayın, Türkiyənin, Bu Od OdBağ – “Gidi bəy” torpağının, Şirnək meşəsinin, Qazax qəzasının Göyçə, Borçalı[1] mahallarının saz, söz ruhlu oğlu inanır mənə. Sən də inan, qardaşım. Əmma... Əmma hələlik qəm içindəyik. Dilqəmi – OdƏl qəmi, “AzƏr” – OdƏr qəmi, anadilli Anadil qəmi hamımızın qəmimizdi. Bu gecə yenə də bir başqa cür qəm dəryasına düşəcəyik. Pünhan ƏsƏl – “Sol” əzizimizin bir gəraylısını oxuyuram sizə, əzizlərim! O çox küskün oğlandı.

Dünyaya “Ninnini” deyir. Ninnini” – mənasız!...

“Divani” bir az da ağırlaşdı, köhnə bir lent yazısında Həbibulla müəllimin evində eşitdiyim nalə yenidən titrədi:

Dərgahın açarı məndə,
Qapısını görən varmı?
Bu dünyada hamı xəstə,
Dərmanını bilən varmı?

“Dərman”ın adı “dər mən”i,
Dərməni dərdi Erməmi,
Yedi, uddu OdƏrMəni,
Fəqət Odu olan varmı?!

Ağlarım göylər karvanı,
Bu karvanda sarvan hanı?!
Məni səndə, səndə Onu,
Onu məndə görən varmı?!

---

[1] Məkrli düşmən dili ilə, Var – (Var-dövlət) calı (dağı) əvəzinə (“bor”-çalı – canavar dağı) “Borçalı” deyilib. Yovşanlı Ağotlu dağ “çal” (mavi) adlanır.

İkinci bir Pünhanımız "İdeal" ƏsƏri aşkar olanda "Muğanna" təxəllüsünün mənası aşkar olacaq, əzizlərim. Bu Pünhan və Muğannanı deməkdə məqsədim var. Bu yalanlar, iftiralar dünyasında biz Pünhanlarla birlikdə, zalımlar, iftiraçılar özləri də bədbəxt pünhanlardı. Bayaq mən sizə dedim: "bədbəxtliyimizi ayaqlayıb keçməliyik". Bu kəlmələri eşidəndə Vahidin qaşları çatıldı, rəngi-ruhu dəyişdi. Güman elədi ki, mən sizi qaynatamnan qaynanamı ayaqlamağa çağırıram. Halbuki, cəmi bəşərin bədbəxtlik dünyasında bir-birimizi ayaqlamaqnan biz özümüz-özümüzü daha da bədbəxtləşdiririk, əzizlərim. Ustad Füzulinin kəlamıdı: Qəmi şadlığa dəyişmərəm. Qəmimiz əbədi dünyadan ayrılığımızın qəmidi. Bu dünyada xoşbəxtliyimiz əbədi ola bilməz. Ata-analarımızın, cəmi yaxınlarımızın, uzaqlarımızın bədbəxtliyi hesabına şadlıq mümkün deyil, əzizlərim. Dünənki şadlığımız bugünki qəmimizdi, bugünki şadlığımız sabahkı qəmimizdi bu zalımlar dünyasında. Anadil qəmi Ün OdƏl həqiqətlərindən ayrılan tərik – türk qəmidi, əzizlərim, bizi bədbəxt eləyən. "Təriklər"imizi tapdalayıb keçməknən, yəni onları da düşmən pəncəsində bədbəxt etməknən, içərimizə kin, ədavət doldurmaqnan biz özümüzü ayaqlamış oluruq, əzizlərim! Bətnimizdə kin yükü bizi çürüdür.

Nalə köksünü ötürüb, əlinin arxası ilə yanaqlarını silib "Təcnis"ə keçdi.

Adicə bir həqiqətdir – ruh təzə məskənə düşər;
Təzəsində əbədidir, köhnəsinə enə bilməz.

Fəqət "Yer" adlanan yurdum məzarıstana dönsə də,
Heç bir əbədiyyət onu heç cür əvəz edə bilməz.

Ey Muğanna, tərik düşmə, qayıt baba məkanına,
Çünki yurdsuz Bağım bir də elə dönə bilməz!

Çaxmaqdaşlı qığılcımlı yollar, yastanada babam evi, danışan qayalar, boxça çiçəyi, nələr, nələr görürdüm, buna görə də nə Qara Canbalayevin "Sovmin" – Nazirlər Soveti qarajında saxlanılan qara "limuzin"inin həyətə dolan işığını görürdüm, nə də maşından düşüb əlləri belində Bəkirin köməyi ilə yeriyən Göhər xanımı. Yalnız Nalənin əlləri cürədən ayrılıb düşəndə və gözləri aynabən-

din qapısına dikilib qalanda, Vahidlə birlikdə mən də oraya baxıb, istər-istəməz ayağa qalxdıq.

Göhər xanım qolunu Bəkirin qolundan ayırıb, əlini irəlidə o yan-bu yana yellədi.

– Pəh-pəəh! "Əlində sazın qurbanı! İşvəli nazın qurbanı!" Qara Canbalayevin gəlininə baxın, ay camaat!.. Neçəsini birdən bədbəxt eləmisən, a bədbəxt! Bu əmioğlunu da ovcumuzun içi təki tanıyırıq biz, Antisovetdi! Əvvəl-axır yeri qazamatdı! O... qəzəlini oxuduğun "Pünhan"ınızı da tanıyırıq! Təbib Həqqinizi də əlimizin içi təki tanıyırıq! Sürgün nədi?! Qazamat nədi?! Sibirdə çürüyəcəksiniz hamınız, a bədbəxt! Bəs mənim balamı niyə bədbəxt eləyirsən, a bədbəxt?! Onun altına sərilmisan, onu özün bilərsən! Get kimin altına sərilirsən, səril, ona da qarışammarıq biz, a qəhbə! O qarnındakını da elə qoymarıq, a qəhbə!..

Vahidin dəhşətli, çılğın qışqırtısı hətta aynabəndi cingildətdi:

– Anaaa! Anaa! Sən neynirsən, anaa!..

Göhər xanım özünü nə qədər zabitəli tutsa da, sifətini soyuq tər basmışdı. Oğlu titrəyə-titrəyə anasının əl-qoluna sarmaşanda isə, ananın rəngi ölü rənginə döndü, hətta göz qapaqları da endi. Seyrək, uzun kirpikləri arasından yaş süzüldü.

– Öp, öp, bala!.. Anasının ciyərinə dağ çəkən bala! Çoxlu-çoxlu öp, məlhəm qoy yarama! Ağa nəvəsi, bəy qızı Göhər müəliimənin dilindən çıxan küçə sözlərini eşitdinmi, ay ana cəlladı?!

Vahid başdan-ayağa titrəyirdi.

– Ana, bağışla, qurbanın olum, bağışla! Qəbul elə bizi!..

– Necə bağışlayım, ay oğul?! Ata-anayın ümidini puça çıxardan oğul! Dağlarda ayırımlar içində, kolxozda qara damda yatan çöllünün birisinə uyduğunu necə bağışlayım?

– Ana!.. – Vahid yenə qışqırıb geri atıldı, gözləri həlqələndi. – Sən nə danışırsan?! Sənin gəlinindi Nalə! Ustad aşıqdı! Bilik kanıdı! Muğanda məktəbdə dərs deyib, saz, söz öyrədib, ansambl yaradıb. Mənim barəmdə də yalan deyib sizə o qəddar Tatata! Atmamışam aspiranturanı! Dissertasiyam oxunur, əllərdədi. Müdafiəyə gedəcəm! Mən heç! O mələkdi, ana! Yalvarıram sözlərini geri götür!

– Nə?! – Göhər xanımın nazik hissiyatlı dodaqları əsdi. – Çöllülər içində yatanın ayrı adı da var?!

Göhər xanımda sonra birdən-birə dəyişən gözlər gördüm – sakit, ciddi:

– Oğul! Nalə deyil bunun adı, Qəhbədi!
Vahid əllərini üzünə şappıldatdı.
– Ana! Bir də o sözü dilinə gətirsən, mən özümü öldürrəm! Nalə! Nalə, niyə dillənmirsən?!
Nalə cürəni stolun üstünə qoyub, hörüklərini yenə arxaya atıb, heyrətli dərəcədə mülayim baxdı.
– Məni təhqir eləməkdə haqlısan, müəllimə, mən siznən tanış olmadan razılıq vermişəm oğlunuza. Vahid özü deyir, o Tatata adlanan adam Vahidin üzüyünü gəzdirir cibində, əcayib əsasnan məhkəməyə vermək istəyir bizi... Ləyaqətli oğul anasısınız siz. Bədbəxt eləməyin onu, müəllimə. Yalvarıram, özünüzü ələ alın...
– Dilə, diyərçəyə baxın mənim gözəl gəlinimdə, ay camaat! Neçəsini sehrləmisən sən bu sifətnən, belə təcrübəli qəhbə kəlamlarıynan?!
Vahidin yumruqları düyünlənib öz başını döyəclədi.
– Ana! Oğulsuz qalacaqsan! İnan! Oğlusuz qalacaqsan!
Göhər xanım burda üçüncü dəfə dəyişdi; təmkinlə, qürurla, ağır-ağır irəli yeriyib, əlini Nalənin hörüyünə uzatdı. Əmma Vahid atılıb özünü ikisinin arasına saldı.
– Ana, dayan!
– Belə dur!..
– İncimə, ana, qoymaram toxunasan!.
Göhər xanım köksünü ötürdü.
– Mən buna tamaşa eləməyə gəlməmişəm, nankor balam! Belə dur! – Qəfildən üzünü bozardıb, oğlunu çiyni ilə kənara basıb, yenə əlini hörüyə atdı.
Nalə tamam sakit dayanmışdı. Gözləri Göhər xanımın üzünə sancıldı.
– Bizi yox, öz hərəkətiniznən özünüzü bədbəxt eləyirsiniz, Göhər xanım! Sakit olun, əyləşin, çay için, dincəlin, xahiş eləyirəm!
Nalə nə qədər yalvardısa, Göhər xanım bir o qədər zabitələşdi:
– Necə ki, birçəklərini yolub Bakının küləyinə sovurmamışam, şələ-şüləni yığışdır, rədd ol! Mənim oğlumun ağlı samana dönüb göyə sovrulub, ata-anasının ağlını yel aparmayıb hələ... – Oğlunu bir daha itələyib, haçalanan boğuq səslə qışqırdı: – Siyasətbazlar qancığı! Sovet düşməni! Türmədi sənin yerin! Mən çörəyimi itə-pişiyə tökərəm, sənə yedirtmərəm. Gərək Göhər xanımın səsi qara

torpağın altndan gəlsin ki, Qara Canbalayevin qapısından ikicanlı gəlin girsin! Eşidirsənmi?! Qara Canbalayevin oğlundan sənə ər olmuyacaq! Mən sənin üstünə ayağımın tozunu da silmərəm, evimdə qulluqçuluq, qaravaşlıq da verməπrəm. Canbalayevə arxalanıb antisovetlərinizi qorumaqdan ötrü soxulmayıbsanmı sən bu ailəyə, a qancıq?!

– Ana! Bəsdi! Bəsdi!.. – Vahid kim bilir neçənci dəfə anasının qolundan çəkdi. Əmma Göhər xanım indi tamam təngnəfəs olub qantərə batsa da, qəzəbdən xırıldasa da sözə ara vermirdi. Əgər, nəhayət, ürəyindən yapışmasaydı, kim bilir, bu həngamə nə ilə qurtaracaqdı.

Bəkir arvadın halının xarab olduğunu görən kimi yüyürüb, yenə qoluna girib apardı.

Mənə elə gəldi ki, Göhər xanım belə asanlıqla çıxıb getməyəcək, indicə qayıdacaq və burda hər şey yenidən başlanacaq. Mən heç bir-iki kəlmə ilə də bu faciəyə qarışa bilmədiyimə görə, həmişəki kimi ancaq daxilən qaynayırdım: "Aciz! Qorxaq! Rəzil!" – deyə-deyə, eyni zamanda Nalənin ağlı, təmkini ilə, Vahidin vurğunluğu, iradəsi, dəyanəti ilə fəxr edə-edə, yəqin ki, Göhər xanımın vəziyyətindən intizarlığıma görə həyətə çıxdım və həyətin girəcəyində dayanmış maşına doğru bir addım da ata bilməyib, tut ağacının aynabəndə dirənmiş sıx budaqları altında elə bil divara dəyib sarsıldım.

Canbalayev alaqaranlıqda dayanıb içəri baxırdı. Mənə tərəf çevriləndə tüstülü, isti nəfəsi ağzıma doldu:

– Bəkir o kafedə nə danışıbsa, sonra sənin özünə nə deyibsə, hamısı mənim sözümdü. Səhər saat doqquzda gözləyirlər səni nəşriyyatda. Müqaviləyə qol çəkib qonorarını alıb qalxarsan dördüncü mərtəbəyə. O binada Qlavlit də, mətbəə də mənim şəxsi nəzarətim altında işləyir. Bil bunu! "Sağ" povestin yığılıb mətbəədə, korrekturası da oxunub verilib o dördüncü mərtəbəyə. Yəni Qlavlitə. Titul səhifəsinə möhür vuracaqlar: "Çapına icazə verilir". Bunu bilmir Bəkir. Demirəm. Çünki ağzının qıfılı yoxdu. Sən də qıfıl vur ağzına, korrekturanı al rəisdən, bədii ədəbiyyat şöbəsində heç kəsə heç nə demədən, düş ikinci mərtəbəyə, mənim adımnan get mətbəə direktorunun kabinatinə, şəxsən özünə ver povesti. Hətta tirajı da məxfi çap olunacaq, respublikanın ucqarlarına satışa göndəriləcək. Fikirləş, gör necə risqə gedirəm, gör nələr verirəm bu kimsəsiz,

işsiz, çörəksiz, arıq-quru gədəciyə! Şəxsən özüm işə götürrəm səni. Mənim yanımda işləyəcəksən. Mənlə Təbibin arasında gedib gələcəksən. Sədaqətlə xidmət eləsən mətbuat sahəsində yaxşı vəzifəyə göndəriləcəksən. Bunun hamısının, yəni bu yetim gədəciyin taleyinin hərtərəfli həllinin əvəzində tək bir iş istəyirəm səndən. Bəkirin adamı var. Xəstəxanada işləyir. Semaşkoda. Əmiqızını apararsan onun yanına, Vahidin anası dedi bayaq: Qara Canbalayevin qapısından ikicanlı gəlin girməməlidi. Canbalayevlər namussuz adamlar kimi tanınmamalıdırlar! Eşitdin?! Başa düşdün?! Qandın?!

Tutun altındakı skamyanın yanından küt guppultu eşitdim, Vahidin nəhəng, düyünlü yumruğunu və Bəkirin skamyadan o yana aşırılıb döşəli qaldığını gördüm. Hiss etdim ki, mənim də özümü göstərməyimin vaxtı çatıb: Canbalayevə nə isə eləməliyəm.

O tapşırığını verib, mənim məhz o cür hərəkət edəcəyimə, Nalənin bətnindəki körpəni öldürəcəyimə şübhə etmədən tut ağacından o yanda maşınının qapısını açıb:

– Getdik! – dedi. Lakin həmin anda mənim əlim də maşının qapısına uzandı və...

Neylədiyimi sizə çatdırmaq üçün indi mən əlli ikinci ilə qayıdıb bir hadisə danışmalıyam.

O vaxt o həyətə, o otağa təzəcə köçmüşdüm. Yəni Bəkirdən başqa, Canbalayevləri hələ o qədər də tanımırdım. İşləyirdim-yazırdım. Oyanıb işləyirdim, az-maz bir şey yeyib yenə yatırdım. Belə həyat!

Bir gecə röyada gördüm mən heç də mən deyiləm, Mirzə Cəliləm[1], möcüzə ilə yenidən həyata qayıtmışam, stolumun arxasında oturub "Nigarançılıq" adlı hekayəmi yazıram.

Diksinib oyandım yuxudan. Bu nə idi?! Nə üçün Mirzə Cəlil?! Niyə məhz "Nigarançılıq?!"

Yuxululuğum keçəndən sonra hər şey aydınlaşdı.

Fikirləşdim ki, axı mərhum ədibimiz kimi, mənim də nigaranlığım var, neçə vaxtdır ürəyimdə gəzdirirəm və hərdən öz-özümə deyirəm: "Mirzə Cəlil lazımdı bunu qələmə alsın". Nəyi? Söhbətim elə bunun üstündədir. Həyatda Mirzə Cəlilə çevrilməyim mümkün

---

[1] Cəlil Məmmədquluzadəni ziyalılar belə adlandırırlar.

olmadığına görə, təbiidir ki, yuxuda olub. Nigarançılığım ağır bürkülü hava kimi otağa dolub məni sıxmağa başladı. Mirzə Cəlil böyük ədib idi. Dini ifşa eləyirdi, millətin nadanlığının dərdini çəkirdi. Fikir eləyirdi ki, görəsən, bu millət ki, mən də ona mənsubam, bu millət əsrlərin yuxusundan nə vaxt ayılacaq, xeyiri şərdən, yaxşını yamandan nə vaxt seçəcək? Mən belə "Böyük ədib" olmasam da, bu qayğı məsələsində nə isə vardı. Əmma birdən-birə röyamı da unutdum, qayğıları da. Nə oldu? Heyrətli bir şey: ədib otağımda, qapı tərəfdə dayanıb mənə baxırdı.

Çarpayının böyrünə yaxınlaşdı, əllərini çəliyinin başında saxlayıb, gözlərindən gülə-gülə, yumşaq, nurani istehza ilə mənə baxırdı.

– Yaz, yaz. Səninki yazmaqdı, – dedi və... yox oldu. Yalnız bundan sonra ürəyim çırpındı, bədənim alışdı. Sonra daha bir an da dayana bilməyib stolumun arxasında oturub əlim titrəyə-titrəyə, nigarançılığımın başladığı günün təfərrüatını yazmağa başladım.

Dəqiq yadımda idi ki, əhvalat axşamın alaqaranlığında, pilləkənin cırıltısından başlandı: adi iş axşamlarından biri idi, oturub "Sağ"ın başlanğıcını yazırdım.

Pəncərəmin arxasında qonşumun taxta pilləkəni cırıldamağa başlayıb fikrimi dağıtdı. Qələmi kağızın yanına qoyub gözlədim ki, indi keçər. Əmma keçmədi. Əksinə, eynilə bu faciəli vaxtımın axşamındakı kimi, cırıltıya kimlərinsə boğuq səsləri, xısın-xısın danışıqları qarışdı.

Əvvəldə yazdığım kimi, qonşumun pilləkənində cırıltılar çox olurdu. Bəyim xaladan eşitdiklərimdən başqa, Bəkirdən də eşitmişdim ki, Qara Canbalayev bir zaman çox yüksək vəzifədə imiş. Elə o zaman da dissertasiya müdafiə edib, birdən-birə filologiya elmləri doktoru adı almışdı. İndi iyirminci əsr Azərbaycan ədəbiyyatından dissertasiyanın məzmunu ilə əlaqəsi olmayan "Qədim dünya ədəbiyyat"ından mühazirə oxuyurdu. Niyə belə? Bəkirin dediyinə görə, bu sahədə professor Əli Sultanlıdan başqa ikinci kadr olmadığına görə "rəhbərlik məsləhət görmüşdü ki, nədənsə, "çox məsuliyyətli dövr" adlandırılan "Antik ədəbiyyatı" götürsün! Əmma Qrek mədəniyyəti haqqında azərbaycanca kitab çox az olduğuna görə, Canbalayev özü hər şeyi ruscadan tərcümə eləyirdi, hərdən də bizi – rusca bilən tələbələri cəlb eləyirdi. Bununla belə,

"qədim dövr" çox çətin sahə idi, yoldaşlarımızın əksəriyyəti pis qiymət alırdı. Mən belə şeylərə o qədər də fikir verən deyildim. Deyirdim: "Yəqin doğrudan da çətin fənndir da. Onçun "pis" yazır Canbalayev: əmma, demə, başqa bir məsələ də varmış.

Bəyim xala deyirdi: "Tısbağasan, çəkilibsən çanağına, dünyadan xəbərin yoxdu". Həm də bunu dönə-dönə deyirdi. Başqa sözlə, sevə-sevə tənqid eləyirdi. Gümanıma görə, əslində bu heç də tənqid yox, təqdir idi, – mənim öz "çanağımda" yaşamağım xalanın xoşuna gəlirdi. Görün iş nə yerdə idi ki, haqqında danışdığım o axşama qədər mən qonşumun evinə gəlib-gedən, yəni pəncərəmin lap qabağından ötən saysız-hesabsız adamların heç bircəsi ilə maraqlanmamışdım. Yadımdadır ki, qonşumun oğlu xaricdə, Ərəb ölkələrinin hansında isə, deyəsən, ƏrAğda – "İraq"da bir illiyə işləməyə getmiş Vahid xaricdən qayıdıb Moskvada aspiranturaya girəndə, onların sevinci ilə maraqlanıb pilləkənə baxmışdım. Öz "çanağımda" oturub, hərdən məni yoluxan, özüm kimi sakit, özüm kimi kasıb, arıq sevgilimlə, kitablarım və yazı stolumla, bir də ki, Xala ilə ünsiyyətimin məni hər cəhətdən təmin edən dünyasına qapılmışdım. Dediyim o uzun-uzadı cırıltılar və cırıltılara qarışan xısın-xısın danışıqlar isə məni pəncərəmin arxası ilə ciddi maraqlanmağa məcbur etdi.

Xalanın "Kasıb malı" adlandırdığı "qribok" – stolüstü lampamın işığı gözlərimə düşüb pilləkəni görməyə qoymurdu. Əlimə başqa bir şey keçmədiyindən, şlyapamı "qribok"un üstünə atıb işığı boğdum və orda – pillələrin üstündə çoxlu ayaq gördüm. Nə qalxır, nə də enirdilər. Dayanıb, elə-belə, yorğun-arqın tərpənişirdilər. Kimdilər bunlar? Axşamdan keçmiş, şəhərin yarısı yuxuda ikən buraya nə üçün yığışmışdılar? Niyə belə girin-girin olub qalmışdılar? Bəlkə qonşumun özünün, ya da xanımının başında bir iş vardı? Fikirləşdim ki, axı nə ola bilər? Ər də, arvad da sağlam adamlardır. Məhz belələri haqqında deyirlər: "Yerişindən yer tərpənir, gülüşündən nər ürpənir". Əmma burası da var ki, insan başından qəza əskik deyil, – dedim və dərhal narahat qalxıb çıxdım.

– Nə olub, ay yoldaşlar? Xeyir ola?

Narazı bir səs dedi:

– Xeyir nədi, şər nədi özümüz bilərik! Sənə nə?

Mən özümə gəlməmiş, ikinci belə bir səs:

– Bizə, deyək, Allah qarğayıb, yıxılıb yatmaq əvəzinə gözümüzə qor doldurub professorun qapısında boyun bükürük, bə sənə nə olub, ay Rəşid, niyə yıxılıb yatmırsan?!

Bıy! Tələbələr?! Mənim yoldaşlarım – "A" qrupundan aspiranturaya girənlər, "ris" alanlar?

Həyət də, pilləkənin üstü də tələbə ilə dolu idi. Aspirantlarla onların, yəqin ki, yaxınları!

Çoxunun əlində ala-bula taxta çamadan. "Kənd çamadanları" dediyimiz yöndəmsiz şeylər. Bu nə deməkdi?

Pəncərəm çırpılıb örtüldü.

O ayaqlar düz bir saat sərasər hər gecə mənim pəncərəmin arxasında tərpənişdi. Düz bir ay sərasər hər gecə pillələr cırıldayıb, məni nə işləyən kimi işləməyə, nə də yatan kimi yatmağa qoydu.

Hərdən Bəkirin şən, oynaq səsi gəlirdi:

– Bunlara bax, Fanatik! Eşq olsun millətin gələcəyinə! APİ[1]-ynən universitet, hər payız beləcə ayaq döyür yeznəmin qapısına! Yenə kəsir hamısını: "Pis!" "Pis!" Kimdi əl çəkən? Çamadanları qoyub qaçırlar, yenə sözləşib yığışırlar! Oxumurlar ey! Yaxşı demisən vaxtilə: "Küt qrup!" Çamadan daşıyırlar, üzləri toyuq üzü! Qiymətləri mənzildəcə yazdırıb, həyasız-həyasız, professorla yeyib-içib gedirlər. Haraya? Necə "haraya"?! Gələcəyə gedirlər! Millətin tərkib hissələri – "mikroinsanlar!"

Yazıq "Tısbağa"! "Yazmasın, neyləsin. Xeyri nədir bu qədər sarsıntının, nigarançılığın?! Çarpayıda, röyada sayaqladığımı nə qədər eşitmişdim: "Hardasan, ey "Ölülər" yazanım?! Kim dirildəcək bu ölüləri?! – Bunları da belə açıq – birbaşa yazdım. Obraz nədir, bədiilik nədir?! Axırda da lap hayqırtılı publisistika: "Evimiz yıxılıb, ocağımız qaralıb, ey böyük Mirzə Cəlil!.."

...Əlim maşının qulpunda, Canbalayevin üzünə nələr çırpırdım:

– Cəllad! Rüşvətxot! Qatil! Sən... sən nə təklif eləyirsən mənə?!

Birdəncə elə bil illərin uzaqlığına, o pilləkənin böyrünə qayıtdım. "A" qrupundan bir neçəsi peyda oldu? Hər tərəfdən yeriyib məni maşından araladılar, divara çırpdılar, dişlərim şaqqıldadı, dilimin ucu kəsildi. Daha bir kəlmə də danışa bilmədim. Paqonlu,

---

[1] Azərbaycan Pedaqoji İnstitutu

paqonsuz yoldaşlarımdan bir neçəsi Naləni sürüyüb maşına basdılar, qalanları faraları söndürülmüş başqa maşınlara doluşdular. Bircə dəqiqə sonra Vahidlə mən həyətdə, böyümüş gözlərlə bir-birimizə baxa-baxa qalmışdıq. Sonra bir-birimizə heç nə demədən, həyətdən çıxıb, səkiləri, küçələri seçmədən üzüaşağı – şəhərin dərinliyinə doğru yüyürdük.

– Taksi! Taksi!.. Saxla! Saxla.. Semaşkoya! Ağır xəstəmiz var! Tez! Tez!

Belə-belə sözlərdən başqa heç nə demirdik.

Semaşko xəstəxanasının ətrafı da yarıqaranlıqdı. Qaramtıl bir darvazanın qabağında maşının dayanmağı ilə yerə atılmağımız bir oldu. Vahid gözətçi qocanın ovcuna pul basıb məni dalınca çəkdi. Hər iki tərəfində ağ şəridi olan dar asfalt yalla bir xeyli gedib sola buruldduq. İçəridə qapılar taybatay açıq idi. İçəridə dümağ əhəngli divarlar arasında gur işıqlar yanırdı. Sağdan-soldan üstümüzə yeriyən qaraltıları – “A” qrupunun qaradinməzlərini kənara itələyə-itələyə o ağ dəhlizə çumduq. Sonra başqa bir ağ dəhlizdə, bir cüt ağ pərdə arasında rusca “reanimasiya” sözünü oxuduq. Vahidə istiqamət verən, Nalənin məhz o yazılı qapının dalında olduğunu deyən kim idi? “Kürd”?! Deyəsən, o idi. Hardan peyda oldu? Mənim beynim qıjıldayırdı. Gözlərim torlanmışdı. Yadımda qalan budur ki, Nalə cərrah təxtinin üstündə, dümağ mələfə üstündə yarıçılpaq uzadılmışdı. Qıçları, əlləri, qolları sarı, enli qayışlarla bağlanmışdı. Qoldan zorba bir oğlan Nalənin ağzının üstünə nə isə basmışdı. Vahidin əlində bıçaq, hardan peyda oldu? Həkimləri, “sestra”ları, o zorba oğlanı o yan-bu yana necə fırlatdı, qayışları necə kəsdi? Bunlar hamısı elə bil bir göz qırpımında baş verdi... Canbalayev, Göhər xanım, Bəkir harda idilər? Bu fırtınavari hadisədə iştirak edirdilərmi? Nə isə bir söz deyirdilərmi? Bilmirəm. Hər şey röya kimi idi: Nalə!.. Nalə!.. Nalə keçinmişdi... Özü yoxdu, səsi qulaqlarımda idi. Daha doğrusu, onun səsi ilə mənim öz səsim: “Tapdınmı?” “Tapmadım!..” “Tapdınmı?” “Tapmadım!..”

Beləcə tapışıb, beləcə də ayrıldıq.

İllər keçir, hələ də qərib-qərib ötürük: “Tapdınmı?” “Tapmadım!..” “Tapdınmı?” “Tapmadım!..”

# KİTABDAKILAR

Qəbiristan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .7

GurÜn . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .154

Cəhənnəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .235

İsahəq, Musahəq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .372

| | |
|---|---|
| Buraxılışa məsul | ***Vaqif Bəhmənli*** |
| Tərtib edəni | ***Firuzə Muğanna*** |
| Redaktor | ***Umud Rəhimoğlu*** |
| Nəşriyyat redaktoru | ***Rəhilə Gülgün*** |
| Texniki redaktor | ***Mübariz Piri*** |
| Kompüter səhifələyicisi | ***Turab Məhərrəmli*** |
| Dizayner | ***Samir Məmmədli*** |
| Kompüter operatorları | ***Maral Rəisqızı***<br>***Tərgül Sahibqızı*** |
| Korrektor | ***Sevinc Muğanna*** |

"Avrasiya press" nəşriyyatı
Bakı, Mehdi Hüseyn küçəsi 1[a]
Tel: (994 12) 439 76 97